# Quranda İmamət

## Quranın tematik təfsiri (3)

*Höccətül-İslam Vəl-Muslimin*
*Məhəmməd Baqir Saivər*

**Tbilisi 2022**

# Quranda İmamət

## Quranın tematik təfsiri (3)

**Müəllif:**
**Höccətül-İslam Vəl-Muslimin**
**Məhəmməd Baqir Saivər**

**Redaktor və tərtib edən:**
**PhD. Əfzələddin Rəhimov**
**(Fəlsəfə elmlər doktoru)**

**Toplayan:**
**Əli Cəfərli**

**Korrektor:**
**Elşən Əlizadə**

**Dizayner:**
**Elvin Bayramov**

## Ön söz

Dəyərli alim Höccətül-islam Məhəmməd Baqir Saivərin sizə təqdim etdiyimiz növbəti əsərində, Qurani-Kərimdə imamət etiqadı haqda geniş və dərin araşdırma aparılmışdır. İslam dünyasında ən önəmli və əsaslı məsələlərdən olan imamət inancı daim bütün məzhəblər tərəfindən diqqətlə izlənmiş və müxtəlif şərh və izahlarla tədqiq olunmuşdur. Amma hazırkı kitabın eyni mövzulu əsərlərdən fərqi budur ki, imamət məsələsi Qurani-Kərim və hədislər baxımından araşdırılmasından əlavə, tarixi aspektən də tədqiq edilir və sosioloji amillər nəzərdən qaçmır. İmamət məsələsinə münasibətdə fərdin inancının psixoloji analizi ilə birgə bu məsələyə baxış tərzində onun üzərində təzyiq yaradan sosial mühəndislik, yönləndirmə funksiyalarının hansı dərəcədə təsirli olması izah edilir.

İmaməti peyğəmbərliyin davamı olaraq ortaya qoyan bu əsərdə, onların Allah-taalanın hidayət planına uyğun olaraq paralel şəkildə fəaliyyətini gözəl şəkildə bəyan edir. İslam dininin bir bütün olaraq peyğəmbərlik, imamət və ilahi övliyaların rəhbərliyi ilə cəmiyyətin sağlam düşüncə, duyğu və əməllərlə bu planın icrasına köməyini təsvir edir. Bu bütünün imaməti kənara qoyaraq kamillikdən uzaq düşəcəyini əsaslandıraraq, Əhli-Beytin (ə) ünvanını şəffaf şəkildə aydınlaşdırmaqla, imamət məqamının kimlərə məxsus olmasını isbat edir.

Ümumiyyətlə, islam dininin yaranma fəlsəfəsinin özəyində, davamiyyətində və öz hədəfinə kamil şəkildə çatmasında imamət etiqadının rolu ətraflı şəkildə və əqli-nəqli arqumentlərə dayanaraq axıcı formada təqdim edilmişdir.

## Birinci dərs

### Qurani-Kərimdə imamət

Qurani-Kərimdə imamət məsələsi iki yöndə ortaya qoyulur:

1. İmamlıq nə deməkdir?
2. İmamlar kimlərdir?

Biz hələlik imamların kim olduğu haqqında danışmırıq. Burada ilk olaraq bir neçə suala nəzər salmaq daha məqsədə uyğundur. İmamlıq nə deməkdir? Bəs peyğəmbərlik nə deməkdir? Kimlər peyğəmbərdir? Aradakı fərqlər nədir?

### Ümumi və xüsusi imamlıq

Əvvəlcə qeyd edək ki, iki növ imamlıq vardır: Ümumi imamlıq və xüsusi imamlıq. Ümumi imamlıq; yəni hər bir zamanda insanlar arasında Allah-təala tərəfindən mütləq bir imam və rəhbərin təyin edilməsidir; bu, istər peyğəmbərlik, istərsə də yalnız imamət məqamına malik olan şəxsə aiddir.

Xüsusi imamlıq isə bir ilahi rəhbərlik məqamı olaraq İslam peyğəmbərindən sonra onun canişininə aiddir.

Ümumi imamlıq bölümündə, bir şəxs imam seçildikdə hansı məqama çatması, hansı səviyyəyə və dərəcəyə malik olmasından danışılır. Kimin o məqama sahib olmasından söhbət açılır. Biz hələlik bu mövzuya toxunmuruq.

Qurani-Kərimdə buyurulur:

وَإِذِ ابْتَلَى إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا قَالَ وَمِنْ ذُرِّيَّتِي قَالَ لَا يَنَالُ عَهْدِي الظَّالِمِينَ

“Xatırla o zamanı ki, İbrahimi öz Rəbbi[1] kəlmələrlə (müxtəlif vasitələrlə) imtahana çəkdi və o, imtahanları tamamladı (onların öhdəsindən layiqincə gəldi). Bu zaman Allah ona buyurdu: “Səni insanlara imam təyin etdim!” İbrahim “nəslimdən necə” (onları da

1 - Rəb ərəb dilində - insanın həm sahibidir, həm də onu idarə edir.

imam qərar verəcəksənmi) - soruşduqda Allah buyurdu: "Mənim əhdim (imamlıq məqamı) heç vaxt zalımlara çatmaz! (Və bu məqama yalnız sənin pak və məsum övladların layiqdir!)"[1]

Doğrudur ki, bu ayədə Həzrət İbrahimin (ə) imamlıq məqamına çatması buyurulur, lakin indi o mövzuya toxunmuruq. İzah etmək istədiyimiz məsələ budur ki, Həzrət İbrahim (ə) bir peyğəmbər idi O, imamlıq məqamına layiq görüldükdə nə dəyişdi, nə baş verdi?

Ümumi imamlıqdan, imamlığın mənasından, imamlığın mahiyyətindən danışırıq. Ayədə buyurulur ki, "İbrahimi öz Rəbbi kəlmələrlə (müxtəlif vasitələrlə) imtahana çəkdi və o, imtahanları tamamladı". İndi onları kim tamamladı? Bir mənası budur ki, İbrahim tamamladı. Bir mənası da budur ki, onları Allah tamamladı. Yəni Allah İbrahimə saf tövhid bəxş edib, o kəlmələri tamamladı.

"Bu zaman Allah ona buyurdu: "Səni insanlara imam təyin etdim!" İbrahim "nəslimdən necə?" (Yəni imamlıq təkcə mənə məxsusdur, yoxsa nəslimdən gələn şəxslərə də nəsib olacaqmı?) - soruşduqda Allah buyurdu: "Mənim əhdim (imamlıq məqamı) heç vaxt zalımlara çatmaz!"

Burada Allah-təala əslində nə inkar etdi, nə də tam, sərbəst söz verdi. Əlbəttə, Allah bir növ kəlamının daxilində söz verib. Amma tam, sərbəst söz verməyib. Buyurub ki: "İbrahim, imamlığın ölçüsü vardır. Mənim əhdim zalımlərə çatmaz. Yəni (imamlıq məqamına) zalımlər layiq görülməz."

Bu ayə üzərində bir neçə cəhətdən bəhs edəcəyik. Birinci "ibtila"[2] məsələsidir. Yəni Həzrət İbrahimin (ə) imtahanı. Quranda ibtila, yəni imtahan nəyə deyilir? İmtahandan məqsəd nədir?

İkinci məsələ budur ki, ayədə qeyd olunan və Həzrət İbrahimin (ə) imtahan olunduğu "kəlmələr"- dən məqsəd nədir?

Üçüncü məsələ budur ki, "imamlıq məqamı"-ndan məqsəd nədir ki, Allah-təala buyurur: "Mən İbrahimi imam etdim"?

---

1 - Bəqərə, 124
2 - İmtahan

Dördüncü məsələ budur ki, zalım kimə deyilir? Əgər aydın olsa ki, zalım kimə deyilir, imamət məqamı haqda da geniş məlumata sahib ola bilərik.

## İbtila (imtahan) məsələsi

Bəzi imtahanlar nəticəni öyrənmək məqsədlidir, bəzisi isə nəticənin imtahan edilən şəxsin özünə məlum edilməsi üçündür. Məsələn, müəllim tələbəsini imtahan edir. Onun haqqında tam məlumatı yoxdur, imtahan edib nəticəsini anlamaq istəyir. Amma Allah "Mən sizi imtahan edecəyəm"-deyə buyurduğu zaman, məqsəd budur ki, insanın bilmədiyi istedadı, qabiliyyəti onun özünə aydın olsun. Allah-təala isə hər şeyi bilir.

Qurani-Kərimdə buyurulur:

وَإِنْ تَجْهَرْ بِالْقَوْلِ فَإِنَّهُ يَعْلَمُ السِّرَّ وَأَخْفَ

"Ey insan! Sən (dua edərkən) səsini ucaltsan da (ucaltmasan da, heç bir fərqi yoxdur). Çünki Allah sirri də, sirdən daha gizli olanı da (məxfini də) bilir."

Yəni belə deyil ki, Allah təkcə aşkarı bilir. Aşkarı da bilir, sirri də bilir, hətta sirdən daha gizli bir şey olsa belə Allah onu da bilir. Yaxşı, Allah hər şeyi bildiyi halda niyə imtahana çəkir?

Məlumdur ki, Quranda imtahana çəkmək Allahın bilməməyi mənasında deyil. Allah hər şeyə agahdır, özü də öncədən. Quranda imtahanın mənası budur ki, insan üzə çıxsın, cilvələnsin, onun mənfi yaxud müsbət potensialı ixtiyarı ilə zahir olsun. Necə?

Biz alma toxumunu yerə əkirik. Bir halda ki, onun alma ağacı olacağını bilirik. Meyvələri də alma barı olacaqdır. İmtahanın da mənası budur ki, insan imtahan edildiyi zaman proseslər baş versin və onun ixtiyar ilə yerinə yetirdiyi əməllər meyvə versin. İnsan Allah tərəfindən imtahan olunur ki, bəşər öz istedadlarını, öz daxili imkanlarını üzə çıxarsın. Soruşa bilərsiniz ki, bu nəyə lazımdır? Nə üçün üzə çıxsın? Axı onsuz da Allah-təala bilir ki, üzə çıxanda nə olacaq.

Diqqət etmək lazımdır ki, Bizim cənnətimiz və cəhənnəmimiz əməllərimizlədir. Zühur əməldir ki, cəhənnəmi və cənnəti o

formalaşdırır və yaradır. İnsanın əməli necə zühur tapırsa o elə cənnəti, cəhənnəmidir. Allah cəhənnəmi yaradıb ki, günahkarları oraya göndərsin.

Amma biz bəzən deyirik: Allah, elə indidən bilirsən. Cənnəti yaratmısan ki, yaxşı əməl sahiblərini orada məskunlaşdırasan. Deyirik: Allah, sən bilirsən ki, kim cənnət və kim cəhənnəm əhli olacaqdır. Madam ki, bilirsən, elə əvvəlcədən cənnətə layiq olanları cənnətə göndər. Çünki biz cənnət və cəhənnəmi bir hazır məkan kimi təsəvvür edirik. Ona görə də elə düşünürük ki, insanları ora Allah öz elmi əsasında göndərir. Deyirik ki, Allah sən onsuzda bilirsən, Öz elminə əsasən öncədən layiq olanları cənnətə yolla. Amma əslində cənnət və cəhənnəm insanın əməlidir, əməlinin zahir və bəlli olmasıdır. Əgər bir şəxs əməl etməsə, onun cənnət və cəhənnəmi də olmaz.

Bu məntiqə Qurani-Kərimdən bir neçə sübut da gətirmək olar:

وَإِنْ كُنْتُمْ فِي رَيْبٍ مِمَّا نَزَّلْنَا عَلَى عَبْدِنَا فَأْتُوا بِسُورَةٍ مِنْ مِثْلِهِ وَادْعُوا شُهَدَاءَكُمْ مِنْ دُونِ اللَّهِ إِنْ كُنْتُمْ صَادِقِينَ* فَإِنْ لَمْ تَفْعَلُوا وَلَنْ تَفْعَلُوا فَاتَّقُوا النَّارَ الَّتِي وَقُودُهَا النَّاسُ وَالْحِجَارَةُ أُعِدَّتْ لِلْكَافِرِينَ

Əgər bəndəmizə (Muhəmmədə) nazil etdiyimizə (Qurana) şəkkiniz varsa, siz də (fəsahətdə və bəlağətdə) ona bənzər bir surə gətirin və əgər (“bu, bəşər kəlamıdır” sözünü) doğru deyirsinizsə, onda Allahdan savayı (bütün) şahidlərinizi (bütlərinizi, şair və alimlərinizi bu işdə köməyə) çağırın! Madam ki, belə bir işi bacarmırsınız, heç bacara da bilməzsiniz, o halda kafirlər üçün hazırlanmış, yanacağı (günahkar) insanlardan və kibrit daşlarından ibarət olan oddan (Cəhənnəmdən) həzər edin![1]

Ayədə buyurulur ki, əgər həqiqətən sizin şübhəniz var ki, Quran ilahi bir kitab deyil, gedin bənzərini gətirin. Bizə də aydın edin ki, bu həqiqətən də bəşər kitabıdır. Əgər gedib gətirə bilməsəniz, qorxun o oddan ki, yanacağı insan və daşdan ibarətdir. Təndiri yandıran zaman odundan istifadə edirlər. Cəhənnəmin odunu isə insanlar və daşdır. Daşdan da məqsəd, insanın pərəstiş etdiyi bütlərdir. Deməli cəhənnəmin yanacağı iki cürdür: Birincisi,

1 - Bəqərə, 23-24

bütlərdən (onlara ki, insan pərəstiş edir istər canlı, istər cansız) ibarətdir. İkincisi isə insanlardan (ki, pərəstiş edir, yəni bütpərəstdir) təşkil tapır. Bu ayədən aydın olur ki, insanın əməli cəhənnəmin yanacağını təmin edir. Beləliklə, fərz etsək əməl sahibi olmayan insanın cənnəti və cəhənnəmi olmayacaqdır.

Bu haqda başqa bir sübut, merac hədisləridir. Həzrət Peyğəmbər (s) meracda olarkən cənnətdə qəribə bir hadisə baş verdiyini görür və təəccüblənir. O, bir sıra mələklərin sürətlə bina tikməyə çalışdığını müşahidə edir. Belə ki, onlar birdən-birə, bir müddət də istirahət edirlər. Həzrət Peyğəmbər (s) təəccüblə Hz. Cəbrayıldan soruşur: "Bunlar nə üçün yavaş-yavaş işləmirlər? Sürətlə işləyib, sonra anidən istirahət edirlər?" Hz. Cəbrayıl deyir: "Onların tikinti materialı dünyadandır. Bir şəxs əməl edəndə, saleh iş görəndə material olur və işləyirlər. Material olmayanda isə işləmirlər."[1]

Bu aydın bir sübutdur ki, insanın əməli cənnəti və cəhənnəmi tənzimləyir. Cəhənnəm mövcud olduğu üçün insanları oradakı oda atmırlar. Belə deyil ki, hal-hazırda mövcud bir cəhənnəm var və Allah-təala kimin cəhənnəm əhli olduğunu bildiyi üçün onu yollamalıdır. Xeyr, əməl zühur etməsə cəhənnəm də yoxdur. Tikan toxumu tikan deyil. O, cücərdiyi zaman tikan olur. Gül toxumu gül deyil. Cücərəndə gül olur. Cənnət və cəhənnəm də belədir.

Quranda Qiyamət haqqında bir sıra ayələr var. Qiyamət aşkar olma günüdür. O gün ki, daxildəki sirlər üzə çıxır. İmtahan üzə çıxarmaq üçündür, imtahan əmələ gətirmək, nəticə əldə etmək üçündür. Çünki əməl olmasa, Qiyamət tənzim olmaz. Biz deyirik ki, Allah cəhənnəmi hazırlayıb. Əslində insanın əməli cəhənnəmi hazırlayır. İnsanın əməli cənnəti hazırlayır.

Allahın elmi  bəhsində söhbət açdığımız zaman bilirik ki, Onun bir "elmi zati"- "qədim elmi" var. Bir də "elmi feli"-"ortaya çıxan, obyektivləşən elmi" var. Yəni bu həmin elmin üzə çıxmasıdır. Bir şeyin zahir olması, bəlli olması və baş verməsidir. Allah-təala hər bir şeyə (onlar yaranmamışdan öncə) qədim elmi ilə agah olduğu

---

1 - Təfsiri-Qummi, Əli ibn İbrahim, c. 1, səh. 25; Biharul – ənvar, c.73, səh. 246

kimi, həmin şeylər var olduğu və obyektiv olduğu zaman da onlara agahdır. Buna görə də, Allah-təala buyurur:

الَّذِي خَلَقَ الْمَوْتَ وَالْحَيَاةَ لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلًا

Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur.[1]

Buyurur ki, mən imtahan edirəm sizi, yəni sizi üzə çıxarıram, siz əməllərinizlə bəlli olursunuz. Yəni bu imtahan zahir olmasa, baş verməsə, heç nə bəlli olmaz. Mənim cəhənnəmdə yanmaq ilə, cənnətdə nemət ilə zati əlaqəm var, amma qərarlaşma əlaqəm yoxdur.

## Əməl ilə cəza və mükafatın əlaqəsi

Qiyaməti iki cür təsəvvür etmək olar. Bir belə təsəvvür etmək olar ki, orada məcazi əlaqə var. Mən necə dünyada qərarlaşdırıram ki, filan günahı etsən filan cəza ilə cəzalanacaqsan, amma əslində günah ilə o cəza arasında əlaqə yoxdur. Əlaqəni mən yaradıram, azaldıram, çoxaldıram. Belə qərarlaşdırmışam ki, bu günahı edən bu cəzanı çəksin.

Bir də belə təsəvvür etmək olar ki, əslində Qiyamətdə də, cəhənnəmdə də o günah ilə cəzanın həqiqi əlaqəsi var. Məhz buna görə də, Allah günahın müqabilində cəza hazırlamışdır. Günah ayrı, cəza ayrı. Günah mənim işimdir, cəza Allahın işidir. Günah mənim işimdir. Cəza günahın iç üzüdür. Onun mahiyyətindədir. Biz burda o cəzanı görmürük amma var. Hardan deyirik ki, günahın iç üzü cəzadır? Çünki buna aid ayələrimiz vardır. Məsələn Qurani-Kərimdə Nisa surəsində buyurulur:

وَآتُوا الْيَتَامَى أَمْوَالَهُمْ وَلَا تَتَبَدَّلُوا الْخَبِيثَ بِالطَّيِّبِ وَلَا تَأْكُلُوا أَمْوَالَهُمْ إِلَى أَمْوَالِكُمْ إِنَّهُ كَانَ حُوبًا كَبِيرًا

Yetimlərin mallarını (həddi-buluğa çatdıqda) özlərinə verin və pisi (haramı) yaxşı ilə (halalla) dəyişdirməyin! Onların mallarını öz mallarınıza qatıb yeməyin! Həqiqətən, bu, böyük günahdır[2]

إِنَّ الَّذِينَ يَأْكُلُونَ أَمْوَالَ الْيَتَامَى ظُلْمًا إِنَّمَا يَأْكُلُونَ فِي بُطُونِهِمْ نَارًا وَسَيَصْلَوْنَ سَعِيرًا

---

1 - Mulk, 2
2 - Nisa, 2

Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar (qiyamətdə) alovlu Cəhənnəmə girəcəklər.[1]

Deməli, yetimin malını yeyənlər əslində zülm etdikləri üçün qarınlarına od yeyir, lakin bu üzə çıxmır. Od yedikləri halda bəlli olmur.

Yetimin malını kim yeyə bilər? Tutaq ki, alver edirəm yetim malını satır, mən də alıram. Bu onun malını yeməkdir, lakin zülm etmək deyil, razılaşma yolu ilədir. Bir də var ki, mən onu aldadıram, zorla yeyirəm. Bu isə ona zülm etməkdir.

Qurani-Kərimdə başqa bir ayədə buyurulur:

وَإِنَّ جَهَنَّمَ لَمُحِيطَةٌ بِالْكَافِرِينَ

Şübhəsiz ki, (hal-hazırda) Cəhənnəm kafirləri əhatəyə almışdır![2]

Cəhənnəm kafirləri əhatə edib, amma özləri bilmirlər. Qiyamət günü cəhənnəm onları əhatə edəcək-deyə xəbər vermir. İndi (hal hazırda) onları cəhənnəm əhatə edib, onlar bilmirlər-deyə təkid edir. Bilmirlər ki, hər hansı günahı etdikləri üçün cəhənnəm onlari indi əhatə edir. Deməli, bizim günahlarımız bir baxımdan günahdır, digər baxımdan oddur. Biz dünyada günah tərəfini görürük. Amma o biri tərəfinə diqqət etmirik, görmürük. Axirətdə o tərəfini də görəcəyik. Gözümüz iti deyil, çünki qəflət pərdəsi ilə örtülüdür. Qurani-Kərimdə bu haqda buyurulur:

لَقَدْ كُنْتَ فِي غَفْلَةٍ مِنْ هَذَا فَكَشَفْنَا عَنْكَ غِطَاءَكَ فَبَصَرُكَ الْيَوْمَ حَدِيدٌ

(Ona belə deyiləcəkdir: ) "Sən (dünyada) bundan (bu müdhiş günə uğrayacağından) qafil idin. Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən!"[3]

Qiyamət günü pərdə götürüləcək və gözümüz açılacaq. Mən günahın ləzzət tərəfini görürəm, amma od tərəfini görmürəm. Allahın etdiyi imtahan, elmi imtahanı deyil, zühur imtahanıdır. Yəni Ona bəşərin əməllərinin nəticəsi məlum olsun deyə insanı

1 - Nisa, 10
2 - Ənkəbut, 54 və Tövbə, 49
3 - Qaf, 22

imtahan etmir. İmtahandan məqsədi budur ki, insan öz binasını tiksin. İmtahandan məqsədi budur ki, insan özünü becərsin. Əməllərini bəlli etsin. İmtahandan məqsəd Allahın agah olması deyil. İmtahanın bu məna ilə əlaqəsi yoxdur ki, Allah insanın əməli haqda bilir, yaxud bilmir. Məsələ budur ki, cənnəti və cəhənnəmi mənim əməlim tənzimləyir. Mən əməli etməsəm, onlar (cənnət və ya cəhənnəm) mövcud olmayacaqdır. Ona görə bəzi insanlar "Əraf"da qalırlar. Çünki onlar özlərinə nə cəhənnəmi tənzim ediblər, nə də cənnəti.

Buna aid Qurani-Kərimdə çoxlu ayələr də vardır ki, insanın əməlinin cənnət və cəhənnəmi tənzim etməsini vurğulayır. İbtiladan (imtahandan) məqsəd, müəllim imtahanı deyil! İbtiladan məqsəd insanın özünün özünü zahir etdirməsidir, özünün imkanlarını praktiki olaraq ortaya qoymasıdır. Əməl məqamında bəlli olur ki, bu əməlin tərəfi ya cəhənnəmdir, ya da cənnətdir. Bəziləri bu dünyada əməllərinin mahiyyətini görürlər. Təkasur surəsində buyurulur ki, əgər onların yəqin mənşəli elmləri olsaydı, Qiyamət gününün odunu da görərdilər.

كَلَّا لَوْ تَعْلَمُونَ عِلْمَ الْيَقِينِ

Xeyr, əgər tam yəqinliklə bilsəydiniz (fani dünya malına uymazdınız)!

لَتَرَوُنَّ الْجَحِيمَ

(Ey müşriklər! Qiyamət günü) siz o Cəhənnəmi mütləq görəcəksiniz!

Yasin surəsində bir ayə var, bununla Allah Qiyaməti bizə başa salmaq istəyir:

وَضَرَبَ لَنَا مَثَلًا وَنَسِيَ خَلْقَهُ قَالَ مَنْ يُحْيِي الْعِظَامَ وَهِيَ رَمِيمٌ

Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" - deyə, hələ Bizə bir məsəl də çəkdi.[1]

قُلْ يُحْيِيهَا الَّذِي أَنْشَأَهَا أَوَّلَ مَرَّةٍ وَهُوَ بِكُلِّ خَلْقٍ عَلِيمٌ

---

1 - Yasin, 78

(Ya Peyğəmbər!) De: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu (yaradılışından əvvəl də, sonra da) çox gözəl tanıyandır![1]

Deməli, bir nəfər sümük tapır və sevinirdi ki, Qiyamətin olmamağına sübut əldə edib. O, sümüyü Həzrət Peyğəmbərin (s) yanına gətirərək dedi: Ya Rəsulallah, bu çürümüş sümüyü kim diriltə bilər?" Əlindəki sümüyü sıxdı və sümük ovxalanıb töküldü.

Orada Allah-təala həmin şəxsin müqabilində bir neçə sübut gətirib. Onlardan biri də budur:

الَّذِي جَعَلَ لَكُمْ مِنَ الشَّجَرِ الْأَخْضَرِ نَارًا فَإِذَا أَنْتُمْ مِنْهُ تُوقِدُونَ

O yaradan ki, sizin üçün yaşıl ağacdan (Ərəbistanda bitən mərx və ifar ağaclarından) od əmələ gətirdi. Budur, siz indi ondan (o iki ağacı bir-birinə sürtməklə) od yandırırsınız".[2]

Bunun Tövhidlə və Qiyamətlə çox sıx əlaqəsi var. Çünki, Allahın əzəmətini göstərir. Alimlər buyurublar ki, yaşıl ağac özündə od yığar. Yaşıllığı da od yığmaqladır. Kökü olan ağac karbon yığır. Karbon da ki, yanmağın əsl maddəsidir. Ağac yaşıl olduğu müddətdə karbon yığır. Kökü qırılanda daha karbon yığa bilməz. Ondan sonra yığdığını qaytarır. Əslində ağac odu və alovu yaşıl olduğu zaman əldə edir. Yəni od ağac yaşıl ikən qazanılır, quruyandan sonra yandırıldıqda qazandığı karbonları büruzə verir, azad edir. Allah Taalanın məqsədi, Qiyaməti bu formada missal vurmaqdır. Yəni, yaşılsınız, cavansınız, dünyada enerji dolu yaşayırsınız. Karbon qazanırsınız, amma bilmirsiniz ki əslində od əldə edirsiniz, çünki yaşıllığınız mane olur. Quruyanda, odlar üzə çıxanda görəcəksiniz.

Bir gün bir şəxs İmam Əlinin (ə) qarşısına quru bir insan kəlləsi gətirərərək, Qiyamət haqqında sual verir: Qiyamət necə olacaq? Bu kəllə necə yanacaq? Halbuki buz kimidir?

İmam onun əlindən tutaraq, bir çaxmaq daşının yanına aparır.

Ona buyurur: Gör burada od varmı?

---

1 - Yasin, 79

2 - Yasin, 80

O deyir: Yoxdur.

İmam (ə) daşları bir birinə vurur, qığılcımlardan od yaranır. Və buyurur: İstilik varmı daşda?

Deyir: Xeyr.

İmam (ə) buyurur: (Potensial olaraq) od vardı, amma alov meydana çıxmırdı. Bir-birinə dəydəndə, zahir oldu və alov yarandı. Amma daş soyurdur. Daxilində isə alov daşıyır.[1]

Bizdə də od var, əməllərimizlə qazanırıq. Lakin hələ bir-birinə dəyməyib deyə meydana çıxmır. İnsanın əməlləri hesablananda, çaxmaq daşı kimi bir-birinə dəyəndə zahir olacaq, alov meydana çıxacaq. Əməl olmasa, od yoxdur. Əməl olmasa insanın cəhənnəmi də olmaz, cənnəti də.

## İmtahanın iki təzahürü

İmtahan insanın əməli baxımdan inkişaf etməsidir. İmtahan, yəni budur ki, mən özümü üzə çıxarıram. İmtahan budur ki, mən karbon qazını özümdə daşıyan ağacam, yandığım zaman zahir olacaq. Qurani-Kərim buyurur ki, insan iki formada imtahan olunur, insanın imtahanının iki təzahürü var.

فَأَمَّا الْإِنْسَانُ إِذَا مَا ابْتَلَاهُ رَبُّهُ فَأَكْرَمَهُ وَنَعَّمَهُ فَيَقُولُ رَبِّي أَكْرَمَنِ

İnsana gəldikdə, nə zaman Rəbbin onu imtahana çəkib ehtiram etsə, ona bir nemət versə, o: “Rəbbim mənə ehtiram göstərdi!” - deyər.[2]

وَأَمَّا إِذَا مَا ابْتَلَاهُ فَقَدَرَ عَلَيْهِ رِزْقَهُ فَيَقُولُ رَبِّي أَهَانَنِ

Amma nə zaman (Rəbbin) onu imtahana çəkib ruzisini əskiltsə: “Rəbbim məni alçaltdı (mənə xor baxdı)!” - söyləyər.[3]

Allahın verdiyi nemətlə varlı olmaq, bu imtahanın bir təzahürüdür. İmtahanın digər bir siması da, insanın ruzisini və nemətlərini azaltmaqdır. Varlandığı zaman niyə imtahan olduğunu başa düşmədi ki, əlindən alındığı zaman imtahan olduğunu dərk

1 - Əl-Qədir, c. 8, səh. 216
2 - Fəcr, 15
3 - Fəcr, 16

etdi? Sonra da, Allah tərəfindən təhqir olunduğunu, sayılmadığını önə sürdü.

Bu ayələrdən düşünülür ki, Allah buyurur mən insanı iki yolla imtahan edirəm. Onu bəzən fəqirliklə, bəzən də zənginliklə sınayıram. Deməli imtahan olunan insanın potensialı iki yolla üzə çıxar. Bəzən yoxsul olanda, bəzən də Allah tərəfindən ona üstün nemətlər əta edildiyi zaman. Nemətlə qürurlanmaq, təkəbbür etmək olmaz. Allah mənə nemət verəndə, nemətin qarşısında şükür tələb edir. Mən təşəkkür etməsəm, imtahandan keçmirəm. İnsan bəzən varlılıqla imtahan olur, bəzən yoxsulluqla. Nə varlılıq insana iftixardır, nə yoxsulluq insana zillət və xarlıqdır. Nə o böyüklük səbəbidir, nə bu kiçiklik səbəbidir. İkisinin də səbəbi budur ki, insan imtahanla sınansın və bununla da insanın mənəvi potensialları üzə çıxsın. Amma ayədəki qeyd olunan insanın baxışı, mənfi baxışdır. Çünki Allah tərəfindən insana var-dövlətin, nemətin verilməsi, onun əzizlənərək dəyər bəxş olunması demək deyil. Həmçinin, onun nemətlərinin əlindən alınması və yaxud yoxsul olması da, insanın Allah tərəfindən təhqir olunduğunu bildirmir.

İmam Əli (ə) Nəhcül-bəlağədə buyurur: Əgər dünya malına sahib olmaq üstünlük səbəbi olsaydı, onda Allah bütün peyğəmbərlərinə sərvət verərdi. Bir halda ki, peyğəmbərlərin yalnız bəzilərinə var-dövlət, maddi məqam verilib. Deməli, dünya malı bir mənəvi dəyər deyil, imtahandır.[1] Biri sərvətlə imtahan olunur, digəri kasıblıqla imtahan olunur. Bəzi insanlar yoxsulluqla imtahan olunduğunda, möhkəm və iradəlidirlər, özlərini itirmirlər. Amma varlı olduqları zaman, Allah öz nemətlərini ona bəxş etdiyində əməlləri ilə itaətsizlik və naşükürlük edirlər. Var-dövlətlə imtahan edildikdə tüğyan və təkəbbür məsələsi də var.

Bir də yoxsulluq imtahanının da özünəməxsus çətinlikləri vardır. İnsan yoxsulluq, kasıblıq imtahanı ilə üzləşir. Yoxsulluqda insanın küfr etməsi ehtimalı vardır. Necə nemət şükür tələb edirsə,

---

1 - Nəhcül-bəlağə, səh 42, 234-cü xütbə

yoxsulluq də səbir tələb edir. Bu zaman səbirli və iradəli olmaq yerinə, insanın küfr etməsi, Allahdan uzaqlaşması və günah işləməsi mümkündür.

Əslində, var-dövlətlə olunan imtahan, yoxsulluqla sınağa çəkilməkdən çətindir. Mal-mülk sahibi olduğun zaman əməllərində mənfi çalarların üzə çıxmağına şərait daha münbitdir. Düzdür bu yoxsulluqda da var, amma sərvət sahibi olduğun zaman bu özünü daha qabarıq göstərir.

Həzrət Peyğəmbərin (s) dövründə müsəlmanlar arasında yoxsulluq imtahanı mövcud idi. Nisbi baxımdan onlar imtahandan üzüağ çıxdılar. Amma bəzi müharibələrdə qaçdılar, bəzi müharibələrdə Peyğəmbərin (s) göstərişlərinə əməl etmədilər. Amma nisbi olaraq imtahanlarda müsbət sınandılar. Lakin Peyğəmbərin (s) səhabələrinin çoxunun ayağı məhz var-dövlət, sərvət imtahanında büdrədi.

İnsan iki simada imtahan olunur: 1) Zəngin olduğu zaman. 2) Yoxsul olduğu vaxt.

Quranda hər iki simaya nümunələr var. Həzrət Əyyub (ə) yoxsulluq simasında imtahan olundu, Həzrət Süleyman (ə) zənginliklə sınandı. İkisi də imtahana çəkildi. Əyyub peyğəmbərin (ə) səbri, Süleyman peyğəmbərin (ə) qədirdanlıq və şükrü hər ikisi də dözümlülük simvoludur. Həzrət Əyyub (ə) hər şeyə səbir etdi. Süleyman peyğəmbər (ə) var-dövlət və güc-qüdrətə sahib olduğu zaman “bunların heç biri mənim deyil”- deyə, hər şeyin Allaha məxsus olduğunu söylədi. “Hamısı Rəbbimdən və Rəbbimindir”- dedi.

Bəzi insanlar mala, dövlətə sahib olduqda belə düşünürlər ki, onu öz bacarıqları ilə əldə ediblər. Quranda Qarun ilə Hz. Süleymanın imtahanı haqqında buyurulur.

Qarun deyirdi ki, mən bunları öz bacarığım və zəhmətim sayəsində əldə etmişəm. Çox çalışmışam, mənə bunları Allah verməyib, özüm əldə etmişəm. Buna görə də, həm təkəbbür edə bilərəm, həm də kimsəyə əl tutmaya bilərəm. Bunlar mənimdirsə,

nə üçün başqasına əl tutum, niyə kömək edim? Mən özüm çalışmışam.

قَالَ إِنَّمَا أُوتِيتُهُ عَلَى عِلْمٍ عِنْدِي

(Qarun) dedi: "Bu (var-dövlət) mənə yalnız məndə olan elm (kimyaya yaxşı bələd olmaq, ticarətdən baş çıxartmaq) sayəsində verilmişdir.[1]

Amma Həzrət Süleyman (ə) öz zənginliyinin Allaha məxsus olmasına inanırdı. Deyirdi: Bu mənim Rəbbimin fəzlidir ki, mənə bəxş edib.

قَالَ هَذَا مِنْ فَضْلِ رَبِّي لِيَبْلُوَنِي أَأَشْكُرُ أَمْ أَكْفُرُ وَمَنْ شَكَرَ فَإِنَّمَا يَشْكُرُ لِنَفْسِهِ وَمَنْ كَفَرَ فَإِنَّ رَبِّي غَنِيٌّ كَرِيمٌ

Süleyman dedi: "Bu, Rəbbimin lütfündəndir (mərhəmətindəndir). Məni imtahana çəkməyi üçündür ki, görək (Onun nemətinə) şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim (Rəbbimin nemətinə) şükür etsə, yalnız özü üçün (öz xeyrinə) şükür edər; kim nankor olsa, (bilsin ki) həqiqətən, Rəbbim (onun şükürünə) möhtac deyildir, kərəm sahibidir!"[2]

Həzrət Süleyman (s) nemətlərin mənbəyini görürdü, Qarunun isə gözlərinə dünya malı pərdə çəkmişdi. O, nemətləri bəxş edən Əsl Sahibini unutmuşdu. Baxın, lampa yandığı zaman onun əsl elektrik mənbəyinin elektrik stansiyasından gəlməsini unudub, lampanın əlində yandırıb-söndürən düyməsinə arxalanan şəxsə bənzəyirdi Qarun! Siz pəncərəni açıdığınız zaman gözəl meh əsirsə, pəncərə sadəcə o mehi sizə çatdıran vasitədir. Mehi yaradan deyil. Qarun sankı pəncərəyə könül bağlamışdı ona əsən sərin meh üçün. Qarun pəncərədən gələn nuru görürdü, elə sanırdı ki nuru ona bəxş edən pəncərədir. Ona görə də iddia edirdi ki, bütün uğurlarına o, öz zəhməti və bacarığı sayəsində çatıb. Anlamırdı ki, nurun qaynağı günəşdir. O mənbəyi unudub, vasitəyə ürək bağlamışdı.

Amma mənbə Həzrət Süleymanın (s) yadında idi. O, əsl səbəbi unutmamışdı. Bu iki baxış fərqidir ki, Süleymanı Süleyman edir,

---

1 - Qəsəs, 78
2 - Nəml, 40

Qarunu Qarun. İkisində də mal-dövlət var idi. Lakin onun baxışı mənbə baxışı idi, daha ucadan baxdığı üçün hər şeyi görürdü. Qarun isə dar çərçəvəsində sadəcə özünü görürdü. İnsan keçmişinə də, gələcəyinə də sədd çəkərsə, yaxud ətrafına divar hörərsə təkcə özünü görər. Buna görə də, əldə etdiklərinin yeganə səbəbi olaraq yalnız öz potensialını və iradəsini göz önündə tuturdu. Deyirdi ki, nəyə sahibəmsə, onu yalnız mən özüm qazanmışam.

Hz. Süleyman (ə) isə səddləri yıxmış, həqiqəti görmək üçün divar hörməmişdi. O, nemətlərin mənbəyini görürdü.

Bütün bunlardan nəticə alırıq ki, ibtila yəni imtahan məsələsi insanın potensiallarının zahir və aydın olması məsələsidir. Bu Qurani-Kərimdə iki simada təzahür etmişdir.

Allah Həzrət İbrahimi (s) imtahana çəkdi. Bu imtahandan məqsəd onun potensiallarının zahir və aydın olması idi. İmtahan üçün məxsus vaxt yoxdur. Həmişə, hər an insan sınağa çəkilə bilər. Hər an insanın potensiallarının zahir və aydın olması tələb oluna bilər. Ona görə də, heç kəs bu qanundan istisna deyil. Çünki bəşər övladı daim mənfi yaxud müsbət istiqamətdə hərəkət edir. İnsanlarının imtahana çəkilməsi Allahın qanundur və hamıya aiddir. Bütün toxumlar becəriləcək. İstər tikan becərsinlər, istər gül becərsinlər. Hər an becərilir. İnsanlar əməlləri ilə bu toxumları əkir. Bu toxumların əkilişi imtahandır, istər müsbət, istər mənfi əməl toxumları olsun. Hamısı bir sınaqdır. İmtahan insanın ruhunun potensiallarının zahir və aydın olmasıdır.

Ayədə buyurulurdu ki, İbrahimi kəlmələrlə imtahana çəkdik. O, sınaqdan uğurla keçdi və sonra onu imam etdik.

Ayədə qeyd olunan “kəlmələr” ibarətindən məqsədin nə olması haqda danışmadan öncə, istərdim ki imamlıq bəhsinə qısa bir nəzər salaq.

## Hz. İbrahimin imam təyin olunmasının mənası

Hz. İbrahimə verilən imamlığın, iki mənası var: Bir lüğətdə, bir də termin kimi mənası var. İmamın lüğəvi mənası, “öndər”dir. Yəni “izlənilən”, “ardınca gedilən”. “İmam” kəlməsi müxtəlif yerlərdə ayrı-ayrı mənaları da ifadə edir. Məsələn, bəzən “imam

cümə”yə, ”imam camaat”a iqtida olunduğu üçün imam deyilir. Hər işin öndəri, rəhbəri lüğət baxımından imam adlanır. Bu mənada, nəbi də imamdır, peyğəmbər də imamdır. Çünki ümmətin rəhbəri və öndəridir. Bu mənada bir qrupun başçısı da imamdır. Bəzi alimləri, bir sıra şəxsiyyətləri də tarixdə “imam” adlandırıblar, əslində bu lüğəvi mənasında işlənib.

Bir də, imamın terminaloji mənası vardır. Quranda imam müxtəlif məqamlarda işlənib.

Quranda müqəddəs kitab haqqında imam kəlməsi işlədilir. Yəhudi qövmünə öndər və qabaqcıl şəriət olan Tövrata işarə edilir və buyurulur:

وَمِنْ قَبْلِهِ كِتَابُ مُوسَى إِمَامًا وَرَحْمَةً

“Bundan qabaq Musanın kitabı onlara rəhbər və rəhmət idi.”[1]

Tövrat “imam” (rəhbər) adlanır. Təbii ki, bu imam sözünün lüğəvi mənasında işlənmişdir. Çünki insanlar Tövratı öndər bilərək onu özlərinə həyat rəhbəri seçməli idilər. Ona uyğun yaşamalı idilər. Bu bir növ imam deməkdir.

Qurani-Kərim müqəddəs kitaba arxa çevirənlər haqda söhbət açmışdır. Müqəddəs kitaba riayət etməyənləri, onu istədikləri kimi yozanlar və məna verənləri tənqid etmişdir. Bir halda ki, Müqəddəs kitab onlara yön verməli olduğu halda, onların müqəddəs kitabı yanlış mənalandıraraq yönləndirməsini sərt pisləmişdir.

وَإِنَّ مِنْهُمْ لَفَرِيقًا يَلْوُونَ أَلْسِنَتَهُمْ بِالْكِتَابِ لِتَحْسَبُوهُ مِنَ الْكِتَابِ وَمَا هُوَ مِنَ الْكِتَابِ وَيَقُولُونَ هُوَ مِنْ عِنْدِ اللَّهِ وَمَا هُوَ مِنْ عِنْدِ اللَّهِ وَيَقُولُونَ عَلَى اللَّهِ الْكَذِبَ وَهُمْ يَعْلَمُونَ

(Ey müsəlmanlar!) Onlardan (kitab əhlindən) bir zümrə də vardır ki, siz onların oxuduqlarını (Tövratdan) hesab edəsiniz deyə, kitab oxuyan zaman dillərini (qəsdən) o tərəf-bu tərəfə əyirlər (bükürlər). Halbuki onların bu oxuduqları kitabdan (Tövratdan) deyildir. Onlar isə: “Bunlar Allah tərəfindəndir”, -dedilər. Bunlar isə heç də Allah tərəfindən deyildir. Söylədikləri Allah dərgahından olmadığı halda,

1 - Əhqaf, 12; Hud, 17

“Bu, Allah dərgahındandır”, - deyirlər. Onlar bilə-bilə Allaha qarşı yalan söyləyirlər.

Bu Qurani-Kərimi öz şəxsi istəklərinə və hədəflərinə uyğun olaraq təfsir edənlərə də aiddir. Bununla da, belə insanlar, Tövratı yaxud Quranı deyil, öz istək və pis əməllərini imam və öndər seçmişdir. Deməli Quran və Tövrat imam olmalı olduğu halda, onlar müqəddəs kitablara arxa çevirərək öz mənfəətlərini izləmiş və öndər seçmişdir.

İkincisi, Quran bir sıra kitablar üçün də imam terminini işlədib. Qurani-kərimin ayələrində imam kəlməsi “lövhi-məhfuz” mənasında da işlədilmişdir:

وَكُلَّ شَيْءٍ أَحْصَيْنَاهُ فِي إِمَامٍ مُبِينٍ

“Hər bir şeyi aşkar imamda - (lövhi-məhfuzda) sayıb hesabladıq!”[1]

Ayədə buyurulur ki, Lövhi-məhfuzda insanın bütün həyatı haqda məlumat vardır. Arada səbəb-nəticə bağlılığı olmasa da, bir növ sankı insan həyatı o yazıları təqib edir. Bu da bir növ imam-öndər mənası daşıyır.

Quranda insanlar haqda da imam ibarəti işlədilib. İstər müsbət əməlli insanlar, istərsə də mənfi əməlli insanlar barəsində bu kəlimə işlənib. Bu ayələrə diqqət edək:

Saleh peyğəmbərlər Quranda imam adlanıb:

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا

“Biz onları öz əmrimizlə (camaatı) doğru yola yönəldən imamlar və qabaqcıllar təyin etdik!”[2]

Yaxud pis əməlli küfr başçıları haqda da imam kəlməsi işlədilib. Quranda, küfr imamları ilə döyüşün. Burda imam mənfi mənada işlənir.

فَقَاتِلُوا أَئِمَّةَ الْكُفْرِ

“Belə isə küfr rəhbərləri ilə döyüşün!”[3]

---

1 -Yasin, 12.
2 - Ənbiya, 73.
3 - Tövbə, 12.

Həmçinin, Quranda bu kəlimə həm hidayət, həm də zəlalət imamlarına - rəhbərlərinə işarə olunur və buyurulur:

يَوْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ

“O gün (qiyamətdə) bütün insanları öz imamları (ardınca getdikləri rəhbərləri) ilə birlikdə (hüzurumuza) çağıracağıq.”[1]

Bu ayə sübutdur ki, hər insanın imamı vardır. Hər zaman Allah tərəfindən bir pak imam olmalıdır. Burda imam insan mənasında işlənib. Qeyd edək ki, Qurani-kərimdə “imam” sözü müxtəlif mənalarda on iki dəfə işlədilmişdir. Biz sadəcə bəzilərinə işarə etdik.

Allah-təala Həzrət İbrahimə (ə) buyurur: “Səni insanlara imam təyin etdim!” Burada “imam”dan məqsəd nədir? Bəzi alimlər deyirlər ki, məqsəd Hz. İbrahimi (ə) nəbi (peyğəmbər) təyin etməkdir. Yəni Allahın bu kəlmədəki məqsədi belədir: “Mən səni imtahana çəkdim, indi səni nəbi təyin edirəm”. Onların fikrinə görə, imamdan məqsəd burda lüğəvi mənadır. Lüğətdə imam, yəni öndər və rəhbər, peyğəmbər də lüğəvi baxımdan bir növ imamdır. Beləliklə, onların nəzərinə əsasən Allah-təala sınağa çəkdikdən sonra İbrahimi lüğəvi mənada “imam-öndər” yəni peyğəmbər seçmişdir.

Əslində bu düzgün nəzəriyyə deyildir. Çünki sınağa çəkilən zaman, artıq Hz. İbrahim (ə) peyğəmbər idi. O, peyğəmbər olduğu halda imtahana çəkildi. Hz. İbrahim (ə) peyğəmbər olduğu halda, onu imtahan edib və yenidən peyğəmbər etməyin mənası yoxdur. Deməli, burada imam təyin etməkdən məqsəd nəbi və peyğəmbər məqamına seçmək ola bilməz. Burada imam xüsusi bir məna daşımalıdır.

## Dərsin xülasəsi

Ümumi imamlıq; yəni hər bir zamanda insanlar arasında Allah-təala tərəfindən mütləq bir imam və rəhbərin təyin edilməsidir; bu,

1 - İsra, 71.

istər peyğəmbərlik, istərsə də yalnız imamət məqamına malik olan şəxsə aiddir.

Xüsusi imamlıq isə bir ilahi rəhbərlik məqamı olaraq İslam peyğəmbərindən sonra onun canişininə aiddir.

Quranda imtahana çəkmək Allahın bilməməyi mənasında deyil. Allah hər şeyə agahdır, özü də öncədən. Quranda imtahanın mənası budur ki, insan üzə çıxsın, cilvələnsin, onun mənfi yaxud müsbət potensialı ixtiyarı ilə zahir olsun.

İnsanın əməli cənnəti və cəhənnəmi tənzimləyir. Cəhənnəm mövcud olduğu üçün insanları oradakı oda atmırlar. Belə deyil ki, hal-hazırda mövcud bir cəhənnəm var və Allah-təala kimin cəhənnəm əhli olduğunu bildiyi üçün onu yollamalıdır. Xeyr, əməl zühur etməsə cəhənnəm də yoxdur.

İnsan iki simada imtahan olunur: 1) Zəngin olduğu zaman. 2) Yoxsul olduğu vaxt.

Allahın verdiyi nemətlə varlı olmaq, bu imtahanın bir təzahürüdür. İmtahanın digər bir siması da, insanın ruzisini və nemətlərini azaltmaqdır.

Quranda hər iki simaya nümunələr var. Həzrət Əyyub (ə) yoxsulluq simasında imtahan olundu, Həzrət Süleyman (ə) zənginliklə sınandı. İkisi də imtahana çəkildi. Əyyub peyğəmbərin (ə) səbri, Süleyman peyğəmbərin (ə) qədirdanlıq və şükrü hər ikisi də dözümlülük simvoludur.

Hz. İbrahimə verilən imamlığın, iki mənası var: Bir lüğətdə, bir də termin kimi mənası var. İmamın lüğəvi mənası, “öndər”dir. Yəni “izlənilən”, “ardınca gedilən”. Bir də, imamın terminaloji mənası vardır.

Quranda imam müxtəlif məqamlarda işlənib: kitab, yol, lövhi-məhfuz pis əməlli küfr başçıları, saleh rəhbərlər və sair.

## İkinci dərs

### Hz. İbrahimin imam təyin olunmasının mənası

Qurani-Kərimdə buyurulur:

وَإِذِ ابْتَلَى إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا قَالَ وَمِنْ ذُرِّيَّتِي قَالَ لَا يَنَالُ عَهْدِي الظَّالِمِينَ

“Xatırla o zamanı ki, İbrahimi öz Rəbbi[1] kəlmələrlə (müxtəlif vasitələrlə) imtahana çəkdi və o, imtahanları tamamladı (onların öhdəsindən layiqincə gəldi). Bu zaman Allah ona buyurdu: “Səni insanlara imam təyin etdim!” İbrahim “nəslimdən necə” (onları da imam qərar verəcəksənmi) -soruşduqda Allah buyurdu: “Mənim əhdim (imamlıq məqamı) heç vaxt zalımlara çatmaz! (Və bu məqama yalnız sənin pak və məsum övladların layiqdir!)”[2]

Bu dərsdə sözügedən ayədə “imamlıq məqamı”ndan məqsədin nə olması haqda bəhs açacağıq. Bu barədə nəzəriyyələri ortaya qoyuruq:

**Birinci nəzəriyyə: Ayədə qeyd olunan “İmamlıq məqamı” lüğəvi mənadadır.**

Keçən dərsimizdə işarə etdik ki, bəzi alimlər ayədə qeyd olunan “imam” kəlməsinin “nəbi” (peyğəmbər) olaraq mənalandırmış və Hz.İbrahimin (ə) imtahana çəkildikdən sonra peyğəmbərlik məqamına layıq görüldüyünü irəli sürmüşlər. Bu fikrin qeyri-dəqiq olmasını söylədik və imamlıq məqamına seçilməmişdən öncə Hz.İbrahimin (ə) peyğəmbər olduğu haqda danışdıq.

Hz.İbrahim (ə) imam kimi təyin olunmamışdan öncə peyğəmbər idi. Qurani-Kərimdə bu ayədə Allah-təala onu imamlıq məqamına layiq gördüyü zaman, bir peyğəmbəri “imam” təyin edirdi. İbrahimə (ə) “imam” ünvanı altında peyğəmbərlik vermirdi. Peyğəmbərə əlavə olaraq “imamlıq” məqamı verirdi. Sözsüz ki,

1 - Rəb ərəb dilində - insanın həm sahibidir, həm də onu idarə edir.
2 - Bəqərə, 124

həzrət İbrahimin (ə) ağır imtahanlardan sonra Allah tərəfindən layiq görüldüyü bu məqam onun peyğəmbərlik məqamından fərqli məqamdır. Elə ayənin özündə buna bir neçə sübut vardır.

***Birinci sübut:*** *Hz.İbrahim (ə) imtahan olunandan sonra imamlıq məqamının verilməsi.*

Buradakı imtahandan məqasəd Hz.İbrahimin (ə) oğlu İsmayılı (ə) qurban kəsməsindən gedir. Bu sınağa çəkildiyi zaman İbrahim (ə) peyğəmbər idi, hətta yaşlı peyğəmbər idi. Çünki Allah İsmayılı və İshaqı İbrahimə qoca yaşında müjdə vermişdi.

قَالُوا لَا تَوْجَلْ إِنَّا نُبَشِّرُكَ بِغُلَامٍ عَلِيمٍ

Onlar: “Qorxma, biz səni çox bilikli bir oğulla (oğlun olacağı ilə) müjdələyirik!” - deyə cavab verdilər.[1]

قَالَ أَبَشَّرْتُمُونِي عَلَى أَنْ مَسَّنِيَ الْكِبَرُ فَبِمَ تُبَشِّرُونَ

(İbrahim:) “Qocalıq məni basdığı vaxtdamı mənə müjdə verirsiniz? Məni nə ilə muştuluqlayırsınız?” - deyə soruşdu.[2]

Qurani Kərim ayələrindən məlumdur ki, İbrahim(ə) övlad sahibi olmaqdan ümidini kəsmişdi. Lakin mələklər müjdə verəndə İbrahim(ə) təəccübləndi. Deməli, qeyd olunan ayədə Hz.İbrahimə (ə) peyğəmbərlik deyil, imamlıq məqamı verilməsindən söhbət açılır.

***İkinci sübut:*** *Hz.İbrahimin (ə) övladları üçün imamlıq məqamı istəməsi.*

Hz. İbrahim (ə) Allah-təaladan soruşur: “nəslimdən necə?” (onları da imam qərar verəcəksənmi?) Buradan belə nəticə alırıq ki, imtahan baş verən zaman onun övladı var idi. Əgər övladı olmasaydı qoca yaşında olan Hz.İbrahim (ə) deyərdi ki, “İlahi, əgər mənə övlad bəxş etsən, ona da imamlıq məqamı nəsib olarmı?” Ayədən görünür ki, Hz.İbrahim (ə) Allah-təaladan övlad istəmir. O, övladına imamlıq məqamının verilib-verilməyəcəyini soruşur. Əgər Hz.İbrahim peyğəmbər olmamışdan əvvəl bu hadisə baş versəydi, onda ilk öncə övlad istəyərdi və sonra ona bəxş olunan

1 - Hicr, 53
2 - Hicr, 54

övlada məqam verilib-verilməyəcəyi ilə maraqlanardı. Həm də ki, o, övladının olmamasından məyus olduğu halda necə belə tələb edə bilərdi?!

Hz.İbrahimin (ə) "nəslimdən necə?" (onları da imam qərar verəcəksənmi?) sualı onu çatdırır ki, onun övladı var idi. Bəziləri bunu qəbul etməsələr belə, ən azından onun övlad müjdəsi var idi. Mələk nazil olub müjdə vermişdi. Ona görə bilirdi ki, övladı var.

Bəs İbrahim(ə) hansı mənada "imam" oldu? Əhli sünnətin təfsirçilərinin çoxu "imamlıq məqamını" burada "nübuvvət-peyğəmbərlik məqamı" mənasına təfsir edirlər. Yəni onların fikrincə Hz.İmrahimə (ə) bur ayəyə əsasən həmin zaman peyğəmbərlik verilmişdir. Çünki, lüğəvi mənada "nəbi"yə, peyğəmbərə "imam" demək olar. Çünki hər ikisin öndərdir, rəhbərdir. Onların təfsirinə əsasən bu cəhətdən ayədə Hz. İbrahimə (ə) imamlıq məqamı verildi deyildikdə, peyğəmbərlik məqamı verilməsi nəzərdə tutulubdur.

Lakin bu baxış tərzi və təfsir forması bir neçə cəhətdən düzgün deyil. Diqqət edək ki, bunların hamısı Hz.İbrahimin (ə) peyğəmbər olduğu vaxt baş vermişdir. Deməli ayədəki "imam təyin etmək"-dən məqsəd nübuvvət məqamı deyildir, peyğəmbərliyin bəxş olunması deyildir. Çünki o artıq o zaman onsuz da peyğəmbər idi. Bir şəxsi iki dəfə peyğəmbərliyə seçmək absurtdur. İbrahim onsuz da peyğəmbər idi.

Həmçinin, Allah-təala bir şəxsin ləqayətini imtahana çəkmədən onu peyğəmbər etməz. Necə ola bilər ki, Hz. İbrahimi (ə) sınağa çəkmədən ona peyğəmbərlik məqamı versin, uzun illər sonra onu sınağa çəksin?

**İkinci nəzəriyyə: Ayədə qeyd olunan "İmamlıq məqamı" terminoloji mənadadır.**

İmam burada terminoloji mənadadır. Peyğəmbər dedikdə düz yol göstərən nəzərdə tutulur. Yəni insana yolu göstərir. Bu peyğəmbərlikdir ki, məqsədi hidayət etməkdir.

Bəşər düz yolu seçmədiyi zaman və azğınlıqda olarkən vəhy nazil oldu. Nəbi vəhyi insanlara çatdırdı ki, insanlar düz yolun hansı

olduğunu tanısınlar. Buna “peyğəmbərlik” deyilir. O, qanun-qaydalar, mənəvi təlimlər gətirir və onları insanlara bəyan edir. Bir də vəzifə olaraq bu işin tələblərini icra etmək vəzifəsi vardır. Yəni bir şəxs olmalıdır ki, bu qanunları icra etsin, din qanunlarına rəhbərlik etsin, həyata keçirsin. İkinci nəzəriyyəyə əsasən, bu icraçı şəxsə  imam deyilir. İmam ilahi qanunları həyata keçirir. İmamın vəzifəsi odur ki, peyğəmbər tərəfindən vəhy olunmuş qanunları həyata keçirsin. O, icraçı rəhbərdir.

İmamlıq cəmiyyətə rəhbərlikdir, cəmiyyətə hakimiyyətdir, din qanunlarını həyata keçirməkdir. Həzrət Məhəmməd (s) bu baxımdan həm peyğəmbər, həm də imam idi. Çünki Mədinədə islam qanunlarını həyata keçirirdi. Deməli bu mənada imamlıq elə həmin rəhbərlikdir. Hz.İbrahim (ə) bir sıra imtahanlardan sonra bu mənada imam oldu.

Sual oluna bilər ki, görəsən Quranda bir şəxsin həm peyğəmbər, həm də imam olmasına sübut varmı? Bəli, var. Müqəddəs kitabımızda buyurulur ki, Allah-təala tərəfindən bəzi peyğəmbərlərə mülk verilib. Mülk yəni mal, hakimlik. Bəzi peyğəmbərlərə hakimlik verilib.

**أَمْ يَحْسُدُونَ النَّاسَ عَلَى مَا آتَاهُمُ اللَّهُ مِنْ فَضْلِهِ فَقَدْ آتَيْنَا آلَ إِبْرَاهِيمَ الْكِتَابَ وَالْحِكْمَةَ وَآتَيْنَاهُمْ مُلْكًا عَظِيمًا**

Yoxsa onlar Allahın öz nemətindən bəxş etdiyi şeylərə görə insanlara həsəd aparırlar? Halbuki Biz İbrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk (hökmranlıq) bəxş etmişdik.[1]

Qurani Kərimdə Nisa surəsində buyurulur ki, biz Hz. İbrahimin nəslinə kitab vermişik, hikmət vermişik, böyük mülk bəxş etmişik. Burada Hz. İbrahimə (ə) əta olunan kitab və hikmətdəm məqsəd ona peyğəmbərlik verilməsidir. Allah kiməsə kitab və hikmət verərsə, o, nəbi (peyğəmbər) olar. Ardınca buyurulur ki, Hz.İbrahimə (ə)  bir də “mülkən əzima” (böyük mülk, əzəmətli hakimiyyət) vermişik. Əgər bu ayəni, digər ayə ilə uyğunlaşdırsaq

1 - Nisa, 54

görərik ki, bu ayədə İbrahim (ə) nəbi idi, peyğəmbər idi və sonra imam oldu. Onun peyğəmbərliyi hikmət və kitab almasıdır, imamlığı isə Allah-təalanın bu ayədə buyurduğu "mülkən əzima" - "əzəmətli mülk (hakimiyyət)"dir.

Bu ayədən ayrı məqam da düşünülür. Hz.İbrahimin nəslinin əzəmətli hakimiyyətə sahib olması nəyin əsasındadır? Allah-təala ilk öncə buyurur ki, "İbrahimin nəslinə kitab və hikmət vermişik", ardınca buyurur ki, "əzəmətli hakimiyyət" bəxş etmişik. Məlumdur ki, bu "əzəmətli hakimiyyət" kitab və hikmət istiqamətindədir. Yəni sırf hakimlik deyil, dini həyata keçirməkdir. Əgər sırf hakimlik olsaydı Allah onu "əzəmətli hakimiyyət" adlandırmazdı. Allah yanında dünyanın sırf maddi yönümünün elə bir əzəməti və əhəmiyyəti yoxdur. Ayədə də buyurur ki, dünya malı dəyərsizdir. Allah bu "mülk və hakimliyi" (imamlıq məqamını) əzəmətli adlandırıb. Deməli məlum olur ki, bu hakimiyyət mənəvi istiqamət daşıyır. Yəni dini həyata keçirməyin hökmdarlığıdır.

Ayədə buyurulur ki, "kitab və hikmət vermişdik və onlara böyük mülk (hökmranlıq) bəxş etmişdik.". Məlumdur ki, bu mülk, kitab və hikmət istiqamətindədir. Sonra Quranı araşdırsanız görərsiniz ki, orada çoxlu ayələr var ki, orada məhz bu növ "mülkə" işarə edilir. Orada qeyd olunur ki, Allah-təala bəzi peyğəmbərlərə "mülk" vermişdir. Həzrəti Davud (ə) peyğəmbər haqqında Bəqərə surəsində, 251-ci ayədə buyurulur:

وَآتَاهُ اللَّهُ الْمُلْكَ وَالْحِكْمَةَ وَعَلَّمَهُ مِمَّا يَشَاءُ

Allah Davuda həm hökmranlıq, həm də hikmət (peyğəmbərlik) verdi.[1]

Həmçinin Sad surəsi, 20-ci ayədə oxuyuruq:

وَشَدَدْنَا مُلْكَهُ وَآتَيْنَاهُ الْحِكْمَةَ وَفَصْلَ الْخِطَابِ

Biz onun mülkünü (səltənətini) möhkəmləndirmiş, ona hikmət (peyğəmbərlik) və (haqla batili ayırd edib) düzgün hökm vermək qabiliyyəti bəxş etmişdik.[2]

---

1 - Bəqərə, 251
2 - Sad, 20

Burada mülk və hikmət ikisi birgə qeyd olunub. Yəni Hz. Davuda (ə) həm peyğəmbərlik və həm də imamlıq məqamı verilib. Hz.Davud həm peyğəmbər idi, həm hökmdar.

Başqa bir ayəyə əsasən, Həzrət Süleyman (ə) buyurur ki, Allah məni bağışla, mənə elə bir mülk ver ki, indiyə qədər heç kimə verməmisən.

قَالَ رَبِّ اغْفِرْ لِي وَهَبْ لِي مُلْكًا لَا يَنْبَغِي لِأَحَدٍ مِنْ بَعْدِي

(Süleyman dua edib) dedi: “Ey Rəbbim! Məni bağışla və mənə elə bir mülk (səltənət) ver ki, məndən sonra (o cürəsinə) heç kəs nail ola bilməsin.[1]

Talut haqqında Qurani Kərimdə Bəqərə surəsində qeyd olunur ki, bəni-İsrail övladları peyğəmbərlərinə bizə bir rəhbər, hökmdar seç deyə müraciət edirlər. Peyğəmbərləri məhz Talutun onlara rəhbər ola biləcəyini xəbər verir. Amma bəni-İsrail övladları etiraz edərək, Talutun onlara rəhbər və hakim ola bilməyəcəyini iddia edirlər. Onun var-dövlətsiz və tanınmamış bir şəxs olduğunu səbəb göstərirlər.

Bəqərə 246-cı ayədə buyurulur:

أَلَمْ تَرَ إِلَى الْمَلَإِ مِنْ بَنِي إِسْرَائِيلَ مِنْ بَعْدِ مُوسَى إِذْ قَالُوا لِنَبِيٍّ لَهُمُ ابْعَثْ لَنَا مَلِكًا نُقَاتِلْ فِي سَبِيلِ اللَّهِ

(Ya Rəsulum!) Musadan sonra bir dəstə (tanınmış) İsrail övladının başına gələnləri görmədinmi? Onlar öz peyğəmbərinə: “Bizə bir hökmdar göndər ki, (onun köməyi ilə) Allah yolunda (zülmkarlarla) vuruşaq!” - dedilər.[2]

Ardınca buyurulur: Burada təfsirçilərin müxtəlif nəzəriyyələri vardır. Bəzilərinin fikrində burada hökmdardan məqsəd “mütləq hökmdar”dır. Bəzilərinin fikrincə isə “hərbi komandan”dır. Yaxşı onlar ölkələrinə hökmdar yoxsa qoşunlarına komandan tələb etdilər?

Bəzi alimlərin fikirinə görə, onlar “mütləq hökmdar” tələb etdilər. Onların o zamanda aralarında olan peyğəmbər, imam deyildi. O, yalnız peyğəmbər idi. Onlar da peyğəmbərə dedilər ki, bizə bir

---

1 - Sad, 35
2 - Bəqərə, 246

imam lazımdır. Onların istəyinə görə, məhz həmin peyğəmbər özü bəni-İsrail övladlarına imam seçməli idi.

وَقَالَ لَهُمْ نَبِيُّهُمْ إِنَّ اللَّهَ قَدْ بَعَثَ لَكُمْ طَالُوتَ مَلِكًا قَالُوا أَنَّى يَكُونُ لَهُ الْمُلْكُ عَلَيْنَا وَنَحْنُ أَحَقُّ بِالْمُلْكِ مِنْهُ وَلَمْ يُؤْتَ سَعَةً مِنَ الْمَالِ قَالَ إِنَّ اللَّهَ اصْطَفَاهُ عَلَيْكُمْ وَزَادَهُ بَسْطَةً فِي الْعِلْمِ وَالْجِسْمِ وَاللَّهُ يُؤْتِي مُلْكَهُ مَنْ يَشَاءُ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ

(İsrail övladının) peyğəmbəri onlara dedi: “Allah Talutu sizə hökmdar göndərdi”. Onlar isə: “Biz hökmdarlığa daha layiq ikən və ona var-dövlət verilmədiyi halda, o, necə bizə padşah ola bilər?” - deyə cavab verdilər. (Peyğəmbər onlara) dedi: “Allah sizdən ötrü onu (bəyənib) seçmiş, elm və bədəncə (qüvvəcə) ona üstünlük vermişdir. Allah Öz mülkünü (səltənətini) istədiyinə verər. Allah (Öz lütfü və kərəmi ilə) genişdir, (Allah hər şeyi) biləndir!”[1]

Bəqərə 247-ci ayədə onlara imamın seçimi və şəriti haqda onlara izah verilir. Qeyd olunur ki, “əzəmətli mülkü və hökmranlığı” məhz Allah-təala özü kimə layiq görərsə bəxş edir, nəinki bəndələr onu seçir. Həmçinin, qeyd olunur ki, imam (dini hökmdar) Allah tərəfindən seçilmiş, elm və fiziki güc sahibi olmalıdır. Allah da Talutu sizə ilahi hökmdar seçdi.

Bəni-İsrail övladları da, Talutun mülk sahibi və tanınmadığını olmadığını irəli sürdü. Allah-təala isə mülkün məhz Onun əlində olduğunu bəyan edərək, əsas şəraitin mal-mülk olmadığını və elm və qüdrətin əhəmiyyətli olmasını onlara bəyan etdi.

Qurani-Kərimin bir sıra ayələrinə əsasən müqəddəs kitabımızda “hökmdarlıq”dan məqsədin “imamlıq” olması nəzərdə tutulmuşdur. Yəni hökmdarlıq imamlıq mənasına işlənmişdir. Həmçinin, bir çox ayələrdə “mülk” terminindən də məqsəd “imamlıq” olmuşdur. Qurani-Kərimə əsasən, xüsusilə də bu ayədə də işarə edildiyi kimi, peyğəmbərlik, Allahdan vəhy almaq və imamlıq ayrı-ayrı məsələlərdir. Bunların hər biri özünəməxsus terminlərlə işlədilib. Peyğəmbərlik, hikmət ayrı məqamdır, mülk, hökmranlıq (imamlıq) ayrı məqamdır. Quranda imamlıq mülk

---

1 - Bəqərə, 247

terminiylə də işlənib. Orada göstərilir ki, nübuvvət, peyğəmbərlik, Allah Taaladan vəhy almaq ayrı məsələdi. Allah Taala ona da ayrı ibarələrlə işarə edib.

Deməli, bir sıra təfsirçilər qeyd olunan ayələrdə mülkdən məqsədin məhz imamlıq məqamı olmasına təkid edirlər. Çünki Hz.İbrahimin (ə) ailəsinə də kitab, hikmət (peyğəmbərlik) və Mülk (imamlıq) bəxş etməsilə əlaqədar ayələ də məhz bu fikri dəstəkləyir. Bu yönümdə ayələr çoxdur. Məsələn, Sad surəsi, 17-ci ayədə buyurulur:

اصْبِرْ عَلَى مَا يَقُولُونَ وَاذْكُرْ عَبْدَنَا دَاوُودَ ذَا الْأَيْدِ إِنَّهُ أَوَّابٌ

(Ya Peyğəmbər!) Onların dediklərinə səbr et və qüvvətli bəndəmiz Davudu yadına sal! Çünki o, daim Allaha sığınan bir kimsə idi.[1]

Buradakı qüdrət və hökmranlıq imamlıq məqamına işarədir. Necə ki, Allah Hz.İbrahimi imam seçdi, yəni hakim seçdi. Biz adətən təfsirlərimizdə bu mənaların verildiyini görürük. Quranın özünü araşdırırıq. Hədislərimizə istinad edirik. Nəticə alırıq ki, mülk, hökmranlıq və hakimlik hansı ayədə imamlıq mənasına işlənmişdir. Əlbəttə bir şərtlə. Ayədə qeyd olunan hökmranlıq, kitab və hikmət istiqamətində olduğu zaman imamlıq məqamı nəzərdə tutulur. İmamlıq, "həm dünyada, həm axirətdə ümumi rəhbərlik" deməkdir.

Təfsir alimləri bu fikri hədislərlə də əsaslandırırlar. Məsələn bir hədisdə qeyd olunur: Əbdul Əzim, İmam Əliyən Nəqiyə (ə) müraciət edərək, öz əqidə üsulları haqda danışır. İmamdan (ə) inanclarının doğru olub, olmadığını soruşur. İmam (ə) onun etiqadlarının düzgün olmasını ifadə edərək, təsdiqləyir. Ardınca buyurur: "İmamət dinin cilovudur, dini irəli aparandır və müsəlmanların nizam intizamıdır. Dünya imamla saleh olar. Dünya imamla düzlüyə yetişər, insanlar dünyada hərc-mərclikdən imamla qurtularlar. Namazın, zəkatın, həccin kamilliyi və vergilərin camaata çatdırılması, sədəqələrin yerinə çatdırılması, cəza qanunlarının həyata keçirilməsi və əhkam, sərhədləri qorumaq -

1 - Sad, 17

bunların hamısı imamladır. İmam Allahın halalını halal, haramını haram təyin edər. Halalını halal təyin edər, yəni Allahin halal buyurduqlarını həyata keçirər. Allahın haram buyurduqlarının qadağasını icra edər.”

Bu hədis Üsuli Kafi kitabında qeyd olunan ayənin izahında bəyan edilmişdir. Ayədəki imamlıq məqamıdan məqsədin elə ilahi hökmranlıq olamasına işarə edilmişdir.

**Üçüncü nəzəriyyə: Ayədə qeyd olunan imamlıq “Təkvini imamət” mənasınadır.**

Vilayət (rəhbərlik) iki qismə bölünür:

**1. Təşrii vilayət**

**2. Təkvini vilayət**

Təşrii vilayət, zahiri rəhbərlikdir. Təkvini vilayət isə batini rəhbərlikdir.

“Təşrii vilayət” qanuni hakimiyyət və rəhbərlikdən ibarətdir. Məsələn hökumət və məmləkətin işlərini idarə edən rəhbər, hakim təşrii vilayətə, rəhbərliyə malikdir. Yəni zahirdə insanın dünyəvi işlərinə, ictimai işlərinə başçılıq edir. Belə bir ilahi rəhbəri Allah-təala seçir və təyin edir. Elə buna görə də təşrii adlanır. Vilayət, yəni ona verilən bu vəzifəni, bu məqamı öhdəsinə alıb. Öhdəlik deməkdir bir növ. Rəhbərliyi öhdəsinə almaqdır. Hz.İbrahim (ə) bu formalı vilayətə, rəhbərliyə sahib idi. Bizim Peyğəmbərimiz Həzrət Məhəmməd (s) də belə bir rəhbərlik məqamına sahib idi. Yəni öz zamanlarının imamları idilər. Hökmdar idilər. Qanunları həyata keçirir, sülh edir, cihad edir, fərman verir və sair. Bu təşrii vilayət adlanır.

“Təkvini vilayət” isə mənəvi məqama sahib olan bir şəxsin yaranış dünyasında Allahın icazəsi ilə qanunları dəyişdirməyə qüdrəti olmasından ibarətdir. Belə şəxslər qəlblərə nüfuz edə bilir. Onları yaxşılığa doğru dəyişdirərək, müsbət mənada yönləndirə və rəhbərlik edə bilir. Təşrii vilayətə sahib şəxslər sadəcə cismlərə və şəxslərə rəhbərlik edir. Amma cisimlərə hökmranlıq ilə qəlblərə hökmranlıq etmək tamamilə fərlqlidir. Qurani-Kərimin ayələrinin bəzilərindən düşünülür ki, bir sıra insanlar o dərəcəyə çata bilərlər

ki, qəlblərə nüfuz etsinlər. Onlar Allahın müqəllibəl-qülub (qəlbləri haldan hala salan, nüfuz edərək dəyişən) məzhərinin nümunəsidir. Onlar Yer üzündə Allahın bu sifətinin, xüsusiyyətinin canişinidir.

Müqəllibəl qülub, yəni qəlbləri dəyişən. Birinə yolu göstərmək və ünvanı verməklə, birinin əlindən tutaraq o yolu birlikdə qət etmək, onu aparmaq arasında fərq vardır. Birincisi, peyğəmbərlərin fəaliyyətlərinə uyğundur. Yəni sizə yolu göstərir, ünvanı verir ki yolu tanıyıb gedəsiniz. Amma ikincisi, təkvini vilayətə sahib imamların fəaliyyətinə uyğundur. Yəni özü əlinizdən tutub sizi məqsədinizə çatdırır. Təkvin varlıq deməkdir. Təkvin, yəni insanın daxilinə, qəlbinə əhatəsi var. Bu təkvini vilayət və imamlıq Quranda da qeyd olunub.

كَلَّا لَوْ تَعْلَمُونَ عِلْمَ الْيَقِينِ * لَتَرَوُنَّ الْجَحِيمَ

Xeyr, əgər tam yəqinliklə bilsəydiniz, siz o Cəhənnəmi mütləq görərdiniz![1]

Bu təsir bir sıra insanlarda var, onlar elə bir mənəvi dərəcəyə yetişirlər ki, onların bəsirət gözləri açıq olur. Onlar bir çox şeyləri bilirlər, amma biz bilmirik. Çox şeylərə nüfuz edirlər ki, biz edə bilmirik. Quran buyurur ki, sizin yəqinə malik elminiz olsaydı, Qiyaməti görərdiniz. Məlumdur ki, Qiyaməti görmənin bu dünyada imkanı var. Lakin bunun üçün "yəqin elmi" lazımdır. Bəzi adamlar bu səviyyəyə çatırlar və başqalarına mənəvi nüfuz edə bilirlər. Təkvini vilayət, qəlblərə imamlıqdır. Təşrii vilayət isə dünyada cisimlərə, bədənlərə imamlıqdır. Təkvini vilayət qəlbi ucalığa, kamilliyə, inkişafa aparır. Bu Əllama Təbətəbainin nəzəriyyəsidir. Onun fikrincə, Allah bir nəfəri bir sıra imtahanlardan sonra imam təyin edərsə, onu sırf zahiri hökmran etməz. Bu imtahanlar boyunca onu bir sıra dərəcələrə, daxildə bir sıra mənəvi kamilliklərə çatdırar. Təkvini vilayət, yəni başqa qəlblərə təsir edə bilən mənəvi kamillik. Əgər imamlığı bu mənada qəbul etsək, onun halhazırda burada bizimlə yaxud qeyb aləmində olmasının fərqi yoxdur. Hər iki halda nüfuz edə bilir.

---

1 - Təkasur, 5-6

İmam qeybdə də olsa vəli və rəhbərdir. Çünki o münbit qəlblərə nüfuz edib ucaldır. Onun ürəyinə mənəviyyat salmaqla, bir saleh dostla tanış etməklə, başına bir hadisə gətirməklə nüfuz edir. Dünyanın səbəbləri bizim əlimizdə olmadığı üçün, insanın nə ilə hidayət olduğunu bilmirik. Yaxşı, o vasitə insanın qarşısında nə cür yaranır? Anidən insanən qəlbinə bir mənəvi hiss gələ bilər. Məgər Musanın (ə) anası öz övladını Nil çayına necə atdı? Quran buyurur: Biz onun qəlbinə ilham etdik və bunun nəticəsində O, uşağı çaya atdı.

وَأَوْحَيْنَا إِلَى أُمِّ مُوسَى أَنْ أَرْضِعِيهِ فَإِذَا خِفْتِ عَلَيْهِ فَأَلْقِيهِ فِي الْيَمِّ وَلَا تَخَافِي وَلَا تَحْزَنِي إِنَّا رَادُّوهُ إِلَيْكِ وَجَاعِلُوهُ مِنَ الْمُرْسَلِينَ

Biz Musanın anasına (ilham yolu ilə): "Onu (Musanı) əmizdir; elə ki ondan ötrü qorxdun, onu dəryaya (Nil çayına) at. (Uşağın suda boğulacağından) qorxma və (ayrılığına da) kədərlənmə. Biz onu sənə qaytaracaq, özünü də (şəriət sahibi olan) peyğəmbərlərdən edəcəyik!" - deyə bildirdik.[1]

Bu Musanın (ə) anasına Allahın təkvini hidayətidir (doğru yola yönləndirməkdir). Bir sıra insanlar da bu cür hidayət olunublar və hər zaman belə olmuşdur. Bu fiziki təsir göstərmək, xəbərdarlıq etmək, qanuna əsasən göstəriş vermək deyil. Bunlar peyğəmbərin işidir. Biz namazda deyirik: "Allah bizi düz yola hidayət et." Bəs Allahdan hansı formalı hidayət istəyirik?

## Hidayətin (doğru yola yönləndirmənin) iki forması

Hidayət iki mənadadır: Birinci məna: Doğru yolu göstərmək. İkinci məna: Məqsədə, mənzilə çatdırmaq.

Fatihə surəsində buyurulan bu ayədə məqsəd yolu göstərmək deyil.

اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ

Bizi doğru (düz) yola hidayət et (yönəlt)![2]

---

1 - Qəsəs, 7
2 - Fatihə, 6

Quranda Allah hamıya yolu göstərir. Məqsəd hədəfə çatdırmaqdır ki, "Allah bizi məqsədimizə çatdır"- deyə mənalandırılır.

Əlləma Təbətəbai yazır: Bu ayədə buyurulur ki, İbrahim peyğəmbər (ə) imam oldu, yəni "vəliyyi təkvini" - "təkvini vilayətə sahib imam" oldu. Allah onu elə bir səviyyəyə ucaltdı ki, Allahın hidayət yolunu ikinci mənada (təkvini hidayət mənasında) icra etdi.[1]

Allah dünyada etdiyi bütün işləri vasitə ilə icra edir. Heç nə vasitəsiz deyil. Hədisdə buyurulur: Allah hər işi səbəb və nəticə ilə edir. İnsanlara peyğəmbərlər vasitəsilə kəlamını çatdırır. Allah birbaşa fiziki olaraq bizə nəyisə buyurmur. Allah cisim deyil ki, birbaşa Özü gəlib bizə oruc tut, namaz qıl desin. Peyğəmbərə vəhy edir, o da bizə çatdırır. Deməli, təbii ki, hidayətin birinci mənası "dini anlatmaq" vasitəsi nəbi və peyğəmbərdir.

Hidayətin ikinci mənasında olan "məqsədə çatdırmaq" vasitəsi imamdır. Peyğəbər təşrii hidayət üçün insanlara vasitədir. İmam təkvini hidayət və məqsədə çatdırmaq üçün vasitədir. Çünki imam kamilliyi göstərmək üçün deyil, kamala çatdırmaq üçün bir vasitədir. Kamilliyi göstərmək peyğəmbərin öhdəsindədir. Kamilliyə çatdırmaq isə imamın. İmam özü bu məqama çatıb və dərk edib. Yalnız dərk edən şəxs, kimisə o məqama aparıb çatdıra bilər. Amma bütün peyğəmbərlər imam olmadığı üçün, bu vəzifəni icra edə bilmirlər. Yalnız hidayətin birinci mənasını icra edirlər.

İmamətə çatmaq üçün mühüm şərtlər və imtahanlar var. İmam özü bu məqama, kamilliyə çatdıqdan sonra kimisə oraya yönləndirə bilər. Özü o məqama çatmayıbsa, başqasını necə aparasın ki?

Əllamə Təbatəbainin fikrincə, bir nəfər imam olanda başqa qəlblərə nüfuz edir, hidayət və doğru yola yönəltmək onun əlində olur. Bu həmişə yer üzündə hidayət üçün lazımdır. İmam insanları kamilliyə çatdırmalıdır. Ayədə imamlığın üç mənasını izah etdik. İmamət nə zamansa ikinci mənada olmasa, üçüncü mənada hökmən mövcud olmalıdır. Deməli, əslində təkvini vilayət həmişə var.

1 - Əl-Mizan, c. 1, səh. 237

Daim Allah tərəfindən münbit qəlbləri kamilliyə ucaldan bir şəxs mövcuddur. Bu həmişə belə olur. Yer üzündə iki nəfər belə qalsa, onlardan biri imamdır. Yer üzünün həmişə təkvini vəlisi var. Heç vaxt yer üzü vəlisiz deyil.

Münbit qəlblərin kamilliyə çatması üçün bir imam lazımdır. Məhz onun feyz və doğru yola yönləndirməsi ilə həmin qəlblərin sahibləri kamilliyə çatır. Allah bunu səbəb-nəticə sistemi ilə verir. Onu icra edən səbəb də imamdır. Bu rəhməti Allahdan alıb, insana ötürən imamdır. İmam ilahi hidayət üçün feyz və lütfün vasitəsidir. İmam olmasa yer üzü (məqsədinə çatmayacağı üçün) dağılmalı, kamillik qapısı bağlanmalıdır. Bəs haradan bu nəticəyə gəlmişik? Sübutumuz nədir?

Əllamə Təbatəbai yazır: İmamın təkvini hidayəti icra etməsi haqda fikrimiz, Qurani-Kərimin ayəsinə əsaslanır. Çünki ayədə buyurulub ki, qəlbləri doğru yola təkvini hidayətlə yönləndirən məhz imamdır.[1] Məsələn Ənbiya surəsinin 73-cü ayəsində buyurur:

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاءَ الزَّكَاةِ وَكَانُوا لَنَا عَابِدِينَ

Biz onları (İbrahim, İshaq, Yəqub) əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik. Biz onları xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.[2]

Doğrudur, peyğəmbərlər də hidayət edir. Lakin onlar vəhy vasitəsilə hidayət edir, təşrii hidayət edirlər. Amma ayədə əmrdən söhbət açılır. Bəs əmr nədir?

Səcdə surəsi 24-cü ayə buyurur:

وَجَعَلْنَا مِنْهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا لَمَّا صَبَرُوا وَكَانُوا بِآيَاتِنَا يُوقِنُونَ

Çətinliklərə səbr etdikləri və ayələrimizə ürəkdən inandıqları üçün Biz onlardan (İsrail oğullarından) əmrimizlə (insanlara) haqq yolu göstərən rəhbərlər təyin etmişdik.[3]

---

1 - Əl-Mizan, c. 1, səh. 273-274
2 - Ənbiya, 73
3 - Səcdə, 24

Ayədən göründüyü kimi, peyğəmbərlərin vəzifəsi vəhylə hidayətdir, yəni doğru yolu göstərmək. İmamın vəzifəsi isə əmrlə hidayətdir.

Əllamə Təbatəbai yazır: Quranda əmrin mənası, bir dəfəlik yaranış deməkdir. Ani yaranış. Müqəddəs Kitabımızda buyurulur:

وَمَا أَمْرُنَا إِلَّا وَاحِدَةٌ كَلَمْحٍ بِالْبَصَ

Bizim buyurduğumuz bir göz qırpımında yerinə yetər! (Hər hansı bir şeyi yaratmaq istədikdə ona bircə dəfə: “Ol!” - deyərik, o da dərhal olar!)[1]

Allahın yaradılış aləmi iki yerə bölünür. Bir “xəlq” (tədrici yaradılış) aləmi, bir də “əmr” (ani yaradılış) aləmi. Xəlq aləmi hazırkı dəyişilən, maddi dünya aləmidir. Xəlq aləmində yaranış tədricidir. Məslən bir uşaq doqquz aya təkmilləşir. Nütfədən çevrilib körpə uşaq olmağı doqquz ay çəkir. Çünki xəlq aləmidir, tədrici dəyişilmədir.

Əmr aləmində isə yaranış və dəyişilmək bir dəfəlikdir. Yasin surəsində buyurulur:

إِنَّمَا أَمْرُهُ إِذَا أَرَادَ شَيْئًا أَنْ يَقُولَ لَهُ كُنْ فَيَكُونُ

Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) buyurduğu ona ancaq: “Ol!” deməkdir. O da dərhal olar.[2]

Əmr aləmində heç bir şey tədrici deyil. “Ol desə olar”, ani yaradılışdır. Məsələn ruhun yaranışı əmr aləminə aiddir. Ruhun yaranışı tədrici deyil. Allah-təala buyurur:

يَا أَيُّهَا النَّاسُ إِنْ كُنْتُمْ فِي رَيْبٍ مِنَ الْبَعْثِ فَإِنَّا خَلَقْنَاكُمْ مِنْ تُرَابٍ ثُمَّ مِنْ نُطْفَةٍ ثُمَّ مِنْ عَلَقَةٍ ثُمَّ مِنْ مُضْغَةٍ مُخَلَّقَةٍ وَغَيْرِ مُخَلَّقَةٍ لِنُبَيِّنَ لَكُمْ وَنُقِرُّ فِي الْأَرْحَامِ مَا نَشَاءُ إِلَى أَجَلٍ مُسَمًّى ثُمَّ نُخْرِجُكُمْ طِفْلًا

Ey insanlar! Öləndən sonra yenidən diriləcəyinizə şübhəniz varsa (ilk yaradılışınızı yada salın). Həqiqətən, Biz sizi (babanız Adəmi) torpaqdan, sonra mənidən (nütfədən), sonra laxtalanmış qandan, daha sonra müəyyən, tam bir şəklə düşmüş (vaxtında doğulmuş) və düşməmiş (vaxtından əvvəl doğulmuş) bir parça ətdən yaratdıq ki,

---

1 - Qəmər, 50
2 - Yasin, 82

(qüdrətimizi) sizə göstərək. İstədiyimizi ana bətnində müəyyən bir müddət (adətən, doqquz ay) saxlayar, sonra sizi (oradan) uşaq olaraq (doğurub) çıxardarıq.[1]

Bu mərhələri yaradılışdır, xəlq aləmidir. Yaradılışda xəlq aləmi tədricidir. Orada hər şey tədricidir. Amma əmr aləmi tədrici deyil. Allah ruhu tədrici yaratmır. Ruh bir dəfəlik yaranır. Mələklər də belədir. Mələklər əmr aləminə aiddir.

Hz.İbrahim (ə) peyğəmbər məhz əmr aləmi ilə tanış olmaq istəyirdi. "Ol dedikdə" ani şəkildə necə var olmağın şahidi olmaq istəyirdi. Ona görə bu cərəyandan sonra Allah onu mələkut aləmi ilə tanış etdi. Qurani-Kərimdə bu haqda buyurulur:

وَإِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّ أَرِنِي كَيْفَ تُحْيِي الْمَوْتَى قَالَ أَوَلَمْ تُؤْمِنْ قَالَ بَلَى وَلَكِنْ لِيَطْمَئِنَّ قَلْبِي قَالَ فَخُذْ أَرْبَعَةً مِنَ الطَّيْرِ فَصُرْهُنَّ إِلَيْكَ ثُمَّ اجْعَلْ عَلَى كُلِّ جَبَلٍ مِنْهُنَّ جُزْءًا ثُمَّ ادْعُهُنَّ يَأْتِينَكَ سَعْيًا وَاعْلَمْ أَنَّ اللَّهَ عَزِيزٌ حَكِيمٌ

(Ya Rəsulum!) Xatırla ki, İbrahim: "Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər!" - dedikdə (Allah): "Məgər (ölüləri diriltməyimə) inanmırsan?" - buyurmuşdu.

"Bəli, inanıram, lakin ürəyim sakit (xatircəm) olmaq üçün (soruşdum)", - deyə cavab vermişdi. (Bu zaman Allah ona) buyurmuşdu: "Dörd cür (cins) quş götürüb (səhv salmamaq üçün) onlara diqqətlə bax, (onları parçalayaraq bir-birinə qatandan) sonra hər dağın başına onlardan bir parça at, sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət, hikmət sahibidir!"[2]

İbrahim istəyirdi ki, əmr aləmi nə demək olduğunun şahidi olsun. İnsanın da iki çöhrəsi vardır. Maddı çöhrəsi və bədəni tədriclə dəyişilir. Amma ruhu və mənliyi sabitdir. Çünki ruhu və mənliyi əmr aləminə aiddir. Məsələn insan kiçik yaşlarından məktəbdə təhsil alır və fiziki olaraq tədriclə inkişaf etdiyinin şahidi oluruq. Amma ruhu və mənliyi eyni qalır. Mən filan məktəbdə təhsil alırdım dediyi zaman, həmin "mən" cismi olaraq fərqli, amma əsl

1- Həcc, 5
2 - Bəqərə, 260

"mən" olaraq eynidir. "Ruh"da, "Mən"də bir dəyişiklik baş verməyib.

Merac da əmr aləminə aiddir. Meracda Allah Məhəmməd (s) peyğəmbəri elə əmr ilə tanış edirdi.

Deməli, əmr aləmi tədrici yaradılış deyil, ani yaradılışdır. Qəmər surəsi 50-ci ayədə buyurulur ki, "Bizim buyurduğumuz bir göz qırpımında yerinə yetər!" Göz qırpımı necədirsə əmr aləmindəki var oluş da elədir. Qurani-Kərimdə buyurulur:

وَيَسْأَلُونَكَ عَنِ الرُّوحِ قُلِ الرُّوحُ مِنْ أَمْرِ رَبِّ

"Səndən ruh haqqında soruşurlar de ki, Ruh rəbbimin əmridir."[1]

Bəzi insanlar bu ayəni səhv tərcümə edib deyirlər ki, ruha qarışmayın. Xeyr, ayədə belə deyilmir. Buyurulur ki, ruh əmr aləminə aiddir. Ruhu anlamaq üçün əmr aləmini anlamaq potensialı olmalıdır. Bu potensial da yalnız Allahın seçdiyi insanlarda var, adi insanlarda yoxdur.

Qurani-Kərimdə bir ayədə buyurulur ki, xəlq də Allahındır, əmr də Allahındır. Əllamə Təbatəbai bu növ ayələrə istinad edərək bəyan edir ki, iki növ yaradılış aləmi: xəlq aləmi və əmr aləmi var.

أَلَا لَهُ الْخَلْقُ وَالْأَمْرُ

Bilin ki, xəlq də, əmr də Ona məxsusdur.[2]

Əmr aləmi həmin "venue" "mələkut aləmidir". Eyni mənalı terminlərdən biri də "mələkut"dur. Bu aləmin batinidir. Hər varlığın zahiri və batini var. Mənim bədənim, zahirim xəlq aləminə aiddir, mənim ruhum isə əmr aləminə, mələkuta aiddir. Mələkuta aid olduğunu hardan deyirik? Yasin surəsində buyurulur:

فَسُبْحَانَ الَّذِي بِيَدِهِ مَلَكُوتُ كُلِّ شَيْءٍ وَإِلَيْهِ تُرْجَعُونَ

Hər şeyin mələkutu əlində olan (Allah) pakdır, müqəddəsdir. Siz də (qiyamət günü dirilib) Onun hüzuruna qaytarılacaqsınız![3]

---

1 - İsra,85. Bu haqda hədislərimizdə geniş məlumat verilib: Koleyni, c. 8, səh. 305, hədis. 472; Məclisi, Biharül-ənvar, c. 7, səh. 36; c. 12, səh. 61

2 - Əraf, 54

3 - Yasin, 83

Hər şeyin mələkutu Allahın əlindədir. Məlumdur əmr mələkuta aiddir, yəni desə ol olar. Bu ayədən düşünülür ki, təkcə insanın yox, hər şeyin mələkutu var.

Biz insanda bədən və ruhun olduğunu başa düşürük. Maddi varlıqda olan mələkutu görmürük. Qurani-kərim buyurur:

وَلِلَّهِ يَسْجُدُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ مِنْ دَابَّةٍ وَالْمَلَائِكَةُ وَهُمْ لَا يَسْتَكْبِرُونَ

Göylərdə və yerdə olan (bütün) canlılar, hətta mələklər belə heç bir təkəbbür göstərmədən Allaha səcdə edərlər![1]

Başqa bir ayədə oxuyuruq:

وَلِلَّهِ يَسْجُدُ مَنْ فِي السَّمَاوَاتِ وَالْأَرْضِ طَوْعًا وَكَرْهًا وَظِلَالُهُمْ بِالْغُدُوِّ وَالْآصَالِ

Göylərdə və yerdə kim varsa, (özləri də), kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edər![2]

Deməli, əslində onlar da səcdə edirlər, amma biz görmürük. Quş da danışır, amma biz görmürük. Lakin imam mələkut aləmi ilə tanışdır. Çünki qəlblə əhatəsi var. Ruh əmr aləminə aiddir. Ona görə o ruha nüfuzu ilə təsir edir.

Əllamə buyurur: İmam əmr ilə hidayət edir. Peyğəmbər isə vəhy ilə hidayət edir. Ona görə imam insanı doğru yola yönləndirdikdə, onu birbaşa hədəfə aparır, yəni çatdırır. Peyğəmbərin isə çatdırmaq vəzifəsi yoxdur, sadəcə yol göstərmək vəzifəsi var.

قُلْ أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ فَإِنْ تَوَلَّوْا فَإِنَّمَا عَلَيْهِ مَا حُمِّلَ وَعَلَيْكُمْ مَا حُمِّلْتُمْ وَإِنْ تُطِيعُوهُ تَهْتَدُوا وَمَا عَلَى الرَّسُولِ إِلَّا الْبَلَاغُ الْمُبِينُ

Əgər (Peyğəmbərin sözlərindən) üz döndərsəniz, (bilin ki) onun vəzifəsi ancaq ona tapşırılanı, sizin də vəzifəniz ancaq sizə tapşırılanı yerinə yetirməkdir. Əgər ona itaət etsəniz, doğru yolu tapmış olarsınız. Peyğəmbərin öhdəsinə düşən isə yalnız (dini) açıq-aşkar təbliğ etməkdir.[3]

Qurani-Kərimdə oxuyuruq:

مَا عَلَى الرَّسُولِ إِلَّا الْبَلَاغُ وَاللَّهُ يَعْلَمُ مَا تُبْدُونَ وَمَا تَكْتُمُونَ

---

1 - Nəhl, 49
2 - Rəd, 15
3 - Nur, 54

Peyğəmbərin üzərinə düşən vəzifəsi ancaq (Allahın əmrlərini insanlara) təbliğ etməkdir.[1]

Aydın çatdırmaq peyğəmbərlik vəzifəsidir. İmamın vəzifəsi münbit qəlbləri kamala çatdırmaqdır.

Qəlbi münbit olmayan insanların da imamı var. Onların imamı şeytandır. Şeytan da vəlidir.

تَاللَّهِ لَقَدْ أَرْسَلْنَا إِلَى أُمَمٍ مِنْ قَبْلِكَ فَزَيَّنَ لَهُمُ الشَّيْطَانُ أَعْمَالَهُمْ فَهُوَ وَلِيُّهُمُ الْيَوْمَ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

Allaha and olsun ki, səndən əvvəl də ümmətlərə peyğəmbərlər göndərmişdik. Şeytan onlar öz (çirkin) əməllərini xoş göstərmişdi. Bu gün Şeytan onların dostudur (havadarıdır). Onlar (qiyamət günü) şiddətli əzaba düçar olacaqlar![2]

Şeytanın da fasiq insanlara "təkvini hidayəti" var. O da insanların qəlbinə nüfuz edir. Vəsvəsə fasiq qəlbə nüfuzdur. İmam isə saleh qəlblərə nüfuz edir. İnsan nəsə becərmək istəsə, imam o toxuma su tökür və günəş kimi şua verir ki, cücərsin. İnsan tikan olmağını istəsə, onda şeytan su tökür, onu bəsləyir. Allah da vəlidir, zülmətlərdən nura çıxarır. Allahın vəliliyini imam həyata keçirir. İmam nümayəndəsidir, xəlifəsidir, vasitəçisidir.

1 - Maidə, 99
2- Nəhl, 63

## Dərsin xülasəsi

Bəqərə surəsi, 124-cü ayədə imamlıq məqamından məqsədin nə olması haqda üç nəzəriyyə irəli sürülüb:

Birinci nəzəriyyə: Ayədə qeyd olunan "İmamlıq məqamı" lüğəvi mənadadır.

İkinci nəzəriyyə: Ayədə qeyd olunan "İmamlıq məqamı" terminoloji mənadadır.

Üçüncü nəzəriyyə: Ayədə qeyd olunan imamlıq "Təkvini imamət" mənasınadır.

Vilayət (rəhbərlik) iki qismə bölünür: 1.Təşrii vilayət 2.Təkvini vilayət.

Təşrii vilayət, zahiri rəhbərlikdir. Təkvini vilayət isə batini rəhbərlikdir.

"Təşrii vilayət" qanuni hakimiyyət və rəhbərlikdən ibarətdir. Məsələn hökumət və məmləkətin işlərini idarə edən rəhbər, hakim təşrii vilayətə, rəhbərliyə malikdir. Yəni zahirdə insanın dünyəvi işlərinə, ictimai işlərinə başçılıq edir. Belə bir ilahi rəhbəri Allah-təala seçir və təyin edir. Elə buna görə də təşrii adlanır.

"Təkvini vilayət" isə mənəvi məqama sahib olan bir şəxsin yaranış dünyasında Allahın icazəsi ilə qanunları dəyişdirməyə qüdrəti olmasından ibarətdir. Belə şəxslər qəlblərə nüfuz edə bilir. Onları yaxşılığa doğru dəyişdirərək, müsbət mənada yönləndirə və rəhbərlik edə bilir.

Əllamə Təbatəbainin fikrincə, bir nəfər imam olanda başqa qəlblərə nüfuz edir, hidayət və doğru yola yönəltmək onun əlində olur. Bu həmişə yer üzündə hidayət üçün lazımdır. İmam insanları kamilliyə çatdırmalıdır.

Ayədə imamlığın üç mənasını izah etdik. İmamət nə zamansa ikinci mənada olmasa, üçüncü mənada hökmən mövcud olmalıdır. Deməli, əslində təkvini vilayət həmişə var. Daim Allah tərəfindən münbit qəlbləri kamilliyə ucaldan bir şəxs mövcuddur.

Şeytanın da fasiq insanlara "təkvini hidayəti" var. O da insanların qəlbinə nüfuz edir.

## Üçüncü dərs

## İmamlıq məqamını şərtləri

**Birinci şərt: Məsum olmaq (günaha bulaşmamaq)**

Məsum eyni zamanda zalım olmayan deməkdir. Hər günah sahibi, istər böyük olsun, istərsə də ən kiçik günah olsun zalım sayılır. Çünki günah etməklə ən azı özünə zülm etmişdir. Deməli məsum şəxsi (günahsız insanı) Allahdan başqa heç kim tanıya bilməz. Çünki, onu məsum edən yəni günahlardan pak edən Uca Allah-Taaladır. Əgər imam zalım (günahkar) olmamalıdırsa, deməli Onu Allah seçməlidir. Çünki Alladan başqa heç kimsə başqasıın zalım olub-olmadığını bilmir. Hədislərə baxsaq görərik ki, günahlar təkcə bədən üzvləri ilə olmur, qəlblə də olur, duyğularla da olur. İnsan niyyətlə də günah edə bilər, məsələn: riya, həsəd daxildən qaynaqlanan günahlardandır. Bir sıra günahlar var ki, qəlbdədir. Allah-Taala buyurur ki, zalım şəxs imam ola bilməz.

Qurani-Kərimdə buyurulur:

**وَإِذِ ابْتَلَى إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا قَالَ وَمِنْ ذُرِّيَّتِي قَالَ لَا يَنَالُ عَهْدِي الظَّالِمِينَ**

“Xatırla o zamanı ki, İbrahimi öz Rəbbi[1] kəlmələrlə (müxtəlif vasitələrlə) imtahana çəkdi və o, imtahanları tamamladı (onların öhdəsindən layiqincə gəldi). Bu zaman Allah ona buyurdu: “Səni insanlara imam təyin etdim!” İbrahim “nəslimdən necə” (onları da imam qərar verəcəksənmi) - soruşduqda Allah buyurdu: “Mənim əhdim (imamlıq məqamı) heç vaxt zalımlara çatmaz! (Və bu məqama yalnız sənin pak və məsum övladların layiqdir!)”[2]

Yəni imam mütləq məsum olmalıdır. Əgər zalım şəxs imam ola bilməzsə, deməli imam məsum olmalıdır, onu da yalnız Allah-Taala seçə bilər, başqası seçə bilməz. İmamı Allah-Taala

1 - Rəb ərəb dilində - insanın həm sahibidir, həm də onu idarə edir.
2 - Bəqərə, 124

seçməlidir, xalq seçə bilməz. Bu ayədə ikinci bəhsimiz budur ki, imam hansı şəraitə malikdir? Beləliklə aydın oldu ki, imamət, hətta nübuvvətdən də ağır şəraitə malikdir. İmamət məqamı adi nübuvvətdən yuxarı səviyyədədir. Elə olmasaydı İbrahim (ə) peyğəmbər olduğu halda imtahan olunmazdı ki, imamlıq məqamına seçilsin. İmamət nübüvvətdən aşağı səviyyədə olsaydı, onda gərək Hz.İbrahim (ə) günaha dəvət edilməli idi ki, cəzalandırılmalı idi ki, məqam və rütbə cəhətindən aşağı ensin.

Allah-Taala buyurur ki, "İbtila"-"imatahana çəkdik", yəni Hz.İbrahim (ə) imtahandan çıxdıqdan sonra imam oldu. Deməli, peyğəmbərlik məqamında olan bir şəxsi imtahana və sınağa çəkib onu imamlıq məqamı ilə mükafatlandırırsa, deməli imamlıq məqamı peyğəmbərlik məqamından üstündür. Beləliklə, imamət məqamının şərtləri və şəraiti nübuvvət məqamının şərtindən və şəraitindən ağır olmalıdır. Əgər nəbi məsumdursa imamlığın şərti minimum məsumluq olmalıdır, amma bu məsumluqdan da ağır vəziyyətdir. Hz.İbrahim imtahan olundu və imam oldu. Bu birinci faktdır. Bu məsələdə ikinci fakt zalımlıq (günahlarlıq) məsələsidir. Zalım olmaq, insanın günah edib və hər günah edəndə özünə etdiyi zülm mənasınadır. Belə şəxs imam ola bilməz.

Deməli, bu ayədən bir neçə məsələ bizə aydın oldu. Birinci budur ki, imamı Allah seçir. İkinci budur ki, imam məsum olmalıdır. Üçüncü isə imamlıqdan məqsəd həm təkvini imamalıqdır, həm də təşrii imamlıq. İmamlıq deyəndə həm hakimlik başa düşürük, həm də (ləyaqəti, qabiliyyəti olan) insanların qəlblərinə nüfuz edən, qəlblərini əhatə edən olduğunu başa düşürük. İmam əməlləri görür. Bunun mənası o deyil ki, zahiri əməlləri gözlə görür. Biz də zahiri əməlləri görürük. İmam,əməllərin bu düz və ya səhv əməl olmasını görür. Quranın məntiqinə əsasən Qiyamət günü əməllərimizə şahidlərdən biri imamdır. İmam elə bir şəraitdə əməllərimizə şahid ola bilər ki, insanların qəlbləri ilə rabitəsi, əlaqəsi olsun. Çünki əməlin dəyəri niyyət ilədir. Niyyət də qəlblərdədir. Üsuli-Kafidə olan hədislərə əsasən, bizim əməllər imamlara təqdim olunur. Belədirsə imamın insanların qəlbinə əhatəsi olmalıdır. Əməlin

mahiyyəti niyyətdir. Əməlin dəyərini təşkil edən onun zahiri deyil. Əməlin dəyərini ehtiva edən, onun kökü olan niyyətdir. Əgər mən namazı riyakarlıqla qılsam namaz batil olacaq. O riyakarlıqla qılanan namaz şeytan əməlidir. İmamlara da əməlləri göstərirlər, təqdim edirlər. Hədisdə buyurulduğu kimi, imamlar Allahın yer üzündəki nurudur, o nuru qəlblərə saçırlar. And olsun Allaha, imam o nurdur ki, insanların qəlbinə nazil olur. And olsun ki, Allahın nuru möminlərin qəlbində günəşin nurundan da parlaqdır. And olsun Allaha, imam möminlərin qəlbini nurlandırır. Bunlar hamısı ona görə Möminlərin qəlbləriylə əlaqələndiririk ki, hədislərdə imamın qəlblərlə əlaqəsi olduğu göstərilir İmam təkvini vilayətə malikdir. Bu qeyd etdiyimiz məsələ, Əllamə Təbatəbayinin elmi nəzəridir.

Üç nəzəriyyə qeyd etdik. Birinci, ayədə imamlıqdan məqsədin nübüvvət mənasına olması nəzəriyyəsi, bəziləri burada imamı "nəbi" mənasına təfsir edir. Qeyd etdik ki, bu düzgün baxış deyil. Bəziləri imamı "mülk", "hakimlik" mənasına təfsir edirlər. Bunu bir şərtlə qəbul edərik ki, "kitab" və "hikmət" istiqamətində olsun. Üçüncü mənada imam isə "təkvini vilayət"ə malikdir, qəlblərə nüfuz edir və onları əhatə edir. Bu ikinci və üçüncü nəzəriyyə bir-biri ilə zidd deyil. Biri imamətin zahiri simasıdır, o biri imamətin daxili simasıdır. Biri bizə görününən simasıdır, o təşrii vilayətdir. Biri bizə zahirdə görünməyən simasıdır, o isə təkvini vilayətdir. Bunların ikisinə də imam malikdir.

Düzdür, Əllamə Təbətəbai ayənin təfsirini üçüncü nəzəriyyəyə əsasən bəyan edir, lakin başqa sözlərində, kitablarında hər iki mənadan da istifadə edir. Məsələn, alman şərqşunası Hanri Koban ilə Əllamə Təbətəbai imamət haqqında müsahibə edirdi. Onun oradakı sözlərindən belə nəticəyə gəlmək olar ki, Əllamə Təbatəbai imaməti qeyd etdiyimiz son iki mənada qəbul edir. Təkcə "təkvini vilayət" mənasında məhdudlaşdırmır. Yəni deyəndə ki, Allah bir nəfəri imam edib həm ona təşrii vilayət verib, yəni hakimlik verib, həm də təkvini vilayət, qəlblərə nüfuz etmək qüdrəti verib. Təşrii vilayət elə özü də Təkvini vilayətə xidmət edir. Bu dərəcəyə çatan

bir şəxs elə bir səviyyəyə çatıb ki, qəlblərə nur bəxş edir. Çünki, Allah-Taala ona batini hakimlik vermişdir. Burada Hz.İbrahimı (ə) imtahanlarla tərbiyə edir, ucaldır o məqama. Hadisələrdən belə çıxır ki, Hz.İbrahim (ə) bu sınaqlardan çıxandan sonra imam olur.

## İmamlıq məqamı ilahi əhd-peyman ünvanında

Bu mövzunu hələlik bir kənara qoyub, yenə də təkvini vilayət haqda bəhsimizə davam edəcəyik. Bu məsələdə bir cümlə ilə fikrimi tamam etmək istərdim. Məlum oldu ki, Allah-Taala Bəqərə surəsi, 124-cü ayədə buyurur: "İbrahim, mən səni camaata imam etdim." Bu hansı mənayadır? Unutmayaq ki, imamlıq da İslamda kiçik bir məqam deyil. Sonra Hz. İbrahim deyir: mənim nəslimə də imamlıq çatar mı? Buyurur, mənim əhdim zalımlara çatmaz. Yaxşı, Allah-Taalanın bu cavabı ilə Hz.İbrahimin (ə) sualı arasında hansı rabitə və əlaqə vardır? Adətən nə sual verilirsə ona aid cavab verilir. Hz.İbrahim soruşur ki, imamlıq nəslimdən olan şəxslərə də çatar mı? Allah-təala cavab verir ki, "Mənim əhd-peymanım zalımlara çatmaz".

Hz. İbrahimin (ə) sualı imamlıq haqqındadır, Allahın cavabı isə əhd-peymanı haqqındadır. Belədirsə, o sual bu cavabla necə uyğun gəlir? Elə bil mən sizdən soruşuram ki; "Həsən gəlibmi?" Siz də deyirsiniz ki; "Xeyr, Hüseyn gəlməyib". Axı mən sizdən Həsən haqqında soruşuram, siz niyə Hüseyndən danışırsınız? Bu sual o cavabla nə vaxt münasib, uyğun olar? Onda ki, Hüseynin gəlişi ilə Həsənin gəlişi arasında əlaqə olsun. Burada Hz.İbrahim (ə) soruşur ki, imamət mənim nəslimə çatarmı? Allah-Taala buyurur ki, mənim əhdim zalımlara çatmaz. Yalnız imamət Allahın əhdi olarsa, onun seçimi və qərarı olarsa bu sualın cavabı düzgün sayılar. Deməli, imamət Allahın əhdidir. İmamı Allah seçməlidir, çünki imamət Allahın əhdidir. Allah onunla sanki müqavilə bağlayır. Allah əhd-peyman bağlayır. Bir şəxslə əhd-peyman bağlayıb onu imam edir. İmamı insanlar seçmirlər. İmam Allahın əhdidir. Kimlə əhd-peyman bağlanırsa o imam olur. Bir şəxs camaatın seçimi ilə imam ola bilməz. İmamət Allahla bir şəxsin rabitəsidir, şəxslə camaatın

rabitəsi deyil. Əhd, yəni rabitə, əhd-peyman. Mən bir nəfərlə peyman bağlayıramsa bu əhd olur. Allah burda deyir ki, imamət Allahla o şəxsin arasında bir əhd-peymandır. Buyurur ki, mən də bunu yəni öz əhdimi zalımlara nəsib etmirəm. O mənim peymanımdır, zalımlara nəsib olmaz. Bəs "zalım" kimdir? İnsanları incitməyə, insanların malından oğurluq etməyə, insanları öldürməyə zülm deyirlir. Haqsızlıq etmək zülmdür. Haqsızlıq edən isə zalımdır. Qurani-Kərimə əsasən, hər günah zülmdür. Zalım olmayan məsumdur. Bu günahsız hər kəs məsumdur deməkdir. Niyə? Qurani Kərimdə nəyə əsasən belə düşünülür? Məsələn, Quran şirkə zülm deyir. Loğman (ə) oğluna müraciət edərkən deyir ki, "Ey mənim balaca balam, (məqsədi moizə edərkən məhəbbətlə nəsihət etməyin əhəmiyyətidir.) Allaha şərik qoşma. Şirk böyük zülmdür. Kim Allaha şərik qoşsa zalımdir."

وَإِذْ قَالَ لُقْمَانُ لِابْنِهِ وَهُوَ يَعِظُهُ يَا بُنَيَّ لَا تُشْرِكْ بِاللَّهِ إِنَّ الشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ

(Ya Rəsulum!) Yadında olsun ki, bir zaman Loğman öz oğluna nəsihət edərək belə demişdi: "Oğlum! Allaha şərik qoşma. Doğrudan da, Allaha şərik qoşmaq böyük zülmdür! (Ağır günahdır!)"[1]

Sonra başqa ayələrdə də, buyurulur: Özlərinə zülm edən insanlar tövbə etsinlər. Allahın rəhmətinə məyus olmasınlar.

وَالَّذِينَ إِذَا فَعَلُوا فَاحِشَةً أَوْ ظَلَمُوا أَنْفُسَهُمْ ذَكَرُوا اللَّهَ فَاسْتَغْفَرُوا لِذُنُوبِهِمْ وَمَنْ يَغْفِرُ الذُّنُوبَ إِلَّا اللَّهُ وَلَمْ يُصِرُّوا عَلَى مَا فَعَلُوا وَهُمْ يَعْلَمُونَ

O müttəqilər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb (tövbə edərək) günahlarının bağışlanmasını istəyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Və onlar etdiklərini (gördükləri işin pis olduğunu) bildikdə (tövbədən sonra) bir daha ona qayıtmazlar.[2]

İnsan özünə nə cür zülm edə bilər? Bunu izah edir ki, insan günah edəndə özünə zülm edir. Bu özünə haqsızlıq etdiyinə görə belədir. Qurani-Kərimdə bir sıra ayələr var ki, insan istər Allah-Taalaya

1 - Loğman, 13
2 - Ali İmran, 135

zülm etsin, şərik qoşsun, istər özünə zülm etsin, istər camaata zülm etsin - bunlar hamısı zülmdür.

وَلَا تُمْسِكُوهُنَّ ضِرَارًا لِتَعْتَدُوا وَمَنْ يَفْعَلْ ذَلِكَ فَقَدْ ظَلَمَ نَفْسَهُ

(Əziyyət və) zərər vermək məqsədilə haqlarına təcavüz edib onları saxlamayın! Hər kəs bunu etsə, şübhəsiz ki, özünə zülm etmiş olar.[1]

وَمَنْ يَتَعَدَّ حُدُودَ اللَّهِ فَأُولَئِكَ هُمُ الظَّالِمُونَ

Allahın hədlərindən kənara çıxanlar, əlbəttə, zalımlardır.[2]

Hətta Qurani-Kərimdə başa düşülür ki, insan haram iş etməsə, amma özünü əziyyətə salsa o da zülmdür. Adəm peyğəmbər üçün zülm termini işlənib.

قَالَا رَبَّنَا ظَلَمْنَا أَنْفُسَنَا وَإِنْ لَمْ تَغْفِرْ لَنَا وَتَرْحَمْنَا لَنَكُونَنَّ مِنَ الْخَاسِرِينَ

(Adəm və Həvva) "Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq!" - dedilər.[3]

Adəm peyğəmbər imam ola bilmədi. Çünki özünə zülm etmişdi. Bu imamət məqamı əslində elə məqamdır ki, günah etməsə belə imamət məamına yaraşmayan əməlləri belə eetməməlidir. Bu da özünü savablardan, ali məqamlardan məhrum etdiyi üçün üçün bir növ "zülm" sayılır.

Əslində, Quranda düşünülür ki, zülm bütün günahlara deyilir. İstər kiçik olsun, istər böyük. Günah əməl edən imam ola bilməz. tün günahlar olsun, yaxud bəzi günahlar, fərqi yoxdur. Belə deyil ki, Allah dərgahında bir nəfər ağır günah etsə imam ola bilməz, lakin yüngül günahlar etsə imam ola bilər. İşlədiyi günahın növünə baxmyaraq, hər bir zalım imam ola bilməz. Bunu nəyə əsasən iddia edirik?

الظَّالِمِينَ

---

1 - Bəqərə, 231
2 - Bəqərə, 229
3 - Əraf, 23

“Əz-zalimin” kəliməsinə diqqət edək. Ərəb ədəbiyyatında cəm sifətə “əlif lam” gəlsə ümumi məna daşıyır. “Əz-zalimin”, yəni “hər bir zalım”. “Zalimin” cəmdir. Əvvəlində “əl” gəlib (artikl). Əvvəlində “əlif lam” gəlməsi ümumi məna bəxş edir. Bu ümumi bir qanundur. “Əz zalimin”, yəni “bütün zalımlar”. “Mənim əhdim zalımlara çatmaz”, yəni mənim əhdim bütün zalımlara çatmaz. Kim Allaha şərik qoşmuşdursa o imam ola bilməz, çünki o zalımdır. Kim günah edibsə o imam ola bilməz, çünki o zalımdir. Ola bilər ki, bir şəxs tövbə etsin, bağışlansın və cənnət əhli olsun. Amma hər cənnətə gedən imam deyil. Ola bilər ki, bir nəfər cənnətə getsin, amma imam deyil. Hər yaxşı adam müəllim deyil. Müəllim odur ki, elmi bilir. Hər yaxşı adam dərzi deyil, dülgər deyil. İmamət də məxsus bir dərəcədir. Bir şəxs imam ola bilmirsə o demək deyil ki, bu pis adamdır. İmamlıq böyük bir dərəcədir, hamıya verilmir. Bir nəfər ömrünün bir dövründə büdpərəst olubsa ona imamlıq çatmaz. Bu o demək deyil ki, onu cənnətə qoymazlar. Cənnət əhli olub-olmamağı tama ayrı bir mövzudur. Tövbə etsə cənnət əhli ola bilər. Başqa günah etməsə cənnətə daxil olar. Biz “imamlıq məqamın”dan danışırıq. Bu şəxs cənnət əhli olsa da, imam ola bilməz. İmam ömründə günaha bulaşmamış bir şəxs olmalıdır. Məsələn şəriətdə var ki, “vələdüz-zina” mərcəi-təqlid ola bilməz. Bu o demək deyil ki, onun mənəvi dərəcəsi pisdir. Sadəcə, islam dini istəmir ki, müsəlmanların böyüyü belə bir ittihama düçar olsun. Çünki bu islam hədəfləri ilə uyğun deyil. Bir şəxs Allahın övliyalarından ola bilər, təkvini vilayət məqamına da sahib ola bilər. Lakin həmən şəxsə təşrii vilayət məqamı verilmir. Bəzən təşrii vilayət məqamı ilə ttəkvini vilayət məqamı ayrıla bilər. Məsələn: Fatimeyi Zəhra (s.ə) hakim deyildi. Çünki xanım idi. Allah istəmir ki, xanımın əlində zəhmət dolu icra işləri və yaxud hər hansı kobud işlər olsun. O, müharibə, cihad, cəza vermək, hakimlik kimi işlərlə üzbəüz qalsın. Məsələn, Allah-Taalanın şəriətində, xanım bəzi şeylərə şahid dura bilməz. Bu o demək deyil ki, xanım şahidlik etməyi həmişə bacarmır. Xeyr, şahidlik etməyin davamı da var. Bu gün şəhadət verdinsə, sabah səninlə zidd olanlar

olacaq, sabah cəmiyyətdə sənə qarşı kobud davranış olacaq. Allah istəmir ki, xanımlar kobud davranışa məruz qalsın. Məsələn, xanım məhkəmədə hakim olmaz. Çünki, hakim olsa tərəflər dava etdiyi üçün nalayiq sözlər işlədilə bilər. Sülhə gəlmədikləri üçün tərəflər arasında düşmənçilik mövcud ola bilər. Ona görə də, batini (təkvini) vilayət bəzən təşrii vilayətdən ayrıla bilər. Necə ki, Hz.Zəhra (ə) təkvini vilayətə malik idi, Allahın vəlisi idi, lakin hakim deyildi.

Zahiri hakimlik bir sıra şərait və şərtlərə malikdir. Məsələn, qeyd olunduğu kimi "vələdüz-zina alim", böyük müçtehid ola bilər, amma ona təqlid etmək olmaz. Çünki bu İslamın zahiri görünüşüdür. Amma ola bilər ki, o cənnətdə Allahın yanında çox yaxşı adam olsun. Amma cəmiyyətdə İslamın zahiri görünüşü, müsəlmanlar bir sıra ittihamlarla üzləşməsin deyə buna icazə verilməyib. İslamın əzəməti, izzəti vardır. Onun izzəti, əzəməti, şövkəti sınmasın, itməsin deyə bu qərara gəlinib. Deyəndə ki, "zalım imam ola bilməz", bu demək deyil zalımlar hamısı cəhənnəmə gedəcəklər. Yəni həyatında kim günah işlədibsə, zalım olubsa o hökmən əzab əhli olacaq-deyə bir təfəkkür mövcud deyil. Tövbə etsələr cənnətə gedəcəklər. Lakin onlar heç bir zaman imam ola bilməzlər. Çünki Allahın bəxş etdiyi imamlıq dərəcəsi çox yüksəkdir. İstəmir ki, dünən hər hansı bir günahı edən şəxsə bu gün imamlıq versin. Müsəlman olmağın, dindar olmağın, yaxşı adam olmağın, çoxlu yaxşı iş etməyin savabı var, lakin imamlıq başqa məfhumdur. Tövbə edib bir sıra səviyyələrə çata bilər, lakin günahlar insanda bir sıra izlər qoyur. O izlər getmir. O izə sahib olan imam ola bilməz.

## Məsumluq və imamlığın fərqi

Məsumluq ilə imamlığın fərqi nədir? Hər məsum imam deyil. Bəzi alimlər deyirlər ki, bir sıra insanlar var məsumdurlar, lakin imam deyillər. İmamlıq Allah ilə bəndə arasında xüsusi əhd-peymandır. Çünki imamlıq birbaşa Allah tərəfindən verilir. İmamlıq Ali Baş Komandan tərəfindən zabitlərin birinə generallıq

verilməsinə oxşayır. İmamlıq əta olunur, bəxş olunur. İnsan bir səviyyəyə çatdıqdan sonra Allah onu həqiqi mənada seçir. Bu ayədə qeyd olunmur ki, hər bir zalım olmayan şəxs imam ola bilər. Buyurulur ki, Allahın əhd-peymanı olan imamlıq məqamı zalımlara çatmaz. İmamlar da zalım olmayanların içindəndir. Bu ayə buyurmur ki, bütün məsumlar imamdır. Amma buyurur ki, qeyri-məsumlar imam ola bilməz. Yəni Allah imamı məsumların içindən seçir.

Şeytan Adəmə səcdə etmədi. Özünə zülm etdi, zalım oldu. Hədislərdə qeyd olunur ki, şeytan təkid edirdi ki, “Allah, sənə nə qədər istəyirsən səcdə edim, amma Adəmə yox.” Allah-Taala isə nə cavab verdi? Buyurdu: "Sən Rəbbinə üsyan etdin". Necə olur ki, şeytan Rəbbinə üsyan etdi? Halbuki o, Adəmə üsyan etmişdi. Amma Allah-Taala buyurur ki, şeytan sözümdən çıxdı.

Allah Taala mənə buyurur ki, "qələmlə yaz!" Qələmlə yazmasam, Allah-Taalanın sözündən çıxıram. Allah-Taala mənə buyurur ki, imamını tanı, imamı bağışlanmaq vasitəsi seç. Qurani-Kərimdə buyurulur ki, peyğəmbərin yanına gedin, peyğəmbər sizin üçün bağışlanmaq istəsin. İndi mən getməsəm bu ayəylə zidd hərəkət etmiş oluram. Bu ayəyə əsasən Allah mənə peyğəmbərə müraciət etməyi əmr edir. Bu ayrı bəhsdir ki, niyə müraciət etdirir? O haqda danışmırıq hələ.

وَلَوْ أَنَّهُمْ إِذْ ظَلَمُوا أَنْفُسَهُمْ جَاءُوكَ فَاسْتَغْفَرُوا اللَّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُوا اللَّهَ تَوَّابًا رَحِيمًا

Onlar (münafiqlər) özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər.[1]

Bəhsimiz zalımlar haqqında idi. Allah buyurdu ki, mənim əhdim zalımlara çatmaz. Zalım kimə deyirlər? Oxuduq ki, Quran ayələrində günah edənə zalım deyirlər. Allaha şərik qoşan da zalımdir. Loğman surəsində ayə var ki, şirk böyük zülmdür. Camaata zülm edirlər, özlərinə zülm edirlər. İnsan özünə zülm

---

1 - Nisa, 64

etsədə zülmdür, camaata zülm etsə də zülmdür, Allaha şərik qoşsa zülmdür, yəni şirk də zülmdür. Bəhsimiz budur ki, biri dünən zalım idi, indi tövbə edib. Buna imamlıq çatar yoxsa yox? Dünən büdpərəst idi, indi müsəlman olub. Şirk böyük zülmdür. Müşrik halında imam ola bilməz. Qeyri-müşrik halında imam ola bilər yoxsa yox? Qeyd etdiyimiz ayənin məntiqinə əsasən zülm edənə imamlıq çatmaz. Bu qanun hal-hazırda zülm edənə aiddir, yəni hazırkı haında zalım olana aidddir, yoxsa ümumiyyətlə həyatı boyunca bir dəfə zülm etsə zalımdırmi? Yəni bir nəfər ömrü boyunca bir dəqiqə, bir gün, bir il müşrik olub sonra tövbə etsə Allah onun tövbəsini qəbul edərmi? Edər! Çünki Allah bəndələrindən tövbəsini qəbul edər, lakin onu Allah imam etməz.

Fərz edək mümkündür ki, bir nəfər tövbə edir, günahları bağışlanır, imam da ola bilir. Görək hansı fərziyyə düzgündür. Ayənin mənası hansıdır? Bir şəxs hal-hazırda zülm etmirsə imam ola bilər, yoxsa bir zaman zalım adı daşıyana imamlıq çatmaz? Biz deyirik, ayənin mənası budur ki, bir şəxs həyatı boyunca zülm edibsə, yəni yaşadığı müddətdə hər-hansı bir vaxt zülm edibsə bu insan imam ola bilməz. Sonradan tövbə etsə də, etməsə də. Tövbə etməyibsə aydındır ki, imam ola bilməz. Çünki hal-hazırda zalım sayılır. Hətta Tövbə etsə də imam ola bilməz. Yəni hal-hazırda zalım olmasa da, həyatında nə vaxtsa zalım olduğu üçün ona imamlıq məqamı verilməz. Ola bilər ki, Cənnətə getsin, lakin müsəlmanların imamı ola bilməz.

Bu ayədə buna iki dəlil var. Birincisi ərəb dilində “əlif lam”ın müxtəlif mənaları var. Yəni bir ismin, sözün əvvəlinə "əl" gətirdikdə mənası dəyişir. Məsələn, kitab, əl-kitab. Yəni müəyyən bir kitab. Bəzən müəyyənliyi bildirir. Lakin cəmdə olan sözə “əlif lam” əlavə olunsa müəyyənliyi bildirmir, ümumiliyi bildirir. Ümumilik iki cürdür. Bir ümumilik hamı bir yerdə olandır, bir ümumilik isə cəm mənasındadır. Bir də məcmuən ümumilik var. Elə bil deyirik ki, filankəs xəstə idi, mən dostların hamısı ilə birlikdə onun ziyarətinə getdim. Bu da bir ümumilikdir. Yaxud deyirik ki, filankəs xəstə idi, dostlarımız hamısı onun ziyarətinə getdi. Birlikdə

yox. Hamısı. Ola bilər ki, ayrı-ayrı gediblər. Buna deyirlər "cəmiən". Ona isə deyirlər "məcmuən". "Məcmu", yəni "hamısı bir yerdə". "Cəmi", yəni "hamısı", lakin bir yerdə olmaya bilər. Zalımin də mənası budur. "Əz-zalimin", yəni "cəmi zalımin"- "zalımların hamısı", "hər kəs ki zalım olub haçansa". Zalımlıq nümunəsi olan bütün adamlar imam ola bilməzlər. Daha dəqiq desək, həyatında bir dəfə də olsa, zalımlıq adına layiq olan kimsə imam ola bilməz. İstər çox keşmişdə zalım olsun, fərqi yoxdur hər kim, tarix boyu zalım adını daşıyıbsa, o imam ola bilməz. İstərsə də bu gün zalım siyahısındadır, istərsə 10 il qabaq, istərsə də 100 il qabaq. Hər kim ki, zalım dəftərinə düşüb, bir zamanlar "əz-zalimin" nümunəsi o olub, ona imamlıq məqamı verilməz. Hələ o tövbə də etsə də imam ola bilməz. Tövbə etmək onu o zamanın zalım ünvanını daşımasından istisna etmir. İki il bundan qabaq günah edib, zalımdır. İndi tövbə edib bağışlanıb. Daha ona cəza, əzab verilməz. Amm iki il bundan əvvəli araşdırsaq, bu da o zamanın zalımlarının siyahısındadır. Bu da o zamanın zalımıdır.

Allah Taala buyurur:

لاَ يَنَالُ عَهْدِي الظَّالِمِينَ

"Mənim əhdim (imamlıq məqamı) heç vaxt zalımlara çatmaz!"[1]

Yəni bütün zalımlara imamlıq verilməz. Yəni heç bir zülm edənlərə imamlıq yetişməz. Bu zülmkarlıq xüsusiyyəti ona nə vaxt aid olursa olsun. Axı kəlmənin əvvəlinə "əlif lam" gəlib, olub "əz-zalimin". Bu dəlil, qramatika əsaslıdır.

Bir ayrı dəlili də Əllamə Təbətəbai öz kitabında ustadlarından belə nəql edir. Yazır ki, insanlar dörd formada təsəvvür edilə bilər: Birinci təsəvvür budur ki, insan ömrünün əvvəlindən axrına qədər pak olsun. Əvvəldən axıra kimi günaha bulaşmasın. İkinci təsəvvür budur ki, insan ömrünün əvvəlində pak olsun, amma sonda günaha düşsüb, zülm etsin. Üçüncü təsəvvür budur ki, ömrünün əvvəlində zülm etsin, günahkar olsun, sonra isə tövbə etsin və pak olsun. Dördüncü təsəvvür bundan ibarətdir ki, əvvəldən axıra kimi zalım,

1 - Bəqərə, 124

xəbis adam olsun. Həzrət İbrahim (ə) heç vaxt Allahdan öz övladları üçün dördüncü təsəvvür ilə imamlıq istəməzdi. İbrahimin (ə) məqamı çox yüksəkdir. O, Allah-Taaladan ömrünün əvvəlindən axrına qədər günahkar olan adam üçün imamlıq istəməz. Hz.İbrahimin dərəcəsi Allahın yanında nübuvvət və imamət məqamıdır. Allahdan günahkar şəxs üçün imamalıq istəmək onun şəninə uyğun deyil. Hz.İbrahim öz əmisindən uzaqlaşır və deyir ki, mən səndən uzağam, çünki sən bütpərəstsən. İbrahim heç vaxt ömrünün əvvəlindən axrına qədər əyri olmuş insana Allah tərəfindən imamlıq məqamının verilməsini istəməz. Həmçinin, Hz.İbrahim(ə) ikinci təsəvvürə malik şəxsə də, yəni ömrünün əvvəlinsə saleh, sonunda isə günahkar şəxsə də imamlıq dərəcəsinin verilməsini istəməz. Məsələn, namaz qılan, oruc tutaan, əxlaq sahibi olan imanlı şəxsin gəlib sizdən günahkarlara günahında yardım etməyinizi istəməsi nə qədər məntiqizdirsə, bu ondan daha da məntiqsiz görünür.

Hz.İbrahimin (ə) istəyini anlamaq üçün iki təsəvvür qalır. Birinci təsəvvür: insan ömrünün əvvəlindən axrına qədər pak olsun. Əvvəldən axıra kimi günaha bulaşmasın. Üçüncü təsəvvür: ömrünün əvvəlində zülm etsin, günahkar olsun, sonra isə tövbə etsin və pak olsun. Hz.İbrahimin şəninə, səviyyəsinə, düşüncəsinə, paklığına uyğun olan bu iki təsəvvürü istəməkdir. Yəni demək istəyir ki, Allah, mənim nəslimdə bu iki şəraitdə olana imamlıq ver. Allah-Taalada buyurur ki, zalımlara imamlıq məqamı bəxş olunmaz.

Aydındır ki, Allah-Taalanın məqsədi əvvəllər günah etmiş sonra isə tövbə etmiş şəxslərə imamlıq məqamının əta edilməməsidir. Burada ikinci və dördüncü təsəvvürlər ümumiyyətlə nəzərdə alınmır. Çünki Hz.İbrahim (ə) heç bir zaman həmin iki təsəvvürrü nəzərdə alıb, məntiqsiz istək ortaya qoymaz. Deməli, ayədə Onun məqsədi ömrünün əvvəlində zülm edib, günahkar olub, sonra isə tövbə edən və pak olan şəxslərə imamlıq məqamının veriməyəcəyidir.

Burada başqa bir məsləyə də diqqət etmək lazımdır. Bəzi xüsusiyyətlər insane etdiyi əmələ görə nisbət verilir. O, bu əməli çoxdan etsə belə. Məsələn uzun illər öncə biri kiminsə atasını günahsız öldürübsə, həmin şəxsin oğlu ona “atamın qatılı” deyə bilər. Yaxud onun cəzalandırılmasını tələb edə bilər. Kimsə oğurluq edibsə, ona oğurluğu üçün hökm kəsilə bilər. Hətta onun bu əməlindən uzun illər ötsə də. Bu zaman, qatil yaxud oğru deyə bilməz ki, mən bu əməli çoxdan etmişəm, indi etmirəm və məni cəzalandıra bilməzsiniz.

Allah Taala buyurur: “Mənim əhd-peymanım zalımlara çatmaz”. Mənası budur ki, ömründə bir dəfə də olsa zülm edən şəxsi imam etmərik. Çünki günaha bulaşan zalım adını vaxtında üzərinə aldığı üçün, o heç bir zaman imam ola bilməz. Məqsəd bu deyildir ki, hal-hazırda zalım və günahkar olsa, ona imamlıq verilməz. Xeyr, hal-hazırda pak bir insan olsa belə, keçmişdə bir dəfə də olsa günah edibsə, ona imamlıq məqamı əta edilməz, Allah onunla əhd-peyman bağlamaz.

Qatilin mənası budur ki, o qətl baş verib. Qətl baş versə, onu törədən qatil adlanar. Zaman keçməyi ilə onun qatil olması və qətl törətməsi yenə də həqiqət olaraq qalacaqdır. Cəzasını çəksə belə, yenə də o qatildir və bu ad onun üzərindədir. Cəzası sılinə bilər, o artıq yaxşı insan ola bilər, amma qatil olmağı bir həqiqət olaraq qalır, silinmir. Zalım də o cürdür. Zalım ona deyirlər ki, zülm edib. Nəinki zülmü hal-hazırda edir. Zülm etmiş insana zalım deyirlər. Allah-Taala buyurur: "imamlıq məqamı zalımlara" verilməz. Dünən büdpərəst olmuş, bu gün tövbə etmiş insan üçün (bağışlanması üçün) Allahın dərgahı açıqdır, lakin o yenə də imam ola bilməz. Bu ağlın hökmüdür. Mən istədim ki, Qurani-Kərimin ayələrindən bu nəticəni ortaya qoyum. Əqli yoldan belə nəticə alıblar ki, dünənə qədər əyri yolda olmuş insanın müsəlmanların imamı olması uyğun deyil. Bu ümumiyyətlə imamət mövzusu ilə uyğun deyil. İmamət, yəni “qabaqda gedən”. Axırda qalanın gəlib əvvələ keçməyi təqdirəlayiq deyil.

Buna aid hədislər də var. İbni Məsuddan ayə haqqında soruşublar, ayənin təfsirində deyir: Hz.Peyğəmbər (Allah-Taalanın belə buyurduğunu qeyd edib) buyurub: Bir şəxs mənim əvəzimə bütə ibadət etsə mən onu imam etmərəm. Yəni bu məntiqə əsasən, hal-hazırda bütə səcdə etməsə də, ümumiyyətlə nə vaxtsa bütə səcdə etdiyi üçün ona imamlıq verilməz. Sonra Hz.Peyğəmbər (s) buyurur: Ya Əli (ə) bu ayə həm də mənim haqqımdadır çünki, heç vaxt bütə səcdə etməmişəm.

»قَدْ كانَ اِبْراهِيمُ(عليه السلام) نَبِيّاً وَ لَيْسَ بِاِمام، حَتّى قالَ اللّهُ: «اِنِّى جاعِلُكَ لِلنّاسِ اِماماً، قالَ وَ مِنْ ذُرِّيَّتِى» فَقالَ اللّهُ: «لايَنالُ عَهْدِى الظّالِمِينَ»، مَنْ عَبَدَ صَنَماً اَوْ وَثَناً لايَكُونُ اِمام؛

Hişam deyir: Bu ayə haqqında imamdan mən soruşdum və mənim cavabımda belə dedi ki, Hz.İbrahim(ə) nəbi idi, imam deyildi o vaxta qədər ki, Allah bu ayə ilə onu imam etdi. Sonra Allaha müraciət etdi, mənim nəslimdəndəmi imamlıq məqamına çatan olavaqdır? Allah-Taala buyurdu: “Mənim əhdim zalımlara nəsib olmaz”.[1]

İmam bu ayəni təfsir edir. Məlumdur ki, bütə, heykələ pərəstiş etmiş insan imam ola bilməz. İmamlar da bu ayəni izah etdikləri zaman elə həmin mətləbi önə sürmüşlər.

Evdə nələrin olduğunu ev əhli yaxşı bilir. Vəhy Əhli-Beyt (ə) imamlarının evinə, babaları Hz.Peyğəmbərə (s) nazil olub. Onlar yaxşı bilirlər ki, ayədə nə nəzərdə tutulub.

## Dərsin xülasəsi

Hər günah sahibi, istər böyük olsun, istərsə də ən kiçik günah olsun zalım sayılır. Çünki günah etməklə ən azı özünə zülm etmişdir. Deməli məsum şəxsi (günahsız insanı) Allahdan başqa heç kim tanıya bilməz. Çünki, onu məsum edən yəni günahlardan pak edən Uca Allah-Taaladır. Əgər imam zalım (günahkar)

1 - Üsuli Kafi, c. 1, səh. 174; Biharül-ənvar, c. 15, səh. 55; c. 25, səh. 206; Əl-İxtisas, səh. 22.

olmamalıdırsa, deməli Onu Allah seçməlidir. Çünki Alladan başqa heç kimsə başqasıın zalım olub-olmadığını bilmir.

Allahın bəxş etdiyi imamlıq dərəcəsi çox yüksəkdir. İstəmir ki, dünən hər hansı bir günahı edən şəxsə bu gün imamlıq versin. Müsəlman olmağın, dindar olmağın, yaxşı adam olmağın, çoxlu yaxşı iş etməyin savabı var, lakin imamlıq başqa məfhumdur. Tövbə edib bir sıra səviyyələrə çata bilər, lakin günahlar insanda bir sıra izlər qoyur. O izlər getmir. O izə sahib olan imam ola bilməz.

Məsumluq ilə imamlığın fərqi nədir? Hər məsum imam deyil. Bəzi alimlər deyirlər ki, bir sıra insanlar var məsumdurlar, lakin imam deyillər. İmamlıq Allah ilə bəndə arasında xüsusi əhd-peymandır. Çünki imamlıq birbaşa Allah tərəfindən verilir. İmamlıq Ali Baş Komandan tərəfindən zabitlərin birinə generallıq verilməsinə oxşayır. İmamlıq əta olunur, bəxş olunur. İnsan bir səviyyəyə çatdıqdan sonra Allah onu həqiqi mənada seçir. Bu ayədə qeyd olunmur ki, hər bir zalım olmayan şəxs imam ola bilər. Buyurulur ki, Allahın əhd-peymanı olan imamlıq məqamı zalımlara çatmaz. İmamlar da zalım olmayanların içindəndir. Bu ayə buyurmur ki, bütün məsumlar imamdır. Amma buyurur ki, qeyri-məsumlar imam ola bilməz. Yəni Allah imamı məsumların içindən seçir.

## Dördüncü dərs

### İmamın Allah tərəfindən seçilməsinə ayədəki sübutlar

İmamət haqda araşdırma apardığımız zaman iki əsas məsələ vardır: 1) İmamı kim seçir? 2) İmamın şəraiti (imam olmağın şərtləri) nədir?

Birincisi haqda nəticə aldıq ki, imamı Allah seçir, çünki imamət də nübuvvət kimi bir ali mənəvi dərəcədir. İkincisi barəsində qeyd etdik ki, imam məsum olmalıdır. Amma bəzilərinin fikrincə imam olmağın xüsusi şərti belə yoxdur. Yəni imam adil olmasa da, böyük günahı olsa da heç bir eybi yoxdur deyə düşünənlər də var. Bəziləri məsum olmasını şərt bilmirlər. Bəziləri də heç adil olmasını da şərt bilmirlər. Əlbəttə, bu baxış tərzi düzgün məntiqə əsaslanmır.

Bəzilərinin fikrincə heç kim məsum deyil. Hətta onların fikrinə görə Peyğəmbərin (s) belə məsumluğu şübhə altındadır. Yəni məsumluğuna şübhə ilə yanaşırlar.

Bəzilərinin yanlış fikrinə əsasən, Hz.Peyğəmbər (s) günah etmir, amma səhv etməsi mümkündür. Onların fikrincə Hz. Peyğəmbər (s) qəzəblənərdi. Onların iddiasına əsasən, bəzən Peyğəmbər (s) dünya haqqında, təbiət haqqında, dünyəvi elmlər barəsində yanlış fikirlər bildirərdi, sonra aydın olardı ki, söylədikləri səhvdir. Belə olan halda buyurardı: "Bəşərəm mən də səhv edə bilərəm." Beləcə onlar inanırlar ki, peyğəmbər belə məsum deyillər, onlar da adi insanlar kimi səhv edə bilərlər. Aydındır ki, peyğəmbərlər haqda bu cür düşünənlər, imam üçün məsumluğu şərt bilməz. Onların fikrincə, hətta əgər bir şəxs zorla da olsa, xilafət və imamət məqamına sahib olduğunu iddia etsə, o, imamdır, xəlifədir. Ona itaət etmək lazımdır. Çünki, onların nəzərində imamın məsum olması şərt deyil. İmam Hüseynin (ə) zamanında bəzi insanlar bir sıra ayələrə istinad edərək, bu məzmunda yanlış nəticələr alırdı. Onlar Hz. Hüseyni (ə) Yezidə qaşrşı çıxdığı üçün tənqid edirdilər. Hətta şəri cəhətdən tənqid edirdilər. Belə başa düşürdülər ki, Hz. Hüseyn (ə)

müsəlmanların xəlifəsinə və imamına qarşı çıxır. Hz.Hüseynə (ə) sən imama, xəlifəyə qarşı çıxırsan deyirdilər. Deməli, bu əsasla başa düşürük ki, imamətdə məsumluq şərt olmasa, min cür günaha batan Yezid də imamdır.

Qurani-Kərimdə buyurulur: O, (Hz.İbrahim) imtahanları tamamladı (onların öhdəsindən layiqincə gəldi). Bu zaman Allah ona buyurdu: "Səni insanlara imam təyin etdim!" Allah Taalanın "Səni insanlara imam təyin etdim!"- deyə buyurması, imamlıq məqamının birbaşa Allah tərəfindən təyin olunmasını bildirir. Məm imamı birbaşa Allah-Taalann seçməsini faktiki ayədəki ibarələrlə qeyd edirəm:

*1) "Səni insanlara imam təyin etdim!"*

İlk sübutu budur ki, "Səni insanlara imam təyin etdim!" -deyə buyurulması imamın birbaşa Allah tərəfindən seçildiyinə dəlildir.

*2) "O, imtahanları tamamladı"*

İkinci sübut isə "O, (Hz.İbrahim) imtahanları tamamladı"- ibarəsindən əldə edilir ki, imamlıq məqamını Allah buna ləyaqəti olan şəxsə əta edir. Gedişat onu göstərir ki, Hz. İbrahim (ə) imtahanın nəticəsi olaraq peyğəmbərlikdən sonra imam oldu.

*3) İbrahim "nəslimdən necə" (onları da imam qərar verəcəksənmi) – soruşdu*

Üçüncü sübut isə Hz.İbrahimin (ə) müraciətidir. Əgər imamı Allah seçməsəydi Hz.İbrahim (ə) bunun üçün Allaha müraciət etməzdi. Əgər imamı xalq, camaat seçsəydi, Hz.İbrahim (ə) "xalq mənim övladlarımı seçəcəkmi?"- deyə müraciət edərdi." Allah ona buyurduğu zaman: "Səni insanlara imam təyin etdim!" Hz.İbrahimin (ə) "nəslimdən necə" (onları da imam qərar verəcəksənmi?) - deyə soruşması da onu göstərir ki, Hz. İbrahim (ə) imamın yalnız Allah tərəfindən seçildiyini qəbul edir.

*4) Allah buyurdu: "Mənim əhdim (imamlıq məqamı)"*

Dördüncü sübut isə "Əhd"dir. "Mənim əhdim" ibarəsi imamlıq məqamına məhz birbaşa Allahın təyinat verməsini çatdırır. Ayəyə görə, Hz.İbrahim (ə) "nəslimdən necə" (onları da imam qərar verəcəksənmi) – soruşduqda Allah buyurdu: "Mənim əhdim

(imamlıq məqamı) heç vaxt zalımlara çatmaz! (Və bu məqama yalnız sənin pak və məsum övladların layiqdir!)”

Deməli, imamət Allahın əhd-peymanıdır. İmamət xalqla imamın əlaqəsi deyil, Allahla imamlıq verdiyi şəxsin əlaqəsidir. Bizim məzhəbimizə əsasən imamət üsuliddindən sayılır. Bəzi şəxslər imaməti firuiddindən sayırlar. Firuiddin insana və onun əməllərinə aiddir. Namaz, oruc və.s bunlar insan icra etdiyi vacibi əməllərdir. Üsuliddin isə Allaha aiddir. İmamı Allah seçirsə, deməli imamət üsuliddindən sayılır. İmamət ilahi bir dərəcədir, birbaşa Allahın əta etdiyi ali məqamdır, ona görə də imamət usuliddindəndir. İmamət insanın prezident seçməsinə bənzəmir. Bu xalqla insanın əlaqəsidir. İmaməti Allah-Taala seçdiyi üçün peyğəmbərlə Allahın əlaqəsinə bənzəyir.

*5) Allah buyurdu: “Mənim əhdim (imamlıq məqamı) heç vaxt zalımlara çatmaz!*

Beşinci sübut isə Allahın “Mənim əhdim (imamlıq məqamı) heç vaxt zalımlara çatmaz! (Və bu məqama yalnız sənin pak və məsum övladların layiqdir!)” buyuruğundakı “zalimin, yəni məsum olmayanlar, zalımlar” ibarəsidir. Zalim olmayan, yəni məsum, günahsız. Məsumu da Allahdan başqa heç kim tanıya bilməz. Zahirdə insan nə qədər gözəl əməlli görünsə də onun gizlində hansı günahlara bulaşdığını Allahdan başqa heç kim bilə bilməz. Yaxud riyakarlıqla gözəl əməllər etdiyinə Allahdan başqa heç kim agah ola bilməz. Ayəyə görə imam zalim olmamalıdır və onu Allah-Taala seçməlidir. Bir sıra zülmlər və günahlar insanın daxilindədir. Qurani-Kərimin ayələrinə baxanda günahlar təkcə üzvlərlə olmur. Qəlbdə, duyğularda, niyyətdə də günah etmək olur. Riya, kin daxildə olan günahlardandır. Cismlə olan günahlar məsələn: qətl və s. isə zahirdə görünür. Əgər yalnız məsum-günahsız şəxs imam olmalıdırsa, onda imamı Allah seçməlidir.

## Ayəyə əsasən imamın şərtləri

Bu ayəyə əsasən, imam hansı şəraitə malikdir? Bu haqda bir sıra faktlara nəzər salaq:

***1) İmamlıq məqamı peyğəmbərlikdən daha üstündür.***

İmamət hətta nübuvvətdən ağır şəraitə də malikdir. İmamət nübuvvətdən aşağı səviyyə deyil, imamət nübuvvətdən daha üstün səviyyədir. Məhz buna görədir ki, Hz.İbrahim (ə) peyğəmbər olduğu halda imtahana çəkildi. Deməli, imam olmaq üçün daha ağır sınaqlardan çıxmalı idi. İmamətin şərti nübuvvətdən daha çətindir. Əgər peyğəmbər məsumdursa, deməli imamlığın şərti minimum məsumluqdur. Çünki imamlıq peyğəərlikdən daha ağır məsuliyyətdir.

***2) İmam məsumdur.***

Bu ayədən bir neçə məsələ aydınlaşdı. Biz bu ayədən nəticə aldıq ki, imam məsum olmalıdır. Çünki Allahın əhdi, yəni imamlıq əhd-peymanı zalımlara verilmir. Qeyd etdik ki zalım həyatında bir dəfə də olsa günah etmiş şəxsə də aid edilir. İnsanın etdiyi hər günah zülm sayılır.

***3) İmamı məhz Allah özü bu məqama seçir.***

***4) İmam təşrii və təkvini hidayətə və vilayətə malikdir.***

Təşrii vilayət, zahiri rəhbərlikdir. Təkvini vilayət isə batini rəhbərlikdir. Ayəyə əsasən imamin təkvini hidayət və təşrii hidayətə malik olmasına diqqət çəkildi. Onun təkvini rəhbərlik və təşrii təhbərliyə malik olması izah edildi. İmamın həm qəlblərə nüfuzu və həm də bədənlərə olan rəhbərliyi əhatə etməsinə işarə etdik.

Həmçinin, bu məsələyə də diqqətinizi çəkək ki, indiki zamanda peyğəmbər ola bilməz. Peyğəmbər qanunu Allahdan alıb insanlara çatdırır. Axırıncı qanun isə sonuncu peyğəmbər vasitəsiylə gəlib. Qiyamətə qədər din İslam dinidir. Daha təzə qanun gəlməyəcək. Ona görə də peyğəmbərin gəlişinə ehtiyac yoxdur. Əgər yeni peyğəmbər gəlsəydi, o peyğəmbərin də imam da olması mümkün idi. Amma artıq təzə peyğəmbər gəlməyəcək.

Lakin bu da bir həqiqətdir ki, Allahın qanunu həmişə həyata keçməlidir. Ona görə də həmişə imam mövcud olmalıdır. Yer üzü höccətsiz olmaz. Quranda ayə var ki, “hər qövmün hadisi var.”

إِنَّمَا أَنْتَ مُنْذِرٌ وَلِكُلِّ قَوْمٍ هَادٍ

Sən ancaq (insanları Allahın əzabı ilə) qorxudansan. Hər tayfanın bir (doğru yol göstərən) rəhbəri vardır![1]

“Nəbi” ilə “hadi”nin fərqi var. Qeyd etdiyimiz ayədə buyurulur: Biz nəbi (peyğəmbər) göndərmişik və hər qövmün də hadisi (doğru yol göstərən rəhbəri) var. Əgər o hadi həmin nəbi olsaydı Allah buyurardı ki, “biz nəbi göndərmişik və O, hadidir.” Allah ayrı-ayrı buyurur: “ biz nəbi göndərmişik və hər qövmün də hadisi var”. Hər qövm, yəni tayfa, qəbilə, hər insanlar, hər xalqlar üçün indi də, gələcəkdə də hadi var. Həmişə hidayət edən olmalıdır.

Biz birinci dərsdə Bəqərə surəsinin 124-cü ayəsini izah edərkən qeyd etdik ki, iki növ imamlıq vardır: Ümumi imamlıq və xüsusi imamlıq. Ümumi imamlıq; yəni hər bir zamanda insanlar arasında Allah-təala tərəfindən mütləq bir imam və rəhbərin təyin edilməsidir; bu, istər peyğəmbərlik, istərsə də yalnız imamət məqamına malik olan şəxsə aiddir. Xüsusi imamlıq isə bir ilahi rəhbərlik məqamı olaraq İslam peyğəmbərindən sonra onun canişininə aiddir.

Biz hələ kimin imam olmasından danışmırıq. Biz, imamlıq nədir ondan danışırıq. O ayələrdən nəticə aldıq ki, imam nübuvvətdən də yuxarı dərəcəyə malikdir. İmam təkvini vilayətə malik olur. Qəlblərə nüfuz gücünə malik olur. Aləmdə vəli olur və digər qəlblərin batininə nüfuz edir.

Birinci və ikinci dərsdə bəzi peyğəmbərlərin adını çəkilib. Peyğəmbərlərdən (ə) misallar qeyd olunub.

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ

“Biz onları öz əmrimizlə (camaatı) doğru yola yönəldən imamlar və qabaqcıllar təyin etdik!”[2]

---

1 - Rəd, 7
2 - Ənbiya, 73

Yəni, onları imam etmişik ki, bizim əmrimizlə hidayət etsinlər deyə. Bunların (yəni imamların) hidayətləri (doğru yola yönləndirmələri) bizim əmrimiz vasitəsilədir. Qəlbləri yaxşılığa doğru dəyişdirərək, müsbət mənada yönləndirə və rəhbərlik edə bilirlər. Allahın iznilə hidayət və doğru yola yönəltmək onların əlindədir. İmamlar həmişə yer üzündə hidayət üçün lazımdır. İmam insanları kamilliyə çatdırmalıdır.

***5) İmam əzəmətli səbrə malikdir.***

Allah niyə onları imam etmişdir? Çünki əzəmətli səbrə malik idilər. Ali səbir dərəcələrinə sahib idilər. Və bizim ayələrimizə yəqinləri vardır. Yəqin əhli və səbirli olduqları üçün onları imam etmişik. Onlar da əmrimizlə hidayət edirdilər. Bu ayə imamətin mənbəyindən danışır. İmamlıq yəqin və səbirdən gəlir. Bu ayədən belə nəticə ala bilirik ki, insanın nə qədər səbri çoxalsa və nə qədər yəqini çoxalsa o qədər də imamət xəttinə yaxın ola bilər.

وَجَعَلْنَا مِنْهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا لَمَّا صَبَرُوا وَكَانُوا بِآيَاتِنَا يُوقِنُونَ

(Çətinliklərə) səbr etdikləri və ayələrimizə ürəkdən inandıqları üçün Biz onlardan əmrimizlə (insanlara) haqq yolu göstərən rəhbərlər təyin etmişdik.[1]

İmamət Allahın işidir. “Cəalnə” yəni biz təyin edirik, başqası təyin edə bilməz. Birinci cümlədən bu məlum olur ki, imam Allah tərəfindən seçilir. İkinci cümlə imamın vəzifəsini göstərir: “Yəhdunə bi əmrina”.

***6) İmam əmr aləmi ilə hidayət edir***

Hidayət (doğru yola yönləndirmək) iki növdür. Birinci hidayət, vəhylədir. Vəhyi Allah peyğəmbərinə verir ki, onu camaata çatdırsın. Məsələn insanlara desin ki, namaz qılın, oruc tutun, zəkat verin. Bunları Allah Quranda Cəbrayıl vasitəsilə peyğəmbərə nazil edib, o da xalqa çatdırıb. Bu hidayətin bir növüdür. Vəhy hidayətidir. Təbliğdir.

İkinci hidayət, əmr hidayətidir. Bu hidayətdə Peyğəmbər nəyisə təbliğ etmir. Bir sıra insanların dərəcələri aləmin mələkutu ilə

---

1 - Səcdə, 24

rabitədə olaraq kamilləşir. “Əmr aləmi” ilə rabitədə olurlar və “əmr aləmi”nin vasitəsilə hidayət edirlər. Onlar “əmr aləmi”lə rabitədə olduqları üçün hidayət edirlər. “Əmr aləmi” ilə insanın rabitəsi olanda qəlbləri tanıyır, qəlbləri bilir, qəlblərin xəstəliklərini, dərmanını bilir. Qəlblərə nüfuz edir. Qəlblərin həkimi olur. Qəlblərin bağbanı olur. İmamlar da belə hidayət edirlər. Qəlbləri suvarırlar, günəş saçırlar, bir ağacın suyu çoxdur işığı yoxdur ona işıq verirlər. Birinin işığı var suyu yoxdur ona su verirlər. Onlar kamal yolunun maneələrini aradan aparırlar ki, kamilləşsin. Birinin qabağına dost çıxarırlar ki, o kamilləşsin. Elə zənn edirik ki, bizim tanış olduğumuz şəxslər adi vaxtlar təsudüfidir . Deməli yuxarıdan baxdıqda biz bir yerə yığışmış qarışqalara bənzəyirik. İmamın əhatəsi var hamını hərtərəfli görür. Aləmdə işlərin gedişatı da bir baxışla təsadüfi baş verirmiş kimi görünür, güya özbaşınadır. Allah-Taala “Rəbbul aləmindir”- “Aləmlərin idarə edənidir.”. Aləmi Allah-Taala idarə edir. İdarəsi, bizim görməyimizlə anlaşılası bir məsələ deyil. İdarəsi bu növdür ki, münbit qəlbləri, münbit şəraitdə olan qəlbləri ucaldır. İstər amilləri mən hiss edim, istər etməyim. “Əmr aləmi vasitsilə hidayət etməyin” mənası budur. İnsanın bəzən qəlbinə bir fikir gəlir, iradə gəlir, bir hadisə ilə qarşılaşır, bəzən də hətta bəlaya düçar olur. Bunlar hamısı əmr aləmi vasitəsilə baş tutan hidayətin budaqlarıdır. Biz öz baxışımızla baxanda görürük ki, bunlar təsadüfidir. Amilini bilmirik. Amilini bilməmək, amilin yoxluğuna dəlil deyil. Amili və səbəbi bizdən yuxarıdadır.

Bu iki məsələyə diqqət edək: İmam səbir əhli olmalıdır. Yaxşı, niyə imam əhli səbr olmalıdır? İki səbəbə görə: 1) İmam başqalarına nümunədir və nümunə olan şəxs də bütün mənəvi xüsusiyyətlərə kamil formasa sahib olmalıdır. 2) İmam insanları təkvini formada hidayət edir, məqsədə çatdırır. Deməli, ilk növbədə özü məqsədə çatmalıdır ki, başqasını da həmin hədəfə apara bilsin. Kim özü hədəfə çatmayıbsa başqasını oraya apara bilməz. İmam aparıb çatdırırsa, özü lazım olan kamal hamısı mərhələlərini keşmiş olmalıdır. Səbir də o kamal mərhələlərindən biridir. İmam gözəl və

mütləq formada səbirə malik olmalıdır. Tükənməz və davamlı səbirə sahib olmalıdır. Bizdə də səbir var. Müəyyən zamanda, müəyyən qədər. Amma bəzən səbrimiz tükənə bilir. İmam isə belə deyil. İmamın səbri mütləqdir. Ayə onlarin mütləq səbirə malik olduqlarını vurğulayır.

Hədislərdə də var ki, imamdan həyatımız üçün hər bir şey öyrənməliyik. Onların ən önəmlisi səbirdir. Biz öz 12 imamımızın həyatını araşdırsaq, onların səbir əhli olduqlarının şahidi olarıq. İmam Əli (ə) buyurur: "25 il gözümdə tikan, boğazımda sümük qalmış kimi səbr etdim. Nə ata bilirdim, nə uda bilirdim, nə çıxara bilirdim, nə içəriyə apara bilirdim."[1] Gözdə olan tikan kimi,bəzən onu nə çıxarmaq olar, nə içəriyə vermək olar. Çıxardıldıqda da gözü zədələyər, içəriyə veriləndə də gözü zədələyər.

İmamın səbri o cür idi. Ya İmam Hüseynin (ə) səbrinə hədis var buyurur: "İmamın səbrinə mələklər təəccüb edirdilər. Yəni, məxluq ola bilərmi ki, belə səbr etsin?"[2]

وَ قَدْ عَجِبَتْ مِنْ صَبْرِكَ مَلاَئِكَةُ السَّمَاوَات.

Kərbəla faciəsinin səbrli bir insana mində biri gəlsə özünü itirər. Təsəvvür edin ki, insanı qərib bir yerə onları qurtarmaq üçün çağırırlar, 18 min məktub yazırlar və sonda belə vəziyyət yaranır. Həmin şəxslər onu qətlə yetirməyə gəlirlər. Hər hansı bir insanı adi qonaq çağırsalar getsə görsə ki, evdə deyillər narahat olar. Nəinki hələ evdə deyillər, hətta həmən şəxslər düşmən çıxırlar. Bu hələ minimumu. Sonra su vermirlər, sonra balalarını şəhid edirlər. İmam ailəsinin əsir olacağını, düşməninin çirkin əməllərini öz gözüylə görür. Bu əzəmətli bir səbir tələb edir. İmamın qucağında olan altı aylıq balası oxla vurmaqla əlindən alırlar. Bu ayrı bir səbir istəyir. Bu səbir imamdadır. "Biz onları haqq yolu göstərən rəhbərlər təyin etmişdik, çünki (əzəmətli) iman və səbir sahibləri idilər".

Səbr imamət dərəcəsinə mühüm bir açardır. Səbr imamda olan bir kamaldır. Bundan əlavə səbr imamlıq məqamındakı şəxs üçün

---

1 - Nəhcül-bəlağə, üçüncü xütbə
2 - Əl-Məzarül-kəbir , səh. 504

lazım və zəruridir. İmamda səbir həm kamillik xüsusiyyəti kimi olmalıdır, həm də imamlığı icra etmək üçün səbir tələb olunur. İcra və müdiriyyət zamanı fərqli insanlarla qarşılaşacaq, müxtəlif qarşıdurmalar olacaq, bir yerdə 3-4 nəfəri idarə etmək üçün belə səbir lazımdır. Hər şəxsin müxtəlif səliqəsi var. Ümmətə imam olmaq da səbir tələb edir. İmamda səbir iki formada mənəvi kamillik kimi ortaya qoyulur. Əvvəla səbir müdriklik və kamillik xüsusiyyəti ünvanında imamda olmalıdır. İkinci isə imamlıq etmək üçün səbir lazımdır. Səbir haqqında bir hədisdə buyurulur: "İmanın başı səbrdir".

اَلصَّبْرُ رَأْسُ الأيْمان

"Səbir imanın başıdır."[1]

Başla bədənin münasibətinə diqqət etdiyimiz zaman, baş olmasa bədənin mənasız və faydasız olduğunu görürük. Səbir olmasa imanın xeyri yoxdur. Ali-İmran surəsində buyurulur ki, elə ki, insan Allaha iman gətirdi, Allaha inandı, ondan sonra səbirli olmaq kamalını əldə etməlidir. Çünki, səbir kamalını özündə əldə etməsə imanı əldən çıxar.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اصْبِرُوا وَصَابِرُوا وَرَابِطُوا وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ

Ey iman gətirənlər! Səbir edin, dözümlü olun, hazır olun və Allahdan qorxun ki, bəlkə, nicat tapasınız![2]

Çox insanlar var ki, namaz qılır, hicab örtür, Allahın əhkamına riayət edir və s. amma bir ildən sonra bu gözəl əməlləri tərk edirlər. Bu o deməkdi ki, imanı, səbri yox idi. Çünki, insan dünyada olduğu hər bir mərhələdə səbir tələb olunur. Səbir tələb etməsə, səbir etməsə olmaz. İmanı səbir saxlayır, səbir qidalandırır. Səbir olmasa iman əldən çıxar.

Həzrət Peyğəmbər (s) buyurur:

اَلصَّبْرُ ثَلاثَةٌ: صَبْرٌ عَلَى المُصيبَةِ وَ صَبْرٌ عَلَى الطّاعَةِ وَ صَبْرٌ عَلَى المَعْصِيَة

---

1 - Üsili-Kafi, c .2, səh. 87, hədis 1
2 - Ali-İmran, 200

“Səbr üç qisimdir: Müsibətə səbir, ibadətə səbir və günaha batmamaqda səbir.”[1]

Deməli səbir üç növdür: Müsibətlərdə səbir: insan hadisələrdə özünü itirməsin və səbir etsin. Günahların qarşısında səbir, insan günah qarşısında özünü idarə etsin. Buna təqva deyirlər. Vacibata əməl edəndə səbir. Xülasə, səbir imanın başıdır. O olmasa insan imanını əldən verə bilər. Quranda səbrin mühim yeri var. İmam əhli səbirdir, yəqin əhlidir.

İslam bir mərhələdir, iman bir mərhələdir, yəqin başqa mərhələdir. Bəzi insanlar müsəlmandırlar. Kəlimeyi-şəhadətini dildə deyir və olur müsəlman. Dildə İslamı demək-müsəlman olmaqdır. Hardan deyirik dildə? Hücurat 14-cü ayəyə əsasən deyirik:

قَالَتِ الْأَعْرَابُ آمَنَّا قُلْ لَمْ تُؤْمِنُوا وَلَكِنْ قُولُوا أَسْلَمْنَا وَلَمَّا يَدْخُلِ الْإِيمَانُ فِي قُلُوبِكُمْ

(Qənimət əldə etmək iştahası ilə islama daxil olan) bədəvi ərəblər: “Biz iman gətirdik!” - dedilər. (Ya Peyğəmbər! Onlara) de: “Siz (qəlbən) iman gətirmədiniz! Ancaq: “Biz islamı (müəyyən şəxsi məqsəd, mənfəət naminə) qəbul etdik!”- deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır (çünki iman əməllə etiqadın vəhdəti, islamı qəbul etmək isə yalnız zahiri əməl deməkdir).[2]

Quran ayələrindən məlumdur ki, iman özü də bir dərəcədə deyil. Bəzi insanlara iman qonaq gedir. Var ordadır, amma məktub zərfi (paketi) kimi məsələn. Məktub zərfinə bir şey qoymusan. O onun zatından deyil, ondadır. Onun tərkib hissəsi deyil, sadəcə orada qərarlaşıb. Yəni duz kimi deyil ki duzluluğu zatında olmuş olsun. Sonra çıxarda da bilərsən zərfin daxilindəki şeyi. Bir sıra şəxslərin imanlari da belədir qəlbə daxil olub, amma qəlbdə qonaqdır. İman sizə gözəllikdir, qəlbinizdə var, lakin qəlbinizə həkk olunmayıb. Qəlbdə olmaq bir şeydir, qəlbə həkk olmaq isə başqa şeydir. Qurani-Kərimin məntiqinə əsasən, bəzi imanlar elə bu cürdür. İman onlardada qonaqdır. Allah-Taala belə termin işlədib: “Allah onların

1 - Biharul-ənvar, c. 71, səh. 77, hədis 12
2 - Hucurat, 14

qəlblərinə imanı yazır”. Buyurmur ki, qəlblərinə iman daxil olur. Buyurur ki: qəlblərinə iman yazılıb. Bir təsəvvür budur ki, qəlb qab olsun və iman ona tökülsün. Bir də var ki, iman qəlbə yazılsın. Əgər iman qəlbə qonaq gəlsə sabah çıxa bilər. Əgər iman qəlbə həkk olunsa çıxmaz. Ev yiyəsi kimi. Ev yiyəsi evdə narahatlıq da olsa çıxmaz, çünki bu ev ona məxsusdur, doğmadır, əksinə həmin narahatlığı aradan qaldırar. Qonaq gəlib görsə yağış yağır, qonaq getdiyi evə damır, su içindədir qalmaz, çıxıb gedər. Bir sıra iman sahibləri də belədir, imanları qəlbində qonaqdır. Çətinlik olan kimi çıxıb gedər.

## Dərsin xülasəsi

İmamət haqda araşdırma apardığımız zaman iki əsas məsələ vardır: 1) İmamı kim seçir? 2) İmamın şəraiti (imam olmağın şərtləri) nədir?

Birincisi haqda nəticə aldıq ki, imamı Allah seçir, çünki imamət də nübuvvət kimi bir ali mənəvi dərəcədir. İkincisi barəsində qeyd etdik ki, imam məsum olmalıdır. Amma bəzilərinin fikrincə imam olmağın xüsusi şərti belə yoxdur. Yəni imam adil olmasa da, böyük günahı olsa da heç bir eybi yoxdur deyə düşünənlər də var. Bəziləri məsum olmasını şərt bilmirlər. Bəziləri də heç adil olmasını da şərt bilmirlər. Əlbəttə, bu baxış tərzi düzgün məntiqə əsaslanmır.

Ayəyə əsasən imamın şərtləri bunlardlr:

1) İmamlıq məqamı peyğəmbərlikdən daha üstündür.
2) İmam məsumdur.
3) İmamı məhz Allah özü bu məqama seçir.
4) İmam təşrii və təkvini hidayətə və vilayətə malikdir.
5) İmam əzəmətli səbrə malikdir.
6) İmam əmr aləmi ilə hidayət edir

## Beşinci dərs

### İmanın dərəcələri

Qurani-Kərimdə iman üçün ən az iki dərəcə qeyd olunub. Hətta bəzi alimlər buyurub ki, Quranda imanın dörd dərəcəsinə işarə edilmişdir. Minimum iki dərəcə iman aşağıda qeyd etdiklərimizdir:

1) İman qəlbdədir lakin, hələ ona həkk olunmayıb. Mücadilə surəsi 22-ci ayədə buyurulur:

لَا تَجِدُ قَوْمًا يُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ يُوَادُّونَ مَنْ حَادَّ اللَّهَ وَرَسُولَهُ وَلَوْ كَانُوا آبَاءَهُمْ أَوْ أَبْنَاءَهُمْ أَوْ إِخْوَانَهُمْ أَوْ عَشِيرَتَهُمْ أُولَئِكَ كَتَبَ فِي قُلُوبِهِمُ الْإِيمَانَ وَأَيَّدَهُمْ بِرُوحٍ مِنْهُ

"(Ya Peyğəmbər!) Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlarla - öz ataları, oğulları, qardaşları, yaxın qohumları olsalar belə - dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və Öz dərgahından onlara ruh (güc) vermişdir (iman, hidayət nuru əta etmişdir)."

İmanın qəlbdə olmasının faydası belədir: İnsan namaz qılır, oruc tutur, zəkat verir. Həyat iki cürdür: Bir adi həyat, yəni yaşadığımız həyat, bir də təlatümlü həyat. Adi həyat sadədir, təlatümlü deyil, balaca qayıqda da olsaq hərəkət edəcəyik. Dəniz dalğalansa, tufan olsa balaca qayıqlar batar. Adi həyat da bunun kimidir. Həyat adi həyat olsa burada namaz da var, oruc da var. Dalğalar gələndə yəni tufan baş verəndə dünyasıyla dini çarpışar. İman qonaqdırsa dünyasıyla bəzi mənfəətlər toqquşarsa gedər, amma əgər iman qəlbə yazılmışdırsa getməz. Məsələn: İmam Hüseynə (ə) kufəlilər yalan demirdilər. Onlar İmam Hüseyni (ə) sakit istəyirdilər. Lakin istəyirdilər ki, dünyaları da olsun, imanları da. Nouman ibni Bəşir Kufənin valisi idi, sakit adam idi, O da həyatında İmam Hüseyni (ə) istəyirdi. Düşünürdü ki, imam gələcək, məscidlərində namaz qılacaq, imam camaat olacaq. İmamı bu qədər çox istəyirdilər. Sonra isə vəziyyət dəyişdi. Və İmam Hüseyn (ə) kufəlilərin dəvəti ilə gəldi. İmam Hüseyni (ə) dəvət edəndə dəniz sakit idi, gələndə

təlatüm baş verdi. İmam Hüseyn (ə) ilə dünyaları toqquşdu. Onlar dünyalarından əl çəkmədilər. İmama (ə) qarşı olmaq dünyalarına dəymədi, qızıl sikkələrinə dəymədi. İbn Ziyad Yezidin göstərişi ilə onlara çoxlu qızıl sikkələr söz verirdi. Bunlar İmam Hüseyn ilə (ə) dünyanın arasında qalmışdılar. Ya Hüseyn ya da qızıl sikkələr. Ya Hüseyn ya da dünyalarında yaşamaq. Ya Hüseyn ya da Yezidin yanında yaxşı olmaq, Yezidə yaxınlaşmaq və Yezidə yaxınlaşmaqdan faydalanmaq. Bu vəziyyətdə, belə bir toqquşmaya; imanla dünyanın qarşı-qarşıya gəlməsinə onlar hazır deyildilər. Bizdə də adi həyatda iman var. Məsələn: namaz qılanıq, oruc tutanıq. Məscid, tufansız dənizə bənzəyir. Bəzilərinin imanı yoxdur hətta məsciddə də qeybət edirlər. Onların imanı eyni zamanda sakit həyatdır. İnsanın nəfsi, dünyəvi istəkləri ilə toqquşsa burada ayrı iman lazımdır. İmam Hüseyn (ə) buyurur:

النّاسُ عَبيدُالدُّنْيا، وَ الدّينُ لَعِبٌ عَلى أَلْسِنَتِهِمْ، يَحُوطُونَهُ ما دارَتْ بِهِ مَعائِشُهُمْ، فَإذا مُحِصُّوا بِالْبَلاءِ قَلَّ الدَّيّانُونَ.

"Camaat özünü dindar göstərir, imtahana düşəndə isə dindar azalar". Bəla ilə üzbə üz gələndə dindar azalar. Hansı dindarlar? Qəlblərinə iman yazılan dindarlar. Həmin siyahısı azalar. Hamı ona hazır deyil. O insandan xüsusi hazırlıq tələb edir. Bu xüsusi bir dərəcədir. İnsan gərək o dərəcəyə çatsın. İnsanın gərək yəqini olsun. Yəqin olmasa insanın o cür imanı olmaz. Biz də bəzi şeyləri bilirik, lakin şəkk edirik. Deyirik nə vaxtsa olacaq. O söz də bizim imanımızı zəiflədir. Olacaq da. Yəni kamil olmağına arxayın deyilik. Bu şəkkdir.

## Agahlıq mərhələləri

### 1. Elmul-yəqin

Riyaziyyatı sübutlarla bilirik. Məsələn: Əqlimiz qəbul edir - Allah adildir qiyamət olmasa olmaz, Allah hakimdir qiyamət olmasa olmaz. Bu bilməkdir. Bu da bir mərhələdir, bu elmi cəhətdən bilməkdir. Adamın elmi ilə, əqli arxayın olur, qəlbi isə arxayın deyil. Qəlb dəqiq deyil. Biz hamımız inanırıq ki, ölüm var. Ölümün

mahiyyətini bilmirik. Öləndə insan necə olur? Heç kəs inkar etmir. Hamının ölümə elmlə yəqini var. Buna “elmul-yəqin” deyilir.

**2. Eynul-yəqin**

Biri də var ki, insan bəsirətə malik olsun, yəqini olsun. Yəqin, bilməkdən bir pillə yuxarıdır. İnsan sanki qiyaməti görür, cənnəti görür, cəhənnəmi görür. Bu sadəcə bilmək deyil. Sırf sübutlarla bilir? Xeyr. Əksinə yəqinliklə bilir. Bu da yəqinin başqa formasıdır. Buna “eynul-yəqin” deyilir. Cəhənnəmi görür.

**3. Həqqul-yəqin**

Biri də budur ki, insan təkcə cəhənnəmi görmür, cəhənnəmin içindədir və yaxud cənnətin içindədir. Buna “həqqul-yəqin” deyilir.

Bu terminlərin hamısı Qurani-Kərimdə var.

كَلَّا لَوْ تَعْلَمُونَ عِلْمَ الْيَقِينِ

لَتَرَوُنَّ الْجَحِيمَ

ثُمَّ لَتَرَوُنَّهَا عَيْنَ الْيَقِينِ

إِنَّ هَذَا لَهُوَ حَقُّ الْيَقِينِ

وَإِنَّهُ لَحَقُّ الْيَقِينِ

Xeyr, əgər (qiyamət günü sizə nə ediləcəyini) tam yəqinliklə bilsəydiniz (fani dünya malına uymazdınız)!

(Ey müşriklər! Qiyamət günü) siz o Cəhənnəmi mütləq görəcəksiniz!

Bəli, siz (Cəhənnəmə vasil olduqdan sonra) onu mütləq öz gözünüzlə görəcəksiniz![1]

Şübhəsiz ki, bu, təkzibolunmaz həqiqətdir![2]

Doğrudan da, bu (Quran) gerçək bir həqiqətdir.[3]

Buna “odu” misal çəkə bilərik. Məsələn: Sən dostuna, “mən bu gün evdə samovarda çay qoyacam” demisən.Yəni samovarı odunla qalayacam, qazla deyil. Dostun axşam fikirləşir ki, görəsən doğurdan da odunlamı qalayıb samovarı? Buna şəkk deyirlər. O, evinizin

1 - Təkasür, 5-7
2 - Vaqiə, 95
3 - Haqqə, 51

yanından keçərkən görür ki, həyətinizdən tüstü çıxır. Buna “yəqin” deyirlər. Çünki tüstünü gördü. Bu elmdir. Elm zehni nəticə almaqdır. Mən sübutlarla qiyamətə nəticə alıram. Qapını açıb içəri daxil olursan, odun yandığın görürsən, bu da görməkdir. Sonra əlini oda vurursan. Əlin yanır. Elmul-yəqinə tüstünü görməkdir. Odu görmək eynul-yəqindir. Oda əl vuraraq onun istiliyin öz bədənində hiss edirsən buna isə deyirlər həqqul-yəqin. Deməli agahlıq üç cürdür. Bəzi insanlar həqiqətləri bilirlər, bəzi insanlar həqiqətləri görürlər, bəzi insanlar isə həqiqətin içindədirlər.

Əbu Əli Sina zamanında Əbu Səid Əbu Xəyri var idi. Biri filosof idi, o biri isə arif. Biri din əhli idi, qəlb əhli idi, biri isə əql əhli idi. Bir gün bunları görüşdürür, danışdırırlar. Onlar danışandan sonra Əbu Xəyridən soruşurlar ki, İbn Sina haqda fikrin nədir? Əbu Xəyri deyir: Mən nəyi görürəmsə, İbn Sina onu bilirdi. Sonra Əbu Əli Sinadan soruşdular: Əbu Xəyri haqda fikrin nədir? İbn Sina deyir: Mən nəyi bilirəmsə, Əbu Xəyri onu görür. Mən ağılımla nəyi dərk edib bilirdimsə, o da qəlbiylə onu görürdü.

Bu yəqin üç mərhəlilidir. Qurani-Kərimə əsasən kimin nə qədər yəqini çoxalsa o qədər də hidayət məqamında o aləmlə irtibatı çox olduğu bilinər. Və ona Allah-Taala tərəfindən bir sıra dərəcələr verilə bilər. Hansı ayələrdən bilinir? Hədid surəsində buyurulur ki, bizim yəqinimiz çoxalsa dünyada çox şeyləri görə bilərik. Bizim lazımı yəqinimiz yoxdur onun üçün görmürük. Qaf surəsində buyurulur:

**وَجَاءَتْ كُلُّ نَفْسٍ مَعَهَا سَائِقٌ وَشَهِيدٌ ﴿٢١﴾ لَقَدْ كُنْتَ فِي غَفْلَةٍ مِنْ هَذَا فَكَشَفْنَا عَنْكَ غِطَاءَكَ فَبَصَرُكَ الْيَوْمَ حَدِيدٌ ﴿٢٢﴾**

“Hər bir kəs (Rəbbinin hüzuruna) bir sürüyən (sürüyüb məhşərə gətirən) və bir də şahidlə (iki mələklə) gələcəkdir. (Ona belə deyiləcəkdir:) “Sən (dünyada) bundan (bu müdhiş günə uğrayacağından) qafil idin. Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən!”[1]

---

1 - Qaf, 21-22

Bu insana nə deyəcəklər? Bu insana, sən bundan qəflətdə idin deyəcəklər. Yəni əhəmiyyət vermirdin, diqqətin yox idi, etina etmirdin, qafil idin. Pərdəni səndən götürdük. Bu gün sənin gözün itidir. Bu ayənin mənası budur ki, pərdəni götürdük, yəni bu dünyada da görməyə imkanın var idi, amma onunla insan arasında pərdə var idi. Pərdə arada olduğu üçün qəflətdə idin. Pərdə aradan getsəydi görə bilərdin. Pərdəni sən radan götürə bilərdin, lakin götürmədin. İmam Əli (ə) Nəhcül-bəlağədə buyurur:

لو كُشِفَ الغطاءُ ما اذْدَدْتُ يَقيناً؛

"Pərdələr aradan getsə də mənim yəqinliyim çoxalmaz".[1]

Pərdələr qafil insanlarda olur. Pərdəsi olan şəxs yatmış kimidir. Oyaq olanda isə pərdə yoxdur. Yatanı göz pərdəsi, yuxu pərdəsi görməyə qoymur. Oyaq olan şəxs isə görür. Bu ayənin nəticəsi budur ki, insan qəflət olmasa görər. Demək istəyirik ki, imam (ə) yəqin əhlidir, yəqin əhli olduğu üçün mələkut aləmi ilə rabitəsi var, hər şeyi görür, ona görə hidayət verir. Qurandan bir sıra ayələri qeyd etmək istərdim, buyurulur ki, kimin yəqini çox olarsa çox şey görər. İmam (ə) da yəqin əhli olduğu üçün görür və hidayət edir.

***Qurandan birinci dəlilimiz: Allaha yaxın insanlar (muqərrəbun) yaxşıların əməllərinə şahiddir.***

Vaqiə surəsində insanları üç qrupa bölür. Bunlar əshabi-yəmin, əshabi-şimal və muqərrabundur. Bir sıra insanlar sağçılardır, bir sıra insanlar solçulardır, bir sıra insanlar muqərrəbdir.

فَأَصْحَابُ الْمَيْمَنَةِ مَا أَصْحَابُ الْمَيْمَنَةِ ﴿٨﴾ وَأَصْحَابُ الْمَشْأَمَةِ مَا أَصْحَابُ الْمَشْأَمَةِ ﴿٩﴾ وَالسَّابِقُونَ السَّابِقُونَ ﴿١٠﴾ أُولَئِكَ الْمُقَرَّبُونَ ﴿١١﴾

Sağ tərəf sahibləri (əməl dəftərləri sağ əllərinə verilənlər). Kimdir o sağ tərəf sahibləri? (Nə uğurludur onlar!) ﴾8﴿ Sol tərəf sahibləri (əməl dəftərləri sol əllərinə verilənlər). Kimdir o sol tərəf sahibləri? (Nə uğursuzdur onlar!) ﴾9﴿ Və öndə olanlar. Onlar (dünyada Allah yolunda, imanda, əməldə, xeyirdə öndə olduqları kimi, axirətdə də)

1 - Şərhi-Qürərül-hikəm, Amedi, c. 5, səh 108, hədis 7569

öndədirlər! (Nə xoşbəxtdir onlar!) ﴾10﴿ Onlar (Allah dərgahına, Allahın lütfünə) yaxınlaşdırılmış kimsələrdir. ﴾11﴿ [1]

Nutəffifin surəsində də oxuyuruq:

كَلَّا إِنَّ كِتَابَ الْأَبْرَارِ لَفِي عِلِّيِّينَ ﴿١٨﴾ وَمَا أَدْرَاكَ مَا عِلِّيُّونَ ﴿١٩﴾ كِتَابٌ مَرْقُومٌ ﴿٢٠﴾

Xeyr! Şübhəsiz ki, yaxşı əməl və itaət sahibi olan möminlərin əməl dəftəri İlliyyundadır! ﴾18﴿ Sən nə bilirsən (haradan bilirsən) ki, İlliyyun nədir?!﴾19﴿ O, yazılı bir kitabdır.﴾20﴿

İndi bu iki surədəki ayələrdən nəticə alırıq: Bir sıra insanların "əbrar"-"xeyirxahar" adı var. Əbrar yəni yaxşı adamlar, namaz əhli, Quran əhli, dua əhli, ehsan əhli və s. Onlar yaxşı adamdırlar. Bu ayədən məlumdur ki, bir sıra insanlar başqa insanların əməllərini görürlər. Onlara pərdə yoxdur. Bizim başqa insanların əməllərinə pərdəmiz var. Görmürük. Demirik ki, bu yaxşı adamdır və ya pis adamdır, əməli nədir? Çünki əməlin bir hissəsi niyyətdədir, yəni daxildədir. Vaqiə surəsində buyurulur: Muqərrəblər (Allaha yaxın şəxslər) əbrarın (yaxşıların) əməl kitablarına şahiddir. Qeyd etdik ki, insanların əməllərini Hz. Peyğəmbərə (s), İmam Zamana (ə) təqdim edirlər. Ayədən də bunu nəticə alırıq. Allahın muqərrəb insanları əbrarın kitabına şahid olarlar. Onlar o qədər kamilləşiblər ki, əməlləri görürlər. Onlarda pərdə yoxdur. Qəlbləri görürlər.

**Qurandan ikinci dəlilimiz: Müqərrəbun mələklər deyil.**

Bəzi təfsirçilərə görə "muqərrəbun" (Allaha yaxın şəxslər) sözünün mələklərə aid olduğunu qeyd edirlər. Yəni bunlar (müqərrəblər) insan deyil mələkdirlər. Amma bu ayədəki "muqərrəbun" mələklər deyil. Çünki 28-ci ayədə buyurur ki, Cənnətdə bir çeşmə var ki, ondan yalnız muqərrəb insanlar içirlər. Bu mələk deyil. Məlumdur ki, çeşmədən insan içər. Bir bu ayəyə əsasən muqərrəb mələk ola bilməz.

يُسْقَوْنَ مِنْ رَحِيقٍ مَخْتُومٍ ﴿٢٥﴾ خِتَامُهُ مِسْكٌ وَفِي ذَلِكَ فَلْيَتَنَافَسِ الْمُتَنَافِسُونَ ﴿٢٦﴾ وَمِزَاجُهُ مِنْ تَسْنِيمٍ ﴿٢٧﴾ عَيْنًا يَشْرَبُ بِهَا الْمُقَرَّبُونَ ﴿٢٨﴾

1 - Vaqeə, 8-11

Onlara (gözəl ətirli, təmiz) möhürlü (qablarda olan) şərab (rəhiq) içirdiləcəkdir.﴿ 25﴾ Onun (içində rəhiq olan qabın) möhürü müşkdür. Qoy yarışanlar onun üçün yarışsınlar! ﴿26﴾ Ona təsnim (suyu) qatılmışdır. ﴿27﴾ O (təsnim) elə bir çeşmədir ki, ondan (təmiz halda) yalnız (Allaha) yaxın olanlar içər (qalanlara isə o rəhiq şərabına qatılıb verirlər).

Bir də Vaqiə surəsində 88-89-cu ayələrdə orda insanları üç qrupa böləndə, onlardan bir qrupunu müqərrəb insanlar adlandırır.

فَأَمَّا إِنْ كَانَ مِنَ الْمُقَرَّبِينَ ﴿٨٨﴾ فَرَوْحٌ وَرَيْحَانٌ وَجَنَّتُ نَعِيمٍ ﴿٨٩﴾

Amma əgər (ölən kimsə Allah dərgahına, Allahın lütf və mərhəmətinə) yaxın olanlardandırsa, ﴿88﴾ (Onu) rəhmət, gözəl ruzi (yaxud xoş ətirli çiçəklər) və Nəim cənnəti gözləyir! ﴿89﴾

Buyurur ki, müqərrəb insanlara Allah müxtəlif nemətlər verər. Ardınca ayələrdə həmin nemətləri sayır. Bu ayələr göstərir ki, insan Allahın müqərrəb bəndəsi olub Allaha yaxınlaşsa çox şey görüb, müşahidə edə bilər. Biz görmədiyimizə görə deməli müqərrəb deyilik. Heç əbrar belə deyilik. Allahın müqərrəb insanlarına pərdə yoxdur.

***Qurandan üçüncü dəlilimiz: Bu dünyada maneələri dəf etmədiyimiz üçün imanımız gözümüzün açılmasını təmin etmir.***

Təkasur surəsinin ayələri buna süburdur. İnsan dünyada bəzi həqiqətləri görə bilər, amma mənəvi pərdəsi, maneəsi olduğu üçün görmür.

أَلْهَاكُمُ التَّكَاثُرُ ﴿١﴾ حَتَّى زُرْتُمُ الْمَقَابِرَ ﴿2﴾ كَلَّا سَوْفَ تَعْلَمُونَ ﴿٣﴾ ثُمَّ كَلَّا سَوْفَ تَعْلَمُونَ ﴿٤﴾
كَلَّا لَوْ تَعْلَمُونَ عِلْمَ الْيَقِينِ ﴿٥﴾ لَتَرَوُنَّ الْجَحِيمَ ﴿٦﴾ ثُمَّ لَتَرَوُنَّهَا عَيْنَ الْيَقِينِ ﴿٧﴾

(Ey qafil insanlar!) Çoxluq (mal-dövlət, oğul-uşaq və qohum-əqrəba çoxluğu) ilə öyünmək sizi o qədər şirnikləndirdi (başınızı o qədər qatdı) ki, ﴿1﴾ Hətta (məzarlarda yatan ölülərinizi sayıb, onların da çoxluğu ilə fəxr etməyiniz üçün) qəbirləri ziyarət etdiniz. [Və ya (axirətiniz üçün əsla çalışmadan) ölüb getdiniz (ölənə qədər bu halınızda davam etdiniz)]. ﴿2﴾ Xeyr! (Belə yaramaz!). Siz (öləndən sonra bu yaramaz əməllərinizin aqibətini) mütləq biləcəksiniz! ﴿3﴾ Xeyr, xeyr! (Belə yaramaz). Siz (öləndən sonra bu

yaramaz əməllərinizin aqibətini) mütləq biləcəksiniz! ﴾4﴿ Xeyr, əgər (qiyamət günü sizə nə ediləcəyini) tam yəqinliklə bilsəydiniz (fani dünya malına uymazdınız)! ﴾5﴿ (Ey müşriklər! Qiyamət günü) siz o Cəhənnəmi mütləq görəcəksiniz! ﴾6﴿ Bəli, siz (Cəhənnəmə vasil olduqdan sonra) onu mütləq öz gözünüzlə görəcəksiniz! ﴾7﴿

Təkasur surəsində Qiyamətin qəflətindən söhbət gedir. Yəni insan Qiyamət haqda qəflətdədir. Qəflət, yəni etina etmir. Diqqət göstərmir. Əhəmiyyət vermir. Biz çox vaxt qiyamətin fikrində olmuruq. Adi bəşər qiyamət haqda qəflətdədir. Allah-Taalada burada buyurur: "Sizi təkasur özünə məşğul edib". Təkasur, yəni "dünyanı çox istəmək, maddiyatı çox istəmək." İnsan dünyanı çox istəyəndə hətta ölənə qədər qiyamətə qəflət edər. Quran buyurur ki, belə olan halda ölənə qədər qəflətə düşürsünüz. Öləndən sonra qəflət aradan gedir. Ondan sonra agah olursunuz, həqiqəti bilirsiniz. Ölənə qədər qəflətdəsiniz, öləndən sonra pərdələr açılır. Bunun amili (səbəbi) də təkasurdur. Buyurur ki, həmişə belə deyilsiniz. İndi bu dünyada təkasur (dünyapərəstlik) səbəb olub ki, qəflətə düşəsiniz. Bunlar iki mərhələdədir. Qəflətdə olanlar öləndən sonra bir az agahlıq əldə edər, ona həqiqətlər aydın olar. Məsələn, sən bir nəfərlə tanış deyilsən və ona pis baxırsan. Sonra bir az tanış oldun, dost oldun onda bəzi pərdələr gözünü qarşısından qalxar. Bir az da çox dostluq etsən, ondan sonra pərdələrin çoxu aradan qalxar. Buyurur ki, öləndə bəzi həqiqətlər aydın olacaqdır. Sonra bərzəxdən də qurtulduğunu zaman, qiyamətdə yenə də ayrı pərdələr ortadan qalxır. Buna görə də iki mərhələdədir.

Biri budur ki, insan bu dünyada da agahlıq əldə edə bilərdi və həqiqəti görə bilərdi. Amma dünyaya bağlı olduğu üçün görə bilmir. Quranda buyurulur ki, əgər siz "elmi yəqin" - "yəqin əsaslı agahlıq" tapsaydınız cəhənnəmi indi də görərdiniz. Sonra cəhənnəmi gözünüzlə də görəcəksiniz. Bu ayədən aydın olur ki, insan dünyada yəqin əldə edə bilsə cəhənnəmi də görə bilər. Zeyd ibn Harisə Hz.Peyğəmbərin (s) səhabələrindən idi. Hz. Peyğəmbər (s) bir gün ondan soruşur: "Necəsən? Sübhü necə açdın?"

Harisə dedi: Ey Peyğəmbər! Sübhü Axirət aləminə olan kamil inamım və yəqinimlə açdım.

Peyğəmbər (s) buyurdu: “Hər bir yəqinin və inamın özünəməxsus nişanələri vardır. Sənin kamil inamının əlamətləri nədir?”

Dedi: Mən cəhənnəmi və cənnəti görürəm. Cəhənnəmdə əzab çəkənləri, cənnətdə nemətlənənləri görürəm. Ey Peyğəmbər! Mənim yəqinim, gecələr yuxusuzluğuma səbəb olan, məni narahat edən, bu qızmar yay günlərində məni dünya və onun bər-bəzəyinə etinasız yanaşmağa məcbur edən imanımdır. Qiyamət gününü görürəm. İnsanların qəbirdən haqq-hesab vermək üçün necə ayağa qalxdığını müşahidə edir və özümü də onların arasında görürəm. Cənnət əhlinin behiştin meyvələrindən faydalandıqlarını, oradakı taxtlara söykənərək, bir-biriləri ilə mehribancasına söhbət etdiklərini görürəm. Atəş içində yanan cəhənnəm əhlinin fəryadlarını eşidirəm. Cəhənnəm odunun nərəsi indi də qulaqlarımdadır.

Allahın Peyğəmbəri (s) səhabələrinə buyurdu: "Bu elə bəndədir ki, Allah onun qəlbini iman nuru ilə işıqlandırmışdır".

Sonra yenə əlavə olaraq Harisə buyurdu: "Malik oduğun bu əhval-ruhiyyəni qoru!"[1]

Bax, bu yəqinin əlamətidir. Əllamə Məclisi buyurur: Bu insanın qəlbinə nuraniyyət gəlmişdi, qəlbi açılmışdı, həqiqəti görürdü. Bu imanının möhkəm olmağına görə idi. Bu əhli yəqin olmağı səbəbilə idi ki, onun qəlbinə və idrakına belə bir nuraniyyət gəlmişdi. İmam (ə) bu məna ilə yəqin əhlidir. Yəqin səbəbilə İmamdan pərdələr götürülüb, hər şeyi görür.

Bu bəhslə aydın oldu ki, yəqin əhli olmanın ən ali dərəcəsi imama aiddir, amma bu məqamı insanlar da əldə edə bilərlər. Bu qapı bəşərin üzünə bağlı deyil. İnsanlar da yəqin əhli ola bilərlər. Əllamə Təbətəbainin bir qardaşı var idi. Seyyid Məhəmməd Həsən Təbatəabi. Əllamənin öz adı Məhəmməd Hüseyndir. Qardaşı da böyük bir alim, arif, yəqin əhli idi. O, Təbrizdə yaşayırdı. Qeyd

1 - Üsuli-kafi, c. 2, səh. 53

edim ki, bu hekayəni nəql edən Məhum Ayətullah Həsənzadə Amilidir. Buyurur: Biz Qumda Əllamə Təbatəbai ilə dərs oxuyanda onunla birgə Təbrizə gedərdik. Qardaşını da görərdik (Seyid Məhəmməd Həsən Təbatəbaini). Bu iki qardaşın ustadları Seyyid Əli Qazi Təbatəbai idi. (O, Ayətullah Behcətin və onun kimi bir sıra alimlərin ustadı olmuşdur). Qazi Təbatəbai, Allahın övliyalarından biri idi. Bir nəfər onun haqqında şəkk edirdi, bu alim onun qəlbindən keçəni bilirdi. O, yol ilə gedə-gedə bir ilana ölməsini əmr etdi və onun gözünün qabağında ilan öldü. O böyük adam idi, yəqin əhli idi. Hətta vəfat edəndən sonra da, yenə də tələbələrini tərbiyə edirdi. Lakin Əllamənin qardaşı vasitəsilə, ona deyərdi. Məlumdur bu şəxsin də o aləmlə nə qədər rabitəsi var idi. Bunu nəql edən Məhum Ayətullah Həsənzadə Amili böyük bir alimdir, böyük bir arifdir. O deyir ki, mən bir gün ona dedim ki, mənə də göstəriş versin. Buyurur, bu sözü dedim. Bir gün öz şəhərimizdə, Amulda ailə ilə oturmuşduq. Ailəmlə münasibətlərimiz bir az soyumuşdu. Fikirləşdim ki, kənar şəhərlərə çıxım bir az ürəyim rahatlaşsın. Ustadımızın qardaşını görmək üçün Təbrizə getdim. Mən heç nə deməmiş o, mənə dedi ki, Ustad buyurur: “ona tapşır ki, ailəsi ilə yaxşı münasibətdə olsun”. Deyir ki, mən indiyə qədər daxili həyatım barəsində heç kimə heçnə deməmişdim. Lakin onun mənim ailəmlə soyuq münasibətimdən xəbəri olmuşdu. Çünki onun hadisələrə agahığı və əhatəsi var idi. Bəli, yəqin əhlinin xəbəri olar. Çünki, yəqin əhlidə pərdə yoxdur. Pərdə həmin günahlardır. Qurandan bir sıra ayələr var ki, insanın günahları, şəhvət, insanın arzuları,həqiqətlə insanın qəlbinin arasında maneə olmağa səbəbdir. O günahlar getsə insan həqiqətləri görər. Çünki insanların bəzilərinin qəlblərində pas var, zülmət var, ona görə görmür. Həmən paslar, zil qranlıqlar aradan çəkildə, təmilənsə həqiqəti görər. Quranda buyurulur:

وَمَثَلُ الَّذِينَ كَفَرُوا كَمَثَلِ الَّذِي يَنْعِقُ بِمَا لَا يَسْمَعُ إِلَّا دُعَاءً وَنِدَاءً صُمٌّ بُكْمٌ عُمْيٌ فَهُمْ لَا يَعْقِلُونَ

Kafirlər səda və nidadan (çığırtı və bağırtıdan) başqa bir şey anlamayanlara (heyvanlara) bənzərlər. Onlar kar, lal və kordurlar. Buna görə də haqqı dərk etməzlər.[1]

Cismani gözləri kor deyil. Mənəvi gözləri kor olub. Günah gözlərini kor edib. Həqiqəti görməkdə acizdirlər. İmam (ə) həm səbr əhlidir, həm yəqin əhlidir. Bunu ayrı məna ilə də işlətsək, imam həm haqq yolunu görür, həm də haqq yolunu gedib, ona görə də haqqa və kamilliyə apara bilir. Həm yolu tam görüb, tanıyıb, o yola yəqini var. Həm də gedib, ona görə apara bilir.

وَجَعَلْنَا مِنْهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا لَمَّا صَبَرُوا وَكَانُوا بِآيَاتِنَا يُوقِنُونَ

(Çətinliklərə) səbr etdikləri və ayələrimizə ürəkdən inandıqları üçün Biz onlardan əmrimizlə (insanlara) haqq yolu göstərən rəhbərlər (imamlar) təyin etmişdik.[2]

"Biz onları imam etdik çünki səbr əhli idilər." Bir insan imam olanda insana böyük bir nemət verilir. İmam bir nemətdir. Yer üzündə imam varsa, deməli Allahın bir neməti var. Əllamə Təbatəbai buyurur: Həmin nemət imamdır. Başqa nemətlər onun budaqlarıdır. İmamət hər şeyin köküdür, təməlidir. İmam ilə insan kamilliyə ucalar. Xacə Nəsrəddin Tusinin sxolastik resuslu "Təcridul etiqad" adlı bir kitabı var. Əslində bu kitab, onun ustadı Əllamə Hillinindir. Tusi isə ona şərh yazıb. Alilər deyirlər ki, əgər bu tələbə (Tusi) ona şərh yazmasaydı, kitabdakı mətləblərdən heçnə aydinlaşmayacaqdı. Çünki çox qısa yazılmışdır.

Xacə Nəsrəddin orada bir cümlə qeyd etmişdir. O, Əllamə Hillinin yazısına şərh olaraq belə bir söz yazmışdır: "imamın vücudu lütfdür". İmam olmasa insan hidayət olmaz. İmam olmasa mənəviyyat yolunda ucalmaz, onu kimsə yuxarı aparmaz. Bir nəfər məqsədə çatdırma üçün əlindən yapışmaz. İmamın qeybdə olması bizim təqsirimizdir. İnsan nemətə naşükür olarsa, Allah onu həmin nemətdən məhrum edər. Allahın qanunu dünyada təkvin qanunu ilədir, təşrii qanunu ilə yox. İnsan nemətə düzgün münasibət

1 - Bəqərə, 171
2 - Səcdə, 24

bəsləməsə Allah əlindən alar. Qeybət də o cürdür. İmam qeybə çəkilibsə, bu o demək deyil ki, Allah insanların faydasına və məsləhətinə görə bu işi görüb. Əksinə insanların naşükürlüyü ucbatından imamı onların gözündən kənarda saxlayıb. İmam, 313 nəfər xalis insan mövcud olduğu zaman zühur edəcəkdir.

Ənbiya surəsində buyurur:

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاءَ الزَّكَاةِ وَكَانُوا لَنَا عَابِدِينَ

Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik. Biz onları xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.[1]

Ayədə buyurulur ki, İmamları insanlar üçün bizim əmrimizlə hidayət edən rəhbər etmişik. Onlara xeyirli işlər görməyi vəhy etmişik. Diqqət edin! Buyurmur ki, onlara xeyir iş görməyi vəhy etmişik. O peyğəmbərə də vəhy oluna bilər. Buyrulur ki, onlara xeyir işlərin görülməyini vəhy etmişik. Namaz qılmağı onlara vəhy etmişik. Namaz qılsınlar deyil, namaz qılmağı onlara vəhy etmişik. Məsdəri onlara vəhy etmişik. Zəkat verməyi vəhy etmişik və onlar bizə ibadət edəndirlər. Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etmişik. Burada bir sıra insanlardan söhbət gedir ki, onlar imam olurlar. Əmr aləmi ilə hidayət edirlər, Allah da onlara vəhy edib. Bu vəhy nədir ki, Allah imama vəhy edir? İmama məgər vəhy olar? Vəhy peyğəmbərə olar. Bəziləri buyurur: Allah buyurur biz onları imam etmişik elə imamdan məqsəd "peyğəmbər etmişik" deməkdir. İmam lüğət mənasında, yəni qabaqda gedən demək olduğu üçün, peyğəmbər də hər ümmətin rəhbəridir. Ona görə "onları imam etmişik" deyəndə imamın terminanoji mənası deyil. Bəziləri belə düşünürlər. Amma biz qeyd etdik ki, imam təkvini vilayətə malikdir, təşrii vilayətə malikdir, insanları əmrə hidayət edir. Yuxarıda ayədə qeyd olunanlar sırf lüğəvi mənaya, rəhbər mənasına deyil. Peyğəmbər də hər ümmətin rəhbəridir. Burada buyurmur ki, biz onları peyğəmbər etmişik. Burada imam elə həmin "imam" mənasınadır. Hz. İbrahim

1 - Ənbiya, 73

(ə) haqqında söhbət etdiyimiz zaman bunlara aydınlıq gətirmişdik. Diqqət edin ki, buyurur: "onları qərar vermişik-təyin etmişik" "Hum" sözü yəni "cəalna hum". "Qərar vermişik onları". Onların içində Hz. İbrahim (ə) də var. Əvvəldəki ayələrdə Hz.İbrahimdən (ə) də söhbət gedirdi. Əvvəldəki ayələr Həzrət İbrahim (ə) haqqında buyurur:

وَلَقَدْ آتَيْنَا إِبْرَاهِيمَ رُشْدَهُ مِنْ قَبْلُ وَكُنَّا بِهِ عَالِمِينَ

Biz daha öncə İbrahimə də doğru yolu nəsib etmişdik (peyğəmbərlik ehsan buyurmuşduq). Biz onu (onun buna layiq olduğunu) bilirdik.[1]

Məqsədi budur ki, Hz.İbrahim məxsus bir əqlə malik idi, bunu ona Biz vermişdik. Ona görə əmisi ilə söhbət etdi. Əmisi Azər büdpərəst idi, onunla söhbət etdi. Burda "əb" sözü əmi mənasındadır "ata" mənasında deyil. Çünki bu ərəb dilində "əb" ataya da deyilir əmiyə də. Lakin burda ata mənasında işlənməz, çünki bizim mütəvatur hədisimiz var ki, peyğəmbərin nəsli Adəmə qədər təkallahlıdır. Ona görə burada "əb" sözü heç vaxt ata mənasında işlənməz. Çünki Hz.İbrahimin (ə) atası peyğəmbərin də cəddidir, nəslidir. Əvvəldə Hz.İbrahim (ə) əmisi ilə, qövmü ilə mübahisə edir ki, niyə büdpərəstlik edirsiniz. Sonra bütləri sındırır. Ayənin qısasını qeyd edirəm ki, nə haqda gedir. Ənbiya surəsi 68-ci ayədə kafir və müşriklərin qərarına işarə edir. Onlar belə qərara gəlirlər ki, Hz.İbrahimə (ə) od vurub yandıraq, bütlərinizə kömək edək deyə. Bütlər bunlara kömək etməlidir, bunlar isə deyirlər İbrahimi yandıraq. Çünki bütlərimiz yazıqdırlar.

قَالُوا حَرِّقُوهُ وَانْصُرُوا آلِهَتَكُمْ إِنْ كُنْتُمْ فَاعِلِينَ

(Nəmrud və ətrafındakılar öz camaatına) belə dedilər: "Əgər (tapındıqlarınıza yardım göstərmək, onları xilas etmək üçün) bir iş görəcəksinizsə, onu (İbrahimi) yandırın və tanrılarınıza kömək edin!"[2]

Bu cərəyan baş verəndən sonra Allah buyurur:

---

1 - Ənbiya, 51
2 - Ənbiya, 68

قُلْنَا يَا نَارُ كُونِي بَرْدًا وَسَلَامًا عَلَى إِبْرَاهِيمَ

Biz də: "Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol! (Hətta soyuğun belə ona zərər yetirməsin!)" - deyə buyurduq.[1]

Hz.İbrahim (ə) əslində oda düşmədi, sərin və salamatçılıq olan yerə düşdü. Şəkli, siması od idi. Bu nəyə oxşayır? Bəzi insanlar şəhid olurlar, bu müsibət deyil. Görünüşü müsibətdir. Həqiqəti salamatlıq və qurtuluşdur. İmam Əli (ə) şəhid olanda buyurur:

فُزْتُ وَ رَبِّ الْكَعْبَه

"And olsun Kəbənin rəbbinə qurtuldum."[2]

Burada qurtulmaq zahiri mənada deyil. İmam Əlinin (ə) saqqalından, mübarək üzündən qan tökülürdü. Od da o cür idi. Sonra buyurulur: Ənbiya surəsi 71-ci ayədə:

وَنَجَّيْنَاهُ وَلُوطًا إِلَى الْأَرْضِ الَّتِي بَارَكْنَا فِيهَا لِلْعَالَمِينَ

Biz onu da (İbrahimi də), (qardaşı oğlu) Lutu da (Nəmrud tayfasının əlindən qurtarıb) aləmlər üçün mübarək etdiyimiz (torpağında bəşər övladına bərəkətlər verdiyimiz) yerə (Şama) qovuşdurduq.

Buyurulur ki, biz İbrahimi xilas etdik. Təkcə İbrahimi yox Lutu da xilas etdik. Hz.Lut, Hz.İbrahimin xalası oğlu idi. O da bir ümməti hidayət edirdi. Bir zamanda iki peyğəmbər var idi. Hz.İbrahim böyük peyğəmbər idi, ululəzm peyğəmbərlərindən idi. Lut isə təbliğatçı peyğəmbər idi. Doğru yola çağırırdı. Onun qövmü çox pozğun işlərlə məşğul idi, xüsusi ilə "livat"[3] əməli ilə məşğul idi. Buna görə də, Allah onlara bəla nazil etdi. Bəla nazil edəndə Hz.Lut o bəladan sağ çıxdı, qurtuldu. Hz. İbrahim Babilistanda idi. Hz. Lut da Babilistanda idi, Sonra Fələstinə tərəf köçdülər. Ayədə buyuruur ki, "nicat verdik onları ora" yəni Fələstinə köçürdük. O torpaqlar bütün dünya üçün, bütün insanlar üçün bərəkətli idi. Buyurulur ki, Hz.Lutu (ə) ora apardıq. İkisi də ora köçdülər

---

1 - Ənbiya, 69

2 - İbn Qüteybə, Əl-İmamə, c. 1, səh. 180; Seyid Rəzi, Xəsais, səh. 63; İbn Şəhri Aşub, Mənaqib, c. 2, səh. 119

3 - Homoseksualizm

getdilər. Orada olanda Hz. İbrahimə (ə) İshaqı sonra Yəqubu bəxş etdik. İshaq İbrahimin oğludur, Yəqub da İshaqın oğludur. Bütün sonrakı peyğəmbərlər hamısı İbrahimin nəslindəndir. Yusif və 11 qardaşı Yəqubun oğludur. Həzrət Musa, Həzrət İsa, Həzrət Zəkəriyya, Həzrət Yəhya bunlar isə Yəqubun oğludur. Bunlar hamısı Bəni-İsraildir. Onlar Yusifin nəslindən deyil, Hz. Yusifin o biri qardaşlarının nəslindəndir. Bununla belə Hz. Yəqubun nəslindəndir. Hamısı Bəni-İsraildir. Hz.Məryəm də hətta Bəni-İsraillidir. Yəni Hz.İsa peyğəmbər də, Məryəmlə Yəqubun nəslindəndir. Bizim peyğəmbər də yenə İsmail ilə Yəquba qayıdır. Ona görə ki, Hz.İbrahim(ə) şeyxul ənbiyadır. Bəni-İsrail 12 tayfa idi, hər tayfadan da peyğəmbərlər var idi. Bizim söhbətimiz bu deyil. Buyurur: Bunların hamısını biz saleh etmişik. Burada söhbət kimdən gedir?. İbrahimdən, Lutdan, İshaqdan, Yəqubdan. Buyurur: Bunların hamısını biz saleh etmişik.

وَوَهَبْنَا لَهُ إِسْحَاقَ وَيَعْقُوبَ نَافِلَةً وَكُلًّا جَعَلْنَا صَالِحِينَ

Biz ona (İbrahimə) İshaqı, üstəlik Yəqubu da bəxş edib onların hamısını saleh kimsələr etdik.[1]

---

[1] - Ənbiya, 72

## Dərsin xülasəsi

Qurani-Kərimdə iman üçün ən az iki dərəcə qeyd olunub. İman ya qəlbə həkk olub, ya da qəlbdə müvəqqəti və süst olaraq məskunlaşıb və çətinlik zamanında qəlbi tərk edir.

Agahlığın və yəqinin müxtəlif mərhələləri vardır:

1. **Elmul-yəqin**

Ağlın məntiqə əsasən bildiyi məlumatlar. Buna "elmul-yəqin" deyilir. Məsələn, hamının ölümə elmlə yəqini var. Adamın elmi ilə, əqli arxayın olur, qəlbi isə arxayın deyil.

2. **Eynul-yəqin**

Yəni insan bəsirətə malik olsun, yəqini olsun. Yəqin, bilməkdən bir pillə yuxarıdır. İnsan sanki qiyaməti görür, cənnəti görür, cəhənnəmi görür. Bu sadəcə bilmək deyil. Buna "eynul-yəqin" deyilir.

3. **Həqqul-yəqin**

Yəni insan təkcə cəhənnəmi görmür, cəhənnəmin içindədir və yaxud cənnətin içindədir. Buna "həqqul-yəqin" deyilir. Əlini oda salmış insan odu yaşayır.

İnsan möhləm yəqin sahibi olarsa, həqiqətləri görə bilər. İmam da bu yəqinə sahib olduğu üçün hadisələri əhatə etmişdir onun elmi. Qurani-Kərimdə bu haqda müxtəlif dəlillər gətirmək olar:

Qurandan birinci dəlilimiz: Allaha yaxın insanlar (muqərrəbun) yaxşıların əməllərinə şahiddir.

Qurandan ikinci dəlilimiz: Müqərrəbun mələklər deyil.

Qurandan üçüncü dəlilimiz: Bu dünyada maneələri dəf etmədiyimiz üçün imanımız gözümüzün açılmasını təmin etmir.

## Altıncı dərs

### İmamdan məqsəd

Qurani Kərimdə məhz həmin məsələləri qeyd etdikdən sonra Allah buyurur: "Biz onları imam təyin etdik". Burada qeyd olunan "imam" heç vaxt "nübuvvət-peyğəmbərlik" mənasında ola bilməz. Çünki Hz.İbrahim (ə) də onların içindədir. Bu ayədə Hz. İbrahimə (ə) verilən imamlıq məqamına da işarə edir. Qeyd etdiyimiz, "Mən İbrahimi imam təyin etdim." (Qurani-Kərimdəki) cümləsində imamlıq hansı mənadadır? Məhz ayələri bir-birləri ilə uyğunlaşdırsaq aydın olar ki, burada imamlıq hansı mənadadır. Əslində qeyd olunan "imamlıq" elə həqiqi mənada həmin imamlıq məqmını çatdırır. Çünki bunların arasında İbrahim (ə) da var. Bunu elmi terminlə izah etsək buna "vəhdəti-siyaq"- "konteksin birliyi" deyilər. Siyaq, yəni eyni üslubda olmaq. Ayələr bəzən eyni üslubda olur. Bir ayədə bir cür məna edib, başqa ayədə bir cür məna edilməsi yalnış sayılır. Ayədə qeyd olunan "İbrahimi imam etdim" elə həmin üslubdur. Aydın olur ki, onları imam etdi dedikdə Hz. İbrahim (ə) də onların içində sayılır. Buradan imamlığın hansı mənada olduğu aydın olur.

Bəs burada imamlıq həmin mənadadırsa, bu ayə ilə Hz. İbrahimə (ə) verilən imamlığı biz "ümumi imamlıq" mənasında istifadə edə bilərikmi? Əgər ümumi rəhbərlik mənasında olsaydı istifadə edə bilməzdik. Amma İbrahimə (ə) verilən imamlıq mənasında olduğuna görə bu ayə də imamlıq ayələrindən biridir.

Bura qədər qeyd etdik ki, imam yəqin əhlidir, imam səbir əhlidir, imam zalım deyil məsumdur, imam imtahandan çıxmış bir insandır. Bunları yuxarda qeyd etdik. İndi bu ayədən bizə aydın olur ki, imam xüsusi bir vəhyə sahibldir. İmama da bir növ vəhy olunur.

## Quranda vəhyin növləri

Quranda da vəhy bir neçə cür işlədilib. Əvvəlcə Qurani-Kərimi araşdıraq.

**1) Peyğəmbərlik vəhyi**

Vəhyin bir mənası həmin peyğəmbərlərə nazil olan vəhyidir. Allah Cəbrayıl ilə və ya hər hansı bir vəhy mələyi ilə öz peyğəmbərinə bir ayəni, tapşırığı göndərir. Filan işi də görün mənasında əmr kimi də göndərir. Bu peyğəmbərlik vəhyi adlanır.

**2) Şeytani vəsvəsə**

Vəhyin başqa bir növü isə Quranda "vəsvəsə" mənasında mənfi anlamda işlənib. Quran buyurur ki, şeytanlar da bir-birinə bir növ vəhy edirlər. Onlar da bir-birinə vəhy çatdırırlar. Vəhyin bir mənası da şeytanların bir-biri ilə danışığıdır. Bundan əlavə, kiməsə vergi verilə bilər, amma həmişə vergini Allah vermir. Bəzən şeytan da insana vergi verir. Quran ayəsində bu barədə buyurulur:

وَكَذَلِكَ جَعَلْنَا لِكُلِّ نَبِيٍّ عَدُوًّا شَيَاطِينَ الْإِنْسِ وَالْجِنِّ يُوحِي بَعْضُهُمْ إِلَى بَعْضٍ زُخْرُفَ الْقَوْلِ غُرُورًا وَلَوْ شَاءَ رَبُّكَ مَا فَعَلُوهُ فَذَرْهُمْ وَمَا يَفْتَرُونَ

Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq. Onlar (biri digərini) aldatmaq məqsədilə bir-birinə təmtəraqlı (zahirən gözəl, daxilən çirkin) sözlər təlqin edərlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər![1]

**3) Xüsusi yaradılış**

Vəhyin üçüncü mənası "xüsusi yaradılış"dır. Allah bəzi varlıqları elə yaradıb ki, onlara məxsus işlər görə bilirlər. Allah-taala buyurur: "Mən onlara vəhy etdim". Quranda bal arısına belə vəhy etdiyini buyurur: "Mən bal arısına evini tik deyə vəhy etdim". Bura-da bal arısına"vəhy etdim" Cəbrail vasitəsi ilə deyildir. Burda vəhy, yəni bal arısını o cür yaratdım, o xasiyyətdə yaratdım mənasındadır.

وَأَوْحَى رَبُّكَ إِلَى النَّحْلِ أَنِ اتَّخِذِي مِنَ الْجِبَالِ بُيُوتًا وَمِنَ الشَّجَرِ وَمِمَّا يَعْرِشُونَ

1 - Ənam, 112

Rəbbin bal arısına belə vəhy (təlqin) etdi: “Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda (evlərin damında, üzümlüklərdə) özünə evlər tik (pətəklər sal)[1].

**4) İlahi ilham**

Quranda vəhyin bir mənası da “ilham” mənasında işlənib. “İlham”, yəni Allah insanın ürəyinə hər hansı bir söz salır. Buyurulur:

وَأَوْحَيْنَا إِلَى أُمِّ مُوسَى أَنْ أَرْضِعِيهِ فَإِذَا خِفْتِ عَلَيْهِ فَأَلْقِيهِ فِي الْيَمِّ وَلَا تَخَافِي وَلَا تَحْزَنِي إِنَّا رَادُّوهُ إِلَيْكِ وَجَاعِلُوهُ مِنَ الْمُرْسَلِينَ

Biz Musanın anasına (ilham yolu ilə, yaxud röyada): “Onu (Musanı) əmizdir; elə ki ondan ötrü qorxdun, onu dəryaya (Nil çayına) at. (Uşağın suda boğulacağından) qorxma və (ayrılığına da) kədərlənmə. Biz onu sənə qaytaracaq, özünü də (şəriət sahibi olan) peyğəmbərlərdən edəcəyik!” - deyə bildirdik.[2]

Diqqət etsək görərik ki, burada da vəhy termini işlənib.

**5) İlahi tövfiq**

Vəhyin başqa bir mənası da, Allahın insanlara bəzi işləri görmək üçün “tövfiq” bəxş etməsidir. Tövfiq, yəni “nailiyyət” və “uğur” deməkdir. Bir növ Allah onları daxildən tərbiyyə edir və nəticədə onlar bəzi işləri öz iradələri ilə amma ilahi nəaliyyətlə icra edirlər. Bunu belə izah edək: Bəzən peyğəmbər bizə buyurur: filan işi gör. Mən isə bu işi görməkdə ixtiyarlıyam. Seçim mənimlədir. Amma bəzən Allah bir şəxsin qəlbinə elə təsir qoyar ki, o istər istəməz o işi görər. Bu məcburiyyət deyil, təşviqdir. Allah bunu hansı bəndəsi üçün etsə, ona töfiq verdi deyilər. Onu müvəffəq etdi, ona nailiyyət verdi, onun iradəsinə möhkəmlik verdi, ona möhkəm iradə bəxş etdi. Necə ki, biz Allahdan istəyirik: “İlahi, mənim iradəmi möhkəmləndir, dayana bilim, dözüm.” Bunlar hamısı elə bu mənadadır. Yəni “məni bir növ tərbiyə et ki, bu işləri görə bilim.” Allah daxilən onu elə tərbiyə edir ki, onlar rahat şəkildə tələb olunan işi icra edirlər. Onun qəlbinə bir növ nüfuz edir ki, özünə zəhmət verməyi, həmin işi icra etmək üçün özünü toplamağı lazım

---

1 - Nəhl, 68
2 - Qəsəs, 7

olmur. Ruhu o işi görməyə hazır olur. Bu da bir növ vəhydir. Bu vəhy göstəriş vermək vəhyi deyil. Allah hər hansı bir işi görməyi göstəriş vermir. Bu işi icra etməyi istəyini onun daxilində yaradır. O xasiyyəti onun ruhunda yaradır. İnsan Allaha yaxınlaşsa Allah onun ruhuna bəzi şeylər bəxş edər. Məsələn: Mənim iradəm zəifdir. Əgər Allaha yaxınlaşsam Allah mənə möhkəm iradə bəxş edər. O, bəxş etdisə, tövfiq verdisə, deməli xasiyyət kimi bəxş olundu. Buyurur: Biz imamlara vəhy etmişik. Məsələn namaz qılmağı göstəriş verməmişik, amma namaz qılmağı vəhy etmişik. Onlar namaz qılsınlar deyə yox, namaz qılmaq xasiyyətini onlara bəxş etmişik. Yəni onları daxilən elə tərbiyyə etmişik ki, onlar namaz qılırlar. Bu göstəriş deyil, yəni peyğəmbər vəhyi deyil. Biz onlara zəkat verməyi, xeyir işi görməyi vəhy etmişik. Bunları bir növ tərbiyə etmişik ki, qabiliyyət özlərindəndir. Bal arısında belə bir vəhy var. Lakin bal arısının iqtidası ixtiyarsızdır. İmamlar kamil insan olduqları üçünəməlləri ixtiyarıdır. İnsan öz ixtiyarı ilə mərhələləri keçirir. Mərhələləri keçdiyi zaman deyir: “Mən bir növ, bundan sonra yaxşı bir xasiyyəti, öz daxilimdən gələn bir təbiət kimi görürəm.” Allah-təala ayrı bir ayədə də buyurmuşdu. Məsələn Allah-təalanın Süleyman peyğəmbərin (ə) hakimlik etməsinə yardım etməsi haqda Qurani-Kərimin ayəsində də işarələr vardır. Bu “dəstək məqsədli vəyh” dini ibarələ ilə isə “vəhyi təsdidi” adlanır.

وَدَاوُودَ وَسُلَيْمَانَ إِذْ يَحْكُمَانِ فِي الْحَرْثِ إِذْ نَفَشَتْ فِيهِ غَنَمُ الْقَوْمِ وَكُنَّا لِحُكْمِهِمْ شَاهِدِينَ ﴿٧٨﴾
فَفَهَّمْنَاهَا سُلَيْمَانَ ﴿٧٩﴾

(Ya Rəsulum!) Davudu və Süleymanı da (yad et)! O zaman ki, onlar bir tayfanın qoyunlarının girib xarab etdiyi bir əkin sahəsi haqqında hökm verirdilər və Biz də onların hökmünə şahid idik.﴾78﴿ Biz onu (məsələnin hökmünü) dərhal Süleymana anlatdıq.﴾79﴿

Bu barədə gələcəkdə qeyd olunacaq. Yuxarıda izah olunan vəhyə “vəhyi təsdidi” deyilir. Hədislərimizdə qeyd olunan “vəhyi təsdidi” Allah tərəfindən təsdiq və dəstək ilədir. Yəni Allah insana kömək edir, yardım göstərir.

Allah bizə iki cür yardım göstərir:

1) Bizə haqqı göstərir.

2) Allah, bizi haqqa aparır.

Peyğəmbər haqqı camaata göstərir. Allah onlara nübuvvət vəhyi verir. Buna "vəhyi təşrii"-"şəri vəhy" deyilir. Onlara vəhy verir ki, ilahi göstərişləri insanlara çatdırsınlar. Amma Allah imama "vəhyi təsdidi" - "dəstəkləyici vəhy" bəxş edir. Çünki imam təkcə haqqı göstərmir, yalnız şəri hökmləri və göstərişləri insanlara çatdırmır, o, ləyaqəətl insanların əlindən tutub kamilliyə doğru aparır. Çünki imam olanların vəzifəsi budur ki, qəlbə nüfuz etsin və uca məqamlara aparsın. Allah da imamların qəlbbinə nüfuz edib onları kamilliyə aparır. Allah imamı ali məqama çatdırır. Buna görə ki, yalnız bu məqama çatan şəxs başqasını kamilliyə apara bilər, çatmayan isə apara bilməz. Onların daxilləri bir növ tərbiyə olunmuşdur. Ona görədə onlar saleh əməl sahibləridir. Elə bu səbəbə də, qeyd olunan ayənin təfsirində bir sıra əhli sünnət alimləri belə çaşbaş qalıblar ki, vəhy məsdərə necə aid ola bilər? Onlar deyirlər ki, vəhy məsdər olmaz. Məsdər, yəni "hansısa işi görmək". Vəhy fel olar. "İşi görmək" vəhy olmaz. "Namazı qılmağı vəhy etdik." "Feli vəhy etmək olar, məsdəri yox"-deyirlər. Diqqət etməyiblər ki, bu vəhy, "təşrii vəhy" (şəri vəhy) deyil, yəni peyğəmbər vəhyi deyil. Peyğəmbər vəhyində "məsdər" vəhy olmaz. O göstəriş vəhyidir, əmr vəhyidir. Yəni imamlarda həmin o qabiliyyət onlara vəhy olunub və onlar bu qabiliyyətlə yaşayırlar. Buna görə də məsdər şəklindədir. Bu formalı vəhy (dəstək vəhyi) mömin insanlara da öz dərəcəsinə uyğun təqdim edilir. Əslində hamıda var. Amma imamlarda yuxarı dərəcədədir, kamil dərəcədədir. Mömin insan Allaha bir neçə addım yaxınlaşsa, addımna uyğun Allah onlara nur verər, agahlıq verər. Nəsə çərin şəraitdə birdən özünü günahdan saxladığını görürsən. O nur hamıda yoxdur. Bəzən hiss edirik ki, bura günah yeridir, burada düzgün şərait qurulmayıb. Oradan çıxırıq və ehtiyat edirik. Bu nur, "vəhyi təsdidi"dir. Allah insana bəxş etdiyi bir tərbiyyədir. Çünki, bunun iqtidasını insan qazanıb. Yəni bu ləyaqətə çatıb ki ona tövfiq

olunsun. İmam bir ləyaqətə çatmışdır ki, namaz qılmaq artıq bunun təbiətindəndir. Onun təbiəti budur. Ondan daim gözəllik gələr, əyrilik gəlməz. Onun atdığı hər addım Allah Taalanın təmizlədiyi üçün pakdır.

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər![1] Ayəsi həmin bu mənadadır. Sizə xeyirxah əməlləri görməyi vəhy etdi. Bu da imamətin bir dərəcəsidir. Bu imama xüsusi bir tövfiqdir. Onlara, Allah tərəfindən məxsus bir imdad olunur. Buna görə ki, imamın Allahla, qeyblə rabitəsi var. Əlbəttə bu əlaqə peyğəmbərlik rabitəsi deyildir. Nübuvvət rabitəsi yoxdur. Bu rabitədə Allah insanı müxtəlif hadisələrin həqiqətini göstərir. Biz, imamın məsum olduğunu deyirik. İmam hər işdə məsumdur. Həyatındakı bütün əməllərində məsumdur. Çünki batinindən məsumluq çıxır. İmam xüsusi bir vəhyə yiyələnib, imama xüsusi bir arxa, ilahi bir dayaq vardır. Bu Allah tərəfindən xüsusi birköməkdir, imdaddır. Bir qədər əvvəl bir ayə haqqında qeyd etdik ki, bəzi insanlara imanı Allah yazıb. Buradan belə aydın olur ki, Allah bəzi insanlara imdad edir. Əlavə bir nemət verir və o əlavə nemət onlara kömək edir. Allah bəxş edər. Mücadilə 22-ci ayədə buyurulur:

أُولَئِكَ كَتَبَ فِي قُلُوبِهِمُ الْإِيمَانَ وَأَيَّدَهُمْ بِرُوحٍ مِنْهُ

Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və Öz dərgahından onlara ruh (güc) vermişdir (iman, hidayət nuru əta etmişdir).

---

1 - Əhzab, 33

**Allah sevgisindən qaynaqlanan iman**

Bir sıra insanlar var ki, qəlblərinə iman yazılıb. Onların sevgiləri də, nifrətləri də Allaha görədir.

Bəzən insanın əməli Allaha görə olur, amma qəlbi Allaha görə döyünmür. Məsələn: namazı Allaha xatir qılır. Amma qəlbi başqa havadadır.

Bir gün Allah Musadan soruşdu: Sən mənə görə nə iş görmüsən?

Həzrət Musa (ə) dedi: Mən sənə görə çox iş görmüşəm. Namaz qılmışam, oruç tutmuşam. Allah buyurdu: Namazı filan şeyə görə qılmısan, orucu filan şeyə görə tutmusan, hamısı məndən ötrü deyildir. Ya cənnətdən ötrü idi, ya dünyada özünə nemətdən ötrü idi. Dua etmisən ki, duan qəbul olsun.

Həzrət Musa (ə) dedi: Mən nə iş görməliyəm ki, o səndən ötrü olsun.

Allah-taala buyurdu: Məhəbbətin və nifrətin mənə xatir olsun. Mənim dostumla dost, düşmənimlə düşmən olmalısan. Bu təvəlla və təbərra mənə xatir olsa onda mənə görə iş görmüş sayılarsan. Yəni insan bu dərəcəyə çatmalıdır ki, düşünməməlidir bu mənim yaxınımdır, dostumdur, filanımdır. Allah dostu onlar üstün olmalıdır. Bu səviyyəyə çatmaq çox çətindir. İnsan namaz qılar amma dostundan əl çəkməz. Bəziləri namaz qılırdı, lakin Əli (ə) ın kini ürəklərində idi. Çünki, Hz.Əli (ə) müşriklərlə döyüşdə onların qardaşını, atasını öldürmüşdü. Vilayət ağır məsuliyyətdir. Vilayəti də qəbul etmək, yəni qardaş məhəbbətindən əl çəkmək idi. Hz.Əli-nin vilayətini və iamamlığını qəbul etməyin mənası, onun məhəbbətini ata məhəbbətindən üstün tutmaqdır. Tayfa məhəbbətindən çıxmaqdır. Çünki Hz.Əli (ə) zülfiqarı ilə çoxlu tayfalardan kafir öldürmüşdü. Onlar Peyğəmbəri (s) qətlə yetirmək istəyən düşmənlər idi. Hz.Əli (ə) bəni-Haşimdən idi, bu tafyadan olan bir şəxsin Peyğəmbərin (s) xəlifəsi olmağı bəzi şəxslərin tay-fabazlığı ilə düz gəlmirdi. "Mənim tayfamdan niyə heç kim xəlifə olmadı"- deyərək, toqquşurdular. Həqiqət tayfabazlıqla toqquşurdu. Halbuki iman bu cür istəklərdən üstün sayılmalıdır. Ayənin məntiqinə əsasən onlar da namaz qılırdı. Məgər Əlinin (ə)

vilayətini qəbul etməyənlər namaz qılmırdılar? Onlar da müsəlman idilər. Lakin mömin deyildilər. Ayənin məntiqinə görə, kamil iman qəlbə yazılan imandır. Ürəkdəki dünya məhəbbəti və həqiqət toqquşarsa ürəyin nəfsani hissləri həqiqəti insandan alar. Tarixdə bu imtahandan çox adamlar məğlub kimi çıxıb. Çox adam tarixdə namaz qılan olub, oruc tutan olub. Məgər imam Hüseyni (ə) şəhid edənlər namaz qılmayıb? Çoxu namaz qılan olub. Lakin onlarda dünya məhəbbəti, tayfa məhəbbəti, vəzifə məhəbbəti, övlad məhəbbəti və s. imanlarından daha çox idi. Kamil iman sahibi Hz. İbrahim (ə) idi. Allah Hz.İbrahimi (ə) bütün insan həyatında ola bilən bütün məhəbbətlərlə sınadı. İnsanın həyatında özünə məhəbbət, özsevgi vardır. Təbii halda övladını özündən çox sevir. Hz.İbrahimi (ə) əvvəl özünə məhəbbətlə imtahan etdi. Özünə məhəbbət imtahanından çıxacaq yoxsa yox? Ya halədə burda dayanacaq? Həqiqət özünə məhəbbətlə toqquşarsa hansını seçəcək? Bütləri sındırmağı buna misaldır. Hz.İbrahim (ə) bütləri sındırmaq, Allaha təvəkkülünü itirməmək, özünü bu səviyyədə hazır etməklə özünə məhəbbətdən çıxmışdı. Hz.İbrahimi (ə) Allah ayrı məhəbbətə də saldı və onu imtahan etdi. Allah Hz.İbrahimə (ə) özünü sevmə demir. Özünü sev! Amma Allaha görə sev! Ona görə Allah Hz.İbrahimə (ə) özünə qəsd et demirdi. Özünü Allah istiqamətində sev. Nəinki özünü müstəqil sevəsən. Bizim məhəbbətimiz tövhidlədir. Bir növ məqsəd tövhiddir yəni. Allahı yeganə bilməliyik, ancaq Allahı istəməliyik, ancaq Allahı sevməliyik. Birbaşa başqasını yox. Başqasını da sevsək, Allah istiqamətində sevməliyik. Hətta Qurani-Kərim buyurur: Ata-ananın sözünə bax. Allahdan ayri formada ata-ananı sev demir. Hətta Quran buyurur: Ata anan kafir olsa belə yenə sözündən çıxma! Demir Allahdan ayrı şəkildə ata-ananı sev. İnsan gərək Allahı sevsin, paklığı sevsin, əyriliyi sevməsin. Hətta yaxını da olsa. Ona yaxşı davaransın. Onunla ədəbsiz davranmasın. Ədəbsiz davranmamaq bir şeydir, ürəkdən sevmək başqa bir şeydir. Allah səhf insanı, kafiri və s. ürəkdən sevməyi istəmir. Mümkündür insan onlarla yaxşı davransın, zahirdə yaxşı davransın. Bəs insan Hz.İbrahim (ə)

kimi dünyəvi məhəbbətlərdən, Allahdan ayrı olan sevgilərdən uzaq olsa? Allah-Taala niyə belə edirdi? Allah istəmirdi ki İsmaillər ölsün. İstəyirdi İbrahimlər azad olsun. İbrahim kimi insanlar azad olsun, kamilləşsinlər və imanı kamillik həddinə yetişsinlər. Dünya sevgisinin burxovlarında qandallanmasın. Bəs əgər insan qəlbi iman və dünya məhəbətləri toqquşanda edə bilərmi ki, Allahı sevsin, Allaha təslim olsun? O, dünyəvi bağlılıqlarını kənara qoysa, iman onun qəlbinə yazılar. İman onların qəlbinə yazılıb. Mən namaz qılıram amma tayfabazlıqla toqquşsa, paxıllıqla toqquşarsa mənfi təsirini göstərər. Məndə əməl etdiklərim qədər iman var, lakin qəlbə yazılmayıb. İman qəlbə o vaxt yazılar ki, Allah kin və məhəbbətə hakim olsun. Allah insanın qəlbinə hakim olsun. Ümumiyyətlə sevgi və nifrətimizdə meyar Allah olsun. Allaha görə sevək, Allaha görə uzaq qalaq. Bu o qədər mühümdir ki, hətta bir sıra hədislərdə də qeyd olunur. Buyurur:

هل الدين إلا الحب فى الله و البغض فى الله

"Din Allah yolunda dostluqdan, Allah yolunda düşmənçilikdən başqa bir şeydirmi?"

Din bundan başqa bir şey deyil: Allah yolunda sevib, Allah yolunda nifrət etmək. Bizim başqaları ilə rabitələrimiz, əlaqələrimiz mənəvi motiv daşımır. Tanışların xətri mənim üçün əziz dir, amma onlar doğru yolda deyillər. Halbuki, imanlı insanlardan xoşum gəlmir, çüünki mənim tanışım deyil. Məlumdur ki, məim üçün burada təqva və iman təsirli deyil, tanışlıq təsirdir. Təkcə öz övladını deyil, başqa uşaqlara da insani dəyərlə yanaşmaq. Biz mənfəəti deyil, yaxşını və doğrunu sevməliyik. Biz məhəbbətdə tövhid dedikdə bunu deyirik. İlahi təqvaya malik olanları sevmək. İlahi dəyərə uyğun həyat. Bu səviyyəyə çatmaq çətindir. Hz.Peyğəmbər (ə) uşaqları mübarək çiyninə mindirib aparardı, uşaqların hamısını sevirdi. Davamında Allah-Taala ayrı cümlə buyurur:

وَأَيَّدَهُمْ بِرُوحٍ مِنْهُ

Və Öz dərgahından onlara ruh (güc) vermişdir (iman, hidayət nuru əta etmişdir).

Yeni ruh verilir nədir? Bəs Allah buyurmur ki, bir sıra insanların qəlbləri ancaq bizim əlimizdədir, qəlblərində ancaq bizik? Biz də onlara yeni ruh bəxş edərik. Bu hansı ruhdur ki, Allah bəzi insanlara bəxş edir? Bu mərhələdən sonra buna “ruhi təyyibə”-“pak ruh” deyirlər. Bizim adi vaxtlarda adi ruhumuz var. Adi ruh adi istəklər istəyər. Nədənsə xoşumuz gələr, nədənsə acığımız gələr. Bunlar adi işlərdir. Bu adi bir formadır. Baxışımız adidir, davranışımız adidir. Bu ruh adidir. Bu ruh həmin ruhdur ki, onunla yaranmışıq. Təfəkkür tərzimiz onunladır. 24 saat fikirləşirik ki, necə filan mal alım və ya necə evə filan xalça alım və s. Bu elə bir ruhdur ki, dünya ləzzətləri barəsində fikirləşir. Bəzi insanların isə ruhları başqadır. Onlar ayrı şəkildə fikirləşirlər. Onların amalları başqadır, istəkləri başqadır, həyatda axtardıqları başqadır. Pak fitrətlərini qoruyublar. Daxildən ayrı gəliblər. Buyurulur: Biz onlara ayrı ruh vermişik. Bu o demək deyil ki, onların iki ayrı ruhları vardır. Yəni; biz onların ruhlarını kamilləşdirmişik. O ruhu yetişdirmişik. İnsanın ruhu toxuma bənzəyir. Becərilib yetişdirilməsə ayrı şeylər istəyər. İndi mən dünyəvi şeylər istəyirəm. Toxum cücərilib becərdildikdə, inkişaf etdikdə yetişmiş meyvələrlə bar verər. İnsanın ruhu da belədir. İnsan qəlbinə hakim olsa ruhu bol meyvəli və barlı ağac olur. İnsan kin və məhəbbətini ilahi etsə rühu böyüyər. Yəni Allahın lütfünü cəlb edər, bu ruh ancaq Allahı sevər, yaxşı iş görmək ona çətin gəlməz, onun təbiətinə çevrilər. Gül, gül ətiri verir. Gül toxum olanda heç nə deyil. Becəriləndə ətir verir. Onlar da yetişdiriləndə yaxşı iş görmək onların zatından gələr. Onlar pis iş görməzlər, əyri iş görməzlər. Çünki, Allah onlara bu qüdrəti, gücü bəxş edib. Onlara yarım edib. Quran buyurur:

مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَى وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) pak həyat nəsib edəcək və etdikləri yaxşı

əməllərə görə mükafatlarını verəcəyik. (Və ya gördükləri yaxşı işlərin müqabilində onlara daha yaxşı mükafatlarını verəcəyik!)[1]

Bəzi insanlar dünyada ruhi təyyibə ilə yaşayırlar. Buyurulur ki, belə həyatın adı "həyati təyyibə"-"pak həyat" dır. Pak həyat yaşayırlar. Yəni bir sıra insanlar adi həyata sahibdirlər. Maraqları, amalları adi şeylərdir. Bir sıra insanların isə maraqları, amalları daha ülvidir. Ali səviyyədədir. Doğrudur ki, dünyada yaşayırlar, amma dünyadan daha ali və pak məqsədlər istəyirlər. Amalları başqa şeydir. Bizim həyatımıza bənzəyir, amma bizim həyatımız kimi deyil.

İmam Nəhcül-Bəlağədə Hz.Peyğəmbər (s) haqqında buyurur:

**عنه عليه السلام : هَجَمَ بِهِمُ العِلمُ على حَقيقَةِ البَصيرَةِ ، و باشَرُوا رُوحَ اليَقينِ ، و استَلانُوا ما اسْتَعوَرَهُ المُترَفونَ ، و أنِسُوا بِما استَوحَشَ مِنهُ الجاهِلونَ ، و صَحِبوا الدُّنيا بأبدانٍ أرواحُها مُعلَّقَةٌ بالمَحَلِّ الأعلى ، أُولئكَ خُلَفاءُ اللّهِ في أرضِهِ ، و الدُّعاةُ إلى دِينِهِ ، آهِ آهِ شَوقا إلى رُؤيَتِهِم !**

Elm və bilik həqiqi bəsirətlə birdən onlara üz tutub və onlar asudəlik və sevinclə yəqinlik və inam əldə ediblər. Naz-nemət içində böyüyən insanlara çətin və ağır olan şeyləri yüngül və asan qəbul edərlər; (Onlar Allahın razılığını əldə etmək üçün dünyanın bütün çətinlikləri ilə keçinir və pərhizkarlıq edərək dünyaya ürək bağlamırlar;) nadanların (kimsəsizlik, çətinlik, yoxsulluq və giriftarlıq kimi) qaçdıqları şeylərə adət ediblər və dünyada ruhları (dünyada bizimlə olsa da) çox yüksək yerdən (Allahın rəhmətindən) asılmış bədənlərlə yaşayır. Allahın yer üzündəki xəlifə və canişinləri onlardırlar ki, (xalqı) Onun dininə dəvət edirlər.

Yəni, onların ruhları dünyada bizimlə olsa da, başqa yerə bağlıdır. Sadəcə bədənləri buradadır. Adi halda missal vuraq, ağlın başqa yerdə olmağı mümkündür. Bu məclisdə oturmusan, lakin fikrin ayrı yerdədir. Diqqətin məclisdən yayınıb. Bəzi insanlar belədir. Burada bizimlə oturublar. Ayrı şey axtarırlar. Dünyada yemək axtarmırlar. Dünyada maddi şəhvət axtarmırlar, tam fərqli və ali hədəfləri

1 - Nəhl, 97

vardır. Dünyaya baxış tərzləri fərqlidir. Onlara dünya pis deyil, çünki onlar dünyadan mənəvi ucalıq üçün istifadə edirlər. Bu "həyati təyyibədir". Dünyada hədəfi yalnız yeyib-içmək olan insan adi maddi həyatını yaşayır. Dünyani axirət azuqəsi kimi hədəfləyən insan isə "həyatı təyyibə"-"pak həyat" yaşayır. Bir sıra həyatlar var ki, insan dünyadan buz kimi istifadə edir. Bu "həyati-təyyibə"dir. Allah mənə maddi imkan verib, mən ondan mənəvi inkişafımda faydalanıram. Allah mənə yaxşı övlad verib, onu bir valideyn kimi kamilliyə çatmaqda vasitə bilirəm. Allah mənə yaxşı dost, yaxşı ata, yaxşı qardaş verib bunlardan özümün kamalımda fbəhrələnirəm. Bu "pak həyat"dır.

Amma bəzi insanlar dünyanı deyil, özlərini buz yerinə qoymuşlar. Bu adi həyatdır. Əriyib gedirlər. Bəziləri dünyadan buz kimi istifadə edirlər. Bəziləri isə özlərini buz ediblər. Buyurur ki, əgər insan qəlbini bizə versə, biz ona ruh verərik ki ,kamal üçün dünyanı buz edər, dünyadan istifadə edər. Bu ruhi təyyibədir. Bir az yüksəkdədir. İmamət də belə ruha malikdir, imamlar da belə bir ruha sahibdir. Ona görə imamların məntiqini bəziləri başa düşmür. Hətta imamların dostları da imamın məntiqini başa düşmür. İmam Hüseyn (ə) Kərbəlaya gedəndə İbni Abbas tərddüddə qalmışdı ki, imama nə desin. Dedi getmə. Çünki onun məntiqində, baxışında imam dünyasını əldən verirdi. Onun baxışında özünü təhlükəyə atmaq idi, onun baxışında heç olmaq idi, fani olmaq idi. İbni Abbas həyata belə baxırdı. İmam (ə) isə ayrı cür baxırdı. İmam Əli (ə)da belə idi. İmam Əlini (ə)  bir çox adamlar hətta dostlarıda tənqid edirdilər. İbni Abbas İmam Əliyə (ə) dedi: "Sən Müaviyəyə qarşı yanlış siyasət yeritdin." Bu ibni Abbasın baxışında belə idi. Çünki, adi baxış tərzi belədir. Adi məntiqlə baxsan, bəli. Əgər İmam istəsəydi dünyadan maksimum faydalansın Müaviyəni qəbul edərdi ki, dünya həyatı yaxşı olsun. Əgər imam kamilləşmək istəyirsə maneələr gərək arada getsin. Müaviyə də maneə idi. İbni Abbasın baxışında Müaviyə yaxşıdır. Burada İmamın həyata baxışı ilə İbn Abbasın yaşamağa nəzəri fərqlidir. Onların amalları, istəkləri

başqadır. İmamın hədəfləri başadıdr. Mən o qapıya uzağam, lakin bu qapıya yaxınam. Bəzən amal belədir.

Ayədə buyurur ki, "biz imamlara belə vəhy etmişik". Bu ayə ilə ümumi imamət haqqında fikrimizi bitirdik. Gələcək bölümlərdə xüsusi imamət haqda söhmət açacağıq. Bunlar ümumi imamlığı izah edirdi. İndiyə qədər ayələrdən belə başa düşdük ki, imamlıq böyük bir dərəcədir. Hər insan imamlıq dərəcəsinə çata bilməz. İmamlıq bir sıra imtahanlardan sonradır. Bunlar elə imtahanlardır ki, nəbi də olsan, o imtahanları verməlisən. Həmçinin, imamlar yəqin əhli, səbr əhli olur, imamlar xüsusi bir vəhyə malik olur, imamlar mələkut aləmi ilə rabitədə olur. İmamlıq belədir. Bunlar imamlıq məqamına xas olan şərtlərdir. Bu xüsusiyyətlərin ali dərəcəsinə başqaları sahib ola bilməz. Xəlifəlik məamını ələ keçirsə belə, imamlıq məqamına çata bilməz. Çünki imamı Allah təyin edir. Mən başqasının elmini ala bilmərəm.Vəzifəsini almaq mümkündür, müəllim olum, bir yerdə dərs deyim və s. Lakin onun elmini ala bilmərəm. İmaməti də bu mənada heç kim ala bilməz. Kim imamdır elə imamdır. Allah imamı elə yaradıb ki, o pak olsun, xeyirxah olsun, həmişə xeyir iş görsün. Buyurur, sizi hidayət edən şəxsin özünün hidayət olunmağa ehtiyacı olmamalıdır. Məlumdur ki, insanı "hadi olan"-"doğru yol göstərən və özü də o yola ən ali dərəcədə sahib olan" imam hidayət edir. O, başqası tərəfindən hidayət olunmur. Allah onu belə yaradıb. Əxlaqi sifətlər, fəzilətlər insanda o sifətləri təkrar etdiyi zaman yaranır. Onları təkrar etsə bu üstün xüsusiyyətlər onun qəlbində həkk olunar. Sən özündə səxavətli olmaq xüsusiyyətini yaratmaq istəyirsənsə, təkcə səxavətin savabından kitab və ya hədis oxumaqla əldə edə bilməzsən. Səxavətli olmaq üçün əməl sahibi olmalısan. Düzdür o oxumağın, o düşünməyin, o məlumatın da yol görməyə təsiri var. Lakin təkrar etməsən bu işi həkk olunmaz. Təkrarın əvvəli çətindir. Lakin sonradan həkk olunmağa başlayır. O əməl xüsusiyyətə çevrilir. Yəni bir xeyir işi o qədər təkrarlayırsan ki, sənin təbiətinə dönüşür. Sənin xasiyyətin olur. Quranın buyurduğuna görə "kətəbə"-"həkk olundu" formasına düşsün. Bir yaxşı işi təkrar etsin. Məsələn insan

yalan danışır istəyir bu işi tərk etsin. Gərək danışmasın. Mən heç əməl etmirəm yazılmaz. Mənim elm imanım var, əməl etməsəm qəlb imanım olmaz. Məsələn mən istəyirəm 150 kilo çəkili bir şey götürüm, amma indi olmaz. Lakin sonra bunun üçün təkrar-təkrar məşq etsəm olar. Adi insanlar bunu ən kamil formada edə bilməzlər. Bəzi insanlar isə edə bilirlər. Bizim dildə desək, "avam adamdırlar" amma imanları möhkəmdir.

## Dərsin xülasəsi

Qurani Kərimdə məhz həmin məsələləri qeyd etdikdən sonra Allah buyurur: "Biz onları imam təyin etdik". Burada qeyd olunan "imam" heç vaxt "nübuvvət-peyğəmbərlik" mənasında ola bilməz. Çünki Hz.İbrahim (ə) də onların içindədir. Bu ayədə Hz.İbrahimə (ə) verilən imamlıq məqamına da işarə edir.

Quranda da vəhy bir neçə cür işlədilib:

**1) Peyğəmbərlik vəhyi**

Vəhyin bir mənası həmin peyğəmbərlərə nazil olan vəhyidir. Allah Cəbrayıl ilə və ya hər hansı bir vəhy mələyi ilə öz peyğəmbərinə bir ayəni, tapşırığı göndərir. Filan işi də görün mənasında əmr kimi də göndərir. Bu peyğəmbərlik vəhyi adlanır.

**2) Şeytani vəsvəsə**

Vəhyin başqa bir növü isə Quranda "vəsvəsə" mənasında mənfi anlamda işlənib. Quran buyurur ki, şeytanlar da bir-birinə bir növ vəhy edirlər. Onlar da bir-birinə vəhy çatdırırlar. Vəhyin bir mənası da şeytanların bir-biri ilə danışığıdır. Bundan əlavə, kiməsə vergi verilə bilər, amma həmişə vergini Allah vermir. Bəzən şeytan da insana vergi verir.

**3) Xüsusi yaradılış**

Vəhyin üçüncü mənası "xüsusi yaradılış"dır. Allah bəzi varlıqları elə yaradıb ki, onlara məxsus işlər görə bilirlər. Quranda bal arısına belə vəhy etdiyini buyurur: "Mən bal arısına evini tik deyə vəhy etdim". Burada bal arısına"vəhy etdim"

**4) İlahi ilham**

Quranda vəhyin bir mənası da “ilham” mənasında işlənib. “İlham”, yəni Allah insanın ürəyinə hər hansı bir söz salır.

**5) İlahi tövfiq**

Tövfiq, yəni “nailiyyət” və “uğur” deməkdir. Bir növ Allah onları daxildən tərbiyyə edir və nəticədə onlar bəzi işləri öz iradələri ilə amma ilahi nəaliyyətlə icra edirlər.

## Yeddinci dərs

### İmama itaət

Qurani-Kərimdə imamət haqda danşırıq. İmamət haqqında olan ayələri araşdırırıq. Belə bir nəticə almışıq ki, imamlıq sırf zahiri bir vəzifə, zahiri bir ünvan deyil. İmamət vilayətlə əlaqədədir. İmam Allahın vəlisidir. Həm təkvini-vəlisidir, (elə bir səviyyəyə çatıb ki, mələkut aləmi və əmr aləmi ilə rabitədədir) həm təşrii-vəlisidir (şəri rəhbərdir) ki, ona biz itaət etməliyik. Nisa surəsinə 59-cu ayəyə nəzər salaq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنْكُمْ فَإِنْ تَنَازَعْتُمْ فِي شَيْءٍ
فَرُدُّوهُ إِلَى اللَّهِ وَالرَّسُولِ إِنْ كُنْتُمْ تُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ ذَلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلًا

Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.[1]

Yəni cəmiyyəti onlar idarə edir, onlara itaət edin. Bu ayədə çoxlu bəhslər var. Birinci bəhs budur: “Allaha itaət edin və peyğəmbərə itaət edin” bu itaətlərin arasında fərq varmı? Allah birbaşa bizə buyurmur. Allah bizə peyğəmbər vasitəsilə buyurur. Vəhylə buyurur. Peyğəmbərə itaət edin buyursaydı və yaxud Allaha itaət edin buyursaydı, hansı nəticəni əldə edərdik? “Allaha itaət edin və peyğəmbərə itaət edin” burada təkrar edilib “itaət edin” kəlməsi? Elə bir təkrar ki, “ətiu”- “itaət edin” yenidən təkrarlanır. Ulul əmrdə isə “itaət edin” ibarəsi təkrarlanmır. Buyurur: “Ətiullah” sonra buyurur: “Ətiurrəsul”. Yəni “ululəmrdə” isə “ətiu-itaət edin” kəlməsi təkrarlanmır. Əslində bu ayəni neçə cür qeyd etmək olardı:

Bir forması budur ki, Allah buyurardı: Ətiullah vərrəsul və ululəmr.

1 - Nisa, 59

أَطِيعُوا اللَّهَ وَ الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنْكُمْ

Bu Ərəb qrammatikası cəhətdən səhv deyil. Yəni, itaət edin Allaha, rəsula və əmr sahiblərinə.

Bir də belə buyura bilərdi: Ətiullah ətiurrəsul və ətiulululəmr.

أَطِيعُوا اللَّهَ وَ أَطِيعُوا الرَّسُولَ وَ أَطِيعُوا الاولِي الْأَمْرِ مِنْكُمْ

Yəni hamısına müstəqil olaraq itaət edin.Allaha, itaət edin rəsula itaət edin və ululəmrə.

Allah-Taala isə belə buyurmamışdır. Tam ayrı üslubda buyurubdur. "Ətiullah" ayrı sonra ayrıca "ətiurrəsul və ulul-əmr".

## Hz. Peyğəmbərin (s) vəzifə və məqamı

Alimlərin fikrincə, Allahın elçisi (s) iki vəzifə və iki mühüm məqama malik idi. Bunlardan biri Allahın elçisi olması, vəhy vasitəsi olması idi. Vəhyi Allahdan alırdı insanlara çatdırırdı. O bu məqamda yalnız vəhyi çatdırırdı. Yalnız ona vəhy olunanı çatdırır. Buna təbliğ vəzifəsi də deyilir.

Bu vəzifə də Quranda iki hissəyə bölünür:

1. ***Hz.Peyğəmbərin (s) birinci vəzifəsi: Quranı bəyan etmək və onun tilavəti***

Biri budur ki, vəhyi alır tilavət edir. Hz.Peyğəmbərin bir vəzifəsi belə idi ki, Allahdan nə vəhy almışdırsa onu insanlara oxusun. Əlbəttə, bu sahədə olan vəzifəsi təkcə tilavət etmək deyildi. Quran ayələrini izah etmək də onun vəzifəsi idi. Yəni eyni zamanda ayələri təfsir və izah etməli idi. Quranı ilk izah edən elə Allahın Rəsuludur. Bu izah elə vəhyin bir növüdür. Quranın izahı da peyğəmbərin vəhy sifətlərindən biri idi. Vəhyi, Quranın ayələrini həmdə onun izahını Allah tərəfindən alırdı. Yəni izah da Allahın bir növ mənəvi vəhyi idi. Bunu haradan iddia edirik? Quranda, Nəhl surəsində 44-cü ayə buyurur:

بِالْبَيِّنَاتِ وَالزُّبُرِ وَأَنْزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ

"Biz onları (peyğəmbərliklərinin doğru olduğunu sübut edən) açıq-aşkar möcüzələr və kitablarla göndərdik. Sənə də Quranı nazil

etdik ki, insanlara onlara göndəriləni izah edəsən və bəlkə, onlar da düşünüb dərk edələr!”[1]

Bu ayədən məlum olur ki, peyğəmbərin bir vəzifəsi də budur ki, nazil olmuş Quranı izah etsin. Bu ayəyə əsasən Quranı peyğəmbər izah etməlidir. Biz “peyğəmbər izah etməlidir” sözünü Allah-Taalanın buyurduğu həmən ayəyə görə deyirik. Bu ayənin mənası budur ki, “biz bunu sən camaata izah edəsən deyə nazil etdik”. Bu ayə buyurmur ki, “sən camaata tilavət edəsən, sadəcə Quranın ayələrini oxuyasan deyə nazil etmişik”. Buyurur: “Sən camaata izah edəsən deyə nazil etdik”. Bəs bu izahların peyğəmbərin şəxsi fikri deyil də, Allah tərəfindən oluduğunu haradan qeyd etmək olar? Bəlkə belə bir ehtimal verilə bilər ki, peyğəmbər Quran ayələrini öz dərki və düşüncəsi ilə izah edib. Qiyamət surəsində 19-cu ayədə buyurur:

لَا تُحَرِّكْ بِهِ لِسَانَكَ لِتَعْجَلَ بِهِ

“(Ya Peyğəmbər! Cəbrail sənə Quran oxuduğu zaman) onu tələm-tələsik əzbərləmək üçün dilini tərpətmə!”

Deməli, Peyğəmbər (s) vəhyə tələsirdi. Bilirsiniz ki, Quran iki dəfə nazil olub. Bir bütövlüklə, bir də tədricən nazil olmuşdur. Tədricən nazil olanda Peyğəmbər (s) ilahi şövqü ilə camaata çatdırmağa və əzbərləməyə tələsirdi. Ayə nazil oldu, tələsmə gözlə biz oxuyaq sonra de.

إِنَّ عَلَيْنَا جَمْعَهُ وَقُرْآنَهُ ﴿١٧﴾فَإِذَا قَرَأْنَاهُ فَاتَّبِعْ قُرْآنَهُ ﴿١٨﴾ثُمَّ إِنَّ عَلَيْنَا بَيَانَهُ ﴿١٩﴾

Çünki onu (sənin qəlbində) cəm etmək, (dilində) oxutmaq Bizə aiddir. ﴾16﴿ Biz onu (Cəbrailin dili ilə) oxutduğumuz zaman oxunmasını diqqətlə dinlə. ﴾17﴿ Sonra onu (sənə) bəyan etmək də Bizə aiddir! ﴾18﴿ [2]

Buyurur, gözlə dilini tərpətmə, tələsmə. Yəni; doğrudur ki, bunları bilirsən və Quranı bütövlüklə bir dəfə sənin qəlbinə nazil etmişik. Lakin indi tədriclə nazil etdiyimiz zaman da dilini tələsik tərpətmə. Yığıb sənə oxutdurmaq bizim öhdəmiz-dədir. Sonra onu

1 - Nəhl, 44
2 - Qiyamə, 17-19

sənə bəyan etmək də bizim öhdəmizdədir. Quranın bəyanı bizim öhdəmizədir. Bu ayədən bilinir ki, Quranın bəyanı, Quranın izahı da Allahın öhdəsində idi. Allah peyğəmbərə Quranın bəyanını da verirdi. Sadəcə olaraq peyğəmbərin bir vəzifəsi də Quranı tilavət etmək, izah etmək idi. Səhabələrdən bir sıra hədislər vardır. İbn Məsud deyir: "Biz Peyğəmbərdən izahı ilə hər gün on ayə öyrənərdik. Hər gün Hz.Peyğəmbər (s) məsciddə gələrdi on ayə oxuyardı, izahını da verərdi. Ayənin əmrlərini, çəkindirmələrini, məqsədini tam öyrənərdik."[1]

Bəzi səhabələr peyğəmbərdən belə nəql ediblər: "Peyğəmbərdən (s) ayənin mənasını soruşurdular və O da izah edirdi." Sonra O Həzrətdən (s) bu izahın kimin tərəfindən olduğunu soruşurlar. O da qeyd edir ki, "Allah belə buyurur". Elə həmin bu ulul əmr ayəsində, Hz.Peyğəmbər (s) buyurub: "Ulul-əmr haqda olan sözlərin hamısı Allah tərəfindən izah olunmuşdur." Deməli, Quranı bəyan etmək və onun tilavəti peyğəmbərin birinci vəzifəsi idi. Bu vəzifədə peyğəmbər ancaq Allahın dediklərini camaata çatdırırdı.

Biz peyğəmbərin Quranına, bəyanına qulaq asmaqla Allaha itaət edirik. Çünki peyğəmbər burada ancaq vasitə rolu oynayır, ancaq çatdırma rolu oynayır. Mən peyğəmbərin sözünə baxıramsa bunun səbəbi onun rəsul olmağıdır. Hz.Məhəmməd (s) Allahın elçisi olduğu üçün bizə ayəni oxuyur və biz də ona itaət edirik. Bu itaət həmin "ətiullah" - "Allaha itaət"dir. Bununla Allaha itaət edirik. Bu bir vəzifədir.

### 2. Hz. Peyğəmbərin (s) ikinci vəzifəsi: Rəhbərlik və İmamlıq

Quranın ayələrindən aydın olur ki, Hz. Peyğəmbərin bir ayrı vəzifəsi də var idi. O da imamlıq idi. Peyğəmbər imam idi, hakim idi, qərar çıxarırdı, həm müharibə qərarı, həm sülh qərarı və s. Bir şəxsi komandir seçirdi, birini komandirlikdən çıxarırdı, bir şəxsi vali göndərirdi, bir başqasını ölkələrə, məntəqələrə nümayəndə göndərirdi. Məsələn: Zəkat nümayəndəsi göndərirdi. Məhkəmə

1 - Cəvahirül-kəlam, c. 13, səh. 360

qururdu, hakimlik edirdi. Bunlar Qurani-Kərimin ayələrində də qeyd olunmuşdur. Bu işlər peyğəmbərliyə aid deyil, imamlıq (rəhbərlik) vəzifəsinə aiddır. Doğrudur ki, peyğəmbər və imam hər ikisi məsumdur və səhv etməz. Lakin peyğəmbər insanlara vəhyi çatdırır. Amma imam rəhbərlik edir. Bunların fərqini daha geniş izah edəcəyik. Qurandan məlum olur ki, Həzrət Məhəmməd peyğəmbərin (s) imamlıq vəzifəsi də olmuşdur. Bunlar qeyd etdiyimiz ayələrdən məlum olur. Məsələn; Əhzab surəsi 36-cı ayədə buyurur:

وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُهُ أَمْرًا أَنْ يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ أَمْرِهِمْ وَمَنْ يَعْصِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ ضَلَّ ضَلَالًا مُبِينًا

“Allah və Peyğəmbəri bir işi hökm etdiyi zaman heç bir mömin kişiyə və qadına öz işlərində başqa yol seçmək (öz ixtiyarları ilə ayrı cür hərəkət etmək) yaraşmaz. Allaha və Onun Peyğəmbərinə asi olan kəs, şübhəsiz ki, (haqq yoldan) açıq-aydın azmışdır!”[1]

Hz. Peyğəmbər (s) hökm etdiyi zaman biz mütləq “eşitdim və qəbul etdim” deməliyik. Hz.Peyğəmbərin (s) hökmünə itaət olunmalıdır. Hz. Peyğəmbər məhkəmədə bir qərar çıxararsa biz “yox elə deyil” deyə bilmərik. Kimsə onun hökmünün maüqabilində “Ey Allahın rəsulu, biz təkcə sənə Allahın ayələrini oxuyanda və ya ayələrin izahında tabeyik. Amma münaqişə və mübahisələr zamanı çıxardığın qərarlara taeb deyilik.”- deyə bilməz. Bizim bu hüququmuz yoxdur. Allah-taalanın buyurduğu Əhzab surəsinin 36-cı ayəsinə əsasən Hz. Peyğəmbərin (s) bizim üzərimizdə belə bir hüququ və hakimliyi vardır. Hətta Allahın peyğəmbərinə, Allahın hökmünə üsyan, etiraz edənlərə Allah-Taala “yolunu azanlar” adlandırır. Bu barədə digər ayə isə Əhzab surəsinin 6-cı ayəsidir. Buyurulur:

النَّبِيُّ أَوْلَى بِالْمُؤْمِنِينَ مِنْ أَنْفُسِهِمْ

1 - Əhzab, 36

Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. (Möminlər peyğəmbəri özlərindən çox sevməli, onun hər bir əmrini sözsüz yerinə yetirməlidirlər).

Yəni; təhlükə zamanı mənimlə Hz.Peyğəmbər (s) arasında seçim lazım olarsa, mən öz canımı peyğəmbərə fəda etməliiyəm. O mənim üçün canımdan daha dəyərli olmalıdır. Necə ki, Hz.Peyğəmbərin (s) möminlərə hakimliyyəti hətta onların özlərinin özlərinə hakimiyyətindən də üstündür. Yəni mən özümə nə qədər sahib və hakiməmsə, o məndən daha çox mənə sahib və hakimdir. Bu hakimlik və vəlilik təkcə ona Allah tərəfindən ayə nazil olması, ayələri izah etməsi üçün deyil. Hz.Peyğəmbər mənə özümdən daha çox ixtiyar sahibidir. O, necə ki əraziyə, məscidə ixtiyar sahibidir, mənim özümə də eləcə sahibdir. Yəni mənim özümə necə ixtiyarım varsa, peyğəmbərin ixtiyar sahibliyi mənim özümə özümdən də çoxdur. Bu ayə bunu izah edir ki, hər bir məsələdə peyğəmbərin sözünə əməl edilməlidir. Təkcə haqqında xüsusi ayə nazil olan məsələləlrdə deyil, hər bir məsələdə belə olmalıdır. Qeyd edək ki, islam tarixində bəziləri peyğəmbərin bu vəzifəsinə inanmırdılar. Bəziləri isə bu fikrin əksini deyirdilər. Onların fikrinə görə, peyğəmbər sadəcə ona nazil olan ayələri izah etməlidir, rəhbərlik etməməlidir. Bu haqda sonra izah verəcəyik.

Allah-taala Nisa surəsi 65-ci ayədə buyurur:

فَلَا وَرَبِّكَ لَا يُؤْمِنُونَ حَتَّىٰ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لَا يَجِدُوا فِي أَنْفُسِهِمْ حَرَجًا مِمَّا قَضَيْتَ وَيُسَلِّمُوا تَسْلِيمًا

“Amma xeyr! (Ya Rəsulum!) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, (həqiqi surətdə) iman gətirmiş olmazlar.”

Bu ayənin şəni nuzulu[1] var. Qeyd edirlər bir yəhudi ilə bir müsəlmanın hansısa bir məsələ haqda mübahisəsi düşdü. Yəhudi deyirdi, gəlin gedək peyğəmbər bizə hakimlik eləsin. Haqq da

1 - Nazil olma səbəbi.

onunla idi. Müsəlman razılaşmadı. Yəhudi alimlərinin bu ixtilaflı məsələ haqda hökm verməlℯrini istədi. Bu zaman qeyd etdiyimiz ayə nazil oldu. Deməli, bəzən mümkündür ki, insan bir qərarı qəbul etsin, ona tabe olsun, amma ürəyində bu qərara qarşı narahatçılıq, etiraz hissi yaşasın. Ayədə isə buyurulur ki, hətta ürəklərində narahatçılıq keçirsən şəxslər imana çatmayıblar. Çünki qəlb və əməllə tam şəkildə Peyğəmbərin hökmünə razı olaraq qəbul etsməlidirlər. Bu sırf peyğəmbərlik deyil ki, ona ayə nazil olsun, ayəni izah etsin. Bu cəmiyyəti idarə etməkdir. Cəmiyyətdə idarəçilik roludur. Allah elçisinin bu məqamı və rolu da var idi. Ayədə buyurulur ki, ona müraciət edib, onun qərarından da razı olmalısınız və müti olmalısınız.

Həşr surəsində 7-ci ayədə buyurur:

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانْتَهُوا

“Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir.”

Burada sırf Peyğəmbərə nazil olan ayələrə qulaq asıb, əməl edin deyilmir. Buyurur ki, ümumiyyətlə Peyğəmbər nə deyir qəbul edin. Sizə nəyi qadağan edirsə, ondan çəkinin. Bu imamət məqamına sahib oldüğü üçün belədir. Bu peyğəmbərin ən böyük vəzifəsidir. Məsələn, əgər peyğəmbər buyurursa ki, Hudeybiyyədə sülh edin, ona müti olaraq qəbul etməlisiniz. Nəyə əmr etsə “baş üstə” deməlisiniz.

Deməli, Peyğəmbərin iki vəzifəsi vardır. Bir vəzifəsi vasitəçilikdir, yəni perğəmbərlikdir. İkinci vəzifəsi zamanı özü şəxsən idarəçidir, imamdır. Allah buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنْكُمْ

“Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!”

Bu ayədə izah etdiyimiz kimi, Peyğəmbərə itaət etməkdən məqsəd budur ki, Peyğəmbərin xüsusi qərarlarına itaət etmək zəruridir. Peyğəmbərin xüsusi qərarları onun məsum (günahsız)

olması ilə təzminat edilib. Allaha itaət edin dedikdə onun vəhyini peyğəmbər çatdırdığı üçün elə onun məsumluğu da isbat edilir. Amma peyğəmbərə itaət etmək burada ayrıca qeyd olunub. Çünki imamlıq məqamına xüsusi işarə olunub. Məqsəd budur ki onun əmrlərinə, qadağalarına qulaq asmalı müti olmalısınız. Verdiyi qərarları dinləməlisiniz. O qərarlar məsumluq məqamına istinad edilməkdən əlavə, imamlıq məqamından nəşət tutduğu üçün onlara itaət etmək zəruridir. Buna görə ayədə iki dəfə "itaət edin" kəlməsi ayrı-ayrılıqda gəlmişdir. "Ululəmr" ə itaət məsələsinə də həmin aspekdən yanaşılmalıdır. Sadəcə "ətiu" - "itaət edin" kəlməsi orada təkrar olunmayıb. "Ətiurrəsul və ululəmr" - "Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!" Yəni Allahın elçisi eyni halda imamdır, buna görə də "ətiu" kəlməsi onların arasında təkrar olunmayıb.

Lakin bu kəlmə "Allah"la "ətiurrəsul" kəlməsi arasında təkrar olunub. Çünki "ətiullah" - "Allah itaət edin", yəni Allaha itaət etdiyiniz üçün peyğəmbərə nazil olan ayələrə və onların izahına iataət edin. Onun peyğəmbərliyinə, hidayətinə itaət edin. "Ətiurrəsul" - "Allahın elçisinə itaət edin" göstərişindən məqsəd isə peyğəmbərin imamlıq məqamının təsdiqidir.

Bu izahlar Peyğəmbərin (s) Quranda iki vəzifəsi olduğu barəsində bir müqəddimə idi. Yaxşı ayədəki "ululəmr"- "ixtiyar (əmr) sahibləri" kimdir? Kim olduqlarını qeyd etmədən öncə bu məsələni bilmək lazımdır ki, ilk növbədə hər kimdirsə hökmən məsum (günahsız) olmalıdır. Günaha batmış şəxs "ixtiyar (əmr) sahibi (imam)" ola bilməz. Bunu nəyə əsasən qeyd edirik? Diqqət edin: Allah-taala ziddiyyətli göstəriş verməz. Eyni məsələ haqda iki fərqli əmr verməz. Allah təzadlı sözlər buyurmaz. Allah hikmət sahibi və müdrikdir. Təzadlı göstərişlər ya qarşı tərəfi aldatmaq, ya da ki cəhalətdən doğur. Uca Allah sonsuz elmə və müdrikliyə sahibdir. O bu iki xüsusiyyətdən uzaqdır. Ayədə "ixtiyar (əmr) sahibləri"nə itaət etmək tələb edilir. Yaxşı, bu müti olmaq hansı formadadır. Mütləq şəkildə itaət etməliyik, yoxsa xüsusi qeyd-şərtləri vardır? Əgər bu ayədə Allah  itaət edin ululəmrə buyurusa,

hansı formada itaət etməyimizi istəyir? Quranda bir çox ayədə itaət haqda göstərişlər mövcuddur. Allaha itaət, Peyğəmbərə itaət, ata-anaya itaət və sair... Ata ananıza itaət edin-deyə buyurulur, amma qeyd-şərtli şəkildə. İtaət etmək tələb edilir, amma haqqa yönəltdikləri zaman. Buyurulur: İtaət edin ata ananıza o vaxta qədər ki,onlar sizi haqq tərəfə aparırlar.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَتَّخِذُوا آبَاءَكُمْ وَإِخْوَانَكُمْ أَوْلِيَاءَ إِنِ اسْتَحَبُّوا الْكُفْرَ عَلَى الْإِيمَانِ وَمَنْ يَتَوَلَّهُمْ مِنْكُمْ فَأُولَئِكَ هُمُ الظَّالِمُونَ

Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün tuturlarsa, onları özünüzə dost bilməyin. Sizdən onları dost tutanlar özlərinə zülm etmiş olarlar.[1]

وَإِنْ جَاهَدَاكَ عَلَى أَنْ تُشْرِكَ بِي مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ فَلَا تُطِعْهُمَا وَصَاحِبْهُمَا فِي الدُّنْيَا مَعْرُوفًا

Əgər (ata-anan) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, (bu işdə) onlara itaət etmə. (Qalan) dünya işlərində onlarla gözəl keçin (onlara itaət et).[2]

Buyurur ki, əgər sizi batil tərəfə çağırsalar onlara itaət etməyin. Bildiyimiz kimi, ata ananın itaəti buyurulub lakin bu şərtli itaətdir. Çünki onlar batil tərəfə də apara bilərlər. Allah heç vaxt batilə itaət, əyriyə itaət edin buyurmaz. Ata-anaya dünyada hörmət etmək, zahiri hörmətini saxlamaq, hətta batil yolla da getsələr, sənin itaətini sındırmamağın buyrulmuşdur. Amma lakin itaət etmə. Yəni ata-anaya mütləq itaət yoxdur. Lakin qeyd etdiyimiz ayədə "ululəmrə" - ixtiyar (əmr) sahibləri"nə mütləq itaət edin buyurur. Buyurulmur ki "ululəmrə" haqqa yönəltdikləri zaman itaət edin, mütləq şəkildə buyurulur ki, "ululəmr" - "ixtiyar (əmr) sahibləri"nə mütləq şəkildə itaət edin. Çünki, bu mütləq itaət məsumluqdan irəli gəlir. Əgər "ululəmr" - "ixtiyar (əmr) sahibləri" məsum olmasa, mütləq şəkildə itaət zəruri buyurulmazdı. Çünki "ululəmr" - "ixtiyar (əmr) sahibləri" məsum olmasa idilər, Allahın kəlamı təzadlı olardı. Digər ayələrdə buyurur ki, günahın dalınca getməyin, zülmün dalınca getməyin. Ululəmr məsum olmazsa bizi zülmə tərəf

1 - Tövbə, 23
2 - Loğman, 15

aparacaqdır. Bir ayədə "mütləq şəkildə itaət edin" buyurulur. Digər ayələrdə isə "zülmə tabe olma, günaha müti olma" buyurulur. Mütləq itaət məsumluğun nəticəsidir. Bir şəxs məsum olmasa Allah-Taala heç vaxt ona itaət etməyi əmr etməz. Bunu alimlərin çoxu qeyd etmişdir. Əlbəttə, bu fikri əhli sünnət alimləridə qeyd ediblər. Təkcə bu ayəyə əsaslanaraq deyil, onlar başqa ayələrdə və Allahın elçisinin (s) müxtəlif hədisləri ilə bu fikri dəstəkləmişlər. Onlar peyğəmbərin məsumluğuna belə bir sübut gətirirlər ki, peyğəmbərə mütləq itaət varsa, deməli o məsumdur. Bunu Fəxrazi qeyd edib. O, peyğəmbərin məsum olmasını Qurandan nəticə alır. Bu fikri belə əsaslandırır ki, peyğəmbərə mütləq itaətin Allah tərəfindən vacib edilməsi, onun məsum olmasına möhkəm bir dəlildir. Bu fikri biz "ululəmr"-"ixtiyar (əmr) sahibləri" haqda da əsaslandıra bilərik. Onlara mütləq itaət tələb olunursa, deməli məsumdurlar. Bizim təfsir kitablarımızda da oxşar sübutlar vardır. Ululəmr hər kim olur olsun məsum olmalıdır. Hələ ki, onun məfhumu haqda söhbət açmırıq. "Ululəmr"in lüğəvi mənası ümumidir: "əmr sahibləri". Onlar hər kim olursa-olsun məsum olmalıdır. Bu ümumi mənanın nümunəsi gərək məsum olsun. Mümkündür ki, bir şeyin mənası ümumi olsun. Lakin nümunəsi bir şey olsun. Məsələn deyirik "xaliq". Xaliqin geniş mənası var. "Yaradan". Ümumi bir ifadədir. Lakin aləmdə xaliq bir dənədir. Bir dənəlik bu mənanın içində deyil, məfhumunda deyil., nümunəsindədir. Biz demirik ki, ululəmrin mənası imamlardır. Ululəmrin mənası əmr sahibləridir. Lakin deyirik ki, əmr sahiblərinin nümunəsi ancaq imamlardır. Çünki ancaq onlardır məsum. Ayə məna baxımından ümumidir, nümunəsi 12 nəfərdir. Allah Quranda buyurur: Peyğəmbərlərə itaət edin. Bu peyğəmbərlər ümumi mənadadır. Onun mənasında 124 min peyğəmbərin olması yatmır. "Ənbiy"a yəni "bütün nəbilər". Say qeyd olunmayıb. Amma nəbilər həyatda 124 min nəfər olduğu üçün onlara itaət olunub. Biz də qeyd etmək istəyirik ki, nəinki məfhumu, ayənin mistaqı 12 imamdır. Məhfumu "əmr sahibləri"dir. Gələn bölümlərdə ayənin mistaqı 12 imam olmasını

daha sonar qeyd edəcəyik. Amma ayədəki “ululəmr” kim olura-olsun məsum olmalıdır. Çünki mütləq itaət məsumluq tələb edir.

Deməli alimlərin fikrincə, ayəyə əsasən iki nəticə alınır:

1. Peyğəmbər və “əmr sahibləri”nə mütləq itaət lazımdır.
2. peyğəmbər və “əmr sahibləri” məsumdur. Hz.Peyğəmbər (s) və “ululəmr”-“ixtiyar (əmr) sahibləri”nin yanyana qeyd olunmasından belə nəticəyə gəlinir ki onlar ikisi də imamalıq məqamına malikdirlər.

Əlbəttə birinci sübut bundan möhkəm sübutdur və birinci daha yaxşıdır. O ayədə məsumluğu qeyd edir. Əvvəldə oxuduğumuz ayə daha genişdir. Ayə qeyd etdik ki, Öncələr qeyd etdiyimiz ayədə buyurulurdu: “mənim əhdim zalımlara çatmaz”. O ayədə məsumluğun bir budağından danışmışdıq. Çünki məsumluğun iki budağı var:

1. Günah etməmək. 2. Səhv etməmək. Həmin ayə günahsızlığı qeyd edirdi. Yəni günah edən şəxslərin imam olmaq ehtimalının sırf olmasına təkid edirdi. Amma diqqət etmək lazımdır ki, səhv edənə zalim deməzlər. Günah edənə zalim deyərlər. Amma indi söhbət açdığımız ayə ondan daha geniş mənanı əhatə edir. “Ululəmr”-“ixtiyar (əmr) sahiblərinə itaət edin” ayəsinə əsasən isə Hz.Peyğəmbər (s) və imamalar həm günahdan, həm də səhvdən məsum olmalıdır. Günah etməməli və səhvə düçar olmamalıdır. Çünki mütləq itaət bunu tələb edir. Allah onlara mütləq şəkildə, sorğu-sualsız müti olmağı əmr edib. Onlar günah etsə mən günahkara itaət etmiş olacam. Günaha dəvət etsələr mən itaətimlə yenə yolumu azmış olacaq. Onlar səhv etsələr də, mən itaət etdiyim üçün yolumu azmış olacam. Deməli, mütləq itaətin vacibliyi onların həm günahdan, həm də səhvdən pak olmalarını xəbər verir. Bu ayə ilə o biri ayənin fərqi bax budur.

İmam Rza (ə) buyurur:«Peyğəmbərin(s) ömrünün son ilində yerinə yetirilmiş vida həccində «Bu gün dininizi kamala yetirdim...» (ayəsi) nazil oldu. İmamət məsələsi dinin

kamilliklərindəndir.[1] İmamət İslamın boy atmaqda olan təməli və onun ucaldılmış qoludur.»[2] İmamət dinin cilovu, müsəlmanların işlərinin nizamı, dünyanın düzəlməsi və abadlığı, möminlərin izzət və başucalığıdır.»[3]

Ona görə imamətin İslamda böyük bir rolu vardır. O qədər böyük rolu var ki, dinin təkmili onunladır. İmamət dini təkmilləşdirir, dini kamilləşdirir. İmamət olmasa peyğəmbərlik öz hədəfini tamamlamamış olur. İmamət nübuvvətin davamıdır. Əgər imam olmasaydı din davam tapmazdı.

## İmamın elmi

İmamın məsum olduğu üçün onu elmi adi elmlərdən olmamalıdır. İnsanlar kimi təkcə müəllimdən öyrənilmiş eldən ibarət olmamalıdır. Çünki ki, elmdə səhv də ola bilər, yanlışlıq da ola bilər. Əgər imam məsumdursa onun elmi Allahın elçisinin (s) elmi qaynaqları ilə bir olmalıdır. Belə deyil ki, müəllim sinifdə dərs desin imam da təhsil alsın. Ona görə imam təkcə ravi deyil. İmam Peyğəmbərdən (s) hədis rəyavət edirsə, o sırf ravi deyil. Onun elmi eyni şəkildə Peyğəmbər kimi ilahi mənşəlidir. Amma başqa adi səhabələr rəvayət etdikləri zaman sadəcə ravidir.

Əlbəttə, bilirik ki, imama peyğəmbər kimi ilahi vəhy nazil olmur. Amma imamın da "lədunni elmi" (Allah tərəfindən xüsusi olaraq bəxş edilən elmi) var. İmama da Allah tərəfindən elm bəxş oluna bilər, əta oluna bilər. Çünki məsumdur və məsumluq onun səhvdən uzaq olan ilahi elmə sahib olmasını tələb edir. Bizim Üsuli-kafi kitabımızda bu fikri dəstəkləyən çoxsaylı hədislərimiz mövcuddur. İmamın elmi adi elmdən fərqlənir. Bu haqda Üsuli-kafi kitabında ayrıca bir fəsil vardir. Üsuli-kafi səkkiz cild kitabdır, səkkiz hissədir. Bir hissəsi "Kitabul-höccə"dir. Kitabul-höccə iki hissəyə bölünür. Birinci hissə ümumi olaraq imamət haqdadır. İkinci hissə isə xüsusi olaraq tək-tək imamlar barəsindədir. Orada imamların

1 -Nurus-Səqələyn, c.1, səh.589
2 -Əl-Kafi, c.1, səh.200
3 -Əl-Kafi, c.1, səh.200

bir-bir tərcüməyi halı və sair haqda yazılıb. Bir fəsli imamların Hz. Peyğəmbərin (s) elminin və bütün ənbiyaların elminin varisi olması haqdadır. Bu elm ilahi mənşəli elmdir, məktəbdə müəllim vasitəsilə əldə olunan elm deyil. Bu "lədunni elm"dir. İmamların elminin adi elmdən fərqlənməsi barədə həmin kitabda müxtəlif bölümlər də vardır.

İmam Rza (ə) buyurur: «Allah-taala bəndələrinin işlərinin idarəsi üçün birini seçəndə ona könül genişliyi verər, qəlbinə hikmət çeşmələri cari edər və ona elm və bilik ilham edər ki, ondan sonra heç bir sualda aciz və doğru yolu tapmaqda məəttəl qalmasın.»[1]

Beləliklə, biz nəticə aldıq ki, imamlar məsumdur. Məsum şəxsin elmi ilahi mənbəli olmalıdır ki, həyatı boyu səhv belə etməsin. Onların elmi mənbəsi Hz.Peyğəmbərin (s) elmi mənbəsi ilə birgədir. Buna tarixi bir şahid də Hz.Peyğəmbərə (s) ilk dəfə vəhy nazil olduğu zaman İmam Əlinin (ə) də orada olmasıdır. O, vəhy nazil olduğu zaman şeytanın fəryadını elə eşitdi. Allahın elçisindən (s) soruşdu: Mən eşitdiyim bu fəryad nədir?

Peyğəmbər buyurdu: Bu şeytanın fəryadıdır. Onun bəzi hiylə qapıları bağlandı. İnsanları aldatmaq üçün bir sıra imkanları əlindən alındı. Ona görə fəryad edir. Davamında buyurur: Ey Əli mən nəyi eşidirəmsə, sən də onu eşidərsən, nəyi görürəmsə sən də onu görürsən. Yalnız məndən sonra nəbi yoxdur. Nübuvvət qapısı bağlanır, lakin vilayət (imamət) qapısı bağlanmır. [2]

Deməli, "mən nəyi eşidirəmsə sən də onu eşidirsən, nəyi görürəmsə sən də onu görürsən"- kəlamından bunu anlayırıq ki, bu anlayış hələ müəllim tələbə səviyyəsindədir. Bu hədisə əsasən, İmam Əlidə olan elm, Hz.Peyğəmbərdən (s) də əldə olunmuşdu. Allahın Peyğəmbəri (s) buyurur: «Mən elmin şəhəri, Əli onun qapısıdır. Buna görə də elm istəyən kəs həmin qapıdan daxil olmalıdır.»[3] Biz hələ ki, "ululəmr"-"əmr sahibləri"nin kim olması

1 -Əl-Kafi, c.1, səh.202
2 -Biharül-ənvar, c. 60. Səh. 264
3 -Kənzul-Ummal, hədis 32979

haqda danışmırıq, burada söhbət onların necə olması, hansı xüsusiyyətlərə malik olması haqdadır.

## İmamın məsum olması

"Ululəmr" - "əmr sahibləri" məsumdurlar və buna əsasən də ilahi elmi mənbədən bəhrələnmiş olmalıdırlar ki, səhv belə etməsinlər. Biz dinin izahında da onlara müraciət eləməliyik. Çünki onların elmləri elə bir elmdir ki, nə bir səhabədə vardır, nə də bir alimdə. Onlar elmi lədunnidən qidalanırlar. Onlar ayrı mənbədən qidalanırlar. Dinin əsasını onlar öz ilahi elmləri ilə qoruyub saxlayır, izah və icra edirlər. İmam rəvayət də etsə, o özü də əsas dini mənbə sayılır. Mən imamla başqa bir alimi müqayisə edə bilmərəm ki, onların hansı Hz.Peyğəmbərdən daha yaxşı hədis nəql edib. O müqayisə olunmaz. Çünki imam mənbədir, o vasitədir. Adi ravi isə sadəcə rəvayət edəndir, din mənbəsi deyil. İmam dinin izahında eyni Allahın elçisi (s) kimidir. Ravi isə ondan fərqlidir. Ravi hədisi səhv başa düşə də bilər, amma İmam özü mənbə olduğu üçün onun elmində səhv və xəta olmaz. Ravi hətta səhv başa düşəndən sonra da özü də hədisə nəsə əlavə edib, azalda bilər. "Ululəmr"-"əmr sahibləri"ndə isə bu mümkün deyil. Çünki, onlar məsumdur və ilahi elmə malikdirlər, dinin əsas izahçılarıdırlar. Necə ki, Hz. Peyğəmbər (s) ayələri izah edirdi, dini çatdırırdı, imamlar da belədir.

Belə bir hədislər vardır ki, Quranın hamısı Əhli-Beytin yanındadır. Əgər bir şəxs Quranı bilmək istəsə Quranın izahını düşünsün, məsumlardan qidalansın, ululəmrdən qidalansın. İmam Əli (ə): «Əgər elmi onun mədənindən (Əhli-Beytdən) öyrənsəydiniz, suyu çeşmənin gözündən içsəydiniz, yaxşılıqları yatağından yığsaydınız, işıqlı yola qədəm qoysaydınız və «haqq yolu» ilə getsəydiniz, heç şübhəsiz, yollar sizə aşkar olar, (yolun) nişanələri sizə görünərdi»[1]

---

1 -Əl-Kafi, c. 8, səh 32,

İmam Baqir (ə) (Sələmə ibn Kuheyl və Həkəm ibn Ətibbəyə xitabən) buyurur: «Şərqə də, Qərbə də getsəniz, heç vaxt bizim ailənin (Əhli-beytin) verdiyindən başqa, doğru elm tapa bilməyəcəksiniz.»[1]

Buna Səqəleyn hədisi də sübutdur. Səqəleyn hədisi əzəmətli bir hədisdir. Səqəleyn hədisi İslam aləmində şübhə imkanı olmayan hədislərdəndir. Kim Səqəleyn hədisinə şübhə etsə, hədislərin hamısına şübhə ilə yanaşmalıdır. Məsələn: Bir şəxs möhkəm bir binanın, bütün binaların hamısından möhkəm olan binanın tikilişinə şübhə ilə yanaşsın. Desin ki, bu bina yaxşı tikilməyib, bünövrəsi möhkəm deyil. Halbuki, həmin bina başqa binalar ilə müqayisədə onların hamısından möhkəmdir. Əgər bu binanı da sən sual altına alsan, onda o biri binaların hamısı sual altına düşmüş olacaq. Səqəleyn hədisi belədir. Səqəleyn hədisində nə buyurulur?

Allahın Peyğəmbəri(s):«Mən sizin aranızda iki qiymətli şey qoydum. Nə qədər ki, onlardan möhkəm yapışacaqsınız, məndən sonra heç vaxt azmayacaqsınız. Onlardan biri digərindən daha böyük və üstündür. (Biri) Allahın kitabıdır ki, o göydən yerə uzanmış və birləşmiş ipdir. (İkincisi) mənim itrət və Əhli-Beytimdir. Bilin ki, bu iki şey, hovuzun kənarında mənim yanıma gələnə kimi heç vaxt bir-birindən ayrılmaz.»[2]

Yəni, Hz.Peyğəmbər (s) buyurur ki, mən özümdən sonra iki ağır əmanət qoyuram. Biri Qurandır ki, onun bir tərəfi mənim əlimdədir, bir tərəfi insanların əlindədir. Biri Əhli-beytdir. Quran və Əhli beyt bir-birindən ayrılmazdır. Siz də onların ikisindən yapışsanız azmazsınız. Mən Səqəleyni çox izah etmək istəmirəm. Burada bizim bəhzimizə aid bir neçə söz var:

İlk öncə: Quran Əhli-beytdən ayrılmaz. Bu birlik mənəvi vəhdətdir. Yəni Quran nə buyurursa Əhli-Beyt də onu deyir. Əhli-Beyt nəyi deyirsə Quran da tam onu buyurur. Əgər imamlardan bir hədis söylənibsə, elə Quran da onu buyurur. Eyni məntiqli və mənalıdır hər ikisinin buursuqları. Sən imamın həqiqətən söylədiyi

---

1 -Biharul-Ənvar, c. 2, səh 92
2 -Biharul-Ənvar, c.23, səh.106

elə bir hədis tapa bilməzsən ki, Qurani-Kərimin ayələri ilə zidd olsun. Əgər mən belə bir ziddiyyət görsəm, bu mənim düzgün anlamadığım mənasınadır. Yoxsa belə bir ziddiyyətin olması mümkün deyil. Səqəleyn hədisinin məntiqinə əsasən, imam və Quran eyni xətdədir, bir xətdir, bir yoldur. Ona görə də məsələn, imam Əli (ə) bir hədis söylədikdə, onun kəlamı elə Quranın məntiqi ilə eynidir. Quranla müqayisə etməyim, yaxud oradan təsdiq almağım lazım deyil. Yəni bir-birlərindən ayrılmazdırlar. Arada heç bir təfriqə yoxdur. Əgər Quran bir sözü buyurursa, imam da hökmən onu söyləyir. Bu bir məsələ.

Bir də dərəcə baxımından da, Quran nəyi buyurursa imam ona əməl edib. İmam nəyə əməl edibsə hökmən onu Quran da ona əmr edib. Yəni həm kəlam və məntiq baxımından, həm də əməl cəhətindən tam vəhdət təşkil edir. Əgər Quran deyirsə bir işi icra edin, hökmən imam o işi icra etmişdir. Çünki imam onu etməmişdirsə, əməl etməmişdirsə Qurandan ayrılmış sayılar. Amma hədis buyrurur ki, ayrılmazlar. Həmçinin, əgər imam Quranda deyilməyən bir işi görübsə, deməli orada imam Qurandan ayrı düşmüş sayılar.

Səqəleyn hədisi neçə baxımdan bərəkətli hədisdir. Onun məntiqinə əsasən, Quran necə məsumdursa, imam da eləcə məsumdur. Quran necə təhrif olunmayıbsa imamlar da yolunu azmayıb. Quranda necə yanlışlıq olmazsa imamda da yanlışlıq olmaz. Quran nəyi buyurursa imamların həyatı da onu əməldə təsvirə çəkmişdir. Əgər Quranın əmrlərini və göstərişlərini, əxlaqını siz canlandırsanız insana çevirsəniz onlar imamlardırlar. Əgər imamı kitab halına salsanız, Quran olar. Səqəleyn bunu buyurur. İkisindən yapışmasanız azarsınız. Müaviyə dövrünə nəzər salaq. Müaviyə gördü ki, məğlub olur, Qurandan sui-istifadə etdi. Dedi: Quranı nizələrə keçirin. İnsanları aldatdı. Azmış insanlar da canlı Quranla yazılı Qurana fərq qoydular. İmam Əli (ə) buyurur: “Mən danışan (natiq) Quranam!”[1] “Quranı danışanam” deyə

1 - Biharül-ənvar, c. 39, səh. 272

buyurmur. “Danışan Quranam”- deyə buyurur. İstəyir ki, Səqəleyni onlara izah etsin. Mən elə Quranın danışan şəkliyəm. Sizin cəhalətinizdən istifadə edirlər, onunla məni ayırırlar. Mən ondan ayrı deyiləm. Məni vuran onu da vurur. Elə bilin bir şəxs Quranı öpür amma namazdan xoşu gəlmir. Namaz qılanı təhqir edir, amma Quranı öpür. Deyir ki, qurban olum Qurana. Bu mənim cəhalətimdən sui-istifadə edir. Çünki Quranın namaz ayələri elə Qurandır. Ola bilməz ki, sən Quranın namaz ayələri ilə namazı ayırasan. Quranın bir tənzili vardır, bir də təvili (izahı). Tənzil elə həmin ayələrdir. Təvil elə həmin gerçəkdə zahirdə həyata keçirilmişdir. Namaz ayələri elə namazdır ki, zahirdə qılınır.

## Dərsin xülasəsi

İmamlıq sırf zahiri bir vəzifə, zahiri bir ünvan deyil. İmamət vilayətlə əlaqədədir. İmam Allahın vəlisidir. Həm təkvini-vəlisidir, (elə bir səviyyəyə çatıb ki, mələkut aləmi və əmr aləmi ilə rabitədədir) həm təşrii-vəlisidir (şəri rəhbərdir) ki, ona biz itaət etməliyik.

Alimlərin fikrincə, Allahın elçisi (s) 2 vəzifə və 2 mühüm məqama malik idi. Bunlardan biri Allahın elçisi olması, vəhy vasitəsi olması idi. Vəhyi Allahdan alırdı insanlara çatdırırdı. O bu məqamda yalnız vəhyi çatdırırdı. Yalnız ona vəhy olunanı çatdırır. Buna təbliğ vəzifəsi də deyilir.

1. ***Hz.Peyğəmbərin (s) birinci vəzifəsi: Quranı bəyan etmək və onun tilavəti***

Hz.Peyğəmbərin bir vəzifəsi belə idi ki, Allahdan nə vəhy almışdırsa onu insanlara oxusun. Əlbəttə, bu sahədə olan vəzifəsi təkcə tilavət etmək deyildi. Quran ayələrini izah etmək də onun vəzifəsi idi. Yəni eyni zamanda ayələri təfsir və izah etməli idi. Quranı ilk izah edən elə Allahın Rəsuludur.

2. ***Hz.Peyğəmbərin (s) ikinci vəzifəsi: Rəhbərlik və İmamlıq***

Quranın ayələrindən aydın olur ki, Hz.Peyğəmbərin bir ayrı vəzifəsi də var idi. O da imamlıq idi. Peyğəmbər imam idi, hakim idi, qərar çıxarırdı, həm müharibə qərarı, həm sülh qərarı və s.

İmamətin İslamda böyük bir rolu vardır. O qədər böyük rolu var ki, dinin təkmili onunladır. İmamət dini təkmilləşdirir, dini kamilləşdirir. İmamət olmasa peyğəmbərlik öz hədəfini tamamlamamış olur. İmamət nübuvvətin davamıdır. Əgər imam olmasaydı din davam tapmazdı. Alimlərin fikrincə, "Ətiullah" ayəsinə əsasən iki nəticə alınır:

1. Peyğəmbər və "əmr sahibləri"nə mütləq itaət lazımdır.
2. Peyğəmbər və "əmr sahibləri" məsumdur. Hz.Peyğəmbər (s) və "ululəmr"-"ixtiyar (əmr) sahibləri"nin yanyana qeyd olunmasından belə nəticəyə gəlinir ki onlar ikisi də imamalıq məqamına malikdirlər.

İmamın məsum olduğu üçün onu elmi adi elmlərdən olmamalıdır. İnsanlar kimi təkcə müəllimdən öyrənilmiş eldən ibarət olmamalıdır. Çünki ki, elmdə səhv də ola bilər, yanlışlıq da ola bilər. Əgər imam məsumdursa onun elmi Allahın elçisinin (s) elmi qaynaqları ilə bir olmalıdır.

Əlbəttə, bilirik ki, imama peyğəmbər kimi ilahi vəhy nazil olmur. Amma imamın da "lədunni elmi" (Allah tərəfindən xüsusi olaraq bəxş edilən elmi) var. İmama da Allah tərəfindən elm bəxş oluna bilər, əta oluna bilər. Çünki məsumdur və məsumluq onun səhvdən uzaq olan ilahi elmə sahib olmasını tələb edir.

## Səkkizinci dərs

### İmamı düzgün tanımağın zəruriliyi

Keçən dərsdə qeyd etdik ki, əgər ululəmr məsumdurlarsa, kim olursa olsunlar, onlar mütləq ilahi elm mənbəyindəm bəhrələnmişlər. Hədislərimizdə oxuyuruq: Allahın Peyğəmbəri (s) buyurur: «Mən elmin şəhəri, Əli onun qapısıdır. Buna görə də elm istəyən kəs həmin qapıdan daxil olmalıdır.»[1]

Başqa bir hədisdə buyurulur: Allahın Peyğəmbəri (s): «Məndən sonra ümmətimin qəzavət işinə ən yaxşı bələd olanı və ən elmlisi Əlidir.»[2]

Ululəmr əgər məsumdurlarsa, deməli onlar dinin izahında da, şəriətin izahında da əsaslı mənbədir. Deməli bu mənbələri düzgün tanımaq zəruridir. Qurani-Kərim buyurur: "Əqimus səlat"-"Namaz qılın". Bu əmrin nəticəsi budur ki, mən namazla tanış olmalıyam. Nnamazı ilk öncə doğru şəkildə tanımalı, sonra onu qılmalıyam. Nə etdiyimi, nə üçün etdiyimi bilməliyəm. Əgər ayə buyrursa "Hz.Peyğəmbərə və ululəmrə itaət edin" bu ayəyə əməl etməyin müqəddiməsi həmin şəxsləri düzgün tanımaqdır. "Ululəmri"-"Əmr sahiblərini" tanımasaq bu ayəyə itaət edə bilmərik. Buradan belə nəticə alırıq ki, insanın öz imamını tanıması hər zaman vacibdir. Çünki imamı tanımamaq cahalətdir. Ayədən məhz bu nəticə çıxır. Çünki itaət etmək nəticə olaraq, tanımaqla mümükün olur. Buyurulur: "əmr sahiblərinə itaət edin". Əmr sahibləri kimlərdir? Buradan hədislər vasitəsilə imamı tanımağın vacibliyi vurğulanır. Biz hədislərlə ayənin izahından belə nəticə alırıq ki, imamı tanımasaq itaətin mənası olmayacaqdır.

Qeyd etdik ki, əmr sahibləri kim olurlarsa olsunlar gərək məsum olsunlar. Bu birinci məsələ.

---

1 -Kənzul-Ummal, hədis 32979
2 -Əmali-Səduq, səh.440, hədis 20

## İmanın mənası və dərəcələri

İkinci məsələ isə, imanın mənası və dərəcələrinə diqqət etməklə aydın olacaqdır. Allah bəzi ayələrdə xitab edir: “Ya əyyuhən nas”-“Ey camaat”. Bəzi ayələrdə isə belə xitab edir: “Ya əyyuhəl ləzinə amənu”-“Ey iman gətirənlər”. Bəzən müraciət möminlərədir, bəzənsə müraciət ümumi camaatadır. Bir nəzər budur ki, bəşəri olan ayələrdə müraciət “Ya əyyuhən nas”-“Ey camaat”dır. Amma bir sıra ayələrdə isə “Ya əyyuhəl ləzinə amənu”-“Ey iman gətirənlər”- deyə iman gətirənlərə xitab edilir. Çünki, insanın imanı olmasa Allaha, onun rəsuluna itaətin mənası yoxdur. Təbii ki, Allaha iman edilməmiş ona itaətin mənası yoxdur. İnsan ilk əvvəl Allaha iman gətirməlidir. Allaha, ardınca rəsulullaha iman edəndən sonra itaət gəlir. Deməli bəzi ayələr də “Ya əyyuhən nas”-“Ey camaat” xitabı gəlibsə burada müraciət ünvanı ümumbəşəridir, yəni hamı üçündür. İstər müsəlman olsun istərsə də qeyri-müsəlman. Bu İslamın genişliyini göstərir. İslamın əhatə dairəsini göstərir. Yəni İslam qeyri-müsəlmanlara aid olan məsləhətlər də vermişdir. Onları da düşünüb. Hətta onların problemlərini də həll etmək istəyib. Məsələn, Quranda yaranışdan söhbət gedir. Yaranış təkcə mömin ə aid deyil. Ona görə müraciət belədir:

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثَى

“Ey camaat! Biz sizi bir kişi və bir qadından yaratdıq”.[1]

Qeyd etdiyim kimi buradakı müraciət ümumbəşəridir. Amma Quranda bəzi başqa ayələr var ki, maraqlansanız görərsiniz ki, orada müraciət “Ya əyyuhəl ləzinə amənu”-“Ey iman gətirənlər”- deyə müraciət onunub. Bu ayələrdə belə müraciətdən məqsəd budur ki, Allah insana onun imanını xatırlatır. Demək istəyir ki, bu imana əsasən, bu əmrə əməl etməlisən. Sanki bir nəfər Allah Taalaya xitab edir: Niyə mən sənin göstərişlərinə əməl etməliyəm? Müraciətdə də Allah-Taala özü sualdan öncə buna cavab verib. İman gətirdiyin üçün itaət etməniz vacibdir, bunu unutmayın. Misalla belə izah edə bilərik: Bir dəfə müəllim ümumi olaraq insanlara müraciət edir.

1 - Hücurat, 13

“Ey burada olanlar”. Bir də ki, müəllim öz tələbələrinə xüsusi olaraq müraciət edir. “Ey tələbələrim” siz cavab verin. Tələbə deyə bilər ki, mən niyə bu suala cavab verməliyəm? Müəllim haqlı olaraq deyər: Elə tələbə olduğun üçün cavab verməlisən. Allah da bir sıra göstərişlərinin əvvəlində ”Ya əyyuhəlləzinə amənu” xitabını gətirib. Yəni iman gətirdiyimn üçün, mömin olduğun üçün itaət etməlisən.

Bu müraciətin iki fəlsəfəsı var. Bir fəlsəfəsi budur ki, səbəb göstərir. Yəni mən Allahın sözünə itaət etməliyəm, çünki iman gətirmişəm. Allah bir növ buyurmaq istəyir ki, itaət etməyinin səbəbi elə sənin iman gətirməyindir. Ona görə də imanını insana xatırladır. Başqa fəlsəfəsi də budur ki, bu müraciətlə Allah insanı özünə yaxınlaşdırır və sonra göstərişlər verir. Bu müraciətin digər müraciətlərlə fərqi budur ki, Allah insanı özünə nisbətlə bağlayır. Mənası budur ki, mənə inanan, mənə bağlanan deyə müraciət olunur. Burada Allah-Taala əvvəl yaxınlaşdırır, sonra göstəriş verir. Oruc ayəsində olunan xitabın şirinliyi barəsində belə bir hədis vardır. İmam Sadiq (ə) buyurur ki, bu xitab, yəni “ya əyyuhəl ləzinə amənu” o qədər şirindir ki, orucun zəhmətini insanın yadından çıxarır. Daha insan orucluğun çətinliyini sanki unudur. İnsan bəzən dostu yaxud sevdiyi şəxs üçün o qədər ağır şəraitdə çalışır və zəhmət çəkir, amma bu ona ağır gəlmir. Bu ayədəki yaxınlıq da onu bildirir. Allah bu müraciətlə insanı özünə yaxınlaşdırmaq istəyir. Yaxınlaşanda itaət etmək ona yüngülləşir, asanlaşır. Bu haqda başqa ayələrdə də var. Başqa ayələri də araşdırsaq biz bunu asanlıqla görə bilərik. Burada qeyd etdiyimiz ayədə də elə bu mənadadır.

Allah-taala buyurur: “Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!” Mömin deməklə nəyi nəzərdə tutur? Burada incə bir mətləb vardır. Bu ayənin özündən bilinir ki, imanın dərəcələri var. Bunu bir dəfə də qeyd etmişdik. Bu ayədə də aydın buyurulur: “Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!” Aydın olur ki, itaət etməmişdən əvvəl də mömin idi. Mümkündür ki, bir şəxs Allaha

inanır, lakin Allaha itaət etmə məsələsində bəzi sahələrlə itaət etmir. Belə şəxslər bəzi sahələrdə mömindir. Bu ayənin özündə möminə xitab edilir. İtaət et! Allaha, rəsula, ululəmrə. Məlum olur ki, imanın özünün də dərəcələri vardır. Hədislərdə imanın özünün də dərəcələri qeyd olunur. İmanın dərəcələri hansılardır? İmanın dərəcələri haqqında qeyd etdiyimiz ayələrdə də müxtəlif ifadələr var. İmanın dərəcələrinin haqqında, hədislərdə də var.

Bir sıra hədislər buyurur: "İmanın dərəcəsi ondur". İmam Sadiq (ə):«İman on pilləsi olan və pillələri biri digərindən sonra qət edilən nərdivan kimidir.»[1]

Allahın Peyğəmbəri (s):«İman on şeydədir: tanımaq, (Allaha) itaət, elm, əməl, pəhrizkarlıq, çalışqanlıq, səbr, yəqinlik, razılıq, (Allah qarşısında) təslim olmaq. Bu on sütundan hər hansı biri çatmasa imanın nəzmi pozular.»[2]

Hz.Peyğəmbərin (s) əziz səhabəsi Salman bu dərəcələrin onununa da çatmışdır. Məfatihul-cinan kitabında qeyd olunan bir ziyarətnamədə Salmanın bu dərəcələrin hamısına çatması məlum olur. Ziyarətnamədə ona müraciətlə deyilir ki, "salam olsun sənə ey onuncu imana çatan". Bir sıra hədislər var ki, iman on dərəcədir və bəziləri bu dərəcələrə çatıblar. Hətta bəzi hədislərdə deyilir ki, Salmanın ürəyində gizlənəni Əbuzər bilsəydi, Əbuzər onu kafir bilərdi.[3] Əbuzərlə Salman bir-birinə çox yaxındır, lakin onlar arasında iman baxımından da çox fasilə vardır. Əbuzər Salmandan sonrakı dərəcədə idi. Lakin onun zehnindən nə keçdiyini bilsəydi ona kafir deyərdi. Çünki düşünəməzdi, başa düşə bilməzdi. Deyərdi Salman kafir olub.

---

1 -Əl-Kafi, c.2, səh.45, hədis 2
2 -Biharul-Ənvar, c.69, səh.175, hədis 28
3 -Üsuli-kafi, c. 1, səh. 401

## İmanın mövzu baxımından dərəcələri

Deməli iman müxtəlif dərəcələrə və nisbətlərə malikdir. Ola bilər ki, namaz mövzusunda imanı olsun lakin, orucda çətinlik çəksin. Və yaxud əksinə olsun. Bəzən insan vaxtı-vaxtında namaz qılır, oruc tutur, lakin Hz.Əlinin (ə) vilayətində imanı şəxsi hesabları ilə, tayfabazlıqla toqquşur. Diqqət etməliyik ki, imanın mövzulara nisbət dərəcləri vardır. İnsanın bəzi dini məsələlərə iman möhkəm ola bilər, bəzi mövzulara isə imanları yoxdur. Mövzular fərqli olanda da mümkündür insanın imanı bir sıra mövzularda olmasın, yaxud süst olsun. Bəzi insanlar Uhud döyüşü zamanı yaşasaydı, mümkündür ki, orada imanını əlindən vermiş olsun. Bəzi səhabələr Uhud döyüşündə qaçdılar. Uhud müharibəsində Peyğəmbəri tək qoydular və s. Anladıq ki, iman mövzulara bölünür. Ola bilər ki, mənim bir mövzuda imanım olsun, başqa mövzuda isə imanım olmasın. Namazım, orucum yerində və qaydasında olsun, amma başqa mövzularda belə olmayım.

Buna haqda bir sıra başqa hədislər də vardır. Əllamə Əmininin Təfsiri-Həmd adlı bir kitabı vardır ("Həmd surəsinin təfisiri"). Orada bəzi hədislərə rast gəlmişik. Məsumlardan qeyd olunan hədislərdə, məsələn Əbu Ömər Zübeyrinin İmam Sadiqdən (ə) nəql etdiyi hədisdə var ki, iman üzvlərə bölünür. Gözün imanı var, qulağın imanı var, ağızın imanı var, bədənin ayrı hissələrinin hərəsinin imanı vardır.[1] Kamil iman budur ki, üzvərin hamısında imanı kamil olsun. İman üzvlərə niyə bölünür? Çünki, bu üzvlərin hər biri bir mövzuda imtahan oluna bilər. Hər üzvün qarşısında bir mövzu vardır. Mümkündür ki, mənim qulağım da imanım olsun, Allaha itaət edim, Allahın sözünə baxım, lakin gözümdə, ağzımda olmasın. İmanın dərəcələri mövzularladır. İman sırf elm deyil. Çünki kafirlərin də elmləri var. Buyurur: "Dandılar". Danmaq o vaxt olur ki, həmən şeyi bilirsən lakin inkar edirsən. Mən bir şeyi bilməsəm səhv başa düşdüyümü deyərəm, "Bilmirdim"-deyərəm. Lakin Quranda kafirlərin bilmədikləri və ya səhv başa düşdükləri

1 -Üsuli-kafi, c. 2, səh. 34

buyurulmur. Buyurur: “Dandılar, inkar etdilər”. Ürəklərində elmi cəhətdən yəqinləri var idi, içəridən bilirdilər, lakin şəxsi mənfəətlərinə əsasən kafir olmuşdular, danmışdılar. Bu ayələr əsasında iman elmlə əlaqədə deyil. İman elmlə bərabər deyil. İman o elmə deyərlər ki, qəlb də ona təslimdir. Əgər insanın düşüncəsinə qəlbi də təslim olsa ona iman deyilər. Mənim əqlim sırf bu işi qəbul edir, lakin qəlbim təslim deyil. Məsələn; İslam əqidəsi dərsində oxumuşam Allah var, Qiyamət var, hətta sübutlarını belə öyrənmişəm, lakin qəlbim təslim deyil, imanım yoxdur. İman o düşüncəyə deyirlər ki, ona qəlb də təslimdir. Alimlərin belə ifadələri var buyururlar: Elmdə iki rabitə var. İmanda üç rabitə var. Elmdə rabitələr düşüncə, məlumatdan ibarətdir. Bunlar insanın zehni ilə əlaqədardır. İnsanın zehni onları bilir. Allahın varlığını, Qiyamətin varlığını və s. İmanda o məlumat həm insanın elmi ilə rabitəlidir, həm də insanın qəlbi ilə rabitəsi vardır. İmanı üç bucaq təşkil edir. Mümkündür insan alim olsun, amma mömin olmasın. Bir şeyi bilsin, lakin o şeyə imanı olmasın. Siqaretin zərərli olduğunu bilir, lakin onun zərərinə imanı yoxdur. Yenə də çəkir. Təslim deyil. İman o düşüncəyə deyilir ki, insan o düşüncəyə təslimdir. Ona görə də bizim hədislərimizdə imanlı insan düşünnür, dili ilə izhar edir, əməlində də onu göstərir. İmanı belə məna etmişlər. İmanın əməldə zahir olur. Buna görə də iman mövzulara bölünür. İnsanın bir mövzuda imanı ola bilər, lakin başqa bir mövzuda imanının olmaması mümkündür. Niyə imanı olmasın ki? Çünki, düşünmür.

## İmanın zaman baxımından dərəcələri

Həmçinin, insanın imanı zaman baxımından fərqli ola da bilər. İmanın bir mövzular baxımından, iki zaman baxımından fərqli olması vardır. Bunu hardan qeyd edirik? Qurani Kərimdə ayə vardır:

إِنَّ الَّذِينَ آمَنُوا ثُمَّ كَفَرُوا ثُمَّ آمَنُوا ثُمَّ كَفَرُوا ثُمَّ ازْدَادُوا كُفْرًا لَمْ يَكُنِ اللَّهُ لِيَغْفِرَ لَهُمْ وَلَا لِيَهْدِيَهُمْ سَبِيلًا

(Əvvəlcə) iman gətirib sonra kafir olan, sonra iman gətirib yenə kafir olan, sonra da küfrünü artıran kəsləri Allah heç vaxt bağışlayan və doğru yola yönəldən deyildir![1]

Bu ayə göstərir ki, imanın insanda vəziyyəti, dəyişilməsi, zaman baxımından da ola bilər. Digər ayə də qeyd etdik ki, mövzu baxımındandır, bu ayə isə zaman baxımından olmasını da vurğulayır. İndi mən yaxşı adamamsa, sabah da hökmən yaxşı adam olacam deyə bir təzminat yoxdur. Bu gün yaxşı adamam, ola bilər ki, sabah fərqli olum. Ona görə də gərək insan özünə nəzarət etsin, çünki iman zaman baxımından da dəyişilə bilər. İman insanda suya bənzəyir. Su buxar da ola bilər. Suya yağış da yağa bilər. Mövzu baxımından qablara bənzəyir, hər qaba ayrı su tökülür. İkinci buxar olub azalmağına və ya yağışla çoxalmağına bənzəyir. İkinci məsələdə imanın dərəcələri zaman baxımındandır. İman haqqında geniş izah etmək istədik.

### İmanın keyfiyyət baxımından dərəcələri

Üçüncü bəhs imanın keyfiyyət dərəcələridir. Mümkündür ki, bir mövzuda bir insanın möhkəm etiqadı olsun. Başqa bir insan isə həmin mövzuda zəif etiqadlı ola bilər. Yəni eyni mövzuda insanlar möhkəm və zəif imana malik ola bilər. Burada zaman önəmli deyil, mühüm olan həmin məsələdə insanın daxilindəki özünüinkişaf, iradədir. İxlas baxımından, daxili mənəvi xüsusiyyətlər baxımından imanın dərəcələri vardır. Bir şəxs namazı ixlasla qılır, digəri namazı ixlasla qılmır. Burada imanın dərəcələri rol oynayır. Bu dərəcələr zaman, mövzu baxımından deyil, onun keyfiyyəti baxımındandır. Bir şəxs hər hansı bir işi kor koranə görür, o biri isə bəsirətlə görür. Bu imanın keyfiyyət dərəcələridir. Hədislərə əsasən, iki şəxsin namazında göylə yerin fasiləsi qədər fasilə ola bilər. İki şəxs namaz qılır, zahiri də eynidir, amma namazlarının keyfiyyəti göylə yer fasiləsi qədərdir.

---

1 - Nisa, 137

Həzrət Peyğəmbər (s) buyurur: "Bəzi namazların yarısı, yaxud üçdə biri, dörddə biri və yaxud beşdə biri qəbul edilir, bəzi namazlar isə köhnə paltar kimi bükülüb sahibinin üzünə vurulur; namazının xalis niyyət və sağlam qəlbə malik olan hissəsi də (Allah dərgahında) qəbul olar".[1]

Baxın biz insanlar bəzən bir işi müxtəlif niyətlərlə görürük. Əməl eynidir, lakin niyyətləri müxtəlifdir. Məsələn mən riya ilə əməl edirəm, insanlara nümayiş etdirmək üçün edirəm, amma başqası ixlasla bir işi görür, o biri isə ixlasdan da uca məqam və niyyətlə əməl edir. Dərəcələri vardır imanın. Niyyətin özünün də ölçüləri var. Mən ola bilər ki, bir işi ixlasla görmürəm, lakin o işdə yüz faiz fiziki imkanımı xərcləyirəm. Və yaxud hər hansı bir şəxs həmin işi ixlasla görür, lakin o işə on faiz imkanını xərcləyir. Əməl niyyətlə fərqlidir, niyyətin özünün də imkanla fərqi vardır. Ola bilər bir şəxsin imkanı azdır, lakin əməli çox möhkəmdir. Hədisdə buyurulur ki, ibadətlərin ən savab olanı ən çətinidir, ən zəhmətlisidir. Çünki onda imkandan çox xərclənilir, çox əziyyət çəkilir. İmam Əli (ə) buyurur: «Əməlin savabı onun əziyyət və zəhməti qədərdir.»[2]

Bir şəxsin milyonlarla pulu var, ondan kiçik bir hissəsini yoxsula verir. Bu şəxs sanki pulundan "dənizdən bir qaşıq su götürmüş kimidir". Başqa birisi isə imkanında olanın çoxunu yoxsla verir. İkisi də zahirdə məbləğ olaraq eyni pulu veriblərsə, ikisi də ixlasla veribsə, niyyəti eynidirsə, yenə də əməllərinin fərqi vardır. Niyyətdə fərq yoxdur, əməllərin imkanında fərq vardır. Zəhmətlə icra edilən əməl daha çox dəyərlidir. İmanlar hətta daxili keyfiyyətlərə görə də dərəcələrə bölünür. Nə niyyətlə, hansı imkanla nə iş görülür.

Möminlik elə bir dərəcədən ibarət deyil ki, deyək hamımız möminik və bir dərəcədəyik. Möminlik müxtəlif dərəcələrdir. Ona görə də insan gərək günbəgün imanını çoxaltsın. Hədisdə buyurulur ki, Qiyamətin dərəcələri Quran ayələrinin dərəcələri qədərdir.

1 - Biharül-ənvar, 81-ci cild, səh. 260
2 -Ğurərul-Hikəm, hədis 4690

Quran neçə ayədirsə hər ayə insana Qiyamətdə bir cənnət təmin edir. Əgər sən o ayəni oxusan məqamın bir o qədər artar. Yəni əməl etidiyin ayələr qədər imanın artır və ucalırsan.

İmam Səccad (ə):«Həmişə Quran oxu, çünki, Allah-taala Cənnəti yaratdı və Quranın ayələri qədər ona dərəcələr verdi. Hər kim Quran oxuyarsa, Quran ona deyər: «Oxu və yuxarı qalx.» Bu şəxslər Cənnətə daxil olanda yalnız peyğəmbərlər və siddiqlər onlardan ali mərtəbədə olar.»[1]

Bu dünyada insanın əldə etdiyi imanın dərəcələridir. Quran ayələri süfrədə oturmağa bənzəyir. Bəzi insanlar süfrəyə oturub sadəcə ona tamaşa edir, bəziləri isə süfrənin nemətlərindən bəhrələnir. Biri ancaq tamaşa ilə görüntüdən bəhrələnir, o biri isə süfrədən qidalanır. Yaxud biri süfrədən yalnız su içir, o biri isə onu güclü edəcək müxtəlif qidalar da götürür. Quran Allahın süfrəsidir. Bəzilərinin süfrədən bəhrəsi sadəcə tamaşadır. Yəni Quranı yalnız öpüb, ehtiram edib gedirlər. Bəziləri süfrədə nə olduğu haqqında zahirdə maraqlanırlar. Bəziləri isə süfrənin nemətlərindən qidalanırlar.

Deməli insanın iman dərəcələri vardır. Dərəcləri yığcam sürətdə üç qismə böldük. Mövzu baxımından, keyfiyyət baxımından, bir də zaman baxımından. Bunlar hərəsi insana böyük məsuliyyət verir. Mövzularda da, zamanda da, keyfiyyət baxımından da imanımızı qorumalıyıq. Tarixdə çoxlu insanlar var. Onlar hər sahədə istər mövzu baxımından, istər zaman baxımından, istər keyfiyyət baxımından ayaqları büdrəmişdir.

Mövzu baxımından zəkat ayələri nazil olan zaman namaz qılırdılar, lakin zəkat vermirdilər. Məscidə gedirdilər, imkanları da var idi. Allah zəkat verin buyuranda öz mallarından keçə bilmirdilər. Quranda ayədə zəkatla oruc birlikdə tövsiyə olunur. Bu o deməkdir ki, namaz qılıb, amma zəkat verməmək olmaz. Kim zəkat verməsə, onun namazı da qəbul deyil. İmam Sadıq (ə) buyurur: «Zəkat verməyən şəxsin namazı düzgün (kamil) deyil.» [2]

---

1 -Biharul-Ənvar, c.8, səh.133, hədis39
2 -Mişkətul – Ənvar, səh. 46

İnsan bəzən bir mövzuda əməl edirsə, ikinci mözvuda büdrəyir. Zaman baxımından Zubeyrə nəzər salsaq, Zubeyrin əvvəldə saleh əməllər edirdi, lakin axırı necə olduğu barəsində işimiz yoxudur. Bu barədə gərək araşdırılsın ki, Zübeyri sonda kim öldürdü. Lakin bu ikisinin arasında yolunu azmışdı. O, İmam Əli (ə) xilafə olduğu zaman Cəməl muharibəsinin səbəbkarlarından biri idi. Onun qılıncı bir zamanlar Hz.Peyğəmbəri (s) sevindirirdi. Başqa bir zaman isə Hz.Peyğəmbəri (s) incitdi.

Allahın Peyğəmbəri(s):«Əli məndəndir və mən ondan.»[1]

Allahın Peyğəmbəri(s):«Həqiqətən Əlini incidən məni incidib.»[2]

Zubeyr bir zaman Allahın elçisini (s) sevindirirdi, başqa bir zaman isə o həzrəti incitdi. Bu Zaman baxımından izah idi.

Keyfiyyət baxımından imanı araşdırsaq, daha münasib şəkildə anlamaq üçün özümüzə müraciət edək. Belə ki, bizim namazımızın mənəvi keyfiyyəti ilə başqasının namazını müqayisə etdikdə, onun namazı ilahi meracdır mənim ibadətim isə sanki yükdən qurtulmaqdır. O namaz nə zaman başlayar deyə, vaxta baxır ki namazda mənəvi ləzzət alsın, mən namazı necə tez qurtarım deyə tələsirəm. Namazı əvvəl vaxtında qılsam belə, məqsədim qılıb rahat olmaqdır. Çünki, savabı vardır. Bu iman keyfiyyətinin fərqidir. Bu barədə gələn bölümlərdə də danışacayıq.

Allah-taala buyurur: "Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!" Bəzilərinin baxışında bu şərik qoşmaqdır. Onların fikrincə, ancaq Allaha itaət edilməlidir. Allah şərik qoşmaq olmaz. Amma bu fikir yanlışdır, çünki ayəyə əsasən, Allaha və onun ardınca ayrı şəxslərə də itaət etmək tələb olunur. Burada Allaha şərik qoşulmur. Əgər Allaha şərik qoşulmursa, deməli itaətin mənası burada ibadət deyil, müti olmaqdır.

Amma bəziləri deyirlər ki, Allahdan başqasını çağırmayın. Belə nəticə alırlar ki, Hz.Peyğəmbəri (s) çağırmamalıyıq, imamları çağırmamalıyıq. Yaxşı belədirsə, onda ayə niyə Allaha,

1 -Sünən İbn Macə, hədis 119

2 -Biharul-Ənvar, c.5, səh.69, hədis 1

Peyğəmbərə və Üluləmrə müti olmağa əmr edir? Onda onların iddiasına görə ilk şərik qoşan elə Allahın özüdür. Bu zaman ayə gərək şirk ayəsi olsun. Çünki onların baxışında hər kim Allahla birgə hansı işdə şərikdirsə, bu şirk olmuş olur. Burada da, Allaha istaət, başqalarına itaətlə müştərəkdir. Bir halda ki, şirk ən böyük günahdır. Deməli, burada şirkdən əsər əlaət yoxdur. Onlar ayələrə səthi yanaşıb, sırf zahiri mənalarını əsas götürdükləri üçün belə bir yanlışlığa düçar olmuşlar. Nə üçün ayədə üç şəxsə itaət tələb olunub? Əvvəla Quran ayələrindən məlumdur ki, əsas itaət Allah-Taalaya olunmalıdır. Allahdan başqa heç kimə müstəqil itaət yoxdur. Müstəqil itaət yalnız Allahadır. Digərlərinə isə Allah buyurduğu üçün itaət edirik.

وَمَا أَرْسَلْنَا مِنْ رَسُولٍ إِلَّا لِيُطَاعَ بِإِذْنِ اللَّهِ

Biz hər bir peyğəmbəri, ancaq ona Allahın iznilə itaət olunsun deyə, göndərdik.[1]

Bu itaət asılı itaətdir. Çünki, Allah buyurur itaət edin. Üç ayrı və mütəqil itaət deyil, bir itaətdir. İki itaət birindən asılıdır. Allaha itaət etdiyimiz üçün Peyğəmbər və İamama itaət edirik. Buna misal olaraq: Mələklər Adəm peyğəmbəri tanımırdılar. Bir gün Allah buyurur ki, ona səcdə edin! Bu Allahın tapşırığıdır. Bu tapşırığın iki tərəfi vardır. Bir tərəfi Allah, o biri tərəfi də Adəmdir. Allah tərəfi əmrin verilməsidir. Adəm tərəfi isə o göstərişin həyata keçirilmə yeridir. Allah gösrətiş verir ki, Adəmə itaətlə əmrimi icra edin. Mələklər hamısı səcdə etdi. Şeytan tövhiddə xalis idi, amma dedi: Allah, mən səndən başqasına səcdə etmərəm. Ancaq sənə səcdə edərəm. Nə qədər deyirsən sənə səcdə edim amma Adəmə yox. Quran buyurmur ki, mələklər əhli şirk, Şeytan isə əhli tövhiddir. Axı Şeytan Allahdan başqasına səcdə etmədi, lakin mələklər etdi.

وَإِذْ قُلْنَا لِلْمَلَائِكَةِ اسْجُدُوا لِآدَمَ فَسَجَدُوا إِلَّا إِبْلِيسَ أَبَى وَاسْتَكْبَرَ وَكَانَ مِنَ الْكَافِرِينَ

1 - Nisa, 64

(Ya Peyğəmbər!) Biz mələklərə: "Adəmə səcdə edin! - dedikdə İblisdən başqa (hamısı) səcdə etdi. (Yalnız) o, lovğalanaraq (səcdə etməkdən) imtina etdi və kafirlərdən oldu.[1]

Quran belə buyurur: "İblis kafirdir, O, Allahın sözündən çıxdı". Düzdür burada mövzu Adəmə səcdə etmək idi, amma əmri Allah vermişdi. O mövzu idi. Bizim dediklərimizə irad bildirənlər mövzu ilə göstəriş verəni qarışdırırlar. Necəki namaz bir mövzudur və mən onu həyata keçirməliyəm, Allahın elçisinə (s) itaət etmək də mövzudur. Allahın əmrlərindən biridir. Allahın müxtəlif əmrləri vardır. Məsələn namaz qılmaq, oruc tutmaq, həccə getmək və s. bu əmrlərdən biri də Rəsulullaha itaət etməkdir. Namaz qılmaqla peyğəmbərə itaət etmək eyni səviyyədədir. Əgər sən namaz qılmasan Allahın sözündən çıxmış olursan. Çünki Allah buyurur: Namaz qıl! Əgər sən Allahın elçisinə (s) itaət etməsən Allahın sözündən çıxmış olursan. Doğrudur zahirdə peyğəmbərin sözündən çıxdın, amma əslində Allahın sözündən çıxmış sayılırsan. Çünki ona itaət əmri Allahın buyurduğu bir mövzudur. Bu üç şəxsə itaət, üç şəxsə ayrı itaət deyil, "Vahidə"- yeganə olan Allaha itaətdir. "Ətiullah"-"Allaha itaət et!" kəlamının daxilində bir çox göstərişlər vermişdir ki, bunlardan biri də budur -"Ətiurrəsul"-"Peyğəmbərə itaət et". Necə ki, namaz qılın, oruc tutun-deyə buyurur. Allah-Taalanın bir göstərişi də "peyğəmbərə itaət, əmr sahibinə itaət edin"dir. Bu Allahın göstərişidir, bu göstəriş həmin əmrin, o böyük əhatənin içindədir.

Bir ayrı misal da qeyd edək. Bir şəxs bizə rəhbər təyin olunub. Mütləq biz onun sözünə baxmalıyıq. Bu şəxs bizə özü ilə bir şəxsi gətirib deyir: Mən həmişə sizi görmədiyim üçün bu mənim sizin üzərinizdə bir nümayəndəmdir. Ona itaət edin.

Mən deyə bilmərəm ki, "bu nümayəndənin əmrlərinə itaət etmirəm, çünki bu həmin şəxsin özü deyil, vasitədir ona görə də itaət vacib deyil."Burada həqiqi əmr edən və göstəriş verən əslində nümayəndəyə itaətin vacibliyini deyən şəxsdir. Çünki

1 - Bəqərə, 34

nümayəndəyə itaət etmək elə onun özünə itaət etmək deməkdir. Hər nə qədər nümayəndə müstəqil və əsas rəhbər olmasa belə ona itaət vacibdir. Çünki onun göstərişləri əsas və mütəqil rəhbərin göstərişləri deməkdir. O, rəhbərin nümayəndəsidir. Rəhbərimizin göstərişlərindən biri də budur ki, onun nümayəndəsinə müti olaq. Yəni Allahın göstərişlərindən biri budur ki, rəsulun sözünə baxaq. O da bir vəzifədir, Allahın hökmüdür. Peyğəmbərə itaət etmək Allaha itaət eləməyin kənarında yaxud müqabilində deyil. Çünki o elə Allaha itaət etməyin tərkibindədir.

مَنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللَّ

Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur.[1]

Ayələrdə qeyd olunur ki, Allahın izni olmadan heç kimə itaət olunmaz. Həmçinin, kim peyğəmbərə itaət etsə, elə Allaha itaət etmiş sayılır. Buna görə də, asılı və müstəqil itaət növləri vardır. Asılı itaət yalnız Allah kimə itaət edin deyibsə ona müti olmaqdır. Müstəqil itaət isə yalnız Allaha itaət etməkdir.

إِنِ الْحُكْمُ إِلَّا لِلَّهِ

Hökm ancaq Allahındır.[2]

Necə ki, xəvariclər yuxarıda qeyd olunan ayəni düzgün başa düşməyib, Əli(ə) ın qarşısına çıxmışdırlar. Dedilər: Əli sən hökm verirsən bilmirsən ki, hökmü yalnız Allah verə bilər? Bunu anlamırdılar ki Allahın hökmlərindən biri də elə budur ki, Hz. Əli (ə) mühakimə edərək qərar qəbul etsin. Hz. Əli (ə) onların rəhbəri idi. Onlar elə bilirlər ki, Hz.Peyğəmbər (s) və İamamları çağırdıqda onlar müstəqil şəkildə kömək edəcəklər. Anlamırlar ki, onların yardımı Allahın iznilə olur. Elə düşünürlər ki, Allahın qapısı Hz.Peyğəmbər (s) və İmam Əlinin (ə) qapısından ayrıdır. Bu onların səhv düşüncəsidir. Düşünə bilmirlər ki, peyğəmbər Allahın əmri ilə, Allahın qapısında qapıçıdır. Özü Allahın əmri ilə hərəkər edir. Nəinki ayrı bir qapı açılır. Allah özü buyurur ki, Peyğəmbərə

1 -Nisa, 80
2 - Ənam, 57

mütləq itaət edin. Ona görə də, biz peyğəmbərin sözündən çıxsaq, əslində elə Allahın sözündən çıxmış sayılırıq. Bu ayədə üç itaət gəlib lakin həqiqətdə bir itaətdir. O da Allaha itaətdir, o birisi itaətlər asılı itaətlərdir, Allaha itaətin tərkib hissəsidir.

“Ətiu”-“itaət et!” əmrinin iki dəfə təkrarlanmasına gəlincə isə, bəziləri qeyd etdiyimiz kimi müstəqil və asılı itaətin nəzərdə tutulması ilə bunu əsaslandırıblar. Bəziləriləri isə əvvəllər qeyd etdiyimiz kimi Allah rəsulunun (s) iki vəzifəsinin olması ilə əlaqələndiriblər. Bir ehtimalda budur ki, Allah işlərini mələklərin vasitəsilə görür, yəni mələklər Allahın tədbirlərini yerinə yetirirlər. Quranda ayə var ki, mələklər tədbir tökən və idarəçidirlər. Bəzilərinin fikrincə isə Allahın gözəl adları (əsmail hüna) var. Bunlardan xaliq (yaradan), raziq(ruzi verən), rəhim (rəhm edən) və s. qeyd etmək olar. Quranda və bəzi dualarda 1001 adının olduğunu qeyd edirlər. Allah hər hansı bir işi görəndə bir ismə uyğun o işi görür. Allah insanın günahlarını bağışlayır çünki ğafir (bağışlayan)dir. Mən Allahdan istəyirəm tövbəmi qəbul etsin. Müraciət etdiyim zaman “ya xaliq” tövbəmi qəbul et, demirəm, “ya ğafir” tövbəmi qəbul et deyə müraciət edirəm. Misal olaraq deyə bilərik ki, təsəvvür edin ki, bir şəxs dörd sahədə mütəxəssisdir. Həmin şəxsə mənim evimdə mühəndisliklə əlaqədar ehtiyacım olduğu zaman, “ay həkim gəl mühəndislik işlərimi gör”-deyə müraciət etmirəm. “Ay mühəndis gəl mənim işimi həll et”-deyirəm. Amma xəstə olduğum zaman isə ona “ay həkim” deyə müraciət edərəm, çünki eyni zamanda həkimdir.

## Dərsin xülasəsi

Ululəmr məsumdurlar, deməli onlar dinin izahında da, şəriətin izahında da əsaslı mənbədir. Deməli bu mənbələri düzgün tanımaq zəruridir. Qurani-Kərim buyurur: "Əqimus səlat"-"Namaz qılın". Bu əmrin nəticəsi budur ki, mən namazla tanış olmalıyam. Namazı ilk öncə doğru şəkildə tanımalı, sonra onu qılmalıyam. Əgər ayə buyrursa "Hz.Peyğəmbərə və ululəmrə itaət edin" bu ayəyə əməl etməyin müqəddiməsi həmin şəxsləri düzgün tanımaqdır. "Ululəmri"-"Əmr sahiblərini" tanımasaq bu ayəyə itaət edə bilmərik. Buradan belə nəticə alırıq ki, insanın öz imamını tanıması hər zaman vacibdir.

İman müxtəlif dərəcələrə və nisbətlərə malikdir. Ola bilər ki, namaz mövzusunda imanı olsun lakin, orucda çətinlik çəksin. Və yaxud əksinə olsun. Bəzən insan vaxtı-vaxtında namaz qılır, oruc tutur, lakin Hz.Əlinin (ə) vilayətində imanı şəxsi hesabları ilə, tayfabazlıqla toqquşur. Diqqət etməliyik ki, imanın mövzulara nisbət dərəcləri vardır. İnsanın bəzi dini məsələlərə iman möhkəm ola bilər, bəzi mövzulara isə imanları yoxdur. Mövzular fərqli olanda da mümkündür insanın imanı bir sıra mövzularda olmasın, yaxud süst olsun.

Həmçinin, insanın imanı zaman baxımından fərqli ola da bilər. İmanın bir mövzular baxımından, iki zaman baxımından fərqli olması vardır.

İman keyfiyyət dərəcələrinə görə də müxtəlif səthlərdə ola bilər. Mümkündür ki, bir mövzuda bir insanın möhkəm etiqadı olsun. Başqa bir insan isə həmin mövzuda zəif etiqadlı ola bilər. Yəni eyni mövzuda insanlar möhkəm və zəif imana malik ola bilər. Burada zaman önəmli deyil, mühüm olan həmin məsələdə insanın daxilindəki özünüinkişaf, iradədir. İxlas baxımından, daxili mənəvi xüsusiyytlər baxımından imanın dərəcələri vardır.

## Doqquzuncu dərs

### Təbliğ ayəsi haqda araşdırma

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ وَإِنْ لَمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللَّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (Quranı) təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz![1]

Bu ayəyə Təbliğ ayəsi deyilir. Çünki, ayədə “bəlliğ”-“çatdır” sözü vardır. Bəlliğ məsdərinin kökü təbliğ sözündəndir. Ona görə bu ayə təbliğ ayəsi adlanır. Bu ayədə ilk sual budur ki, nəyi çatdırmalıdır? Çünki, burada Allah təkidlə və şiddətlə buyurur ki, hökmən bu sözümü çatdır! Deməli, Allah təala çox əhəmiyyətli bir göstəriş və yaxud mətləb buyurub ki, onu insanlara çatdırmaq bu qədər zəruridir. Hətta qeyd olunur ki, çatdırmasan, sanki peyğəmbərlik etməmisən! Quran burada nəyi insanlara bildirmək, çatdırmaq lazımdır, onu buyurmamışdır. Ümumi qeyd olunub.

Bir şeyi xüsusi ilə qeyd etmək istərdik ki, Qurani-Kərim bəzən bir mətləbi ümumi bəyanla buyurur. Ayələrdə mövzular ümumi olaraq işlənmiş, bəzən kamil olaraq açıq aydın nəyin necə olduğu buyurulmamışdır. Bəzi şeylərin elə ümumi buyurulması Qurani-Kərimin bəyan stillərindən biridir. Bu stilin məqsədi vardır. Bir məqsəd budur ki, Quran təhrifdən qorunub.

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!”[2]

---

1 - Maidə, 67
2 - Hicr, 9

Burada zikrdən məqsəd Qurani Kərimdir. Allah Quranı hifz edir, lakin möcüzəli hifz etmir. Elə deyil ki, bir şəxs Quranı dəyişmək istəsin mələk əlindən vursun və yaxud Cəhənnəmdən o şəxsin başına od düşərək onu yandırsın. Qurani Kərim möcüzə şəklində dəyişilmir. Allah Qurani-Kərimin ayələrini bir növ elə nazil etmişdir ki, heç kimdə bu ayələri dəyişmək həvəsi yaranmır.

هُوَ الَّذِي أَنْزَلَ عَلَيْكَ الْكِتَابَ مِنْهُ آيَاتٌ مُحْكَمَاتٌ هُنَّ أُمُّ الْكِتَابِ وَأُخَرُ مُتَشَابِهَاتٌ

(Ya Rəsulum!) Sənə Kitabı (Quranı) nazil edən Odur. Onun (Kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir.[1]

Quranda mütəşabih ayələr vardır.[2] Mütəşabih ayələr, yəni ayrı mənaya yozula bilən ayələr. Çünki Quranın hamısı möhkəm, konkret, aydın olsaydı digər kitablar kimi təhrif olunardı. Çox insanlar Quranın ayələrinə toxunar və dəyişərdilər. Burada isə ayəni dəyişməyə ehtiyac yoxdur, onun mənasını dəyişirlər. Mütəşəbih ayələr də bu ayələrdəndir. Bir sıra ayələr vardır ki, ümumidir. Hər hansı bir şəxs bu ayələri istədiyi kimi öz xeyrinə yoza bilər. Buradan bir sual meydana gəlir ki, onda bəs necə o ayələrin mənasını bilmək olar? Bəs elə isə biz müxtəlif formada

1 - Ali İmran, 7

2 - Mütəşabih lüğətdə iki şeyin bir-birinə bənzəməsi mənasına gələn təşabüh məsdərindən törəmiş ismi-faildir. Məfhum olaraq da nəyin qəsd olunduğu bilinməyən, izaha, təvilə ehtiyacı olan ayələr deyə tərif edə bilərik. Həkəmə sözünün kökü islah mənasındadır və müəyyən işlərin qarşısını almaq deməkdir. Möhkəm isə həm ləfzi və həm də mənəvi cəhətdən izahında heç bir şübhə, tərəddüd olmayan sözə deyilir. Quran bütövlükdə bu cəhətdən möhkəm sayılır. Möhkəm və mütaşabih terminləri əsasən Quran elmində istifadə olunur. Quranda bəzi işlər vardır ki, onları başa düşməmək ona əl çatmazlığa bərabərdir. Bu işlərdən də biri «möhkəm və mütəşabeh»dir. Möhkəm dedikdə mənası özü-özlüyündə tam aydın olan və barəsində başqa məna verilməyən ayələrə deyilir. Mütəşabih isə onun əksinə, mənası tam aydın olmayan və barəsində müxtəlif nəzərlər verilən ayələrdir. Hətta bəzən mütəşabih ayələri möhkəm ayələrlə şərh etdikdə mənaca möhkəm ayəyə çevrilir. Hər iki termin məxsusi Quran elmlərinə aiddir. Möhkəm ayələr Ummul-Quran, (Quranın anası) ünvanı ilə qələmə verilmişdir.

yozula bilən ayələrin mənasını necə əldə edə bilərik? Allah-Taala bunun yolunu buyurmuşdur. Mütəşabih ayələri anlamağın yolu budur ki, onları möhkəm ayələrlə izah etmək lazımdır. İmam Rza (ə) buyurur:

مَن رَدَّ مُتَشابِهَ القرآنِ إلى مُحكَمِهِ هُدِيَ إلى صِراطٍ مُستَقيمٍ

Möhkəm və konkret olan olan ayələr Quranın anasıdır. Mütəşabih ayələr sanki Möhkəm ayələrin övladıdır. Mütəşabeh ayələr Quran təhrif olunmaması üçün də nazil olmasını qeyd etmək olar. Bir şəxs belə ayələrin mənasını bimək istərsə, möhkəm ayələrə müraciət edərək onların yəni mütəşabih ayələrin dəqiq mənasını tapa bilər.

Bəzən insanlar öz mənafelərini harada görürsə onu axtarır və mütəşabih ayələrdən o formada istifadə edir. Əgər bir şəxs sülhə nifrət edib, həmişə döyüş axtarsa o zaman döyüş ayələrinə müraciət edir. Müharibə ayələrinə əsasən, deyir ki, Quran buyurur, döyüşün, müharibə edin. Əgər bir şəxsdə sülh axtarırsa, döyüşə nifrət edirsə, o zaman O da sülh və dostluq ayələrinə müraciət edərək, hətta döyüş ayələrinin içərisində sülh axtarır. Bu ikisi də öz fikir səliqəsi əsasında ayəni yozur. Düzdür, Quranı təhrif etmədilər, lakin fikri səliqələri ilə yozum etdilər. Amma möhkəm ayələrə müraciət etsələr, mütəşabih ayələrdə hansı şəraitdə sülh hansı şəraitdə müharibə etməyin lazım olmasını araşdırıb daha dəqiq nəticəyə gələ bilərlər. O ayələrdə hansı şəraitdə sülh, hansı şəraitdə müharibə edin buyurulursa bunları birləşdirib düzgün hədəfə çata bilərlər.

Quranda şəfaətin olmadığını deyənlər, bu ayəyə əsaslanırlar:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَنْفِقُوا مِمَّا رَزَقْنَاكُمْ مِنْ قَبْلِ أَنْ يَأْتِيَ يَوْمٌ لَا بَيْعٌ فِيهِ وَلَا خُلَّةٌ وَلَا شَفَاعَةٌ

Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin mümkün olmayacağı gün (qiyamət günü) gəlməmişdən əvvəl sizə verdiyimiz ruzidən paylayın![1]

Allahdan başqa şəfaətçinin olmayacağını iddia edənlər isə bu ayəni irəli sürürlər:

1 - Bəqərə, 254

مَا لَكُمْ مِنْ دُونِهِ مِنْ وَلِيٍّ وَلَا شَفِيعٍ

Sizin Ondan başqa heç bir haminiz və şəfaət (əzabı dəf) edəniniz yoxdur.[1]

Lakin bəzi ilahi şəxslərin Allahın icazəsi ilə şəfaət etməsinin mümkünlüyünü çatdıran bu ayəni isə unudurlar:

مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلَّا بِإِذْنِهِ

Allahın izni olmadan (qiyamətdə) Onun yanında (hüzurunda) kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər?[2]

فَأَمَّا الَّذِينَ فِي قُلُوبِهِمْ زَيْغٌ فَيَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ ابْتِغَاءَ الْفِتْنَةِ وَابْتِغَاءَ تَأْوِيلِهِ وَمَا يَعْلَمُ تَأْوِيلَهُ إِلَّا اللَّهُ وَالرَّاسِخُونَ فِي الْعِلْمِ يَقُولُونَ آمَنَّا بِهِ كُلٌّ مِنْ عِنْدِ رَبِّنَا وَمَا يَذَّكَّرُ إِلَّا أُولُو الْأَلْبَابِ

Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan (yaxud Allahdan və elmdə qüvvətli olanlardan) başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: "Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər.[3]

Quran buyurur ki, bəzi insanların ürəklərində qurd var, azma var, öz səliqələri ilə yaşamaq var, nəfspərəstlik var onlar istəyir ayələri öz xeyirlərinə yozsunlar. Lakin onlar həqiqəti tapmaq istəsələr, həmin mütəşabih ayələri möhkəm ayələrlə məna etməlidirlər.

أَلَمْ يَعْلَمْ بِأَنَّ اللَّهَ يَرَى

Məgər bilmir ki, Allah (onun bütün əməllərini) görür?![4]

Əgər Allah buyurursa sizin əməllərinizi görürəm bu zaman onlar Allahın gözü olmasına, cismi olduğuna inanırlar. Qiyamət günü Allahı görə biləcəyik-deyirlər. Onlar belə mütəşabih ayələri öz mənfəətlərinə uyğun yozurlar. Allah görür - yəni gözlə görür,

1 - Səcdə, 4
2 - Bəqərə, 255
3 - Ali İmran, 7
4 - Ələq, 14

Allahın gözü var-deyirlər. Ayədə Allahın gözünün olması yoxdur, amma onlar yanlış yozurlar. Bu Quranı öz xeyrinə yozmaqdır. Tələbə olub, Quranı öyrənmək istəyən şəxs isə başa düşür ki, düzdür Allah görür, amma başqa ayə var ki, Allahın tayı yoxdur. Allah görür lakin elə formada ki, tayı-bərabəri yoxdur, cismi yoxdur. Tayı-bərabəri olmayan bir varlıq necə bizim kimi adi gözlə görə bilər? Bu ayələri bir-birinin yanına məna etməklə insan düşünə bilər ki, onlar Quranı təkcə öz əqidələrinin sübutu üçün istifadə edirlər. Quranın ayələrindən öz düşüncələri və mənfəətləri üçün istifadə edirlər. Halbuki, biz öz dini əqidəmizi Qurandan öyrənməliyik, nəinki öz əqidəmizə qurandandan dəlil-sübut tapaq. Nəinki fikrimizi Quran ilə əsaslandıraq. Yəni bizim keçmişdən yanlış əqidələrimiz qalıb və o əqidələrimizi axtarıb, Qurandan ona istinad edək. Bu doğru deyil. Yəni qısası budur ki, Quran bəzi yerdə kəlamlarını ümumi buyurub, bunu təhrif olunmamağı üçün ehtiyat edib. İmamət ayələri də belədir. Ayələr aydın şəkildə çatdırır ki, Quran hər hansı bir sözü buyurmaq istəyirsə onu 100 faiz izah etmir. Çünki tam izahla desəydi, təhrif ehtimalı onda çox olardı.

### Ayəyə əsasən Hz. Məhəmmədin (s) insanlara mühüm bildirişi

Bizim məqsədimiz məsələni Quranda araşdırmaqdır. Hələlik hədislə işimiz yoxdur, hədis bəhsini sonra edərik. Hz. Peyğəmbərin nəyi çatdırmalı olması haqda müxtəlif nəzəriyyələr verilmişdir. Bəziləri namazı, bəziləri isə ümumiyyətlə İslam dinini, bəziləri isə həcci məqsəd kimi qeyd ediblər. Bu barədə çoxlu nəzəriyyələr vardır. Təfsirlər çoxsaylı nəzəriyyələr ilə doludur.

Bir nəzəriyyə də əsasən Peyğəmbərin (s) insanlara hökmən çatdırmalı olduğu bəyanın İmam Əlinin (ə) imamət məqamına təyin edilməsidir. Allah Taala təkid edir ki, çatdır. Çatdırmasan peyğəmbərliyini tamamlamamısan. Bu mətləbə bir sıra əlamətlər vardır:

**1- Maidə surəsi son surələrdəndir.**

Əvvəla bu Maidə surəsi axırıncı surələrdəndir. Bilirsiniz ki, Quranın nazil olma nizamı onun tərtib nizamı deyil. Məsələn bütün

surələrdən öncə Ələq surəsi, sonra Müddəssir, Müzzəmmil, İnşirah surələri nazil olublar. Və o nizamla Quran cəmlənməyib. Bəs Qurani Kərim hansı nizamla, nə vaxt cəmlənib və kim cəmləyib o geniş bir bəhsdir. Bunu izah etmək istərdik ki, hal-hazırda Quran surələri nazil olma sırasıyla tərtiblənməyib. Çünki görürsünüz ki, Bəqərə Mədinədə nazil olub lakin müqəddəs kitabımızın əvvəldə yerləşir. Ali-İmran Mədinədə nazil olub lakin o da Quranın əvvəlindədir. Qurandakı surələr nazil olma sırasıyla nizamlanmayıb. Quran alimləri buyururlar: Maidə surəsi axırıncı surələrdəndir. Bu bir əlamət.

Araşdıraq ki, bəs o çatdırılmaq nə ola bilər. Əgər Ələq surəsində olsaydı demək olardı ki, bu namazdır. Əgər Müzzəmmil, Müddəssir surəsində olsaydı yenədə elə qeyd etmək olardı. O Maidə surəsindədir. Zamanında namaz əmri çatdırılmışdı, burada təktrar tələbin mənası yox idi.

**2- Çatdırılacaq bəyan çox zəruri və mühümdir.**

Digər məsələ isə həmin bəyanı insanlara çatdırmağı çox zəruri olmasıdır. Çünki, bu peyğəmbərlik ilə bərabər olan bir şeydir. Hətta o peyəmbərliyi (ondan sonra) əvəz edir. Həmçinin, çatdırılmasa peyğəmbərlik etməmiş kimi sayılır. Görün məsələ nə qədər zəruri və əhəmiyyətlidir. O qədər mühümdir ki, Peyğəmbərin illərlə fəaliyyət etdiyi ömrünün axırına aiddir və onun peyğəmbərliyi ilə eyni dəyərdədir. Bu iki.

**3- Bu bəyanı xalqa çatdırmaq təhlükəli bir işdir.**

Bu ayələrdən belə başa düşülür ki, onun çatdırılmağı təhlükəli bir işdir. Doğurdanda bu qorxmalı bir işdir. Onun əhəmiyyəti cəmiyyətdə bir münaqişəyə, qarışıqlığa səbəb ola bilərdi. Bilinir ki, bu ayədən peyğəmbər nəsə ehtiyyat edirdi, təşvişdə idi ki, çatdırsam necə olar düşünürdü. Allah ona də görə buyurur: Ya Rəsulum sən nəbisən. Çatdır! Bəzi yerlərdə Allah Taala peyğəmbərlə öz adı ilə Muhəmməd (s) adı ilə danışır. Bir şəxs kimi. Burada isə “rəsul” ünvanı ilə müraciət edir. “Sən bir rəsulsan, elçisən, və məsuliyyətin var, çatdırmalısan!” Camaata bunu deməlisən! Allah burada “ya əyyuhal rəsul”-“ey peyğəmbər!”-

deyə buyurur. Bununla Peyğəmbərin (s) özünə də bu göstərişin əhəmiyyətini göstərir ki, qorxmasın.

İndi qeyd etmək istərdik ki ,burada qorxu deyəndə nə nəzərdə tutulur? Üçüncü məsələ budur ki, bu əhəmiyyətliliyindən əlavə təhlükəli bir məsələ idi. Camaatın içində söz söhbətə səbəb ola bilərdi. Bəs biz bu sözü haradan nəticə alırıq? Ayə buyurur: "Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz![1]".

Axı Allah hamını hidayət edir necə olur buyursun ki, Allah kafir qövmü hidayət etməz? Burada "Qövmdə hidayət" iki mənada işlənib. Bir hidayət - düz yolu göstərməkdir. Bu, nəbilərin, ənbiyanın, peyğəmbərlərin işidir. Bir başqa hidayət də var. Bu insanı öz məqsədinə aparmaq, çatmaq, yetişmək mənasındadır. Birinci mənada Allah hamını hidayət edir, düz yolu göstərmək Allah Taala üçün fərq etmir, Allah kafirə də düz yolu göstərir, möminə də düz yolu göstərir. İnsanları hidayət etmək özü də Quranın adlarındandır. Quran Hamı üçün hidayətdir, həm kafir üçün, həm mömin üçün. İkinci məna isə insanı öz məqsədinə çatdırmaqdır. Heç vaxt kafir tam məqsədinə çata bilməz. Niyə? Çünki, aləmin kamilən prossesi insanın öz əlində deyil. Allah tarixdə bir sıra qanunlar qoymuşdur ki, bunlar varlığın qanunlarıdır. Bizim bədənimizində qanunları vardır. Mənim bədənim hər yeməyi yeyə bilməz. Məsələn bir şəxsə təbiətinə uyğun olmayan hər hansı bir yeməyi versən mədəsi onu geri qaytara bilər. Varlığın da qanunları vardır. Varlıq zülmü qəbul edə bilməz. Allah bir növ aləmə nizam qoymuşdur. Tarixin mədəsində zülm müvəqqəti yerləşə bilər. Daha sonra atar. Bəlaların da mənası budur. Firon bəlaya düşür. Allah buyurur: "Biz onları həlak etdik" Fironu bir şəxs kimi həlak etməsini buyurmur. Buyurur: Biz qalanlarını da belə etdik. "Biz yer üzündə fəsad edən insanlar belə etdik".

وَأَنْجَيْنَا مُوسَى وَمَنْ مَعَهُ أَجْمَعِينَ ﴿٦٥﴾ ثُمَّ أَغْرَقْنَا الْآخَرِينَ ﴿٦٦﴾ إِنَّ فِي ذَٰلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُمْ مُؤْمِنِينَ ﴿٦٧﴾

1 - Maidə, 67

Musa və onunla birlikdə olanların hamısını xilas etdik. O biriləri (Firon tayfasını) isə suya qərq etdik. Şübhəsiz ki, bunda (Musanın bu hekayətində) bir ibrət vardır. Lakin onların (Firon tayfasının, qədim Misir əhalisinin, yaxud Məkkə müşriklərinin) əksəriyyəti iman gətirmədi.[1]

كَدَأْبِ آلِ فِرْعَوْنَ وَالَّذِينَ مِنْ قَبْلِهِمْ كَذَّبُوا بِآيَاتِ رَبِّهِمْ فَأَهْلَكْنَاهُمْ بِذُنُوبِهِمْ وَأَغْرَقْنَا آلَ فِرْعَوْنَ وَكُلٌّ كَانُوا ظَالِمِينَ

Eynilə Firon nəslinin və onlardan əvvəlkilərin hərəkətləri kimi. Onlar Rəbbinin ayələrini yalan hesab etdilər, Biz də onları günahlarına görə məhv etdik. Firon nəslini (dənizdə) batırdıq. Onların hamısı zalım idi![2]

وَإِذْ فَرَقْنَا بِكُمُ الْبَحْرَ فَأَنْجَيْنَاكُمْ وَأَغْرَقْنَا آلَ فِرْعَوْنَ وَأَنْتُمْ تَنْظُرُونَ

(Yadınıza salın ki) Biz sizdən ötrü dənizi yarıb sizə nicat verdik və Fironun adamlarını siz baxa-baxa suda qərq etdik.[3]

Allah istəyir ki, bunun tarixdə ümumi bir qanun olduğunu buyursun. Bu da bir məsələ.

### Quran, insan həyatındakı əhəmiyyətli qanunlar toplusu

Tarixi, varlığı, insan həyatına aid qanunları ilk ortaya qoyan Qurani Kərimdir. Yəni müqəddəs kitabımız qeyd edir ki, bir sıra qanunlar cəmiyyətdə sabitdir. Onların fərqi yoxdur. Məsələn: Quran buyurur: Kafirlər hidayət olunmaz. Məqsəd nədir? Yəni kafir öz hədəfinə sonadək nail ola bilməz. Axıra-can həyata keçirə bilməz. Əgər Firon istəsə ki, Musa olmasın bu həyata keçə bilməz. Axıra qədər tam həyata keçə bilməz. Hidayət burada müsbət mənada deyil. Hidayət ümumi mənadadır, yəni öz məqsədinə çatmaqdır. İnsan günah etmək istəyir. Məqsədi o günahdır. Buyurur:

1 - Şüəra, 65-67
2 - Ənfal, 54
3 - Bəqərə, 50

إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ

"Allah zalim qövmü hidayət etməz".

Bunları Allah öz məqsədlərinə çatdırmaz. Nə üçün? Çünki, aləmin nizamı haqqla dolanır. Bizim etiqadımız vardır ki, Allah "Rəbbul aləmin"dir. Allah təkcə xaliq deyil. Allah belə deyil ki, bəşəriyyəti sadəcə yaradıb, amma ardı ilə işi yoxdur. "Rəbbul aləmin". Yəni "idarə edən"dir. Əlbəttə Allahın idarə etməsi insanın məhdud ixtiyarı ilə birlikdədir. Yəni insanın ixtiyarı da bir dərəcəyə qədərdir. O bir dərəcədən çox olsa bəla, əzab nazil olar. Yəni əgər çox fəsad etsə Allah qarşısını alar ki aləmin mənəvi nizamı pozulmasın.

Bir qapı düşünək. O qapının üstünə vedrə qoyublar, vedrədə su var. Mümkündür bir şəxs qapının dəstəyini açsa başına vedrədən su tökülə bilər. Çünki qapının dəstəyi ilə vedrənin əlaqəsi vardır. Quran buyurduğuna görə aləm də belədir. Bizim günahlarımız ilə suda boğulmağımızın əlaqəsi vardır. Biz hiss etmirik. Aləmlərin Rəbbi (idarəçisi) onlara əlaqə bəxş edib. Hər bir şey insan qüdrətinə bağlı deyil. Çünki burada Allahın da iradəsi vardır. "Rəbbul-aləmin" də vardır. Quran Bədr müharibəsini izah edərkən buyurur:

إِذْ هَمَّتْ طَائِفَتَانِ مِنْكُمْ أَنْ تَفْشَلَا وَاللَّهُ وَلِيُّهُمَا وَعَلَى اللَّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ

(Ya Rəsulum!) Həqiqətən, siz Bədrdə (düşmənə nisbətən az və) zəif olduğunuz halda, Allah sizə (mələklərlə) yardım etdi. (Allaha) şükür edən olmaq üçün Allahdan qorxun![1]

Bu nə məna daşıyır? Bu o deməkdir ki, insan iradəsindən əlavə Aləmlərin Rəbbi də idarəçiliyə dəxalət edir. Züleyxa və sairləri istədilər Hz. Yusufu zindana salsınlar ki, adı sanı düşsün. Allah zalim qövmü məqsədinə çatdırmadı, onu ucaltdı.

Firon və sairləri körpə Musanı öldürmək məqsədilə yeni doğulan uşaqları öldürdülər. Bəni İsraildən nə qədər körpə uşaq varidisə, çoxunu öldürdülər. Amma Allah Musanı onların öz evində böyütdü.

---

1 - Bəqərə, 122

وَقَالَتِ امْرَأَتُ فِرْعَوْنَ قُرَّتُ عَيْنٍ لِي وَلَكَ لَا تَقْتُلُوهُ عَسَى أَنْ يَنْفَعَنَا أَوْ نَتَّخِذَهُ وَلَدًا وَهُمْ لَا يَشْعُرُونَ

Fironun qadını (Asiyə) dedi: "Bu uşaq mənim də, sənin də göz bəbəyimiz (gözaydınlığımız, gözümüzə sevinc olsun). Onu öldürməyin. Ola bilsin ki, (o böyüyəndə) bizə bir fayda verər, yaxud da onu oğulluğa götürərik!" Onlar (işin nə yerdə olduğunu, bu uşağın əlində həlak olacaqlarını) bilmirdilər.[1]

Allah hər bir işə qadirdir. Aləmdə insana məhdud və müvəqqəti ixtiyar verilib. İnsanın tam ixtiyarı yoxdur. Məhdud və müvəqqəti ixtiyarı var. Bu ixtiyar müəyyən həddə qədərdir. İnsan sonsuza qədər zülm edə bilməz. Həddini aşdıqda əzab və bəla nazil olar. Çünki, Aləmlərin Rəbbi Allah-təala buna yol verməz.

Bu tarixdə də göstərilir. Məsələn Quranın bir sıra hekayələri insana ancaq bunu başa salır ki, hər şey sənin əlində deyil. Bunu izah edir ki,"Mən istəsəm əlindən alaram". Çox vaxtlar Allah Taala istəmir ki, insanı məhdudiyyətlərə salsın. Bəzən istəyir ki, insan dünya həyatında özü yaşasın, ixtiyarı olsun. Sanki mədəmiz kimi. Mədəmiz bir az zəhərli yeməyi özündə saxlayır. Daha çox zəhərli olsa anında qaytarar. Aləmin nizam-intizamı eynidir. Bu bəhsin davamı var. İnşallah sonrakı bəhslərdə, tarix bəhslərində yenə bu mövzuya qayıdacağıq.

"Allah zalim qövmü hidayət etməz". Buyurur ki, "qorxma de! Allah səni insanlardan qoruyacaq." Çünki, Allahın bu aləmdə qanunu vardır. Allah zalim qövmü hidayət etməz. Batil sona yetişməz, uğura və məqsədə çatmaz. Batil əsasında qurulan hər hansı bir iş axıra çatmaz. Bismillahla başlanmayan işinyarım qalacağı o mənaya işarədir. Təkcə bismillah deməsi əsas deyil.

Ayəyə əsasən, Hz.Peyğəmbərin (s) çatdırmalı olduğu iş üç sifətə malikdir.

1- Peyğəmbərin həyatının sonuna aiddir.

2- Mühüm bir məsələdir.

3- Təhlükəli bir işdir.

1 - Qəsəs, 9

Təhlükəli dedikdə burada insanların təşvişə düşməyindən narahat idi. Çünki kafirlər Hz.Peyğəmbərin (s) çatdırmalı olduğu bu bildiriş və bəyan ilə insanlar arasında təşviş yaratmağa çalışırdılar. İndi görək bu nədir? Qeyd etdiyimiz şəxslərin yürütdükləri nəzəriyyələrin heç biri üç xüsusiyyətə uyğun dgəlmir. Bu namaz ola bilməz. Peyğəmbərin ömrünün sonuna aiddirsə namazda hansı təhlükə ola bilər? Və ya Tövhid olarsa. Bütün üsuliddin və furuiddin bu üç xüsusiyyətə uyğun deyil. Bunların nə təhlükəsi yoxdur, nə əhəmiyyəti o qədər deyil ki peyğəmbərliyini sual altına almış olsun, nə də peyğəmbərin ömrünün axırına aid deyildir. Tövhiddir? Xeyr. Çünki tövhidi peyğəmbər İslam dini ilk gələndə buyurdu ki, “la ilahə illallah” desinlər. Özü də heç qorxmadan. Burada isə peyğəmbər ehtiyat edirdi. Bəs peyğəmbər Allahın tələb etdiyi bildirişi və bəyanı çatdırdı ya çatdırmadı? Sözsüz ki, Hz. Peyğəmbər (s) əmindir və çatdırmalıdır. Bəs çatdırmayıb? Bəlkə peyğəmbər çatdırmayıb ona görə bilməyiblər? Və ya çatdırıb bizim bilməyimizi istəmirlər?

Görək nəyi çatdıracaqdı? Hələki hədisə baxmırıq. Lakin hədisdə nəyi çatdırmalı olduğu var. 50 hədis, təfsir kitabına ədsdən Əhli Sünnət bu ayənin Qədir-Xumda nazil olmasını qeyd edir. Bu fakt 50 təfsir və hədis kitabında vardır. Mərhum Əllamə Əmini bu ayənin təfsirində Təfsiri Qədir kitabında o 50 kitabın adını qeyd etmişdir. Yalnız Qədir-Xum hadisəsinə aid olan kitabları. Qədir-Xum məsələsində çoxlu bəhslər vardır ki, onlar bir-birindən ayrıdır. Bir Qədir-Xum hədisi vardır “Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır”. Bu ayrı bir bəhsdir və onu ayrıca araşdırmaq lazımdır. Bir də yuxarıda qeyd etdiyimiz Təbliğ ayəsi vardır. Başqa ayələr də vardır ki, onların hamısı birlikdə Qədirin mahiyyətini təşkil edir. Bunlar ayrı-ayrı bəhslərdir. Biz hələ o sahəni izah etmək istəmirik. Sırf məsələni Qurani Kərimlə izah etmək istərdik.

### Bildirişin elan edilməsi qarşısındakı təhlükələr

Mərhum Əllamə Təbətəbai Əl Mizan təfsirində bu barədə buyurur. Əvvəlcə gəlin müvəqqəti olsa da qeyd etdiyimiz

nəzəriyyələri bir kənara qoyaq. Qurani Kərimin özünə müraciət edək. Quran peyğəmbərin ömrünün sonuna görə nələri təhlükə görürdü? Mühüm olan nə idi ki, əgər çatdırılmasaydı risalət aradan gedərdi. Buna görə də buyurur ki, mütləq çatdırmalısan. Əllamə "Əl-Mizan" təfsirində bir sıra hədislər gətirir, Qurandan ayələr gətirir ki, İslam zühur edərkən bəzilərinin ilk məqsədi onun zahir olmasının qabağını almaq idi. Məqsəd İslam dini üzə çıxmasın deyə idi. İslam dini aşkar oldu. Sonra çalışdılar ki, İslam elə Məkkədə qalsın. Ona görə Həbəşistana hicrət onları narahat etdi. Sual oluna bilərki onlar, nədən narahat idilər? Çünki, məqsədləri ilə uyğun gəlmirdi ki, İslam genişlənsin. Bunlar İslamın zühuruna qüdrətləri çatmadı ki, onun genişlənməyinə mane olsunlar. Zühura müxtəlif maneələr yaratdılar. Bu maneələrdən biridə, insanların Peyğəmbərlə çox təmasda olmasının qarşısını almaq idi. Ona görə də Peyğəmbəri şərlədilər. Dedilər: O, sehrbazdır, şairdir, dəlidir. İxtilaf yaradıb, bizi ata-baba dinimizdən çıxarmağa çalışır.

وَيَقُولُونَ أَئِنَّا لَتَارِكُو آلِهَتِنَا لِشَاعِرٍ مَجْنُونٍ

Və: Biz heç divanə bir şairdən ötrü tanrılarımızı tərk edərikmi?!" - deyirdilər.[1]

وَعَجِبُوا أَنْ جَاءَهُمْ مُنْذِرٌ مِنْهُمْ وَقَالَ الْكَافِرُونَ هَذَا سَاحِرٌ كَذَّابٌ

Onlar öz içərilərindən özlərinə (Allahın əzabı ilə) qorxudan bir peyğəmbər gəlməsinə təəccüb etdilər və kafirlər belə dedilər: "Bu, yalançı bir sehrbazdır![2]

Bu sözlərin hamısında məqsəd, İslamın aşkar olmamasına çalışdıqları üçün idi. Və yaxud Quranı şərlədilər ki insanlar ondan uzaq qalsınlar. Əfsanədir, keçmiş əfsanələrin tayıdır-dedilər.

وَمِنْهُمْ مَنْ يَسْتَمِعُ إِلَيْكَ وَجَعَلْنَا عَلَى قُلُوبِهِمْ أَكِنَّةً أَنْ يَفْقَهُوهُ وَفِي آذَانِهِمْ وَقْرًا وَإِنْ يَرَوْا كُلَّ آيَةٍ لَا يُؤْمِنُوا بِهَا حَتَّى إِذَا جَاءُوكَ يُجَادِلُونَكَ يَقُولُ الَّذِينَ كَفَرُوا إِنْ هَذَا إِلَّا أَسَاطِيرُ الْأَوَّلِينَ

(Müşriklərin) içərisində səni dinləyənlər də vardır. Lakin (müsəlmanlara qarşı düşmən hərəkətlərinə görə) onu (Quranı) başa

1 - Saffat, 36
2 - Sad, 4

düşməsinlər deyə, onların ürəklərinə pərdə çəkdik, qulaqlarına da karlıq (ağırlıq) verdik. Onlar hər hansı bir möcüzə görsələr, yenə də ona inanmazlar. Hətta yanına gəldikdə səninlə höcətləşərlər. Kafir olanlar isə: ”Bu, qədimlərin əfsanələrindən (nağıllardan) başqa bir şey deyildir!, - deyərlər.[1]

Bunlar mövhumatdır, uydurmadır-dedilər. İnsanlar Qurana yaxınlaşmasın deyə, Məkkəyə daxil olanların qulağına pambıq qoyurdular ki, sehrbaz sizə sehr etməsin. Düzdür peyğəmbərin Məkkədə dərdi bundan da dərin idi. Məsələn Əbu Ləhəbi öz işləri üçün istismar etmişdilər. Dedilər əmisi deyirki O, dəlidir. Kimsə Məkkəyə girəndə əvvəlcədən onun dəli olmasını əmisinin dili ilə gələnlərə çatdırıdılar. Əbu Ləhəb deyirdi ki, biz müalicəylə məşğuluq. Quranda çox az halda kiminsə adı çəkilib. Amma Əbu Ləhəbin adı lənətlə verilir. Quranda kafirlərin heç birinin adı yox-dur. Təfsirdə var ki, məsələn bu filankəsdir. Amma Quranda birbaşa onun adının lənətlə verilməsi onun təhlüksinin dəhşətini göstərir. İslamın zühurunda bundan böyük maneə yoxdur. Bu qeyd etdiklərimiz islamın yaranış məsələsi idi. Sonra isə yayılma məsələsində də Peyğəmbəri (s) Həbəşistana hicrətdən qaytarmağı planlaşdırdılar və s. Lakin bu maneələrə baxmayaraq İslam yarandı və yayıldı.

İndi isə islamın davam etməsi məsələsinə diqqət edək. İnsan bir növ bir iş görür lakin şeytan vəsvəsə verir ki, bu baş tutmadı bəlkə başqa biri baş tutar. Din davam edəcək ya yox? Bunların məqsədləri bu idi ki, din davam etməsin. Bunlar inanmırdılar ki, Məhəmməd (s) peyğəmbərdir. Onların həqiqi baxışları bu idi, bu şəxs səltənətpərəstdir. O, hakimiyyəti sevir. Özləri kimi fikirləşirdilər. Deyirdilər O, sultandır, şahdır. Bu təhlillə qeyd edirdilər ki, da-vamçısıda öz oğlu olacaqdır. İnsanın oğlu olmasa davamı da yox-dur. Düzdür İslam dini baş tutmasının qarşısını ala bilmədik, lakin aradan getməsi üçün çalışmalıyıq. Onsuzda davam etməyəcək. Çünki, O, əbtərdir. Bu söz, Kövsər surəsində buyurulub. Bu söz

---

1 - Ənam, 25

təkcə tənə deyil, həmdə kafirlərin özlərinin arzuları idi. Özlərinin təhlilləri belə idi. Təkcə əxlaqi çatışmamazlıq deyil ki, tənə vursunlar. Bu tənədən üstün söz idi. İstəyirdilər camaata öz təhlillərini desinlər ki, İslam davam etməyəcək. Qurandan aydın olur ki, əhli kitabda və kafirlərdə belə bir həvəs var idi. Quranda ayədə buyurur ki, onların arzuları budur ki, sizi təzədən cahiliyyət dövrünə, keçmiş yaşayışınıza qaytarsınlar.

وَدُّوا لَوْ تَكْفُرُونَ كَمَا كَفَرُوا فَتَكُونُونَ سَوَاءً

Onlar özləri kafir olduqları kimi, sizin də kafir olub özlərilə bərabər olmanızı istərlər.[1]

Onların arzuları və təhlilləri var idi ki, bir gün müsəlman olan insanlar həmin İslamdan qayıtsınlar yenidən cahiliyyət dövrünə gəlsinlər. Qurani Kərimdə buda qeyd olunur ki, bu həvəs və arzuları elə onların sonuncu arzuları idi. Bir növ Rəsulullahın ölümünü gözləyirdilər. Və Rəsulullahın ölümünü elə dinin ölümü kimi məna edirdilər. Uhudda qaçanların bəziləri də o təhlilin təsiri altında idilər. Fikirləşirdilər Allahın rəsulu (s) öldüsə, din də öldü, elə isə gəlin qaçaq və Əbu Süfyanla təzədən dost olaq. Quran buyurur ki, Hz.Məhəmməd (s) də başqa peyğəmbərlər kimi öləcəkdir.

إِنَّكَ مَيِّتٌ وَإِنَّهُمْ مَيِّتُونَ

(Ya Peyğəmbər!) Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər![2]

Onların təhlilində bu idi ki, şəxs getdi və bu din o insana, şəxsə bağlı olduğu üçün sona çatacaq. Onlar, bir az dözək O, öləndən sonra işlər qaydasına düşəcək deyirdilər.

## Dərsin xülasəsi

Qurani Kərim bəzən bir mətləbi ümumi bəyanla buyurur. Ayələrdə mövzular ümumi olaraq işlənmiş, bəzən kamil olaraq açıq aydın nəyin necə olduğu buyurulmamışdır. Bəzi şeylərin elə

1 - Nisa, 89
2 - Zumər, 30

ümumi buyurulması Qurani Kərimin bəyan stillərindən biridir. Quranda mütəşabih ayələr vardır. Mütəşabih ayələr, yəni ayrı mənaya yozula bilən ayələr. Çünki Quranın hamısı möhkəm, konkret, aydın olsaydı digər kitablar kimi təhrif olunardı. Çox insanlar Quranın ayələrinə toxunar və dəyişərdilər. Burada isə ayəni dəyişməyə ehtiyac yoxdur, onun mənasını dəyişirlər. Mütəşəbih ayələr də bu ayələrdəndir. Bir sıra ayələr vardır ki, ümumidir. Hər hansı bir şəxs bu ayələri istədiyi kimi öz xeyrinə yoza bilər. Buradan bir sual meydana gəlir ki, onda bəs necə o ayələrin mənasını bilmək olar? Möhkəm və konkret olan olan ayələr Quranın anasıdır. Mütəşabih ayələr sanki Möhkəm ayələrin övladıdır. Mütəşabeh ayələr Quran təhrif olunmaması üçün də nazil olmasını qeyd etmək olar. Bir şəxs belə ayələrin mənasını bimək istərsə, möhkəm ayələrə müraciət edərək onların yəni mütəşabih ayələrin dəqiq mənasını tapa bilər.

Peyğəmbərin (s) insanlara hökmən çatdırmalı olduğu bəyanın İmam Əlinin (ə) imamət məqamına təyin edilməsidir. Allah-Taala təkid edir ki, çatdır. Çatdırmasan peyğəmbərliyini tamamlamamısan. Bu mətləbə bir sıra əlamətlər vardır:

1- Maidə surəsi son surələrdəndir.

2- Çatdırılacaq bəyan çox zəruri və mühümdir.

3- Bu bəyanı xalqa çatdırmaq təhlükəli bir işdir.

Ayəyə əsasən, Hz.Peyğəmbərin (s) çatdırmalı olduğu iş üç sifətə malikdir.

1- Peyğəmbərin həyatının sonuna aiddir.

2- Mühüm bir məsələdir.

3- Təhlükəli bir işdir.

Quran peyğəmbərin ömrünün sonuna görə nələri təhlükə görürdü? Mühüm olan nə idi ki, əgər çatdırılmasaydı risalət aradan gedərdi. Buna görə də buyurur ki, mütləq çatdırmalısan. İslam zühur edərkən bəzilərinin ilk məqsədi onun zahir olmasının qabağını almaq idi. Məqsəd İslam dini üzə çıxmasın deyə idi. İslam dini aşkar oldu. Sonra çalışdılar ki, İslam elə Məkkədə qalsın. Ona görə Həbəşistana hicrət onları narahat etdi. Sual oluna bilərki onlar,

nədən narahat idilər? Çünki, məqsədləri ilə uyğun gəlmirdi ki, İslam genişlənsin. Bunlar İslamın zühuruna qüdrətləri çatmadı ki, onun genişlənməyinə mane olsunlar. Onların arzuları və təhlilləri var idi ki, bir gün müsəlman olan insanlar həmin İslamdan qayıtsınlar yenidən cahiliyyət dövrünə gəlsinlər. Qurani Kərimdə buda qeyd olunur ki, bu həvəs və arzuları elə onların sonuncu arzuları idi. Bir növ Rəsulullahın ölümünü gözləyirdilər. Və Rəsulullahın ölümünü elə dinin ölümü kimi məna edirdilər. Uhudda qaçanların bəziləri də o təhlilin təsiri altında idilər. Fikirləşirdilər Allahın rəsulu (s) öldüsə, din də öldü, elə isə gəlin qaçaq və Əbu Süfyanla təzədən dost olaq. Qayıdaq həmin cahiliyyət dövrünə.

## Onuncu dərs

### Dinin təkmilləşməsi

الْيَوْمَ يَئِسَ الَّذِينَ كَفَرُوا مِنْ دِينِكُمْ فَلَا تَخْشَوْهُمْ وَاخْشَوْنِ الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الْإِسْلَامَ دِينًا

Bu gün kafirlər dininizdən (onu məhv edə bilmədikləri üçün) əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun! Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi (imamlıq məqamını) tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim.[1]

İslam dini istəyir ki, insanı şəxsə bağlılıqdan çıxarsın, ünvana bağlı etsin. Qeyd etsin ki, İslam dini şəxsə bağlı deyil. Bir sıra kamil insanlar vardır ki, onlar dini qoruyan və dinin rəhbərləridir. Dini qoruyan və dinin rəhbəri təkcə Allahın elçisi (s) deyil. Təkcə Hz.Məhəmməd (s) Allahın vəlisi deyil. Qiyamət gününə qədər bir sıra insanlar vəli olacaqlar. Allahın yer üzündəki vəli və rəhbərləri bir şəxsdə məhdudlaşmır. Buna görə də, bir şəxsin vəfat eməyi ilə bu məsələ bitmir. Elə buna görə də ayədə buyurulur: Ey iman gətirənlər! Allaha, **Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!**

Allahın Peyğəmbəri (s) buyurur:«Mən kimin mövlasıyamsa (rəhbəriyəmsə), Əli də onun mövlasıdır.»[2] Bu itaəti bir şəxsə məhdudlaşdırmaqdan çıxarmaqdır. Peyğəmbərimiz (s) bu bəyanla təkcə namazı, orucu və s. İmam Əliyə (ə) tapşırmayıb. Bu olduqca əhəmiyyətli bir vəzifədirdir. Allah-Taala bütün vilayəti ona tapşırıb. Allahın rəsulu (s) bütün İslamı necə özünə bağlamışdırsa, yəni din tam şəkildə ona necə bağlı idisə, indidə şəxsilikdən çıxarıb Hz.Əliyə (ə) aid edir.

---

1 - Maidə, 3
2 -Tarixi-Dəməşq, Hz. Əlinin (ə) tərcümeyi halı, c.1, səh.366, hədis 461

Qurani-Kərimdə nazil olan ayə də elə bunu deməк istəyir. Adətən biz ikinci hissəni oxuyuruq lakin ondan qabaqda nə buyurulduğuna diqqət etmirik.

الْيَوْمَ يَئِسَ الَّذِينَ كَفَرُوا مِنْ دِينِكُمْ

Bu gün kafirlər dininizdən (onu məhv edə bilmədikləri üçün) əllərini üzdülər.[1]

Yəni bu günə qədər ümidləri var idi, bu gündən sonra isə ümidləri kəsildi. Allah burada vida məsələsinə də işarə edib. “məyus oldular”. Yəni Peyğəmbərin vidalaşması kiminsə qəlbində islamın zəifləməsinə ümid yaratmışdısa, o ümid, Hz. Əlinin imam seçilməsi və ona itaətinin eyni Allahın elçisinə (s) itaətlə bir olması ilə onları məyus etdi. Burada Ululəmrin-Əmr sahiblərinin kim olmasını hələ araşdırmırıq əslində. Amma hər kim olsa məsum olmalıdır, bu haqda danışdıq. Qurani-Kərimdə bu məsələyə baxış bundan ibarətdir ki, peyğəmbər İslamın vilayətini şəxsilikdən çıxarsın. Bir müəyyən formada nizamlasın və şəxsilikdən çıxsın. Bu şəxs kim olursa olsun.

Yaxşı, nə üçün bu məsələ təhlükəli idi? Nəzərimiz bu ayə haqqında idi, Təbliğ ayəsi haqqında. Təbliğ ayəsindən bir neçə məqam qeyd etdik. Bu iş o qədər mühümdür ki, Allah öz Rəsuluna əmr edir “çatdır”! Burada hətta çatdırılmalı məsələnin peyğəmbərlik qədər mühim olduğu vurğulanır. Buyurur ki, mühümlüyündən əlavə, həmdə təhlükəlidir. Təhlükəliliyindən əlavə isə həmdə Hz.Peyğəmbərin (s) ömrünün sonuna aiddir. Çünki, Allah bu ayələri Maidə surəsində nazil edib və Maidə surəsi də axırıncı surələrdəndir.

Araşdırdıq ki, qeyd olunan təfsirlərdə, Əhli sünnət kitablarında çatdırılması məsələnin tövhidə yaxud namaza aid olması qeyd olunur. Bir halda ki, onların nəzəriyyələrinin heç biri bu 3 xüsusiyyət ilə düz gəlmir.

---

1 - Maidə, 3

## Quranın "siyaqı"

"Quranın siyaqı", siyaq bir termindir. Siyaq, yəni axın. Siyaq, yəni gedişat. Sözün gedişatı. İnsan bir nəfərin sözünün gedişatından düşünə bilər ki, nəsə bunun filan şeydən xoşu gəlmir. Mümkündür açıq-aydın deməsin, lakin sözünün gedişatından, sözü necə başlayır, necə bitirir, nə formada cümlələr qurur buna siyaq deyirlər. Quran təfsirində siyaqın mühim rolu vardır. Əllamə Təbatəbainin təfsirində Əl Mizanda Siyaqdan 40 faiz istifadə olunub. Buyurur: O siyaq göstərir. Hətta nəzəriyyələri tənqid edəndə bu nəzəriyyə bu ayəyə, bu təfsir bu ayəyə uyğun olmadığını siyaqla, sözün gedişatı ilə münasib olmadığını əsas gətirərək qeyd edir.Tənqid edəndə belə tənqid edir: Çünki, bu siyaqla (sözün gedişatı ilə) uyğun gəlmir. Siyaqın Quranın ayələrində mühüm rolu vardır. Hətta siyaq məhkəmələrdə də istifadə olunur. Sənəd, müqavilə və s. kimi şeylərdə iki şəxs ixtilaf edirsə, siyaqsan istifadə olunur. Məsələn bu müqavilədə filan şeydən belə düşünülür, o isə belə olduğunu qəbul etmir. Əvvəlinin belə, sonunun isə ayrı cür yazıldığı deyilir. Sən deyən olsaydı, belə başlayardı və belə qurtarardı - deyirlər. Yuxarıda misallarla izah edilənlərə siyaq deyirlir. Təkcə Quranda deyil yazı işlərində, araşdırmalarda, sözlərin araşdırılmasında, sənədlərin araşdırılmasında, sadalanın bu kimi işlərin hamısında siyaqın mühim rolu vardır. Əllamə Təbatəbai Quranda da eyni ilə belə işlədib. Buyurur: Allah bizimlə bizim dilimizdə danışır. Qurani Kərim tapmaca deyil. Quran buyurur: Biz ayələrimizi ərəb dilində nazil etmişik ki, siz düşünəsiniz. Tapmaca deyilməyib ki, biz onu düşünməyək.

وَلَقَدْ يَسَّرْنَا الْقُرْآنَ لِلذِّكْرِ فَهَلْ مِنْ مُدَّكِرٍ

And olsun ki, Biz Quranı (ondan) ibrət almaq (öyüd-nəsihət qəbul etmək) üçün belə asanlaşdırdıq. Amma heç bir ibrət alan (öyüd-nəsihət qəbul edən) varmı?![1]

Buyurur ki, Quranı asanlaşdırmışıq ki, siz onu xatırladasınız, fikirləşəsiniz. Çünki, Quran insan diliylə danışılıb, dialoq

---

1 - Qəmər, 17 və 32

formasında danışılıb, ona görə ki biz özümüz də sənədlərimizdə, yazılarımızda siyaqdan istifadə edirik. Quranda da siyaqdan istifadə olunub. Bu da açardır və bundan ayrı ayələrdə də istifadə olunub. Bizim, bu ayə haqqında buyurulan nəzəriyyələrin təfsirlərində yazılanlara bütün cavabımız budur: Ortaya atılan digər ehtimallar siyaqla düz deyildir. Bir-bir nəzəriyyələri qeyd etmək istəmirik. Hamısının bir cavabı budur ki, siyaqla düz deyil. Yəni tovhid, namaz və sair nəzəriyyələr ki, qeyd olunub, siyaqla düz gəlmir. Siyaqla aydın olur ki, çatdırılacaq bəyan mühim işdir, peyğəmbərin ömrünün axırının işidir, təhlükəli bir işdir.

Bir az da hədis əsasında o iki ayəni araşdıraq. Sual olunur ki, niyə "Qədir-Xum" oldu? Ona cavab verək. Buyurulur: Bu ayənin "Qədir-Xum" günü nazil olmasını 50 ədəd təfsirdə və hədis kitablarında Əhli Sünnətin alimləri yazmışdır. Bu ayə "Qədir Xum" günü nazil olub. Adətən "Qədir" cərəyanını heç bir alim inkar edə bilməz. Alimlər yalnız Qədir cərəyanını caydırıcı şəkildə yoza bilərlər. Yəni yozmaq budur ki, mənasını dəyişsinlər. Desinlər ki, mövla ayrı mənadadır. "Mən kimin mövlasıyam Əli də onun mövlasıdır". Orada dost mənasındadır, rəhbər mənasında deyil, vəli mənasında deyil. Bu cür etmək olar. Yenə də gərək onu araşdırsınlar. Bir nəfərin kökdən bu məsələni inkar etməsi heç bir məntiqə uyğun deyil. Bu ayə haqqında əhli-sünnətdə 50 təfsir yazılmışdır ki, bunlar "Qədir-Xum" haqqındadır. Qədir-Xumun cərəyanında bir neçə bəhslər vardır. Biz ümumi şəkildə o bəhsləri qeyd edirik. Sonralar başqa mövzularda geniş izah edəcəyik.

**Birinci bəhs:** Birinci bəhsimiz budur ki, Qədir-Xum Quran ayələrində necə qeyd edilib? Bu haqda sonralar geniş danışacağıq. İkincisi isə Qədir hədislərdə qeyd edilib?

## Qədir-Xum hədislərdə

Bir şəxs Qədr haqqında olan ayələri başqa cür təfsir edə lakin hədislər ayrıdır. Əhli sünnətin 360 hədis kitabında Qədir hədisi qeyd olunub. Əllamə Əmini müasir alimlərdən idi. Bizim muasirimiz olub. Təbrizli bir alimdir. Nəcəfdə dərs almışdı,

Nəcəfdə yaşayırdı və məzarıda də Nəcəfdədir. Nəcəfdə kitabxanası var idi. Həmən kitabxana 40 min nəfərlik mütaliə üçün nəzərdə tutulmuşdu. O, Əhli Beyt (ə) aşiqi idi, imam Əlinin adını eşitsəydi ağlayardı. Əl-Qədir kitabı da məhz Qədir Xum haqqındadır. Əl-Qədir kitabı 11 cilddən ibarətdir. Bu kitabı yazarkən müəllif əhli-sünnət kitablarını araşdırmışdı. Hətta bu kitabları araşdırmaq üçün Hindistana, Pakistana, müxtəlif ölkələrə gedərək bir neçə gün də orada qalardı. Məsələn bir kitabxanada gecədən səhərə qədər, hətta bir gün qalmışdır. Bir gün kitabxanaçı vaxtın qutardığını mədəni bir şəkildə demək istədi. Kitabxanaçı ona vaxt qutarıb mən gedirəm, deyə səsləndi. Əllamə belə cavab verdi: eybi yoxdur, siz gedə bilərsiz. Kitabxanaçı dedi: Axı buranı bağlayıb gedirəm. Dedi: Eybi yoxdur bağlayın. Dedi: Burada heç nə yoxdur, bağlasam içəridə qalacaqsan, bir də səhər gələcəyəm. Dedi: Eybi yoxdur. Mənim vaxtım azdır, mən burada çox qala bilmərəm. Gecədən səhərə qədər mən burda qalıram, səhər gələrsən açarsan, mən çıxaram. Bu gecə səhərə qədər orada nüsxə, üzünü köçürmə ilə məşğul oldu. Bəzi kitabxanalarda əlyazmaları vermirlər, gərək onları özün yazasan. O, üzünü köçürdüyü kitablara əsasən, orada 360 hədis kitabında Qədir hədisinin qeyd olunmasını yazır. Həmin 360 kitabın adını, səhifəsini və sətrini “Əl-Qədir” kitabının əvvəlində yazmışdır. Təkcə adını, səhifəsini, sətrini yox, hədisin özünü də, onun nəql olunma sənədinə qədər qeyd etmişdir. Axı sənədlər müxtəlifdir.

Hədislərin sənədi haqqında bir az izahat etmək istərdik. Bəzən Peyğəmbər bir kəlamı buyurub lakin bir dənə sənədi yoxdur. Amma Qədir-Xumda Peyğəmbərin buyurduğu kəlamı eşidənlərin sayı kifayət qədər çox idi . Tarixdə onların sayı 100 min nəfərdir. Bəziləri onların, 110 min nəfər olduğunu qeyd edir. Heç bir tarixdə 90 mindən aşağı yazılmayıb. Bunlar hədisi qeyd edib, nəql etməli idilər. Hamısı da olmasa da, ən azı bir hissəsi qeyd edib, nəql etməliydi. Bunlar qeyd edəndən sonra ikinci nəsil bunlardan eşidib. İkinci nəsil ayrı şəxslər idi. İkinci nəsil gedəndə, onu qeyd edəcək üçüncü nəsil gəlir. O vaxta qədər ki, kitablar yazılır. Hədis şifahi

şəkildən, kitabça şəklinə, sonra kitab şəklinə gəlir. Bilirsiniz ki, hədisi imamlar buyurduqları ilk vaxtlar bəzi tələbələr o hədisi kitabçalarda yazırdılar. Buna görə özlərinin bir ayrı kitabçaları olurdu və ora hədisi yazırdılar. İmam Sadiq (ə) buyurur, İmam Baqir (ə) buyurur və s. Bu kitabçaların xüsusiyyəti bu idi ki hədis yazılardı. Lakin nizam-intizamlı şəkildə deyldi. Tələbələr imamdan eşitdikləri qeydləri yazmışdılar. Əsas kitabçalar olmuşdu sonra alimlər o kitabçalardan hədis məcmuələri yazdılar. Usuli-Kafi o kitabça əsasında yazılmışdır. Digər hədis kitablar da o kitabçalar əsasında yazılmışdır. O zaman həmin kitabçalar olduğu üçün hədis kitablarını onların vasitəsi ilə yazırdılar. İndi isə onlar bizim əlimizdə yoxdur. O zamankı alimlər hədis məcmuələrini belə yazırdılar. O alimlər yazırdılar və sənəd olaraq həmin kitabçaları göstərirdilər. Zurarə İmam Sadiqin tələbəsi idi. O öləndən sonra əslini başqası üzündən köçürmüşdür. Onun tələbəsi, onun yaxını o zaman ikinci nəslə və oradanda bizə yetişmişdir. Onun kitablarından yazılanların yazılma ünvanları barəsində sənədi vardır. Bir hədisin müxtəlif sənədi olması mümkündür. Necə ki, araşdırmada Əllamə Əmini tapmışdır ki, peyğəmbərdən Qədir-Xumu nəql edən 110 nəfər səhabə olmuşdur. İndiki zamanda hədis kitablarında həmən 110 səhabənin adı var ki, onlar Qədir Xum hədisini nəql etmişlər. Yəni o zaman daha çox idi. İndi isə hədis məcmuələrində 360 səhabədən 110 nu qalmışdır. Əllamə Əmini bu 360 hədisi öz kitabında sənədi ilə yazmışdır. Mümkündür filan kitabda Əbuzərdən nəql oluna. Əbuzər nəql edib ki, peyğəmbər belə buyurdu. Burada Əbuzərdən nəql olunub, orada Salmandan nəql olunub, başqa bir yerdə Əmmardan nəql olunub. Bütün bunları və hədisin sənədini də dəqiq şəkildə yazıb. Təkcə Əbuzəri yox. Bu birinci nəsildir. Əbuzərə itinadla 5 nəfərin nəql etməsi də mümkündür. Hətta onları da yazıb. Yəni Əbuzərdən nəql edən ikinci nəsil filankəsdir və filankəsdir. O filan kitabdadır, bu da filan kitabda. Yəni hal hazırda əhli-sünnə məcmuələrindən gördüyümüz 110 səhabədən nəql olunan Qədir hədisini həmin kitab vasitəsi ilə əldə edirik. Qədir hədisini nəql edən səhabələrin adlarını da həmin

kitabda bir-bir dəqiq şəkildə qeyd etmişdir. Qədir hədisində olan bir məsələdə budur. Qədir hədisindən başqa heç bir hədis İslam tarixində Peyğəmbərdən 110 səhabə tərəindən nəql etməyib. Bu hədisi 110 səhabə nəql edib. Əgər ravilərin çoxluğu ilə müqayisə etsək Qədir hədisi bütün hədislərdən öndədir. Bu da bir məsələ.

## Qədir-Xum əhli-sünnə mənbələrində

Əhli-sünnənin özlərinin sənədlər əsasında düşünən alimləri Qədir hədisinə aid müstəqil kitab yazmışdırlar. Məsələn Təbəri. Təbəri əhli-sünnədəndir. Onun "Hədisul Vilayə" adlı bir kitabı vardır. Müqəddiməsində yazılıb: Mən gördüm ki, Qədir Xum hədisini özbaşına bir sıra savadsız insanlar inkar edirlər. Onlar, din mənbələri, hədis mənbələri ilə tanış deyildir. Təbəri müqəddiməsində yazır: "Hədis başa düşülənə qədər istərdimki bu hədisin sənədi haqqında yazım. O vaxta qədər ki, bu hədisin dəqiq və doğru olduğu hamıya məlum olsun." Bunun mənasını yozmaqda imkan genişdir. Lakin sənəd məsələsində 110 səhabənin adını gətirir.

Başqa alimlər də var. Məsələn, ibn Uqdə. O da "Hədisul Vilayə" kitabı yazıb. Bu müxtəlif zamanlarda araşdırılıb və yazılıb. Bu zaman sənəd baxımından biz Qədir-Xum hədisini inkar etmək, göz yummaq insafsızlıqdır. Din qaynaqlarını azda olsa araşdıran bir şəxs bu hədisi inkar etməz. Bir nəfər gözünü gündüz yumsa deyə bilər ki, günəş yoxdur? Qədir-Xum da buna bənzəyir. Qədir-Xum bir Quran ayələri ilə birdə hədislərlə araşdırılır.

Qədir-Xumun hədis əsasında iki bölməsi vardır. Bir sənəd araşdırması, bir məzmun araşdırması vardır. Biz sənədi qeyd etdik. Məzmun araşdırması bu hədisin mənasının araşdırılmasında geniş bir sahədir. Burada peyğəmbərin sözünün nə mənada olduğu nəzərə çatdırılır. Peyğəmbər nə buyurmaq istəmişdir? "Əli mənin dostumdur?" "Yoxsa yeznəmdir?" Bu da bir araşdırmadır. Bu haqda "Əbəqatul-ənvar" adlı bir kitab vardır. Əbəqatul-ənvarda 12 hədis araşdırıb. Bu kitab 50 cilddir. Onun müəllifi Mir Hamid

Hüseyni Hindidir. Deyilənə görə bu şəxs o qədər yazardı ki, əlləri işləmirdi ayaqları ilə yazırdı. Əllər işdən düşmüşdü. Bu şəxs 12 hədisi araşdırmışdı. Qədir hədisi, Səqəleyn hədisi, Mənzilət hədisi və s. Həmin kitabda mütəvatir sayılan Quş hədisi[1] belədir: Peyğəmbərə Mələk vasitəsi ilə cənnətdən bişmiş bir quş gətirirdi. Peyğəmbər buyurdu: İlahi, O şəxsi mənə yetir ki, onu həm sən sevirsən həm də mən. Ənəs ibn Malik peyğəmbərin bu duasını eşitdi. İbni Malik deyir: Qapı döyüləndə arzu edirdim ki, qapıdan girən şəxs mənim tayfamdan olsun. Deyir, qapı açıldı gördüm Əlidir. Dedim hələ içəri girmə peyğəmbərin işi var. Üçüncü dəfə Peyğəmbər (s) Əlini özü çağırdı. Buyurdu: Niyə mane olursan?[2]

O hədislər adı çəkilən kitabda 12 dənədir. Bu alim həmən o 12 hədisi iki cür araşdırıb. Bir sənəd araşdırması, bir də məzmun araşdırması ilə. Hətta onun bir maraqlı hissəsi vardır. Bəzi cümləni qeyd etmək istərdim. O da budur: Bir sıra alimlər öz kitablarında Qədir hədisini gətiriblər. Qeyd ediblər ki, Qədir hədisi mübahisəlidir. Bu alim həmin kitabında bu cür fikri irəli sürən şəxslərin ümumiyyətlə bu barədə məlumatsız olduğunu qeyd edir. O, həmin kitabda, Qədir hədisinə fiqhdə və ya başqa yerlərdə istinad olunan, imam (rəhbər) kimi istinad edilənləri araşdırıb tapıb. Qeyd edir ki, Qədir mövzusu mübahisə olunası mövzu ola bilməz. Çünki, siz 30\40 mürid gətirə bilməzsiniz ki, bu hadisəni öz kitabında qeyd etməmiş olsun. 12 hədis haqqında öz sahəsində belə bir kitab yazılmayıb. Bu bənzərsiz əsərdir. Əl-Qədir kitabı yalnız Qədir-Xum haqqındadır. Əbəqat 12 hədis haqqındadır. Sənəd araşdırması, məzmun araşdırması və s. Burada geniş izah verməklə mövzumuzdan kənara çıxmaq istəmirik.

## Qədiri-Xum şeir və ədəbiyatda

Qədir-Xumun ayrı bəhsi də vardır. O da Qədir-Xum şeirdə və ədəbiyyatda. Alimlər Qədir-Xum baş verəndən bəri bu hadisə haqqında deyilən şerləri və onların yazarlarını araşdırıb

1 - Bu hədis əhli-sünnə kitabında etibarlı hədis kimi məşhurdur. Fəthül-mülk, Həsəni Məğribi, səh. 20

2 - Əbəqatul-ənvar, c. 13, səh. 107-110

tapmışdırlar. İlk şeir deyən birinci şair Qədirin ravisidir. Qədir Xumun 110 nəfərindən biridir. Həssan ibn Sabit. O, Rəsulullahın şairi idi. Əlbəttə sonra ayağı büdrədi. Bu barədə sonra qeyd edəcəyik. Qədir-Xum hadisələri baş verəndən sonra Həssan Allahın Rəsulunun (s) hüzuruna gedib, dedi ki, icazə ver mən şeir oxuyum. Bədahətən, yəni fikirləşmədən şeir oxumağa başladı. Məzmun cəhətdən şeirin əvvəli belədir. "Peyğəmbər nida edir bir gün Xumda (yəni Qədir-Xum məntəqəsində) Əlinin əlini qaldırır və deyir mən kimin mövlasıyam bu onun mövlasıdır." Bunları deyəndən sonra ilk şairdir ki, bu hadisədə peyğəmbər onun üçün şərtli dua etdi. Mütləq dua etmir şərtli dua edir. Buyrur: "Sən dilinlə bizə kömək edənə qədər Ruhul-qudus tərəfindən kömək, imdad olunasan."[1] Tarixdə bunun cərəyanı vardır. Bu da ilk şair, Həssanın məsələsi. Hətta, hələ kamil olaraq cərəyan şəffaflaşmayana qədər Əlinin düşmənləri də Qədir haqqında şeirlər demişdilər. Məsələn, Əmr As kimi. Əmr As İmam Əli (ə) xilafətə çatanda öz işiylə məşğul idi. Əmirul-möminin xilafətə çatanda Muaviyə bilirdi ki, Hz.Əli (ə) onun zülm dolu hakimiyyətini qəbul etməyəcəkdir. Əli (ə) da qəbul etmədi. Və buna görə də bilirdi ki, gərək özü bir sıra işləri görsün. Müaviyə Əmr Asa məktub yazır ki, ona kömək etsin. Əmr As da Hz.Əli (ə) a düşmən olub Müaviyəyə kömək edirdi. İmam Əli (ə) bir neçə nəfəri qunutunda lənətləyirdi ki, Muaviyə, Əmr As, Vəlid ibn Ütbə də onlardan biri idi. Qunutda lənətlənənlərdən Müğəyrət ibni Şübə, Mərvan ibn Həkəm də var idi.

**كان [عَلِيٌّ(عليه السلام)] إذا صَلَّى الغَداةَ يَقنُتُ فَيَقولُ: اللّهمّ العن معاوية، و عَمرواً، و أبا الأعور السلَمى، و حبيباً، و عبد الرحمن بن خالد، و الضحّاک بن قيس، و الوليد.[2]**

İmam bunları lənətlədikdən sonra buyurardı: Mən bunların övladlarınıda tanıyıram. Onlar nə Quran, nə də din tanıyırlar. Onların həyatlarında, Quran və din yoxdur. Əmr As onlardan biri idi. Əmr As da imam Əlinin düşmənlərindən idi, lakin mənfəətini

1 - Təbərsi, Məcməül-bəyan, c. 20, səh. 433
2 - Tarixi-Təbəri, c. 6, səh. 40

düşünərək. Müaviyə ona, kömək et deyəndə, Əmr As dedi: Sən məni elə bir şəxslə düşmənçiliyə dəvət edirsən ki, O şəxsin barəsində Peyğəmbər buyurub: “Mən elmin şəhəriyəm Əli də onun qapısıdır.” Müaviyənin məktubun cavabında bir-bir Hz.Əlinin (ə) məqamları barəsində qeyd etdi. Düşmən bəzən xeyrə də səbəb olur. Bu məktub Əl-Qədir kitabında mövcuddur. Əl-Qədirin ikinci cildinin 160-a yaxın səhifəsi Əmr Asın tərcümeyi halı haqqındadır. Orada bu məktub da var. Bu məktub ibn Əbil-Hədidin “Nəhcül-Bəlağənin şərhi” kitabında da qeyd olunub. Ayrı yerlərdə də var. Əmr Asın tərcümeyi halını yazarkən bunu da qeyd etmişdirlər ki, bu məktubda O, Hz.Əlinin fəzilətlərini yazıb. Hətta Qədir-Xumu da xatırladıb və həmin şeir də gətirib. Hz.Əlini azda olsa tanımaq üçün həmən məktub bir faktdır. Onun fəzilətlərinə, imamətinə yəqinləri olanlar onu dandılar. Ona tanıya-tanıya kafir oldular. Şeirdə İmam Əlinin Qədir-Xumunda kimlərin olduğu barədə bir hissədə var. Qeyd etdiyimiz Həssan, Əmr As o ilk təbəqələrdən idi. Əllamə Əmini hədisin sənədlərini14-cü əsrə qədər yazıb. 14-cü əsr isə yoxdur. Bir divanlara və 14-cü əsrin alimlərinə 3-4 nəsil olur. Əl-Qədir kitabı bu cəhətdən təkmil olmayıb. 11 cildi çap olunub, 22 cild olmalı idi. 100 nəfər alim onun qalan hissəsini tapmaq istəyir. 14-cü əsrdə şair çoxdur. Baxın, Əllamə o kitabda şairi yazanda ora şairin tərcümeyi halınıda yazıb. Yəni bunlar, sıradan elə belə şeir deyil. Məsələn, Əmr Asın tərcümeyi halını şair kimi niyə yazıb? O, şair hissəsindədir. Əmr Asın tanınması üçün 160 səhifə tərcümeyi hal yazıb. Bu da Qədir-Xum cərəyanındaki şeir məsələsi idi.

Bir mətləbi qeyd etmək istərdik. Bir çox şəxslər Hz.Əlinin (ə) haqqında şeirlər yazıb. Seyyid Himyəri bu barədə mühüm bir iş görmüşdür. Hz.Əlinin Hz. Peyğəmbərin (s) dili ilə nə fəzilətləri var idisə, onları şeirdə nəzmə çəkib. Himyəri əvvəl şərab içən idi, sonra tövbə etmişdi. Əvvəl imamlarla yaxşı münasibəti yox idi, sonra tövbə etmişdi. Bu hətta mükafat vədi vermişdi. Demişdi: Hz.Əli (ə) haqqında Hz.Peyğəmbərdən (s) elə bir hədis tapın ki, mən onu şeirlə nəzmə çəkməmişəm. Elə bir hədis tapan şəxsə böyük mükafat

verəcəm. Bir şəxs ona mühim bir hədis dedi. Bu hədis Seyyid Himyərinin tərcümeyi halında var. Gördü ki, həqiqətən bu hədis haqqında şeir yazmayıb. Hədisi deyən şəxsə vəd etdiyi mükafat verdi.

Seyyid Himyəri İmam Sadiq(ə)-ın dövründə yaşayıb. Cəfəri məzhəbini qəbul edib. Dostları ilə bir məclisdə olarkən, ağlayaraq bədahətən Qədir-Xum hadisəsi haqda şer oxudu. Mən Cəfəriliyi qəbul etdim-dedi. Çoxsaylı şairlər Qədir Xum haqqında şeirlər deyiblər. Onlardan biri də Debeldir. O, İmam Rza dövründə yaşayıb. O, məşhur şair idi. Debel, Məmun və Harunun əleyhinə şeirlər qoşardı. İmam Rza haqqında isə gözəl qəsidəsi var. Həmin qəsidəni Mədinəyə gedərək özü onu İmam Rzaya (ə) oxuyub. Ona dedilər: Sən elə şeirlər deyirsən ki, buna görə səni bir gün asacaqlar, öldürəcəklər. Dedi: Mən 40 ildir darımı çiynimdə aparıram. Mənim qorxum və asanım yoxdur. Bu şair bir gün imam Rza (ə) belə bir şeir dedi: Allahın ayələrinin mədrəsələri boş qalıb. Burada boş qalıb sözünün mənası da, imamların şəhadətini göstərir. İmam Əliyə (ə) nə oldu, İmam Həsən (ə) başına hansı hadisələr gəldi. İmam Rzanın (ə) adına çatanda dayanır. “Bu Qəmnamədir... Qəmli müsibətnamədir...” Debəl imama deyir: burada dayandım tamamlaya bilmədim. İmam buyurdu: “Tusda bir qəbir var. Onun sahibi nə müsibətlər çəkmişdir.” Sonra ikinci beyti də İmam Zaman (əc) haqqında buyurur. Bu Debəl oradan qayıdır. Tarixdə bu barədə geniş yazılmışdır. Bunlar hamısı Qədir Xum şairləridir. Əllamə Əmini bunların tərcümeyi halını da öz kitabında yazmışdır. "Qədir ədəbiyyatda, şeirdə" mövzusu özü geniş bir bəhsdir.

## Dərsin xülasəsi

İslam dini istəyir ki, insanı şəxsə bağlılıqdan çıxarsın, ünvana bağlı etsin. Qeyd etsin ki, İslam dini şəxsə bağlı deyil. Bir sıra kamil insanlar vardır ki, onlar dini qoruyan və dinin rəhbərləridir. Dini qoruyan və dinin rəhbəri təkcə Allahın elçisi (s) deyil. Təkcə Hz.Məhəmməd (s) Allahın vəlisi deyil. Qiyamət gününə qədər bir sıra insanlar vəli olacaqlar. Allahın yer üzündəki vəli və rəhbərləri bir şəxsdə məhdudlaşmır. Buna görə də, bir şəxsin vəfat eməyi ilə bu məsələ bitmir. Elə buna görə də ayədə buyurulur: Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!

Əhli sünnətin 360 hədis kitabında Qədir hədisi qeyd olunub. Qədir-Xumda Peyğəmbərin buyurduğu kəlamı eşidənlərin sayı kifayət qədər çox idi. Tarixdə onların sayı 100 min nəfərdir. Bəziləri onların, 110 min nəfər olduğunu qeyd edir. Heç bir tarixdə 90 mindən aşağı yazılmayıb. Hz.Peyğəmbərdən (s) Qədir-Xumu nəql edən 110 nəfər səhabə olmuşdur. İndiki zamanda hədis kitablarında həmən 110 səhabənin adı var ki, onlar Qədir-Xum hədisini nəql etmişlər. Yəni o zaman daha çox idi. İndi isə hədis məcmuələrində 360 səhabədən 110 nu qalmışdır. Əllamə Əmini bu 360 hədisi öz kitabında sənədi ilə yazmışdır.

Əhli-sünnənin özlərinin sənədlər əsasında düşünən alimləri Qədir hədisinə aid müstəqil kitab yazmışdırlar. Məsələn Təbəri. Təbəri əhli-sünnədəndir. Onun "Hədisul Vilayə" adlı bir kitabı vardır.

Qədir-Xumun hədis əsasında iki bölməsi vardır. Bir sənəd araşdırması, bir məzmun araşdırması vardır. Biz sənədi qeyd etdik. Məzmun araşdırması bu hədisin mənasının araşdırılmasında geniş bir sahədir. Burada peyğəmbərin sözünün nə mənada olduğu nəzərə çatdırılır.

Alimlər Qədir-Xum baş verəndən bəri bu hadisə haqqında deyilən şerləri və onların yazarlarını araşdırıb tapmışdırlar. Onların hamısı Qədir-Xum şairləridir. Əllamə Əmini onların tərcümeyi halını da

öz kitabında yazmışdır. "Qədir ədəbiyyatda, şeirdə" mövzusu özü geniş bir bəhsdir.

## On birinci dərs

### Qədir-xum hadisəsinin unudulmasının səbəbləri

**1. Kamil olmayan imanlar**

Burada belə bir sual ortaya çıxa bilər ki, nə üçün Qədir-Xum tez bir zamanda gözardı edildi? Əgər belə şəffaf məsələ idisə, bu qədər aydın bir məsələ idisə, nəyə görə səhabələr Hz. Peyğəmbərin (s) oradakı vəsiyyətinə əməl etmədilər? Məgər Peyğəmbərin (s) səhabələrinin ona imanı yox idimi? Hz.Peyğəmbər nə buyururdusa, onlar onun sözünə  itaət etmirdilərmi? Nəyə görə onlar bu hadisəni unutsunlar ki? Burada bir məsələ var. Doğurdan da səhabələrin mövqeyi nə idi? Bizim nəzərimiz budur ki, peyğəmbərin səhabələri adi insanlar kimi idi. Aralarında pakı da var idi, əyrisi də. Mələk deyildilər ki? Onlar göydən nazil olmamışdılar. İnsan idilər. Nəfsləri var idi. Quran göstərir ki, Peyğəmbərin səhabələrinin də əyriləri yolda olanları var idi. Şəxslə işimiz yoxdur ki, onlar kimdir. Yəni ümumiyyətlə belə şəxslər var idi. Quranın bu haqda nəzərinə müraciət edək. Quran peyğəmbər dövrünün insanlarını kafir və müsəlmana bölür. Sonra müsəlmanı da iki qismə bölür. Mömin və münafiq. Peyğəmbər dövründə münafiq kimə deyirlər? Onlar, zahirdə peyğəmbərə iman gətirib, peyğəmbərə inanıb kimi görünürdülər. Amma əslində qəlblərində iman əhli deyildilər və islamı sevmirdilər. Cahiliyyət dövrünü sevirdilər. Səhabə də o şəxsə deyirlər ki, o Hz.Peyğəmbər (s) zamanında yaşayıb. Bəziləri iddia edir ki, Hz.Peyğəmbərin (s) səhabələri hamısı pakdır. O nəzəriyyə düz olsaydı, Quranın münafiqlər haqqında Münafiqun surəsi olmamalıydı. Əsas odur ki, İslam tarixi ilə oynayanlar münafiqlər idi. Quran buyurur: Ühüd döyüşündə 300 nəfər səhabə yarı yoldan qayıdıb. Quran buyurur: Onların bəziləri peyğəmbərə əziyyət verir. Bəziləri peyğəmbərə deyirlər sadəlövhdür. Onlar peyğəmbərə hətta yalan sözlər deyiblər. Lakin Hz.Peyğəmbər (s) bunu onların üzünə vurmayıb. Onlar deyirdilər ki, peyğəmbər

sadəlövhdür nə deyirsən qəbul edir. Allah buyurur ki, əgər peyğəmbər o cür olmasaydı bəzilərinin abrını apardı. Peyğəmbər bilir sən yalan deyirsən. Camaatın içində sənə desəydi sən yalançısan sənin abrın gedərdi. Onun belə etməməyi sadəlöhvlüyündən deyil, insanlığındandır və sənin xeyrinədir. Ayə vardır ki, səhabələrdən münafiqlər var idi. Hətta elə peyğəmbərin yaxınlarından da var idi. Buyurur: Sənin yanına gələrək and içirlər ki, sən Rəsulullahsan. Bu barədə Munafiqun surəsinin əvvəlində buyurulur: "Onlar yalan deyirlər, mömin deyillər".

إِذَا جَاءَكَ الْمُنَافِقُونَ قَالُوا نَشْهَدُ إِنَّكَ لَرَسُولُ اللَّهِ وَاللَّهُ يَعْلَمُ إِنَّكَ لَرَسُولُهُ وَاللَّهُ يَشْهَدُ إِنَّ الْمُنَافِقِينَ لَكَاذِبُونَ

(Ya Peyğəmbər!) Münafiqlər (riyakarlar) sənin yanına gəldikləri zaman: “Biz sənin, doğrudan da, Allahın Peyğəmbəri olduğuna şəhadət veririk! - deyirlər. Allah sənin Onun həqiqi Peyğəmbəri olduğunu bilir. Allah həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir.[1]

Quran baxımından insanların bəziləri münafiqdir. Hz. Peyğəmbər (s) zamanında münafiqin olmaması iddiası Quranın ziddinədir. Hətta Hz.Peyğəmbərin (s) dövründə elə münafiqlər var idi ki, Peyğəmbərlə rabitə qururdular və yanına gəlib-gedirdilər, and içirdilər peyğəmbərə ki, “innəkə Rəsulullah”-“Həqiqətən sən Allahın elçisisən.”

Və tarixi araşdırarkən Hz.Peyğəmbərin (s) zamanında onlardan şərabxor, günah əhlinin də olduğu məlum olur. Bu ayələr, hansıki filankəsə həd vurun, filankəsə cəza verin buyurulur, bunlar nə vaxt nazil olub? Peyğəmbərin zamanında! Deməli o zamanlar münafiq olmasaydı o ayənin mənası olmazdı. Əhli-sünnə alimləri yazır ki, "bir şəxs içki içdi ona görə ayə nazil oldu". Bəs içki içmək adamı fasiq etməzmi? Filankəs zina etdi ayə nazil oldu. Bəs bu əməl adamı fasiq etməzmi? Buradan aydın olur ki, peyğəmbərin səhabələri iki hissəyə bölünürdülər. Onlar da adi insanlar kimi idilər. Bir sıra kamil insanlar, peyğəmbərdən faydalanmışdılar.

1 - Munafiqun, 1

Bəzisi o qədər faydalanmışdır ki, onlar üçün hədis vardır. Bizim cənnətə getmək üçün şövqümüz var amma bəzi insanları cənnətin ona gəlməsi üçün şövqü vardır. Bizə cənnətə getmək fəxrdir. Bəzi insanlar elə məqamdadırlar ki, onlar cənnətə getsələr cənnət bunun üçün fəxr edər.

Bir gün Hz.Peyğəmbər (s) buyurdu: "Behişt mənim ümmətimdən dörd nəfərin müştaqındadır." Peyğəmbər hədisi buyurduqdan sonra getdi. Hamı söz-söhbətə düşdü ki, görəsən onlar kimlərdir. Kimə dedilərsə get onların kimliyin soruş, cürət etmədi. Çünki ehtimal edirdi ki, özünün adı o siyahıda olmasın. Axırda "Elm şəhərinin qapısı"na müraciət etdilər. Hz.Peyğəmbərin (s) həyatında belə idi. Hz.Peyğəmbərdən bir şey öyrənmək istəsəydilər Hz.Əlinin (ə) qapısına gələrdilər. Bu hədisi eşitdikləri zaman da Hz.Əlinin qapısına gəldilər. Dedilər sən Hz. Peyğəmbərin (s) elm qapısısan de görək bunlar kimdir? İmam Əli (ə) buyurdu: Əvvəlcə Allahın elçisindən soruşmalıyam. Hz.Peyğəmbərin (s) hüzuruna getdi və behiştin intizar çəkdiyi dörd nəfərin kim olduğunu soruşdu. Allahın rəsulu (s) buyurdu: Allaha and olsun ki, sən onların birincisisən. Sonra Miqdad, Salman, Əbuzərdir.[1]

Deməli, Peyğəmbərin səhabələri hamısı eyni dərəcədə deyildilər, müxtəlif dərəcələri var idi. Tarix də onların müxtəlif dərəcələrinin olduğunu göstərir. Peyğəmbərdən sonra ixtilaf baş verdi. Cəməl müharibəsi oldu. Cəməldə peyğəmbərin səhabələrinin bir hissəsi bu tərəfdə, bir hissəsi isə qarşı tərəfdə idi. İki tərəfdə haqq ola bilməz. Haqq bir tərəf olar. İndi haqq kimdir o ayrı bəhsdir. Aydındır ki, üzləşmə var idi. Təlhə, Zübeyr bir tərəfdə idi, Hz.Əli (ə) isə başqa tərəfdə. Qarşı-qarşıya gələn bu səhabələrin biri haqdır. Ona görədə qeyd etdik ki, peyğəmbərin səhabələri hamısı bir dərəcədə deyil. Bəzisinin imanı kamilləşir, bəzisinin imanı naqisdir, bəzisinin imanı zəifdir, zahiri imandır, bəzisi münafiqdir, imanı yoxdur. Quran imanları bir neçə dərəcəyə bölür. Məlumdur ki, o zamanlar

1 - Biharül-ənvar, c. 40, səh. 11

da elə həmin imanlar var idi. Buyurur: Yox, siz iman gətirməmisiniz, siz müsəlmansınız. Mömin deyilsiniz.

قَالَتِ الْأَعْرَابُ آمَنَّا قُلْ لَمْ تُؤْمِنُوا وَلَكِنْ قُولُوا أَسْلَمْنَا وَلَمَّا يَدْخُلِ الْإِيمَانُ فِي قُلُوبِكُمْ

Ərəblər: “Biz iman gətirdik!” - dedilər. (Ya Peyğəmbər! Onlara) de: “Siz (qəlbən) iman gətirmədiniz! Ancaq: “Biz islamı (müəyyən şəxsi məqsəd, mənfəət naminə) qəbul etdik!” - deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır. [1]

Bunlar səhabədirlər ya yox? Səhabənin tərifi nədir əhli-sünnə baxışında? “Onların nəzərincə, səhabə Peyğəmbəri görüb İslamı qəbul edən və müsəlman olduğu halda ölən kəsə deyilir. Hətta bir anlıq belə olsa, görmüşdürsə o səhabə sayılır.” Siz peyğəmbəri görənsiz, səhabəsiniz. O zaman bu zahirdə imandır. Quran buyurur: Mömin deyilsiniz, müsəlmansınız.

**2. Ərəb tayfabazlığı**

Ərəbin tayfabazlıq hissi var idi. Bir sıra hədislər də vardır. Bəziləri gedib qəbirləri də sayardılar. Və bununla öyünərdilər ki, mənim tayfam sənin tayfandan böyükdür. On pəhləvanı var. Güclü adamı var. O birisi deyərdi: Yox mənimki on bir dənədir. Onu buradadır, biri də qəbirdədir. Bu təkasurdür, yəni dünyaya çox marağı olmaqdır. Bəzi təfsirçilər onu tayfabazlığa təfsir edirlər. Bu bir nümunəsidir. Bu tayfabazlıq hissi ərəblər-də var idi. Ərəblərin imanının zəif olmasının səbəbi peyğəmbəri kamil görməmələrdir. Hətta onlar, müsəlman idilər peyğəmbər dövründə biri peyğəmbəri bir saat görmüşdü. Gəlib Mədinəyə peyğəmbərin yanında bir saat oturub onu görüb müsəlman olurdular. Sonra öz kəndinə qayıdıb, Azan, iqamə, namaz, oruc kimi ibadətlərlə məşğul olurdular. İslamın həqiqətini kamil olaraq bilmirdilər. Buna görə də, tayfabazlıqdan əl çəkmirdilər. Məgər bizim namaz qılanlarımızın hamısında tayfabazlıq gedibmi? Getməyib. Dostbazlıq gedib? Getməyib. Namaz qılır amma dostbazdır. Dostuna o birisindən çox əhəmiyyət verir. Bu o zaman da var idi. Dostuna o birisindən daha çox əhəmiyyət verirdi. Təqvanı deyil dostluq mənfətini əsas

---

1 - Hücurat, 14

tuturdu. Bu nədən irəli gəlirdi? İmanın azlığından. Bu iman kamil olsa Mucadilə surəsi axırıncı ayəsinə əsasən ancaq Allahı sevərdi.

ا تَجِدُ قَوْمًا يُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ يُوَادُّونَ مَنْ حَادَّ اللَّهَ وَرَسُولَهُ وَلَوْ كَانُوا آبَاءَهُمْ أَوْ أَبْنَاءَهُمْ أَوْ إِخْوَانَهُمْ أَوْ عَشِيرَتَهُمْ أُولَئِكَ كَتَبَ فِي قُلُوبِهِمُ الْإِيمَانَ وَأَيَّدَهُمْ بِرُوحٍ مِنْهُ

(Ya Peyğəmbər!) Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlarla - öz ataları, oğulları, qardaşları, yaxın qohumları olsalar belə - dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və Öz dərgahından onlara ruh (güc) vermişdir (iman, hidayət nuru əta etmişdir).[1]

Hamının kamil imanı yoxdur. O zaman da belə idi. Səhabələrin hamısı kamil imana sahib deyildi. Onlar görürdülər ki, Hz.Peyğəmbər (s) Bəni Haşimdəndir. İmanı zəif olanlar peyğəmbərin hökmdar olduğunu düşünürdülər. Bəziləri peyğəmbərin səltənət sahibi, sultan olduğunu fikirləşirdilər. İmanı zəiflər belə başa düşürdülər. Onlara ağır gəlirdi ki, Bəni Haşimdən belə bir böyük olsun. Peyğəmbər dünyasını dəyişəndən sonra bunların maraqları bu idi ki, bunların öz tayfaları da bu şansa çatsın. Onlardan da biri böyük adam olsun. Buna görə də tayfabazlıq, ərəblərdə imanın zəifliyinə əsasəndir. İkinci xəlifədən nəql olunub:

إن فَضَلُوا بالخلافَةِ مَعَ النُّبوةِ لَمْ يُبْقُوا لَنَا شَيئاً

Qüreyş deyir ki, nübuvvət və xilafət bir tayfada olsa bizə heç bir şey qalmaz...[2] Ərəblər qəbul etməzlər ki, fəzilət və üstünlüyün hamısı Bəni Haşimdə olsun. Bəli, ərəb qəbul etməz. O ərəb qəbul etməz ki, onun imanı zəifdir. Tayfa gözü ilə baxan ərəb bunu qəbul etməz. O ərəb əgər peyğəmbərə, Allahın hökmünə itaət edirsə bu zaman qəbul edər. Allahdan hər nə buyursa deyər: “Amənna”- “İman gətirdik!” Bu bir iman amilidir. Onlarda tayfabazlıq amili var idi.

1 - Mücadilə, 22
2 - Əqdül-fərid, c. 3, səh. 77

**3. Hz. Peyğəmbərə (s) qarşı kin bəsləyənlər**

İmam Əli (ə) özü buyurur: "Peyğəmbərə qarşı kini olan Qureyşilər öz ədavətlərini məndə biruzə verdilər. Mənim övladlarıma da qarşı bunu edəcəklər. Qureyşin mənimlə nə işi var, məndən nə istəyir? Mən Allahın elçisinin (s) əmrilə onlarla (Allah yolunda) vuruşmuşam. Kim Allaha itaət etsə mükafatı da ondan alar."[1] Diqqət edin ki, bu kin və ədavət təkcə Əliyə qarşı deyildi. Buyurur ki, Peyğəmbərə qarşı kinləri var idi, onu məndə biruzə verdilər. Bu kin və ədavət sonra mənim övladlarımda da özünü göstərəcək. İşarə bu kəlimədədir. Qureyşin mənimlə nə işi var, məndən nə istəyir? Bunlar Allahın rəsulunun əmrinə görə idi. Kim Allaha itaət etsə mükafatı da ondan alar. Burada məsələ tayfabazlıq məsələsidir. Ərəblərin o zamankı vəziyyətini sosyoloji baxından araşdırmaq lazımdır. O zaman məsələ aydın olar. O zamanın cəmiyyəti tayfa qurumu idi.

**4. Hz. Əliyə (ə) qarşı ədavət**

Hz. Əlinin öz şəxsiyyəti ilə tayfa arasında qalmaqdan əlavə mühüm olan Əlinin öz şəxsiyyətinə olan kinləri idi. İmam cihadlarda iştirak etmişdi. Burada elə bir tayfa yox idi ki, imamın Zülfiqarından onun tayfasından bir adam ölməsin. Bu da Əli(ə) a kin bəsləmək üçün bir səbəb idi. Bu Əlidən (ə) xoşlanmama səbəbi idi. Kim üçün ədavətə səbəb idi? İmansız yaxud imanı zəif olanlar üçün ədavətə səbəb idi. Yəni, həzrət mənim qardaşımı öldürübsə, bu işi Allahın əmrilə, Peyğəmbərin əmrilə edibsə, haqq yolunda edibsə, mənim imanın varsa ondan acığım gəlməməlidir. Ona kin bəsləməməliyəm. Onların bu cəhətdən kini var idi, çünki imanları zəif idi. Deyirdi o mənim filan müharibədə atamı öldürüb. O mənim qardaşımı öldürüb və.s.

Bir şəxs İmam Səccaddan soruşdu: Nə üçün Qureyşin çoxunun sizin atanızdan (İmam Əlidən) xoşu gəlmir? Səbəbi nədir? İmam buyurdu: "Çünki birinci büdpərəstləri öldürməklə onları oda daxil edib. Qalanları da buna görə məyus olublar." Yəni onlar, oda

1 - Yənabiul-məvəddə, səh. 111

düşüblər, onlardan sonra qalanlar biabır olublar ki, mənim babam Əbu Süfyan idi. Kin buradan əmələ gəlir. Bu kin nədən yaranmışdı? Bədr, Hüneyn kimi müharibələrdə Əli (ə) iştirak etmişdi və onların kafir babalarını, atalarını, qardaşlarını həmən döyüşlərdədə öldürmüşdü. Buradan kin meydana gəlmişdi. İbn Əbil Hədidin bir cümləsi var. Deyir: "mən onları çox da danlamıram, çünki insanın təbiəti belədir. İnsanın təbiəti budur ki, onun atasını öldürəndən xoşu gəlməz. Hətta insan kamilləşsə də. Mən onlara Əlidən xoşları gəlmədiyi üçün çox lənət etmirəm. Çünki təbiətləri belədir". İbn Əbil Hədid bu barədə yəni Əli(ə) ın unudulduğu barəsində geniş bir bəhs edir. Sonra deyir: Əgər İmam Əli peyğəmbərdən sonra ibadətlə məşğul olmasaydı, yenə həmin Zülfiqar əlində olsaydı, İmam Əlini öldürərdilər. Buna görədə, gördülər ki, daha Əli keçmiş Əli deyil. Yəni Zülfiqarı qınındadır. Sakitləşdilər. İbni Əbil Hədid kitabında bunu təhlil edirdi, Zülfiqarın qınında olmağı buna görə idi ki, ərəbin o kini soyusun, yatsın. Vəziyyət dəyişildi. Kinlər soyumadı, o kin Kərbəlada özünü göstərdi. Yezid İmam Hüseynin mübarək başına, dişlərinə qamçı vururdu və deyirdi: "Mən Bədrdə ölən babalarımın intiqamını aldım. Bədrdəki mənim şeyxlərim (yəni böyüklərim) burada olaydılar görərdilər ki, Muhəmməddən necə intiqam aldım."[1] Bunu Şeirlə oxuyurdu. Diqqət edin Muhəmməddən (s) intiqam aldığını deyir, İmam Hüseyndən (ə) yox. Muhəmmədin (s) intiqamını nəvəsindən alır.

**5. Həsəd və paxıllıq**

İman zəif olsa həsadət yaranar. "Həsəd" bir insanın malik olduğu məziyyət və fəzilətləri, qazandığı nailiyyətləri həzm etməməkdir. Başqa sözlə, bir kəsin özündə olmasını istədiyi qabiliyyət və ehsanların başqasında olmasına görə keçirdiyi narahatlıq hissidir. Başqasında olmasını istəməməkdir. Həsəd yəni iman zəif olanda insan başqasının fəzilətini, böyüklüyünü görməz, həzm etməz. Məsələn: Kimsə bir kənddə yaşayır. Onun dostu da həmən kənddə böyük adamdır. Əgər imanı kamil olsa, yaxşı insan olsa sevinər.

1 - Mənaqib, İbn Şəhri Aşub, c. 4, səh. 132

İman zəif olsa həsəd aparar. Niyə mən yox, niyə o? Əgər özünə zərər gəlsə istəyər ki, dostu da zərərə düşsün. Həsəd çox təhlükəli bir xüsusiyyətdir ki, indi də var, o zaman da var idi. Hz.Peyğəmbər (s) İmam Əli haqqında xoş sözlər buyurardı, onun fəzilətlərini sayardı, lakin hamı eyni cür başa düşmürdü. Onların imanları zəif idi. Əliyə həsəd aparırdılar. Deyirdilər: Niyə peyğəmbər yalnız Əlidən danışır? Cabir ibn Abdullah Ənsari buyurur: Biz peyğəmbər dövründə münafiqlə mömini, Əlini sevib sevməməkdə ayırardıq. O zaman bilərdik ki, bu şəxs münafiqdir ona görə də Əlidən xoşu gəlmir.[1] Bu barədə başqa səhabələrdə buyurmuşdurlar ki, biz münafiqi Əliyə olan münasibəti ilə tanıyardıq.

Allahın Peyğəmbəri (s) buyurur: «Ey Əli! Səni yalnız mömin sevər və sənə yalnız münafiq ədavət bəsləyər.»[2]

Əli haqqında deyilən fəzilətlərə görə bəzilərinin ona həsəddən mənşələnən kinləri olurdu. Onların xoşları gəlmirdi ki, niyə Əliyə bu qədər fəzilət verilib. Bu paxıllıq iman zəifliyidən irəli gəlir. İnsanın imanı zəif olsa onda həsəd yaranaq.

**6. Məqampərəstlik və şöhrət aclığı**

Növbəti amil isə insanın təbiətində budur ki, rəis olsun, böyük olsun, bu vəzifəpərəstlik hamıda var. İnsan özünü kamilləşdirməlidir, imanı kamil olmalıdır ki, o hissiyatına qələbə çala bilsin. Hamı istəyir böyük məqamlara çatsın. Dünyanda Adəm zamanından indiyə qədər məqampərəstlik hissi mühim bir rol oynayıb. Hz.Peyğəmbərin (s) dövründə də belə oldu. Bir sıra insanlar istəyirdilər ki, peyğəmbərdən sonra vəzifəyə çatsınlar, çatdılar da. Və tarixdə şahidlər var ki, onlar elə Hz.Peyğəmbərin (s) zamanında da bu fikirdə idilər. Məsələn Əbdurrahman ibn Ovf istəyirdi ki, peyğəmbərin qızı Hz.Zəhra (s) ilə ailə qursun. O zaman Fatiməyi Zəhraya (s) a çoxlu elçilər var idi. Heç biri Fatimeyi Zəhraya (s) layiq deyildi. Onlar Fatimeyi Zəhra ilə ailə qurmağı Hz. Peyğəmbərdən (s) sonra məqama çatmaq üçün bir vasitə kimi görürdülər. Onların bu rəftarı Allahın elçisini (s) incidirdi.

1 - Sünəni-Tirmizi, c. 2, səh. 299
2 - Kənzul-Ummal, hədis 32878

Əbdurrəhman bir təklif edir deyir: "Sən Zəhranı mənə versən, sənə ən bahalı misir parçaları ilə dolu yüklənmiş yüz nadir dəvə, on min dinar qızıl sikkə verərəm." Hətta bu haqda çoxlu oxşar məzmunlu hədislər də vardır. Hz.Peyğəmbər (s) xırda daşları ovuclayıb ona tərəf atdı və buyurdu: "Sən mənim pul vəsərvət düşkünü olduğumu düşünürsənmi ki, mənə öz var-dövlətinlə öyünəsən?[1]

Ərəblər bu yolla vəzifə və məqama, şöhrətə çatmaq istəyirdilər. Tarixdə bu niyyətli başqa misallar da vardır. Nümunlərin birini misal olaraq qeyd etdik. Bu da bir məsələ, məqampərəstlik.

**7. Özlərini Hz. Peyğəmbərlə (s) eyni məqamda görənlər**

Hz.Peyğəmbərin (s) səhabələri arasında bir sıra insanlar var idi ki, onlar onu sadəcə ibadətdə tövsiyə verən və mənəvi nəsihətlər edən bir şəxs kimi qəbul edirdilər. Deyirdilər: Namazı, orucu bizə peyğəmbər öyrətsin. Lakin peyğəmbər başqa sahələrdə, məsələn bizə hərbidə komandir seçərsə, haqqımız var ki, ona etiraz edək, seçimini qəbul etməyək. Burada peyğəmbər artıq itaət olunan rəhbər kimi görülmür. Onlar iddia edirdilər ki, peyğəmbər də bizim tayımızdır. Bəziləri peyğəmbərə bu səviyyədə inanırdı. Buna dair əlimizdə bir neçə sübutlarımız vardır. Hudeybiyyə sülhündə bəzi səhabələr Hz.Peyğəmbərə (s) şiddətli şəkildə etiraz etdi. Hətta biri dedi: Mən müsəlman olduğum gündən bəri bu qədər onun peyğəmbərliyinə şəkk etməmişdim.[2] Dostları velə onu sakitləşdirə bilmirdi.

Burada ayrı cərəyanlar da var. Hətta Hucurat surəsinin birinci ayəsinin təfsirində yazırlar: iki nəfər səhabələrdən Hz.Peyğəmbərin (s) yanına gəlib onunla münaqişə edirlər. Biri deyirdi: Peyğəmbər, filankəsi filan tayfaya əmir seç, o biri isə deyir: Yox, onu yox başqasını əmir seç. O qədər bu münaqişə oldu ki, Hz. Peyğəmbərin (s) hüzurunda mübahisə etməyə başladılar. Ayə nazil oldu: "Onlar, səslərini peyğəmbərin səsindən uca yüksəldirlər".[3]

---

1 - Dəlailül-İmamə, səh. 82; Mənaqibi ibn Şəhri Aşub, c. 3, səh. 123

2 - Biharül-ənvar, c. 20, səh. 335; Tarixül-İslam, zəhəbi, c. 2, səh. 371: Dəlailun-nübüvvə, Beyhəqi, c. 4, səh. 106

3 - Qortobi, c. 9, səh 321

Məlumdur, bir sıra insanlar özlərinə bu haqqı verirdilər ki, Hz.Peyğəmbərə (s) təziq göstərərək, ona kimi əmir seçmək lazım olduğunu göstəriş versinlər. Onlar deyirdilər: Peyğəmbər Əlini məsləhət bilib, lakin biz onu məsləhət bilmirik. Və özlərindən məsləhət gətirirdilər ki, Əli cavandır, zarafatçıldır, düşməni çoxdur. Əgər Əli xəlifə olsa ərəblərin çoxu qəbul etməz. Bu zaman İslam təhlükəyə düşər.[1] Burada məsləhətlər bu əsasda idi ki, peyğəmbər də bizim kimi bir insandır. O bir formada məsləhət görüb, amma bu onun şəxsi fikridir, bizə ona əməl etmək zərurəti vermir. Biz isə indi ayrı məsləhət bilirik və dinin bəzi qanunlarınə dəyişirik. Belə ki, bir sıra qanunlar, Hz. Peyğəmbərin (s) zamanında başqa formada idi, o vəfat etdikdən sonra dəyişilmə prosesi getdi. Bəziləri öz şəxsi düşüncələri ilə bir sıra məsələlərə icazə verib, başqa məsələləri iə öz bildikləri kimi qadağan etdilər. Düşüncələri belə idi: Peyğəmbər bu sahələrdə adi biliyə malikdir, eynilə bizim kimidir. O da bizim kimi bir insandır. Bəli, ona namazı qılmaqda, ibadi işlərdə tabeyik. Lakin ayrı sahələrdə içtimai və sair məsələlərdə peyğəmbər yaşadığı zaman bir sıra məsləhətlər vermişdi, qərarlar almışdı, amma indi biz ayrı ormada məsləhət bilirik. Əsas, bu beş amil səbəb oldu ki, Qədir-Xum unudulsun. Bu qeyd etdiyimiz yeddi amil hamısı bir amilin içindədir. O da imanın zəifliyidir.

**8. Cihadi əkbərdə məğlub olanlar**

Peyğəmbər (s) qoşunu müharibəyə göndərir. Qoşun müharibədən qayıdanda o Həzrət (s) :«Xoş gəldin deyirəm, cihadi-əsğəri (kiçik cihadı) yerinə yetirənlərə. Ancaq, böyük cihad hələ də onların öhdəsində qalmaqdadır.» Ərz edirlər:«Ey Allahın Rəsulu, böyük cihad nədir?» Həzrət (s) buyurdu:«Nəfsə qarşı cihaddır.»[2]

Bir cihadi-əkbər (böyük cihad) var, bir də cihadi-əsğər (kiçik cihad). Cihadi-əsğər təkcə döyüş deyildir. Namaz da, oruc da cihadi-əsğərdir. İslamın zahiri ayinləri cihadi-əsğərdir. Nəfsə qalib gəlmək isə cihadi-əkbərdir. İnsan namaz qılar, oruc tutar,

---

1 -Şərhi-Nəhcül-bəlağə, İbn Əbil-Hədid, c. 12, səh. 51
2 -Məani-Əxbar, səh.160, hədis1

müharibəyə gedər, zəkat verər, xums verər, lakin bunlar cihadi-əkbər deyil. Həsədinə qalib gəlmək, tayfabazlığına qalib gəlmək cihadi-əkbərdir. Kafir dədə-babalarının kinini daşımaq isə cihadi-əkbərdə məğlub olmaqdır. Hz. Əli (ə) müharibədə onun peyəmbərə düşmən olan kafir atasını öldürüb, bu onn kinini daşıyır. Kininə qalib gələ bilməsə, əvvəllərdə qeyd etdiyim həmin o iman ondan gedər. Səhabələrin bəziləri namaz qılırdılar, oruc tuturdular lakin onlarda cihadi-əkbər yox idi. Cihadi-əkbəri yaddan çıxarıb məğlub oldular. Gözəl şəkildə namaz qılırdılar, oruc tutular, camaat namazında iştirak edirdilər, camaat namazı təşkil edirdilər, zəkat, xums hamısını düzgün icra edirdilər, lakin Qədir-Xumda imanlarını yandıdılar. İnsan həqiqətlə necə üzbəüz olur? Əgər bir həqiqət tayfasıyla toqquşsa, həsədi ilə toqquşsa, şəxsi mənafeyi, kinləri ilə toqquşsa, özünün düşüncəsi ilə toqquşsa, deyərki Allah belə buyurub, amma mən ayrı cür düşünsəm də Ona tabeyəm. Məsələn: Allah buyurub hicab ört, amma mən başqa cür düşünürəm. Bu bir həqiqətdir. Allah Taalanın əmri mənim fərdi məhdud düşüncəm ilə üst üstə gəlmir. Bu həqiqət toqquşanda insanın şəxsi düşüncələri ilə necə münasibət yaranar? Öz bildiyini etsə, Qədir münasibəti kimi bir münasibət yaranar. Qədir sanki təkrar olur. Çünki Qədir cihadi-əkbərdir. Bir insan bəzən müti olar. O zaman ki, peyğəmbərin qanunları hər şeydə onun mənfəətləri ilə üst-üstə düşsün. Amma nə zaman ki, bu qanunlar, göstərişlər onun nəfsi ilə, həsədi ilə, kini ilə üst-üstə düşsə imanını əldən verər. Necə ki, İbn Noman adlı bir nəfər Qədir-Xum cərəyanını eşidəndən sonra qəzəbli halda peyğəmbərin yanına gəlir, deyir: Ya peyğəmbər sən demisən "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır". Peyğəmbər buyurur: Bəli mən demişəm. Həmən şəxs deyir: bunu özündən demisən? Hz.Peyğəmbərə (s) buyurur: Xeyr. Allah buyurub.

Bunu eşidən həmən şəxs bilmir Hz.Peyğəmbərə (s) nə desin. Axı Allah-Taala buyurmuşdur. Həmən şəxs, özünə qarğış etməyə

başlayır. "İlahi əgər Peyğəmbər (s) doğru deyirsə, səmadan ya bir daş sal mənim başıma, ya da böyük bir əzab göndər mənə."[1]

Cümləyə diqqət edin! Nəfsinə qələbə çala bilməyən, qərəzli və kinli şəxs bu sözləri deyə bilər. Amma nəfsini cilovlayan haqq əhli isə belə beyər: İlahi, düzdür ki, bu mənim nəfsimlə uyğun deyil, amma sən mənə elə bir güc ver ki, mən o həqiqəti qəbul edə bilim. Düzdür ki, mənim nəfsimlə, isəyimlə uyğun deyil. Mənə elə bir güc ver ki, kinimi yatırım həqiqəti qəbul edim. Yuxarda qeyd olunan şəxs Qədir hadisəsini eşidəndə özünü itirmişdi. Çünki, atasını Hz.Əli (ə) Bədrdə öldürmüşdü. Ənfal surəsi 32 ci ayəni qeyd edək:

وَإِذْ قَالُوا اللَّهُمَّ إِنْ كَانَ هَذَا هُوَ الْحَقَّ مِنْ عِنْدِكَ فَأَمْطِرْ عَلَيْنَا حِجَارَةً مِنَ السَّمَاءِ أَوِ ائْتِنَا بِعَذَابٍ أَلِيمٍ

Onlar vaxtilə belə demişdilər: "Ey Allahım! Əgər bu (Quran) Sənin dərgahından gələn bir həqiqətdirsə, onda başımıza göydən daş yağdır, yaxud bizə acı bir əzab gətir!"

Bu özünü itirməkdir. Yəni o qədər insan çaş baş qalıb ki, haqqın qarşısında haqqı qəbul etmək istəmir. Nəfsinə qul olmuş insanın xüsusiyyətidir. Tarixdə qeyd olunur ki, Allah bunun duasını eşitdi həmən hadisədə göydən bir daş gəlib onu öldürdü. Əhli-sünnədən 33 təfsir alimi bu ayənin təfsirində bunu qeyd ediblər. Məaric surəsi də bunun haqqındadır. Bir nəfər Hz.Peyğəmbərdən (s) əzab istədi. Allah əzab göndərdi və o həlak oldu. Bu da oxşar bir hadisədir. Qədir-Xum məsələsi insanın nəfsi ilə toqquşma məsələsidir. Əgər insan nəfsinə qalib gəlməsə neçə neçə Qədir-Xumlar unudular. Və insan fəlakətə düşər. Bu Allahın vilayətidir. İnsan gərək Allahdan başqa heç kimin vilayətini qəbul etməsin. Gərək ancaq Allahın rəhbərliyini qəbul etsin. Bunu necə izah etmək olar? Heç kimin başqasının üzərində hüququ yoxdur ki, ona rəhbərlik etsin. Ona mütləq hakimlik etsin. Buna heç kimin hüququ yoxdur. Təkcə bu hüquq Allahındır. Çünki Allah insanın xaliqidir. Biz insanlar Allahın xaliqi deyilik. Allah bizim əlimizdən bir şeyi alıb, başqa bir şey əta edə bilər. Lakin başqası bizə mütləq hakim deyil. Quran baxımından əsas vilayət yalnız Allahındır. Quranda ayələr vardır

1 - Əl-Qədir, c. 1, səh. 242

ki, hökm yanlız Allahındır. Vəli ancaq Allahdır. Çünki, bizim xaliqimiz odur. Ancaq onun itaəti bizə vacibdir. Yalnız Allahın bizə itaətini vacib etdiyi şəxslərə müti olmaq icazəlidir. Çünki onlara müti olmaq Allahın əmrinə müti olmaqdır. Bu itaəti bizdən tələb edən Allah-təaladır. Quran bizə başqalarının da itaətini vacib edib, onlara vilayət verib. Peyğəmbərdir ətiurrəsul, ululəmrdir.

Burada bir məsələyə aydınlıq gətirmək istərdim. Nə üçün biz Allahın mütləq vilayətini qəbul etməliyik? Təkcə ona görə ki, O, xaliqdir və bizi yaradıb? Yoxsa başqa səbəblər də var? Buradan aydın olur ki, insanın Allah-Taalanı vəli kimi qəbul etməsinə səbəb, təkcə Allahın Yaradan olması deyil. Çünki insan kamilləşmək üçün yaranıb, bu kamal yolunda özü-özünün ixtiyar sahibi ola bilməz. Özü özünü kamala apara bilməz. Niyə? Bunu izah edəcəyik. İnsan bu yola tam bələd deyil. Həm yolu tapmaqda, həm yolu getməkdə ona yolgöstərən lazımdır. Naqis olduğuna görə Allah ona vəli olur. Çünki insanı yaxşı tanıyır, Onun elmi sonsuzdur. Allah vəlidir çünki, Xaliqdir. Bir amil odur ki, hüqüqi baxımdan niyə Allahın vilayəti vardır? Hüquqi baxımdan xaliqdir. Bəs psixoloji baxımdan Allah bu vəzifəni niyə yerinə yetirir?. Çünki, elmi sonsuzdur. Bizim proqramımızı bilir və bizə də mehribandır. Vilayət, Allahın sonsuz elm və qudrətindən qaynaqlanır. Çünki, Allah bizə həm mehribandır, həm də sonsuz elmilə bizi bizdən daha yaxşı tanıyır. Ona görə də vilayətə malikdir. Bu hüquqi baxımdan deyil, təhlil baxımındandır. Bəs nə üçün biz Allahın mütləq vilayətinə razı oluruq? Misalla izah edək: Nə üçün razı oluruq ki, maşını mexanik düzəltsin? Ona maşın üzrə tam ixtiyar veririk. Nə üçün? Çünki, o bu sahədə tam elm sahibidir və səndə arxayınsan ki, o əmanətə xəyanət etməz. Buna əminsən ki, o sənin maşınına qərəzli davranmaz. Sənə düşmən deyil.

Mümkündür bir həkimin elmi olsun, amma səninlə düşmən olsun. Bunu bilən insan bədənini müalicə etmək üçün onun ixtiyarına verməz. Heç kim düşməninə həkim də olsa müalicə üçün getməz. Çünki mehribançılıq yoxdur. Deməli, Allahın bizə elmi var və eyni halda bizi sevir. Bu rəhmət və elm mütləq vilayətin səbəbidir. Hər

işdə belədir. Hər kim başqasına hər hansı bir işdə hüquqi baxımdan vilayət versə, bu ayrı bir məsələdir. Biz mənəvi baxımdan ona görə vilayət veririk ki, o bu sahədə kamil elmə və rəhmətə sahibdir. Atanın hüquqi baxımdan insan üzərində vilayəti vardır. Ona görə ki, O insanın atasıdır, insan ondan yaranıb. Bu hüquqi vilayətdir. Mənəvi vilayəti insan o vaxt qəbul edir ki, o vilayət insanı şirkə tərəf aparmasın. Aydın olur ki, mənəvi vilayət elm və mehribanlıq əsasındadır. İnsana atasından olan vilayət elm və mehribançılığı əsasındadır. Nə qədər az olarsa o qədər də insanın vilayəti az olur. Qısası budur. Bəşər məhduddur və onun İlahi rəhmətə ehtiyacı vardır. Bundan vilayət meydana gəlir. İstəyirdik bunu xüsusi ilə qeyd edək ki, Allahın vilayəti yalnız belə deyil ki, biz məcburən qəbul edək. Allah bizim xaliqimizdirsə bizim üzərimizdə hüquqi baxımdan vilayəti vardır. Sanki bir evdə yaşayırıq və ev sahibi evində müəyyən qanunlarla yaşamağımızı qəbul edir. O zaman biz məcbur qalıb onun qanunları ilə yaşayırıq. Bu qəbul etmək bəhsi deyil. İnsan naqis olduğu üçün bu belədir. Araşdırmaq bəhsidir. Araşdırır ki, Allahın qanununu tapsın. İnsan bəzən bir şeyi qəbul edir lakin ürəkdən istəmir. Məcburi qəbul edir. Əgər hüquqi baxsaq belə nəticə alınar. Məcbur qalıb belə deyərik: Allah xaliqdir, bizi yaradıb nə buyurursa  gərək məcbur əməl edək. Amma burada məcburluq bəhsindən kənardır. Çünki, Allah Taala bizi tanıyır, mehribandır. Mən istəyirəm Allahın buyurduğu əsasında yaşayım. Nəinki hüquqi formada. Məsələn axtarıram. Görüm Allah bizə nə buyurur? Hüquqi baxımdan olsaydı insan axtarmazdı. Burada Allahın nə buyurduğunu və ya Allahın heç bir hökmünü axtarmazdı. İstər Allahın vilayətindən həmişə kənara çıxsın, istərsə də məcburi  Allahın iradəsini qəbul etsin. Çox vaxt istəyir ki, öz nəfsi ilə yaşasın. Halalı haramı bilməsin və ya əhəmiyyət verməsin.

Bəzən insan sırf müti olduğu üçün itaət edir. Rəhmət elmindən gələn  vilayətə tabe olmaq istəyənlər isə həmişə burada Allah nə buyuruduğunu tapmağa çalışırlar. Fərq etməz Allah bizim nəfsimizə müvafiqdir və ya müxalifdir. Bunu bir az genişləndirək. Bu geniş bəhsə iki surə vardır. Adına Müəvvəzəteyn deyirlər. Niyə

insan Allaha pənah aparır? Pənah budur: Bir şəxsin mənə vilayəti var və mən də ona tərəf gedirəm. Bu hüquqi bəhs deyil, burada pənah aparmaqdır. Bir növ insan o vəlini axtarır ki, insan ona ixtiyar versin və onun dedikləri ilə yaşasın. Bu iki surədə Allahın niyə insana vilayəti vardır və insan niyə naqisdir? Bunlar araşdırılıb. İstədik qeyd etdiklərimizdən aydın olsun ki, vilayət niyə Allahındır. İndi bunları izah etmək istərdim. Bu iki surəni bəzən sehr, cadu, falçılıq səviyyəsində məna edirlər. İndi görək nə buyurulur. Əvvəlcə Fələqdən başlamaq istərdik. Məsələn insan necə Allaha pənah aparar. Bu nəyi əks etdirir?

## Dərsin xülasəsi

Qədir-xum hadisəsinin unudulmasının səbəbləri aşağıdakılardır:

1. Kamil olmayan imanlar

Bizim nəzərimiz budur ki, peyğəmbərin səhabələri adi insanlar kimi idi. Aralarında pakı da var idi, əyrisi də. Deməli, Peyğəmbərin səhabələri hamısı eyni dərəcədə deyildilər, müxtəlif dərəcələri var idi. Peyğəmbərdən sonra ixtilaf baş verdi.

2. Ərəb tayfabazlığı

Ərəbin tayfabazlıq hissi var idi. Gəlib Mədinəyə peyğəmbərin yanında bir saat oturub onu görüb müsəlman olurdular. Sonra öz kəndinə qayıdıb, namaz, oruc kimi ibadətlərlə məşğul olurdular. Amma, tayfabazlıqdan əl çəkmirdilər.

3. Hz. Peyğəmbərə (s) qarşı kin bəsləyənlər

İmam Əli (ə) özü buyurur: Peyğəmbərə qarşı kini olan Qureyşilər öz ədavətlərini məndə biruzə verdilər. Mənim övladlarıma da qarşı bunu edəcəklər.

4. Hz. Əliyə (ə) qarşı ədavət

Hz.Əlinin öz şəxsiyyəti ilə tayfa arasında qalmaqdan əlavə mühüm olan Əlinin öz şəxsiyyətinə olan kinləri idi. Orada elə bir tayfa yox idi ki, imamın Zülfiqarından onun tayfasından bir adam ölməsin.

5. Həsəd və paxıllıq

İman zəif olsa həsadət yaranar. “Həsəd” bir insanın malik olduğu məziyyət və fəzilətləri, qazandığı nailiyyətləri həzm etməməkdir. Onların imanları zəif idi. Əliyə həsəd aparırdılar.

6. Məqampərəstlik və şöhrət aclığı

Növbəti amil isə insanın təbiətində budur ki, rəis olsun, böyük olsun, bu vəzifəpərəstlik hamıda var. İnsan özünü kamilləşdirməlidir, imanı kamil olmalıdır ki, o hissiyatına qələbə çala bilsin.

7. Özlərini Hz. Peyğəmbərlə (s) eyni məqamda görənlər

Hz. Peyğəmbərin (s) səhabələri arasında bir sıra insanlar var idi ki, onlar onu sadəcə ibadətdə tövsiyə verən və mənəvi nəsihətlər edən bir şəxs kimi qəbul edirdilər.

8. Cihadi əkbərdə məğlub olanlar

Gözəl şəkildə namaz qılırdılar, oruc tutular, camaat namazında iştirak edirdilər, camaat namazı təşkil edirdilər, zəkat, xums hamısını düzgün icra edirdilər, lakin Qədir-Xumda imanlarını yandıdılar.

## On ikinci dərs

### Fələq surəsinin izahı

İstərdik ki, bu surəni tərcümə edərək, tam izah edək.

قُلْ أَعُوذُ بِرَبِّ الْفَلَقِ

“(Ya Peyğəmbər!) De: “Pənah aparıram sübhün Rəbbinə!”

Nədən pənah aparıram? Yaratdıqlarının şərrindən.

مِنْ شَرِّ مَا خَلَقَ

“Yaratdıqlarının (insanların, cinlərin, vəhşi heyvanların) şərindən;”

وَمِنْ شَرِّ غَاسِقٍ إِذَا وَقَبَ

“Zülmətə bürünməkdə olan gecənin (və ya: batan ayın, ziyası sönən ulduzların) şərindən;”

Gecə qaranlıqda hücum edənin şərrindən. İnsanın ona hücum edəni görmədiyi zaman ən aciz qalan vaxtıdır. Necə ki, bunu Uhudda etmişdilər.

وَمِنْ شَرِّ النَّفَّاثَاتِ فِي الْعُقَدِ

“(Ovsun oxuyub) düyünlərə üfürən (yaxud: cadu edib iplərə düyün vuran) qadınların şərindən;”

وَمِنْ شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ

“Və bir də paxıllığı tutanda paxılın şərindən!”

Pənah nəyə deyirlər? Pənah zəiflikdə olur. İnsan zəif olan zaman o mərhələdə hər hansı bir yerə pənah aparır. İnsana bir heyvan hücum edərsə, onda ağacın başına və ya hündür yerə qaçar. Çünki O, zəifdir. Bu surədə Allah insanın dörd zəifliyini təsvir edib. İnsanın dörd zəifliyi vardır. Ona görə Allahın vilayətini qəbul etməlidir. Vilayəti qəbul etmək, yəni o dediyi kimi yaşamaqdır. Vilayət sevmək mənasında deyil. Vilayət, yəni o nə cür deyirsə elə də yaşamaqdır. Çox insanlar Allahı sevirlər, lakin onun vilayətini qəbul etmirlər. Peyğəmbəri çox adam sevirdi. Təkcə Əli öz həyatında onun vilayətini qəbul etmişdi. Vilayəti qəbul etmək, yəni

o necə deyirsə o cür yaşamaqdır. Bu surədə insanın dörd zəifliyini qeyd edib. Nas surəsində isə insanın bir zəifliyini buyurub. O daxildən olan bir zəiflikdir. Bu barədə daha sonra bəhs edərik.

## İnsanın varlıqla rabitədə dörd zəif nöqtəsi

İnsanın varlıqla rabitədə 4 zəifliyi vardır: Elminin naqis olması, gözlənilməyən hadisələr qarşısında acizlik, zəif iradə,

**1. İnsan elmi məhduddur.**

Bir müqəddimə qeyd etmək istərdim. Biz varlıq aləminə necə baxırıq? Bəzilərimiz mümkündür ki, belə baxırıq: "Varlığın mənə təsiri yoxdur, necə istəyirəmsə yaşayaram." Məsələn insan futbol meydanındadır və bu zaman iki komanda futbol oynayır. Torpaq komandalara kömək edirmi? Xeyr, neytraldır. Lakin mənim bədənimdə iki komanda mübarizə aparır. Mikroblar və mənim hüceyrələrim. Mənim bədənim meydana bənzəyir, bu bir sahədir, lakin neytral deyil. Nə istəyir? O Sağlamlığı tələb edir. Biz varlıqda da bu formalı rabitəyə inanırıq. İnsan hər iş görür, öz həyatına istər ziyan olsun istərsə də xeyir, varlıqda onun izi vardır. Yəni aləm rabitə aləmidir. Hər nə yeyirəmsə o neytiraldır? Zəhər yesəm bədənimlə neytral ola bilməz. Və yaxud başqa bir xörək də yeyəndə. Əksinə, hər nə yeyirəmsə onun bədənimdə, yəni həyatımda təsiri vardır. Mümkündür ki, təsiri tezliklə bilinməsin, amma bir müddətdən sonra özünü biruzə versin. Yəni bunu bilirəm ki, hər şeyin aləmdə rabitəsi vardır. Əgər hər şeyin rabitəsi varsa, o zaman mən necə rəftar edim? Məsələn hara getmək istəyirəmsə ora gedim ya yox? Və ya hər hansı bir işi edim ya yox? Və.s. Çünki, bunlar hamısı mənimlə rabitədədir. Görmək istədiyim hər hansı bir işin gərək izlərini öncədən bilim, sonra o işi görməyə başlayım. Mənim elmim də məhduddur. Bilmirəm Allahın məxluqları ilə necə rabitə qurum və onlara mənim əlaqəm necə olsun. Nə üçün bilmirəm? Çünki bunların təsirlərini bilmirəm. Elmim məhduddur. Mən hələ məhdud şəkildə tapmışam ki, donuz ətini belə etsəm belə olar və s. Bu il belə olar, on ildən sonra isə təsiri necə olacaq bilmirəm. İnsanın elmi, tapdıqları iki metrlik məsafəni işıqlandıran

bir fənərə bənzəyir. Minlərlə kilometr yolu getmək istəyə bilər, lakin iki metri işıqlandıra bilir. Götürdüyü hər bir qədəmin, iki metrlərin kilometrə təsiri var. Lakin bilmir bu təsir nə qədər olacaq. Bu qədəmi götürürəm amma ola bilər ki 100 metrdən sonra partlayışla qarşılaşım. Mən bilmirəm. Çünki, Allahın yaratdıqları ilə rabitə qurarkən onlardan mənə gələ biləcək hər hansı bir ziyanı bilmirəm. Xilqət (yaradılış) şərr deyil. Məxluqla mənim rabitəmdə şərr yaranır. Ona görə Allaha pənah aparıram ki, o hər şeyi bilir. Allaha deyirəm: Necə yaşamağımı sən mənə de. Məsələn: De filan şeyi ye! Deyim baş üstə. De filan şeyi yemə! Deyim baş üstə. “Qul əuzu bir rabbil fələq min şərri ma xələq.” Odur ki, Allahın yaratdıqlarının şərrindən Allaha pənah aparıram. Məxluq şərr deyil. Mənim rabitəmin necəliyi onu şərrə çevirir. Münasibətdə yaranır şərr. Torpağın xeyri var. Amma onu yesən şərr olar. Torpağı yeməzlər. Torpağı becərib əkərlər, məhsul götürərlər. Çünki, mən bilmirəm onunla necə münasibət qurum. Aləmdə heç nə şərr deyil. Hər şey öz yerində yəni özünəməxsus xeyirdir. Əqrəbin də öz xeyri vardır. Əqrəbin filan yerindən mikroblar tapmışdılar, o mikrobların belə özünəməxsus xeyri vardır. Ona görə də mən məxluqlarla rabitədə Allaha pənah aparmalıyam. Nə üçün? Çünki, O sonsuz elmə malikdir. Çünki, mən naqisəm və ona pənah aparmalıyam. Onun vilayətini öz həyatımda qəbul edirəm. Buradan aydın olur ki, insan niyə şəriətin sözünə baxmalıdır. İnsan niyə Allahın hökmlərinin sözünə baxmalıdır. Çünki insan heç nə bilmir. Yaratdıqlarının şərr törənməsindən Allaha pənah aparıram. Vilayətin əsasının biri budur. Bu elm və bilik bəşər üçün məhduddur, bəşər üçün naqisdir, kamilə müraciət etməlidir. Bir vilayətin əsası budur.

**2. Gözlənilməyən hadisələr**

İkinci, baxın, bəşərin elmi də olsa aləmdə gözlənilməyən hadisələr vardır ki, bu elmdən də üstündür. Sənin elmin var, məsələn su on kilometrlik yolu gəlir filan vaxt bura çatacaq. Fizika elminin əsasında hesablayırsan ki, nə vaxt bura çatacaq və təsiri necə olacaq. Sən tufanı hesablamamısan, zələzələni

hesablamamısan və s. Bunu adi halda hesablamısan. Hesaba qatmadığın halda zəlzələ baş verir, lakin bundan xəbərin olmur. Su gəlir amma ayrı vaxtda gəlib çatır. Sən öz qanunlarınla mühasib hesablamışdın, onun ölçüsünü götürmüşdün. Lakin gözlənməyən hadisələr nəticəsində o ölçü puça çıxır. Biz hələ çox şeylərə cahilik, çox şeyi bilmirik. Hər şeyi bilsək belə gözlənməyən hadisələr də var, hansı ki, sən onları əvvəlcədən proqnoz etməlisən. Bəs mən necə yaşayım ki, bu öz kamalım üçün olsun. İnsan həyatında o qədər zəifdir ki, heç nəyi mütləq bilə bilməz. Məsələn: Bu iş mütləqdir. Quran çoxlu ayələrdə bəşərə insanın hər şeyinin mütləq olmadığını göstərmək istəyir. Gözlənilməyən hadisələr baş verir və insanın planları heç olur. Quran çox yerdə bunu misal olaraq buyurub. Məsələn: Firon gözlənilməyən hadisəyə rast gəldi. Ona görə ki gözü cəhalətdən kor idi. Firon uşaqları öldürürdü ki, Hz.Musa (ə) olmasın. Allah Hz.Musanı öz əliylə ona böyütdürdü. Onun evində boya-başa çatdı. Bu hadisələr gözlənilməyən hadislərdir. İnsan onları öz həyatında görmür. Onlar “ğasiq”dir. Gecə qaranlıqda hücum edir. Gecə qaranlıqda insan görməz. İnsanın həyatında çox hadisələr vardır. Ona gecə qaranlıqda hücum edilir. Əgər Allaha tərəf getsə, gecə qaranlıqda hücum etsələr də bu hücum onun mənəviyyatına zərbə vura bilməz və əksinə kamalı üçün olar. Amma şərrə tərəf getsə, özü yıxılacaqdır. Yəni bunu qeyd etmək istərdik ki, aləmin idarəsi Allahın əlindədir. Çünki, gecə qaranlıqda hücumlar vardır. Onları insan öz əlinə ala bilməz. Firon hər şeyi idarə edə bilsəydi Hz. Musanı öz əliylə böyütməzdi.

Əbrəhə hər şeyə sahib idi, plan qurmuşdu. Onun planı istədiyi kimi də baş tuturdu. Əbabil quşları isə onun planında deyildi. Quran da elə həmin sözü buyurur: Onların hiylələrini puça çıxarmadıq, hiylələri dağılmadı?

أَلَمْ يَجْعَلْ كَيْدَهُمْ فِي تَضْلِيلٍ

Məgər (Rəbbin) onların hiyləsini boşa çıxartmadımı?![1]

---

1 - Fil, 2

Ona görə Allahın vilayətini qəbul etməliyik. Çünki həyatımızda gözlənilməyən hadisələr də vardır. Allah ilə "Allahlıq" edə bilmərik ki, özümüz deyən kimi yaşayaq, özümüz deyən kimi hər şey həyata keçsin. İnsan heç vaxt özü deyən kimi işlərini həyata keçirə bilməz. Hətta elmə də malik olsa belə. Çünki, gözlənməyən hadisələr vardır. Aləmin rəhbəri, rəbbi yalnız Allahdır. Allah həm alimdir, həm Rəbbdir. Bəzi hadisələr olur ki, insan onları görmür. İnanmırdım, gözləmirdim bunu deyir. İmam Əli (ə) buyurur:

عَرَفْتُ اللّهَ سُبحانَهُ بِفَسْخِ العَزائِمِ ، و حَلِّ العُقودِ ، و نَقْضِ الهِمَمِ.

Mən Allahı əzm etdiyim işlərin həyata keçməməsi, qərarlarımın dolaşığa düşməsindən və iradə və istəklərimin pozulub aradan getməsindən tanıdım.[1]

Yəni buyurur ki, mən Allahı planlarımın dəyişməsində tanıdım.

Məsələn: Sabah plan qurmuşam ki, belə edəcəm, amma xəstələnəcəyim planımda yoxdur. Və evə gəldim yatdım. Səhər yuxudan duranda gördüm ki, zökəm olmuşam. Bu da planımda yox idi. Hərşey başqa cür oldu. Təkcə aləmdə belə olan mən deyiləm. Mən qarışqa misalındayam.

İkinci məsələ də budur. Allahın vilayəti olduğuna görə hər şey mənim əlimdə deyil. Mən özüm özümə mütləq hakim ola bilmərəm. Hər tərəfli, hər şeyi nəzərə alana hakim deyərlər. Mən də onu edə bilmərəm çünki, gecə qaranlıqda hücumlar olur. Onların qarşısında da dayanmaq lazımdır. O da ancaq budur ki, Allahın vilayətini qəbul edək, Allaha pənah aparaq. Pənahdan məqsədimiz "əuzubillah" demək deyil. Pənah yəni, həyatımda Allah deyən kimi danışım, o istədiyi formada həyat sürüm.

**3. Zəif iradə**

Üçüncü məsələ - insanın ayrı zəifliyi də vardır. O da bu surədə buyurulur. Ancaq bu elmi zəifliyi deyil, gözlənməyən hadisələr qarşısındakı zəiflik deyildir. Görürsən insan çox vaxtlar elmdə olur, hər şeyi də nəzərə alıb. Məsələn: Böyük bir iş görmək istəyir. Birdən dostu ona deyir: Sənin bu işlə nə işin var, neyniyirsən bunu?.

1 - Nəhcül-bəlağə, hikmət 250

O işin Rəhməti çoxdur. Burada insanın iradəsini süstləşdirir.“Nəf-fasati fi uqəd”. Uqəd düyünə deyirlər. Düyünü möhkəmləyib ona üfürərlər. Bu bir kinayədir çünki, düyünü süstləşdirirsən. İradəni zəiflədirsən, möhkəm iradəni yumuşaldırsan. Bizlər çox vaxt bu problemdəyik. Süstlük iradəmizdə yaranır. Bir iş görmək istəyirik lakin görə bilmirik. Ünvanı tapmışıq getmək istəyirik lakin ayağımız gəlmir. Niyə gəlmir? Bəlkə mühit yaxşı deyil, dost yaxşı deyil? Bunlar hamısı nəffasdır. Niyə gəlmir? Mümkündür insan öz əməlinə Allah Taala buyurduğu kimi diqqət etmir. Buyurur: Əgər istəyirsənsə ruhun möhkəm olsun, həyatta bu şərrlərə düşməyəsən, düyünlərin yumuşalmasın, iradələrin süstləşməsin De: Fələqin rəbbinə pənah aparıram (qul əuzu bir rabbil fələq). Həyatında onun vilayətini qəbul et. O vilayəti qəbul etsən bəli, ruh möhkəm olar. O zaman möhkəm olar ki, Allah nə buyurur sən o formada yaşayırsan, daha səni dostunun nə dediyi maraqlandırmır. O bunu sındıra bilməz. Çünki, əvvəldən nəyi axtardığın məlumdur. Hara getmisən məlumdur. İnsan hansı qapıda qalmağında tərəddüddə qalsa onu hamı ayrı qapıya çəkər. “Qul əuzunun” mənası budur ki, mənim həyatımda necə yaşayacağım müəyyənləşib. “Qul əuzu”, yəni “pənah aparmışam”. Aydındır. Buyurur: Mən belə pənah aparmışam. Ona görə də bunların şərrindən qurtarırsan. Daha düyünlərə üfürməzlər. Deməli, Allahın vilayətini qəbul etməliyik ki, iradəmiz süstləşməsin. Mənəvi baxımdan, ürək cəhətindən zəifləməyək.

**4. Arxadan zərbələr, hilələr qarşısında məğlubiyyət**

Dördüncü zəiflik budur. Baxın, bəzən insan elmi məhdudiyyəti məsələsi deyil, gözlənməyən hadisələr qarşısındakı acizliyi deyil, iradə zəifliyi deyil, tam ayrı bir zəiflik qarşısında aciz qalır. Dünya elədir ki, dünyada insanın dalınca da danışarlar, insanı sındırarlar da. Bəzən insan səhər yuxudan durub görür ki, bunun əleyhinə nələr danışırlar. Burada sındırılmış sayılır. Qarun bir qadına öyrətdi ki, Hz.Musanı əxlaqsızlıqda ittiham etsin. Hətta desin ki, Hz.Musa onunla zina edib. Çünki, o qadın əxlaqsız idi. Ona bunu öyrətdi, və müqabilində ona çoxlu pul verdi. O qadına bəla gəldi və nəhayət

özü etiraf etdi ki, ona belə öyrədiblər. Musa günahsızdır. Həsəd, paxıllıq başqalarının insana ox atmasına bir səbəbdir. Cəhalətdə o oxlardan biri idi. İnsanın həyatına qaranlıq gətirən, gözlənməyən hadisələr də digər bir ox idi. Onu, süstləşdirən təbliğat da digər ox idi. Bu ox da həsəd oxudur, arxadan atırlar. Bu da insanın həyatına dəyir, insanı yıxır. Allah buyurur ki, bunada da qalib gələ bilərsən. Sənə ziyanı dəyməz. Əgər Allahın vilayəti ilə yaşasan. Bəzi qanunlar vardır ki, onları qəbul etmək ağır olur. Bunlardan biridə Allahın Qurandakı qanunlarıdır. Buyurur ki, napaklıq həmişə qala bilməz. Paklıq da həmişə gizli qala bilməz. Napak insan, əyri insan həmişə özünü pak göstərə bilməz. Pak insan həmişə napak göstərilə biməz. Belə ola bilməz. Bu bir qanundur. Əgər bir insana əyrilik ittiham vururlarsa, əgər pakdırsa dözürsə bir gün aydın olacaq ki, bu yalandır, ona iftira atılıb. Əgər Quran buyurursa siz möminsinizsə, təqvalısınızsa, səbr edirsinizsə, o zaman çoxlu problemləriniz həll olacaqdır.

وَاسْتَعِينُوا بِالصَّبْرِ وَالصَّلَاةِ وَإِنَّهَا لَكَبِيرَةٌ إِلَّا عَلَى الْخَاشِعِينَ

(Müsibət vaxtında) səbr etmək və namaz qılmaqla (Allahdan) kömək diləyin! Bu, ağır iş olsa da, (Allaha) itaət edənlər üçün ağır deyildir.[1]

Burada insandan səbr istəyir. Səbr imanın rəsidir. Səbr etməsə əyri yola gedilə bilər. Allahın vilayətini bir şəxs qəbul etsə, o paklığında qalsa, Allah nə cür buyurubsa elədə yaşasa, həmişə qaranlıqda qala bilməz. Çünki, nur qaranlıqda qala bilməz. Bu Quranın qanunudur. Batil gedəndir, batil dayana bilməz, batil dağılandır.

وَقُلْ جَاءَ الْحَقُّ وَزَهَقَ الْبَاطِلُ إِنَّ الْبَاطِلَ كَانَ زَهُوقًا

De: “Haqq gəldi, batil yox oldu. Çünki batil (öz-özlüyündə) yoxluğa (heçliyə) məhkumdur!”[2]

Əyrilik qalmaz. Niyə əyrilik qalmaz? Çünki, onun kökü yoxdur. Əbtər olan dayana bilməz. Kövsər surəsidə bunu demək istəyir.

1 - Bəqərə, 45
2 - İsra, 81

Rəd surəsi 17 ci ayədə də belə bir misal vardır, haqq və batil su ilə köpüyə bənzəyir.

يَضْرِبُ اللَّهُ الْحَقَّ وَالْبَاطِلَ فَأَمَّا الزَّبَدُ فَيَذْهَبُ جُفَاءً وَأَمَّا مَا يَنْفَعُ النَّاسَ فَيَمْكُثُ فِي الْأَرْضِ كَذَلِكَ يَضْرِبُ اللَّهُ الْأَمْثَالَ

Allah haqq ilə batili (sizdən ötrü) ayırd etmək üçün belə misallar çəkir. Köpük heç bir şey olmadığı üçün uçub gedər. İnsanlara fayda verən bir şey isə yer üzündə qalar. Allah belə misallar çəkir!

Köpük gedər lakin su qalar. İndi aydın olur ki, sən suyu görə bilmirsən, köpükləri görürsən. Bu zaman keçdikcə görünər. Tarix də göstərilir ki, həsəd müvəqqəti ziyana səbəb olub, amma onun yaratdığı zərərlər sonradan aradan gedib. Çünki, Hz.Peyğəmbəri (s) ərəb dünyasına cinayətkar kimi, davakar bir insan kimi təqdim etmişdirlər amma o həzrətin o səbri, paklığı, Allahın vilayəti ilə yaşamağı, şəxsi marağı ilə yaşamamağı hamıya bəllidir. Getdikcə məsələ yavaş-yavaş aydın oldu, günəş göründü. Günəşin qarşısını həmişəlik almaq olmaz. Bu Quranın qanunudur. Əgər sən əyri yoldasansa həsəd səni yıxar. Çünki, əyri yolda olsan həsəd də yıxmaq üçün sinənə saplanan bir oxdur. Bundan əlavə, cəhalətin yıxar, nəfsin yıxar, “ğasiq”lər də yıxar. Pak yolda olan həsəd edənin hiylələrindən də sağlam çıxar. Daha da ucalar. Çünki, həsədin ziyanı sahibinin özünə qayıdar. Quranda belə bir ayə vardır. Diqqət edin:

قَالَ رَبِّ انْصُرْنِي بِمَا كَذَّبُونِ

(Nuh) belə dedi: “Ey Rəbbim! Onların məni yalançı hesab etməklərinə qarşı mənə kömək et!”[1]

Necə kömək etsin? Biri budur ki, insan desin: Mənə kömək et, mənə qoşun ver, mənə dözüm ver, mənə yaxşı silah ver, mənə mələk ver imdadıma çatsın.” Amma burada ayrı söz buyurur: “Ey Rəbbim! Onların məni yalançı hesab etməklərinə qarşı mənə kömək et!” Nə qədər ki, onlar təkzib edirlər, danırlar, bu bu cür davam edərsə camaat bir gün ayılar ki, bu qədər yalan niyə? Elə

1 - Muminun, 26

yaxşıdır insanın düşməni yalançı olsun. Bu gün aldadır, amma sabah aldada bilməyəcəkdir. Varlığın qanunlarında vardır ki, yalanın kökü yoxdur. Yalan ayaq tutar, amma yeriməz. Ona görə də buyurur ki, "o danır", "o, həqiqətdən qaçır" mənə kömək et. Çünki, camaatın həmişə gözünü bağlamaq olmaz. Bu həyat qanunlarındandır. İnsan həsəddən də, onun şərrindən qaçmaq üçün Allahın vilayətini qəbul etməlidir ki, haqq yolda olsun. Haqq yolda olsa, bu hilələr, fəsadlar ona ziyan vura bilməz. Batil yolda olarsa, bunlar hamısı ona rahatlıqla zərər vurar. İnsanın nəfsi də onu yıxar. Nas surəsi elə bu məqama işarə edir. İnsan Allaha pənah aparmalıdır. Qısası bu oldu ki, hüquqi baxımdan da belə bir tərəf də vardır. Hüquqi baxımdan insan Allahın vilayətini qəbul eləməlidir çünki, O xaliqdir, yaradandır. Allahın vilayətini qəbul eləməlidir, razı olmalıdır, ürəkdən istəməlidir. Məsələn: Deməlidir ki, mən Allahın vilayətində oluram, nəinki Allah öz vilayətini mənə zorla qəbul etdirsin. Mənəvi bəhsdə isə bilməlidir ki, insan naqisdir, bəşərin zəifliyi vardır. Kamilləşmək istəsə ona pənah aparmalı, onun dediyi kimi yaşamalıdır. Bunlar insanın həyatında qaranılıqlardır. Fələq surəsi qaranlıqlardan bəhs edir. Bəşərin qaranlıqları. Qaranlığı isə parçalayan və ona işıqlıq verən "Rəbbul fələq"dir. Ona görə bu surədə "Rəbbul fələq"-"Sübhün Rəbbi" termini gəlib. Çünki, bunlar qaranlıqlardır insanı yaşamağa qoymur. Quran gətirdiyi hər terminin o surə ilə əlaqəsi vardır. Bir alim buyurur: Əgər bir kəliməni bir surədə artıq hesab etsək, yəni "belə olmasaydı da o məna yenə də anlaşılardı"- desək, o zaman bilək ki, hələ o surəni dadmamışıq. Bir misal vurub: Bir şəxsi təsəvvür edin ki, radio alıb. Radionu sökür, ondan artıq şuruplar, hissələr çıxardır yenə də radio işləyir. Deyir mən bu lazımsız hissələri çıxarıram, o yenə işləyir. Məlumdur ki, o hələ bu hissələrin nə işə yaradığını dərk etməyib. Buyurur: Quran surələri də belədir. Hansı ki, elə düşünürük ki, onda artıq hərflər, kəlimələr vardır. Məlumdur ki, biz hələ onu dərk etməmişik.

**Kafirlərin ümidlərinin kəsilməsi**.

Bəhsimiz imamət haqqındadır. Müqəddimə olaraq bəzi məsələlərə işarə edirik. Tarixdə iki formada təhrif olub:

***1- Sözlərin zahiri dəyişmək***

Ləfzlərdə, kəlmələrdə, sözlərdə dəyişiklik edib təhrif etmək. Məsələn mən burada bir söz deyirəm, başqası gedir mənim sözümü dəyişir, mənim adıma ayrı söz deyir. Sözləri artırıb, azaltmaq yaxud bir kəlməni başa kəlmə ilə əvəzləmək. Bu təhrif forması Quranda bu baş verməyib. Sözlərdə təhrif Tövratta, İncildə, bütün kitablarda baş verib, lakin Quranda baş verməyib.

***2- Sözün mənasını dəyişmək, yanlış yozmaq***

Bir təhrif də budur ki, bir şəxsin sözünün özünü yox, mənasını dəyişəsən. Deyəsən bunu demək istəmirdi, məqsədi başqadır. Yəni mənasını, məqsədini çaydırıb ayırı mənada yozurlar. Bu təhrif növü Quran haqda təfsirçilər tərəfindən çox baş vermişdir. Buna mənəvi təhrif də deyirlər. Quran bəzi yerlərdə mənəvi təhriflərin qarşısını almaq üçün xüsusi bir üslubda yığılmışdır. Əllamənin və başqa böyük Quran təhrifçilərin nəzəri belədir: Qurandakı hekayələr xüsusi yerlərdə qoyulub. Peyğəmbər bunu elə bir yerdə qoyub ki, o yer imamət ayəsi üçün münasib deyil. Bunun onlardan ayrı olmasını bildirmək üçün belə edib. Həmçinin, təhriflərdən uzaq saxlaması üçün belə edib. Baxın Quranda Əhzab surəsində Təthir ayəsi vardır. Əgər bu ayəni Allah müstəqil gətirsəydi Quranı peyğəmbər yığanda bu cür olardı. Deyərdilər ki bu ayə peyğəmbərin qadınları haqqındadır. Çünki, ərəblərdə kişi cinsində işlənən “kum” əvəzliyini qadınlara da demək olmaz. Cəm qadınlar və bir nəfər də kişi olsa yenə “kum” əvəzliyindən istifadə etmək olar. Məsələn: “Səlamun aləykum”.

Allah bu ayəni nazil edib, peyğəmbər də Allahın göstərişi ilə bu ayəni peyğəmbərin qadınları haqqındakı ayənin yanına qoyub. Ona görə ki, bunun onlara aid olmadığı aydın olsun. Necə aydın olsun? Şəxs əvəzliyi dəyişilsin. Orada peyğəmbərin qadınları haqqında qeyd olunur. “Oturun evlərinizdə”. Buyurur: “Kunnə” Kunnə sırf qadın cinsinə aiddir. Oturun evinizdə. Bu kəlmə burada olmasaydı

ayənin mənası çox təhrif oluna bilərdi. Ona görədə deyə bilməzlər ki, bu qadınlar haqqındadır.

Dinin kamil olması və kafirlərin məyus olması ayəsində də ki, Maidə surəsində qərarlaşmışdır, eyni üslub mövcuddur. Ayənin əvvəli filan ətlərin haram olması haqqındadır. Nələri yemək haramdırsa onları buyurur. Ölü heyvanın əti, qan, donuz əti və "Bismillah" deyilmədən kəsilən heyvanların əti haramdır. Sonra bunları sayandan sonra ikinci ayənin davamında yenə ondan danışır: Kim məcbur olarsa, çarəsiz olarsa yeyə bilər. Bu hissənin nə əvvəl ilə nə də sonra ilə əlaqəsi yoxdur. Əgər bu başqa yerdə olsaydı bəziləri bundan yaxşı istifadə edə bilərdilər. Buradan aydındır ki, bunun onlarla əlaqəsi yoxdur. Bu müstəqil bir sözdür.

حُرِّمَتْ عَلَيْكُمُ الْمَيْتَةُ وَالدَّمُ وَلَحْمُ الْخِنْزِيرِ وَمَا أُهِلَّ لِغَيْرِ اللَّهِ بِهِ وَالْمُنْخَنِقَةُ وَالْمَوْقُوذَةُ وَالْمُتَرَدِّيَةُ وَالنَّطِيحَةُ وَمَا أَكَلَ السَّبُعُ إِلَّا مَا ذَكَّيْتُمْ وَمَا ذُبِحَ عَلَى النُّصُبِ وَأَنْ تَسْتَقْسِمُوا بِالْأَزْلَامِ ذَلِكُمْ فِسْقٌ

"Ölü (kəsilmədən ölüb murdar olmuş) heyvan, qan, donuz əti, Allahdan başqasının adı ilə (bismillah deyilmədən) kəsilmiş, boğulmuş, (küt alət və ya silahla) vurulmuş, (bir yerdən) yıxılaraq ölmüş, (başqa bir heyvanın buynuzu ilə) vurulub gəbərmiş, vəhşi heyvanlar tərəfindən parçalanıb yeyilmiş - canı çıxmamış kəsdiyiniz heyvanlar müstəsnadır - dikinə qoyulmuş daşlar (bütlər və ya Kəbənin ətrafındakı bütpərəst qurbangahlar) üzərində kəsilmiş heyvanlar və fal oxları ilə pay bölmək sizə haram edildi. Bunlar günahdır."[1]

Burada mətləbin axarı dəyişir və araya tamam başqa bir mövzu daxil olur:

لْيَوْمَ يَئِسَ الَّذِينَ كَفَرُوا مِنْ دِينِكُمْ فَلَا تَخْشَوْهُمْ وَاخْشَوْنِ الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الْإِسْلَامَ دِينًا

"Bu gün kafirlər dininizdən (onu məhv edə bilmədikləri üçün) əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun! Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi (Məkkənin fəthi, islamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün

---

1 - Maidə, 3

bir sıra zərərli adətlərinin aradan qaldırılması və s.) tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim.”[1]

Ardınca isə əvvəlki mövzunu davam edir:

فَمَنِ اضْطُرَّ فِي مَخْمَصَةٍ غَيْرَ مُتَجَانِفٍ لِإِثْمٍ فَإِنَّ اللَّهَ غَفُورٌ رَحِيمٌ

“Kim aclıq üzündən naçar qalarsa (çətinliyə düşərsə), günaha meyl etmək niyyətində olmayaraq (zəruri ehtiyacını ödəyəcək qədər bu haram ətlərdən yeyə bilər). Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!”

Maraqlı budur ki, sonrakı ayədə də elə həmin mövzunu davam etdirir:

يَسْأَلُونَكَ مَاذَا أُحِلَّ لَهُمْ قُلْ أُحِلَّ لَكُمُ الطَّيِّبَاتُ ...

(Ya Rəsulum!) Səndən hansı şeylərin halal edildiyini soruşurlar. De: “Bütün pak nemətlər sizə halal buyurulmuşdur.

Bu söylədiklərimizə bir neçə şahidimiz vardır.

**Birinci** şahidimiz budur ki, Quranda başqa surələrdə bu barədə var. Amma onlarda belə bir hissə yoxdur. Bu Bəqərə surəsində var.[2] Qan, meyyit, donuz əti haramdır, ancaq bu məsələ yoxdur. Məlumdur ki, bu hissə olmadan ayənin tam mənası kamil deyil.

**İkinci** şahidimiz budur ki, ayələrin şəninüzulları vardır. Bu hissənin özünü müstəqil bir ayə kimi qeyd edirlər. Hz. Peyğəmbər (s) buyurub: bu ayə (dinin kamil olması və kafirlərin məyus olması ayəsin) nazil olduğu vaxt Ərəfədə idim. Məsələn bir sıra hədislərimiz də vardır ki, həmin ayənin ayrıca nazil olmasını qeyd edirlər. Əllamə Əmini 18 əhli-sünnə alimindən nümunə gətirib ki, hamısı bu ayənin Qədir-Xumda nazil olmasını qeyd etmişlər.[3] Axı bu ayə nədir? Buradan məlumdur ki, müstəqil nazil olub, müstəqil bir cümlədir. Lakin Quran toplananda bu hissəyə qoyulmuşdur ki, təhrifin qarşısı alınsın. Təhrif olmasın. Kafirlər deyir, ümidlərini kəsdilər. Bu gün məyus oldular o kəslər ki, kafir idilər. Onların ümidləri sizin dininizdən kəsildi. Diqqət edin məlum olur ki,

1 - Maidə, 3
2 - Bəqərə, 173
3 - Əl-Qədir, səh. 230-238

onların bizim dinimizi məhv etməyə ümidləri var idi. Bu gün bizim dinimizi məhv etməkdən ümidləri kəsildi. Onlardan qorxmayın. Onların ümidləri kəsildi. Adamın ümidi kəsilsə heç bir iş görməz. Çünki, onlardan qorxmayın daha ümidləri kəsildi. Bəs kimdən qorxun? Allahdan qorxun. Allah buyurur: Onlardan qorxmayın məndən qorxun. Sanki qorxmağın ünvanı əvəz olunur, kimdən qorxmağa yön verilir. Bu gün sizin dininizi kamilləşdirdim. Və nemətimi sizə tamamladım. Çünki, din kamilləşdi deyə, nemət tamamlandı. İslamın, sizə din olmasından razı oldum. Burada "əl yovm"dən - "bu gün"dən məqsəd nədir? "Bu gün kafirlər ümidlərini kəsdilər" yəni, kafirlər necə və nə üçün ümidlərini kəsdilər? Müxtəlif nəzəriyyələr vardır. Amma bunu adətən iki formada təfsir ediblər. Bir dövran kimi təfsir olunub. Yəni müəyyən gün yox. Çünki, ərəblərdə, elə azərbaycan dilində də bəzən gün sözü dövran mənasında işlənir. Dünya bir gün sənindir, bir gün mənim. Bunun mənası bu deyil ki, 24 saat sənindir, bir 24 saat mənim. Bunun mənası belədir, bir dövran sənin olur, bir dövran isə mənim. Bəziləri "əl-yovm"u "dövran" kimi məna ediblər. İndi bu hansı dövrandır? Buna dair müxtəlif nəzəriyyələr vardır. Buyururlar bu besət dövranıdır.[1] Yəni İslam dini gəldiyi zaman kafirlər məyus oldu. Bəziləri buyururlar, bu Məkkə dövranıdır.[2] Peyğəmbər Məkkəni fəth edəndə kafirlər məyus oldu. Bəziləri buyururlar yox o gün, peyğəmbər bəraət ayələrini Əliyə verdiyi, O da ayələri Məkkədə oxuduğu gündür. Yəni kafirlər ümidlərini kamil şəkildə üzdülər ki, Məkkədən bizim təsirimiz, bizim izimiz kəsildi. Kafirlər məyus olduqları o zamanlar, bu hadisələrin baş verdiyi zamanlardır. Bəziləri isə buyururlar elə müəyyən bir gündür. O 24 saatın içində. Nə günüdür. Bəziləri buyurur: Ərəfə günüdür, Hz. Peyğəmbər (s) həccətül-vidadan qayıtdığı gündür, Həccdə insanlara həcc əməllərini öyrədiyi gündür. Bu gün peyğəmbər həcc əməllərini öyrətdi ona görə də kafirlər məyus

1 - İmamət vəRəhbərlik, Mürtəza Mütəhhəri, səh. 123
2 - Əl-Mizan, Əllamə Təba-təbai, c. 5, səh. 169

oldu.[1] Bəziləri deyir yox bu Ərəfə günü deyil məqsəd bəraət nazil olan günüdür.[2] Həmin ayələr nazil olduğu zaman müşriklərə 3 ay möhlət verildi ki, onlar Məkkəni tərk etsinlər. Müxtəlif nəzəriyyələr veriblər hamısına bizim bir ümumi nəzərimiz vardır.

"Sizə nemət verdim." Buyurur: Neməti tamamladım, dininizi kamilləşdirdim. Bu Besət olmaz, çünki besətdə din hələ gəlməkdədir. Necə din kamilləşə bilər ki, hələ nemət gəlməyə başlayıb, din təzə yayılır. Ayədən məqsəd budur ki, gərək din olsun, lakin naqis nəsə qalsın ki kamilləşsin. Tamam kamil ona deyərlər ki, məsələn bir ev tikmisən ama pəncərələri qalıb. Pəncərə olmasa evdə yaşamaq olmaz. Pəncərəni qoysan olar tamam kamil. Əgər bir işdən onun öz istifadəsi gəlsə tamam olar. Əgər evin pəncərələrini də qoysan, orada yaşamağa uyğun olsa tamamlanmış olar. İndiki istifadədən əlavə ondan daha da gözəl istifadə etmək olsa olar kamil. Bu ayədən belə başa düşülür ki, din var idi, lakin hələ bütünlüklə hər şey deyilməmişdi, tamamlanmamışdı. Ona görə bu ayədən bir ayrı xasiyyətdə çıxır. Bu elə gündür ki, elə bir hadisədir ki, kafirlər ümidlərini kəsir. Besətdə kafirlər ümidlərini kəsməmişdilər. Hələ besətdə yeni başlayırdı din. Çoxlu vacibat bu besətdən və yaxud bəraətdən sonra nazil olub. Bu surə, Maidə surəsi axırıncı nazil olan surədir. Bu surədə, çoxlu vacibat vardır. Hudud var, qisas var çoxlu ayələr var ki, bu surədədir. Bu nəzəriyyələr doğru olsa, o zaman bunlar (hüdud, qisas və sair) dindən deyil. Bu nəzəriyyələr doğru olsa, bəraət ayələrindən sonra nazil olan ayələr (Məkkənin fəthindən sonra) dindən deyil. Din ilə əlaqəsi yoxdur. Digər tərəfdən o elə bir iş olmalıdır ki, kafirlərin ümidini kəsməlidir. Kafirlərin ümidinin Həcc əməlləri ilə nə əlaqəsi var? Peyğəmbər həcc əməllərini öyrədir, bunun kafirlərin ümidlərini kəsməklə əlaqəsi yoxdur. Əhkam məsələlərinin elanı kafirlərin ümidini necə kəsə bilər? Qeyd olunan nəzəriyyələrin bir neçə cəhətdən problemləri var. Bir cəhət budur, din gərək tamamlansın, nəinki başlansın, nemət gərək kamilləşsin, tamamlansın, nəinki nemət təzə başlansın.

---

1 - Cameul-bəyan, Məhəmməd Cərir Təəri, c. 6, səh. 52
2 - Əl-Mizan, Əllamə Təba-təbai, c. 5, səh. 169

Bir də burada məqsəd vacibat, Allahın hökmləri olsa onunla axıra, sona çatıb kamilləşsə belə, bununla kafirlər niyə məyus olsun?

Biz Qurani-Kərimə müraciət edək, görək ki, kafilərin bizim dinin əleyhinə arzuları nə idi? Onların arzuları niyə puç oldu? Onlar nədən məyus olublar? Bizim dinimiz haqqında nəsə ümidləri, arzuları var idi ona görə yaşayırdılar. Bir hadisə baş verdi və bunla o arzu, ümidləri boşa getdi. O nədir? Bunlar nəyə şad idilər, nəyə ümid bağlamışdılar? Quranda bir neçə ayə kafirlərin ümidlərini sayır. Buyurur:

وَدَّتْ طَائِفَةٌ مِنْ أَهْلِ الْكِتَابِ لَوْ يُضِلُّونَكُمْ وَمَا يُضِلُّونَ إِلَّا أَنْفُسَهُمْ وَمَا يَشْعُرُونَ

Kitab əhlindən bir dəstə sizi yolunuzdan sapdırmağı arzu etdikləri halda, yalnız özlərini düz yoldan sapdırırlar, lakin onlar bunu dərk etmirlər.[1]

Kafirlərin belə ümidləri var idi. Yolunuzu azmağınızı istəyirdilər. Baxın, bir nəfər təmiz insan olmaq istəyir. Onun dostları isə istəyir ki, o elə əvvəlki vəziyyətində qalsın. Yəni onun əyri dostlarının arzuları, ümidləri budur ki, bir gün öz baxışlarında itirdikləri dostlarını qaytarsınlar. Bunlar da bütpərəstlər də, kafirlər də İslam gələndə, müsəlmanlar bəzi pis işləri kənara qoyub, bəzi vacibatı icra etdilər. Kafirlər bu vəziyyətdən narahat idilər. Müsəlmanların şərab içməməsindən narahat idilər, namaz qılmasından narahat idilər, büdpərəstlikdən əl çəkməsindən narahat idilər. Arzuları bu idi ki, bir gün müsəlamanlar cahiliyyətdəki vəziyyətə qayıdarlar. Nəinki din tamamilə aradan getsin. Müsəlmanlar əvvəlki vəziyyətlərinə qayıtsınlar. Ayrı surədə bundan da açıq-aşkar şəkildə bəyan edilir:

وَدَّ كَثِيرٌ مِنْ أَهْلِ الْكِتَابِ لَوْ يَرُدُّونَكُمْ مِنْ بَعْدِ إِيمَانِكُمْ كُفَّارًا حَسَدًا مِنْ عِنْدِ أَنْفُسِهِمْ مِنْ بَعْدِ مَا تَبَيَّنَ لَهُمُ الْحَقُّ

Ey möminlər!) Kitab əhlindən bir çoxu həqiqət onlara bəlli olduqdan sonra belə, təbiətlərindəki həsəd (paxıllıq) üzündən sizi, iman gətirmiş olduğunuz halda, yenidən küfrə sövq etmək istərlər.[2]

---

1- Ali-İmran, 69
2 - Bəqərə, 109

Hədis var ki, insan tövbə etsə, Allaha tərəf qayıtsa, insan necə ki, uşağın itirəndən sonra tapsa necə sevinərsə, Allah da insan ona tərəf qayıdanda elə bil bir ana uşağını tapmış kimi sevinər. Elə bil susuz bir şəxs səhrada su tapar. Buyurulur ki, Allah da o qədər sevinər. Baxın bunun ilahi tərəfi olduğu kimi şeytani tərəfi də vardır. Onların da arzuları budur ki, bir gün insanlar islamdan üz çevirsinlər. Bir xanım hicab örtür, bəzi əyri adamların ondan xoşları gəlmir. Onların arzusu budur ki, o bir gün hicabı açacaq.

Bir gün bizim bir dostumuz var idi. O, tələbə olmaq istəyirdi. Onun atası da razı deyildi. Ona görə ona dedik ki, get atanı da razı sal, sonra tələbə ol. Atası razılıq verdi, amma dedi: Mən ona görə razılıq verdim, ümid edirəm ki, bir gün tələbəlikdən kənarlaşıb əvvəlki vəziyyətinə qayıdacaqsan. Sən əziyyət çəkəcəksən, zəhmətə düşəcəksən, Təbrizdən çıxıb gedib başqa şəhərdə oxuyacaqsan və bu çətinliklərə dözməyib qayıdacaq. Bu formalı ümid, arzu bir sıra kafirlərdə də var idi. Bu iman paltarını geyinən insanlar, bir gün bu paltarı çıxaracaqlar. Onlarda belə ümid var idi. Bu mövzuda ayrı ayələr də var. Əlbəttə bunuda qeyd edək ki, onlar İslamla da düşmən idilər. Qardaşın səninlə dinə görə düşmənçilik edirsə, əsalində səninlə düşmən deyil, namazınla düşməndir. Bunu necə nəticə alırıq? Quranda bu haqda müxtəlif ayələr var. Məsələn buyurulur:

يُرِيدُونَ أَنْ يُطْفِئُوا نُورَ اللَّهِ بِأَفْوَاهِهِمْ وَيَأْبَى اللَّهُ إِلَّا أَنْ يُتِمَّ نُورَهُ وَلَوْ كَرِهَ الْكَافِرُونَ

Onlar Allahın nurunu (dəlillərini, islam dinini, Quranı) ağızları (batil sözləri) ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu (dinini) tamamlamaq istər.[1]

Onların təkcə şəxslərlə işləri yoxdur. Allahın nurunu söndürmək fikrindədirlər. Silahları söndürməkdir. Axı insan şamı söndürəndə necə söndürər? Üfürər. Buyurur: "Onlar deyirlər Allahın nuru şamdır. Diqqət edin Allah burada onlara söz atır. Deyir onlar deyirlər Allahın nuru şamdır üfürsən sönər. Allahın nurunu ağızları ilə söndürmək istəyirlər." Amma o ilahi nur heç vaxt sönməz. Allah

1-Tövbə, 32

öz nurunu tamamlayar. Söndürə bilməzlər. Qeyd etmək istərdik ki, onların düşmənçilikləri müsəlmanlarla deyildi. İslamla idi. İstəmirlər namaz qılan olsun. Çünki, Namazdan xoşları gəlmirdi. Münafiqlərin müsəlmanların namazlarından xoşları gəlmirdi.

## Dərsin xülasəsi

### İnsanın varlıqla rabitədə dörd zəif nöqtəsi

**1. İnsan elmi məhduddur.**

İnsan niyə Allahın hökmlərinin sözünə baxmalıdır. Çünki insan heç nə bilmir. Yaratdıqlarının şərr törənməsindən Allaha pənah aparıram. Vilayətin əsasının biri budur. Bu elm və bilik bəşər üçün məhduddur, bəşər üçün naqisdir, kamilə müraciət etməlidir. Bir vilayətin əsası budur.

**2. Gözlənilməyən hadisələr**

Allahın vilayəti olduğuna görə hər şey mənim əlimdə deyil. Mən özüm özümə mütləq hakim ola bilmərəm. Hər tərəfli, hər şeyi nəzərə alana hakim deyərlər. Mən də onu edə bilmərəm çünki, gecə qaranlıqda hücumlar olur. Onların qarşısında da dayanmaq lazımdır.

**3. Zəif iradə**

İradəmiz yaznlış mühit və insanların vəsvəsəsi ilə zəifləyə bilir. Deməli, Allahın vilayətini qəbul etməliyik ki, iradəmiz süstləşməsin. Mənəvi baxımdan, ürək cəhətindən zəifləməyək.

**4. Arxadan zərbələr, hilələr qarşısında məğlubiyyət**

Baxın, bəzən insan elmi məhdudiyyəti məsələsi deyil, gözlənməyən hadisələr qarşısındakı acizliyi deyil, iradə zəifliyi deyil, arxadan vurulan zərbələr qarşısında aciz qalır.

## On üçüncü dərs

### Münafiqlərin İslamla düşmənçiliyi

Allah bir ayrı ayədə buyurur:

فَادْعُوا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ وَلَوْ كَرِهَ الْكَافِرُونَ

(Ey möminlər!) Kafirlərə xoş gəlməsə də, Allaha dini yalnız Ona aid edərək (ixlasla) ibadət edin![1]

Kafirlərin acığı gəlsədə Allahı xalis niyyətlə və pak qəlblə çağırın. Məlumdur, kafirlərin nədən acığı gəlirdi? Allahı çağırmaqdan. Yəni Allah buyuran kimi yaşamadan. Kafirlərin müsəlmanlardan acıqları gəlmirdi. Müsəlmanların Allah buyuran kimi yaşamasından acığı gəlirdi. Kafirlərin o zaman arzuları var idi. O arzuları bu idi ki, bir gün azad olacaqlar. Bir gün hər şey aradan gedəcək. Bir gün bu nur (islam) sönəcək. Bir gün bu çıraq olmayacaq. Onların belə arzuları var idi. Yəni bir gün olmayacaq. Nə edəcəklər ki, din olmayacaq? Bir çırağı söndürmək istəsək nə etməliyik? Gedib çırağı özündən, mənbəyindən söndürürük. Əvvəl düşünürdülər ki, Hz.Peyğəmbərin (s) iradəsini süstləşdirsinlər. Hz.Peyğəmbərin (s) bu istiqamətdə atdığı addımlar süstləşər, zəifləyər. İnsan bir işi gördüyü zaman taqətdən düşsə, ürəyi zəifləsə daha o işi görə bilməz. Əgər biz Allah adamı olmaq istəsək, ürəyimizin və iradəmizin zəiflədiyini hiss etsək, planlaşdırdığımız işlərin çox az bir qismini icra edə bilərik. Bu gündən qərarlaşmışıq ki, gecə namazı qılaq. Axşam bir az tez yatırıq. Saatı, bizi oyatması üçün tənzimləyirik. Gecə yarısı oyanıb saatı söndürürük ki, sabahdan durarıq. Məqsədimizi bu gündən sabaha keçiririk. Bu iradə zəifliyi o işin görülməməsinə bir səbəbdir. Quran bir sıra ayələrdə buyurur, nəyə əmr ediriksə döz.

فَاسْتَقِمْ كَمَا أُمِرْتَ وَمَنْ تَابَ مَعَكَ وَلَا تَطْغَوْا إِنَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

---

1 - Ğafir, 14

(Ya Rəsulum!) Sənə əmr edildiyi kimi, düz (yolda möhkəm iradə ilə) ol. Səninlə birlikdə iman gətirənlər (tövbə edib ardınca gedənlər) də düz (yolda) olsunlar. (Allahın əmrlərini pozub) həddi aşmayın, çünki O sizin nə etdiklərinizi görəndir![1]

Hətta Allahın rəsulu (s) buyurur: Bu ayələrin bəzisi məni qocaltdı. Hud surəsi məni qocaltdı. Çünki, orada "dözün" kəlamını mənə buyurmadı. Dözünü səhabələrə buyurdu. Onlar isə dözə bilmədilər. Buyurur: Döz və sənin yanındakılar da dözsünlər. Çünki, onun iradəsini zəifləşdirsələr, süstləşdirsələr çıraqlar yanmaz. Onlar istəyirdilər çırağı söndürsünlər, bunun bir yolu da bu idi. Hz.Peyğəmbəri (s) ruhdan salsınlar. Yadınızdadırsa "nəffasati fil uqəd"i qeyd edərkən izah etmişdik ki, bir iş də budur: İnsanın düzgün gördüyü işini gözdən salsınlar. Bizlərində də bu xüsusiyyət vardır. İnsanın yanlış niyyətli dostu istəmir insan pak işlər görsün, günahlardan əl çəksin. Mühit insana yaşadığı yerə görə təsir göstərir. İnsan qərarlaşıb ki, təmiz, pak insan olsun. Lakin o paklığa əməl etməyə "nəffaslar" icazə vermir. Onlar Hz.Peyğəmbər (s) haqda da belə düşünürdülər. Elə zənn edirdilər ki, o adi insanlar kimidir. Onu da süstləşdirib iradəsini zəiflətmək olacaq. Necə? Qurani-Kərimdə bu haqda ayələr vardır. Buyurur ki, onların arzuları budur ki, sən yumuşalasan, onlar da yumuşalsınlar.

فَلَا تُطِعِ الْمُكَذِّبِينَ ﴿٨﴾ وَدُّوا لَوْ تُدْهِنُ فَيُدْهِنُونَ ﴿٩﴾

Elə isə (ya Peyğəmbər! Allahın ayələrini) yalan sayanlara itaət etmə! **(8)** (Müşriklər) istərdilər ki, sən onlara yumşaqlıq göstərəsən, onlar da sənə yumşaqlıq göstərsinlər! (Sən onların bütləri barəsində pis söz deməyəsən, onlar da sənə əziyyət verməsinlər və ya sən onların bütlərinə tapınasan, onlar da sənin Allahına ibadət etsinlər!) **(9)** [2]

Peyğəmbəri hansı yolla yumuşaltmaq fikrində idilər? Onlar peyğəmbərə müxtəlif təkliflər verirdilər. Bir gün biz səninlə namaz qılaq. Bir gün də sən bizimlə büdpərəstlik et. Razı idilər ki, əvvəl

---

1 - Hud, 112
2 - Qələm, 8-9

namaz qılsınlar, sonra gedib büdpərəstlik etsinlər. Hətta buna da razı idilər. Biz öz nəzərimizlə baxsaq; sanki əvvəl başlayaq namaz qılaq, sonra bunlarla gedək bütpərəstlik etməyə. Məqsəd bu işi görüb görməmək deyildi. Məqsəd, peyğəmbəri o möhkəm iradədən sındırmaq idi. Əməl o zəif iradədən sonra gələr. İstəyirdilər ki, Hz.Peyğəmbərin (s) “mən heç vaxt lə ilahə illallahdan əl çəkmərəm”-iradəsini sındırsınlar. Hətta bunun üçün lazm olsa bir müddət onunla birlikdə olsunlar. Əgər namaz qılan iradə sınsa, onda son başlayar. Sən yumuşalsan, onlar da yumuşalar. Onlar bir sıra ayrı-ayrı təkliflər də edirdilər. Bu bir baxımdan özlərinin təkəbbürünü göstərir, bir baxımdan da peyğəmbəri islami dəyərlərdən yayındırmaq məqsədi güdürdülər.

Bəzən münafiq cildində islama daxil olub, yavaş-yavaş süstlük göstərirdilər, yaxud islam dinindən çıxırdılar ki, Hz. Peyğəmbərin (s) və müsəlmanların iradəsi süstləşsin. Peyğəmbərə dedikləri sözlər, öz düşüncələrinə görə sındırmaq məqsədli idi. Sanki, biz deyirik ki, mütləq bu işi görəcəm, kənardan yavaş-yavaş təsir göstərirlər ki, bir az səni yavaşlatsınlar. Bizi pak işlərdən yayındırmağa çalışırlar. Onlar da belə düşünürdülər ki, bəlkə peyğəmbərin möhkəm iradəsini bir azda olsa zəiflədə bilərik. Hətta bir az da olsa zəifləsə belə yaxşıdır-deyirlər. Qurana və tarixə nəzər salsaq, Hz.Peyğəmbərə (s) bu kimi yayındırmaq məqsədli çoxlu təkliflər verirdilər. Kənardan baxsanız bu təklifləri qəbul etmək bəlkədə yaxşı olardı. Bu cəhətdən ki, bəli sakitlik olardı. Biz isə bu cəhətdən baxmırıq. Köklü dəyərlərdə saziş olmaz. Məsələn: Sən kafir mən müsəlman gəl Allaha inanmamaqda saziş imzalayaq. Belə bir saziş olmaz. Kök və bünövrə dəyərlərdə saziş ola bilməz. Onlar istədilər ki, peyğəmbəri yumuşaltsınlar, fikrindən yayındırsınlar.

## Hz. Məhəmməd Peyğəmbərin (s) möhkəm iradəsi

قُلْ يَا أَيُّهَا الْكَافِرُونَ ﴿١﴾ لَا أَعْبُدُ مَا تَعْبُدُونَ ﴿٢﴾ وَلَا أَنْتُمْ عَابِدُونَ مَا أَعْبُدُ ﴿٣﴾ وَلَا أَنَا عَابِدٌ مَا عَبَدْتُمْ ﴿٤﴾ وَلَا أَنْتُمْ عَابِدُونَ مَا أَعْبُدُ ﴿٥﴾ لَكُمْ دِينُكُمْ وَلِيَ دِينِ ﴿٦﴾

(Ya Peyğəmbər! Sənə - bir il bizim bütlərimizə ibadət et, bir il də biz sənin Rəbbinə ibadət edək - deyən müşriklərə) de: "Ey kafirlər! **(1)** Mən sizin ibadət etdiklərinizə (bütlərə) ibadət etmərəm! **(2)** Siz də mənim ibadət etdiyimə (Allaha) ibadət etməzsiniz! **(3)** Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm! **(4)** Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz! **(5)** Sizin öz dininiz var, mənim də öz dinim! (Elə isə sizin dininiz sizə, mənim dinim də mənə)!" **(6)** [1]

Quranda yuxarıdakı ayələri bəziləri yaxşı məna edə bilməyiblər. Qeyd ediblər ki, "hər kəs öz dinində qalsın", "Əyri yolu gedən əyri yol getsin. Kiminsə mənim əyri və ya düz yolu getməyimlə işi olmasın." mənasındadır. Ayənin mənası heçdə belə deyil. Bu surə Peyğəmbəri fikrindən yayındırmaq istədikləri vaxt buyurulub. Həmin mərhələdə bu ayə nazil olub. O zaman peyğəmbərdən gözləntiləri onun nəsə güzəştlərə gedəcəyi idi. Və yaxud onlara imtiyaz verəcəyi idi. O zaman peyğəmbərin dili ilə həmin şəxslərə buyurur: "Sizin öz dininiz var, mənim də öz dinim (Elə isə sizin dininiz sizə, mənim dinim də mənə)!" Burada buyurulmayıb ki, mən sizin dininizi rəsmi tanıyıram. Ayədəki məqsəd budur: "Mən dinimdən əl çəkmərəm." Diqqət edin ayə və surə necədir. Bəziləri qeyd edir ki, mənim onun dininin hansı olduğuyla heç bir işim yoxdur. Xeyr, peyğəmbərin sözü isə belədir: Biz dinə hamını dəvət edirik. İndiki mərhələdə siz məni fikrimdən yayındırmaq istəyirsiniz onu bilin ki, mən dinimdən əl çəkən deyiləm. "Ləkum dinikum"- buyurulmasında məqsəd yəni, dininiz sizin özünüzə lazımdır, nəinki mən sizin dininizi rəsmi tanıyıram. Hz.Peyğəmbərin (s) iradəsi süstləşmədi. Onların İslamın bir gün aradan getməsi arzusu bununla da baş tutmadı. Bu sanki belə bir dərsdir ki, sanki bir şəxs vətəni qorumaq üçün hərbi rəhbərliyi öhdəsinə götürüb gərək bu yolda süstləşməsin. Bundan yayınsa

---

1 - Kafirun, 1-6

məğlub olacaqdır. Qurani-Kərimdə kafirlərin başqa arzuarıda var idi ki, biz onları burada qeyd etmirik. Sonuncu arzuları bu idi ki, bu nur axırda sönəcək. Ərəblərin bir baxışları var idi. O da bu idi ki, peyğəmbər hökümət edir, peyğəmbərlik etmir. Onlar peyğəmbərin bir imperator kimi zahiri hökmranlığını görürdülər. Necə ki, Rum imperatoru, İran imperatoru var idi, deyirdilər peyğəmbər də belədir. Ömrü bir gün söna yetəcək. İslam nuru bir gün sönəcək. Necə sönəcək? Onun oğlan övladı yoxdur. Bununla da sönəcəkdir. Varisi yoxdur. Çünki, hər imperator silsiləsi o vaxt oğlu ilə davam edirdi. Oğlu olmasaydı davam etmirdi. Ona görə axırıncı arzuları bu idi, eybi yox gözləyək, dözək. Lakin öləndə bitəcək, öz-özünə sönəcəkdir. Ona görə də Kövsər surəsində peyğəmbərə "əbtər"-"qısır" dedikləri qeyd olunur. Peyğəmbəri təkcə təhqir etmirdilər, eyni zamanda öz arzularını da deyirdilər. Demək istəyirdilər ki, biz islamın sönməsini gözləyirik çünki, sən əbtərsən. Kövsər islamın sönməsinin qarşısını alır. Hz. Zəhra (s) islamın sönməsinin qarşısını aldı. İmamlıq varisləri olan övlad rabitəsinin böyük əksəriyyəti hamısı Hz. Zəhra (s) nın rabitəsindədir. Yaxşı bəs əgər arzuları bu idisə ki, bir gün islam sönəcək çünki, peyğəmbərin oğlu yoxdur. Bunların, İslamın imperatorluq olmamasından xəbərləri yox idi? Allah-təaala Qədir-Xumda onlara elan etdi ki, vilayət irsi bağlılıq ilə deyil. Dünənəcən belə düşünürdülər ki, din peyğəmbərin şəxsinə bağlıdır. Qədir-Xum günü düşündülər ki, din həmişə olacaq çünki, o bir sıra mənəvi ünvanlara bağlıdır. Bunu "mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır" buyurduğu zaman bunu izah etdi.

## İslam nurunun imamətlə davam etməsi

Buradan bir ayrı bəhs də düşünün. Əgər insan işlərini özünə, təkcə şəxsinə bağlasa, özü də aradan getməklə həmən işlər də aradan gedəcəkdir. Əgər bir dərsi yalnız bir müəllim tələbələrə tədris edərsə, müəllim öləndə daha o elm, o dərs də aradan gedəcək. Əgər bir müəllim deyil, bir neçə müəllim dərsi tədris edərsə bir müəllim getməklə tədris dayanmacaqdır. Anladılar ki, Hz.Peyğəmbəri

öldürsəydilər də din aradan getməzdi. Hz. Əlinin (ə) imamlığa seçilməsi ilə həmin gündən sonra məyus oldular. O gün bu arzuları puça çıxdı. O zaman onların arzuları puça çıxdı ki, Allah-Taala buyurdu ki, din həmişə qalacaqdır. Düzdür Allah buyurub din axıracan qalacaq, amma o hər ümmətdə həmişə qalmayacaq. Allah hamıya bir fürsət verər. Nemət verər. Əgər o nemətdən insan faydalansa Allah yeni bir nemət də verər. Allah mənə ağıl verib. Əgər ağlımdan düzgün faydalansam, Allah iman da verər. İmandan da düz faydalansam, Allah nur, bəsirət ayrı nemətlər də verər və s. Təbii ki, əgər faydalansam. Ağlımdan düz faydalanmasam, Allah hər şeyi əlimdən alar. Haqqa kor edər, kar edər, və s. Düzdür Allah-Taala belədir ki, nemәti verər, lakin belə deyil, verdiyi məndə həmişəlik qalar. Onu saxlaya bilsəm qalar. Din də Allahın bir nemətidir. Mümkündür məndən dini Allah alsın. Çünki, günah edirəm. Din aradan getməz. Ancaq mənim qəlbimdə, ümmətimdən, qövmümdən gedə bilər. Allah buyurur: Sizin dininizə nisbətən, kafirlərin arzuları var idi lakin onlar məyus oldular. Onlardan qorxmayın. O dininizə görə məndən qorxun. Əgər, dinin onların vasitəsilə aradan aparacağından qorxursunuzsa, qorxmayın, amma məndən qorxun. Çünki, dini sizin əlinizdən günahlarınıza görə alaram. Yəni mümkündür ki, insan Allaha öz düşmənləri səbəbi ilə asi olsun. İnsanın iki cür düşməni (nas, fələq surəsində işarə etdiyim kimi) vardır. Bəzi düşmənlər insana kənardan, xaricdən gəlir. Adamın pis dostu, pis mühiti, baxdığı pis kino və s. Bunlar xaricdən gələn düşmənlərdir. Mümkündür insanın əlindən pis dostunu alsınlar və ya pis kinoya baxmaq şəraitini əlindən alsınlar. Amma nəfs insana içəridən xələl gətirər. İkinci düşmən deməli daxili düşməndir. Buyurur: Daha onlardan qorxmayın çünki, onlar sizin dininizə heç nə edə bilməzlər. Məndən qorxun!

إِنَّمَا ذَٰلِكُمُ الشَّيْطَانُ يُخَوِّفُ أَوْلِيَاءَهُ فَلَا تَخَافُوهُمْ وَخَافُونِ إِنْ كُنْتُمْ مُؤْمِنِينَ

Sizi yalnız o Şeytan öz dostlarından (guya onların çox qüvvətli olmasıyla) qorxudub çəkindirir. Amma siz onlardan qorxmayın! Əgər möminsinizsə, Məndən qorxun![1]

Yəni əgər siz istəsəniz dininizi (mənəviyyatınızı) saxlayasınız, mömin insan olasınız, o zaman onlar da sizə təsir göstərə bilməzlər. Özünüz öz imanınızı dağıda bilərsiniz. Peyğəmbərdən sonra vəziyyət belədir. İslamı peyğəmbərdən sonra küfr və ya kafirlər dağıtmadı. Daxildəki nifaq dağıtdı. Nəinki bayırdan gələn düşmənçilik, onu daxili əyrilik dağıtdı. Onlardan daha qorxmayın məndən qorxun. Belə deyək baxın bir zaman insanı namaza qoymazlar və ya hicab örtsün. Bunları mənim əlimdən alsınlar. İstər rəsmi, istər sə də vəsvəsə ilə. İstərsə də aldatmaqla. Bu bir mərhələdir. İndi həmən şəxs o mərhələdən çıxdı. Dostuna qalib gəldi, vəsvəsələrə qalib gəldi. Daha sonra o şəxs namaz qılan, Allah adamı oldu. Böyük təhlükə budur ki, özü öz tikdiyini dağıdsın. Ona görə verdiyimiz imtahanlar imandan sonra və imandan qabaq olacaqdır. Belə deyil ki, dinə gəlməyə qoymayan maneələr aradan gedəndən sonra dinə gəldimsə rahatlaşmalıyam. Ondan sonra da ayrı bir mərhələ gəlir. Ondan sonra nəfs insanı daxildən parçalayır. Çünki, tarixi görürsünüz. Rəsulullah dinə dəvət edirdi, büdpərəstliyə mane olurdu, lakin peyğəmbər Hz. Əlini vəli (imam) seçdiyi zaman bu amil müsəlmanları daxildən parçalayırdı. Allahın hökmünü qəbul etməyə maneə yaradırdı. Bir alim buyurur: Şəhidlik iki cürdür. Bir qan şəhdiliyi var insan Allah yolunda qan versin, can versin bu asandır. Bir də ad şəhidliyi var. Adam adın da şəhidlik olur. Qan şəhidliyi cismini Allaha verir, ad şəhidliyi isə ruhunu Allaha verməkdir. Peyğəmbərin səhabələri çoxu döyüş meydanında peyğəmbəri sevindirirdilər. Təlhə haqqında hədis var: Onun qılıncı məni sevindirir. Lakin o qan şəhidliyi sahəsində idi. Ad şəhidliyində bu fərqli oldu peyğəmbəri incitdi. O da çətindir.

1 - Ali-İmran, 175

## İman imtahanı

Bir ayrı mənayla qeyd edək. Biz insanlar iki növ imtahan oluruq. Bir imtahan, yolu tapmamışdan və getməmişdən qabaq. Bir imtahan isə yola düşəndə olur. Yolun özündə də imtahan veririk, mümkündür dayanaq geri qayıdaq. İndi biz o mərhələdəyik namaz qılanıq, Allah adamıyıq. Mümkündür dayanaq. Bizi saxlayan nədir? Bunlar içəridə olan daxili amillərdir. Daha burada mənim atam, qardaşım deməyib namaz qılma, filan işi görmə. Bəs bunları kim deyir? Nəfsim deyir. Allah da burada onlara buyurur: Onlardan qorxmayın məndən qorxun. Əllamə buyurur: Allah burda onları qorxudur, xəbərdarlıq edir, daha yalnız məndən qorxun. Buyurur: Bu gün kafirlər ümidlərini kəsdilər bildilər ki, dinə görə daha heç nə edə bilməzlər. Bəs onlardan qorxmayın məndən qorxun. Bu gün dini sizə kamilləşdirdik. Qeyd etdik, bu ayə o günə aiddir ki, o gün Allah bir növ kafirlərin ümidlərini naümidliyə çevirib. O da həmin gündür ki, İslamı peyğəmbərin şəxsinə bağlılıqdan çıxarıb, ümumi bir ünvana bağlılıq edib. Mən kimi mövlasıyamsa yəni İmam Həsən (ə) də, İmam Hüseyn (ə) də mövladır. Beləliklə 12 imam hamısı mövladır. Peyğəmbərin hədislərində 12 imamın hamısı haqqında qeyd olunur. Budur ki, din şəxsilikdən çıxdı daha sonra imamətə bağlandı. Niyə Allah buyurur ki, neməti tamamladım, dini sizə kamilləşdirdim? Nəyinsə bir hissəsi az olduğu zaman onu tamamlamaq, kamil etmək lazım olur. Sənin saatına 10 hissə lazımdır, əqrəbi və ya başqa şeyləri yoxdur ki, o işləsin. O hissələri yerinə qoysan saat tamamlanar. Kamala çatmaq o zamandır ki, hissələrə aid deyil. Bunu yeni hala salmaqdır. Sanki hər hansı cihazdan bir məqsədlə istifadə edirdik, bunu yeni üsulda istifadə etməyi də öyrəndik, buna kamal deyirlər. Bunun hissələrini atmadıq. Vilayət həm dinin hökmlərindən biridir, həm də dinin ruhudur ona görə tamamlanır. Bir baxımdan dini insan bədəninə bənzətsək hələ onun gözləri yaranmamışdırsa bu zaman naqislik yaranır. Gözü verirlər, daha sonra gözlə bir yerdə ruh da verirlər. Göz bədəni tamamlayır, ruh bunu kamilləşdirir. Yeni mərhələyə aparır. Olur kamil insan.

Vilayət də bir baxımdan dinin tamamıdır, bir baxımdan dinin kamalıdır.

## Qədr gecəsi və vilayət

Vilayət islamın yaşaması üçün onun əsas bünövrələrindəndir. Vilayət həmçinin, dində namaz, oruc və ya başqa əmr olunanlarla bir yerdədir. Vilayət dinin ayrı mərhələyə çatmağına səbəb olur. Məsələn: Bir cəhətdən bilirik ki, Quran nazil olub. Biri də var ki, Qədr gecəsi Quranın nazil olma gecəsidir. Quranın nazil olması bir dəfə baş verib. Qədr gecəsi isə hər il təkrar olunur. Amma Qədr nə deməkdir. Qədrin lüğəvi və terminoloji mənası vardır. Allahın qəza-qədəri müəyyənləşdirmə mənası da vardır. Qədr gecəsinin özünün xüsusi bərəkətləri var. Hansı cəhətdən? İlk olaraq bunu qeyd edək ki, Quran ayələrindən məlum olur ki, Qədr gecəsində şeytan xüsusi bir vəsvəsə edə bilməz. Keçmiş vəsvəsələri davam edə bilər. Amma o günə məxsus bir vəsvəsə edə bilməz ki, bəşərə hər hansı bir qeyriadi vəsvəsə baş versin.

سَلَامٌ هِيَ حَتَّى مَطْلَعِ الْفَجْرِ

O gecə dan yeri sökülənə kimi (büsbütün) salamatlıqdır! (əmin-amanlıqdır)[1]

O gecə sübhə qədər salamatlıqdır, yəni onun yeni vəsvəsəsindən amandadır bəşər. Salamatlıq burada mənəvi sağlamlıqdır. Göydən yerə bərəkət gəlir. Salamatlığın bir mənası da budur ki, mələklər nazil olur. Nazil olub yox, nazil olur, yəni hər il bu gecədə nazil olur. Onlar nəinki peyğəmbər dövründə nazil olub. Mələklər və ruh da nazil olur. Mələk nazil olmağı onu göstərir ki, gərək ev sahibi olsun evə qonaq da  gəlsin. Mələk kimə nazil olar? Bu ayə göstərir ki, Allahın yer üzündə bir nümayəndəsi, bir xəlifəsi olmalıdır. Çünki, mələk hər il nazil olur. Əgər mələk nazil olursa, onun nazil olan yeri də olmalıdır. İndi hara nazil olur, kim qəbul edir bu mələkləri? Bu ayə və hədislər göstərir ki, hər zaman bir vəliyullah, Allah tərəfindən bir şəxs olmalıdır mələkdə ona nazil olsun. Özü də

1 - Qədr, 5

"əl mələikatu" mələklər və Ruh. Hədislərimizdə Ruhun nazil olmağı haqda müxtəlif təfsirlər irəli sürüblər. Bəziləri deyir: Ruh böyük mələklərdəndir və yaxud Cəbraildir.[1] Bəziləri bir ayrı mələyi təsəvvür edirlər. İmam Sadiq (ə) buyurur: "Ruh mələk deyil. Ruh mələklərdən belə böyükdür".[2] Ayə də buna işarə edir. Buyurur: mələklər və Ruh. Bu ayə mələkləri Ruhdan ayırıb, ayrı bir ünvan edib ki, ruh mələklər deyil. Ruh nazil olur bu nə deməkdir? Ruh əmr aləmindəndir. Əgər Ruh nazil olub, yəni insana bu gecədə nazil olub. Quranın ayələrindən mlum olur ki, insanlar iki cür ruha malikdir. Birinci adi ruhdur. O ruhun istəyi mədəsini doyurmaq, duyğularının əsasında yaşamaqdır. Bu ruhi-heyvani yəni həyat ruhudur. Bu ruh insan təbiətən canlı olduğu üçün heyvani adlanır. Bir ruh da vardır ki, bu ruh əməyi, istəyi, istiqaməti dəyişir. Buna pak ruh deyirlər. Yəni insan bu ruhla təkcə heyvani (canlı) istəkləri tələb etmir. Əgər həyatında heyvani istək varsa, onun insani istək istiqamətindən qaynaqlanır. Kamil insan da olsa bir canlı kimi insan qidalanmağa ehtiyac duyur. Lakin qidalanması yemək xatirinə deyildir. Yemələri cismə qüvvət vermək üçündür ki, insanlığını inkişaf etdirsin, ibadət, itaət etsin. Kamil insanlar da gülər, amma gül-məkləri vaxt keçirmə və yaxud bihudə deyil. Gülməkləri də bu istiqamətdir ki, onların ruhu istirahət etsin. Adi ruhlar yaşamaq istəyir. "Təyyibə ruhlar"-"Pak ryhlar" inkişaf etmək istəyir. Bir həyat vardır ona sükunət dolu həyat deyilir. O həyatda olan ruhlar adi, heyvani ruhlardır. Bir sıra ruhlar da vardır ki, onlar inkişaf dolu həyatda yaşamaq istəyirlər sakit həyatda yox. "Həyati təyyibə"-"Pak həyat" yaşamaq istəyən ruhlara pak ruhlar deyirlər. Quranda bu terminlər var. Allah buyurur:

مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَى وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri yaxşı

1 - Təbyinul-Quran, Hüseyni Şirazi, səh. 621
2 - Üsuli-Kafi, Koleyni, c. 1, səh. 386; Biharül-ənvar, c. 48, səh. 3; c. 25, səh. 42

əməllərə görə mükafatlarını verəcəyik. (Və ya gördükləri yaxşı işlərin müqabilində onlara daha yaxşı mükafatlarını verəcəyik!)[1]

"Biz onlara həyati təyyibə bəxş etdik". Onlar pak həyat yaşayırlar. Nəinki təkcə axirətdə pak həyat yaşayacaqlar. Quranın ayələrindən aydın olur ki, dünyada da həyati-təyyibə vardır. Əgər ruh pak olsa dünya da axirətdə də həyatı pakdır. Ruhun məqsədi mənəvi inkişaf olsa, o insanın həyatı da çevrilər pak olar. Buyurur: Biz bu gecə o Ruhu da nazil etmişik. Buna aid ayrı ayələr də var ki, Allah insana ruh bəxş edər. Ruh bəxş etmək, yəni ruhu becərtməkdir. Bu fəlsəfi bir bəhsdir. Birdən ikiyə gedirsən yəni yuxarıya qalxırsan. Bu fərq yuxarıdan bilinməlidir. Bir dərəcədən ikinci dərəcəyə gedirəm lakin bu dərəcə məndə yox idi. Amma buna istedadım var idi. Alma tumunda alma istedadı vardır. Lakin bu alma deyil. Bu proses, yəni tumun alma olması ona yuxarıdan bəxş olunmalıdır. Yəni kamillikdə olan kamal hissəsi ona yuxarıdan verilməlidir. Çünki, məndə bu yox idi. Mən hələ üçüncü dərəcədə idim, çatdım beşinci dərəcəyə, bu iki dərəcə məndə yox idi, istedadı var idi özü isə yox idi. Onu gərək yuxarıdan bəxş edələr. Yəni insan kamilləşəndə ruh, kamal ona yuxarıdan gəlir. Buna ayrı ayələr də vardır. Bir ayə var Quranda buyurur: Əgər insan qəlbini idarə etsə, daha sonra eyni zamanda digər bədən üzvlərini də idarə etsə, aqil insan olar. Qəlbini idarə etsə "Allah cəmiyyəti"ndən sayılar.

رَضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ أُولَئِكَ حِزْبُ اللَّهِ أَلَا إِنَّ حِزْبَ اللَّهِ هُمُ الْمُفْلِحُونَ

Onlar Allahın firqəsidirlər (Allahın dininə kömək edən kimsələrdir). Bilin ki, Allahın firqəsi məhz onlar nicat tapıb (əbədi) səadətə qovuşanlardır.[2]

Bunun xeyri nədir? Allah özündən olan bir ruhla onu gücləndirər. Onun ruhuna bir ruh bəxş edər. Bu o demək deyil, bu iki ruhlu olar. Xeyr. Yəni, o ruh dirçələr, inkişaf edər. Buyurur: "O gecə mələklər və ruh nazil olacaq." İnsanın kamil olması üçün zəminə lazımdır.

1 - Nəhl, 97
2 - Mücadilə, 22

Məsələn: “Məhz bu gecədə (Qədr gecəsində)”. Nəyə görə? Hər şeyin bir başlanğıcı vardır. Alma tumunun dirçəlişinin əvvəli onu əkdiyin gündür. Zaman baxımından da bu bahar fəslidir. Sənin məqsədin də kamala doğru getməkdir. Getməyə başladığın gün o kamala gedişinin əvvəlinci günüdür. Başlamaq istədiyin gündür. Kamala doğru hərəkətin bir başlanğıcı vardır. İnsan kamalının da Allah baxımından əvvəli Qədr gecəsidir. Özüdə hər Qədr bir ilə qədərdir. Buna bənzəyir ki, bəzi dərmanlar insanın dişinin ağrısını bir saatlıq sakitləşdirəcək. Qədr gecəsi də belədir, hər Qədr bir ilin bünövrəsini təmin edir. Düzdür onun əldə etdiyi kamillik bir ildə gedir. Amma bünövrəni birinci gün qazırlar. Yəni toxumun yerə əkildiyi o gün Qədr gecəsidir. Bəzi insanların ilinin əvvəli Novruz bayramının əvvəlidir, bəzilərinin isə filan ayın əvvəlidir. Arif insanların ilinin əvvəli Qədr gecəsindən başlayır. Onlar bu gündən başlayır. İnsanın inkişafı və kamalı Qədr gecəsindən başlayır. Qədr gecəsində bu kamal baxımından həmişə təkrar olunur. Yəni Qədr gecəsi təkcə peyğəmbər zamanına aid deyil. Hər il bəşər üçün bu təkrar olunur. Hər insan öz kamalının əvvəlindən başlaya, mənəvi bünövrəsini təzədən qura bilər. Bu baxımdan insan Qədr gecəsindən elə istifadə etməlidir ki, mənəvi bünövrələrini düzgün qoysun.

Quran ayələrində olan iki termini araşdırdıq. Birinci termin Təkfirdir.

إِنْ تُبْدُوا الصَّدَقَاتِ فَنِعِمَّا هِيَ وَإِنْ تُخْفُوهَا وَتُؤْتُوهَا الْفُقَرَاءَ فَهُوَ خَيْرٌ لَكُمْ وَيُكَفِّرُ عَنْكُمْ مِنْ سَيِّئَاتِكُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ

Yoxsullara aşkarda sədəqə verməyiniz yaxşıdır, lakin onu gizlində versəniz daha yaxşı olar. Bu, günahlarınızın bir qismini örtər. Allah tutduğunuz hər bir işdən xəbərdardır![1]

Yəni insan bəzən savab iş görüb keçmiş günahını yuyur. Buna təkfir deyirlər. Təkfir, yəni silinmə.

Bir sıra insanlar da vardır ki, keçmiş günahlarını öz yeni və yaxşı əməlləri ilə savaba çevirirlər. Bu ikinci termin isə Təbdildir.

---

1 - Bəqərə, 271

إِلَّا مَنْ تَابَ وَآمَنَ وَعَمِلَ عَمَلًا صَالِحًا فَأُولَئِكَ يُبَدِّلُ اللَّهُ سَيِّئَاتِهِمْ حَسَنَاتٍ وَكَانَ اللَّهُ غَفُورًا رَحِيمًا

Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa! Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayandır, rəhm edəndir![1]

Tövbə ilə günah silinər. İnsan tövbə ilə özünü islah edə bilər. İnsan keçmiş günahlarından ibrət alaraq özünü islah etməlidir. Keçmiş səhvlər özünü araşdırmaq üçün bir mənbədir. Məsələn: mənim filan vaxt həsədim səbəb olmuşdur ki, filankəsə belə böhtan atım. İndi  ona böhtan atmıram, buna tövbə deyilir. Əgər təkcə tövbə etsən, özünü islah etməsən, sabah da tövbə etməyə məcbursan. Bu şəxsə töhmət atmırsan, lakin başqasına atırsan. Bu məsələdə deyil, başqa məsələdə bötan atırsan. Tövbə, yəni günah budağını qayçı ilə kəsmək. İslah buna deyərlər. Mən araşdırıram və günah məndən yavaş-yavaş təmizlənir. Məndə nə var idi ki, günah məndən təmizləndi?. Məndə həsəd var idi. Həsəd nədən irəli gəlirdi? Bundan irəli gəlirdi ki, mən özümü itirmişdim. Özümü nümayiş edirdim ki, məni tərif etsinlər. Özümü inkişaf etdirməyi fikirləşmirdim, özümü nümayi fikirləşirdim. Sonra gördüm ki, boş-boş işlərdən ötürü mənə həsəd gəlib, həsəddən də ittiham yaranıb. Mən də bu günahların kökünü kəsib atıram. Buna islah deyirlər. Əgər mən günahı kəssəm buna  tövbə deyilər. Çoxları günahlarından tövbə edirlər. Amma gündə tövbə etməyə məcburdurlar. Məcburdular ki, mütləq hər ay tövbə etsinlər. Çünki kök hələ var. Tikanın kökü var. Sən onu kəssən də bir aydan sonra çıxacaq. İnsan günahından dərs almalıdır. Günah dərs mənbəsidir. Düzdür gərək günah etməyəydin. Amma özünü araşdırmağa bir kitabın, bir mənbən vardır. O kitab da sənin səhvlərin, günahlarındır. Səhv və günahlarımıza kitab kimi baxmalıyıq. Tövbə etdiyimiz həmin günahların ardınca yenə gedirik. Ona görə də, o günahlar savaba çevrilmir. İslah budur ki, mən o köklərə baxım və oradan ibrət alım. İbrət yəni bu günahı etməyimin səbəbi nədir? Baxın, bu islah tarix boyu belədir. Özümüzün keçmiş

1 - Furqan, 70

günahlarından da, tarixdəki adamlardan da dərs ala bilərik. Quranda, hətta Firondan da dərs ala bilərik. Onun günahlarından, səhvlərindən ibrət ala bilərik. Allahın Fironun hekayəsini buyurmasından məqsəd onu hörmətdən salmaq deyildir. Məqsəd budur ki, qoy pis əməllər yaxşı əməllərə çevrilsin. Firona pis əməlin simvoludur. Mən ondan dərs alıram, bu isə mənə yaxşı əməli öyrədir.

Mən Firon kimilərinin başına gələn hadisələrə və onun hərəkətlərinə bu baxışla baxıram ki, bu haradan haraya gəldi? Nə üçün Allaha qarşı üsyan etdi? Onun bu hərəkətinin kökü nə idi? Nə üçün insanlara zülm etdi? O köklərə baxanda bizə bir dərs mənbəyidir. İnsan özünü islah etməlidir.

## Dərsin xülasəsi

Kafirlərin müsəlmanlardan acıqları gəlmirdi. Müsəlmanların Allah buyuran kimi yaşamasından acığı gəlirdi. Kafirlərin o zaman arzuları var idi. O arzuları bu idi ki, bir gün azad olacaqlar. Bir gün hər şey aradan gedəcək. Bir gün bu nur (islam) sönəcək. Bir gün bu çıraq olmayacaq. Onların belə arzuları var idi. Yəni bir gün olmayacaq. Bir çırağı söndürmək istəsək nə etməliyik? Gedib çırağı özündən, mənbəyindən söndürürük. Əvvəl düşünürdülər ki, Hz.Peyğəmbərin (s) iradəsini süstləşdirsinlər. Bacarmadılar.

Bəzən qorxutdular, bəzən şirnikləndirici təkliflər irəli sürdülər, bəzən döyüşdülər amma bacarmadılar. Bəzən münafiq cildində islama daxil olub, yavaş-yavaş süstlük göstərirdilər, yaxud islam dinindən çıxırdılar ki, Hz.Peyğəmbərin (s) və müsəlmanların iradəsi süstləşsin.

Sonuncu arzuları bu idi ki, bu nur axırda sönəcək. Ərəblərin bir baxışları var idi. O da bu idi ki, peyğəmbər hökümət edir, peyğəmbərlik etmir. Onlar peyğəmbərin bir imperator kimi zahiri hökmranlığını görürdülər. Elə bilirdilər ki, Hz.Pey-ğəmbərin (s) oğlu olmadığı üçün hökmranlıq son tapacaq. Onlar da rahat şəkildə

cahiliyyət dövrünə qayıdacaqlar. Allah-təaala Qədir-Xumda onlara elan etdi ki, vilayət irsi bağlılıq ilə deyil. Dünənəcən belə düşünürdülər ki, din peyğəmbərin şəxsinə bağlıdır. Qədir-Xum günü düşündülər ki, din həmişə olacaq çünki, o bir sıra mənəvi ünvanlara bağlıdır. Bunu "mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır" buyurduğu zaman bunu izah etdi. Əgər insan işlərini özünə, təkcə şəxsinə bağlasa, özü də aradan getməklə həmən işlər də aradan gedəcəkdir. Əgər bir dərsi yalnız bir müəllim tələbələrə tədris edərsə, müəllim öləndə daha o elm, o dərs də aradan gedəcək.

Anladılar ki, Hz.Peyğəmbəri öldürsəydilər də din aradan getməzdi. Hz.Əlinin (ə) imamlığa seçilməsi ilə həmin gündən sonra məyus oldular. O gün bu arzuları puça çıxdı. O zaman onların arzuları puça çıxdı ki, Allah-Taala buyurdu ki, din həmişə qalacaqdır.

Hər şeyin bir başlanğıcı vardır. Alma tumunun dirçəlişinin əvvəli onu əkdiyin gündür. Zaman baxımından da bu bahar fəslidir. Sənin məqsədin də kamala doğru getməkdir. Getməyə başladığın gün o kamala gedişinin əvvəlinci günüdür. Başlamaq istədiyin gündür. Kamala doğru hərəkətin bir başlanğıcı vardır. İnsan kamalının da Allah baxımından əvvəli Qədr gecəsidir.

## On dördüncü dərs

### İnsanı həqiqətdən uzaqlaşdıran səbəblər

Bizə təkcə Qədr gecəsində tövbə etmək kifayət deyil. Bünövrə qoymaq üçün təkcə tövbə kifayət deyil, islah lazımdır. İslah da budur ki, qayıdaq kökləri araşdıraq, günahın hansı köklərdən yaranması bizə aydın olsun. İnsan gərək özünü tanısın. İnsan sərxoş vaxtında özünü tanımır. Biz su və köpüyə bənzəyirik. Əgər su sabit olsa, arxadan gələn su onda köpük yaradacaq. Biz də həyatımızda bir dostumuzla danışırıq, bununla otururuq, kinoya baxırıq, televizora baxırıq, deyirik, gülürük, yeyirik və s özümüzə xəlvət, səssiz, aram bir vaxt verməmişik ki, köpük dayansın və mən kim olduğumu görüm. Adi vaxt mən özümü tanımıram. Başqa vaxt bunu görürəm və nəfsimlə mübarizə aparıram. Biz mikrobları ayrı cür tanıya bilirik. Aram vaxtı, böhrana düşəndə. İnsanda bəzən ağır soyuqdəymə olar. Ağır soyuqdəymə zamanı özünü səthi müalicə edir. Yəni budağını kəsir, kökünü kəsmir. Ürəkdə, ciyərdə xəstəlik qalıb, lakin xəstəliyin zahiri boğazdan gedib. Elə bilir ki, sağalıb. Buna görədə sevinir. Bilmir ki, bir azda hava soyusa, bir az da ciyərinə soyuq olsa daxilində olan o ağır xəstəlik necə şiddətlənəcək. Üzə çıxacaq. Biz də mənəvi cəhətdən beləyik. Bizim günahlarımızın kökü böhranlar zamanı üzə çıxır. Böhranda, yəni ağır bir hadisə ilə üzləşəndə anlaşılır. Çünki, bu hadisə ilə üzbə üz olmamışdım, bu hadisə baş tutmamışdı ona görə də deyirdim ki mən pakam. Payız ayları idi, özümü sağlam hesab edirdim. Qışa çatdı soyuqla üzbəüz oldum. Gördüm ki, yox yavaş-yavaş soyuqdəymə daxili problemləri də tərpədib. Ona görə də, insan özünü ya sakit vaxtda tanımalıdır. Ya da böhra vaxtlarında diqqətli olaraq tanımalıdır. Qısası budur ki, biz gərək özümüzü tanıyaq. Özümüzü tanımaq da elə belə olmamalıdır, yəni doğurdan özümüzü tanımalıyıq. Nəinki özümüzü aldadaq. Özümü görmək üçün arada

olan pərdələri, maneələri aradan aparmalıyıq. Yasin surəsinin 9-cu ayəsində buyurulur:

وَجَعَلْنَا مِنْ بَيْنِ أَيْدِيهِمْ سَدًّا وَمِنْ خَلْفِهِمْ سَدًّا فَأَغْشَيْنَاهُمْ فَهُمْ لَا يُبْصِرُونَ

"Biz onların önlərinə və arxalarına sədd çəkib (gözlərini) bağlamışıq. Buna görə də (Allahın qüdrətinə dəlalət edən əlamətləri) görmürlər. (Kafirlərin qəlb gözü kor edilmiş, bütün iman yolları üzlərinə bağlanmışdır. Onlar zahirən görsələr də, mənən kordular)."[1]

Buyurur: Biz insanın qarşısına sədd qoymuşuq. Və insan zəncirə vurulub. Bunlar kinayədir. Məşğuledici vəziyyətdə insan özünü görməz deməkdir. Cavanların çoxu özlərini görə bilmirlər. Onlar, ağır bir xəstəliyə düşsələr, ağır bir zərbə alsalar görərlər. Sakitləşərlər, məşğulluq aləmindən çıxarlar. Çünki, bəzi insanlar ağır bir müsibətdə tövbə edir. Nəinki müsibət gəlir ki, onlar da tövbə etsinlər. Özlərini görmələrinə müsibət səbəb olur. Əgər ayrı vaxt özlərini görsəydilər qayıdardılar. Lakin ayrı vaxt görə bilmirdilər. Bəzən insan ixtiyari şəkildə gözünün qarşısındakı pərdəni qaldıra bilməz. Allah bəla göndərər və o pərdə ixtiyarsız şəkildə aradan gedər. Bəla da pərdənin aradan getməsi üçün bir nemətdir.

## Qədr gecəsinin bəşəriyyətlə qarşılıqlı əlaqəsi

Qısası Qədr gecəsi mən gərək özümü (əməllərimi) müşahidə edim. Yenidən bünövrəmi möhkəm formada qurum. O gün Allahın mələkləri də, Ruh da nazil olur. Və Allahdan gələn əmr "kullu əmr" iki tərəfli rabitə olur. Qədr gecəsində rabitə iki tərəflidir. Həm insandan Allaha gedir, həm Allahdan insana gəlir. Yəni insan nəyi tələb edirsə yuxarıya, Allah nəyi göndərirsə aşağıya çatdırılır. Rabitə bu cür açıqdır. Ona görə Qədr gecəsi ən gözəl vaxtdır ki, insan özünə qiymət versin. Özünü axtarsın. O zamana qədər özünü araşdırsın ki, həyatı üçün bir yenilənmə və inkişaf proqramı hazırlasın. Qədr gecəsi proqram hazırlama gecəsidir. Əlbəttə

1 - Yasin, 9

proqram hazırlamaq həmişə olmalıdır. Daim insan özünü yoxlamalı, sabit saxlamalıdır. Biz ildə bir dəfə özümüzü yoxlasaq, bacarsaq ayda bir dəfə, bacarsaq həftədə bir dəfə rabitələrimizi yoxlasaq, ruhumuzu yoxlasaq o zaman sabit qalarıq. Necə ki, hər ölkə öz ixrac və idxalını yoxlayır, bizim ruhumuz da bir ölkədir.

İmam Sadiqdən (s) "Ağlın qoşunları, cəhalətin qoşunları" adlı hədis vardır.[1] Bu hədisdə imam insanda olan xasiyyətləri qoşunlara bənzədib. Müqayisəli şəkildə 75-78 qoşun qeyd edib. İnsanı da ölkəyə bənzədib. İnsanın ruhu ölkədir. Bu ölkənin öz mühafizəçiləri, rəhbəri və düşmənləri də vardır. Bunlar qarşı qarşıya gəlir. Həmişə gərək sərhədçilər nəyin ixrac, nəyin idxal olduğunu yoxlasınlar. Mədaxili və məxarici yoxlasınlar ki, ölkə düşmənin əlinə keçməsin. Bizim ruhumuz da bir ölkədir və ruhumuzun da düşməni də vardır. İmam Əli buyurur:

نَفسُكَ أقرَبُ أعدائكَ إلَيكَ

"Sənə ən yaxın düşmən, öz içində olan nəfsindir".[2] Ağır düşmən buradadır. Adətən düşmənin cəbhəsi üzbəüz olur. Düşmənlərimiz vardır ki, onlar üzbəüzdə qərarlaşmışlar. Lakin sənin düşmənin içərindəki nəfsindir. O həmişə sənə zərbə vurmaq istəyir. O istəyir ki, sənə öz istəklərini əmr etsin. Və səndə ona tabe olasan. Bir nəfər soruşa bilər: Axı insan özünü sevir, necə öz ziyanına çalışa bilər? Bizim bəhsimiz elə budur: İnsan bəzən öz ziyanına çalışır. Sualı bu oldu ki, insan ziyanına çalışmaz çünki, insan özünü sevir. Cavabı budur: Axı insan bəzən özünü itirər. Özü özünə biganəlik edə bilər. Nəfsin çalışması bəşərə, ruha özünü isbat etməsidir. Mən ruhuma qulluq etməsəm, inkişafıma qulluq etməsəm, o zaman nəfsimə qulluq edəcəyəm. Nəfs o vaxt məlub olar ki, mən özümü başa salım. Onda mən özümü sevərəm, lakin mən kim olduğumu itirmişəm. Elə bil bir nəfər gəlib, ama mən onu tanımıram. Adı Həsəndir. Mən ona pul verməliyəm. Deyir ki, mən Həsənəm.

---

1 - Üsuli-Kafi, Koleyni, c. 1, səh. 57 (75 qoşun zikr edilib); İləlüş-şəraye, Səduq, səh. 135 (78 qoşunqeyd edilib)

2 - Qürərül-hikəm, 9957

Özünü təqdim edir, mən də aldanıram və pulu verirəm. Həsənə vermədim, Həsən adı ilə özünü təqdim edənə verdim. Biz də özümüzü sevirik amma bəzən özümüzü itiririk. Bilmirik ki, özümüz nəfsimizdir ya ruhumuz. Ruh mənəvi inkişaf tələb edilir. Nəfs isə mvəqqəti və fani ləzzəti istəyir. Mən bəzən nəfslə ruhumu qarışdırıram, özümə ləzzət verirəm. Yalnız özüm üçün çalışıram. Əslində özümə çalışmıram, biganəliyə çalışıram. Mövləvinin belə bir beyti var, beytində yazır: bir gün bir nəfər başqa adamın sahəsində bina tikirdi. Bina tikəndən sonra istədi ki, girib orada əyləşsin. Həmən yerin sahibi gəlir deyir: Sən səhv etmisən, mənim yerimdə bina tikmisən. Sənin yerin o biri tərəfdə idi. Azmısan elə bilmisən ki, bura sənindir. Burda işləmisən, binanı burda ucaltmısan, pulu bura xərcləmisən, ömrünü burda xərcləmisən. Elə bilmisən ki, bura sənindir. Mövləvi də deyir: Nəfs də o cürdür, biganədir. Kim özünü mənə təqdim etsə mən oyam. Axı O mən deyiləm. Başqalarının yerində bina tikmə. Özünə aid iş gör. biganəliklə iş görmə. Kimdir biganə? Sənin torpaqdan yaradılan bədənin? O biganədir? O, bu dünyada yaşamaq üçün sənə verilən bir paltardır. Bu dünyadan köçdüyün zaman onu burda buraxıb gedəcəksən. Sənsə ona xidmət edirsən. Özünə qulluq et. Elə bil adam maşınına qulluq edir. Ömrünü maşınına sərf edir, maşınsa birdən xarab olur. Adam özünü bəzən o qədər azdırır ki, deyər maşın mənəm. Biz də eləyik, insana bəzən maşınla qiymət veririk. Deyirik maşın elə onun özü deməkdir. Bəzən paltarla qiymət veririk, deyirik paltar elə onun özü deməkdir. Hələ bunlar bir az incə deyil, amma kamil bilinir. Bu bir az incə məsələdir. Mən özümü nəfs bilirəm. Özümü sevirəm, amma əslində özümü itirmişəm. İnsan bilməlidir ki, özü ilə nəfsinin fərqi vardır.

## Özünəbiganəliyin mənşəyi

Quranda bir ayə var buyurur:

اللَّهُ يَتَوَفَّى الْأَنْفُسَ حِينَ مَوْتِهَا

Allah (əcəli çatan kimsələrin) canlarını (ruhlarını) onlar öldüyü zaman alar[1]

قُلْ يَتَوَفَّاكُمْ مَلَكُ الْمَوْتِ الَّذِي وُكِّلَ بِكُمْ ثُمَّ إِلَى رَبِّكُمْ تُرْجَعُونَ

(Ya Rəsulum!) De: "Sizə müvəkkil olan ölüm mələyi (Əzrail) canınızı alacaqdır. Sonra da (qiyamət günü) Rəbbinizin hüzuruna qaytarılacaqsınız!"[2]

İnsan öləndə, canı alınanda bəzilərinin canını mələklər alar. Bəzilərinin isə canını Allah özü alır. Mələkdə müstəqil olaraq can alma qüdrəti yoxdur. İnsan mələkdən kamildirsə mələk onun canını təhvil ala bilməz. Bu ayə haqqında olan hədislərdə buyurulur: Yəni canı Allah özü alar mələk almaz. Bəzilərinin də zorla canını çıxararlar. Nəinki canını alarlar, buyurarlar canını özün çıxar. Quranda bəzi ayələrdə buyurulur ki, "Özünüzü çıxardın. Siz özünüzü çıxardın". Bunu kimə buyururlar? Bədənlərə. Yəni indiyə qədər siz özünüz bədənlərinizə qulluq edirdiniz, indi özünüz də ruhunuzu çıxarın. Burada çıxardan bizik, çıxardılmış olan da bizik. Allah bizə buyurur: "Özünü çıxar." Buradan məlum olur ki, insanın bir biganə nəfsi var və ona bu dünyada qulluq edir. Əgər insan ona çatsa Allah bədənə buyurar ki, o sənə layiq deyil. O özün idin, lakin səni məcbur ixrac edirik. Lakin o həddə çatdın ki, o sənə layiq deyil. Ona görə biz Qədir gecəsində kamalımızı fikirləşək, özümüzü tapaq, özümüzü tanıyaq daha sonra özünü-tanımada olan qəflət pərdəsi aradan getsin. Bu haqda Quran və hədislərdə "Özünü tanımaq mərifətin təməlidir"- deyə bir mnətiq vardı. Bəşər övladına ən zəruri və ən dəyərli agahlıq, özünü tanımadır. Çünki özünü tanıyan Allahını tanımış olur. Özünü kamil şəkildə tanısın ki, mən necəyəm? Özünəbiganəliyin mənbəyi nədir? Bundan sonra insan kamilləşər. Qədr gecəsi budur. Mən özümü tanıyaraq mənəvi

1 - Zumər, 42
2 - Səcdə, 11

inkişafa başlamalıyam və necə irəlilədiyimi control etməliyəm? Bu qədər mənəvi təməllərim, köklərim zay olub, bunun üçün də mənə vasitə, proqram lazımdır. Allah mənim mənəvi proqramımı bu gecədə verir. Tanıdınsa, sənin üçün qədr oldu. Allah Qədr gecəsində Quran nazil edir. Ona görə Quranın nazil olması ilə Qədr gecəsinin rabitəsi vardır. O zaman mən bildim ki, kamal tərəfə, kamal istiqamətinə, Qurana uyğun yaşamalıyam. Amma nə qədərki, mən özümü araşdırmamışam, Qurana ehtiyac duymuram, ağlımla, nəfsimlə yaşayıram. Təmiz adamamsa ağlım və mənəviyyatımla yaşayıram. Kimsə fasiq insandır, namaz qılan deyil. Adi vaxtda şəxsi düşüncəsi ilə yaşayır. Düşünür filankəsə belə deyim, filankəsə belə deməyim. Guya ağlından kömək alır. Quran, Allah buyuranlardan nəticə almır. Bəzən Allah buyurur ki, filankəsdən xoşun gəlmir amma onunla birgə otur. İmam Əli (ə) Allah xatirinə məcbur olurdu ki, hətta xoşu gəlmədiyi işləri görsün. O vəziyətlərə məcbur olurdu. O vəziyət dəhşətli vəziyyət idi, lakin səbir edirdi. Amma axı insan ağlı belə vəziyyətlərdə əksinə qərar da verə bilər. Qeyrət mümkündür ki, ayrı cür addım atmağı tələb edir. Allah Quranda buyurub ki, burada vəzifən düşündüyün kimi deyildir. Xülasə mən ac olduğum zaman qidalanma proqramına ehtiyacım var. Ona görə də, Allah buyurur ki, mən Qədr gecəsi sənə proqram vermişəm. Biz bu sözü qeyd etmək istərdik ki, insan Qədr gecəsini anlamasa, Qədr gecəsi ilə ətirlənməsə Quran ona hələ nazil olmayıb deməkdir. Quran var, amma o hələ Quranla tanış olmayıb. Elə bil günəş var. Nə zaman ki, bəzi quşlar başlarını qarın içinə vurarlar, onlar başlarını qardan qaldırmayana qədər günəş onlar üçün yoxdur. Nə zaman ki, mən Qədr gecəsini anlayıb, onun rəgniə bouanmamışam sanki mənə Quran nazil olmayıbdır. Burada Quranın cildindən söhbət getmir. Quranın o ruhundan, hidayət, doğru yola yönləndirməsindən söhbət gedir ki, O mənə görə yoxdur, təsirsizdir. Quran bu gecə nə üçün gəlib? O da Bəqərə surəsində izah olunur. Əvvəla hamının nə qədər istedadı varsa fərqi yoxdur elə o qədər də Qurandan faydalanır. Yəni hərə öz istedadına görə Qurandan qidalanaraq mənənvi inkişafını təmin edir. "Nas"

yəni “bütün insanlar”. Biz deməməliyik ki, mənim savadım, istedadım azdır və mən Qurandan faydalana bilmərəm. Burada Quranın kəlmələrindən söhbət getmir. Quranın ərəbcəsindən söhbət getmir. Quranın icrasından, insanın ruhuna təsirindən söhbət gedir ki, hamını hidayət edə bilir. Quranın mənasının təhlili budur ki, O “hadi”-“doğru yola yönəldən”dir.

## Qurani-Kərimin iki əsas sahəsi

Qurani-Kərimin iki sahəsi var. Bir cəhətdən Quran islam ensiklopediyası potensialını daşıyır. Bu cür tədqiqat üçün qeyrimüsəlman da Quranla tanış ola bilər. Şərqşünas kafir də Quranı tədqiqat mənbəyi kimi təfsir edə bilər. O yalnız bunları deyə bilər ki, bu ayənin mənası budur, bu cümlə belədir vəssəlam. Bir də Quranın hidayət yönü vardır. Hidayət tərəfi insana dərman verir onu müalicə edir. Sən dərmanları araşdıra bilərsən. Aptekə bu məqsədlə gedirəm ki, dərmanların siyahısını tutum, onlarla tanış olum. Bir də var ki, xəstəyəm, dərman alıb, içib sağalmaq istəyirəm. Deməni Quranın iki xüsusiyyəti vardır. Bir tədqiqat mənbəyidir, bir hidayət mənbəyidir. Hidayət mənbəyi üçün insan gərək müsəlman olsun. Düzdür Quran hamını hidayət etmək, doğru yola yönləndirmək istəyir. Ona görə də hamı üçün nazil edilib. Lakin ondan təqvalılar ikinci sahədə faydalana bilər. Yağış hamı üçün yağır, lakin münbit torpaq ondan faydalanır. Bəs necə hidayət edir? Hidayət, yəni doğruluğa, paklığa sarı getməsi üçün ona yolunu göstərir. Heç vaxt Quran insanı çaş-baş qoymaz. İnsan yolunu tapa bilər. Biz bilmirik indi vəzifəmiz nədir, çünki işlərimizə Quranla yanaşmırıq. Quran hər şərait üçün insana kömək edir. O hidayətçi ünvanıdır. Bəzən mən hidayət olmaq istəmirəm. Lakin istəyirəm ki, hidayət edən olum. “Nas”dan məqsəd qeyd etdik ki, “bütün insanlar”dır. Onların içindən bəzi insanlar da olmalıdır ki, hidayət olunandan sonra hidayət etsinlər. Quranın ikinci cəhdi də var. Quran müəllim də tərbiyə edir. Sən Qurana çox baxsan Qurandan insanları hidayət etmək üçün də faydalana

bilərsən. “Ayatun bəyyinat”, yəni “aydın nişanələr”. Sən bir gün yolu tanımırsan və bir nəfərdən soruşursan ki, filan yer haradadır? O sənə deyir ki, bu istiqamətdə get, bu marşuruta min ora çıxacaqsan. Amma bəzən, sən özün bu yola bələdçi olmaq istəyirsən. Marşuruta minməyi axtarmırsan. İstəyirsən bu yolu kamil şəkildə öyrənəsən ki, əlamətlərini tapasan. Getməkdə səbəb məqsədə çatmaqdır. Bir də var gedirsən ki, sabah bələdçi olasan. Onda sənə daha aydın məlumatlar, “bəyyinə” lazımdır. Bəyyinə, yəni sübut və əlamət. “Bəyyinə” olmasa bələdçi ola bilməzsən. Mən istəyirəm hər hansı bir dili öyrənim, buna o qədər də aydınlanmaq lazım deyil. Kəliməli əzbərləyib, qramatikanı öyrənib biləcəm. Amma mən Qurandan öz mənəvi vəzifəmi soruşuram, Quran mənə onları buyurur. Amma başqasına öyrətmək istədiyim zaman gərək bəyyinə olsun ki, ona yol göstərə bilim. Hadi olanda gərək bəyyinən olsun.

Bir ayrı misal qeyd edək. Sən dənizdə bir balıq görmüsən, gedirsən bir nəfərdən balıq almağa. Tutmağı bacarmadın. Məqsədin balığının olmağıdır. Bir də balıqçı olmaq istəyirsən. Gedirsən özün üçün balıq almağa, lakin orada balıq tutmağı da öyrənirsən. Buna deyirlər bəyyinə. Bəzi insanlar balıq tutmağı öyrənməyi qarşılarına məqsəd qoyublar. Bəzən deyirlər, gəlin elə üslubda balıq tutaq ki, vaxtımız zay olmasın. Mən onsuz da balıq tutacam. Lakin, hansı üslubda balıq tutmaq yaxşıdır? Diqqət edin: Həyatda doğru işlər çoxdur, amma dərəcələri fərqlidir. Mən elm oxuyuram paralel olaraq Quran da oxuya bilərəm, namazda qıla bilərəm. Lakin burada elmi oxumağım bu işlərədə birinci dərəcəlidir, o onuncu dərəcəlidir. Bəzən biz dərəcələri yaddan çıxarırıq. Yaxşı işləri bilirik, lakin yaxşı işlərin əhəmiyyətini bilmirik. Amma “Furqan”a (yaxşı-pisi ayırma qüvvəsinə) sahib olsaq bilərik. Furqanı necə əldə edə bilərik, bu ayrı bəhsdir. Quran həm hidayət edir, həm də doğru yola yönəlmək üçün həm bəyyinə, həm də furqan verir. Camaatı hidayət edir, bələdçilərə isə bəyyinə verir. Bəyinnə və furqan ilə verilən bələdçilərin vasitəsilə insanlar dərəcələrə çatıb kamil olmaq istəyirlər. Çünki, Quranın müxtəlif

hidayətləri vardır. İnsanın inkişafı üçün Quranın birinci, ikinci, üçüncü və s dərəcələri vardır. Əgər insan istəsə ona mənəvi inkişaf proqramı nazil olsun, Qurana müraciət etsin. Quran insana mənəvi inkişaf proqramı verir. Bu proqramı verməsində insanın hər hansı bir dərəcədə olması şərt deyil. Bütün insanlara, hətta alim, qeyri-alim də olsalar, yəni təbəqəsindən asılı olmayaraq kim olursa olsunlar onlara da bəyyinə verilir. Bunun üçün Qədr gecəsi proqramını tapmalısan. Çünki, bu Qədr gecəsində əldə olunan imtiyazdır. Biz əhya saxlayırıq, yatmırıq, əhyanın mənası diriltməkdir. İnsan özünü diriltmək istəyir. İnsan yata da bilər ama bu gecənin fəziləti onun əlindən çıxar. İnsan bir kitab və yaxud bir mətni oxuduğu zaman mümkündür ki, ona bir dəfə baxsın, vəssəlam. Faydalanmadan yola düşdü demirik, amma edə bilərik ki, iki qat faydalanaq. Bu gecədə bərəkət sübh açılana qədər səmalardan yer üzünə enir. Sübh açılana qədər ona bərəkət nazil olar. İnsan məhdud olduğu üçün feyzi bir saatda bir qədər alır. Gərək kifayət qədər həmən gecədən qidalanaq. Biz bir saat qidalan bilərik, ama bunun faydası az olar. lakin bütün gecəni faydalansam bir neçə gün bunun feyzi ilə yaşayaram. İnsan bir saatlıq imkanını zamanla da ölçülə bilər. Bizim bir saatlıq imkanımız bir formadadır, on saatlıq imkanımız başqa formadadır. Kimsə bir sözü mümkündür bir saata düşünə bilməsin, amma bir neçə saat ərzində bu sözü rahat düşünə bilər. Bu Qədrin əhəmiyyətidir. Qədr yatmaq-yatmamaq məsələsi deyil. Yatmayaq, oturaq bəs nə edək? Qeybət edək? Bunun günü deyil. Quran Qədr gecəsi nazil olub. Bu söz nə mənadadır? Ayələr nazil olub. Bəzi alimlər buyurur: Quran iki formada nazil olub. Birinci nazil olmasından məqsəd, tədricən nazil olmasıdır, 23 il ərzində. Bir də peyğəmbərin qəlbinə bir gecədə hamısı birdəfəlik nazil olub. Bu bir nəzəriyyədir.

Bir də, Quranın bəzi ayələrini göstərir ki, ayələr tədriclə hadisələr baş verdiyi zaman, şəraitə görə də nazil olub. Yəni hər hansı hadisə baş verib və bu ayə nazil olub. Quranda Fussilət surəsində buyururlur:

كِتَابٌ فُصِّلَتْ آيَاتُهُ قُرْآنًا عَرَبِيًّا لِقَوْمٍ يَعْلَمُونَ

Ərəbcə Quran olaraq (onu) bilən bir qövm üçün ayələri müfəssəl izah edilmiş bir kitabdır.[1]

Buyurur ki, Quran ayələri ərəbcə müfəssəl izah edilmiş, anlaya bilən camaat üçün nəzərdə tutulmuş bir Kitabdır. Quran ayələri əvvəl "möhkəm" şəkildə, yəni yığcam şəkildə, sonra isə "fussilət" yəni ayrı-ayrı nazil olunub. Quran ayələri əvvəl yığcam gəlib sonra hissə-hissə nazil olub. Buna misal qeyd edək. Bəzən sən bir qanunu öyrənmisən. O yığcam şəkildədir. Qanun praktikada hissə-hissə icra olunmayıb. Qanunun 20 və ya 100 ayrı ayrı nümunəsi var. Buna yığcam şəkli, icmal şəkli deyirlər. Hissə-hissə icrasına isə təfsir deyilər.

O qısa ruhi söz praktikal hissəli ruha aiddir. O onun əməli hissəsidir. Quranda buna iki məqam vardır. Quran elə bir qanun şəklindədir ki, hələ hadisələrə tətbiq olunmayıb. O Quranın ruhu hələ hadisələrə düşməyib. Məsələn: Filan hadisələr peyğəmbərə əvvəlcədən buyurulur. Sənə belə etsələr peyğəmbər sən də onlara belə et. Bu hadisədə o qanunun praktikasıdır. Qədr gecəsi Quranın ruhu birdəfəlik nazil olub. Ayələr isə hissə-hissədir. Hissə-hissə Quranın praktikada təfsilatıdır. Bu onun təfsilatıdır. Nazil olmanın da mənası budur. Nazil olmaq, yəni ayə vermək. Baxın, məsələn sən müəllimsən, azyaşlı tələbəyə dərs deyirsən. Elmdə öyrəndiyin bütün sözləri, terminləri bütünlüklə həmən tələbəyə öyrədə bilməzsən. Sözü, termini elə səviyyəyə endirmək lazım gəlir ki, onu, uşağa öyrədə biləsən. Yuxarı səviyyədə izah etsən ona aydın olmaz. Bəşər də Quranı o səviyyədə başa düşməz. Ancaq peyğəmbər başa düşə bilər. Bunlar belə nazil olmadır. "İnna ənzəlnəhu", yəni biz onu nazil etdik. Ondan məqsəd nədir? O bir işarədir və Quranın ruhu və mənəviyyatıdır. Quranda buyurulan ayədə: "Biz onu ərəb dilində nazil etmişik ki, düşünə bilsin". Bu kəlmələrlə və cümlələrlə nazil olma formasında deyildir. O səviyyədə düşünmək üçün ruh kamilləşməlidir. Soruşsanız ruhun nə faydası var? Hər peyğəmbərin öz kitabı qədər dərəcəsi var.

1 - Fussilət, 3

Rəsulullaha Qədr gecəsində Quran nazil oldu. Sonra təfsilatları hadisələrdə oldu. Sonra hadisə baş verəndə Rəsulullah özü Quran ayəsini oxuyurdu. Allah buyurdu: Oxuma. Biz buyuraq sonra oxu. Niyə oxuyurdu? Çünki, O “Qurani-natiq”-“danışan Quran” idi. Quranın ruhu onunla idi. Peyğəmbər (s) o kamala çatmışdı. Lakin hadisələrdə isə Allah praktikada buyururdu: “Gözlə mən deyim. Sonra de.” Qədr gecəsindən öncə Allahın Rəsulu (s) peyğəmbərlik məqamına çatmışdı. “İqrə” (Ələq) surəsi ona peyğəmbərlik verildiyi zaman nazil olmuşdur. İqrə Quran ruhunun nazil olmağı demək deyil. Peyğəmbərliyin nazil olmasıdır. “İqrə” də məqsəd peyğəmbərə “sən rəsul oldun” deməkdir. Sanki bir şəxsi çağırırsan və ona bir sıra kəlimələr öyrədirsən. O kəlmələri Ona sonralar dərsdə də deyirsən. Amma indi bu ünvandadır yəni, sən artıq tələbə oldun.

Ruh da bir məxluqdur. Dərəcələri vermək üçün nazil olur. Biz özümüzü bir-birimizdən ayırırıq mən, sən, o, bu. Hərəmiz ayrıyıq. Bu ayrı bir şəxsiyytə malik olduğumuzu bildirir. Lakin biz qafilik, biz barmaqlara bənzəyirik, bir-birimizdən ayrıyıq amma bizim bədənimizdə bir ruh var. O pərakəndə üzvlərin hamısının da ayrı ruhları vardır. Aləmin də elə ruhu var. İnsan nə qədər kamilləşirsə, o qədər vahidləşir. Mübahilə ayəsində məna baxımından buyurur:

فَمَنْ حَاجَّكَ فِيهِ مِنْ بَعْدِ مَا جَاءَكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْا نَدْعُ أَبْنَاءَنَا وَأَبْنَاءَكُمْ وَنِسَاءَنَا وَنِسَاءَكُمْ وَأَنْفُسَنَا وَأَنْفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَلْ لَعْنَتَ اللَّهِ عَلَى الْكَاذِبِينَ

(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) sənə göndərilən elmdən (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair səninlə mübahisə edənlərə de: “Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) dua edib yalançılara Allahın lənət etməsini diləyək!”[1]

Hz.Peyğəmbər (s) mübahilə zamanı Hz. Əlini (ə) “üzüm” ünvanında aparır mübahiləyə. Buyurur ki, Əli mənim canımdır, özümdür. Bu məcazi mənada deyil. Biz də başqasına deyək ki, sən

1 - Ali-İmran, 61

mənim canımsan. Amma biz ayrı-ayrıyıq. Quran burada məcazi demir. Ayənin mənası bu deyil. Ayə bizə çatdırr ki, onlar elə birdirlər. Ruh kamilləşəndə bir olar. Lakin bədənləri ayrı olar. Ruh baxımından bir olar. Aləmin ruhu şəxsidir. Mənim şəxsi ruhum vardır. Bütün aləmin də bir şəxsi ruhu vardır. Mənim ruhum da o ruhun bir hissəsidir. Lakin aləmin xüsusiyyəti budur ki, mən ixtiyarı olaraq o ruhla birləşib hiss edə bilirəm ki, mən onun bir hissəsiyəm. Həmin ruh rəsulullahın kamalıdır. Ona görə peyğəmbər zaman baxımından 1400 il əvvəl anadan olub. Kamal baxımından ilk məxluqdur. Çünki, ilk onunla vahidləşib. Çünki, O ilk məxluqdur, Allahın ilk kamalıdır. İnsan da kamilləşəndə onunla eyniləşir. Çünki o ilk yaratdığı ruhi aləmdir, rəsulullah da həmin ruhi aləmdir.

## Dərsin xülasəsi

Arif insanların ilinin əvvəli Qədr gecəsindən başlayır. Onlar bu gündən başlayır. İnsanın inkişafı və kamalı Qədr gecəsindən başlayır. Qədr gecəsində bu kamal baxımından həmişə təkrar olunur. Yəni Qədr gecəsi təkcə peyğəmbər zamanına aid deyil. Hər il bəşər üçün bu təkrar olunur. Hər insan öz kamalının əvvəlindən başlaya, mənəvi bünövrəsini təzədən qura bilər. Bu baxımdan insan Qədr gecəsindən elə istifadə etməlidir ki, mənəvi bünövrələrini düzgün qoysun.

Bizə təkcə Qədr gecəsində tövbə etmək kifayət deyil. Bünövrə qoymaq üçün təkcə tövbə kifayət deyil, islah lazımdır. İslah da budur ki, qayıdaq kökləri araşdıraq, günahın hansı köklərdən yaranması bizə aydın olsun.

Qısası Qədr gecəsi mən gərək özümü (əməllərimi) müşahidə edim. Yenidən bünövrəmi möhkəm formada qurum. O gün Allahın mələkləri də, Ruh da nazil olur. Və Allahdan gələn əmr “kullu əmr” iki tərəfli rabitə olur. Qədr gecəsində rabitə iki tərəflidir. Həm insandan Allaha gedir, həm Allahdan insana gəlir. Yəni insan nəyi tələb edirsə yuxarıya, Allah nəyi göndərirsə aşağıya çatdırılır.

Ona görə biz Qədir gecəsində kamalımızı fikirləşək, özü-müzü tapaq, özümüzü tanıyaq daha sonra özünütanımada olan qəflət pərdəsi aradan getsin. Bu haqda Quran və hədislərdə “Özünü tanımaq mərifətin təməlidir”- deyə bir mnətiq vardı. Bəşər övladına ən zəruri və ən dəyərli agahlıq, özünü tanımadır. Çünki özünü tanıyan Allahını tanımış olur.

## On beşinci dərs

### Təthir ayəsinin izahı

İmamət Quranın ruhudur. Quranın ruhu vilayət bəhsidir. Quranda Təkasur surəsində buyurulur:

ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ

"Sonra da həmin gün (Allahın dünyada sizə əta etdiyi) nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız!"

Əbu Hənifə İmam Sadiq (ə) dan soruşur - Qiyamət günü soruşulacaq "nəim"-"nemətlər"dən, məqsəd nədir? İmam sualı qaytarır özünə verir. Sizin nəzərinizdə nədir, sizdə nə deyirlər? Əbu Hənifə deyir ki, nəimdən məqsəd Allahın verdiyi nemətlərdir, çörək, xurma və s. İmam (ə) buyurur: Allah insana ehsan verməkdə kərimdir. Sonra İmamdan soruşur ki, yaxşı bəs bunlar deyilsə, məqsəd hansı nemətlərdir? Qiyamət günü hansı nemətlər haqda soruşacaqlar. İmam (ə) buyurur: "O nemət biz Əhli-Beytik. O nemət bizik ki, bizim haqqımızda sizdən soruşacaqlar... Bu ümmət Allah-taalanın ona bəxş etdiyi Allahın Rəsulunun vücudu (s) və sonra onun Əhli-Beytinin (ə) vücudunun neməti barədə sorğu-sual olunacaq."[1]

Ona görə də imamət nemətin kökündür, nemətin əslidir. Quranda imamət ayələrini izah edirik.

### Təthir ayəsinin lüğəvi mənasına əsasən izahı

يَا نِسَاءَ النَّبِيِّ لَسْتُنَّ كَأَحَدٍ مِنَ النِّسَاءِ إِنِ اتَّقَيْتُنَّ فَلَا تَخْضَعْنَ بِالْقَوْلِ فَيَطْمَعَ الَّذِي فِي قَلْبِهِ مَرَضٌ وَقُلْنَ قَوْلًا مَعْرُوفًا

Siz ey Peyğəmbərin zövcələri! Allahdan qorxacağınız təqdirdə siz (başqa) qadınların heç biri kimi deyilsiniz. (Sizin qədir-

1 - Biharul-Ənvar, c. 7, səh. 272, hədis. 39

qiymətiniz, məqamınız daha yüksəkdir. Allahdan qorxsanız, daha şərəfli olarsınız). Buna görə də (yad kişilərə) yumşaq (əzilə-əzilə) danışmayın, yoxsa qəlbində mərəz (şəkk, nifaq və günah mərəzi) olan tamaha (özgə təmənnaya) düşər. (Danışdığınız zaman) gözəl danışın! (Allahın buyurduğu kimi, yaxud qəbul olunmuş qayda üzrə gözəl, ciddi bir söz deyin!)[1]

Bu ayə, təthir ayəsi də bunların içindədir. Biz əvvəlcə sırf lüğəvi mənada ayəni tərcümə edirik. O zamana qədər ki, Quranın tərcüməsi bizə aydın olsun, sonra ayəni izah və şərh edirik. Ayədə "Ya nisaən nəbi"-"Siz ey Peyğəmbərin zövcələri!" "Nisa" yəni "qadın" sözünün cəmidir. "Nəbi" də peyğəmbərdir. "Ləstunnə" deyilsiniz. "Kə əhədin" yəni, "biri kimi". "Min" dan. Yəni siz başqa qadınların birisi kimi deyilsiniz. Siz onlardan fərqlisiniz. İndi qeyd etmək istərdik ki, nə fərqi var? Bu fərq Allah yanında deyil. Cəmiyyətdə başqa qadınlardan hansı fərqləri var? Əlbəttə Allah yanında da başqa qadınlardan fərqləri ola bilər. "Təqəytünnə"-"Əgər təqvalı olasınız." "İn" yəni "əgər". "Təqəytünnə"-"təqvalı olasınız". Yəni; təqvalı olsanız bu cəhətdən başqalarından fərqiniz olar. Çünki, siz Peyğəmbərin (s) həyat yoldaşları olduğunuz üçün fərqlisiniz, yəni sizə məxsus qanunlar var. "Fə la təxdənə"-"Nazla danışmayın." "La təxdanə"- danışıqda mülayim, yəni işvəli danışmayın. İşvəli danışsanız nə olar? "Yətməu"-"tamah edər", "həvəslənər". Kim "həvəslənər"? "Əl ləzi"- "o kəs ki", "fi qəlbihi"-"onun qəlibində" "mərəzun"-"xəstəlik" var. Siz işvəli danışmayın. Danışıq tərzinizi nazlandırmayın. Çünki xəstə qəlbli insanlar həvəsə düşə bilər. "Va qulnə". "Qulnə" yəni "deyir". "Məruf" yəni "Layiqli söz". Layiqli söz danışın.

وَقَرْنَ فِي بُيُوتِكُنَّ وَلَا تَبَرَّجْنَ تَبَرُّجَ الْجَاهِلِيَّةِ الْأُولَى وَأَقِمْنَ الصَّلَاةَ وَآتِينَ الزَّكَاةَ وَأَطِعْنَ اللَّهَ وَرَسُولَهُ إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

Evlərinizdə qərar tutun. İlkin Cahiliyyat dövründəki kimi açıq-saçıq olmayın. (Bər-bəzəyinizi taxaraq evdən çıxıb özünüzü, gözəlliyinizi yad kişilərə göstərməyin!) Namaz qılın, zəkat verin,

1 - Əhzab, 32

Allaha və Rəsuluna itaət edin. Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər![1]

"Qərnə"-"qərarlaşın" yəni oturun. "Fi biyutukunnə"-"evlərinizdə". Oturun evlərinizdə. Başqalarıyla hadisələrdə birləşəsiniz deyə evdən çıxmayın. Oturun evlərinizdə. "Və la təbər-rəcnə"-"aşkar etməyin", "nümayiş etməyin", "özünüzü göstərməyin". "Təbərruc"-"gösətərməyə deyirlər. "Burc" ona deyirlər ki, "görünür". "Buruc" da o sözdəndir. "Təbərrəcnə", yəni "aşkar etməyin", "özünüzü göstərməyin". Necə? İlkin cahiliyyət dövründə olduğu kimi etməyin. İlk cahiliyyət dövründə, xanımlar özlərini göstərərdilər, nümayiş edirdilər. Siz də özünüzü o formada nümayiş etdirməyin. İlkin cahiliyyət mənası budur ki, yəni belə etsəniz ikinci cahiliyyət də olar. Burada ilk cahiliyyətdən söhbət gedir. Buyurmur cahiliyyət kimi. Buyurur ilk cahiliyyət kimi. Bunun mənası vardır. Bunu qeyd edəcəyik. Sonra buyurur: Ey Peyğəmbərin xanımları namazı icra edin, zəkat verin və Allaha və onun rəsuluna itaət edin. Bunlar sizin vəzifələrinizdir. Sonra buyurur "innəmə". "İnnəmə"nin mənası budur: "Bundan qeyri deyil", "yalnız bu", "ancaq", "təkcə". "İnnə"-"həqiqətən". "innə"yə "mə" artırılsa "inhisarı" mənasını çatdırır. "Həsr", yəni "ancaq". "İnnəma", yəni ancaq. Ərəblər deyirlər "Zeydun alimun" (Zeyd alimdir). Və ya "innə Zeydun alimun". (Yəni həqiqətən Zeyd alimdir). "İnnəmə Zeydun alimun" (Yəni ancaq Zeyd alimdir). "İnnəma yuridullah"-"Ancaq budur, bundan da qeyrisi deyil" yəni Allah sizdən çirkinliyi aparmağı iradə edib. Çirkinlikdə məqsəd zahiri çirkinlik deyil, mənəvi çirkinlikdir. Qeyd olunacaq ki, Quranda "rics" mənəvi çirkinlik üçün işlənib. Allah sizdən çirkinliyi aparmağı istəyib. Sizdən yəni Əhlil-Beytdən. Əhli Beyt yəni-"ya Əhləl Beyt". Ey Əhli Beyt, Allah sizdən çirkinliyi aparmaq istəyir. Əhli Beyt, yəni "ev əhli". Kimin evinin əhli? Bu ayələrdə kimin evindən söhbət getdiyi görünür. Peyğəmbərin evindən. Peyğəmbərin evinin əhli. Yəni ey Əhli-Beyt Allah istəyir

---

1 - Əhzab, 33

ki, sizdən çirkinliyi yox etsin. İnsandan çirkinlik getsə nə olar? Paklaşar. Sizi pak etsin. Özü də möhkəm şəkildə. "Təthira". "Təthir", yəni "pak etmək". Biz Azərbaycan dilində belə üslubda danışmırıq. Biz danışarkən "tam pak etsin" deyirik. Sonra yenə qeyd edəcəyik ki, bu Əhli Beyt kimdir? Ayənin hələ təkcə tərcüməsini qeyd edirik. Özüdə lüğəvi tərcümə ilə tərcüməsini qeyd edirik.

وَاذْكُرْنَ مَا يُتْلَى فِي بُيُوتِكُنَّ مِنْ آيَاتِ اللَّهِ وَالْحِكْمَةِ إِنَّ اللَّهَ كَانَ لَطِيفًا خَبِيرًا

Allahın evlərinizdə oxunan ayələrini (Quranı) və hikməti (Peyğəmbərin qoyduğu qayda-qanunu) xatırlayın. Allah (möminlərə) lütfkardır, (bəndələrinin bütün əməllərindən) xəbərdardır!"[1]

İndi qayıdır yenə peyğəmbərin xanımları haqqında buyurur. "Vəzkurnə" (Yəni zikr edin). "Uzkurnə" (yəni zikr edin). Nəyi zikr edin? "Zikr", yəni "xatırladın". Sizin evinizdə tilavət olunanı xatırladın. Evlərinizdə tilavət olunanları zikr edin. Axı bunlar sizin yanınızda baş verir. Peyğəmbər sizin hamınızın evində ayə oxuyur. Başqalarında isə bu nemət yoxdur. Sizinlə başqalarının bu fərqi vardır. Sizin evinizdə nə tilavət olunursa onu zikr edin. "Ayətillah vəl hikmə" (Allah ayələrindən və hikmətdən). Həqiqətən Allah lətifdir. "Lətif"in iki, bəlkə üç mənası vardır. Lətif "incə bir iş görən". "İncəlikdən xəbərdar" olan. Bir də mənası "lütf sahibi"dir. Bu mənanın üçü də Allahda vardır. Allah həm incə iş görər, həm incə işlərdən də xəbərdardır. İnsan nə qədər gizli iş görsə harada olursa-olsun Allah xəbərdardır. Həm də lütf sahibidir. Lətif adı üç mənada da Allaha nisbət verilə bilər. Maraqlıdır, hər üç mənada bu ayədə istifadə olunubdur. Düzdür hərəsi bir hesabladır. Özü də üçünün də əvvəlki ayələrlə əlaqəsi vardır. Allah bir sifət seçib ki, üç mənanı orada işlədib. Bunu qeyd edəcəyik. "Xəbir"-yəni "xəbərdar", "agah". Bu ayənin lüğəvi araşdırması idi.

---

1 - Əhzab, 34

## Təthir ayəsinin mənəvi fəzasına əsasən təhlili

Ayənin fəzasına nəzər salaq. Bu ayə hansı fəzada danışır. İndi isə izaha başlayaq. Ayələrdə əvvəl Hz. Peyğəmbərin xanımlarından söhbət gedir. Ortada söhbət Əhli-Beyt ünvanından gedir. Hələlik, onununla işimiz yoxdur ki, Əhli-Beyt kimdir. Lakin burada dəyişilir. Ya peyğəmbərin xanımlarının ayrıca ünvanı var onlar, Əhli Beytdir və onlardan yenə söhbət gedir. Ya bir ayrı şəxslərdir ki, ortada onlar haqqında da qeyd olunmasını Allah-Taala məsləhət bilib. Sonra qayıdır yenidən peyğəmbərin xanımlarından buyurulur. Yəni bu ayənin üç etabı vardır. Birinci etab: əvvəldə peyğəmbərin xanımları haqqındadır. İkinci etab: bir ünvan haqqındadır, hələlik kim olduqlarını bilmirik. Əhli Beyt ünvanını verib. Ola bilər bunlar peyğəmbərin xanımları olsun, ola bilər də ayrı şəxslər olsun. Hələ bunu araşdırırıq. Lakin etab baxımından ayədə fərqlidir. Çünki, Əhli-Beyt termini işləndi. Qabaqda isə Əhli-Beyt termini yox idi, “Ey Peyğəmbərin xanımları” - deyə müraciət olunmuşdu. Üçüncü etab: yenidən Peyğəmbərin xanımları haqqında buyurulan müraciətlərdir. Ayələr, üç etabda bəyan edilib.

## Ayədə Hz.Peyğəmbərin (s) həyat yoldaşlarının təsviri

Əvvəlcə istərdik ki, peyğəmbərin xanımları haqqında qeyd edək. Növbə çatarsa Əhli-Beyti, Təthir ayəsini də qeyd edərik. Peyğəmbərin xanımları adi xanımlar deyildirlər. Nə cəhətdən adi xanımlar deyildirlər? Ya bunlar üstün xanımlardır, bunlar yer üzündə başqa xanımlardan ən təqvalı xanımlardır bu nəzərdən ehtimal verilir. Aamma ayrı ayələrə nəzər saldıqda görürük ki, Allahın məqsədi bu deyil. Burada məqsəd “siz xanımlar təqva və mərifət baxımından başqa xanımlardan üstünsünüz”- deyil. Allah-Taalanın məqsədi bunu bu məntiq deyil. Peyğəmbərin o zaman sağ olan həyat yoldaşlarının hamısını bu ayədə nəzərdə tutub. Hamısını bir yerdə nəzərə alırıq və görürük ki məqasəd bu deyil. Bəli, mümkündür ki, bir xanımı məsələn; Hz.Xədicə xanım təqva və mərifət baxımından başqa xanımlardan üstün olsun. Biz hələ peyğəmbərin bütün xanımlarını bir yerdə peyğəmbərin xanımları

olaraq ümumi qeyd edirik. Bu xanımlar, yəni peyğəmbərin xanımları digər xanımlardan təqva baxımından üstündür və Allaha yanında mərifət baxımından yuxarıdır? Xeyr. Qeyd etdik ki bu ayə onu demək istəmir.

Lakin bəziləri qeyd edirlər ki, ayənin məqsədi Peyğəmbərin həyat yoldaşlarının bütün xanımlardan üstün olmasıdır. Bəs niyə ayədə onu qeyd etmir? Bu ayədə buyurulur ki, əgər təqvalı olsanız, bilərsiniz. Burada "Əgər" şərti qoyulub, elə olmasını buyurur, əgər belə etsəniz elə olarsınız-deyir. Buyurur: Siz başqa xanımların tayı deyilsiniz. (Çünki Peyğəmbərin yoldaşısınız, ona layiq davranmalısınız.) Əgər təqvalı olsanız... Fərz etmək olar ki, bəziləri təqvalı deyillər. Heç bu ayə onlara aid deyil. Quranda bir ayrı başqa ayələr vardır, aydın olur ki, Hz.Peyğəmbərin (s) öz dövründə mənəviyyat baxımından peyğəmbərin xanımlarından daha üstün xanımlar da var idi. Burada məqsədimiz Hz.Xədicə deyil. Ümumiyyətlə bu xanımların hamısını bir yerdə qeyd edirik. Məsələn bəzi xanımlar var idi ki, bu xanımların bəzisindən üstün idi. Bunu haradan nəticə alırıq? Quranda bu barədə ayə var. Hələ bu haqda olan hədislərə müraciə etmirik. Quranda bir ayə var ki, bir gün peyğəmbər yoldaşlarının birinə sirr demişdi. Tapşırmışdı ki, bu sirri heç kimə demə. Həmən xanım da bu sirri Peyğəmbərin digər xanımlarına demişdi. Bu ayə Həfsə və Ayşə haqqındadır. Zahirən peyğəmbər Həfsəyə sirri demişdi. Həfsə də onu Ayşəyə demişdi. Buradan da sir ətrafa yayılmşdı. Ayə nazil oldu və onları danladı ki, siz səhv iş görmüsünüz. Peyğəmbər sənə tapşırmışdı ki, demə. Lakin sən demisən. Daha sonra Peyğəmbər hətta buyurur: Allah buyurur onlar tövbə etməlidir. Məlumdur ki bu iş günahdır. Diqqət edin! Bu ayədən görsəndi ki, onlar günah etdilər. Allah buyurur:

وَإِذْ أَسَرَّ النَّبِيُّ إِلَى بَعْضِ أَزْوَاجِهِ حَدِيثًا فَلَمَّا نَبَّأَتْ بِهِ وَأَظْهَرَهُ اللَّهُ عَلَيْهِ عَرَّفَ بَعْضَهُ وَأَعْرَضَ عَنْ بَعْضٍ فَلَمَّا نَبَّأَهَا بِهِ قَالَتْ مَنْ أَنْبَأَكَ هَذَا قَالَ نَبَّأَنِيَ الْعَلِيمُ الْخَبِيرُ

Bir zaman Peyğəmbər öz zövcələrindən birinə (Həfsəyə) gizli bir söz (bir daha Zeynəb bint Cəhşin, yaxud Mariyeyi-Qibtiyyənin

yanına getməyəcəyini) demişdi. (Həfsə) bu sözü (digər zövcələrdən biri olan Aişəyə) xəbər verdikdə və Allah bunu ona (Peyğəmbərə) əyan etdikdə (Peyğəmbər) bunun bir qismini (Həfsəyə) bildirmiş, (alicənablığı üzündən) bir qismini bildirməkdən isə vaz keçmişdi. (Peyğəmbər) əhvalatı (Həfsəyə) bildirdikdə o: "Bunu sənə kim xəbər verdi?" - deyə soruşmuş, o da: "Bunu mənə (hər şeyi) bilən, (hər şeydən) agah olan (Allah) xəbər verdi!" - deyə cavab vermişdi.[1]

نْ تَتُوبَا إِلَى اللَّهِ فَقَدْ صَغَتْ قُلُوبُكُمَا وَإِنْ تَظَاهَرَا عَلَيْهِ فَإِنَّ اللَّهَ هُوَ مَوْلَاهُ وَجِبْرِيلُ وَصَالِحُ الْمُؤْمِنِينَ وَالْمَلَائِكَةُ بَعْدَ ذَلِكَ ظَهِيرٌ

(Ey Həfsə, ey Aişə!) Əgər ikiniz də (bu hərəkətinizə görə) Allaha tövbə etsəniz (çox yaxşı olar). Çünki (Peyğəmbərə əziyyət verməklə, ona xoş getməyən bir hərəkət etməklə) qəlbləriniz (onun barəsində bir qədər qeyri-səmimiliyə, günaha) meyl etdi.[2]

Allah buyurur: Bu iki şəxs tövbə etməlidirlər. Məlum olur ki, bunlar peyğəmbərin xanımlarından iki nəfərdilər. "İn tətuba". Və tövbə etməsələr də "Ya peyğəmbər, qorxma". Sonra onlara ayrı söz buyurur. Buyurur: "Rəsul, Allahın elçisidir sizin həyat yoldaşınız". Burada birbaşa onlarla danışır. Buyurur: "Əgər Allah istəsə Peyğəmbərə sizdəndə üstün zövcələr verə bilər." Buradan aydın olur ki, Hz.Peyğəmbərin (s) zamanında elə xanımlar var idi ki, bu xanımlar onlardan yəni peyğəmbərin yuxarıda adları qeyd olunan iki xanımdan üstün idilər.

عَسَى رَبُّهُ إِنْ طَلَّقَكُنَّ أَنْ يُبْدِلَهُ أَزْوَاجًا خَيْرًا مِنْكُنَّ مُسْلِمَاتٍ مُؤْمِنَاتٍ قَانِتَاتٍ تَائِبَاتٍ عَابِدَاتٍ سَائِحَاتٍ ثَيِّبَاتٍ وَأَبْكَارًا

Əgər o sizi boşasa, ola bilsin ki, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr - müsəlman, mömin, itaətkar, tövbəkar, ibadət edən, oruc tutan dul qadınlar və bakirə qızlar versin![3]

---

1 - Təhrim, 3
2 - Təhrim, 4
3 - Təhrim, 5

Bu Qurani Kərimin ayələrində qeyd olunub. Hədis deyil ki, bəziləri "bunun sənədi zəifdir"- desin. Bəs bu surədə bir sıra işarələr var. Allah peyğəmbərə işarə edir, buyurur: "Eybi yox narahat olma! Bəzi peyğəmbərlərin də xanımları yanlış addımlar atmışdılar." Ayədə oxşar işarələr vardır. Məsələn Əhzab surəsi, 11-ci ayədə buyurulur:

وَضَرَبَ اللَّهُ مَثَلًا لِلَّذِينَ آمَنُوا امْرَأَتَ فِرْعَوْنَ إِذْ قَالَتْ رَبِّ ابْنِ لِي عِنْدَكَ بَيْتًا فِي الْجَنَّةِ وَنَجِّنِي مِنْ فِرْعَوْنَ وَعَمَلِهِ وَنَجِّنِي مِنَ الْقَوْمِ الظَّالِمِينَ

Allah iman gətirənlərə isə Fironun zövcəsini (Asiyə bint Məzahimi) misal çəkdi. O zaman o: "Ey Rəbbim! Mənim üçün Öz dərgahında - Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən qurtar. Məni zalım qövmdən xilas et!" - demişdi.[1]

Allah Taala başqa bir nümunə gətirir. Məsələn:

رَبَ اللَّهُ مَثَلًا لِلَّذِينَ كَفَرُوا امْرَأَتَ نُوحٍ وَامْرَأَتَ لُوطٍ كَانَتَا تَحْتَ عَبْدَيْنِ مِنْ عِبَادِنَا صَالِحَيْنِ فَخَانَتَاهُمَا فَلَمْ يُغْنِيَا عَنْهُمَا مِنَ اللَّهِ شَيْئًا وَقِيلَ ادْخُلَا النَّارَ مَعَ الدَّاخِلِينَ

Allah kafirlərə Nuhun övrəti ilə Lutun övrətini misal çəkdi. Onlar Bizim qullarımızdan iki saleh bəndənin kəbini altında idilər. Onlar ərlərinə xəyanət etdilər və (Nuhla Lut) onları Allahdan (Allahın əzabından) heç vəchlə qurtara bilmədilər. Onlara: "(Başqa) girənlərlə birlikdə siz ikiniz də Cəhənnəmə girin!" - deyildi.[2]

Lut peyğəmbərlə Nuh peyğəmbərin xanımdan. Özü də bu cərəyandan, peyğəmbərin iki yoldaşının sirr açmasından, onları tənqid eləməsindən, onların tövbəsindən söhbət gedəndən, onların təlaq vermə fərzində onlardan yaxşı xanımlar olmasından sonra bu bəhslərlə, digər iki peyğəmbərin keçmişdə xanımını misal vurur. Allah yuxatıda ayədə qeyd olunan nümunələrdən qeyd edir ki, Peyğəmbərin yoldaşının da səhvi ola bilər. Burda buyurulan "siz (başqa) qadınların heç biri kimi deyilsiniz" irfan və mərifət, təqva baxımından deyil. Burada görsənir ki, mərifət, təqva baxımından bunlardan üstün ayrı xanımlar da var idi.

---

1 - Təhrim, 11
2 - Təhrim, 10

## Hz. Peyğəmbərin (s) həyat yoldaşlarının başqa qadınlardan fərqi

Bəs bu ibarət ki, "siz (başqa) qadınların heç biri kimi deyilsiniz" hansı baxımdandır? Birinci, mənəvi imkan baxımındandır, ikinci isə mövqe baxımından.

**1) Mənəvi imkan baxımından.** Siz başqa xanımların tayı deyilsiniz, yəni sizin mənəvi imkanınız başqalarında daha sərfəli formadadır. Başqa xanımların sizin qədər mənəvi imkanı yoxdur ki, Hz.Peyğəmbərin (s) mənəvi bulağından qidalansın. Siz əgər istəsəniz maksimum öz mənəvi inkişafınıza çata bilərsiniz. Çünki siz vəhy mənbəyində yaşayırsınız. Siz elə evdə yaşayırsınız ki, sizin evlərinizdə Allah ayələri və hikmət buyurulur. Başqaları həsrətini çəkirlər ki, belə ev, belə mənbə tapsınlar. Lakin o şərait sizin həmişə yanınızdadır. Sizin mənənvi imkanınız başqa xanımlardan fərqlidir. Elə bil bir şəxsin dostu möմindir. Ona deyirsən ki, sənin başqa insanlardan fərqin var. Mömin olduğunu demək istəmirsən. İstəyirsən deyəsən ki, səndə mömin ola bilmə imkanı çoxdur. Sənin bəhrələnmək imkanın çoxdur. Allah da burada onları bir növ danlamaq istəyir. Yəni, sizin imkanınız çoxdur. Sizdə fürsət digərlərindən çoxdur. Bir bəhs budur ki, imkan baxımından siz çox bəhrələnə bilərdiniz. Onlar iki cəhətdən çox bəhrələnə bilərdilər. Birinci, Quran ayələri bunların evlərində Hz. Peyğəmbərə (s) nazil olurdu, bunların evlərində Allahın rəsuluna (s) müraciət edirdilər, ondan sual soruşurdular. Başqa adamlar ancaq məsciddə Hz.Peyğəmbərdən (s) sual soruşurdular və yaxud məsciddə onunla görüşürdülər. Peyğəmbə (s) xanımlarla birgə yaşayırdı və onun həyatını, əxlaqını raha şəkildə müşahidə edirdilər. Onun xanımları bu baxımdan nemətin içində idilər və rahat şəkildə öz mənəviyyatlarını Hz. Peyğəmbərdən (s) bəhrələnərək inkişaf etdirə bilərdilər. Bu mənəvi imkan baxımından onları başqa xanımlardan daha vantajlı etmişdi.

**2) Mövqe baxımından.** İkinci, qeyd etdik ki, mövqe baxımından. "Siz axı peyğəmbərin yoldaşısınız". Sizi camaat peyğəmbərin

yoldaşı kimi tanıyır. Hələ özünüz pis də olsanız bunu bilməlisiniz ki, peyğəmbərin yoldaşısınız. Bunun zərəri sosial məqam baxımından Hz. Peyğəmbərə (s) zərbə vurur. Siz adi qadınlar kimi deyilsiniz, Hz.Peyğəmbərin (s) xanımlarısınız, ona layiq davranmalısınız, onun hörmətini cəmiyyətdə ucaltmalısınız, sizə verilən belə bir nemətə layiq özünüzü aparmalısınız. Onun uca adına ləkə gətirməməlisiniz. Bu baxımdan da sizin başqa xanımlardan fərqiniz vardır. Elə bil, bir şəxs məscid adamıdır. Bunun başqa adamlardan fərqi var. Nəinki bu böyük adamdır. Əgər doğrudan təmiz adam olsa, təqvalı şəxs olsa böyük insan olar. "Əgər təqvalı olsanız böyük insan olarsınız". Burada böyük-kiçik bəhsi, mənəvi bəhs etmirik, ictimaiyyətdə bu şəxs məscidin hörmətini saxlamalıdır, qorumalı və ona uyğun gözəl əxlaqla davranmalıdır. Çünki, cəmiyyət onu məscid əhli kimi tanıyır, Onu cəmiyyət dindar kimi, mömin insan kimi tanıyır. Mömin olsa da olmasa da, məscid əhli olduğu üçün möminliyini cəmiyyətdə qorumalıdır. Əgər belə olmayacaqsa, özünü məscidə, dinə, Qurana nisbət verməsin. Əgər nisbət verərsə gərək özü üçün də olmasa Quran üçün özünü bəzi çirkin işlərdən qorusun. Məsələlərə riyaət etsin. Allah bu baxımdan onlara buyurur, sizin başqa xanımlarla fərqiniz var. Bunu təqva və mənəviyyat baxımından buyurmur. Çünki, buyurur əgər təqvalı olsanız. Başqa cəhətlərdən fərqiniz var. Çünki, sizin mövqiyyətiniz, olduğunuz yer, ona nisbət verir ki, siz peyğəmbərin yoldaşısınız. Sizin bu malik olduğunuz imkan heyifdir. Siz Qiyamət günü çox həsrət çəkəcəksiniz. Nələri əldən verdiniz, peyğəmbər sizin əlinizdən çıxdı. Bəlkə də, Uveysi Qərəni kimi şəxslərin arzuları var idi ki, ömürlərində bir dəfə Hz. Peyğəmbəri (s) görsün. Lakin görə bilmədilər. Uveysi Qərəni istədi ki, Yəməndən gəlsin Hz. Peyğəmbəri (s) görsün, lakin anasına xidmət etdiyi üçün anası icazə vermird. Bir dəfə icazə verdi, amma onda da Hz. Peyğəmbər (s) səfərdə olduğuna görə onunla görüşə bilmir. Peyğəmbərin mübarək simasına həsrətlə geri qayıdır. Onunla müqayisə etsək, peyğəmbərin zövcələrinin nəyi əldən verdiklərini anlayarıq. Bu məsələləri qeyd etməkdə məqsədimiz

şəxsi baxımdan araşdırmaq deyil. Düzdür, bunları peyğəmbərin zövcələri haqqında biz tətbiq etdik və izah verdik. Çünki ayədə o haqda buyurulmuşdur. Bunlar daha geniş bəhslərdir. Allah-təala bu ayələri bizə buyurut ki, öz mənəvi möveyimizi bilək və harada əlimizdə mənəvi fürsət varsa o fürsətdən lazımınca istifadə edə bilək. Əgər mənim evimdə kitab varsa, o kitabdan mən istifadə etmirəmsə, evində kitabı olmayandan daha çox kitab üçün həsrət çəkməliyəm. Çünki, məndə kitab vardır. Bu baxımdan, mənim mövqeyim baxımından, əgər mən namaz qılanamsa, mən başqasından fərqli olmalıyam. İlk olaraq mənəvi inkişafım üçün çalışmalıyam, çünki əlimdə belə bir nemət var. Mənəvi cəhətdən inkişaf edə bilməsəm də, getdiyim məscidin, qıldığım namazın hörmətini cəmiyyətdə qoruyub saxlamalıyam. Qoy bəzi insanlar mənim əməllərimə baxıb namazı gözdən salmasınlar. Deməli ayə Peyğəmbərin xanımları haqda olsa da, onların daha diqqətli olmaları və nemətin qədrini bilmələri, tövbəkar olmalarının zərurəti haqda danışır. Bu bizə də bir ibrət dərsidir ki əlimizdəki nemətərin qədrini bilək, faydalanaq.

İkinci məsələyə toxunaq: Sonrakı məntiq budur ki: digərləri ilə fərqlisiniz, Peyğəmbərin xanımlarısınız, ona görə də çox məsələlərdə diqqətli olmasınız. Baxın, cəmiyyət bəzi adamların səhvini şişirdməz. İnsanların çoxu bir bəzi səhvləri edə bilərlər. Bəzən cəmiyyət onların səhvinə heç etina belə etməz. Amma bir sıra insanlar ağ parçaya bənzəyirlər. Səhvlərini cəmiyyət tez şişidər və tez sui-istifadə edər. Adi insanlar ola bilsin ki, gündə 100 dənə yalan danışsın. Qeybət, iftira və s. lər etsin. Camaatın malını haram yolla yesin. Buna heç kim etina etmir. Lakin bir şəxs məscidə gedir deyə, bir incə səhv etsə, onu daha böyük nöqsan kimi şişirdərlər. Ona görə mömin insan həyatında diqqətli olmalıdır. Çoxlu səhvlər var ki, başqaların onu etdikdə, etina olunmaya bilər, lakin mömin insanlar belə səhvlər etdiyi zaman cəmiyyət bunu çox pis qarşılayır və belə məqamlara həssadır. Bəzi şeylər möminlərə hüquqi baxımdan, islami baxımından haram deyil. Lakin ictimai baxımdan bunlar sanki insana haramdır. Çünki cəmiyyət buna hansı gözlə

baxır və mömin nə davranış edir. İnsanlar ona ağ parça kimi baxırlar, qara parça kimi yox. Ona görə bir kiçik qara nöqtəni belə müşahid etdikdə, onu ləkələnmiş sayırlar. Buna görə də, möminlər sadə ləkələrə belə həssas olmalıyıq. İlk növbədə biz özümüz üçün çalışmalıyıq ki, doğrudan da pak olaq. Əgər bir şəxs paltarının təmiz olmasını bacarmırsa, onda heç olmasa onu daha da kirlətməsin. Əgər özünü düzəltməyə çalışmırsa, heç olmasa dinə ziyan vurmasın. İmam Sadiq (ə) buyurur: "Ey şiələr, size bizə nisbət verirlər! Bizim üçün (əməllərinizlə) zinət olun, rüsvayçılıq səbəbi olmayın."[1] Sizin əməllərinizə baxıb bizimə fəxr etməsələr belə heç olmasa sizə görə bizə nifrət də etməsinlər. İndi burada Əhzab surəsinin davamı olaraq Allah-Taala nəticəni bəyan edir. Buyurur ki, sizin digərləri ilə fərqiniz var. Buna görə də bir neçə cəhətdən diqqətiniz olmalıdır. Bu yöndə lazım olan məsələləri peyğəmbərin qadınlarına bir-bir sayır. Onlar nədir? Birinci danışıq tərzinizdə diqqətli olun. İkinci geyiminizdə və ictimai rəftarınızda diqqətli olun. Üçüncü ibadətlərinizdə diqqətli olun. Dördüncü Allaha və onun rəsuluna itaətdə diqqətli olun.

Allah buyurur ki, siz bu saydıqlarımda digərlərindən daha da diqqətli olmalısınız. Bunlar hamıya aiddir. Lakin siz digərlərindən fərqli olaraq bu məsələlərdə daha diqqətli olmalısınız:

Danışığınızda. İlk öncə qeyd edək ki, naməhrəm xanımla naməhrəm kişinin danışığının gərək istiqaməti aydın olsun. Bilinməlidir ki, nə üçün danışırlar. Yəni bu danışığın axırı hara çatır, buna diqqət olunmalıdır. Bəzən əvvəldən insanın məqsədi budur ki, dialoqun sonu şəhvətə-həvəsə çatsın. Bir naməhrəm xanım naməhrəm kişi ilə danışır söhbətləri pillə-pillə elə qurulur ki, axırda, günaha qədər çata bilir. Məqsədi əvvəldən budur. Bu aydındır ki, günahdır. Bəzən isə, məqsəd bu deyil, lakin danışığ tərzi və sözlərin seçilməsi elə bir formadadır ki, məqsədi günah olmasa belə axırı ora çatır. Buna görə də, buyurulur ki, naməhrəm kişiylə bir qadın qapısı bağlı bir evdə tənha olmamalıdır. Bunu nə üçün

1 - Mişaktül-ənvar, səh. 67

buyurular? Ola bilər ki, heç birində başqa məqsəd yoxdur. Amma bu vəziyyət istər-istəməz günahla sonlana bilər. Ona görə də, danışıq tərzi özü çox mühümdür. İnsan naməhrəm xanımla elə bir söz də danışmasın ki, bu söz onda tamah yaratsın. Tamah, yəni həvəs. İnsan danışıq tərzinə və məzmununa diqqət etməlidir. Naməhrəm xanımla söhbətdə danışıq formasına, istifadə etdiyi kəlmələrə diqqət etməlidir, xanım da naməhrəm kişi ilə danışdıqda buna riayət etməlidir. Diqqət etməlidir ki, qəlbi xəstə olan tamah etməsin. Qəlbində xəstəlik olan insan kimdir? Baxın, bəzən bizim nəfsi istəklərimiz yatmış əjdahaya bənzəyir. Əjdaha hələlik yatıb, lakin anidən bu əjdaha oyana da bilər. Bizim nəfsimiz də belədir. Nəfsimiz yatıb. Lakin, onu maraqlandıran bəzi əyləncələr olduğu zaman yavaş-yavaş nəfs oyanar. Məsələn bir şəxsin qarşı cinslə işvə-nazla danışması kimi, yaxud da danışıq məzmununun günah istiqamətində olması kimi. İstər danışığın keyfiyyət tərzində, istərsə də məzmun cəhətdən. Bəzən adam dindən danışır, lakin bir növ zarafatla, naz-işvə ilə danışır, istər istəməz istiqamət dəyişir. Bu formada da olmamalıdır. Buna görə də buyurur: Siz başqasıyla danışanda o istiqamətdə danışmayın ki, xəstə qəlbli insanlar sizə qarşı pis niyyətdə olmuş olsun. Mümkündür bir şəxsin qəlbi xəstədir, lakin hələ özü də bilmir. Söhbət əsnasıda bu xəstəlik onda oyana bilər. Biz qəlbin xəstəliyini müalicə etməliyik. Nəinki onu oyatmalıyıq. Biz məsum deyilik. Zəif nöqtələrimiz ola bilər. Biz nöqsanlarımızı müalicə etməliyik, alovlandırmamalıyıq. Peyğəmbərin xanımlarına belə bir söz buyurur: “Siz danışıq tərzinizə diqqət edin.” Heç danışmayın demir. Heç vaxt islam demir ki, xanım başqa kişi ilə danışmasın. Buyurur: danışanda layiqi danışın.

وَقُولُوا لَهُمْ قَوْلًا مَعْرُوفًا

Layiqli şəkildə danışın.[1]

Nazla danışmayın. Elə danışmayın ki, həvəs gətirsin. Layiqli danışın. Layiqi danışıq nəyə deyirlər? Ona deyirlər ki, insan lazım olduqca danışsın. Bəzən lazım deyil mənim danışmağım amma

1 - Nisa, 5

sözü elə formada gətirirəm ki, bir xanımla həmsöhbət olum. Bu danışıq lazım deyil. Hər insan bunu özündə araşdırmalıdır ki, mən əlaqələrimi, rabitələrimi necə qururam. Biz demirik kişi xanımla danışmasın. Lakin layiqli danışsın. Layiqli danışıq ona deyirlər ki, lazım olanda və lazımlı sözü danışmaqdır. Bunlar ayrı-ayrı məsələlərdir. Lazım olduğu zaman danış, lazım olmadığı zaman deyil. Lazımı miqdarda danış, beş dəqiqəlik sözü yarım saata bilə-bilə uzatma. Bunlar sənin lazımı sözlərin deyil.

Daha sonra geyim və ictimai rəftarda hansı davranışlara diqqət edilməlidir? İslam düzdür batinə, ürəyin paklığına çox əhəmiyyət verir. Lakin o demək deyil ki, zahirdə təmiz olmayasan. İslam buyurur birinci dərəcədə batin təmiz olmalıdır. Paralel olaraq zahir də gərək təmiz olsun. İslam bunu pisləyir ki, insan təkcə zahiri tımizliyinə fikir versin, lakin batini paklığına əhəmiyyət verməsin. İnsan zahirdə və batində pak olmalıdır. Əgər mənim batinimdə iman varsa o zaman zahirdə namaz da qılmalıyam. Ola bilməz ki, insanın batinində iman olsun, namaz əhli olmasın. Əgər batinimə qəlbimə iman həkk olubsa hicabım da olmalıdır. Yəni islam zahirə də diqqət edir, lakin təkcə zahirə deyil, batindən qaynaqlanan zahirə əhəmiyyət verir. Təkcə zahirin düz olması münafiqlikdir. Təkcə batinin də düz olmasını iddia etmək münafiqlikdir. Elə olmamalıdır ki, insanın qəlbi təmiz olsun, amma zahiri əməlləri pis olsun. Sən bir şəxsi sevdiyin zaman ona fiziki şiddət etməzsən, döyməzsən. Qəlbin təsiri əməldədə görünər. Mənim bir şəxsə qarşı qəlbimdə kinim olsa, məhəbbətim olsa, bunu zahirdə göstərərəcəm. Bu təbi-idir. İman da bu formadadır. Bundan qeyrisi münafiqlik olar. Bu münafiqlik olar ki, mən yalandan bir şəxsə zahirdə məhəbbət edim. Lakin ürəkdən bir şəxsə məhəbbətim olsa daha ona şillə vurmaram. Yəni bunu qeyd etmək istərdik ki, mümkün deyil bir şəxsin batini təmiz olsun, lakin zahiri kirli. Bunun imkanı yoxdur. Bunun əksi ola bilər. Mümkündür zahiri təmizdir amma batini kirlidir, münafiqdir. Batinin təmizliyi ilə zahiri təmizliyin rabitəsi vardır. Ona görə Quran bunlara buyurur: Siz geyiminizdə birinci cahiliyyət

dövründə olduğu kimi zinətlərinizi aşkar etməyin. Birinci cahiliyyət barəsində sonralar geniş izah edərik.

## Əql və Cəhl

Cahiliyyət haqqında söhbət açaq. "Cəhl"-"Cəhalət" haqqında. Cəhalətin bir mənası elm sözünün antonimidir. Deyəndə filankəs cahildir, yəni onun elmi yoxdur. Cahil və alim kimi. Lakin Quran terminalogiyasında müxtəlif ayələrdə cəhalət sözü daha çox ağılsızlıq ilə eyni mənada işlədilib. Cəhalət bu baxımdan ağılsızlıq mənasınadır. "Cəhl" "Əqlin" müqabilindədir. Cəhl elmin müqablində deyil. Elm biliyə deyirlər. Ağıllı insan öz xeyrini fikirləşən şəxsdir. İnsan elmə sahib ola bilər, amma eyni halda ağıllı olmaya da bilər. Elm sahibi olan bir sıra insanların aqibəti cəhənnəmlikdir. Qiyamət günü cəhənnəmdədirlər. Cənnətə həsrət çəkəcəklər. Deyəcəklər ki, mənim tövsiyələrimlə başqa insanlar cənnət əhli oldu, amma mən ondan məhrum oldum. Bunda elm var əql isə yoxdur. Bununla belə ki alim idi, özünün aqibətini, xeyrini fikirləşməyib. Ağıllı olmaq isə insanın öz aqibətini, xeyirini fikirləşməsidir. Bunlar hər sahədə olmalıdır. Bu məntiqlə bəzi insanlar alimdirlər amma aqil deyillər.

Bir ayrı misal qeyd edək. Mümkündür bir şəxs fizika alimidir, lakin tez aldanır. Dostunu, düşmənini tanımır. Bunu tez aldatmaq olar, bunu tez hirsləndirmək olar. Bəzi müəllimlər asanlıqla sinifdə özündən çıxa bilir. Suala qulaq asmağa hövsələsi yoxdur. Lakin o sahədə elmdir mənbəyidir, ensklopediyadır. Bu şəxs elmə malikdir, əqldən məhrumdur. Bir sıra alimlər haqqında bu sözlər var. Ağlın ictimai sahələri vardır. Biliyi var lakin, bilmir o biliyini necə çatdırsın. Tarixdə bir sıra insanlar da belə olmuşdur. Elmə malikdirlər, lakin tez aldanarlar. Bu da o əql haqqında idi. Əql ayrı sahədir. Əql bir başqa nemətdir onu hər adama verməzlər. Elmi insan dərs oxusa qazana bilər. Müəllimlə sinifdə elm öyrənə bilərsən. Əql isə ayrı nemətdir. Əql bir növ diribaş olmaqdır. Elm isə biliyə malik olmaqdır. Bilik də dəyərdir. Lakin ağla sahib olmaq ilə fərqlidir. Ağıl insanın düzgün dünya görüşünə malik olmasına deyirlər. Elm

isə insanın məlumat toplamasına deyirlər. Görürük ki, bir sıra insanlar çox şey bilirlər, lakin çatdırmağı bacarmırlar. Bu elmə malikdirlər, əqlə malik deyillər. Bir sıra hədislərdə helm də, elm ilə yanaşı qeyd olunmuşdur, bax, o əqlə işarədir. İnsanın elmi ilə yanaşı gərək əqli də olsun. Bu bir sıra cümlələrdə cəhl elmin qarşısında, onun antonimi kimi işlənir. Bir sıra cümlələrdə isə əqlin müqabilində işlənir. Deyəndə ki, filankəs cahildir. Bunun iki mənası var:

1- Elmsizdir. 2-Ağılsızdır.

Aldanandır, sadəlövhdür. Cahil deyəndə bir şəxsin elmə malik olmamasını nəzərdə ala bilərsən. Həmçinin cahil deyəndə, bir şəxsin təcrübəyə, düzgün dünya görüşə malik olmaması da məqsədin ola bilər. Cahil sözünü biz özümüz də adi şəkildə belə işlədərik. Ayədəki cahillikdən məqsəd elmsizlik deyil. Mümkündür bir şəxs məktəb bitirib və ya universitet bitirib, lakin cahildir, yəni normal davranış göstərməyi bacarmır. Bu Cahillikdir. Ayədə qeyd olunan cahillikdən məqsəd, elmin antonimi olması deyil. Cavanlığı bəzən cahillik ilə eyni mənada işlədərlər. Yəni hələ bişməyib. Necə davranmaq lazım olduğunu bilmir.

Bəzi şəxslər elm əhlidir, alimdir, lakin hələ də özünü apara bilmir. Davranışını tənzimləyə bilmir. Təkəbbürlüdür. Məsələlərə səthi və sadəlöv yanaşır. Elm dağıdır, amma aqil deyil. Ayədə cahiliyyət deyəndə məqsəd ağılsızlıqdır. Elmsizlik deyil. Cahiliyyət deyəndə əsas kök əqlsizlikdir. Cahil insan cəmiyyəti düzgün idarə edə bilməz, onu parçalayar. Bir misal qeyd edək. Görürsən bir şəxs ailədə professordur, böyük elmə malikdir, lakin ailəsini özünü belə idarə edə bilmir. Cahiliyyət dövrü deyəndə, elsizlik deyil, ağılsızlıq dövrü nəzərdə tutulur.

**Dərsin xülasəsi**

İmamət Quranın ruhudur. Quranın ruhu vilayət bəhsidir. Qiyamətdə Allahın Rəsulunun vücudu (s) və sonra onun Əhli-Beytinin (ə) vücudunun neməti barədə sorğu-sual olunacaq.

İlk cahiliyyət dövründə, xanımlar özlərini göstərərdilər, nümayiş edirdilər. Allah Hz.Peyğəmbərin (s) xanımlarına da siz də özünüzü o formada nümayiş etdirməyin. İlkin cahiliyyət mənası budur ki, yəni belə etsəniz ikinci cahiliyyət də olar.

Ayələrdə əvvəl Hz.Peyğəmbərin xanımlarından söhbət gedir. Ortada söhbət Əhli-Beyt ünvanından gedir. Sonra qayıdır yenidən peyğəmbərin xanımlarından buyurulur. Yəni bu ayənin üç etabı vardır. Birinci etab: əvvəldə peyğəmbərin xanımları haqqındadır. İkinci etab: Əhli-Beyt haqqındadır.

Ayədə buyurulan "siz (başqa) qadınların heç biri kimi deyilsiniz" irfan və mərifət, təqva baxımından deyil. Burada görsənir ki, mərifət, təqva baxımından bunlardan üstün ayrı xanımlar da var idi.

Bəs məqsəd nədir: Birinci, mənəvi imkan baxımındandır, ikinci isə mövqe baxımından.

**1) Mənəvi imkan baxımından.** Siz başqa xanımların tayı deyilsiniz, yəni sizin mənəvi imkanınız başqalarında daha sərfəli formadadır. Başqa xanımların sizin qədər mənəvi imkanı yoxdur ki, Hz.Peyğəmbərin (s) mənəvi bulağından qidalansın.

**2) Mövqe baxımından.** İkinci, qeyd etdik ki, mövqe baxımından. "Siz axı peyğəmbərin yoldaşısınız". Sizi camaat peyğəmbərin yoldaşı kimi tanıyır. Hələ özünüz pis də olsanız bunu bilməlisiniz ki, peyğəmbərin yoldaşısınız. Bunun zərəri social məqam baxımından Hz. Peyğəmbərə (s) zərbə vurur. Siz adi qadınlar kimi deyilsiniz, Hz.Peyğəmbərin (s) xanımlarısınız, ona layiq davranmalısınız, onun hörmətini cəmiyyətdə ucaltmalısınız, sizə verilən belə bir nemətə layiq özünüzü aparmalısınız.

Cahiliyyət deyəndə əsas kök əqlsizlikdir. Cahil insan cəmiyyəti düzgün idarə edə bilməz, onu parçalayar. Bir misal qeyd edək. Görürsən bir şəxs ailədə professordur, böyük elmə malikdir, lakin ailəsini özünü belə idarə edə bilmir. Cahiliyyət dövrü deyəndə, elsizlik deyil, ağılsızlıq dövrü nəzərdə tutulur.

## On altıncı dərs

### Təthir ayəsindəki ikinci cahiliyyət dövrü

وَقَرْنَ فِي بُيُوتِكُنَّ وَلَا تَبَرَّجْنَ تَبَرُّجَ الْجَاهِلِيَّةِ الْأُولَى وَأَقِمْنَ الصَّلَاةَ وَآتِينَ الزَّكَاةَ وَأَطِعْنَ اللَّهَ وَرَسُولَهُ إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

Evlərinizdə qərar tutun. İlkin Cahiliyyat dövründəki kimi açıq-saçıq olmayın. (Bər-bəzəyinizi taxaraq evdən çıxıb özünüzü, gözəlliyinizi yad kişilərə göstərməyin!) Namaz qılın, zəkat verin, Allaha və Rəsuluna itaət edin. Ey Əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər![1]

Keçən dərsdə işarə etdik ki, bəzilərinin fikirlərinə əsasən cahiliyyət elmsizlikdir. Amma cahiliyyət həm də əqlsizlikdir. Ona görə də elmin indiki inkişafı ilə birgə cahiliyyət öz tempində davam edir və biz bunun nümunələrini müşahidə edirik. Qeyd etdik ki, cavanlıq cahillikdir-deyə deyim də vardır. Cavanların müxtəlif münasibətləri vardır. Cavanların bəziləri elm sahibidir. Lakin onlar qeyri-əxlaqi yerlərdə vaxt keçirirlər. Bu elmsizlik deyil, əqlsizlikdir. Bu yenə də cahillikdir. Yeni cahillik. Birinci cahilliklə ikinci cahilliyin nə fərqi var? Bu geniş bir bəhsdir. Bu barədə gələcəkdə izah edəcəyik. Allah peyğəmbərin qadınlarına buyurur: “Siz geyiminizdə də birinci cahillik dövrü kimi geyinməyin.” O zaman insanlar, ağılsız şəkildə geyinirlər. Burada cəhalər elmsiz olduqları mənasına deyil. Baxın bir sıra insanlar elə zənn edirlər ki, gözəlliklərini nümayiş etdirsələr çox yaxşı nəticələr əldə olunar. Məsələn, mən böyük aliməm, gözəlliklərimi də görsünlər. Qeyd etdiyimiz fikirlər əql cəhətinə aid olan fikirlərdir. Məsələn: Bir xanım gözəlliklərini açıq-saçıq şəkildə nümayiş etdirsə, özünün şəxsiyyətini hansı istiqamətdə yönləşdirər? Şəxsiyyət səviyyəsi cəhətindən bayağılaşmazmı? Şəxsiyyətinin elmiliyini göz önündən çəkib, insanın həvəsi istiqamətinə yönləndirməzmi? Həmin xanım

1 - Əhzab, 33

böyük bir alim olsa da, bir xanım olaraq geyim tərzinə diqqət etməsə, bayağı və açıq-saçıq geyində qəlbində xəstəlik olan kişilər onunla rabitə qurduqları zaman ilk növbədə alimliyinə deyil bayağılığına diqqət edərlər. Çünki ona geyim tərzi əsasında baxarlar. Ona görə bu ağılsızlıqdır, bir halda ki o elmə malikdir. İnsan davranışıyla şəxsiyyətini aşağı salsa, şəxsiyyətini düzgün təqdim etməsə bu onun üçün ağılsızlıqdır. Onun sözünə qulaq asan şəxsin məqsədi xanımın elmindən bəhrələnməkdir. Amma onun diqqəti yayınıb, həvəsi qəlbindəki xəstəliklərini oyadacaq. Xanımın bu hərəkəti bir növ ağlsızlıqdır. Bu cahillikdir. Bu cahillik elmsizlikdə deyil, ağılsızlıqdan qaynaqlanıır. Bu sair sahələrdə də belədir.

Sonra buyurur: Namaz qılın, zəkat verin, Allaha və Rəsuluna itaət edin. Siz əgər namaza qarşı səhlənkarlıq etsəniz, sizi nümünə görüb başqaları da səhlənkarlıq edəcəklər. Allah buyurur: Siz Allahın rəsulunun xanımısınız. Əgər siz namaza səhlənkar olsanız, başqaları nə fikirləşər? Siz çox diqqətli olmalısınız. Zəkat verməkdə, namaz qılmaqda, Allaha və Rəsula itaətdə çox diqqətli olmalısınız. Əgər bir tələbə müəllimin sözünə diqqət etməsə başqaları o müəllimə qarşı necə olar? Buyurur: Siz Allahın rəsulu ilə bir evdə yaşayıb və ondan kifayət qədər faydalana bildiyiniz halda əgər ona itaət etməsəniz, cəmiyyət buna hansı münasibət göstərər? Əbu Əli Sina çox əzəmətli alim idi. O, elm baxımından tarixin dahi şəxsiyyətlərindəndir. Bir gün yaxın tələbəsi İbn Sinaya deyir: Sən də peyğəmbərlik iddiası et. Axı səninlə peyğəmbərin nə fərqi var? Həmin tələbə ustadına o qədər bağlanmışdı ki, İbn Sinanı Hz.Peyğəmbərlə (s) eyni səviyyədə görürdü. İbn Sina tələbəsinə heç bir cavab vermədi, çünki, yaxşı bilirdi ki, Hz. Peyğəmbərlə (s) onun arasında böyük və əsaslı fərqlər var. Tələbəsinə orada cavab vermədi. Qış vaxtı idi. Bayırda qar yağırdı. Onlar sübh namazını qılmaq üçün oyandılar. Əbu Əli Sina tələbəsinə dedi: Get bayırda quyudan su çək gətir dəstamaz alaq. Tələbəsi soyuqda bayıra çımamaq üçün Əbu Əli Sinaya bəhanə gətirməyə başladı. Dedi: Ustad bu soyuqda, qışda quyudan su çəkərlər? Təyəmmümü nə

üçün qoyublar? Müxtəlif elmi bəhanələr gətirirdi ki, bu soyuqda dəstəmaz almaq olmaz. Əbu Əli Sina tələbəsinin o sualını xatırladıb dedi: Hz.Peyğəmbərin (s) müəzzini soyuqda çıxıb minarədə azan verir. Minarə çox soyuqdur. O, Hz.Peyğəmbəri (s) görmədən onu sevib və heç kim ona deməyib ki çıx orada azan ver. Amma o Hz.Peyğəmbərə (s) olan eşqilə çıxıb azan verir. Sən isə mənim yanımdasan, səndən sadəcə dəstəmaz üçün su istədim, amma min bir bəhan gətirdin. İndi bildinmi məndən niyə peyğəmbər olmaz?

### Əhli-beytin mənəvi çirkinliklərdən uzaq olması

Ayənin məntiqinə əsasən, Hz.Peyğəmbərin (s) zövcələri dini əxlaqa və qanunlara hər kəsdən daha çox diqqətli olmalı idilər. Bu həm özlərinin və həm də dinin inkişafına xidmət edəcəkdi

Bir mətləbi qeyd edək. Bəzi günahlar var ki, insanı tez tələyə salar, bəzi günahlar var insanı gec tələyə salar. Məsələn; şəhvət hissi tez tələyə salan günahlardandır. Elə buna görə də, Allah-talla Hz.Peyğəmbərin (s) zövcələrinə bu məsələni qabardaraq qeyd edir ki, daha diqqətli olasunlar. Uca Yaradanın bu üslubu günahlar və savabların müxtəlif səviyyəli oldumasına işarədir. Bu sıralama Allah tərəfindən xüsusi seçilib qeyd olunur. Naməhrəmlə danışıq tərzinizə diqqət edin, naməhrəm qarşısında geyim tərzinizə diqqət edin. Sonra isə namaza və zəkata diqqət etməyin lazımlığı qeyd olunur. Bunlar göstərir ki, sadalanan bu işlər İslamda çox əhəmiyyətə malikdir. Bir də bunu göstərir ki, bu günahlar insanı tez tələyə sala bilər. İnsan istəyir ki, öz üzərində mənəvi inkişaf üçün çalışsın. Biz bəzən budaq kimi kiçik şeylərdən başlayırıq. Budağı budamaq istəyirik. Lakin kök çoxdan zay olub. Budaqda isə elə bir şey tapmışıq ki, orada nəsə əyridir. Düzdür o əyrini kəsməliyik, lakin kök xarab olubsa, budağın əyri qalmasının da mənası yoxdur. Ağacı budayırıq, amma kök xarabdırsa bunun nə faydası? Məsələn biz üzüyümüzə diqqət edirik. Əqiq qaşlı üzük olsun və yaxud başqa üzük olsun. Bunları savab olması İslami təlimlərdə vardır. Amma bunlar əyri budaqları düzəltmək kimidir. Bunlara diqqət eləməliyik. Amma hansı dərəcədə? Axı mən hələ şəhvət batlağının

içindəyəm, axı mən hələ danışıq tərzimin zəncirindəyəm. Zəifliklərimi unutmuşam. O zəiflikləri, o nöqtələri yaddan çıxarmışam, bir sıra əhəmiyyəti çox olmayan məsələlər üzərində çalışıram.

Sanki bir paltarın hər yeri yırtılıb, amma mən sadəcə balağını düzəltmək istəyirəm. Yaxud düyməsi çıxıb onu düzəldirəm ki, bəlkə paltarım pis görünər. Bir halda ki, paltarın hər yeri yırtılıb. Biz də öz nəfsimizin islahına bu formada yanaşaq. Bəzən bir növ insan özünü aldadır. Axı insan özünü islah etməlidir. Lakin sadə islahlara maraqlıdır. İşin asanına yapışır. Qədr gecəsində tövbə etmək istəyir. Sadə şeyləri tövbə edir ki, özünü qane etsin. Sanki Qədr gecəsi nəsə bir müvəffəqiyyət əldə etdim. Biz özümüzü əsaslı şəkildə islah etməliyik. Əsaslı dedikdə, bu mənada ki, yəni əsas nöqtələrə, zəifliklərimizə, düşüdyümüz nəfsani tələlərə diqqət yetirməliyik. Budaqları hamı budaya bilər, amma o yenə çıxar.

Bir başqa misal vuraq. Tikan toxumları olduğu yerə düşmüşük. Çıxan tikanları hey kəsirik. Amma üstdən kəsirik. Tikanları təmizlədiyimiz üçün sevinir, onları kəsdiyimizi insanlara bildiririk.

Biz nəfsimizlə əsaslı olaraq maraqlanmalıyıq. Mən dini əməlləri icra etsəm belə məqsədim ilahi olmaya bilər. Bu yanlışdır. Məsələn: Məni bir günah məclisinə dəvət ediblər. Mən isə ora getmirəm. Amma Allaha xatir yox. Orada bir şəxs var idi, ondan xoşum gəlmədiyi üçün ora getmirəm. Sonra bu işimin Allaha görə olduğunu qeyd edirəm. Sabah öz məclisim olsa, ondan daha çox günah olan məclis quracam. Onda getməmişdimsə deməli başqa hesab-kitabım var idi. Bunlar incə nöqtələrdir, insan bəzən bunlarla özünü aldadır.

Qısaca xülasə edək indiyə kimi söylədiklərimizi: Qeyd olunan ayənin adına Təthir ayəsi deyilir. Burada Peyğəmbərin xanımlarına bir sıra nəsihətlər və danlaqlar buyurulur. Allah bu ayədə onlara məxsus hökmlər buyurub. Bu hökmlər xüsusi hökmlərdir. Əhəmiyyət baxımından xüsusidirlər. Yəni Allah buyurur ki, Siz Hz.Peyğəmbərin (s) zövcələrisiniz, vəhy endiyi şəxslə əlaqədəsiniz, onun evindəsiniz, onun ailəsisiniz. Birini məsələ

budur ki, mömün olmaq üçün başqalarına nisbət şansınız daha çoxdur. Bu şans çoxluğuna görə başqalarından fərqlənirsiniz. Əgər təqvalı olsanız sizin başqaları ilə fərqiniz var. Təqvalı olsaydınız daha çox faydalana bilərdiniz. Sonra onlara bir sıra göstərişlər verir. Hansı işləri görüb, hansı işləri etməmək lazım olduğunu əmr edir. Ardınaca buyurur ki, birinci cahillik dövründə olduğu kimi özünüzü nümayiş etdirməyin. Qeyd olundu ki, cahiliyyətin mənası bilməmək deyil. İnsan elmə sahib ola bilər, amma düşüncə və ağılını lazımınca istifadə etməyə də bilər. Cahiliyyət elmsizlik deyil, düşüncəsizlikdir. Əql, yəni insan öz aqibətini, öz xeyrini, öz məsləhətini, öz mənfəətini fikirləşsin. Əql ona deyərlər ki, insan zərərə düşməsin. Elm isə ona deyirlər ki, yalnız məlumat toplayıb. Bu birinci cahillik dövrünün xüsusiyyətləridir ki, xanım geyimi ilə özünü nümayiş etdirsin. Bu, ikinci cahiliyyətin olmasına bir işarədir. Təfsirçilər ikinci cahillik dövrü haqda geniş söhbət amışlar.

İkinci cahiliyyət nə vaxt olacaq? Bəziləri deyirlər ikinci cahiliyyət baş tutub. Nəzəriyyələri budur ki, Həzrət Nuhun (ə) dövrü birinci cahillik dövrüdür. Hz.Peyğəmbər (s) dövrünə isə bir az qalmış ikinci cahillik dövrü olub. Ayənin zahiri budur ki, birinci cahillik dövrü Hz.Peyğəmbərdən (s) öncə olmuşdur. Hələ ikinci cahillik dövrü bu ayə nazil olanda yox idi. İkinci cahillik dövrü sonra başlayacaq. Ayənin zahiri budur və cahillik haqda başqa ayələr də mövcuddur. Məsələn: Ali İmran 143-cü, Maidə 50, Fəth 26-cı bu ayələri qeyd etmək olar.

وَلَقَدْ كُنْتُمْ تَمَنَّوْنَ الْمَوْتَ مِنْ قَبْلِ أَنْ تَلْقَوْهُ فَقَدْ رَأَيْتُمُوهُ وَأَنْتُمْ تَنْظُرُونَ

Siz (Bədr vuruşunda) ölümlə qarşılaşmadan əvvəl ölüm (şəhid olmaq) arzulayırdınız. (Ühüd vuruşunda isə) artıq onu gördünüz və durub baxdınız.[1]

أَفَحُكْمَ الْجَاهِلِيَّةِ يَبْغُونَ وَمَنْ أَحْسَنُ مِنَ اللَّهِ حُكْمًا لِقَوْمٍ يُوقِنُونَ

1 - Ali-İmran, 143

Onlar Cahiliyyət dövrünün hökmünümü istəyirlər? Tam qənaət sahibi olan bir camaat üçün Allahdan daha yaxşı hökm verə bilən kimdir?![1]

إِذْ جَعَلَ الَّذِينَ كَفَرُوا فِي قُلُوبِهِمُ الْحَمِيَّةَ حَمِيَّةَ الْجَاهِلِيَّةِ فَأَنْزَلَ اللَّهُ سَكِينَتَهُ عَلَى رَسُولِهِ وَعَلَى الْمُؤْمِنِينَ وَأَلْزَمَهُمْ كَلِمَةَ التَّقْوَى وَكَانُوا أَحَقَّ بِهَا وَأَهْلَهَا وَكَانَ اللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمًا

Kafirlər öz ürəklərində Cahiliyyət təkəbbürü təəssübünə qapıldıqları (Hüdeybiyyə sazişinə "bismillahir-rəhmanir-rəhim", "Muhəmmədun rəsulullah" sözlərini yazmaqdan imtina etdikləri, hicrətin altıncı ilində Muhəmməd əleyhissəlamın Məkkəyə daxil olmasına razılıq vermədikləri) zaman Allah Peyğəmbərinə və möminlərə öz dərgahından arxayınlıq (qəlb rahatlığı, mənəvi möhkəmlik) göndərmiş və onlara təqva gəlməsini (la ilahə illallah, Muhəmmədun rəsulullah" sözünü) xas etmişdi. Onların bu sözə (Məkkə müşriklərindən) daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi biləndir![2]

Bu ayələrdən görünür ki, birinci cahiliyyət baş verib, lakin ikinci cahiliyyət hələ baş verməmişdir. Bəs bu nə vaxt olacaq? Təfsirçilər bir sıra hədislərə əsasən, ikinci cahiliyyətin zuhurdan qabaq olacağını qeyd edirlər. İkinci cahiliyyət, yəni axıruz-zamandır. İkinci cahiliyyəti belə məna edirlər. Bu zamanda ağılsızlığın nəticəsi olan bir sıra əməllər baş verəcək. Bu zaman hədislərə əsasən zühurdan qabaq olacaq. Bu ağılsızlıq nədən ibarətdir? Birinci cahiliyyət nisbi olaraq ikinci cahiliyyətdən daha yaxşı idi. Çünki, tez tanınırdı. Birinci cahiliyyətdə elm yox idi. Cahillik cəhalətlə bir yerdə idi. İki mənada cahillik var. Elmsizlik və əqlsizlik. İkisi bir yerdə tez bilinirdi. Bir şəxsdə elm də əqli də yoxdursa o şəxs tez tanınar. Bir şəxsin əqli yoxdur elmi çoxdur, əqli yoxdur pulu çoxdur, əqli yoxdur zahiri gözəlliyi çoxdur. Pul, zahiri gözəllik, elm pərdədir onun cahilliyinin qarşıında. Buna görə də, onun əqlsizliyini tez tanımaq olmaz. Bəsirət əhli tanıya bilər, onu dəqiq adamlar tanıya bilər. Adi adamlar onun elminə vurularlar.

1 - Maidə, 50
2 - Fəth, 26

Onun pulu ilə hələ özlərini məşqul edib əqlsizliyini görməzlər. Onun zahiri gözəlliyinə baxıb əqlsizliyini görməzlər. İkinci cahiliyyət sanki belə bir cahiliyyətdir. Elm texnologiya inkişaf edir, əqlsizlik isə görsənmir. Yəni indiki həyat həmin islamdan əvvəl həyatla mahiyyət və batin baxımından eynidir. Necə o vaxt qadınlar istismar olunurdusa, indi də qadınlar istismar olunur. O vaxt pərdəsiz idi, pərdə yox idi, cəhalət dövrü idi rəsmən istismar olunurdu. İndi isə istismarın pərdəsi var. Azadlıq pərdəsi var. O zahirdə gözəl pərdədir, forma həmin formadır, mahiyyət də həmindir. Elə bil bir şəxsin bıçaqla başını kəsirlər, bir şəxsin pambıqla başını kəsirlər. İkisi də həmin mahiyyətdir. Amma bıçaqla baş kəsmək tez görünür, pambıqla baş kəsməyi dəqiq adamlar görür. İkinci cahiliyyətlə birinci cahiliyyətin fərqi bundadır. Ona görə də insanlar bunda çox aldana bilirlər. Belə bir hədis var buyurur: “Bir zaman insan evindən səhər mömün çıxıb, axşam kafir qayıdar”.[1] Bu həmin zamanın dəhşətini göstərir. Zamanın dəhşətini, necə bulanıqlığını, pərdəliliyini göstərir. Əgər insan bəsirət sahibi olmasa, bəyyinəyə malik olmasa, yəni insan düşünməsə və əməli saleh olmasa haqq əməlləri həyata keçirməsə aldanar. Pərdələr insanı aldadar. Hamımızın çirkinlikdən acığımız gəlir. Lakin çirkniliyi gözəl pərdələyib zinətləndirib təqdim etsələr xoşumuz gələr, aldanarıq. Heç kim mikroblu qidanı yeməz. Mikrobulu bir qidanı bəzənmiş halda təqdim etsələr yeyər. İkinci cahiliyyətin birinci cahiliyyətlə fərqi budur. Yunan büdpərəstliyi indi də var. Lakin fərqli şəkildədir. İndi də maddi mənfəətlərə xidmət edən elmpərəstlik, texnologiyapərəstlikdir. Burada nümunə fərqlidir. Hal-hazırda nümunə incələşib, mürəkkəbləşib çünki pərdə çox gözəldir. Keçmiş cahiliyyətlə indiki cahiliyyətin fərqinə misal qeyd edək. Evini satmaq istəyirsən. Evini satanda divarlar çürümüşdü sən divarı da rəngləmirsən. Çürümüş divarı məlumatsız insan tanıya bilməz. Bir az insanın diqqəti olsa, divara baxsa, divara əlini vursa bir az araşdırsa görər ki, divar əslində köhnədir, müvazinətsizdir.

1 - Nəhcül-fəsahə, səh. 216, 217 və 268

Lakin həmin evin çürümüş divarlarına bir qədər usta gətirib rəngləsən, usta üzərinə rəngdən əlavə ayrı şeylərdə vursa, içəri daxil olanlar onun çürümüş divar olduğunu bilməzlər. Bunu yalnız o sahədə mütəxəssis olanlar anlaya bilər ki, bu çürümüş divardır. Adi insanlar tanıya bilməzlər, aldanarlar. İkinci cahiliyyət də buna bənzəyir. Deməli, ikinci cahiliyyət dövrü saxtakarlıqla bir yerdədir. Ona görə də ikinci cahiliyyətdə yaşayan insanların imanını saxlaması və qoruması çox çətindir. İkinci cahiliyyətdə elm cahiliyyətə xidmət edir, texnologiya cahiliyyətə qulluq edir. Birinci cahiliyyətdə cahiliyyətə elmsizlik xidmət edirdi ona görə də tez bilinirdi. İkinci cahiliyyətdə isə elə deyil. Bəzən bir şəxs ateizmdən danışır. Ziyalı alimdir. Onun ziyalılığı, alimliyi pərədədir, lakin onun ateizm fikirlərini biz araşdırırıq. Görürük ki, fizika sahəsində bu şəxs ziyalıdır, alimdir. Ona görə də bu sahədə danışmaq hüququ var. Çünki Fizikadan səhf danışmayacaq. Amma onun elmi əqlinə pərdədir. O fizikada alimdir, amma ilahiyyatda alim deyil. Lakin mən ayıra bilmirəm. Çünki bu pərdəli cahiliyyətdir. Qədim zamanlarda əxlaqsızlıq kobud və bariz şəkildə olardı. Onu tanımaq çox asan idi. Cahiliyyət dövründə bir şəxs evinə bayraq vurardı ki, mən əxlaqsız qadınam. Kim əxlaqsızlıqla məşğul olmaq istəyirsə buraya gələ bilər. İndi isə dilinin şirinliyidir, indi simasının məqsədyönlü bəzənməsidir. Bunu ayırmaq çətindir. Çünki indi görürürük ki, müsəlman əhli də açıq saçıqdır. Əksəriyyət belədir. İman əhli yox. Çünki, ikinci cahiliyyət genişdir və mürəkkəbdir. Bu geniş bir bəhsdir biz ona bu qədər işarə edə bildik.

## Əhli-Beytin “rics”dən pak saxlanması

Biraz da Peyğəmbərin xanımları haqqında bəhs edək. “Ey Əhlibeyt! Allah ancaq sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər! (pak etməyi iradə edib)”[1]

“İnnamə” - “ancaq”, “yalnız”, “yalnız budur və bundan qeyri deyil” mənasınadır. Əllamə Təbatəbai Əl-Mizan təfsirində

1 - Əhzab, 33

buyurur: “Ancaq” kəlməsini Allah Taala burada iki sahədə qeyd etmək istəyir. Birinci; Ancaq siz Əhli-Beyti paklaşdırır. Yəni başqalarını deyil. Bi mərhəmət dolu ilahi iradə yalnız siz Əhli-Beytə aiddir. Yəni başqalarına aid deyil, başqaları belə deyil. Allah yalnız sizi çirkinliklərdən pak etmək istəyib. Bu təkcə Əhli-Beytə münhəsir eilib.

Bu inhisarın başqa bir mənası da iradəyə aiddir. Yəni ancaq bunu Allah iradə edib. Diqqət olunası məsələ budur: Mümkündür biz deyək ki, Allah bunu istəyib və başqasının da istəyə bilər. Xeyr! Yalnız Allah qəti iradə edib. Ancaq kəlməsi iradə etməyinə aiddir. Yəni iradəsi dəyişən iradə deyil ki, Allah istəyir olsun lakin olmasa da olar. Bu iradə Allaha münhəsirdir, yəni ancaq Allah iradə edib. Yəni qəti şəkildə iradə edib ki belə olsun. Bu biinci inhisar. Bu paklıq sırf Əhli-Beytə məxsus olmalıdır, bu da ayədəki ikinci inhisarı bildirir. Deməli ayədə iki inhisar vardır. maq da qətidir. Biri iradəyə aiddir, birdə Əhli Beytə aiddir. Hələ ki, Əhli-Beyt kimdir ondan söhbət açmırıq. Amma bu iradə məxsus bir iradədir ki, başqasına aid deyil. Allah Əhli Beytdən başqasına bu iradəni aid etməyib. İndi əgər Əhli-Beytdən məqsəd peyğəmbərin xanımları olsa da yalnız onlara aiddir bu paklıq, başqasına istəməyib. Hər kimdirsə, Allah Əhli-Beyt ünvanından başqasına bu iradəni etməyib. Bu bir məslə ki aydınlaşdırdıq və nəticə aldıq.

Allah nəyi istəyib və nəyi iradə edib? Allah onlardan çirkinliyi aradan aparmaq istəyib. Çirkinliyin lüğətdə iki mənası var. Bir sözdür lakin iki budağı var. Bir “zahiri çirkinlik”. İnsan çirkin bir şeyə baxsa ondan uzaqlaşar. Məsələn insan donuza baxdıqda ondan uzaqlaşar. Xoşlanmaz. Çünki donuz çirkindir. Quranda var donuzdan çəkinin çünki “rics”dir (çirkindir, murdardır).

قُلْ لَا أَجِدُ فِي مَا أُوحِيَ إِلَيَّ مُحَرَّمًا عَلَى طَاعِمٍ يَطْعَمُهُ إِلَّا أَنْ يَكُونَ مَيْتَةً أَوْ دَمًا مَسْفُوحًا أَوْ لَحْمَ خِنْزِيرٍ فَإِنَّهُ رِجْسٌ أَوْ فِسْقًا أُهِلَّ لِغَيْرِ اللَّهِ بِهِ

De: “Mənə gələn vəhylər içərisində ölü heyvan, axar qan, murdar sayılan donuz əti və Allahdan başqasının adı ilə kəsilmiş murdar

heyvanlardan başqa, hər hansı bir şəxsin yediyi yeməklər içərisində haram buyurulan bir şey görmürəm”.[1]

Donuz çirkindir, onun sifət quruluşu elədir ki, adam baxanda ondan xoşu gəlmir. Zahiri, yəni onda olan sifət xoşagəlməzdir. Bu bir növ çirkinlik (rics) dir.

Başqa bir növ çirkinlik də insanın ruhunda olandır. Bu elə bir haldır ki, başqa insanlar o hala baxarkən ondan acıqları gələr. Bəzən insan özünə də baxanda o ricsi görər. Məsələn insan bir sahəyə yaxud kiməsə paxıllıq edir. Paxıllıq zamanı özünə baxmır. Bu hadisə baş verəndən sonra gəlir oturur evində özünün bu paxıllıq sifətinə diqqət yetirir. Bu bir haldır. İnsan paxıllıq əməlinə baxanda özündən acığı gələr. O əmələ nifrət edər. Bu da bir növ çirkinlik, yəni ricsdir. Buna mənəvi çirkinlik deyirlər. Ona isə zahiri çirkinlik deyirlər. Zahiri çirkinlik simada olur və insan ondan xoşu gəlmir. Mənəvi çirkinlik isə batində və əməldədir.

Əllamə mənəvi ricsi belə məna edir ki, insan özü də ruhundakı çirkinliklərə nifrət edir. Amma onun maddi mənfəətləri həmin çirkinliklərə pərdə örtür və insan özünü danlamır, hesab-kitaba çəkmir. İnsanda danma xasiyyəti var.

Qurani-kərim şirk, küfr, zina və sair nalayiq əməlləri rics adlandırıb. Onlar haqda rics kəlməsini işlədib. Bu ricsin ümumi mənasıdır.

وَأَمَّا الَّذِينَ فِي قُلُوبِهِمْ مَرَضٌ فَزَادَتْهُمْ رِجْسًا إِلَى رِجْسِهِمْ وَمَاتُوا وَهُمْ كَافِرُونَ

Qəlblərində mərəz (şəkk-şübhə, nifaq) olanlara gəldikdə isə, (hər bir surə) onların murdarlığı (küfrə, nifaqı) üstünə bir murdarlıq da gətirər və onlar kafir olaraq ölərlər![2]

1 - Ənam, 145
2 - Tövbə, 125

## Çirkinliyin növləri

Çirkinlik iki növdür: Zahiri çirkinlik, insanın simasında olan xoşagəlməzlik ki, bir növa nifrətə, uzaqlamağa səbəbdir. Mənəvi çirkinlik, daxili və batini xüsusiyyətlərin iyrəncliyidir ki, çox vaxt əməllərdə özünü biruzə verir. Onu mənəvi zibillik də adlandırmaq olar. Ayədə buyurulur ki, sizi çirkinlikdən təmizlədim. Sizdən də məqsəd insandır. İnsanda çirkinlik hansı mənaya nəzərdə tutulur? Biz ümumi varlıqda mümkün olan çirkinlikdən söhbər açırıq. Çirkinlik insanın pis düşüncələridir ki, onun qəlbinin və əməllərinin iyrəncliyinə səbəb olur. İnsanın batil əqidəsi onun Allahı danmasına səbəb olur. Bir halda ki, dəlil-sübutları görür, amma danır. İnsanın yanlış və əyri yollarla addımlamasının izidir çirkinlik (rics). Onun şüurunda, ruhunda yaranan iyrənc düşüncələrdir çirkinlik. Onun qəlbi batil əqidə və əməllərlə boyandığı üçün çirkinləşib. Bir sıra hədislərdə qəlbdə olan qara ləkədən danışılıb, bax onlar həmin ricsc(çirkinlik)dir. Pis əməldə belədir. Mən yalan danışmağa adət etdiyim zaman qəlbimdə çirkinlik yaranar. O təmizliyini itirər çirkinləşər. Ruhun çirkinliyi batil əqidədən, batil əməldən irəli gələr. Qəlb batil əqidə və batil əmələ bağlanarsa və həyatda bu formada yaşasa getdikcə qəlb özünə çirkinliyi hopdurar. Sanki ağ bir parça getdikcə özünə tüstü, his və ləkələri hopdurar. Ocaqdakı odun tüstüsü olduğu kimi bizim də qəlbimizdə batil əqidədən tüstülər yaranır. Biz elə bilirik batil əməlləri sonlandırdığımız zaman o ləkələr gedib. O müəyyən zamanında, müəyyən məkanında baş tutmuşdu bitdi-getdi. Xeyr, pis əməllər mənim ruhuma hoparaq məndə çirkinlik yaradır. Əməlin zahiri, fiziki tərəfi gedir, çirkinlik tərəfi isə qalır. Mənəvi ləkələri mənim qəlbimdədir. İnsanın tənha dostu əməlidir, odur insandan ayrılmayacaq olan. Çünki, o insanın qəlbinə hopur. Əməldən də məqsəd təkcə fiziki işlər deyil. Əməldən məqsəd o tüstüdür ki, qəlbdə qalır. İnsan yalan danışmağa adət etdiyi zaman qəlbinin yavaş-yavaş paslandığını müşahidə edərsən. O pasdır əməldən yaranır və hopur. Mən qəlbimin paslanmağını indi görməyə bilərəm və buna əhəmmiyyət verməyə bilərəm, amma

diqqət etsəm görərəm ki qəlbim paslanıb. Məhz o zaman pis əməllərimdən qaçaram, nifrət edərəm. Qurani-Kərimdə buyurulur:

يَوْمَ تَجِدُ كُلُّ نَفْسٍ مَا عَمِلَتْ مِنْ خَيْرٍ مُحْضَرًا وَمَا عَمِلَتْ مِنْ سُوءٍ تَوَدُّ لَوْ أَنَّ بَيْنَهَا وَبَيْنَهُ أَمَدًا بَعِيدًا وَيُحَذِّرُكُمُ اللَّهُ نَفْسَهُ وَاللَّهُ رَءُوفٌ بِالْعِبَادِ

O gün (qiyamət günü) hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını arzulayacaqdır. Allah sizi Öz əzabından çəkindirir, çünki Allah bəndələrə (Öz bəndələrinə) mərhəmətlidir!”[1]

İnsan qiyamət günü əməllərindən qaçar. Özü də necə qaçar? Arzu edər ki, mənimlə əməlim arasında fasilə olsun. Bu məkan fasiləsi deyil, zaman fasiləsi olsun. Nəinki mən burda olum əməlim isə başqa ölkədə olsun. Belə olarsa məkan fasiləsi ilə toqquşma yarana bilər. Zaman fasiləsində toqquşma yoxdur. Əməlim qalsın 18-ci əsrdə, mən isə qalım burda. Heç vaxt toqquşmayacam. Quranda Qiyamət ayələrində belə bir ayə var ki, bir sıra insanlar əməlinin çirkinliyini görəndə arzu edər ki, əməli ilə onun arasında zaman fasiləsi olsun. O zaman künül gözü kor idi və əməllərinin çirkinliyini görə bilmirdi. Gördüyü zaman isə özündən ounu uzaq etməyə çalışar. Nifrət edir həmin əməllrə. Evində leş olan xəstə adam burnu tutulduğu üçün, iy hiss etmədiyi üçün onun fərqinə varmaz. Qiyamət günü məcburən sağaldıqda iyi hiss edəcək. Onda görəcək ki, leş saxlayıb evində. Bu leşdən qaça biləcək? Leşin iyi onun üzərinə hopub. Çünki, indi qəlbi xəstədir leşin iyini hiss etmir. Bəzi insanlar pis iyə adət etdiyi üçün onun fərqində olmaz, həmi qoxu onu narahat etməz. Amma fəzanı tərk etidiyi zaman, ətrin iyini hiss etdiyi zaman indiyə kimi pis qoxunun içində fərqinə varmadan yaşadığını anlayar.

Allah buyurur: “Ey Əhli-beyt! Allah ancaq sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər! (pak etməyi iradə edib.)” Çirkinlik necə yox olar, nəylə aradan gedər? İnsanin təfəkkürü paklaşsa, əməlləri də paklaşacaqdır. Etiqadına haqq və

---

1 - Ali-İmran, 30

əməlinə həqiqilik bəxş olunan insan doğru yola yönləndirilmiş şəxsdir. Belə insan yolu görər və yolu gedə də bilər. Ona təkcə yolu göstərməklə deyil, əlindən tutaraq həm haqq etiqadını bəxş etsələr, həm də həqq əməlləri ilə hədəfə aparsalar kamillik zirvəsinə çatar. Bununla da onda çirkinlik qalmaz.

Biz də öz həyatımızda çirkinliklərdən təmizlənmək istəsək ilk növbədə düzgün düşüncə və haqq etiqadları həqiqi mənada qavrayaq. Yanlış təfəkkür və iinancları isə özümüzdən uzaqlaşdıraq. Batil və yanlış etiqad nədir? İnsan adətən, dostuna görə, mühitə görə doğru olmayan inanacları mənimsəyir. Nəinki düşünüb inanır. Batil əqidə buna deyirlər. Mən sağlam şəkildə düşünüb inanc sahibi olduğum zaman, çirkinliklərə təfəkkürümdə yer verməyəcəm. İnandığıma əməl etdiyim zaman çirkinliklər əməllərində görünməyəcək. Deməli düzgün əqidələr və pak əməllərdir ki, çirkinlikləri yox edir. Qeyd edim ki, hələ də Əhli-Beytin kim olması haqda danışmırıq, hər kimdirsə Allah-təala onları paklaşdırmağı qərara alıb və buna iradə edib. Allah onlara sağlam düşüncə və pak əməllər bəxş edib. Buna bənzəyir ki, evində geniş quyu qazan şəxsə, onun dar qazılmasını n lazımlılığını əvvəlcədən deyəsən. Qazıb qurtardıqdan sonra onu dar qamalı idin indi darlaşdır deməyin mənası yoxdur. Əhli-Beytin paklaşdırılması onların öncədən çirkinliyə bulaşıb sonra paklaması mənasına deyildir. Əksinə, əvvəlcədən paklaşdırılmış olmaları mənasınadır. Bu ayə bir növ vəhyi təkviniyə işarə edir. Bu ayə bir növ onlara xeyir iş görməyi ilahm etmişik buyurur. Qeyd etdiyimiz ayələrin birinə əsasən dedik ki, təkcə peyğəmbərlərə deyil, imamlara da ilham mənasında vəhy olunur. Bu “Təsdidi vəhy” (qəlbinə damlatmaq, yerlərdirmək) dir. Çirkinliklərə sarı getməməli üçün onlara bu formada təkmilləşdirici kömək edilir. Allahın buyurduğu “sizi çirkinliklərdən pak etmişəm”in mənası elə budur. Bizə aid olan ibrət dərsi isə burada ondan ibarətdir ki, sağlam düşüncəyə sahib olsaq əməllərimiz də sağlam olacaqdır. Yanlış əqidə və təfəkkürlərdən xilas olmaq, dostpərəstlikdən, nəfspərəstlikdən, adətpərəstlikdən, mühit-pərəstlikdən, şəxsiyətpərəstlikdən uzaq

olmaq lazımdır. İnsan haqqpərəst olsa həqq əqidəyə malik olar. Əməldə də onun təsirini görər. Unutmayaq ki, insan əməli həyata keçirənə qədər nəfsi ilə mübarizə etməlidir. Bəzi insanlar sağlam təfəkkürə malik olduqları halda şeytani vəsvəsələrə uyaraq yenə də yanlış addımlar ata bilirlər. Yəni düzgün əqidədən sonra, doğru və pak əmələ sahib olmaq üçün o əqiyə uyğun əməl etmək və nəfs ilə mübarizə aparmaq lazımdır. İnsan hansı yolun haqq, hansı işin pis və günah olduğunu düşünə bildiyi zaman ounu əməldə də həyata keçirə bilməlidir. Mən bilirəmsə yalan pisdir, o zaman yalan danışmağı da tərgitməliyəm. Öz nəfsimlə mübarizə edim, yanlış məli kənara ataraq və pak əməli həyata keçirim. Mən bununla Əhli-Beytə yaxınlaşaram. Allahın xüsusi iradəsi ilə paklaşdırdığı şəxslərin sırasına düşə bilmərəm, lakin o bulağa yaxınlaşaram. Kövsər çayı axır. İnsan nə qədər o çaya yaxınlaşsa ondan bir o qədər çox faydalana bilər.

Allah Əhli-Beyti paklaşdırmağı iradə edibsə bu iki mənada baş tuta bilər:

1-Təşrii iradə ilə. Yəni sadəcə onların paklaşmasını istəyirəm və bu sahədə onlara göstərişlər verirəm. Amma nəticədə ola bilsin ki, həmin şəxs yaxşı, ola bilsin də pis insan olsun.

2- Təkvini iradə ilə. Qarşı tərəfin pak insan olmasını əmin edirəm. Onun azad iradəsini və ixtiyarını əlindən olmadan, məhdudlaşdırmadan, ona lazımı köməyi edirəm ki, qarşı tərəf təzmin olunmuş şəkildə pak insan olsun. İlahi övliyaların da təkvini-vilayətləri vardır. Başqalarını da yaxşı adam edə bilərlər. Biz adi insanlar istəyirik başqaları da yaxşı adam olsunlar. Bu birinci mənadadır. Təşrii iradə mənasındadır. Özümüzə nisbətən də istəyirik yaxşı adam olaq yəni, kaş yaxşı adam olaq. Bu təşrii iradə olacaqdır. Məsələn: Sən dostuna deyirsən ki, bu gündən istəyirəm dərs oxumağa başlayım. Əgər oxumağa başlasan, bu təkvini iradədir. Allah da istəyir ki, Əhli-Beyt rics-dən uzaqlaşsın. Birinci mənayla istəyir ya ikinci mənayla? Yə-ni bu mənayla ki, istəyir Əhli-Beyt belə olsun, arzu edir, yoxa Əhli-Beytin pak olmasını təzmin edir? Biz deyirik bu ikinci mənayladır. Yəni Əhli-Beytin

paklaşmasını təzmin edir. Bu iradə, təkvini iradədir. Əhli-Beyti Allah-taala özü tərbiyə edir. Çünki, birinci mənaa ümumidir. Allah hamını istəyir ki, yaxşı adam olsun. Məsələn Allah hamıya Quran göndərib, peyğəmbər göndərib, hidayət edib. Bu ümumi hidayətdir. Amma ayədə xüsusiləşmiş bir iradədən söhbət açılır. Axı ayədə Allahın onları paklaşdırmaq iradəsi Əhli-beytdə inhisarlaşıb. Buyurub ki, istəyirəm ki yalnız size çirkinlikdən uzaqlaşdırım. Ayədə istəməkdən və iradə etməkdən məqsəd arzu olsaydı, bunun üçün həmin istəyi Əhli-Beytdə inhisarlaşdırmağın mənası olmazdı. Çünki Allah-taala hamının pak olmasını arzu edir, nəinki təkcə Əhli-Beytin paklaşmasını arzulasın. Allah hamıya buyurur ki, ricsdən uzaqlaşın. Buyurur:

فَاجْتَنِبُوا الرِّجْسَ مِنَ الْأَوْثَانِ وَاجْتَنِبُوا قَوْلَ الزُّورِ

Belə olduğu təqdirdə, murdar (başdan-ayağa murdarlıq olan) bütlərdən qaçın, yalan sözlərdən də (Allaha şərik qoşmaqdan da) çəkinin.[1]

Başqa ayələrdə Allah buyurur: istəyirik ki, hamınız saleh olasınız, paklığa yiyələnəsiniz. Amma bəhs etdiyimiz ayədə, “İnnəma”-“yalnız”,”ancaq”-buyurlmasının məqasədi budur ki, buradakı iradə, Əhli-beyt üzərində inhisarlaşıb. Bu ümumi iradə deyil, hamı üçün deyil. Deməli bu təşrii iradə ola bilməz, təkvini iradədir. “Sizi ricsdən uzaqladırıram, mən sizi paklaşdırıram.”- deməkdir.

Növbəti bəhsimiz Allahın təkvini iradə ilə paklaşmasını təmin etdiyi Əhli-Beytin ki olmasıdır.

1 - Həcc, 30

## Dərsin xülasəsi

Ayənin məntiqinə əsasən, Hz.Peyğəmbərin (s) zövcələri dini əxlaqa və qanunlara hər kəsdən daha çox diqqətli olmalı idilər. Bu həm özlərinin və həm də dinin inkişafına xidmət edəcəkdi

İkinci cahiliyyət dövrünə diqqətli olmalıyıq. Biz nəfsimizlə əsaslı olaraq maraqlanmalıyıq. Mən dini əməlləri icra etsəm belə məqsədim ilahi olmaya bilər. Bu yanlışdır. Məsələn: Məni bir günah məclisinə dəvət ediblər. Mən isə ora getmirəm. Amma Allaha xatir yox. Orada bir şəxs var idi, ondan xoşum gəlmədiyi üçün ora getmirəm. Sonra bu işimin Allaha görə olduğunu qeyd edirəm. Sabah öz məclisim olsa, ondan daha çox günah olan məclis quracam. Onda getməmişdimsə deməli başqa hesab-kitabım var idi. Bunlar incə nöqtələrdir, insan bəzən bunlarla özünü aldadır.

İkinci cahiliyyət dövrü saxtakarlıqla bir yerdədir. Ona görə də ikinci cahiliyyətdə yaşayan insanların imanını saxlaması və qoruması çox çətindir. İkinci cahiliyyətdə elm cahiliyyətə xidmət edir, texnologiya cahiliyyətə qulluq edir. Birinci cahiliyyətdə cahiliyyətə elmsizlik xidmət edirdi ona görə də tez bilinirdi. İkinci cahiliyyətdə isə elə deyil. Bəzən bir şəxs ateizmdən danışır. Ziyalı alimdir. Onun ziyalılığı, alimliyi pərədədir, lakin onun ateizm fikirlərini biz araşdırırıq. Görürük ki, fizika sahəsində bu şəxs ziyalıdır, alimdir. Ona görə də bu sahədə danışmaq hüququ var. Çünki Fizikadan səhf danışmayacaq. Amma onun elmi əqlinə pərdədir. O fizikada alimdir, amma ilahiyyatda alim deyil. Lakin mən ayıra bilmirəm.

Çirkinlik iki növdür: Zahiri çirkinlik, insanın simasında olan xoşagəlməzlik ki, bir növa nifrətə, uzaqlamağa səbəbdir. Mənəvi çirkinlik, daxili və batini xüsusiyyətlərin iyrəncliyidir ki, çox vaxt əməllərdə özünü biruzə verir. Onu mənəvi zibillik də adlandırmaq olar. Ayədə buyurulur ki, sizi çirkinlikdən təmizlədim.

Allah buyurur: "Ey Əhli-beyt! Allah ancaq sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər! (pak etməyi iradə edib.)" Çirkinlik necə yox olar, nəylə aradan gedər? İnsanin

təfəkkürü paklaşsa, əməlləri də paklaşacaqdır. Etiqadına haqq və əməlinə həqiqilik bəxş olunan insan doğru yola yönləndirilmiş şəxsdir. Belə insan yolu görər və yolu gedə də bilər. Ona təkcə yolu göstərməklə deyil, əlindən tutaraq həm haqq etiqadını bəxş etsələr, həm də haqq əməlləri ilə hədəfə aparsalar kamillik zirvəsinə çatar. Bunumla da onda çirkinlik qalmaz.

## On yeddinci dərs

### Günahın uzaq olmasıyla, günahdan uzaq olmağın fərqi

Ayədə Əhli-Beyt haqda söhbət açılır. Ounlar kimlərdir? Onların kim olması barəsində hələlik danışmırıq. Bunu bilirik ki, Allah onları rics və çirkinliklərdən paklaşdırmışdır. Əgər rics çirkin əməl, çirkin əqidə, çirkin düşüncə və çirkin davranışdırsa Əhli-Beyt onlardan pakdır. Bu və digər mənalarda məsumdurlar- deməkdir.

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيراً

Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər![1]

Allah tərəfindən bizim kimi adi insanların günha batmasının qarşısı tam şəkildə alınmaz. Əgər sağlam mənəviyata malik olsaq biz özümüzü ricsdən uzaqlaşdırarıq. Biz çirkinliyə tərəf gedib, sonra səmimi qəlblə tövbə etsək bu zaman özümüzü çirkinlikdən təmizləyərik. Amma yenə də təbiətimizdə günaha meyil, istək qalar. Çünki, bəşər təbiətcə digər canlı varlıqlarla oxşar xüsusiyyətlərə malikdir, bir növ vəhşidir. O mənəviattını inkişaf etdirdiyi zaman bu daiirədən xaric olur. Ona görə əgər biz günahdan tövbə etsək, günahdan uzaqlaşsaq, biz özümüzü günahlardan uzaqlaşdırırıq. Bu ayədəki mənada deyil. Çünki bir günah edirik və sonra tövbə ilə ondan paklaşırıq. Amma Əhli-Beyt isə belə deyil. Allah Əhli-Beytə elə lütf edib ki, tam şəkildə bünövrədən günahları onlardan uzaqlaşdırıb. Günahın onlara gəlməsinə yol yoxdur. Yəni o qədər onların ruhu əzimdir ki, əzəmətli ruha malikdirlər ki, heç bir çirkinlik onlara tərəf qanad aça bilməz. Belə deyil ki, çirkinlik və günahlar onlara çatsın , amma onlar çirkinliyə düşməsin. Xeyr, doğrusu budur ki günah onlara yaxın gələ bilməz. Çünki günahla onların ruhunun heç bir müştərək məqamı yoxdur. Çirkinlik bir yerdə məskən salmaq üçün özünə

1 - Əhzab, 33

uyğun məkan seçər. Onların ruhu çirkinlik və günah üçün əlverili məkan olmadığına görə günahlar onlardan uzaq durur. Allah onların ruhunu elə formada tərbiyə edib ki, çirkinlik (rics) onlara çata bilməz. Bəzi insanlar ümumiyyətlə günah haqda belə düşünməz. Amma bəzi insanlar isə günahı düşünə bilərlər, lakin bu düşüncədən belə tövbə edərlər. Günah etməyi düşünür sonra isə əməl məqamına çatmadan peşman olub tövbə edir, özünü günahdan çəkindirir. Əhli-Beyt isə belə deyil. Onların zehninə günah gəlmədiyi üçün, günah onlara çatmır. Onlar çox əzəmətli mənəviyyata sahib olduqları üçün günah onlara çatmaq üçün o qədər yüksəyə uça bilmir. Günah zəif iradələrdə kiçik mənəviyyatlarda olur.

Bu məsələni belə də izah edə bilərik ki, insan dili ilə günah edirsə, onu kontrol edir, qulağı ilə günah eşidirsə onu control edir, əli ilə günah edirsə onu kontrol edir və sair. Nəhayət qəlbi ilə günah edirsə onu da kontrol edir və qəlbinə günahın fikri belə yaxın düşmür. Bir mərhələyə çatır ki, daha günah ona tərəf gedə bilməz. Daha o günahın əhatə dairəsindən xaricdədir.

Əhli-Beyt məsumdur və məsum günah etməz, yəni günah onun zehninə gəlməz, ruhu da elə bir dairdədir ki, günah o sahəyə daxil ola bilməz. Günahın onun dairəsinə daxil olacaq gücüqüdrəti yoxdur. Deməli ruh inkişaf etdiyi zaman, ruh əzəmətləndiyi zaman daha şeytan ona nüfuz edə bilməz.

## Şeytanın nüfuz dairəsi

Şeytan insana bir mərhələyə qədər vəsvəsə edə bilər. İnsanın qəlbində xəstəlik olduğu zaman günah ona nüfuz edə bilər. İnsan “müxləs”-“ixlaslı” olduğunda şeytan özü edir ki, ona nüfuz etməsi qeyri-mümkündür.

قَالَ فَبِعِزَّتِكَ لَأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ ﴿٨٢﴾

(İblis) dedi: “Sənin izzətinə-qüdrətinə and olsun ki, onların (Adəm övladının) hamısını (haqq yoldan) azdıracağam.

إِلَّا عِبَادَكَ مِنْهُمُ الْمُخْلَصِينَ ﴿٨٣﴾

Təkcə Sənin seçilmiş (ixlaslı) qullarından başqa!”

Şeytan bir növ etiraf edir ki, daha mən oraya çata bilmərəm. Bizim dinimizdə şeytan Allahla bərabər gücə malik deyil. Zərdüşt dinində xeyir şərlə bərabər gücə malikdir. Ona görə də, xeyir-şər savaşı, haqq-batil mübarizəsi hər zamandır, həmişədir. İslam dinində isə belə deyil, İslam dini tövhid etiqadı üzərində qərarlaşıb. Şeytan da başqa varlıqlar kimi Allahın yaratdığıdır, məxluqdur. Buna görə onun qüdrəti məhduddur. Bir mərhələdən sonra daha bəşərə şeytan nüfuz edə bilməz. Yuxarıdakı ayədə buyurulur ki, şeytan Allaha müraciət edir: “İnsanların hamısını aldadacam, lakin sənin müxləs bəndələrinə nüfuz edə bilməyəcəm, onlara gücüm çatmaz, çünki, mən onların mənəvi əhatə dairəsinə daxil ola bilmərəm.

Buna əsasən də ayədə işarə edilir ki, “Əhli-Beytdən (ə) çirkinliyi, günahı uzaq etdim.” Buyurulmur ki, “onları günahdan uzaqlaşdırdım.” Əksinə buyurulur: çirkinliyi sizdən uzaqlaşdırdım. Yəni “çirkinlik, günahlar sizə nüfuz edə bilməz.”

Buna bənzər Yusuf surəsində Hz.Yusuf (ə) haqqında belə bir ayə vardır. Orada çirkinliyin Hz.Yusifdən uzaqlaşdırılmasına işarə edir.

وَلَقَدْ هَمَّتْ بِهِ وَهَمَّ بِهَا لَوْلَا أَنْ رَأَى بُرْهَانَ رَبِّهِ كَذَلِكَ لِنَصْرِفَ عَنْهُ السُّوءَ وَالْفَحْشَاءَ إِنَّهُ مِنْ عِبَادِنَا الْمُخْلَصِينَ

(Qadın) ona meyl etmişdi. Əgər (Yusuf) Rəbbinin dəlilini görməsəydi, o da ona meyl edərdi. Beləcə, Biz pisliyi və çirkin əməli ondan uzaqlaşdırdıq. Həqiqətən, o, Bizim seçilmiş qullarımızdandır.[1]

Hz.Yusuf (ə) buna görə günaha düşmədi. Diqqət etmək lazımdır ki, bir sıra günahlar asanlıqla insanın ürəyindən çıxmaz. O günah insanın ürəyində kök salıb. İnsan xəstəliyini kökündən müalicə etməsə, yüngünvari müalicə etsə, yenidən nə zamansa şərait yarandıqda xəstəliyi üzə çıxacaq. Zərərli bitkinin kökünü qurutmaq lazımdır. Budaqlarını qırmaqla düzəlməz. Yenidən cücərə bilər.

1 - Yusif, 24

## Tövbə ilə islahın fərqi

İnsanda həsəd olduğu zaman paxıllıq etdiyinə görə qeybət edir. Bu gün eşidir ki, qeybət günahdır. Qeybət etməkdən tövbə edir. Amma özünü tam islah etmədiyi üçün, paxıllıq etdiyi üçün yenidən qeybət edəcək. Doğrudur ki, yenidən qeybət etməyə bilər, amma o insana qarşı bədbin olub, onunla dalaşa bilər və yaxud ona nalayiq sözlər deyə bilər. Bu şəxs qeybətdən uzaq olub, amma başqa yollarla paxılığını biruzə verir. Bu nədən irəli gəlir? Bundan irəli gəlir ki, insan özünü islah etmir. Tövbə edir, lakin islah etmir. İslah odur ki, günahın budaqlarını kəsməklə birgə, onun kökünü də kəsəsən. Biləsən ki, o günah haradan yaranır. O günahın hardan gəldiyini bildiyin zaman onu da islah edəsən. Buna əsaslı islah deyirlər. İnsan özünü tövbə ilə birgə islah edir. Bu formada olur insanın mənəvi inkişafı. Sırf tövbə ilə insan inkişaf edə bilməz.

إِلَّا الَّذِينَ تَابُوا وَأَصْلَحُوا وَاعْتَصَمُوا بِاللَّهِ وَأَخْلَصُوا دِينَهُمْ لِلَّهِ فَأُولَئِكَ مَعَ الْمُؤْمِنِينَ وَسَوْفَ يُؤْتِ اللَّهُ الْمُؤْمِنِينَ أَجْرًا عَظِيمًا

Tövbə edənlər, özlərini islah edib düzəldənlər, Allahdan möhkəm yapışanlar və Allah qarşısında dinini (etiqadını) təmizləyənlər müstəsnadır. Çünki onlar möminlərə bərabərdirlər. Möminlərə isə Allah böyük mükafat verəcəkdir![1]

Deməli, sadə tövbə ilə islah olunmuş sayılmırıq. Nəsuh tövbəsi islahdır. Çünki günahlar kökdən həll olmasa, başqa formada üzə çıxar.

İmam Əli (ə) Nəhcül-bəlağədə bir cümlədə cəmiət haqqında buyurur: “Sizin cəmiyyətiniz çürümüş bir parçaya bənzəyir ki, parçanı bu tərəfdən tikirəm o tərəfdən parça cırılır. Çünki, o çürüyüb.”

Bəzi insanlar da belədir. Özlərini islah etməsələr, çürük parka kimi bir tərəfini tikdikdə, başqa bir tərəfi süzülüb yırtılacaqdır. Bir günah qapısını bağlasa, başqa bir günah qapısı açılacaqdır.

İslaha bir ayrı misalı da qeyd edək. Sanki evimizin daxilində zibil var. Onun qoxusundan insanlar, qonşular narazıdır. Biz zibili

1 - Nisa, 146

təmizləmirik, amma pəncərə və qapıları örtürük ki iyi bayıra çıxıb insanlara əziyyət verməsin. Sonra axırı bu qoxu bacadan, evin hansısa dəliklərindən yenə də bayıra çıxıb insanları incidir. Biz başlayırıq bacanı və başqa dəlikləri suvaqla malalamağa ki, iy bayıra çıxmasın. İslah edilməmiş insanın tövbəsi də belədir. Biz bəzən tövbə edirik amma özümüzü İslah etmirik.

Tövbə ilə islahın fərqi haqqında bir misalda qeyd edək. Xəstələnmişik, xəstəlik dərinlərə qədər irəliləyib. Qrip olmuşam, mənə ağır soyuq dəyib. Ciyərlərimə qədər irəliləyib. Sadə dərmanlarla özümü müalicə edirəm daha öskürmürəm. Daha burnumdan su gəlmir. Tövbə buna bənzəyir. Mən özümü müalicə etdim. Sabah yenə bir qədər hava soyusa, biraz da üzümü soyuğa versəm yenə mənə soyuq dəyəcək. Çünki, kamil müalicə olunmamışam. Xəstəliyin kökü daxildə hələdə var. O təkcə zəif, süst, çürümüş bir yer axtarır ki, ordan bayıra çıxsın. İnsan özünü islah etməsə çürümüş divarlardan günahının kökləri üzə çıxar. İnsanda qəzəb, şəhvət, həsəd hissi kimi sair nəfsani istəklər cilovlanmadığı zaman onların üzərini örtməklə kontrol etmək mümkün deyil. Kökündən həll etmək lazımdır. Üzərini örtdüyümüz zaman məsələ tam həll olmur.

## Hz. Yusif (ə) və islah

Hz.Yusuf (ə) peyğəmbər özünü islah etmişdi. Günah edib sonra tövbə etməmişdi. Əvvəlcədən islah olunmuş bir insan idi. Ona görə də heç bir hadisədə özünü itirmədi. Onun üzləşdiyi hadisələr adi insanların başına gəlsə onlar özlərini itirərlər. Hz.Yusuf (ə) çoxsaylı imtahan dolu hadisələrlə üzləşib. Biz burada təkcə Züleyxa ilə olan hadisəni misal ünvanında qeyd edə bilərik:

Züleyxa şəhərin ən gözəl xanımı idi. Mövqeyi də onun əhəmiyyətini artıtırdı. Hz.Yusuf (ə) da eyni zamanda subay idi. Hz.Yusuf (ə) o zaman sarayda qul idi. Züleyxanın göstərişlərinə itaət etməsi vacib idi. Çünki, Züleyxanın qulu idi. Bu amillərə diqqət edin. Qul, yəni sahibi nə əmr etsə yerinə yetirməlidir. Hz.Yusuf (ə) cavan idi. Hz.Yusuf (ə) bu haram işi etsəydi belə kiminsə xəbəri olmazdı. Xəbərdar olsaydılar belə, abrı getsəydisə

də, şəhərdə onu və ailəsini tanıyan yox idi. Axı insan islah olmasa da, bəzən tanındığı üçün bir sıra günahları etmir. Hz.Yusufin (ə) günah etməməsi üçün belə bir maneə yox idi. Onu heç kim tanımırdı. Özünü çox sonralar təqdim etdi ki, mən Hz.Yaqubun (ə) nəslindənəm. Bunlar hamısı günaha yol açırdı. Hz.Yusufun (ə) elə bir şəraiti var idi ki, günah etsəydi heç nə baş verməyəcəkdi. Züleyxa onun gözünün qabağında qapıların hamısını bağlamışdı. Özü də qapıların hamısını. Quranın terminin ə diqqət edin. "Ğəlləqətil əvvab" yəni Qapılar hamısı.

وَرَاوَدَتْهُ الَّتِي هُوَ فِي بَيْتِهَا عَنْ نَفْسِهِ وَغَلَّقَتِ الْأَبْوَابَ وَقَالَتْ هَيْتَ لَكَ

Evində olduğu qadın (Züleyxa Yusifi) tovlayıb yoldan çıxartmaq (onunla yaxınlıq etmək) istədi və qapıları bağlayaraq: "Di gəlsənə!" - dedi.

Züleyxa təkcə bir qapını deyil, bütün qapıları bağlamışdı. Özü də "ğəlləqə". Ərəb dilində yəni möhkəm bağladı. Bu ibarət təmin verir ki, qapılar hamısı bağlıdır, özü də möhkəm şəkildə bağlıdır. Yəni biz açmasaq heç kim içəri girə bilməz. Özü də bir qapı deyil ki, səs eşidilmiş olsun. Qapılar iç-içədir və hamısını bağlayıb. Sarayda iç-içə qapılar mövcud olurdu. Mənası odur ki, qapıların hamısını bağladım.

Hz.Yusufu (ə) şahzadə xanım tələb edirdi. Adətən günah kişi tərəfindən tələb olunar. Hz.Yusuf (ə) onun dalınca deyildi. Qadın kişini tələb etdiyi zaman bu daha cazibədar olur kişi üçün və insan daha tez aldana bilər. Düzdür qadın kişiyə günah şəraitini yarada bilər. Lakin çox zaman o, tələb etməz. Adətən tələb və təklif kişi tərəfindən olar. Hz.Yusufin (ə) əhvalatında bu əksinə idi. Züleyxa tələb edir xahiş edir, yalvarırdı. İnsan bir nəfəri çox görsə getdikcə ona alışar. Məqsədi günah etmək olsa isə onu tovlamaq üçün min bir yola baş vurar. Şirin dillli olar, naz-işvə edər, özünü bəzəyər. Hz.Yusuf (ə) dünən bazardan alınıb Züleyxanın evinə gətirilməmişdi ki, bu gün də ona gözü düşsün. Hz.Yusuf (ə) onun evinə gətirildiyi zaman uşaq idi. Bu hadisəyə qədər onun evində uzun müddət yaşamışdı. Züleyxanın belə fikri var idisə mütləq bu müddət ərzində Hz.Yusufa (ə) psixoloji təsirlər qoymuşdur. Hadisə

zamanı psixoloji təsirlərində nəticə almaq istəyirdi, artıq ona günah təklifini dili ilə söylədi. Qadın adətən özünü rahat şəkildə təqdim etməz. Bu istəyini dili ilə deməz. Məlumdur məsələ o qədər böyüyüb ki, dili ilə deyib. Bu kimi hadisələrin biri ilə adi insanlar üzləşsə, məlum deyil ki, özünü günahdan saxlaya bilər yoxsa ya yox.

Züleyxa Hz.Yusufa (ə) dedi: “Əgər mənim sözümə baxsan sənin məqamını ucaldaram.” Burada iqtidar Züleyxanın əlində idi və Hz.Yusufin (ə) əhvalatından belə aydın olur ki, Misir padşahının vəziri Qitfir də Züleyxadan nəsə çəkinirdi. Züley-xaya bu hərəkətinə görə ciddi əksül-əməl göstərmədi. Onun xəyanətini ört-bastır etdi. Yusufa dedi ki, heç kimə bu haqda məlumat vermə.

يُوسُفُ أَعْرِضْ عَنْ هَذَا وَاسْتَغْفِرِي لِذَنْبِكِ إِنَّكِ كُنْتِ مِنَ الْخَاطِئِينَ

Ey Yusif! Sən bu işi açıb ağartma. Sən də (ey qadın) günahına görə (Allahdan) bağışlanmanı dilə. Çünki sən, həqiqətən, günah edənlərdənsən.[1]

Hətta Züleyxa öz günah niyyətindən sonra da əl çəkmədi. Buradan ayrın olur ki, Züleyxa özünəməxsus nüfuz və qüdrətə sahib imiş. Yusuf bunu bilirdi. Çünki, uzun müddət idi ki sarayda yaşayırdı. Bilirdi ki, Züleyxanın istəyinə müsbət cavab versə, hətta qüdrəti də əlinə ala bilər. Digər cəhətdən də əmin idi ki, əgər Züleyxanın istəyinə rəd cavabı versə, çoxlu təhlükələrə düşə bilər.

وَلَئِنْ لَمْ يَفْعَلْ مَا آمُرُهُ لَيُسْجَنَنَّ وَلَيَكُونًا مِنَ الصَّاغِرِينَ

Mən onun olmaq istədim, o isə imtina etdi. (Bir daha deyirəm) əgər əmrimi yerinə yetirməsə, sözsüz ki, zindana atılacaq və zillətə düşənlərdən olacaq!”[2]

قَالَ رَبِّ السِّجْنُ أَحَبُّ إِلَيَّ مِمَّا يَدْعُونَنِي إِلَيْهِ وَإِلَّا تَصْرِفْ عَنِّي كَيْدَهُنَّ أَصْبُ إِلَيْهِنَّ وَأَكُنْ مِنَ الْجَاهِلِينَ

(Yusif) dedi: “Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən xoşdur. Əgər (bu qadınların) hiyləsini

1 - Yusuf, 29
2 - Yusuf, 32

məndən dəf etməsən, mən onlara meyl edər və cahillərdən olaram”.[1]

Qurani-Kərimin buyuruğuna əsasən, Hz.Yusuf (ə) onu müxtəlif təhlükələrin gözlədiyini bilirdi və günaha düşməkdənsə zindana salınmasını seçdi. Çünki Hz.Yusuf (ə) özünü islah etmişdi.

Biz Təthir ayəsinin təfsirinə qayıdaq. Allah Qurani-Kərimdə Hz.Yusuf (ə) haqqında buyurur ki, “Beləcə, Biz pisliyi və çirkin əməli ondan uzaqlaşdırdıq.” Yəni Hz.Yusufi (ə) günahlardan deyil, günahları ondan uzaq etdik. Təthir ayəsində də həmin formadadır.

Allah nə üçün günahları Hz.Yusufdən (ə) uzaqlaşdırdı? Çünki Hz.Yusuf (ə) ixlaslı bəndələrdən idi.

إِنَّهُ مِنْ عِبَادِنَا الْمُخْلَصِينَ

Həqiqətən, o, Bizim ixlaslı (seçilmiş) qullarımızdandır.[2]

## Əhli-Beytin (ə) islah məqamı

İnsan elə bir mənəvi səviyyəyə çatır ki, günah ona çata bilmir. Günah nun əhatə dairəsinə daxil ola bilmir. Məsumluğun da mənası budur. Əhli-Beytdən çirkinliyi uzaqlaşdırmaq lə bu mənayadır.

Sonra buyurulur: **Ey Əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (təharət) etmək istər!**[3] Yəni çirkinliyi sizdən apardıq və sizə təharət, paklıq verdik. Təharət çirkinliyi aradan aparmaqdır yoxsa fərqlidir? Hökmən fərqlidir. Çirkinliyi aradan aparmaq “səlbiyyə sifəti”dir, yəni nöqsan xüsusiyyətlərini aradan aparmaqdır. Təharət isə “subutiyyə sifəti”dir, fəziləti əta etmək və bəxş etməkdir. Təharət “paklıq bəxş etmək”dir. Çirkinkiyi təmizləmək “yuzhibur rics”dir. Onun paklanmış yerinə “ətir səpmək” olur “yutəhhirəkum”dur. Təharət verir, paklıq bəxş edir. Həm çirkinliyi aparıb, həm də paklıq bəxş edib.

---

1 - Yusuf, 33
2 - Yusif, 24
3 - Əhzab, 33

Bu ayənin təfsirində Fəxri Razi bir nöqtə, incəliyə işarə edir. Qeyd edir: Bu ayədə “çirkinliyi aradan aparmaq” ilə “təthir”i Allah bir yerdə zikr edib. Buyurur ki, bu bir incə nöqtədir. O incə nöqtə nədir? Şəriətdə belə bir hökm var: Bəzən insanın paltarı nəcisdir, qandır və s. qanı təmizləyirsən. Görürsən ki, nəcis özü aradan gedib, lakin iyi qalır, rəngi qalır. Bu qalan izlər nəcis deyil. Yazır: Bəzən nəcisin özü gedir, lakin yerində nəcasətin izi qalır. Təharət həmin izin olmaması və ətirlənməsidir. Təharət bəxş etsən bunlar da gedər. Qeyd edir ki, Allahın buyurduğu bu cümlənin: “liyuzhibə ənkumur rics” mənası budur ki, günahı sizdən aparmışıq, sizə günah yol tapa bilməz. Təkid edir ki, “yutəhhirəkum” - dan məqsəd budur ki, “sizə Allah kəramət paltarı da geydirmişdir.” Yəni sizi həmdə ətirləmişdir. Siz Əhli-Beyt günah və günahın fikrindən belə paklanmışsınız.

Bəzən insan bir maddənin özündən uzaqdır, amma üzərindən onun iyi gəlir, bir az abu-havası var. Özü günah adamı deyil, amma onda günah abu havası var. Hələ günah etmir. Beləsindən yalnız günahın, çirkinliyin iyi gəlir. Qurani-Kərimin Ənbiya surəsində buyurulur:

**إِنَّ الَّذِينَ سَبَقَتْ لَهُمْ مِنَّا الْحُسْنَى أُولَئِكَ عَنْهَا مُبْعَدُونَ ﴿101﴾ لَا يَسْمَعُونَ حَسِيسَهَا وَهُمْ فِي مَا اشْتَهَتْ أَنْفُسُهُمْ خَالِدُونَ ﴿102﴾**

(Yaxşı əməllərin mükafatı olaraq) öncədən özlərinə ən gözəl nemət (Cənnət, əbədi səadət) yazılmış kəslər - məhz onlar ondan (Cəhənnəmdən) uzaqlaşdırılmış olacaqlar. **﴾101﴿** Onlar (Cəhənnəmin) uğultusunu eşitməyəcəklər. Onlar (Cənnətdə) ürəklərinin istədiyi (nemətlər) içində əbədi qalacaqlar. **﴾102﴿**

Cəhənnəmdən uzaq olmaq bir nemətdir. Cəhənnəmin səsini belə eşitməmək tamam ayrı bir nemətdir. İnsan zibilxananın içində olmaya bilər lakin elə yaxın ola bilər ki, o zibilxanadan ona iyi gələr. İnsan günahdan çox uzaqdır, buna “yutəh-hirəkum” deyirlər. Ricsdən uzaqlıq bir məsələdir, təharətə malik olmaq isə başqa bir məsələdir. Təharət bir növ isbat sifətidir. İnsan fəzilətə malik olduğu zaman təharətə malik olar. Pislikdən, çirkinlikdən uzaq

olmaları, yəni onlarda pisliyə, çirkinliyə səbəb olacaq bir şeyin olmamasıdır. Bu elə bir məqamdır ki, adi insanlara aid deyil. Yalnız Allahın xüsusi bəndələri olan Əhli-Beytə (ə) aiddir.

### Təharət sahibi olmağın mənası

Təharət sahibi olan şəxslər Allahın "müxləs"[1] bəndələridir. Daha onlara günahın nüfuz imkanı yoxdur. "Yuridu" davamiyyəti bildirən feldir. İndiki və gələcək zamana aiddir. İndiki zamanın fel ardıcıllığını bildirir. Ayədə Allah buyurur: "yuridu" - "indi və gələcək zamanda davamiyyəti olan şəkilə istəyir, iradə edir." "Əradəllah" buyurulsaydı, keşmiş zamana aid olardı. Bu o deməkdir ki, ayənin məntiqinə əsasən Allah Əhli-Beyti davamlı olaraq çirkinlik və günahlardan qoruyur. Yəni; hər an bu paklaşdırma baş verir. Bu sankı qurumayan saf suya malik bulaqdan qidalanmaq kimidir. Mənbə əbədi olaraq var. Sanki daim əlimizi kimsə yuyur və ətir vurur. Bu fel ardıcıllığı yetirir və bu feyzin həmişəliyini çatdırır. Ona görə ismət (bütün günhlardan hərtərəfli pak olmaq) buradan nətircə alınır. Əgər Əhli-Beyt məsum olmasa, onların hər an paklanmasının mənası olmaz. Mənəvi ucalıqdan tənəzzülə uğrayıb, günaha düşmələri mümükün olar. Bir halda ki, aəyənin məntiqinə əsasən onlar hər ləhzə, hər an təmizlənir və paklaşırlar.

Qurani-Kərimdə buyurulur ki, Allah bir sıra insanlara "şərabi-təhur"-"pak içki" verəcək. "Təhur pak edici" deməkdir. "Şərab" isə içki ünvanında qidadır.

عَالِيَهُمْ ثِيَابُ سُنْدُسٍ خُضْرٌ وَإِسْتَبْرَقٌ وَحُلُّوا أَسَاوِرَ مِنْ فِضَّةٍ وَسَقَاهُمْ رَبُّهُمْ شَرَابًا طَهُورًا

(Cənnət əhlinin) əyinlərində taftadan və atlazdan (nazik və qalın ipəkdən) yaşıl libaslar olacaq, onlara gümüşdən bilərziklər taxılacaqdır. Rəbbi onlara çox pak bir şərab içirdəcəkdir.[2]

---

1 - Onlar Allahın seçdiyi və onları şirk və günahlardan qoruduğu kəslərdir. Bu, ixlasın ən yüksək mərhələsi adlandırılır ki, şeytanın vəsvəsəsi insanda təsir qoymur və ona nüfuz etməkdən məyus olur.

2 - İnsan, 21

Bu cənnətdəki mənəvi paklıq içkisidir. Yəni ilahi lütfü ilə mənəviyyatları daim qidalanaraq təmizlənib, paklaşacaqdır. Təthir ayəsinə əsasən bu paklıq Əhli-Beyt üçün davamlı və ardıcıl olaraq baş tutur. Onların uca mənəviyyatına şeytanın vəsvəsə oxları çatmır. Günah bir oxa bənzəyir. Quş səmada aşağıdan uçarsa, ovçu onu asanlıqla vura bilər. Amma quş ox mənzilindən uzaqda süzərsə ovçunun onu vurmağa qüdrəti çatmaz. Əhli-Beyt də belədir. Onların uca mənəviyyatına şeytanın günah oxları çatmaz.

Bir gün insan yerə yaxındır, dünya malına yaxındır. Dünya maraqları ilə yaşayır, onu oxlamaq rahatdır. Şöhrət ilə, şəhvət ilə oxlaya bilərsən. Şübhə ilə də oxlaya bilərsən. Dünya sevgisilə əlaqədar hər şey ilə oxlamaq olar. Çünki, bu oxlar insana yaxındır. Bir miqdar ucalsa, paklığa tərəf hər nə qədər yaxınlaşsa hər vasitə ilə oxlaya bilməzsən. Ucaldıqca hər günahla oxlamaq çətinləşir. Vəsvəsə etmək çətinləşir. Daşla vurmaq olmur, dəqiq nişan alıb vurmaq olur. Dünyapərəst insanı adi və kobud şəhvətlə vura bilərsən, tora sala bilərsən. Amma mənəviyyatı zənginləşdikcə onu yalnız incə və sürətli günah oxu ilə vurmaq olur. Şübhə də də belədir. İnsan bəzən elə vəziyyətdədir ki, sadə bir sözlə ateist olur. Bir az mənəviyyatını artırsa ona möhkəm şübhələrlə hücum edilir, dinə qarşı ikrah yaradılır.

Bəzən quşbazlar quşu yerə salanda bəzi quşlar asanlıqla yerə gələr, dən atarsan tamahkarlığından tez yerə enər. Bəzi quşlar dən atmaqla deyil, səs çıxarmaqla, bir azca hiyləgərlik etməklə yerə salınar. Quş nə qədər çox zirəng olsa, onu yerə salmaq bir o qədər məharət tələb edər. Axı quşlar da o incəlikləri daha yaxşı tanıyırlar. İnsan nə qədər paklığa tərəf ucalsa, günaha düşməsi bir o qədər incələşər.

Bəzən insan özü bilmədən günaha düşür. Həyatına nə etdiyini hiss etmir. Çünki, bu dəfə artıq günahı incələşib. İnsan bəzən uşağını kobudcasına vurur, bu aydındır. Bəzən isə övladını incə şəkildə vurur. Bu başqa formalı vurmaqdır. Burada günah incələşib. Görürsən ki, uşaq məktəbdə dərs oxuyur, amma validyen onunla maraqlanmır. Bu incəcə şəkildə vurmaqdır. Uşağın ata-anası kimi

özümü hiss edirəm, uşağa paltar alıram, yeməyinə diqqət edirəm, hiss edirəm ki atayam, anayam, lakin tərbiyəsinə diqqət etmirəm. Burada günah incələşdi. Bu bir az kobudluqdan çıxıb. Bəli, bəzi valideynlər heç uşaqlarına paltar da almazlar, uşaqlarına dəyər verməzlər. Bu kobud günahdır. Amma mənəviyyat artıdıqca, vəsvəsələr, bəhanələr, tələlər də bir az incələr ki, insanı ovlamaq asand olsun, quş yerə düşə bilsin. Biz də həyatımızda beləyik. İnsanın nəfsi insan mənə-viyyat yoluna düşmək istədiyi zaman ona müxtəlif bəhanələr düzəldir. Ta ki, yoldan bezsin. Dünənəcən kobudcasına əxlaqsızlıq edirdi. Nəfsi şeytani vəsvəsələrlə onu rahat aldadırdı. Axı indi o cür kobudcasına bəhanələrlə mənəviyyat yolunda addımlamaq istəyən insanla mübarizə edə bilməz. Çünki, o mərhələdən keçib. İndi incəcə şəkildə, ayrı formada mübarizə etməlidir. Hər insan hər mərhələdə öz zəif nöqtəsinə baxsa görər ki, nə qədər kobudluqdan incəliyə tərəf gəlir.

Hətta insan bəzən ibadətə edər, amma ibadətin özündə də günah edər. Diqqət edin ibadətin özündə deyirəm. Məsələn: İbadəti ilə fəxr edər. Ücbə düçar olar. İnsan oğurluq etdikdə, zina etdikdə günah etmiş olur. Bunu bilirik. Bir də var ki, insan ibadətdə günah edər. Bu zaman günah incələşər. Bu zaman ox namaza vurular. Ona görə quş nə qədər yuxarı uçsa, insane da şeytan və nəfs maneə yaradar. İnsan bunu anlamalı və daim nəfsi ilə cihad etməlidir. Həmişə ayıq olmalıdır ki, nəfsi onu aldada bilər. Həmişə bu hiss və agahlıqla yaşasa, müxtəlif oxlar həyatına gəlsə belə daim onları dəf edə bilər. Çünki qalxanı var və ox ona dəyib yerə düşər. Ona heç bir zərər toxundura bilməz.

Bilməliyik ki, bəşər məsum olmadığı üçün, hər mərhələdə müxtəlif oxlarla üzbəüz olur. Bu günah oxları çoxsaylı və müxtəlif formalarda ola bilər. İncə günahlarımız, incə səhvlərimiz, elə kobud səhvdir, kobud günahdır. Sadəcə mərhələyə görə formasını dəyişib. Baxın incə günah sürətli maşının incə azmasına bənzəyir. Maşının sürəti az olduğu zaman sürücünün kobud səhvi yuxarı sürətlərdə incə səhvi ilə olan eyni ziyanı verər. Bundan sonra səni daha əxlaqsızlıqla yaralamaq olmaz. Səni namazla yaralamaq olar. Səni

qürurla yaralayarlar. Biz getdikcə nəfsimizlə elə mübarizə etməliyik ki, çirkinliyi özümüzdən təmizləyə bilək. Biz günahın qarşısını almaq üçün addımlar atmalıyıiq. Qalxanımız olmalıdır.

## Dərsin xülasəsi

Allah tərəfindən bizim kimi adi insanların günha batmasının qarşısı tam şəkildə alınmaz. Əgər sağlam mənəviyata malik olsaq biz özümüzü ricsdən uzaqlaşdırarıq. Biz çirkinliyə tərəf gedib, sonra səmimi qəlblə tövbə etsək bu zaman özümüzü çirkinlikdən təmizləyərik. Amma yenə də təbiətimizdə günaha meyl, istək qalar. Çünki bir günah edirik və sonra tövbə ilə ondan paklaşırıq. Amma Əhli-Beyt isə belə deyil. Allah Əhli-Beytə elə lütf edib ki, tam şəkildə bünövrədən günahları onlardan uzaqlaşdırıb. Günahın onlara gəlməsinə yol yoxdur. Yəni o qədər onların ruhu əzimdir ki, əzəmətli ruha malikdirlər ki, heç bir çirkinlik onlara tərəf qanad aça bilməz. Belə deyil ki, çirkinlik və günahlar onlara çatsın, amma onlar çirkinliyə düşməsin. Xeyr, doğrusu budur ki günah onlara yaxın gələ bilməz. Çünki günahla onların ruhunun heç bir müştərək məqamı yoxdur. Əhli-Beyt məsumdur və məsum günah etməz, yəni günah onun zehninə gəlməz, ruhu da elə bir dairədədir ki, günah o sahəyə daxil ola bilməz. Günahın onun dairəsinə daxil olacaq gücü-qüdrəti yoxdur. Deməli ruh inkişaf etdiyi zaman, ruh əzəmətləndiyi zaman daha şeytan ona nüfuz edə bilməz.

## On səkkizinci dərs

### Əhli-Beyt (ə) paklanmış kamil insanlar

Allah-təala Əhli-Beyti (ə) bizə məsum və kamil insan nümunəsi olaraq göstərir. Onların arasından bizə imamlar təyin edib. Onları paklaşdıraraq daim pak saxlayıb. Çünki onların paklığa qabiliyyətləri və istedadları olub. İnsan bir mənəvi mərhələyə çatdığı zaman onun qabiliyyətini nəzərdə alaraq Allah-təala daha da ucaldar və paklaşdırar. Çünki ismət məqamına insan özbaşına çata bilməz. İsmət məqamını insanlara Allah verir. İnsan müstəqil şəkildə o məqama çata bilmir. Onu Allahın lütfü ilə əldə etməlidir. Bəşər övladı yalnız şəraitini qazanır. Qeyd etdiyimiz qalxanı əldə edir və günah oxları sipərə dəyib təsirsiz olur. Məhz Allah insana məsumluq məqamını bəxş edir. İnsan hər an imtahan verir. Hər sahədə; düşüncəsi, bədən üzvləri və davranışı ilə imtahan verir. Əgər qalxanı varsa bu imtahanlarda sağlam qalır, əgər qalxanı yoxdursa yaralanar. Bu çalışma, bu yoxlama, bu imtahan, bu sınaqla insan bir mənəvi mərhələyə çatdığı zaman Allah ona ismət məqamı bəxş edir. Allah özü onu pak edib, isməti ona Özü verir. Belə şəxsə müxləs deyirlər. Müxləs olmaq üçün ilk öncə müxlis olmaq lazımdır. Müxlis budur ki, insan özünü günahlardan xalis edir, bu aşağı mərhələdir. Buna çatmaq da özü böyük hünərdir. Lakin müxləsdən aşağı mərhələdir. İnsan düşüncəsini, əməlini Allaha bəxş etdikdən sonra Allah da onu öz çətri altına alır. Belə ki, indiyədək insan özü günah oxlarına qalxan yaratmağa məcbud idisə, imam olduqdan sonra daha günahlarla mübarizə aparmır. Çünki, imam günahla üzbəüz deyil. Çünki, o günahın ox mənzilindən ucadadır. Günahın oxu daha ora çata bilməz. O, Allahın çətri altına girmişdir. Və Şeytan da bilir ki, daha ora çata bilməz. Ona görə istisna edir ki, mən onları vəsvəsə edə bilmərəm. Mənim oxum ora dəyməz. Onlara ismət bəxş edilmişdir. Deməli nəticə aldıq ki, məsumluq Allahın bəxşişidir.

Oradan Şeytan qovulub. Orada nəfs ölüb. Nəfsi əmmarə yoxdur. Orada nəfsi mütməinə vardır.

يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ

(Qiyamət günü Allah-təala mömin kimsəyə belə buyuracaqdır:) "Ey (öz imanından, əməlindən və Allahın vədindən) xatircəm olan kəs! (Və ya: "Ey arxayın nəfs!")

ارْجِعِي إِلَى رَبِّكِ رَاضِيَةً مَّرْضِيَّةً

Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən![1]

Bu mərhələdə həsəd, paxıllıq və sair günahlar yoxdur. Ora Allahın (mənəvi) cənnətidir. Lakin ora girmək üçün müxlis olmalısan. Ora girmək üçün gərək bir mərhələyə qədər çalışasan. İmam artıq bu mərhələdədir. O imamdır, o saleh olub, Allaha bəndə olub. İndi də ona imamət bəxş edilib.

إِنَّمَا يُرِيدُ اللَّهُ

Allah sizi tərtəmiz (pak) etmək istər![2]

"İnnamə yuridullah" Burada Allahın iradə etməsi və istəməsi xüsusi mənayadır. Allah bütün bəndələrinin pak olmasını istəyir. Bu təqva ilə pak olmaqdır. Amma bu ayədə məqsəd Əhli-Beytin sırf təqva ilə pak olması deyil. Mülis mərhələsindən müxləs mərhələsinə ucaldaraq onlara ismət bəxş edilməsi nəzərdə tutulub. İradə "təkvini iradə"dir. Yəni, belə istəyib və edib.

## Əhli-Beytin kim olması haqda araşdırma

Müxləs olmuş, təharət bəxş edilmiş məsun Əhli-Beyt kimdir? Bu haqda müxtəlif nəzəriyyələr mövcuddur:

1) Bir nəzəriyyə budur ki, bu ayə təkcə peyğəmbərin xanımları haqqındadır, yəni Əhli-Beytdən məqsəd peyğəmbərin xanımlarıdır. Əhli-sünnə alimlərinin bir qrupu bu nəzəriyyəni irəli sürmüşlər.

2) İkinci nəzəriyyə budur ki, peyğəmbərin xanımları və övladlarıdır.

---

1 - Fəcr, 27-28

2 - Əhzab, 33

3) Üçüncü nəzəriyyə budur ki, adətən onlar peyğəmbərin əqrabasıdır, yaxın adamlarıdır və ailəsidir. Başqa nəzəriyyələr də var.

Biz birinci nəzəriyyəni araşdırırıq. Bu ayə Hz.Peyğəmbərin yoldaşları haqqında ola bilər, ya ola bilməz? Həmin nəzəriyyənin tərəfdarları öz iddialarına sübut olaraq, qeyd edirlər ki, ayə Hz.Peyğəmbərin yoldaşları haqda olan ayənin sonunda yerləşir. Buna görə də, deməli onlara aiddir.

Lakin bu iddia bir sıra dəlil-sübutlara əsasən Hz.Peyğəmbərin yoldaşları haqqında deyil.

***Birinci dəlil:*** Məsələyə qrammatik cəhətdən yanaşdıqda, bilirik ki, Qurani-Kərim fəsahət və bəlağət baxımından möcüzədir. Kəlamları dəqiq qramatik qanunlara riayət edildiyinə görə daim diqqət mərkəzində olub. Əgər ayənin məqsədi Hz. Peyğəmbərin xanımları olsaydı, onda şəxs əvəzlikləri xanım cinsində qeyd olunardı. Amma ayənin şəxs əvəzlikləri kişi cinsində qeyd olunub. Diqqət etmək lazımdır ki, ərəb dilində şəxs əvəzliyini kişi cinsində o vaxt işlətmək olar ki, ya hamı kişi olsun, ya da həm kişi və həm də xanımlardan ibarət qarışıq qrupa müraciət olunsun. Müraciət olunan şəxslər hamısı xanım olsa, kişi şəxs əvəzliyi işlənə bilməz.

Buyurur: "innəma yuridullah li yuzhibə ***ənkum***". Məqsəd xanımlar olsaydı "***ənkunnə***" kəlməsindən istifadə edilməli idi.

Ayədəki "***yutəhhirəkum***" da "***yutəhhirəkunnə***" olmalı idi. Biz Qurani-Kərimin buyuruqlarına tabe olmalıyıq. Quranda "ənkum" buyurulubsa, deməli məqsəd qadınlar deyil. Bu peyğəmbərin xanımlarına aid deyil. Həmçinin ərəb qramatikasını istədiyimiz yerdə qəbul edib, bizə sərf etməyən yerdə rədd edə bilmərik.

***İkinci dəlil:*** Çoxsaylı hədislərə əsasən bu ayə Hz. Peyğəmbərin həyat yoldaşlarına aid deyil. Bu hədislər "Ehqaqul Həqqin şərhi" kitabında 70 Əhli-sünnə mənbəsindəki rabitə ilə qeyd olunub. Bu kitabda Əhli-Beyt haqda olan çoxsaylı ayələr qeyd olunub. Kitaba Ayətullah Mərəşi Nəcəfi şərh yazıb. Şərhdən sonra isə "mülhəqay"-"əlavələr" yazıb. Nə qədər bu barədə ayələr, hədislər varsa onların hamısını əlavə edib. Təthirə aid olan hədisləri 70 Əhli-sünnə

mənbəsindən qeyd edib. O 70 mənbəyə əsasən bu ayədəki son hissə Hz. Peyğəmbərin yoldaşları haqqında deyil.

Burada üç formada davrana bilərik: 1) Əhli-sünnənin 70 mənbəsini inkar edək və etibarsız sayaq. 2) Ayətullah Mərəşi Nəcəfinin onlara böhtan atdığını iddia edək. 3) Ayənin bu hissəsinin Hz.Peyğəmbərin xanımlarına aid olmaması qənaətinə gələk. İlk iki yolu qəbul etmək mümkün deyil. Çünki 70 mənbəni etibarsız saymaq mümkün deyil. Əgər bu mümkün deyilsə, Ayətullah Mərəşi Nəcəfinin onlara böhtan atdığını iddia etmək də doğru deyil. Buna görə ki, araşdırma apardığımız zaman bu dəyərli alimin döğru söyləməsinin şahidi olarıq. Deməli, əhli-sünnənin 70 alimi bu ayənin Hz.Peyğəmbərin xanımlarına aid olmaması qənaətindədir. Hz.Peyğəmbər (s) Təthir ayəsi nazil olduğu zaman Hz. Əli (ə), Hz. Fatimə (ə), İmam Həsən (ə), İmam Hüseyni (ə) əbasının altına alıb buyurmuşdur: "Allahım, bunlar mənim Əhli-beytimdir, çirkinliyi onlardan uzaq et!"[1]

Maraqlıdır, həmin hədislərdə müxtəlif ifadələrlə Aişə, Həfsə və Ümmü Sələmə etiraf edir ki, bu ayə onların haqqında nazil olmamaışdır. Əhli-sünnə alimi Sələbi "Təfsiri-Kəbir" kitabında Peyğəmbərin (s) həyat yoldaşı Ümmü Sələmədən belə nəql edir: Bir gün Fatimə (ə.s) Peyğəmbərə (s) yemək gətirdi. Hz. Peyğəmbər (s) buyurdu: "Əlini, Həsən və Hüseyni çağır." Onlar da gəldilər və yeməkdən sonra Hz. Peyğəmbər (s) əbasını onların üzərinə atıb belə buyurdu: "İlahi! Bunlar mənim Əhli-beytimdir, çirkinliyi onlardan uzaqlaşdır və onları pak-pakizə et!" Bu zaman "Təthir" ayəsi nazil oldu. Hz. Peyğəmbər (s) həmin ayəni tilavət etdi. Mən Hz. Peyğəəmbərdən (s) soruşdum: "Ey Allahın Rəsulu! Mən də Əhli-Beytdən sayılırammı?" deyə soruşdum. Hz. Peyğəmbər (s) buyurdu: "Sən də yaxşısan amma Əhli-Beytdən deyilsən."[2]

---

1 Nəhcül-bəlağənin şərhi, 2-ci cild, səh. 437, Qahirə çapı, 6-cı cild, səh. 375, Beyrutun Hələbi çapı, xütbə: 86.

2 Məcməül-bəyan, Təthir ayəsinin təfsirində; Şəvahidut-tənzil, Hakim Həskani, 2-ci cild, səh. 56; Müsnədi-Əhməd, 1-ci cild, səh. 330, 4-cü cild, səh. 107, 6-cı cild, səh. 292; Səhihi-Termizi, 5-ci cild, səh. 699, hədis: 3871; Şəvahidut-tənzil, 2-ci cild, səh. 33, hədis: 376; 2 Səhihi-Müslim, 4-cü cild, səh. 1883, hədis: 2424.

Göründüyü kimi, Aişə də, Həfsə də, peyğəmbərin başqa xanımları bu hədisi rəvayət edib. Hz.Peyğəmbərin bəzi zövcələri xüsusilə də Aişə özləri barədə rəvayətləri söylədikləri zaman onu xırdalıqlarına qədər qeyd edərdilər. Əgər Təthir ayəsi onlara aid olsaydı, heç vaxt bunu qeyd etməmiş olmazdı. Amma əksinə o təkid edir ki, bu ayə mənim haqqımda deyil.

Hakim Həskani Şəvahidut-tənzil kitabında bu zəminədə 130 hədis qeyd edib. Bu kitab Əhli-sünnin mötəbər saydığı bir kitabdır.

***Üçüncü dəlil:*** Tarixi faktlar. Təthir ayəsinin aidir olduğu şəxslər pak və günahsız olmalıdır. Yəni bir sözlə məsum olmalıdır. Amma tarixi faktlara əsaslanaraq tam əminlikdə deyə bilərik ki, onların heç biri məsum olmamışdır.

Bu o demək deyildir ki, ayə Hz. Peyğəmbərin zövcələrinə aid deyilsə, deməli onlar pis insanlar olmuşdur. Sadəcə ayənin onlara aid olmamasını qeyd edirik. Çünki onlar tarixi faktlara əsasən günahlar, xətalar etmiş və daha sonra tövbə etmişdir. Elə bu ayənin qeyd olunduğu Quran ayələrində ilk öncə Allah onlara bir sıra nəsihətlər edir. Buyurur, siz evinizdə oturun, danışığınıza diqqət edin, cahiliyyət forması kimi zinətlərinizi bayıra çıxarmayın. Bu o deməkdir ki, şeytanın vəsvəsə oxları onlara çata bilərdi. Amma Təthir ayəsinə görə Əhli-Beytə şeytan vəsvəsə edə bilməz. Bir halda ki, Qurani-Kərim Hz. Peyğəmbərin zövcələrinə onların zəif nöqtələrini göstərir ki, bunlarla yıxıla bilərsiniz. Hətta bir surədə onların xətalarını qeyd edir ki, orada yıxıldınız. Qeyd edir ki, sizə Hz.Peyğəmbər (s) sir söyləmişdi, kimsəyə deməmənizi tapşırmışdı, lakin siz onu ətrafa yaydınız.

Quranın bəzi ayələrinin yanında Təthir ayəsinin yerləşdirilməsi sanki möcüzədir. Çünki həmin ayələrdə Hz.Peyğəmbərin zövcələri bir növ danlanılır və nəsihət edilir. Sonra isə Təthir ayəsini zikr edir. Yəni təthir ayəsi onlara aid deyil.

Başqa surədə, Təhrim surəsində Hz.Peyğəmbərin xanımlarında səhv, xəta və hətta günah etmək imkanının da olmasını buyurur.

Qurani-Kərim onları bəzi əməllərinə görə tövbə etməyə çağırır.[1] Onlar günah edib tövbə edirdilər. Deməli, Təthir ayəsi onlara aid deyil. Bu ayənin üzvü deyillər.[2]

Cəməl müharibəsində Aişə özü dedi ki, səhv etdim. Tarixi araşdırsanız Cəməl müharibəsində xətaya düşdüyünü etiraf etdiyini görərsiniz. Dedi: Qadınam, qadın belə səvhlər edə bilər. Kaş başqa qadınlar kimi evdə qalsaydım.[3]

Aişə 40 nəfərlik silahlı ilə evinə göndərilirkən, onların kişi olduğunu düşünüb, naməhrəmlərlə birgə göndərildiyinə etiraz edərək Hz.Əli (ə) haqda xoşagəlməz ifadələr işlətdi. Lakin onların xanım olduğunu bildikdə, yenidən səhv etdiyinə etiraf etdi.[4]

Digər şahid isə bir sıra ayələrdə var ki, Hz. Peyğəmbəri bəzi xanımları incidirdilər. Qurani-Kərimin məntiqinə əsasən tətta peyğəmbər onları boşasa da eybi yoxdur. Onlardan daha yaxşısını Allah ona bəxş edəcəkdir. [5] Belə olduğu təqdirdə, ayə Hz. Peyğəmbərin xanımlarına aid ola bilməz.

## İlahi imtahanlar və məsumluq

Təthir ayəsinə əsasən Əhli-Beyt pak düşüncə və etiqada malikdir. Onlar müxlis bəndələrdir. Günah qarşısında qalxanları var, günaha bulaşmazlar. Allah da iradə edib ki, istəyib ki onlara təharət bəxş edərək, müxləs bəndələri kimi hər an şeytanın vəsvəsələrindən qorusun.

Adi insanlar günah etməyə bilərlər, lakin hələ təharətə malik deyildirlər. Məsələn bir şəxs yalan danışmır, amma hələ pak deyil. Paklıq hadisələrin içində olar. O zamana qədər ki, o şəxs hadisə ilə üzləşməyib, pak olub olmaması məlum deyil. Hələ günah etməyə bilər. Əgər onun toyu olmayıbsa, iddia edə bilməz ki, "mənim toyda

---

1 - Təhrim, 4
2 - Təhrim, 3
3 - Fəthül-bari, c. 16, səh. 165; Əl-Bidayə vən-nihayə, c. 4, səh. 150; Tarixi-Bağdad, c. 5, səh. 185
4 - Murucuz-zəhəb, Əbul-həsən Məsudi, c. 2, səh. 370; Əl-Futuh, İbn Əsəm Kufi, c. 2, səh. 485; Tarixi-Yəqubi, Yəqubi, c. 2, səh. 183.
5 - Təhrim, 5

içki verməyə nifrət edirəm.” Bunu başqasının toyuna baxıb iddia edə bilməz. Amma öz toyunda deyə bilər. Çünki burada hadisə birbaşa sənin özünlə üzbəüzdür. Deməli, günah etməmək bir şeydir, təharətli olmaq isə başqa şeydir. İnsan günah etməyə bilər, amma hələ təharətli deyil. İnsan ola bilər ki, hələ hələ səhv etməyib. Saflıq başqa şeydir, kamillik isə başqa bir şey. Hələ hadisələrlə, günahlarla üzbəüz olmadığı zaman onun hansı tərəfdə yer alması məlum deyil. Uşaq kimidir. Uşaq safdır, lakin kamil deyil. Uşaq günah etmir, çünki işin günah olub olmamasını bilmir. Lakin böyüdükdən sonra hadisələrlə üzbəüz olduqdan sonra aydın olur ki, o günahkardır, yaxud pak insandır. Təharət təkcə günah etməmək deyildir. Çirkinlikdən uzaq olmaq da kamil paklıq deyil. Təharət, daimi paklıqdır. Heç bir formada şeytanın ona vəsvəsə edə bilməməsidir.

Bəziləri çətin vəziyyətlərlə qarşılaşmamış, hələ kamil imtahandan çıxmamış özlərinə əla qiymət verirlər. Naməhrəmin hiyləsinə düşməyib. Çətin vəziyyətdə qalmayıb ki, yalan danışmağa məcbur olsun. Hələ bunlara sual verilməyib ki, cavabını verə bilsin. Məsələn; mən səhv etməmişəm, heç vaxt müəllimə səhv cavab verməmişəm. Axı müəllim heç məndən sual soruşmayıb ki, səhv cavab verib-verməyəcəyim məlum olsun. Mən hələ imtahan verməmişəm. Hələ o hadisəylə baş-başa gəlməmişəm. Ona görə də yalnız iddia edirəm. Yalandır yoxsa yox, bilinmir.

İmam Hüseyn (ə) ın ziyarətnaməsində oxuyuruq: “Ya Hüseyn biz də sənin zamanında yaşasa idik səninlə birgə olardıq.” Bu bir iddiadır. Orada olsaq, onda məlum olard ki, onunla birgəyik yoxsa-yox. Deməli, ilahi təharətə malik olmaq bir şeydir, amma günahdan uzaq olmaq başqa bir şeydir.

Bir sürücü deyir, mən indiyə qədər heç vaxt qəza etməmişəm. Axı yalnız evindən iş yerinə maşınla getmək, hələ qəza etməməklə öyünməyə səbə ola bilməz. Bir insan 30 ildir sürücülük edir, uzun-uzadı yollar gedirsə, onun qəzaya düşməməsi mahir sürücü olduğunu göstərir. Amma on dəqiqəlik yolu maşın sürün qəza

etməmək mhünər deyil və təcrübəli sürücü olmasına dəlil deyil. Demirəm pis adamdır. Amma kamil insan da deyil.

## Dərsin xülasəsi

Qeyd etdik ki, Əhli-Beyt Hz. Peyğəmbərin xanımları deyil.

**Birinci sübut** budur ki, ərəb dilində şəxs əvəzliklərində qadınla kişinin fərqi var. "Kunnə" xanımlara aiddir. Ərəb dili haqda ibtidai məlumatı olan şəxs bilir ki, klassik ərəb qrammatikasında bu qanun bir əsas kimi qeyd olunub. Diqqət edin, ayədə buyurur "va qərnə fi biyutikunnə"-"oturun evinizdə." "Və əqimnəs salat"-"namaz qılın". Bunların hamısı qadın cinsindədir. Amma ayənin axırında, təthir ayəsindəki müraciət "ənkum", "yutəhhirəkum" kişi cinsinə aiddir. Ayənin əvvəlində "kunnə"dir, sonunda isə "kum"dur.

Klassik ərəb qrammatikasında, yəni Quranın zamanındakı dilçilik qanunlarına əsasən belədir. Ola bilər müasirləşib və qrammatikanı da dəyişiblər. Amma bu o zamanın qanunlarına aid edilə bilməz. Əgər dəyişsələr belə biz haqqa tabeyik. Belədirsə kitablarda göstərsinlər ki, "kunnə" və "kum"un fərqi yoxdur. Fərq etməsə eybi yoxdur. Ayələrin hamısında qadın cinsini kişi cinsinə qarışdıraq. Amma bu mümkündürmü? Əlbəttə ki, bu yol verilməzdir. Belə olarsa, Quranın bütün ayələriin mənaları bir-birinə dəyər.

**İkinci sübut** isə qeyd etdik ki, ayənin başlanğıcındakı məna ilə sonundakı məna ayrıdır. İki fərqli mövzudur. İki fərqli abu-havadır. Əvvəlində Hz. Peyğəmbərin xanımlarına göstəriş verir ki, birdən yolunuzu azmayın, zinətlənib çölə çıxmayın, elə danışmayın ki qəlbində mərəz olan naməhrəmlər pis fikrə düşsünlər. Amma ayənin sonu və ayrı bir fəza Əhli-Beytə aiddir. Onlara isə tam paklandıqlarını xəbər verir. Allahın onları kamil şəkildə günahlardan uzaq tutduğunu bildirir. Deməli ayəin əvvəlindəki birinci abu-hava günaha düşməməyi xanımlara tövsiyə edir, ayənin sonundakı ikinci abu-hava isə Əhli-Beytin tam və kamil şəkildə günahlardan uzaqlaşdırıldığını bildirir. Deməli müraciər olunan şəxslər tam fərqlidir:

1) Günah etmək ehtimalı olan şəxslər.

2) Günahsız məsum şəxslər.

**Üçüncü sübut**, çoxsaylı hədislərə əsasən Əhli-Beytin Hz. Peyğəmbərin xanımları olmamasıdır. Hətta onun xanımlarının bəzisi bu ayənin onlar haqda nazil olmadığına və İmam Əli, Hz. Fatimə, İmam Həsən və İmam Hüseynə aid olmasını etiraf etmişdir. peyğəmbərin yoldaşlarından da bu barədə hədislər var. Buna sübut olaraq Əllamə Təbətəbai əl-Mizan kitabında[1] 70 hədis və Həskani Şəvahidut-tənzil kitabında 130 hədis qeyd edib. Həmin hədislər "kisa əhli"nin İmam Əli, Hz.Fatimə, İmam Həsən və İmam Hüseyn olmasına dəlalət edir.

**Dördüncü sübut** budur ki, ayəyə əsasən Əhli-Beyt hər an xəta və günahdan qorunur. Amma tarixi hadisələr, o cümlədən bunu dəstəkləyən bir sıra ayələrdən belə nəticə alınır ki Hz. Peyğəmbərin xanımları bir sıra xəta və günahlara düçar olmuşlar. Tarixi mənbələrə görə Hz.Peyğəmbərin xanımları daim bir-birləri ilə ixtilafda olmuşlar. Hətta o ixtilaf o həddə qədər çatmışdı ki, Hz.Peyğəmbərin xanımlarının bəzisi digərini ittiham edirdi. Bunu hamı qəbul edir. Bu ittihamı kim-kimə vurub, bu bizə o qədərdə maraqlı deyil. Şəxs maraqlı deyil, lakin bu cərəyan maraqlıdır ki, belə hadisə baş verib. Tahir olan şəxs belə bir iş görməz. İndi günah hansında idi onunla işimiz yoxdur. Məsələ budur ki, Hz.Peyğəmbərin xanımları bir-birini ittiham edirsə, deməli onlar məsum deyil və Quranın Təthir ayəsi ki, məsumluğa dəlalət edir onlara aid ola bilməz. Bundan əlavə onlar bir-birilərinin paxıllığını da çəkirdilər. Onlar Hz.Peyğəmbəri (s) incidirdilər. O Həzrət xanımlarının ona əziyyət rtmələrinə dözürdü. Bütün bunlar tarixi kitablarda qeyd olunub. Təthir ayəsinin məntiqinə əsasən Əhli-Beyt hər an pak və elə kamil mənəviyyata sahibdirlər ki şeytan onlara vəsvəsə bleə edə bilmir və məyusdur. Nəinki elə rəftara malik olsun ki, peyğəmbər onların nalayiq işlərinə dözsün. Ümumi cərəyan bunu göstərir ki, peyğəmbərin xanımlarına aid ola bilməz.

---

1 - Əl-Mizan, c. 16, səh. 311

Peyğəmbərdən sonrakı tarix də bunu göstərir. Qanlı Cəməl müharibəsindən qabaq hazırlıqlar olub. Həfsə, Ayşə və Ümmü Sələmənin arasında məktublar yazılıb. Həfzə ilə Aişə Ümmü Sələməyə məktub yazdılar ki, gəl sən də Cəməldə bizimlə şərik ol. Lakin Ümmü Sələmə qəbul etmədi və onlara cavab olaraq bu ayəni oxudu.

وَقَرْنَ فِي بُيُوتِكُنَّ

Evlərinizdə oturun[1].

Yazdı: "Məgər Quranın bu ayəsini oxumamısınız? Oturun evinizdə, siz Mədinədən bayıra çıxmayın."[2] Aişə Cəməl döyüşündən sonra bu nəticəyə gəldi ki, səhv addım atmışdır. Əhli-sünnənin baxışında Hz.Peyğəmbərin səhabələri müctehiddirlər, ictihad da edirlər, səhv də edirlər. Onunla işimiz yoxdur. O ayrı nəzəriyyədir. Amma bu iş, səhv idi özü də səhv olduğunu dedi. Ayədə qeyd olunan kamil təharət və uca paklıq belə şəxslərə aid ola bilməz. Peyğəmbərin zövcələrinin həyatını araşdırmaq kifayətdir ki, bununla onların səhvlərinin də olduğu aydın olsun. Ummul-mömınindirlər, lakin səhvləri də olub. Təthir ayəsi onlara aid deyil. Təthir ayəsi ismət və məsumluq bildirir.

1 - Əhzab, 33
2 - Ruhul-məani, Alusi, c. 6, səh. 22: Durrul-mənsur, Siyuti, c. 6, səh. 600

## On doqquzuncu dərs

### Quran və Əhli-Beyt (ə)

Hafiz Şirazi yazır: Milçək, simurq quşunun uçduğu yer sənin uçuş məkanın deyil. Sənə uyğun fəzada uç. Ora çıxsan qanadların məhv olar. Ora milçəyin yeri deyil. Ora simurq quşunun yeridir. Qədim İran əsatirində Qaf dağında yaşayan böyük bir quş. Cənnət quşu deyə də bilinir. Simurq kərim[1] xislətli quşdur. Qaf dağı, əzəmət, kəramət simvoludur. Şerdə ucalıq, əzəmət rəmzi olan Qaf dağındadır simruqun yuvası, amma zibillik isə milçəyin məkanıdır. İnsan Qaf dağına çıxmaq istəsə, simurq misalında olmalıdır. Milçək misalı olsa ora uça bilməz. Quran Allahın kərim kitabıdır. Kəramətli Quranın həqiqəti gizlindir. Kim onu dərk edə bilər? Paklanmışlardan başqa bunu kimsə anlaya bilməz.

لَا يَمَسُّهُ إِلَّا الْمُطَهَّرُونَ

“Ona yalnız pak olanlar toxuna bilər!”[2]

Deməli yalnız paklanmışlar Qurani-Kərimi dərk edə bilər.

Biz Əhzab surəsindəki ayədə də oxuduq ki, Allah-taala Əhli-Beyti paklaşdırıb. Deməli Quranın həqiqətini təkcə Əhli-Beyt dərk edə bilər.

Biz də Əhli-Beytdən Quranı öyrənirik. İstəyirik ki, ayələri onlar izah etsinlər. İstəyirik Əhli Beyt ayələri bizə təfsir etsin. Qurani-Kərimin bu məntiqinə əsasən onlar düzgün təfsirə sahibdirlər. Biz Qurandan öyrənmişik ki, bizim müəllimimiz Əhli-Beytdir və onlardan dərs almalıyıq. Biz özbaşına Qurana müəllim təyin edə bilmərik. Çünki Allah özü Qurana müəllim təyin edib. Harada? Yuxarıda qeyd olunan ayədə. Buyurur: “Ona yalnız pak olanlar

---

1- Kərim, nəcib insanların obyektivləşmiş əxlaqi xüsusiyyətinə deyilir. Təqva əsaslı ən dəyərli və şərəfli düşüncə, duyğu və hissiyyatları özündə cəmləmiş şəxsə kərim deyilir. Müfrədat, Rağib İsfəhani, səh. 707; Əl-Mizan, Tabatabai, c. 18, səh. 138.

2 - Vaqiə, 79

toxuna bilər!” Təthir ayəsində də onların kim olduqları açıq aydın göstərilir. “Siz Əhli-Beyti Allah pak edib”.

Əgər Əhli-Beyt təharətə malikdirsə, deməli kəramətə malik və Quranı dərk edən onlardırlar. Hər kim də nə qədər daxili paklığa malikdirsə, yəni özünü nə qədər təmizləyibsə o qədər də Qurani-Kərimin batininə agahdır. Əhli-Beyt canlı Qurandır. Səqəleyn hədisi bunu təsdiq edir. Quranı canlandırsan İmam olar, İmamı kitab halına salsan Quran olar. Bu belədir. Çünki, Quran da pakdır, Əhli-Beyt də.

Hədisdə buyurulur: “Cənnət Quranın ayələri qədərdir”.[1] Kim hansı ayəni özündə tətbiq edibsə o qədər cənnətə malikdir, o qədər də Quran düşüncəinə malikdir. Qiyamət günü insana deyəcəklər ki; “Oxu, ucal!” İnsan nə qədər ayə oxuya bilsə bir o qədər də yuxarı mərtəbələrə qalxacaq. Oxuyacaq və ucalacaq. Əgər belə şəxslərin düşüncəsində, duyğularında, əməllərində Quran canlanıbsa, o “Qurani-natiq”[2] olmuşdur. Olub “yutəh-hirəkum”, çünki Quranla kamil şəkildə təmasdadır, Quran kamil formada onun həyatına tətbiq edilib, Cənnət tamamı o şəxsindir. Cənnətin ən ali səviyyəsi onundur. “Cənnətul-liqa” onundur. Cənnətin ən uca məqamı Cənnətul-liqadır. O Cənnətdə Allaha daha yaxın şəxslər yerləşəcək. Allah ilə “görüşməy”in mənası budur. Yəni Uc Yaradanın razılığına ən yaxın məqama çatmaq. Bu paklaşmanın faydasıdır. Biz təthir ayəsini oxuduq. Allah nə üçün onları bizə təqdim edir və paklığa malik olduqlarını vurğulayır. İstəyir ki, biz Quranın müəlliminin kim olduğunu öyrənək. Hər kəsdən Quranın batinini, mənəviyyatını öyrənməzlər. Quranı Allah nazil edibsə, müəllimini də Allah təyin etməlidir. Biz özbaşına Qurana müəllim, təfsirçi təyin edə bilmərik. Quranın ilk müəllimi Allahdır.

الرَّحْمَٰنُ ﴿١﴾ عَلَّمَ الْقُرْآنَ ﴿٢﴾

Rəhman! (Mərhəmətli olan Allah!) ﴾1﴿ (Öz peyğəmbərinə) Quranı öyrətdi. ﴾2﴿

---

1 - Biharül-ənvar, c. 92, səh. 22
2 - Canlı Quran. Quranı düşüncə, duyğu və əməldəki yaşatmaq.

İlk müəllim olan Allah onu kimlərə təlim verib? Paklanmışlara! Quranı ancaq paklaşmışlar dərk edə bilər. Ona görə də insan imam Sadiq (ə) ı, imam Əli (ə) ı və s. imamları kənara qoyub, başqa şəxslərdən Quranın təfsirini öyrənə bilmərik. Quran onları müəllim təyin edib. Allah onları müəllim təyin edib. Biz Əlini (ə) Qurana müəllim təyin etməmişik. Allah onu müəllim təyin edib bizə. Əhli-Beyt Quran muəllimidir, onlarsız Quran dərk olunmaz, Quran bilinməz. Quranla Əhli-Beyt hətta Kövsər hovuzunda belə ayrılmazlar. Əgər biz onların ikisinə də birgə müti olsam azmaram. Birinə müti olub, o birini kənara qoysam məğlub olaram. Qurana yapışsam, Əhli Beytdən əlimi çəksəm cəhalət bataqlığında boğularam. Çünki, müəllimsiz Quran faydasızdır. Quransız Əhli-Beyt faydasızdır.

Hədisdə buyurulur: “Biz elə canlı Qurandıq. Biz Qurandan başqa bir şey deyilik.”[1] Bəli, onlar eynidirlər. Quran və imam eynidir. Biri canlı formasıdır, bir isə yazı formasıdır, kitab formasıdır. Yazılı Quranla canlı Quranın bir-birindən fərqi yoxdur. Onlar bir-birindən ayrılmazlar. Səqəleyn hədisi elə bunu göstərir ki, həqiqətdə hər ikisi elə bir əmanətdir. İki əmanət bir əmanətdir. Biri canlıdır, biri isə cansız. Lakin ikisi də birdir. İkisi də siratdır.

"Mən sizin aranızda iki ağır və qiymətli əmanət qoyuram: Əgər onlardan yapışsanız, heç vaxt zəlalətə düşməzsiniz: Biri səmadan yer üzünə uzanmış ip olan Allahın kitabı, digəri itrətim, Əhli-beytimdir! Onlar “Kövsər” hovuzunda mənə qovuşanadək, bir-birindən ayrılmazlar. Baxın görün, məndən sonra onlarla necə rəftar edəcəksiniz!"[2]

Bir ayənin də izahını qeyd etmək istəyirik. Bu Mübahilə ayəsidir. Bu da yenə beş kimsə haqqındadır. Mübahilə ayəsi Ali-İmran surəsində 61-ci ayədir.

Ayə Həzrət İsa (ə) mövzusundadır. Bu barədə bəhs edəcəyik. Nəcran Yəməndə bir məntəqədir. Ərəbistan yarımadasının

---

1 - Yənabiul-məvəddə, c. 1, səh. 124

2 Səhihi-Termizi, 5-ci cild, səh. 662; Sünəni-Darəmi, 2-ci cild, səh. 432; Müsnədi-Əhməd, 5-ci cild, səh. 182; Xəsaisi-Nisai, səh. 20; Müstədrəküs-səhiheyn, 3-cü cild, səh. 109

cənubunda yerləşir. Bu məntəqədə xristianlar yaşayır. İslamın yaranışı xəbəri oraya da çatmışdi. Eşitmişdilər ki, bir şəxs peyğəmbər olduğunu söyləyir, insanları tövhidə dəvət edir. Onlar həm tövhid ilə həm də onun peyğəmbərliyi ilə müxalif idilər. Onlar Üçlüyə inanırdılar. Məsihi camaatı camaatı öz aralarında söz-söhbətə başladılar ki, bu şəxsin peyğəmbər olub-olmamasını öyrənək. Onun tövhid etiqadı doğrudur yoxsa bizim üçlük etiqadmız? Öz aralarından üç nümayəndə[1] seçib Hz.Peyğəmbərin (s) yanına göndərdilər. Məscidun-Nəbiyə 60 nəfərlik bir dəstə gəlmişdi. Onlar məsciddə naqur çaldılar. Naqur onların şeypuru idi. Hz.Peyğəmbərin səhabələri istədilər ki, onlara mane olsunlar. Hz.Peyğəmbər buyurdu: Mane olmayın! İcazə verin istədiklərini etsinlər. Öz dinlərində ibadət ayinlərini icra etməyə sərbəstdirlər. İslam digər dinlərə və əhli kitaba yanaşması belədir. Azaddırlar. Hətta Rəsulullahın məscidində də. Sonra əyləşərək söhbətə başladılar. Ayədən məlum olur ki, onlar mübahisə üçün gəlmişdilər, həqiqəti tapmaq məqsədi ilə gəlməmişdilər. Məqsədləri bu idi ki, öz məntəqələrinə qayıdıb insanlara Hz.Məhəmmədin (s) həm peyğəmbərlik iddiasının, həm də tövhid əqidəsinin yanlış olduğunu bildirsinlər. Məqsəd yalnız bu idi. Elə rəftar edirdilər ki, sanki nəyəsə nail olmuşdular. Bunu ayədən tam anlamaq mümkündür. İnsan həqiqəti tapandan sonra mübahisə etməz. Haqqı axtarmaq məqsədilə elmi mübahisə etmirəsə, həqiqət aydın olsa yenə də mübahisə edər dayanmaz. Çünki, o həqiqəti anlamaq üçün bəhs etmir. Özünü haqq kimi göstərməyə çalışır. Haqqı axtaran şəxs həqiqət aydın olandan sonra mübahisə etməkdən dayanar.

Onlar Hz.Məhəmməddən (s) soruşdular: Sən nəyə dəvət edirsən? Hz.Peyğəmbər (s) buyurdu: Tək olan Allaha və İsa Məsihin (ə) Allahın bəndəsi olmasına, İsanın bir insan olmasına!

---

1 - Əbdül-Məsih (heyətin rəisi, elmi rəhbəri), Eyhəm (Nəcran xristianlarının elmi iclaslarının sədri), Əbu Hatəm ibn Əlqəmə (Nəcran xristianlarının dini liderləri) (Əl-füsulul-muhimmə, İbn Səbbağ Maliki, kitabın müqəddiməsi.)

Xristianlar Hz.Məhəmməddən (s) soruşdular: “Siz İsanın məxluq olmasını iddia edirsiniz, biz isə deyirik o Allahdır. Hansı dəlil-sübuta əsasən məxluq olduğunu iddia edirsiniz? Hz. Peyğəmbər (s) buyurdu: İsa idi isanlar kimi qidlanırdı. Yeyirdi, su içirdi, yatırdı. Bunlar sizin müqəddəs bildiyiniz İncil kitabında belə mövcuddur. Yemək, yatmaq, yorulmaq bəşərə xas xüsusiyyətlərdir. Bu necə Allahdır? Yalnız məxluq belə işlər görər. Bu sübut edir ki, o, möhtacdır, bəşərdir və məxluqdur.

Xristianlar dedi: Onda bəs İsanın atası kimdir? Əgər məxluqdursa, bəs atası kimdir?

Ayə nazil oldu:

إِنَّ مَثَلَ عِيسَى عِنْدَ اللَّهِ كَمَثَلِ آدَمَ خَلَقَهُ مِنْ تُرَابٍ ثُمَّ قَالَ لَهُ كُنْ فَيَكُونُ

Allah yanında İsa da (İsanın atasız dünyaya gəlməsi) Adəm kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona: “(Bəşər) ol!” - dedi, o da oldu.[1]

Sizin müqəddəs saydığınız Tövrata əsasən, Hz.Adəm də atasız yaranıb. Əgər Hz.İsanı (ə) atası olmadığı üçün Allah sayılırsa, onda gərək Adəmi ikiqat Allah sayaq. Çünki, onun atası da yoxdur, anası da. Aydın şəkildə dəlil-sübut ortaya qoyuldu. Xristianlar onlara təqdim olunan arqument qarşısında aciz qaldılar. Amma həqiqəti qəbul etmədilər. Onlar öz bildiklərini təkrarlayırdılar. Hz. Peyğəmbər (s) onların geriyə qayıdıb öz xalqlarına yanlış məlumat verəcəyini anladı. Nigaran qaldı. Ayə nazil oldu ki, haqq səninlədirsə, narahat olma. Yalnız haqqla yaşamadığın zaman narahat ol. Heç kimin hiyləsindən qorxma. Haqq köpük deyil ki, xırda zərbə ilə yox edilsin. Haqq kövsərdir.[2] Əbtər deyilsən. Əbtər qısır deməkdir, məcazi olaraq isə bitmiş-tükənmiş mənasınadır. Bu batilə işarədir. Batil axır ki, bitər və tükənər.

الْحَقُّ مِنْ رَبِّكَ فَلَا تَكُنْ مِنَ الْمُمْتَرِينَ

1 - Ali-İmran, 59

2 - Bitib tükənməyən nemət. Tükənməyən çeşməyə malik saf bulağa işarədir.

(Ya Rəsulum!) Şübhəsiz ki, (bunlar) sənin Rəbbin tərəfindən olan həqiqətdir. Ona görə də şübhə edənlərdən olma![1]

Allah-taala buyurdu ki, onlara kimin haqq olmasının praktikada təyin edilməsini təklif et. Əgər doğrudan Allaha inanırsınızsa, mənim dəlil-sübutlarımı qəbul etmirsinizsə, inad edirsinizsə gəlin yalan deyənə qarğış edək. Ona Allahın lənəti olsun. Kim yalançıdırsa ona lənət oxuyaq. Dua onu məhv etsin.

Bu bir növ möcüzədir. Mübahilə bir növ möcüzədir. Mübahilədə məqsəd o deyil ki, siz özünüzə qarğış edin biz də özümüzə. Mübahilə budur ki, əgər mən yalan deyirəmsə sən qarğış et, mən məhv olum. Mən hazıram. Yaxud əksi mən qarğış edim sən məhv ol. Allahın elçisi (s) o qədər özünə inanır, o qədər yəqini var idi ki, mən hazıram deyirdi. Mənim tərəfimdən problem yoxdur ki, mən qarğış edim siz aradan gedəsiniz, sizə bəla nazil olsun. Siz əgər haqqlı olmanıza arxayınsınızsa siz qarğış edin mən məhv olum. Mübahilənin mənası budur. Ona görə də, mübahilə Allahın elçisinin (s)  möcüzələrindən biridir.

Ayəni qeyd edək:

فَمَنْ حَاجَّكَ فِيهِ مِنْ بَعْدِ مَا جَاءَكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْا نَدْعُ أَبْنَاءَنَا وَأَبْنَاءَكُمْ وَنِسَاءَنَا وَنِسَاءَكُمْ وَأَنْفُسَنَا وَأَنْفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَلْ لَعْنَتَ اللَّهِ عَلَى الْكَاذِبِينَ

(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) sənə göndərilən elmdən (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair səninlə mübahisə edənlərə de: “Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra mübahilə edib yalançıların üzərində Allahın lənətini qəraraşdıraq!”[2]

Bu qədər möhkəm dəlil-sübutdan sonra inad edərək qəbul etmirlərsə, onlar şübhə etmirlər, sadəcə şəhvətlərinə, mənafelərinə görə haqqdan üz çevirər. Şəhvət yəni nəfsani istəklər. Şəhvət təkcə cinsi istək deyil. Elə vəzifə də bir növ şəhvətdir. Dünya da bir növ şəhvətdir, mənfəət də bir növ şəhvətdir. İnsan həmişə şübhəli

---

1 - Ali-İmran, 60
2 - Ali-İmran, 61

olduğuna görə deyil, bəzən şəhvətinə görə haqqı danır. Şübhəsi olan şəxsə dəlil-sübut gətirib şübhəsini aradan aparmaq mümkündür. Amma nəfsinə, şəhvətinə kölə olana əqli arqumentlə aydınlıq gətirmək olmaz. Çünki, o dərk edir, lakin mənfəəti düşündüyünə əməl etməsinə izin vermir. Ona görə də ayədə buyurulur ki, onların problemləri şübhə deyil. Onlara de ki, gəlin qarğış edək yalançıya. Biz övladlarımızı çağıraq, siz də öz övladlarınızı, qadınlarımızı, siz də qadınlarınızı, özümüzü və özünüzü sonra qarğış edək. Allahın lənətini yalançılara qərar verək. Bu ayəyə mübahilə ayəsi deyirlər. Mübahilə yəni bir-birini qarğışılama, bir-birinə nifrin etmək deməkdir.

Hər ayənin Quranda adı yoxdur. Quranda bəzi ayələrin xüsusi adları var çünki, onlar insanın hidayəti üçün xüsusi qidadırlar. Təthir ayəsi, təbliğ ayəsi, vilayət ayəsi və s.

Xristianlar "Ata Allah, Oğul Allah (İsa), Ruhul-qüds"ün eyni tanrılıq mahiyyətinə sahib olduqlarına inanırdılar. Onların qəbul etdiyi tövhid bu üç eyni mahiyyətli varlığın, bir olmasıdır. Yəni həm üç şəxsiyyət olaraq həm də eyni mahiyyət olaraq, üçün bir, birin üç olmasına inanırdılar. Ağlın bunu dərk edə bilməyəcəyini önə sürür, sırf iman gətirməyin lazım olmasını iddia edirlər. Onların etiqadı şəffaf deyil.

Bütpərəstlər ediqadlarında şəffafdırlar, aydındır ki, onlar bütə pərəstiş edirlər çoxallahlılıdırlar. Amma xristianların Allah haqda olan etiqadı əqli şəkildə aydın deyil. Bunu onların alimlərindən kimsə əqli arqumentlərlə aydın şəkildə izah edə bilməyib. Çünki, bu məntiqlə uyğun bir nəzəriyyə deyil. Bunların baxışı budur ki, üçlük etiqadını ağıl və məntiq dərk edə bilməz. Onların baxışına əsasən iman elmdən əvvəldir. İnsan gərək inansın, düşünməsi lazım deyil, insan düşünəcəksə, inandıqlarını düşünsün. Çünki ağıl və məntiq imanı dərk edə bilməz. İman daha uca məqamdadır. Onların baxışında dəyər budur ki, insan inansın. İman əslində budur ki, insan qəlbən inansın. Nəinki düşünüb sonra inansın. Onlara görə əql hər şeyi başa düşməz. Ona görə də iman əqldən üstündür. İman elmdən daha dəyərlidir. Bu söz məntiqə uyğun deyil. Onların belə

nəticəyə gəlməsinin səbəbi budur ki, üçlük əqidəsini əqli arqumentlərlə izah etməyə qadir deyillər.

Bu düşüncə və baxış tərzi təkcə xristianlıqda deyil, bir sıra dinlərdə də mövcuddur. Məsələn hinduizmdə də belədir. Yaxşı, indi mən hansı əqidəni nə əsasa seçim? Bir çox dinlər və dini cərəyanlar öz etiqadlarını məntiqlə dərk etməyin qeyrimümkün olması iddiasını irəli sürürlər? Mən hansına inanım? Hansı doğrudur? Necə və hansı əsaslara görə seçim? İndi mən bir adi insanam, həyatımda bir nəzəriyyə seçmək istəsəm hansını seçim? Bu eyni formada bir iddiadır. Ona görə də dinimiz bizə tapşırır ki, məntiqə uyğun olan sözü qəbul edin. Tövhid məsələsi xüsusi və aydın məntiqə malikdir. Yəni "Allah təkdir" - deyiriksə, bu hər mənada eyni məntiqə malikdir. Onun yüzlərlə məntiqi sübutu var. Allahın təkliyini filosoflar, həkimlər, ilahiyyatçılar, əqaid alimləri araşdırıblar. Bunun üçün neçə məntiq gətiriblər. Bizim sözümüz budur ki, tövhidin məntiqi var. Amma üçlük əqidəsi xristianların nəzərində məntiqi aspektə malik deyil.

Buna görə də Allah-taala ayə nazil edərək onları praktiki olaraq həqiqəti isbat etməyə səslədi. Bəzi insanlar rahat danışa, iddia edə bilər, əməldə isə yıxılar. Həyatda belə misallarla rastlaşırıq, bir insanı səxavətli olduğunu iddia edir. İş əməl məqamına gəldikdə isə o hamıdan xəsisdir. Bəzən bir sıra insanların paklıq iddiaları var, ədalət carçısı rolunu oynayırlar. Bu paklıq və səxavət iddiaları həyatda əməmli şəkildə meydana qoyulduqda, sıfır səviyyəsindədir. Danışıqda isə əla idi. Həyatda, praktikada isə sıfırdır. Bu ayələrdə Allah istəyir ki, cərəyanı nəzəri səviyyədən, teorik formadan çıxarsın, praktikada ortaya qoysun.

## Mübahilədə iştirak edənlərin Peyğəmbərə nisbəti

Mübahilə etmək üçün təyin olunan gündə Hz. Peyğəmbər (s) Hz. Əli (ə), Hz. Fatimə (ə.s), Hz. Həsən (ə) və Hz. Hüseynlə (ə) birlikdə xristianların önünə çıxdı. Xristianlar da bütün tərəfdaşlarını toplayın onların qarşısına gəldilər.

Xristianların arasında düşüncəli insanlar da var idi. Həqiqətin nə olduğunu bilirdilər, söz yox ki, şəxsi mənafeləri onu qəbul etməyə yol vermirdi, amma haqqın nə olduğunu anlayırdılar. Onların rəhbəri köməkçilərindən soruşdu: “Bu insanlar kimdir?” Dedilər: “Onların biri Məhəmmədin əmisi oğlu və kürəkənidir, uşaqlar nəvələridir və o xanım da çox sevdiyi qızıdır!”

Xristianların başçısı dedi: “Mənim elə simalar görürəm ki, onlar qarğış etsələr Ad, Səmud və sair qövmlərə gələn bəla bizə nazil olar. Bu şəxs öz qərarlı və möhkəm iradəlidir. Mübahiləyə özünə inam, şücaət və cürətlə gəlmişdir. Təmtəraq və dəbdəbədən uzaqdır. Ən sevdiyi şəxslər ilə gəlmişdir. Mən elə nur dolu simaya malik şəxslər görürəm ki, onlar dua etsələr dağ yerindən qopar! Gəlin onlarla mübahilə etməyək, həlak olarıq!”[1]

Çünki onlar batil olduqlarını bilirdilər. Bilirdilər ki, Hz. Məhəmməd (s) Allahın elçisidir, bilirdilər ki, tövhid əqidəsi doğrudur. Amma öz etiqadlarının haqq olmasına güvən və inamları olmadığı üçün mübahilə etmədilər. Sonra Hz.Peyğəmbərlə (s) razılaşaraq mübahilə etməyərək, öz dinlərində qalmaqla islam dininin rəhmətinə sığınıb birlikdə yaşamağı seçdilər.

Bu ayə əvvəla peyğəmbərin möcüzəsi olan bir mühabilədir. Niyə möcüzədir? Çünki, peyğəmbər öz etiqadına o qədər inanır və əmin idi ki, buyurdu: Mən mübahiləyə hazıram! Rəsulullahın verdiyi bu təklif möcüzədir. Bu elə bir möcüzədir ki, İslam dininin başqa dinlər qarşısında haqq olduğunu sübut edir. Onun kamil bir din kimi digər dinlərdən üstünlüyünü göstərir. Bu bir məsələ.

Əhli-Beytin (ə); Hz. Əli (ə), Hz. Fatimə (s), Hz. Həsən (ə) və Hz.Hüseynin (ə) xüsusi ilə orada olmağı onların fəzilət və əzəmətini bildirir. Onların səhabələrdən üstün olduğunu göstərir. Səhabələrin hamısından dəyərli və əzəmətli olduqlarını bildirir. O zaman Hz. Peyğəmbərin (s) böyük səhabələri də var idi, lakin o yalnız Əhli-Beyti (ə) bunları seçdi. Onları əslində Allah-taala Özü

1 Məcməül-bəyan, c. 1, səh. 452; Təfsiri-Kəbir, c. 8, səh. 10; Təfsiri-Qurtubi, c. 2, səh. 1346; Ruhul-bəyan, c. 2, səh. 44; Ruhul-məani, c. 3, səh. 188; Bəhrul-muhit, c. 2, səh. 472; Təfsiri-Beyzavi

seçdi. Çünki ayədəki təklif edilən şəxslərdən bu aydın olur. Buradan həm də aydın olur ki, Əhli Beytin Allah yanında hamıdan daha çox dəyəri və qiyməti vardır ki, Allah onların duasını geri qaytarmaz. Deməli onların mubahilə cərəyanında xüsusi rolları var idi. Xüsusi rolları olduğu üçün Allah Əhli-Beyti (ə) təklif etdi və Hz. Peyğəmbər (s) də onları apardı. Çünki məhz insanlar arasında yalnız Əhli-Beyt (ə) Allah tərəfindən paklaşdırılmışdı.

Əllamə Təbətəbai "Əl-Mizan" təfsirində belə bir fikir irəli sürür: Əslində, mübahilə cərəyanında nazil olan ayədən aydın olur ki, Əhli-Beyt (ə) Hz.Peyğəmbər (s) ilə birgə Allah tərəfindən eyni xətdə, eyni hədəfi qarşıya qoymaqla birgə, eyni vəzifəni yerinə yetirirdilər. Yəni peyğəmbərlik, imamlıq və məsumlur bir bütündür. Bu bütün ilahi dinini təşkil edir. Hər biri onu təşkil edən bölümlərdir. Mübahilə ayəsində onların bütünlüyünə işarə edilir. Baxın ayədə belə bir cümlə var: "Sonra mübahilə edib yalançıların üzərində Allahın lənətini qəraraşdıraq!" Yəni, Quran buyurur: Əgər siz düz deyirsinizsə biz yalançı oluruq. Tək yox cəm şəkildə yalançı oluruq. Yalançı kimə deyirlir? İddiası, sözü yanlış insana deyilir yalançı. Deməli burada iddia və dəvət təkcə Hz.Peyğəmbərə (s) aid deyildi, Əhli-Beyt (ə) da imam və məsum ünvanında həmin iddia və dəvətin bir hissəsi və şəriki idilər. Belə deyildi ki, Hz.Peyğəmbər (s) iddia və dəvətə malikdir, onlar isə sadəcə tamaşaçı kimi orada iştirak edirdilər. Ayədə buyurulur ki, "yalançılara", yəni biz birlikdə dəvət və iddia edirik, yalan olsaq hamımız bir bütün kimi yalançı olacayıq. Deməli bir bütün olaraq haqq olduqları üçün, bir bütün olaraq əksi meydana çıxdıqda yalançı ola bilərlər. Yoxsa dəvət və iddia təkcə Hz. Peyğəmbərə (ə) aid olsaydı, yalnız o yalançı kimi tanıtdırılmalı idi. "Yalançılar" kəlməsi tək işlədilməli idi. Bir halda ki, cəm şəkildə işlədilərək, imamət və məsumluğun da peyğəmbərliklə birgə dinin bir bütününü təşkil etdiyinə işarə edir. Şahid ünvanında oarad iştirak etmirdilər. Bu mubahilə ayəsindən bizə məlum olan bir həqiqətdir.

## Dərsin xülasəsi

Biz Əhzab surəsindəki ayədə də oxuduq ki, Allah-taala Əhli-Beyti paklaşdırıb. Deməli Quranın həqiqətini təkcə Əhli-Beyt dərk edə bilər. Biz də Əhli-Beytdən Quranı öyrənirik. İstəyirik ki, ayələri onlar izah etsinlər. İstəyirik Əhli-Beyt ayələri bizə təfsir etsin. Qurani-Kərimin bu məntiqinə əsasən onlar düzgün təfsirə sahibdirlər. Biz Qurandan öyrənmişik ki, bizim müəllimimiz Əhli-Beytdir və onlardan dərs almalıyıq. Biz özbaşına Qurana müəllim təyin edə bilmərik. Çünki Allah özü Qurana müəllim təyin edib. Əgər Əhli-Beyt təharətə malikdirsə, deməli kəramətə malik və Quranı dərk edən onlardırlar. Hər kim də nə qədər daxili paklığa malikdirsə, yəni özünü nə qədər təmizləyibsə o qədər də Qurani-Kərimin batininə agahdır. Əhli-Beyt canlı Qurandır. Səqəleyn hədisi bunu təsdiq edir. Quranı canlandırsan İmam olar, İmamı kitab halına salsan Quran olar. Bu belədir. Çünki, Quran da pakdır, Əhli-Beyt də.

Mübahilə etmək üçün təyin olunan gündə Hz.Peyğəmbər (s) Hz.Əli (ə), Hz.Fatimə (ə.s), Hz.Həsən (ə) və Hz.Hüseynlə (ə) birlikdə xristianların önünə çıxdı. Xristianlar da bütün tərəfdaşlarını toplayın onların qarşısına gəldilər.

Əllamə Təbətəbai "Əl-Mizan" təfsirində belə bir fikir irəli sürür: Əslində, mübahilə cərəyanında nazil olan ayədən aydın olur ki, Əhli-Beyt (ə) Hz.Peyğəmbər (s) ilə birgə Allah tərəfindən eyni xətdə, eyni hədəfi qarşıya qoymaqla birgə, eyni vəzifəni yerinə yetirirdilər. Yəni peyğəmbərlik, imamlıq və məsumlur bir bütündür. Bu bütün ilahi dinini təşkil edir. Hər biri onu təşkil edən bölümlərdir.

Əhli-Beytin (ə); Hz. Əli (ə), Hz. Fatimə (s), Hz. Həsən (ə) və Hz.Hüseynin (ə) xüsusi ilə orada olmağı onların fəzilət və əzəmətini bildirir. Onların səhabələrdən üstün olduğunu göstərir. Səhabələrin hamısından dəyərli və əzəmətli olduqlarını bildirir. O zaman Hz. Peyğəmbərin (s) böyük səhabələri də var idi, lakin o yalnız Əhli-Beyti (ə) bunları seçdi. Onları əslində Allah-taala Özü

seçdi. Çünki ayədəki təklif edilən şəxslərdən bu aydın olur. Buradan həm də aydın olur ki, Əhli-Beytin Allah yanında hamıdan daha çox dəyəri və qiyməti vardır ki, Allah onların duasını geri qaytarmaz. Deməli onların mubahilə cərəyanında xüsusi rolları var idi. Xüsusi rolları olduğu üçün Allah Əhli-Beyti (ə) təklif etdi və Hz. Peyğəmbər (s) də onları apardı. Çünki məhz insanlar arasında yalnız Əhli-Beyt (ə) Allah tərəfindən paklaşdırılmışdı.

## İyirminci dərs

### Əhli-beytin ali məqamı

Hz.Peyğəmbərin (s) mübahiləsində Əhli-Beytin (ə) ali məqamı başqa bir cəhətdən də aydınlaşır. Mübahilə nifrin etməklə Allahın rəhmətini insandan uzaq etmək deməkdir. Mübahilə iki mənada baş tutur:

1) Kimisə lənətləyərək onu Allahın bəxş etdiyi həyat rəhmətindən məhrum etmək. Yəni məhv etmək, ölümünü istəmək.

2) Kimisə lənətləyərək onu həyat boyu əldə edə biləcəyi Allahın mənəvi lütf və mərhəmətindən məhrum etmək. Daha bu şəxsin üzərində ilahi rəhmət olmayacaqdır.

Burada diqqət olunası məqam budur ki, bir şəxsin mənəvi ruhu və Allah yanında hörməti o qədər böyükdür ki, onun istəyi ilə Allah öz rəhmətini bəndəsindən kəsir. Bu da, Əhli-Beytin (ə) əzəmətli məqamını bildirir.

İnsan iki ilahi rəhmətə sahibdir: Biri onun yaşaması və həyatıdır. O biri isə mənəvi cəhətdən özünü kamilliyə çatdırmasıdır. Biri ibtidai rəhmətdir, o biri isə mənəviyyat yolundakı zəhmətinin nəticəsində əldə olunan rəhmətdir.

### İlahi rəhmətdən məhrum olmağın səbəbləri

***1) Özünü pis əməllərlə ilahi rəhmətdən uzaq etmək.***

Məsələn, Allah tərəfindən verilən nemətlərə qarşı naşükürlük etsəm, Allah onları mənim əlimdən alar. Məsələn, ağıl bir nemətdir ki, Allah onu mənə verib, çox şərab içsəm o neməti əlimdən alar. Daha aydın şəkildə düşünə bilmərəm. Əyyaş olaram. Düzgün düşüncə istedadım əlimdən alınar. Mənəvi cəhətdən də belədir. Gözümü haramlara çox aludə etsəm, gözlərim paklıqları görməz. Hər bir günah öz sahəsində rəhmətdən məhrumiyyətlə nəticələnər. Buyurur ki, şükr etsəniz artırıram, naşükür olsanız mənim əzabım şiddətlidir, əlinizdən nemətləri alaram.

وَإِذْ تَأَذَّنَ رَبُّكُمْ لَئِنْ شَكَرْتُمْ لَأَزِيدَنَّكُمْ وَلَئِنْ كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ

(Ey camaatım!) Yadınıza salın ki, o zaman Rəbiniz bunu bildirmişdi: "Əgər (Mənə) şükür etsəniz, sizə (olan nemətimi) artıracağam. Yox, əgər nankorluq etsəniz, (unutmayın ki) Mənim əzabım, həqiqətən şiddətlidir!"[1]

Bu ayəyə əsasən insan özü-özünü ilahi rəhmətdən məhrum edə bilər.

***2) Başqasının lənəti və nifrini ilə insan rəhmətdən məhrum olmaq.***

Ola bilər ki, bir şəxs dua etsin və onun duası təsir etsin və insan Allahın rəhmətindən uzaq qalsın. Məsələn: Həzrəti Nuh (ə) dua etdi. Allaha dedi ki, Allah yer üzündə kafirlərdən heç kimsə qoyma qalsın. Daha mən 950 il onlara təbliğ etdim. Heç biri islah olmadı. Cəmi 80 nəfər gəldi. Buyurur ki, bunlardan doğulanların hamısı pis əməlli kafir olacaqdır. Buna görə də yaşamalarının faydası yoxdur, heç birini saxlama.

وَقَالَ نُوحٌ رَبِّ لَا تَذَرْ عَلَى الْأَرْضِ مِنَ الْكَافِرِينَ دَيَّارًا

Nuh dedi: "Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma![2]

إِنَّكَ إِنْ تَذَرْهُمْ يُضِلُّوا عِبَادَكَ وَلَا يَلِدُوا إِلَّا فَاجِرًا كَفَّارًا

Çünki sən onları (sağ) buraxsan, onlar Sənin bəndələrini yoldan çıxardacaq, ancaq pozğun və kafir (oğul-uşaq) doğub-törədəcəklər.[3]

Nuhun (ə) duası tufan gətirdi. Hamısını məhv etdi, heç birisinə fürsət verilmədi. Lənət belədir. İlahi rəhmətdən məhrum olmaq belədir. Bir şəxs dua edər, onun duası təsir qoyar.

Məsələn; insan başqasına dua edər, dua olunan şəxsə ilahi rəhməti enər. Yəni duayla başqasına rəhmət əta olunar. Quranda bu haqda ayələr var. Buyurulur ki, Allahın elçisinə (s) müraciət edin ki, sizi dua etsin.

---

1 - İbrahim, 7
2 - Nuh, 26
3 - Nuh, 27

وَلَوْ أَنَّهُمْ إِذْ ظَلَمُوا أَنْفُسَهُمْ جَاءُوكَ فَاسْتَغْفَرُوا اللَّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُوا اللَّهَ تَوَّابًا رَحِيمًا

Onlar (münafiqlər) özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər.[1]

***3) Başqasının (dua ilə deyil,) öz mənəvi gücü ilə kimisə ilahi rəhmətindən məhrum eetməsi.***

Bir başqa növü də budur ki, şəxs özü təsir göstərir. Nəinki duası təsir göstərir. Duası yox. Özü Allahın izni ilə birbaşa təsir göstərə bilir. Ona Allah-taala bu icazəni və gücü bəxş etmişdir ki, birbaşa özü kimisə rəhmətdən məhrum etsin, yaxud kiməsə ilahi rəhmətini şamil etsin. Məsələn; Hz.İsa (ə) Allahın izni ilə ölü dirildirdi, şəfa verirdi. Hz.İsa (ə) dua etmirdi ki, Allah şəfa versin. Allah bu icazəni və qüdrəti Hz.İsaya (ə) vermişdi, yəni o bu kamala çatmışdı ki, Allahın izni ilə özü şəfa versin.

Lənət etdiyi zaman da belədir. Allah bir əzəmətli bəndəsinə bu icazəni və mənəvi gücü verir ki, digər bir şəxsin əlindən neməti ala bilir. Mubahilə ayəsinə əsasən bu qüdrət Əhli-Beytə (ə) verilmişdi. Demir ki, Allaha dua edək yalançılara lənət istəyək. Deyir ki, “Sonra mübahilə edib yalançıların üzərində Allahın lənətini qəraraşdıraq!” Yəni bizim bu qüdrətimiz var ki, biz Allahın lənətini yalançıların üzərində qərar veririk. Deyir ki, bu lənəti biz qərar veririk. Yəni Əhli-Beytdə o mənəvi qüdrət, ruhi əzəmət var idi ki, yalançıya Allahın lənətini yönləndirsinlər. Yəni Allah bu izni onlara vermişdi ki, bu lənəti ondan sadir olsun. Nəinki bəd dua etsin Allah da ona lənət göstərsin. Özləri birbaşa lənəti onlara yönləndirə bilirdilər.

Tarixi və dini mənələrə əsasən, bu hadisədə beş nəfər iştirak etmişdi. Onlar, Hz.Peyğəmbər (s), İmam Əli (ə), İmam Həsən (ə), İmam Hüseyn (ə), Xanım Zəhra (s) idi.

Ayədə buyurulur: “Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də

---

1 - Nisa, 64

özümüzü, siz də özünüzü (bura) çağıraq! “Sonra mübahilə edib yalançıların üzərində Allahın lənətini qəraraşdıraq!”[1]

“Çağıraq”, yəni mən Hz.Məhəmməd (s) çağırıram. “Oğlanlarımızı” yəni İmam Həsən (ə) və İmam Hüseyni (ə). “Qadınlarımızı”, yəni Xanım Zəhranı (s).

Yaxşı bəs İmam Əli (ə) bu bölümlərin hansına aiddir? “Özümüzü” yəni Əlini (ə). Hz.Əli (ə) Hz.Məhəmmədin (s) oğlu deyil, xanım da deyil. Ayədə o, “özümüz” kəlməsi ilə ifadə edilib. Diqqət etmək lazımdır ki, bu əsasa mübahilə ayəsi Qurani-Kərimdə Hz.Əli (ə) haqqında qeyd olunan ən əzəmətli ayədir. Ayəyə görə İmam Əli (ə) Hz.Muhəmməd (s) peyğəmbərin özüdür. Yalnız peyğəmbər deyil.

## Mübahilə ayəsi ilə besətin mənəvi rabitəsi

Mubahilə ayəsi Hz.Peyğəmbərin (s) besət zamanına[2] bənzəyir. Hz.Məhəmməd (s) Hira dağında peyğəmbərliyə seçilir. İmam Əli (s) da orada idi. Bu hadisə Nəchül-Bəlağədə də qeyd olunub. Hz.Peyğəmbərə (s) ilk dəfə vəhy nazil olduğu zaman İmam Əli (ə) orada idi. O, vəhy nazil olduğu zaman şeytanın fəryadını elə eşitdi. Allahın elçisindən (s) soruşdu: Mən eşitdiyim bu fəryad nədir?

Peyğəmbər buyurdu: Bu şeytanın fəryadıdır. Onun bəzi hiylə qapıları bağlandı. İnsanları aldatmaq üçün bir sıra imkanları əlindən alındı. Ona görə fəryad edir. Davamında buyurur: Ey Əli mən nəyi eşidirəmsə, sən də onu eşidərsən, nəyi görürəmsə sən də onu görürsən. Yalnız məndən sonra nəbi yoxdur. Nübuvvət qapısı bağlanır, lakin vilayət (imamət) qapısı bağlanmır. Hz.Əli (ə) bu baxımdan Hz. Muhəmmədin (s) özüdür.[3]

Şeytan nə üçün fəryad edirdi? Gücü və təsir dairəsi dəfələrlə möhdudlaşdığı zaman fəryad edib. Hər dəfə ilahi rəhmət çoxaldıqca şeytan mərhələ-mərhələ məhdudlaşır. Necə ki, pak insanlar çoxaldığı zaman fasiq insanların təsir dairəsi və gücü məhdudlaşır.

1 - Ali-İmran, 61
2 - Peyğəmbərlik verildiyi zamana besət zamanı deyilir.
3 - Biharül-ənvar, c. 60. Səh. 264

Ancaq özlərini fasiq edə bilərlər. Amma pak insanlar azalsa, fasiq insanlar çoxlarını fəsada salarlar.

## Quran qissələrinin ibrət və qanun aspekti

Mübahilə ayəsinə qayıdaq. Quran cərəyanlarının iki tərəfi vardır. Biri hadisədir, o biri isə həmin hadisənin ibrət dərsi və daxilindəki qanunlardır. Quran yalnız peyğəmbərin zamanı üçün gəlməyib, bütün zamanlar üçün gəlib. Ona görə də heç bir ayə təkcə baş vermis hər hansı bir hadisədə məhdudlaşmır. O hadisə yalnız səbəbdir ki, o ayə nazil olsun. Sanki bir insan bir söz deyir, sözü ümumi sözdür, sözü təkcə o hadisədə məhdudlaşmır. Sadəcə həmin hadisə səbəb olur ki, o söz deyilsin. Amma söz ümumi və hər zamana aid deyilir. Bir qanun kimi ortaya qoyulur. Ola bilər sual şəxsi olsun. Cavab isə şəxsi deyil. Hər hansı bir hadisəyə qarşı bir reaksiya olur. Lakin reaksiya o hadisəyə həsr olunmur. Ona görə də deyə bilmərik ki, mübahilə hadisəsi üçün nazil olan ayə yalnız Hz. Peyğəmbərin (s) dövrünə həsr olunub. Doğrudur, bu hadisə Allahın elçisi (s) ilə Nəcran məsihiləri arasında olub. Lakin o hadisədəki ibrət dərsləri, qanunlar və göstərişlər həmişəlikdir. O hadisə ilə əlaqədar Allah-Taalanın buyurduğu kəlamlar həmişə çıraq kimi yanır. Allah bir hadisə baş verəndə çırağı yandırır və o çıraq daim yolumuzu işıqlandırır, bizə yol göstərir. Hadisə sadəcə səbəb olur ki, o çıraq yansın. Quran ayələri belədir.

## Hz. Peyğəmbərin (s) Nəcran xristianlarına dəvəti

Hz.Məhəmməd (s) Nəcran xristianlarına iki məsələni başa salmaq istəyirdi:

1) Mən Allahın elçisiyəm.

2) Hz.İsa (ə) da Allahın bəndəsidir, Onun oğlu və yaxud Allahlıq məqamına sahib bir şəxs deyil.

Bu iki məsələ üçn də iki növ dəlil-sübut gətirdi:

1) Quran kəlamı ilə bunu ortaya qoydu. Quran ilahi vəhydir və vəhyin sözü dəlildir. Amma bu yol iman gətirənlərə təsir qoya

bilədi, iman gətirməyənlər üçün bu ikinci dərəcəli dəlil-sübut sayılır.

2) Haqqı əqli arqumentlər ilə başa salmaq.

Bəzi insanlar haqq olduqlarını bildikdə bunu qarşı tərəfin də dəlil-sübutsuz qəbul etməsini umurlar. Amma sən haqqsansa o demək deyil ki, hökmən hamı da səni sorğusualsız qəbul etməlidir. Sən haqq olduğunu sübut etməlisən. Çatdırmasansa, problem təkcə onda deyil ki, o, haqqı düşünmür, təkcə onda deyil ki, haqqı görmür. Günah səndədir ki, çatdıra bilmirsən. Ona görə də İslam həm haqqdır, həm də haqqı çatdırır. Hz. Peyğəmbərin (s) vəzifəsi təkcə haqqı çatdırmaq deyil. Haqqı aydın dəlillərlə başa salmaqdır.

وَمَا عَلَى الرَّسُولِ إِلَّا الْبَلَاغُ الْمُبِينُ

Peyğəmbərin öhdəsinə düşən isə yalnız (dini, Allahın hökmlərini, risalətini) açıq-aşkar təbliğ etməkdir.[1]

Peyğəmbərin vəzifəsi çatdırmaqdır. Çatdırmaq təkcə demək deyil. Çatdırmaq bəzən deməkdir, bəzən əməldir, bəzən hətta küsməkdir o zamana qədər ki, söz ona çatsın. Bəzən xoş danışmaqdır ki, söz çatsın. İnsan övladına başa salmaq istəyirsənsə bu təkcə sözlə ifadə etməklə olmamalıdır. Çünki, Allah insana təkcə danışıq qabuliyyəti verməyib. Göz verib, qulaq verib. Bəzən övladın sözünü eşitmək də haqqı çatdırmaqdır. Çünki, uşağın məhəbbətə möhtacdır. Onun da sözünü eşit. Bəzən danışmaqla başa sala bilmirsən, dinləməklə və qucaqlamaqla yola gətirirsən. Haqlısansa hökmən səni anlayıb qəbul etməli deyillər. Elə buna görə də Qurani-Kərim ayədə ikinci yoldan da istifadə edir, əqli dəlil-sübutlarla Hz.İsanın (ə) Allahın oğlu olmamasını isbat edir.

Allah-taala Adəmi torpaqdan necə yaratdısa, ona ol dedi və oldusa, olmasını iradə edərək xəlq etdisə, Hz.İsanı (ə) da atasız şəkildə elə yaratdı. Yəni Hz.Adəmin (ə) yaranışına baxsaq, Hz. İsanın (ə) yaranış forması daha da aydın olar. Çünki, İsanın heç olmasa anası var idi. Onun yaranışı daha rahatdır. Adəmin isə ümumiyyətlə ata-anası yox idi və birbaşa torpaqdan yarandı. Siz

1 - Nur, 54

onun yaranışını necə adi qəbul edirsinizsə, o əsaslara dayanaraq Hz.İsanın (ə) yaranışını da o cür həll edin. Bu bəsirəti açmaqdır. Bu agahlıq yaratmaqdır.

Sonra buyurur ki, (Ya Rəsulum!) Şübhəsiz ki, (bunlar) sənin Rəbbin tərəfindən olan həqiqətdir. Ona görə də şübhə edənlərdən olma![1] İstəyir ki, bununla Hz.Peyğəmbəri (s) arxayın etsin. İztirab hissi keçirməsin. Allah bunu öz peyğəmbərinə buyurmaqla bizə başa salır ki, insan məsələnin zahirinə baxmaz. Məsələnin zahiri köpük kimidir, tezliklə partlayıb yoxa çıxar.

Bəzi insanların iki növ mənəvi xəstəliyi var. 1) Şəhvət xəstələri 2) Şübhə xəstələri.

Şəhvət və şübhənin nə fərqi var? Bəzi insanlar hansısa bir məsələni düşünmürlər, gözlərinin qabağında nəsə pərdə var, maneə var. Buna şübhə deyilər. Məsələ onlar üçün həll olmayıb. Sən bir şəxsi dəqiq tanımırsansa, ona etibar edə bilmirsən. Onun əmantdar olmasına şübhə ilə yanaşırsan. Bu sənin ona etibar etməyinə maneədir.

Bəzi vaxtlar isə məsələ şübhə deyil, məsələ şəhvətdir, insanın nəfsi istəkləridir. O arxadan yapışır ki, insan irəli getməsin. Şübhə insanın irəli getməyinə qarşıda olan maneədir. Sanki axar su qarşıda bir daşa rast gəlir. Buna şübhə deyilir. Şəhvət isə budur ki, cazibəli bir şey suyu geri çəkir, o suyun irəliləməsinə mane olur. Şəhvət arxadan maneə yaradar, şübhə isə insanın qarşısında olar. Şübhə insanı görməyə qoymaz. Şəhvət isə insanı getməyə qoymaz. Şübhəyə çıraq lazımdır, şəhvətə isə qayçı lazımdır. Şəhvətə çıraq lazım deyil. Şübhəyə elm lazımdır, şəhvətə iman, təqva lazımdır. Şübhədə insan düşünməlidir, əqlini işlətməlidir, şəhvətdə isə insan qəlbini işlətməlidir, iradəsini yoxlamalıdır.

Ola bilər ki bir insanın həm şübhəsi var, həm də şəhvəti var. Bir mövzuda şübhəsi var, bir mövzuda şəhvəti. İnsanda ikisi də ola bilər. Müxtəlif sahələrdə şübhəsi də ola bilər, şəhvəti də. Şəhvətdən məqsəd təkcə cinsi istək deyil, ümumiyyətlə nəfsani istəklərdir.

1 - Ali-İmran, 60

Şəhvət cəzb edicidir. Şübhə isə maneədir. Bunlar insanın kamalı üçün maneədir.

Bir “məğzubi aleyhim”-“qəzəb olunmuşlardır”, o biri “zallin”-“yolunu azmışlar”dır. Şəhvətinə qul olanlar birincisinə, şübhəyə əsir olanlar isə ikincisinə aiddir. Biz namazda Allahdan istəyirik ki, nə şübhə əsasında yaşayaq, nə də şəhvət əsasında yaşayaq. Allah bizə elə bir nemət versin ki, həm gözümüzdən pərdə getsin, həm ayağımızdan zəncir. Bununla düz yolda olaq. “İhdinəs siratəl müstəqim.”-“Bizi doğru yola yönəlt.” Yəni şəhvət yoluna düşməyək ki, bu cəzbedici olsun və bizi düz yolumuzdan çəkindirsin. Bir də gözümüzdə pərdə salan maneələrə düşməyək. Onlar “sirati-müstəqim”dən-doğru yoldan uzaqlaşmaqdır.

Biz insanlarla əlaqədə onların şəhvə və şübhə problemlərinin olmasını ehtimal verməliyik. İlk ehtimalımız isə onların şübhə sahibi olması qənaətinə gəlməyimizdir. İlk onu həll etməyə çalışmalıyıq. Nəinki ilk olaraq onun nəfsinə qul olmuş birisi olmasını fikirləşək.

Məsələn bir şəxs pis məqsədlə naməhrəmə baxır, amma mən fikirləşirəm ki, güya bilmir. Sözümlə ona çatdırıram ki, bu günahdır. Günah olduğunu ona çatdırdığım zaman, onu isbat etdikdən sonra problem şübhə problemi deyil, şəhvət problemidir. Onda da bu praktika məsələsidir, çatdırma deyil. Quran mübahilə cərəyanında onları praktikaya dəvət edir və buyurur, sizin şübhə probleminiz yoxdur. Buyurur indi sizinlə ayrı cür danışıram. Madam ki, inad edirsiniz, məndə də bu qüdrət var ki, sizə lənət edim siz olasınız. Siz də hazırısınızsa gəlin bu işi birlikdə görək. İki tərəfdən biri yalan deyir. İndi hansımız yalan deyirik?

Ayədə buyurulur, sən elmi dəlil-sübut göstərdikdən sonra səninlə mübahisə edirlər. Onların inadını məhz mübahisə adlandırır. Sual vermirlər, xeyr, məhz mübahisə edirlər. Çünki, insana məsələ aydın olduqdan sonra eyni və yaxud oxşar sualı təkrarlasa, o artıq mübahisə edir, sual vermir. Buna deyirlər tərslik etmək. Buna görə də onları mübahiləyə çağırır.

Hz.Peyğəmbərin (s) özünə olan inamı. Bu göstərir ki, insan adətən şübhəli məsələlərdə, arxayın olmadığı məsələlərdə övladını, yoldaşını, özünü, özünün ən istəklisini təhlükəyə atmaz. Amma insan bir məsələyə tam arxayındırsa, əmindirsə onda hər şeyə hazır olar. Bu Rəsulullahın inamını göstərir ki, o, haqq üçün övladını da verməyə hazır idi. Kiçik yaşlı İmam Həsən, imam Hüseyni də bu səhnəyə çəkirdi. Razı idi ki, bu səhnədə onlar da iştirak etsinlər. Onları da bu səhnəyə aparırdı. Məsələyə o qədər yəqini var idi. Bu bir məsələ.

Bu bizə bir əxlaqi dərs də verir. İnsan bir şeyə inansa gərək əvvəl nəyi həyata keçirsin? Mən bir şeyə inanıramsa o iş əvvəl övladımdan, yoldaşımdan, həyata keçirim. Mən inanıramsa, uşaq belə tərbiyə almalıdır. Onda ilk növbədə öz övladımı elə tərbiyə etməliyəm. Əqidə, imanı insan birinci özündə həyata keçirməlidir. Ailəsində icra etməlidir. Sonra başqalarına öyrətməlidir. İnsan başqasını islah etmək üçün, əvvəlcə özünü islah etməlidir. İnsan inandığı bir şeyi, birinci özündə həyata keçirməlidir. Haqq budur ki, insan bu yolda sevdiklərindən də keçməyə hazır olsun. Bu da bir məsələdir.

Düzdür Allahın lənəti düşməyəcəkdi, belə bir təhlükənin olması ehtimalı yox idi, amma nə məlumdur ki, ayrı problemlərin qarşıya gəlməyəcəyi? Yəni Allah tərəfindən yox insanlar tərəfindən təhlükələr, fitnələr müydana gələ bilərdi orada. Yarışda adətən aldatma da olar, fitnəkarlıq da. Bu prossesi bu cür aparmaqda istəyir ki, haqqın nə qədər dəyərli olduğunu bizə desin. Haqqın dəyərini, zərrəsini və ucalığını bizə göstərir.

Burada bir ayrı məsələ də var. Buyurur ki, "Sonra mübahilə edib yalançıların üzərində Allahın lənətini qəraraşdıraq!" "Yalançılar" dedikdə qarşı tərəflə birgə şərt bağladığı üçün həm öz tərəfini həm də qarşı tərəfi nəzərdə alır. Birinci xristianlıq tərəfində olan yalançılar. Bir də onlar tərəfindən yalançı olması ehtimal edilən Hz. Peyğəmbər (s) və onun Əhli-Beyti (ə). Yalançılar dedikdə Hz.Peyğəmbər (s) tək özünü nəzərdə tutmur. Belə çıxır ki, kim peyğəmbərlə bir yerdədirsə onlar da yalançıdır. Yalançı kimə

deyirlər? Yalançı ona deyirlər ki, bir iddiası olsun, bir də dəvəti olsun. Bir tamaşaçı var, bir də oyunçu. Bu ayənin axırından belə anlaşılır ki, Hz. Peyğəmbər (s) ilə gələn şəxslər tamaşaçı ünvanında gəlməmişdilər. Onlar da Hz.Peyğəmbərin (s) dəvət və iddiasının bir parçası idilər. Onlar da həmin iddiaya şərik idilər. Yəni bu beş nəfər bu işə həmkardırlar. Hz.Peyğəmbər (s) onları möminlərdən bir nümunə olaraq özü ilə aparmayıb. Bəzi təfsirlərdə qeyd edirlər ki, Xanım Zəhra, imam Həsən, imam Hüseyn və imam Əlini möminlərdən nümunə kimi özü ilə mübahiləyə aparıb. Əvvəla möminlərdən nümunə aparsaydı, üç uşaq, üç qadın, üç nəfər də kişi aparmalı idı. Çünki ayə cəmdir. “övladlarımız, qadınlarımız və özlərimiz.” Əgər ayə əsasında nümunə aparmaq istəsəydi üç qadın, üç uşaq, üç kişi aparmalı idi. On nəfər olmalı idı. Amma beş nəfərdirlər. Məlumdur ki, möminlərdən nümunə aparmaq istəməyib. Nəcran xristianlarının müsəlmanlarla işləri yox idi. Hz. Peyğəmbər (s) ilə işləri var idi. Onların Hz.Peyğəmbərin (s) peyğəmbər olması və tövhid əqidəsi ilə problemləri vardı. Deməli burada iddia və dəvət təkcə Hz. Peyğəmbərə (s) aid deyildi, Əhli-Beyt (ə) da imam və məsum ünvanında həmin iddia və dəvətin bir hissəsi və şəriki idilər.

## Dərsin xülasəsi

Hz.Peyğəmbərin (s) mübahiləsində Əhli-Beytin (ə) ali məqamı başqa bir cəhətdən də aydınlaşır. Mübahilə nifrin etməklə Allahın rəhmətini insandan uzaq etmək deməkdir. Mübahilə iki mənada baş tutur:

1) Kimisə lənətləyərək onu Allahın bəxş etdiyi həyat rəhmətindən məhrum etmək. Yəni məhv etmək, ölümünü istəmək.

2) Kimisə lənətləyərək onu həyat boyu əldə edə biləcəyi Allahın mənəvi lütf və mərhəmətindən məhrum etmək.

İlahi rəhmətdən məhrum olmağın səbəbləri

***1) Özünü pis əməllərlə ilahi rəhmətdən uzaq etmək.***

Məsələn, Allah tərəfindən verilən nemətlərə qarşı naşükürlük etsəm, Allah onları mənim əlimdən alar. Məsələn, ağıl bir nemətdir ki, Allah onu mənə verib, çox şərab içsəm o neməti əlimdən alar.

***2) Başqasının lənəti və nifrini ilə insan rəhmətdən məhrum olmaq.***

Ola bilər ki, bir şəxs dua etsin və onun duası təsir etsin və insan Allahın rəhmətindən uzaq qalsın. Məsələn, Həzrəti Nuh (ə) dua etdi. Allaha dedi ki, Allah yer üzündə kafirlərdən heç kimsə qoyma qalsın. Əzaba düçar oldular.

***3) Başqasının (dua ilə deyil,) öz mənəvi gücü ilə kimisə ilahi rəhmətindən məhrum eetməsi.***

Bir başqa növü də budur ki, şəxs özü təsir göstərir. Nəinki duası təsir göstərir. Duası yox. Özü Allahın izni ilə birbaşa təsir göstərə bilir. Ona Allah-taala bu icazəni və gücü bəxş etmişdir ki, birbaşa özü kimisə rəhmətdən məhrum etsin, yaxud kiməsə ilahi rəhmətini şamil etsin. Məsələn; Hz. İsa (ə) Allahın izni ilə ölü dirildirdi, şəfa verirdi. Hz. İsa (ə) dua etmirdi ki, Allah şəfa versin. Allah bu icazəni və qüdrəti Hz. İsaya (ə) vermişdi, yəni o bu kamala çatmışdı ki, Allahın izni ilə özü şəfa versin.

Quran cərəyanlarının iki tərəfi vardır. Biri hadisədir, o biri isə həmin hadisənin ibrət dərsi və daxilindəki qanunlardır. Quran yalnız peyğəmbərin zamanı üçün gəlməyib, bütün zamanlar üçün gəlib. Ona görə də heç bir ayə təkcə baş vermis hər hansı bir hadisədə məhdudlaşmır.

Hz.Məhəmməd (s) Nəcran xristianlarına iki məsələni başa salmaq istəyirdi:

1) Mən Allahın elçisiyəm.

2) Hz.İsa (ə) da Allahın bəndəsidir, Onun oğlu və yaxud Allahlıq məqamına sahib bir şəxs deyil.

Bu iki məsələ üçn də iki növ dəlil-sübut gətirdi:

1) Quran kəlamı ilə bunu ortaya qoydu. Quran ilahi vəhydir və vəhyin sözü dəlildir. Amma bu yol iman gətirənlərə təsir qoya bilədi, iman gətirməyənlər üçün bu ikinci dərəcəli dəlil-sübut sayılır. 2) Haqqı əqli arqumentlər ilə başa salmaq.

## İyirmi birinci dərs

### Mübahilə ayəsinə əsasən Hz. Peyğəmbər (s) ilə Əhli-Beytin (ə) rabitəsi

Qeyd etdik ki, Əhli-Beyt (ə) dinin hədəfə çatması məmuriyyətində Hz.Peyğəmbərlə (s) şərikdirlər. Peyğəmbərlik məsuliyyəti daşımırdılar, lakin onlar da Allah tərəfindən bir məsuliyyətə yiyələnmişdilər. Mübahiləyə tamaşaçı deyildilər. Özləri də bu cərəyanda iştirakçı idilər. Yəni bu Allah tərəfindən Hz.Məhəmməd (s) üçün peyğəmbər formasında, Hz. Əli (ə) və başqa məsumlar üçün imamlıq şəklində, Hz.Zəhra (s) kimi məsumlar üçün də nümunəvi hidayətedici şəklində baş tutur. Bu ayə bizə islamın həmkarlarını taıtdırır. Bu vəzifəni və məsuliyyəti çiyninə götürülənləri göstərir. Ayə təkcə möminlərdən nümunə göstərmir. Onların mübahilədəki iştirakının mənası təkcə "peyğəmbərə yaxın olmaları" deyil. Bunlar Hz. Peyğəmbər (s) ilə dini hədəfinə çatdırmaqda şərik idilər. Bunlar ikisi də ayrı-ayrı sözlərdir. Sanki məni bir nəfər qonaq çağırıb, övladımı da özümlə götürüb aparıram. Sırf övladım olduğu üçün aparıram. Çünki istəyirəm övladım da orada olsun. Bəzən isə idarənin işçilərini qonaq çağırırlar, övladım mənim iş həmkarım olduğu üçün onunla birgə oraya gedirəm. Bizim hədis mənbələrimizə əsasən mübahilə ayəsindəki Əhli-Beytin (ə) iştirakı ikinci mənadadır. Hz.Zəhra (s) ilə Hz.Pey-ğəmbərin (s) əlaqəsi, Hz.Zəhranın (ə) İmam Əli (ə) ilə əlaqəsi, Hz.Peyğəmbərin (s) İmam Həsənlə (ə), İmam Hüseynlə (ə) rabitəsi və bunların beşinin bir-biri ilə əlaqəsi təkcə nəvə, baba, yoldaş əlaqəsi deyil. Onların risalətdə və məmuriyyətdə həmkarlıq əlaqəsidir. Ona görə də Hz.Peyğəmbər (s) buyurur:

حُسَيْنٌ مِنِّی وَ أَنَا مِنْ حُسَيْنٍ

"Hüseyn məndəndir, mən də Hüseyndənəm".

Sırf nəvə baba əlaqəsidirsə, bəli, Hüseyn (ə) Hz.Məhəmməd (s) dəndır. Amma Hz.Məhəmməd (s) Hüseyndən (ə) deyil. Deməli,

hədisin mənası bu deyil. Amma həmkar əlaqəsi olsa, bəli, bu ondandır, o bundandır. Dinin hədəfə çatması məmuriyyətinin bir mərhələsi bir zaman dilimində onundur, başqa bir zaman isə bunundur. Hz. Peyğəmbər (s) dini ilk gətirən şəxsdir. Hz.Əli (ə) və Əhli-Beyt (ə) isə Allahın dinini davam etdirməkdə vəzifəli olan digər şəxslərdir. Onlar da bu hədəfin əvvəlindən dini məqsədinə çatdırmaq vəzifəsinin bir hissəsini təşkil edirdilər. Hər birinin bu sahədə öz rolu vardır. Ayə dini dəvətdə və iddiada şərik olan insanları göstərir. Bu Əhli-Beytə (ə) məxsus ən mühim bir fəzilətdir ki, başqa ayələrdə qeyd olunmamışdır. Mübahilə ayəsində zikr edilmişdir.

Bəzi təfsirlərdə bu ayəyə istinadla yalnız Hz. Peyğəmbərin (s) onları çox istədiyinə işarə etmişlər. Qeyd etmək istərdik ki, Hz. Peyğəmbərin (s) onlara olan sevgisinin də hikməti var idi. Hz. Peyğəmbər (s) İmam Həsən (ə) və İmam Hüseyni (ə) yalnız nəvə kimi istəmirdi. “Hüseyn məndəndir, mən Hüseyndənəm” məntiqi ilə də istəyirdi. Hz.Əlini (ə) sadəcə damadı kimi istəmirdi. “Əli Haqq ilə, Haqq Əli ilədir.” məntiqi ilə istəyirdi. Xanım Zəhranı (s) sadəcə övladı kimi sevmirdi. Hz.Zəhradan (s) cənnət qoxusu gəlirdi, O, Cənnət meyvəsi idi. “İnsan cildindəki huri idi.” Bunlar maddi dəyərlər deyildi. Bunlar sırf mənəvi dəyərlər idi. Onlar Allah tərəfindən paklaşdırılmış insanlar idi. Onlar dinin özü idi. Dinin tərkib hissəsi idi. Hz. Peyğəmbərin (s) dini hədəfinə çatdırmaq vəzifəsinin icrasında şərik idilər.

### Hz. Peyğəmbər (s) və Əhli-Beytin (s) həmkarlığı hədislərdə

İlahi məmuriyyət nübuvvət ilə eyni deyil. İmamət ilə də eyni deyil. Amma bunların hər ikisində ilahi məmuriyyət vardır. İlahi məmuriyyət daha ümumidir. Ola bilər bunların heç biri olmasın. Yəni Allah məmuriyyəti, sırf dəvət olsun. Vilayət cövhərində məmuriyyətlik var, risalət vardır. Risalət nübuvvət ilə də uyğun gələr, məmuriyyət imamətlə də uyğun gələ bilər. Bu məsələdə, bu cövhərdə ikisi də şərik idilər. Bu mahiyyətdə nəbi və imam bir-biri ilə şərik idilər. Hz. Peyğəmbər (s) İmam Əli (ə) ilə rabitəsini

“Harun və Musa əlaqəsi”nə bənzətdiyi zaman məmuriyyətdə şəriklik məsəlini qeyd edib. Orada isə peyğəmbərliyi istisna olaraq çıxıb ki sən peyğəmbər deyilsən. Allahın Peyğəmbəri (s) Əliyə (ə):«Səninlə mənim məqamım Harunla Musanın məqamı kimidir, bu fərqlə ki, məndən sonra peyğəmbər yoxdur.»[1]

Quranda olan məmuriyyətdə şəriklik Harun və Musa arasındadır.

وَأَشْرِكْهُ فِي أَمْرِي

“Onu işimə ortaq et (ona da peyğəmbərlik ver) ki...”[2]

Bu şəriklik Hz.Peyğəmbər (s) ilə Hz.Əlinin (ə) rabitələrində nisbətən var idi. Əmrdə şərik idilər. Ona görə də bunun Allah tərəfindən ilahi bir məsuliyyət, Allah tərəfindən ilahi bir məmuriyyət olduğunu qeyd edəcəyik. “İlahi əmr”-“İlahi məmuriyyət” həmişə peyğəmbərlik şəklində olmayıb, imamət şəklində də olub. Allah bəzən ilahi məmuriyyəti şəxsə imam ünvanında bəxş edir, bəzən isə onu rəsul kimi, nəbi kimi məmur edir. Onlar hamısı bu dəvətdə şərik idilər. İmam Əli (ə) də, Xanım Zəhra (s) da, İmam Həsən (ə) də, İmam Hüseyn (ə) də və Peyğəmbər Rəsulullah (s) da. Bir sıra hədislərə nəzər edək:

***1) Tarixi istinadlara görə də, İtrət, Əhli-Beyt (ə) ümmətdən ayrıdır.***

Hz.Peyğəmbər (s) müxtəlif hədislərdə ümmətə İtrəti, Əhli-Beyti (ə) tapşırır. Deməli onlar ümmətdən daha uca məqamdadırlar. Hz. Peyğəmbər (s) Səqəleyn hədisində buyurur ki, mən sizə iki ağır əmanət tapşırıb gedirəm, itrətim - Əhli-Beytim və Qurani-Kərim. Onları ümmətdən ayırır. Möminlərə nümunə kimi deyil, ilahi məmuriyyətin bir üzvü kimi ayırır.

***2) Hz. Əli (ə) Hz. Peyğəmbərin (s) qardaşıdır.***

Əlinin (ə) Hz. Peyğəmbərlə (s) qardaşlığı möminlərin bir biri ilə qardaşlığı kimi deyildir. Çünki bütün möminlər qardaşdırlar. Bu adi məsələdir. Qurani-Kərimdə buyurulur:

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ

---

1 -Kənzul-Ummal, hədis 32881

2 - Taha, 32

Həqiqətən, möminlər (dində) qardaşdırlar.[1]

Bu bütün möminlərə aiddir. Lakin, Hz.Əli (ə) peyğəmbərlə qardaşdır. Özü ayrıca bir məsələdir. Daha ülvi məqama işarə edir.

وَ أَنْتَ أَخِي فِي الدُّنْيَا وَ الْآخِرَةِ

Sən mənim dünya və axirət qardaşımsan.[2]

***3) Hz.Əlinin (ə) dünyaya gəlişindəki ilahi nişanələr.***

Biz peyğəmbərin tarixini oxusaq görərik ki, Əli (ə) bir ilahi məsuliyyət üçün dünyaya gəlib. Kəbədə doğulmağı özü bir ilhamdır ki, o, xüsusi bir məsuliyyət üçün hazırlanır.[3] Məsələn, Hz.Peyğəmbər (s) anadan olduğu zaman Aminə və Fatimə binti Əsəd birlikdə idilər. Onlardan biri yuxuda şərqdən qərbə ucalan bir nurun yarandığını gördüyünü söylədi. Əbu Talib Fatimə binti Əsədə dedi: Sənin bir övladın olacaq ki, bu yeni doğulmuş körpənin canişini olacaqdır.[4]

***4) "Yavmud-Dar" hədisi.***

"İnzar ayəsi" nazil olduğu zaman "Dar hədisi"ndə qeyd edildiyi kimi Hz.Əli (ə) başqa insanlardan fərqli idi və ilahi məmuriyyətə sahib idi. Peyğəmbərin vəzirliyini o qonaqlıq zaman qəbul etmək elə bu həmkarlıq məsuliyyətini qəbul etmək idi. Orada Hz. Peyğəmbər (s) buyurdu: "Mən sizə dünya və axirət xeyri gətirmişəm. İslamı qəbul edin və doğru yola yönəlmək üçün mənə tabe olun!" Sonra əlavə edərək buyurdu: "Sizlərdən mənimlə (bu yolda) qardaş olmağa, mənə kömək etməyə, məndən sonra da əhli-əyalım arasında vəsim və canişinim olmağa, dinimi yaymağa kim hazırdır?" Heç kim bu məsuliyyəti qəbul etmədi. Həzrət bu sözü üç dəfə təkrarladı. Heç kim Allahın elçisinin dəvətini qəbul etmədi. Təkcə Hz. Əli (ə) onun dəvətini qəbul edib, məmuriyyəti üzərinə götürdü. Peyğəmbəri-əkrəm (s) Əliyə (ə) işarə edərək buyurdu:

اِنَّ هذا اَخِى وَوَصِيّ وَخَلِيفَتِى فِيكُمْ فَاسْمَعُوا لَهُ وَاَطِيعُوهُ

---

1 - Hücurat, 10

2 - Əmali, Səduq, c. 1, səh. 41; Mənaqibi-İbn Məğazeli, səh. 37; Kifayətut-talib, səh. 194

3 - Əl-Müstədrək, Hakim Nişaburi, c. 3, səh. 550, Əmali, Səduq, səh. 195

4 - Biharül-ənvar, c. 35. Səh. 11-12

“Bu sizin aranızda mənim qardaşım, vəsim və xəlifəmdir. Ona qulaq asın və itaət edin!”[1]

Peyğəmbər orada mömin axtarmırdı özünə həmkar axtarırdı. Peyğəmbərin sualı bu deyildi ki, mənə kim iman gətirir? Peyğəmbərin orada sualı bu idi: Kim bu yolda mənə həmkar olur? Ona görə də bu sözü eşidənlər ayağa qalxıb razılıq vermədilər. Peyğəmbər (s) o zaman tənha idi, onun bir səltənəti yox idi, hakimiyyəti yox idi ki, kimsə onun canişini olmağa razılıq versin. Bu xülya, arzu və ideal bir xəyal axtarışına bənzəyirdi. Hətta Əbu Talibə güldülər, lağ və istehza etdilər. Onlar ayağa qalxıb gedərkən, rişxənd ilə Əbu Talibə dedilər: “Məhəmməd (s) əmr etdi ki, sən öz oğlunun sözünə qulaq asasan və itaət edəsən! Bundan sonra Əli sənin də böyüyün oldu.” Məlumdur onlar peyğəmbərin sualından və Əlinin cavabından anlamışdılar ki, Hz.Peyğəmbər (s) iman gətirən şəxs axtarışında deyil, həmkar axtarışındadır. Əgər məsələ iman gətirmək üçün dəvət olsaydı, onlar Əbu Talibə rişxəndlə “oğlun sənin rəhbərin oldu”-deməzdilər. Siz islam tarixini, hətta bəraət ayələrini, Tövbə surəsinin ilk ayələrini, bu barədə olan hədisləri oxusanız görərsiniz ki, bunlar hamısı Hz. Əlinin (ə) ilahi məsuliyyətə sahib həmkar olmasına dəlalət edir. Hz. Əli, İmam Həsən (ə), İmam Hüseyn (ə), Xanım Zəhra (s) İslam dininin aparıcı bir ulduzları idilər. Onlar ümmət deyildilər. Adi mömin və müsəlman deyildilər. Onlar mömin və müsəlmanlardan daha uza və ali məqama və məmuriyyətə sahib idilər. Onlar möminlər və müsəlmanlara şahid idilər. Bizim əməllərimizə şahiddirlər, bizim əməllərimiz onlara göstərilir. Onlar hamısı Allah tərəfindən höccətdirlər. Onlar bu ünvanda çıxış ediblər. İmamların mömin, müsəlman kimi insani vəzifələri var idi. Bundan əlavə bir də imamlıq vəzifələri var idi. Bəzən mübahilə ayəsində olduğu kimi imamlıq vəzifələrinə əsasən çıxış ediblər. Və tarixi araşdırsaq görürük ki, onların fəaliyyəti belə formada olub. Onlar dinin dəvəti və icrasında iştirakçı və həmkardırlar. Ümmətə bir höccət kimi, bir

1 -Məcməül-bəyan, c. 7, səh. 206; Tarixi-Təbəri, 2-ci cild, səh. 63; Şəvahidut-tənzil, c. 1, səh. 420.

yol göstərən kimi, hadi kimi, imam kimi çıxış ediblər. Ona görə də Uhudun intiqamını Kərbəlada İmam Hüseyndən (ə) aldılar. Əgər onlar möminlərdən bir nümunə olsaydılar, bu intiqamı başqalarından da alardılar. Uhud, Bədr döyüşündə və başqa döyüşlərdə büdpərəstlərdən ölmüş insanların intiqamını Yezid Kərbəlada imam Hüseyndən (ə) alır. Çünki bilirdi ki, İmam Hüseyn (ə) islam dininin əsas aparıcı şəxsiyyətindən biridir. O dini cərəyanının içində aparıcılardan biridir. Peyğəmbərin (s) məsuliyyətini o, imamlıq ilə davam etdirir. Ona görə ondan intiqamını alırdı. Tarixi araşdırsanız bu hadisəni daha aydın müşahidə edə bilərsiniz.

## Mübahilə hədisinin şərhi İmamların (ə) kəlamlarında

Əllamə Təbatəbai öz təfsirində bu ayənin şərhinin sonunda ona aid olan hədisləri qeyd edib. Onlara birlikdə nəzər salaq. Çünki əvvəla hədis bizə o cərəyana bir neçə aspektdən yanaşmağı öyrədir. Sadə dillə desək, məsələn uşaq yıxılıbsa bu məsələyə uşağa hansı dərmanın lazım olması, dərmanı hansı aptekdən alacağımız və sair formada yanaşa bilərik. Bir də nə üçün yıxılması, hansı amillərin onun yıxılmasına səbəb olmasını araşdıra bilərik.

Biz də mübahilə ayəsinə imamların dili ilə, onların baxışı ilə, gözü ilə baxırıq ki bu barədə daha dərindən anlayışa sahib olaq.

## Birinci hədis

Bu hədisi Əllamə Təbətəbai "Təfsiri-Qovmi" adlı kitabdan nəql edib. Bu təfsir kitabıdır. Orada bu hadisə İmam Sadiqdən (ə) nəql edilib. Biz bu hadisəni keçən bölümlərdə qeyd etdik və təkrar qeyd etmirik. Sadəcə bir neçə məqama diqqətinizi çəkirik:

***1) Dözümlülük və səbir.***

Nəcran xristianlarının üç tanınmış şəxsiyyəti Hz.Peyğəmbər (s) ilə söhbət etməyə gələndə Mədinədə məscidə daxil olub şeypur və nağara ilə ibadətlərini icra edirdilər. Bu zaman səhabələrin bəzisi narahat olub, Hz.Peyğəmbərə şikayət edirlər. Peyğəmbər (s) isə

onlara maneə olmur, buyurur ki, qoyun çalsınlar. Bu hadisəni təhlil edəcəyik.

Onlar nağara və şeypurlarını çalıb, ibadətlərini etdikdən sonra Hz.Peyğəmbərə yaxınlaşıb sual verməyə başlayırlar. Keçən bölümlərdə müfəssəl izah etdiyimiz kimi Peyğəmbərin (s) cavabları qarşısında dəlil-sübutları olmadıqları üçün mübahisədə məğlub olurlar. Amma yenə də şəhvətləri onların haqqı qəbul etməsinə mane olur. Bu zaman mübahilə ayəsi nazil olur və Hz.Peyğəmbər (s) bir-birilərini nifrin etmək təklifini irəli sürür. Xristiyanlar deyielər: insaflı davrandın, bu yaxşı fikirdir. Qərara gəldilər ki, bu işi görsünlər. Qayıdırlar öz böyüklərinin yanına, böyükləri ilə məsləhətə başlayırlar. Böyükləri deyir: Baxın əgər ümməti ilə gəlsə, o zaman mübahilə edin. Əgər peyğəmbər öz cəmiyyətinə söykənirsə deməli o, peyğəmbər deyil. Əgər öz əqrəbası ilə, ən yaxınları ilə, sevdikləri ilə gəlsə o zaman onunla mübahilə etməyin, bu işə görməyin. Çünki, heç kim öz övladı, yoldaşı, qızı və ən yaxınının əleyhinə qərar etməz. Məgər yəqini olarsa ki, onlara heç bir ziyan yetişməyəcək onda bu işə başlayar. Bilin ki, o doğru deyir.

Xrisrianlar mübahilə günü Hz.Peyğəmbərin (s) təkcə öz Əhli-Beyti (ə) ilə gəldiyiniz müşahidə etdikdə, qəlblərinə qorxu düşdü və mübahilə etməyərək, birgə yaşamaq təklifini irəli sürdülər. Hz. Peyğəmbər (s) onlarla sülh müqaviləsi bağlayaraq razılaşdı.

Əslində bu hədisdə bir neçə məsələyə diqqət çəkilib: Birinci; qonağa hörmətin zəruriliyinə. İkinci dözümlülük və səbirli olmaq. Hz.Peyğəmbər (s) onlara səbr və hövsələ ilə cavab verirdi. Bir şey batildirsə o demək deyil ki, hökmən onun batilliyini çatdırmaq lazımdır. Sözün batilliyi bir şeydir, batilliyini çatdırmaq isə başqa şeydir. Bir də müqəddəslərə hörmətlə yanaşmaq məsələsi var. İndi ola bilər bizim baxışımızda onların ibadətləri ibadət deyil, amma öz baxışlarında ibadətdir. Biz onların ibadətlərinə hörmətlə yanaşmalıyıq.

Nəzəri bəhslər, dini-elmi məsələləri insan araşdırmalıdır. İnsan hər sahədə araşdıraraq nəzər sahibi olmalıdır. Kor-koranə deyil.

Amma başqalarının inanclrına da hörmətlə yanaşmalıdır. Mümkündür mənim bir nəfərin süfrə düzəltməyinə xoşum gəlmir. Amma həmin şəxs ona müqəddəs bir əməl kimi baxır. Süfrə düzəldir və ondan xoşu gəlir. Mən onun süfrəsinə hörmətsizlik edə bilmərəm.

Nəzəri bəhs ayrı şeydir ki, mən bir nəfərlə teorik olaraq elmi dialoq aparım, məqalələr yazın onu düşüncələrini tənqid edim. Əməldə isə onu təhqir edə bilmərəm. Allahın elçisi (s) burada bizə dərs verir. İnsanlarla necə davranmaq dərsi. O, Peyğəmbər idi, Allahın rəsulu, Allahın elçisi idi. Tam və kamil şəkildə haqq idi, çünki məsum idi. Lakin müxaliflərlə davranışı isə çox təbii idi. Bu, insanın başqasıyla necə davranmalı olduğuna aid olan bir ibrət dərsidir.

***2) İkinci dərs məşvərətdir.*** Məşvərət insan həyatında mühüm rol oynayır. Mübahilə cərəyanında bu da göstərilir. Xristianlar öz alimləri ilə məsləhətləşməsəydilər, onları ağır nəticələr gözləyəcəkdi. Allahın elçisi (s) bir sıra hədislərdə buyurub ki, əgər xristianlar mübahiləyə davam etsəydilər onların başına göydən od yağardı. Deməli məşvərət nəticəsində, özlərini böyük bir məğlubiyyətlərdən qurtardılar. İnsan öz bildiyinə güvənərək, heç kimlə məsləhətləşməsə ziyana uğrayar. Məşvərət mühümdür. Məşvərət başqa ağıllardan istifadə etməkdir. Bəzən elə hesab edirlər ki, məşvərətin mənası, öz gözünü kor etməkdir. Xeyr, o məşvərət deyil. O robot olmaqdır, o kor koranə təqlid etməkdir. İslam onu qadağan edib. İslam kor koranə təqlidi haqqa da olsa qəbul etmir. Məşvərət budur ki, öz gözün açıq ola-ola başqalarının baxışından da istifadə edəsən. Başqalarının ağlını də öz ağlınla birləşdirəsən. Məşvərət budur.

Məşvərət olmasa insan uduzar və ziyan edər. İqtisadi həyatda da, dünyəvi həyatda da, maddi həyatda da, axirət həyatında da belədir. Biz mənəviyyatımızda da ailəmizlə də məşvərət etməliyik. Biz övladlarımızı tərbiyyə edəndə həyat yoldaşımızla məşvərət etməliyik. Bu insanın öz yoldaşı ilə həm ünsiyyətə səbəb olar, həm də iki ağlı bir-birinə yaxınlaşdırar. Bir-birini dərk edərlər. Həm də

uşağın tərbiyyəsi hesab-kitab üzərindən proqramlı şəkildə baş tutar. Əgər ailədə uşaq tərbiyəsində məşvərət olmasa, ata uşağına başqa formada, ana başqa bir şəkildə tərbiyə verər. Bəzən ata uşağı dartır bir tərəfə, ana isə o biri tərəfə. Bu tərbiyənin təsiri olmaz, mənfi təsir qoyar. Amma məşvərətlə olsa, ikisi ayrı formada da olsa bir-birinə uşaq tərbiyəsində kömək edərlər. Çünki, ikisi düşünülmüş şəkildə bir iş görürlər. Lakin məşvərət etməsələr uşaq kiçikliyində bir növ ziyan çəkər, böyüklüyündə isə ata-ana ziyan çəkər. Kiçikliyində uşaq ziyan çəkər çünki, o, iki tərbiyə forması, iki abu-havayla böyüyər. Böyüklüyündə isə ata-ana ziyan çəkər. Uşaq bu təzadlıqdan sui-istifadə edə bilər. Ziddiyyətdən istifadə edib, nə vaxt istəsə ata ilə ananın arasını vurar. Çünki, onların zəif nöqtəsinin harda olduğunu bilər. Lakin məşvərət olsa ata-ana uşağı düzgün tərbiyə edə bilərlər. Xristianlaq da özlərini oddan və bəladan məşvərək edərək, mübahilədən uzaqlaşaraq qurtardılar.

**İkinci hədis**

İstəyirik ki, belə məsələlərdən ibarət dərsi almağımız üçün ikinci hədisi də qeyd edək. İmam Rzanın (ə) hədislərini "Uyunul Əxbar" adlı kitabda cəmləyiblər. İmam Rza (ə) Məmunun sarayında bir çox alimlərlə elmi bəhslər edirdi. Məmun təhsilli insan idi və elmi bəhsləri sevirdi. Belə məclisləri tez-tez təşkil edirdi. Əlbəttə,həmin məclisləri təşkil etməkdə bir sıra siyasi hədəfləri də var idi. Hər halda məclislərin birində "ümmətlə itrətin fərqi nədir?" mövzusu ortaya qoyuldu. İrtətin (Əhli-Beytin) ümmətdən üstün olması hədislərlə izah edildi. Amma bəzi səhabələrin "cənnət qocalarının sərvəri" olması mövzulu hədisi haqda danışıldıqda, İmam Rza (ə) hədisin yanlış olmasını və saxta olmasına işarə etdi. İmam Cavad (ə) onu əqli dəlillə sübut edərək buyurdu: "Axı cənnətdə qoca yoxdur, qoca tapsanız ağasınıda tapın." Beləliklə, alimlər İmam Rzadan (ə) bir sıra elmi bəhsləri soruşurdu, imam cavab verirdi. Belə məclislərin birində Məmun imam Rizaya (ə) dedi ki, Quranda Əlinin ən böyük fəzilətini hansı ayə bəyan edir?

İmam (ə) buyurdu: Mübahilə ayəsi! Bu ayə nazil olduğu zaman, Allahın elçisi (s) Həsən və Hüseyni (ə) səslədi. Buna görə də, ayədəki "əbnaəna" (oğullarımız) sözündə məqsəd onlardır. Sonra Hz.Fatiməni çağırdı. Ayədəki "nisaəna" (qadınlarımız) sözü də ona məxsusdur. Ardınca Möminlərin ağası Əlini çağırdı. Allahın göstərişinə əsasən, Əli, Peyğəmbərin canı və nəfsi kimidir. Heç kim Peyğəmbərdən (s) üstün və fəzilətli deyil. Deməli, o həzrətin canı və nəfsindən, yəni Əlidən də üstünü və fəzilətlisi yoxdur.

Məmun dedi: Məncə "ənfüsəna" (özümüz) sözü başqasına deyil, təkcə Peyğəmbərin özünə aiddir.

İmam buyurdu: Məgər insan özünü bir işə çağıra bilərmi? Hz. Peyğəmbər (s) Fatimə (s), Həsən və Hüseyndən (ə) əlavə, Əlini (ə) də çağırdı. Deməli, Əli (ə) Peyğəmbərin (s) canı və nəfsi kimidir! Davamında buyurdu: "Allah müdrikdir. Tam paklaşmış bəndə ilə pak bəndə arasında da fərq qoyub. Əhli-Beyti (ə) başqa insanlardan, ümmətdən ayırıb, seçib.[1]

Allah bəzi bəndələrinin mənəvi məqamını göz önünə çəkərək seçib. Bu fərq ayrı-seçkilik deyil, ədalətli fərqdir. Qurani-Kərim bu haqda bir sıra ayələr də vardır. Məsələn, Allah Məryəmi seçib, başqa xanımlardan ayırıb. Çünki, Məryəm müqəddəs və paklaşmış bit xanım idi. Quranda onun haqqında "mütəhhərə"-"paklaşmış xanım" ibraəti qeyd olunub.

وَإِذْ قَالَتِ الْمَلَائِكَةُ يَا مَرْيَمُ إِنَّ اللَّهَ اصْطَفَاكِ وَطَهَّرَكِ وَاصْطَفَاكِ عَلَى نِسَاءِ الْعَالَمِينَ

(Ya Peyğəmbər!) Xatırla ki, bir zamanlar mələklər belə demişdilər: "Ya Məryəm, həqiqətən, Allah səni seçmiş, (eyiblərdən) təmizləmiş, (cəmi) aləmlərin (bütün dünyanın) qadınlarından üstün tutmuşdur.[2]

Məryəm elə bir mənəvi məqama çatmışdı ki, ona iAllah tərəfindən behiştdən ruzilər nazil edilirdi. O cənnət meyvələri ilə qidalanırdı. O, dünya meyvəsiylə qidalanmırdı.

1 -Biharul-ənvar, 10-cu cild, səh. 350 (ixtisarla).
2 - Ali-İmran, 42

مَا الْمَسِيحُ ابْنُ مَرْيَمَ إِلَّا رَسُولٌ قَدْ خَلَتْ مِنْ قَبْلِهِ الرُّسُلُ وَأُمُّهُ صِدِّيقَةٌ كَانَا يَأْكُلَانِ الطَّعَامَ انْظُرْ كَيْفَ نُبَيِّنُ لَهُمُ الْآيَاتِ ثُمَّ انْظُرْ أَنَّى يُؤْفَكُونَ

Məryəm oğlu Məsih ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişdir. Onun anası isə çox pak (Allahın hökmlərini sidq ürəkdən təsdiq edən) bir qadın idi.[1]

Deməli, Allah itrəti də ayırırdı. İmam Rza (ə) burada mübahilə ayəsinə istinad etdir. Amma orada olan alimlər İmam Rzaya (ə) dedilər ki, yox "ənfusəna"-"özümüzü" وَأَنْفُسَنَا kəlməsindən məqsəd Hz. Peyğəmbərin (s) özüdür, Hz.Əli (ə) deyil. Çünki, Hz.Əli (ə) Hz.Peyğəmbərin (s) özü deyil, cismləri ayrıdır. İmam belə cavab verdi: Xeyr, məqsəd Hz.Peyğəmbər (ə) deyil, Hz. Əlidir. Sonra imam bu məntiqi belə əsaslandırdı: Hz.Peyğəmbər (s) belə məsələlərdə ayələri əməldə camaata başa salardı. Nazil olan ayələrin izahı Hz.Peyğəmbərin davranışı idi.[2] Necə ki, Təthir ayəsi nazil olanda Əhli-Beyti (ə) əbasının altına aldığı zaman öz davranışı ilə göstərmək istəyirdi ki, Əhli Beyt kimdir. Hətta buna görə o, 6 ay sübh namazında gedərkən İmam Əlinin (ə), Xanım Zəhranın (ə) qapısını döyürdü, onlara "əssalamu əleykum ya Əhləl Beyti rəsulillah" deyə səslənirdi. Sonra namaza gedirdi. Ayəni öz davranışı ilə təkmil edirdi. Allahın Rəsulunun davranışı, sünnəsi belədir. Nazil olan ayələri öz davranışı ilə təkmil edirdi, məna edirdi, uyğunlaşdırırdı. Təkcə kəlamı ilə izah etmirdi.

Alimlər dedilər: Bir nümunə qeyd edin. İmam buyurdu: Bəni-Vəliə qəbiləsi Hz.Peyğəmbərin (s) göstərişlərinə boyun əyməmişdi. Hz. Peyğəmbər (s) onlar haqqında bu cümləni buyurdu: "Bəni-Vəliə qəbiləsi əgər öz məntiqsiz əməllərindən əl çəkməsə, onların üzərinə elə bir şəxsi göndərərəm ki, o, mənim özümdür." Ardınca da Hz. Əlini (ə) oraya göndərir.[3]

---

1 - Maidə, 75

2 - Üyuni-əxbarir-Rza, c. 1, səh. 228; Nurus-Səqəleyn, c. 1, səh. 349; Təfsiri-Bürhan, c. 1, səh. 289; Təfsiri-Əyyaşi, c. 1, səh. 177, Biharül-ənvar, c. 6, səh. 652

3 - Sünəni-Nəsai, c. 5, səh. 127; Müsnəfi-ibn Əbi şeybə, c. 18, səh. 81-82; Əl-Möcəmül-əvsəd, c. 4, səh. 133; Təhzibüt-təhzib, c. 5, səh. 265; Əl-Müstədrək, c. 2, səh. 131; Təhzibül-Asar, c. Q, səh. 160

Başqa hadisələrdə də məsələn, bəraət ayələrini müşriklərə aparanda Hz.Peyğəmbər (s) onu başqasına verir ki aparıb oxusun. Sonra isə onu geri qaytarır, ayələri Hz.Əliyə (ə) verir ki aparıb oxusun. Çünki Allah-taala ona buyurur: "Ya sən aparmalısan ya da sənin özün aparmalıdır."

اُمِرْتُ اَنْ لا يُبَلِّغَهُ اِلاّ اَنَا اَوْ رَجُلٌ مِنِّى

"Mənə əmr gəlib ki, bu surəni camaata ya özüm çatdırım, ya da məndən olan bir kəs!"[1]

Bu hədislər o ayəni tarixi cərəyanlarda həyata keçirməkdir və məna etməkdir.

"Və əbnaəna"-"أَبْنَاءَنَا "- "övladlarımız"dan məqsəd İmam Həsən (ə) və İmam Hüseyn (ə) dır. Müsəlman ümmətindən heç kim belə əzəmətli fəzilətlərə sahib olmayıb. Heç kim bu sözü deyə bilməz ki, "mən Peyğəmbərin özüyəm", "mən Peyğəmbərin övladıyam". Bu hədislər Hz.Əlinin (ə) Hz. Peyğəmbərin (s) özü olmasını göstərir. İmam Əli (ə) ın haqqında ən böyük ayə Mübahilə ayəsidir. Ən böyük ayə "Hz.Əli (ə) Hz. Peyğəmbərin (s) özüdür" ayəsidir.

"Peyğəmbərin özü olmaq" nə deməkdir? Yəni eyni məmuriyyətdədirlər. Yəni Hz.Əli (ə) edirsə, Hz. Peyğəmbər də elə o işi görür. Hz. Peyğəmbər nə edirsə, Hz.Əli də elə o işi görür. Əgər Qədiri-Xumda "Mən kimin rəhbəriyəmsə, Əli onun rəhbəridir"- buyuruldusa, bu mənayadır. Əgər Hz.Peyğəmbər Təbuka, Mədinədən uzağa səfərə gedirsə, boşluq yaranmayın çünki özünü qoyur yerinə. Ona görə münafiqlər narahat olurlar ki, Hz.Peyğəmbər (s) getmədi özü qaldı. Yəni heç zərrə qədər də düşüncə və davranışda Hz.Əli ilə Hz.Peyğəmbərin fərqi yoxdur. Yalnız bir fərqi vardır: Hz.Əli nəbi deyil, peyğəmbər deyil. Çünki peyğəmbərlik qapısı Hz.Məhəmməd (s) ilə bağlandı.

Hz. Əlini (ə) Hz. Peyğəmbərdən (s) ayırmaq olmaz. Sözlərini onun sözlərindən ayırmaq olmaz. Necə Hz.Peyğəmbərin (s) sözləri sənəddir, Hz.Əlinin sözləri də sənəddir. Çünki, onun özüdür. Biz Allahın elçisinin sünnəsinə müraciət edib, onu əsas tuturuqsa,

---

1 -Müsnədi-Əhməd, c. 1, səh. 3

Hz.Əlinin (ə) sünnəsini də əsas tutmalıyıq. Hz. Peyğəmbərin (s) sünnəsinə riayət etmək vacibdirsə, Hz. Əlinin (ə) də sünnəsinə riayət etək vacibdir. Çünki Əli Hz.Peyğəmbərin (s) özüdür. Onları ayırmaq olmaz. Əgər Hz.Əlinin (s) sünnəsindən ayrılsaq, bu elə Hz. Peyğəmbərin (s) sünnəsindən uzaq düşməkdir.

İslam ümmətində bu məqam və fəzilət heç kimə bəxş edilməyib. Ona görə də, Əhməd ibni Hənbəl, (Hənbəli məzhəbinin lideri) yazır ki, Əli Əbu Talib ilə heç kim müqayisə oluna bilməz. Yəni heç bir səhabəni onula müqayisə etmək olmaz. O təkcə Allah elçisinin səhabəsi ünvanında bizə dəyərli deyil. O "Allahın rəsulunun (s) özü" ünvanında bizə dəyərlidir. Heç bir səhabə Hz. Peyğəmbərin özü deyildir. Səhabə insanın dostudur. İnsanla bahəm gələndir. Hz.Əli (ə) isə Hz.Peyğəmbərin (s) özüdür. İnsanın dostu onu tam dərk etməyə bilər. O insanla birlikdədir, amma onun özü deyil. Sadəcə sahəbədir.

## Dərsin xülasəsi

Əhli-Beyt (ə) dinin hədəfə çatması məmuriyyətində Hz. Peyğəmbərlə (s) şərikdirlər. Peyğəmbərlik məsuliyyəti daşımırdılar, lakin onlar da Allah tərəfindən bir məsuliyyətə yiyələnmişdilər. Mübahiləyə tamaşaçı deyildilər. Özləri də bu cərəyanda iştirakçı idilər. Yəni bu Allah tərəfindən Hz. Məhəmməd (s) üçün peyğəmbər formasında, Hz.Əli (ə) və başqa məsumlar üçün imamlıq şəklində, Hz.Zəhra (s) kimi məsumlar üçün də nümunəvi hidayətedici şəklində baş tutur.

Dinin hədəfə çatması məmuriyyətinin bir mərhələsi bir zaman dilimində onundur, başqa bir zaman isə bunundur. Hz. Peyğəmbər (s) dini ilk gətirən şəxsdir. Hz. Əli (ə) və Əhli-Beyt (ə) isə Allahın dinini davam etdirməkdə vəzifəli olan digər şəxslərdir. Onlar da bu hədəfin əvvəlindən dini məqsədinə çatdırmaq vəzifəsinin bir hissəsini təşkil edirdilər. Hər birinin bu sahədə öz rolu vardır. Ayə dini dəvətdə və iddiada şərik olan insanları göstərir. Bu Əhli-Beytə

(ə) məxsus ən mühim bir fəzilətdir ki, başqa ayələrdə qeyd olunmamışdır. Mübahilə ayəsində zikr edilmişdir.

Çox saylı hədislərə əsasən, ayədəki “özümüz”dən məqsəd Hz. Əli (ə) dır. “Peyğəmbərin özü olmaq” nə deməkdir? Yəni eyni məmuriyyətdədirlər. Yəni Hz.Əli (ə) edirsə, Hz.Peyğəmbər də elə o işi görür. Hz. Peyğəmbər nə edirsə, Hz.Əli də elə o işi görür. Əgər Qədir-Xumda “Mən kimin rəhbəriyəmsə, Əli onun rəhbəridir”- buyuruldusa, bu mənayadır. Əgər Hz.Peyğəmbər Təbuka, Mədinədən uzağa səfərə gedirsə, boşluq yaranmayın çünki özünü qoyur yerinə. Ona görə münafiqlər narahat olurlar ki, Hz. Peyğəmbər (s) getmədi özü qaldı. Yəni heç zərrə qədər də düşüncə və davranışda Hz.Əli ilə Hz. Peyğəmbərin fərqi yoxdur. Yalnız bir fərqi vardır: Hz.Əli nəbi deyil, peyğəmbər deyil. Çünki peyğəmbərlik qapısı Hz. Məhəmməd (s) ilə bağlandı.

## İyirmi ikinci dərs

### Mübahilə hədisinin şərhi İmamların (ə) kəlamlarında (2)

### Üçüncü hədis

İmam Rza (ə) İmam Musa ibn Cəfərdən (ə), atasından nəql edir. Buyurur: Eyni bəhs Harunla Musa ibn Cəfər (ə) arasında gedir. Bilirsiniz ki, Harun, İmam Museyi Kazıma (ə) “İbn Rəsulullah”- “Allahın rəsulunun oğlu” deyilməsinə çox narahat idi. İmama “Peyğəmbərin övladı” deyirdilər. Harun ər-Rəşid Hz. Peyğəmbərin əmisi Abbasın nəslindən idi. Onun narahatlıq səbəbi tarixi bəhsdir. Bunun bəhsimizə aidiyyatı yoxdur. Amma Harun İmamdan soruşur: Niyə sizə “Peyğəmbər övladı” deyirlər? Axı peyğəmbərin oğlu yox idi. Peyğəmbərin qızı var idi, oğlu yox idi. Nəsil oğlan övladı ilə davam edir. Buna görə də sizə “Peyğəmbər övladı” deməməlidirlər. Siz Əlinin övladısınız. Siz Əlinin övladları olduğunuz bir halda, nəyə görə Peyğəmbər (s) övladı olduğunuzu iddia edirsiniz? Çünki hər bir şəxs ana babasına deyil, ata babasına nisbət verilir.

İmam Museyi Kazim (ə) buyurur: Belə fikirləşdim ki, bu suala cavab verməyim. Mən Peyğəmbərin qəbrinə, Rəsulullahın haqqına and verdim ki, məni bu suala cavab verməkdən əfv etsinlər.

Harun dedi: Xeyr. Cavab verməlisən. Çünki, belə çıxır ki, Harun tənəli danışır. Düşünürsən ki, sən imamsan. Quranda bu barədə ayə var? Cavab verməlisən. Nə üçün sizin haqqınızda bu və yaxud digər oxşar sözlər deyirlir?

İmam by ayələri oxudu:

وَوَهَبْنَا لَهُ إِسْحَاقَ وَيَعْقُوبَ كُلًّا هَدَيْنَا وَنُوحًا هَدَيْنَا مِنْ قَبْلُ وَمِنْ ذُرِّيَّتِهِ دَاوُودَ وَسُلَيْمَانَ وَأَيُّوبَ وَيُوسُفَ وَمُوسَى وَهَارُونَ وَكَذَلِكَ نَجْزِي الْمُحْسِنِينَ ﴿٨٤﴾ وَزَكَرِيَّا وَيَحْيَى وَعِيسَى وَإِلْيَاسَ كُلٌّ مِنَ الصَّالِحِينَ ﴿٨٥﴾

Biz İshaqı və Yəqubu Ona əta etdik. Onların hər birini hidayətə (peyğəmbərliyə) çatdırdıq. Bundan əvvəl Nuhu və onun nəslindən

olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da hidayətə qovuşdurmuşduq. Biz yaxşı iş görənləri (yaxşılıq edənləri) belə mükafatlandırırıq. Zəkəriyyanı, Yəhyanı, İsanı və İlyası da (doğru yola yönəltmişdik). Onların hamısı əməlisaleh kimsələr idi.[1]

İmam ona buyurur: Bu ayədə Hz.İsa keçmiş böyük peyğəmbərlərin övladlarından hesab olunub, halbuki, onun atası olmamış və yalnız anası Hz.Məryəmin vasitəsilə peyğəmbərlərə qohumluq əlaqəsi çatır. Deməli, bu ayəyə əsasən, qız tərəfdən olan uşaqlar da övlad sayılır. Biz də anamız Hz. Fatimə vasitəsilə Hz. Peyğəmbərin (s) övladları hesab olunuruq.

İmam Haruna buyurdu: Bu cavabım səni qanə etdi? Başqa bir cavab da verimmi?

Harun dedi: Söylə.

İmam sonra Mubahilə ayəsini oxudu.

Tarixdə hamıya bəllidir ki, Hz.Peyğəmbər (s) bu cərəyana imam Həsən, imam Hüseyn, Xanım Zəhra və imam Əlini aparıb. Ayədə "Və əbnaəna"-"أَبْنَاءنَا "- "övladlarımız" kim ola bilərdi? Bu Xanım Zəhra ola bilməz. Əbnaəna yəni imam Həsən, imam Hüseyn bizim övladlarımızdır.

**Dördüncü hədis**

İmam Sadiq (ə) nəql edir ki, Hz.Əli (ə) özü mübahilə ayəsinin öz fəzilətinə dəlalət etməsini buyurub. Buyurur ki, "özümüz"dən məqsəd mənəm ki Allahın elçisinin özüyəm. "Qadınlar"dan məqsəd Hz. Zəhradır, "Oğlanlar"dan məqsəd də Hz.Həsən və Hz.Hüseyndir. Sonra and içir ki, and olsun o Allaha ki Tövratı Musaya, Fürqanı (Quranı) Hz. Məhəmmədə nazil edib, xristianlar həmin gün bizimlə mübahilə etsəydilər, məsx olunmuş meymun və donuzlara çevriləcəkdilər.[2] Doğrudur insanın özünü tərifləməsi bəyənilmir, amma bir həkim öz ixtisasını və nəaliyyətlərini təqdim etməlidir ki, onu tanıyıb müalicə üçün müraciət etsinlər.

1 - Ənam, 84-85
2 - Əl-İhticac, c. 1, səh. 139

Nərcan məsihiləri əvvəlcə Hz.Məhəmmədin (s) peyğəmbərliyinə şübhə ilə yanaşırdılar. Amma bir məsələ də vardı ki, onun doğru olma ehtimalını da verirdilər. Bunu anlayırdılar ki, mübahilə etsələr sahib olduqları hər bir şeyi itirə bilərlər. Çəkinirdilər. Fikirləşirdilər ki, əgər haqqdırsa biz zərərə düşərik, batildirsə onu onsuz da öz tayfası belə qəbul etmir, onlar onu məğlub edər. Buradan alınan dərs budur ki, insan mənəvi məsələlərdə riskə gedə bilməz. Araşdırıb hərəkət etməlidir. Haqqı tanımaq lazımdır. Onu tanımırsanda birbaşa tam şəkildə rədd etmək olmaz.

Digər hədis isə, bu hədis çox dərsli hədisdir. Bu Sələbi təfsirindədir. Bunu Mücahid və Kəlbi nəql edir. Onlar tabeindəndir, təfsir nəql edənlərdəndir. Yazır ki, Nəsara peyğəmbər onları mubahiləyə dəvət etdiyi zaman bir birləri ilə məşvərətə getdilər.

Nəcran xristianlarının dəstəsində müxtəlif fikirli insanlar var idi. Aqib onların ən ağıllısı idi. Aqib dedi: Allaha and olsun siz özünüz də yaxşı bilirsiniz ki, O Allahın peyğəmbəridir. Deməli, onların arasında Hz. Məhəmmədin (s) ilahi peyğəmbər olduğunu bilənlər vardı. Öz kitablarında bu haqda məlumatlar vardı və oxumuşdular, bilirdilər.

الَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَعْرِفُونَهُ كَمَا يَعْرِفُونَ أَبْنَاءَهُمُ الَّذِينَ خَسِرُوا أَنْفُسَهُمْ فَهُمْ لَا يُؤْمِنُونَ

Kitab verilmiş şəxslər onu (Muhəmməd peyğəmbəri) öz oğullarını tanıdıqları kimi tanıyırlar. Özlərinə zərər edənlər, əlbəttə, iman gətirməzlər![1]

Aqibin məqsədi budur ki, bilirsiniz, amma inkar edirsiniz. Lakin elə inkar edin ki, ilahi əzab üzərinizə nazil olmasın, dünyanıza zərər gəlməsin. Mən dünyanız üçün məsləhət verirəm. Axı bəzən görürsən ata, ana uşağın dünyasını da hesablamır. Bəzən uşağı namaz qılmağa da qoymurlar. Amma bilirlər ki, namaz həqqdir. Uşağın hələ axirəti üçün də fikirləşməsələr, dünyası üçün də fikirləşmirlər ki, uşaq narkoman olmasın, uşaq gedib pis insanlarla dost olmasın. Ondan ötrü də dünyası üçün gərək fikirləşsinlər ki, uşaq dünyasında mənəviyyatlı olsun, heç olmasa həyatını düzgün

1 - Ənam, 20

yaşasın. Əgər axirəti üçün fikirləşmirsə heç olmasa dünyası xarab olmasın. Aqib də onlara belə məsləhət verir. Əgər axirətiniz üçün fikirləşmirsinizsə heç olmasa dünyanız üçün fikirləşin. Təsəvvür edin, Allahın elçisi (s) ağuşunda İmam Hüseyni (ə), İmam Həsəni (ə) tutub onlara tərəf gəldi. Buyurdu: Mən nə vaxt dua etsəm siz amin deyin. Duanı, nifrini mən edim siz isə amin deyin. İmam Hüseyni Peyğəmbər niyə aparırdı? Çünki o, Peyğəmbər risalətinin bir sütunudur.

İndi görün ki, Yezid kimi öldürüb? O peyğəmbərin qucağında böyüyən cənnət cavanlarının sərvərini, dinin sütunlarından birini İmam Hüseyni (ə) şəhid edib. öldürdü. O, Peyğəmbərin ciyərparəsidir.

Aqib deyir ki, dostlar, mən elə bir similar görürəm ki, əgər Allahdan istəsələr dağı yerindən qoparsın, dağ yerindən götürülər. Burada dağ qüdrət simvoludur. Hələ hələ aradan getməz. Amma onlar istəsələr dağ belə məhv olar. O aminlər bizi məhv edər. Onları məğlub edə bilməsək də, düşmənçilik etmək olmaz. Həlak olarıq. Bizdən Qiyamət gününə qədər bir nəfər belə qalmaz. Nəcran xristianları Aqibin məsləhətinə qulaq asıb, Hz. Peyğəmbərlə (s) mübahilə etməkdən çəkinirlər.

Hz. Peyğəmbər buyurur: Onda gəlin İslam dinini qəbul edin. Onlar deyilər ki, yox.

Hz.Peyğəmbər buyurur: Onda bizimlə müharibə edin. Dedilər yox, bizim ərəblərlə müharibə etməyə qüdrətimiz yoxdur.

Hz. Peyğəmbər buyurur: And olsun canım əlində olan Allaha. Fəlakət onların başı üstündən keçdi.

Bəzən insan o qədər azar ki, quyunun ağzına qədər gəlib çatar. Yenə də eybi yoxdur, quyunun ağzından qayıdar. Əlini oda tərəf aparar, od ona yapışanda qayıdar. Bu da bir ibrət dərsidir.

## Beşinci hədis (Məzilət hədisi)

Bir hədis də qeyd edək. Müslimin "Səhih" kitabında maraqlı bir hədis var. Peyğəmbər (s) "Təbuk" müharibəsinə gedərkən (Mədinənin yaxınlığındakı) Curuf adlı məntəqəyə çatdı. Əli (ə)

həzrətin arxasınca gedirdi və əlində silah yox idi. O, Peyğəmbərə (s) dedi: “Ey Allahın Rəsulu! Məni öz yerinə qoydun (məni özündən ayırdın), halbuki mən heç bir müharibədə səndən ayrılmamışam! Münafiqlər şayiə yayıblar ki, məni Mədinədə ona görə saxlamısan ki, yanında olmağımı istəmirsən!”

Səd deyir: “Öz qulağımla eşitdim ki, Allahın Rəsulu (s) buyurdu:

يا عَلِيّ اَلا تَرْضى اَنْ تَكُونَ مِنّي بِمَنْزِلَةِ هارُونَ مِنْ مُوسى اِلاّ اَنَّهُ لا نَبِيَّ بَعْدِى فَارْجِع فَاخْلُفْنِي فِى اَهْلِى وَ اَهْلِكَ

“Ya Əli! “Razı olmazsanmı ki, səninlə mənim nisbətim Harunla Musanın nisbəti kimi olsun? Bu fərqlə ki, məndən sonra bir peyğəmbər yoxdur. (Yəni sən də Harun kimi peyğəmbərlikdən başqa bütün məqamlara sahibsən!) Buna görə də geri qayıt, mənim və öz əhli-əyalın arasında canişinim ol!

## Mübahilə ayəsinin şərhi tarixi şahidlərin sözlərində
## Müğəyrə ibni Şöbənin etirafı

Müaviyə Hz.Peyğəmbərin (s) adının belə yaşamasını istəmirdi. O Allahın Rəsuluna qarşı bəslədiyi kinə əsasən Hz. Əli (ə) ilə düşmən idi. Tarixdə yazıblar ki, İmam Həsən sülhündən sonra Müaviyənin dostu Müğəyrə ibni Şöbə ona deyir: “Daha istəyinə çatdınsa, onda niyə Həsənə əziyyət verirsən. Peyğəmbərin balalarını rahat burax.” Müaviyə cavab vermək istəmir. Bu zaman azan verirlir. Azanda “Əşhədu ənnə Muhəmmədən rəsulullah” deyilir. Muğeyrə deyir: Tarixdə çox insanlar gəlib gedib lakin, bu azan nə zamana qədər deyiləcəksə Muhəmmədin adı o zamana qədər yaşayacaq. Gündə beş dəfə azan verilir “Muhəmmədun rəsulullah” deyilir. Bunu namazda da hər gün oxuyuruq. Buna görə də mən rahat deyiləm. Müğeyrə bu sözü övladına deyib. O, nəql dir ki, atam hər gün Muaviyyəni tərifləyərdi. O, bir gün atasının narahat olduğunu gördü. Soruşdu: Ata, bu gün sənə nə olub? Axı sən hər dəfə Müaviyənin yanından şad gələrdin. Atası dedi: Ən pis adamın yanından gəlirəm. Oğlu dedi: Ata bəs Müaviyənin yanına getmişdin, gündə onu tərifləyərdin. Başqa adamın yanına

getmisən? Atası dedi: Yox. Muaviyyəni tanımamışdım, bu gün tanıdım. Bəzi adamlar var, adam ona yaxınlaşdıqca uzaqlaşar. Bəzi adamlar uzaqdan gözəldilər. Yaxından çox kifirdirlər. İnsan birinə uzaqlıqdan baxsa yaxşı sima görər. Bir az yaxına gəlsə görər ki, ondan üfunət iyi gəlir. Əxlaqi cəhətdən, əqidə, düşüncə və davranış baxımından da bu belədir. Müaviyə Hz. Məhəmmədə (s) kin bəsləyirdi. Amma əvvəl istəyirdi ki, Əlidən intiqam alsın. Əlidən İslamın intiqamı almaq istəyirdi. Müaviyə tapşırıq vermişdi ki, Hz.Əlini söysünlər. Təhqir etsinlər. Bu istəyinin əksinə çıxanlara əzab-əziyyət verirdi, zülm edirdi.

## Səd ibn Əbi Vəqqasın etirafı

O qərarın əleyhinə olanlardan biri də Hz. Əlinin (ə) müxalifi və ona qarşı olan Səd ibn Əbi Vəqqas idi. Səd ibn Vəqqas da Əliyə (ə) qarşı idi, lakin Muaviyə kimi insafsız deyildi. O, Müaviyənin sözünü qəbul etmədi. Hz.Əliyə (ə) qarşı olan müxalifəti onu söyüş və təhqir etməyə vadar etmədi. Müaviyəyə bu barədə etiraz etdi.

Müaviyə dedi: Axı nə üçün? Sənə bu işdə mane olan nədir? Nə üçün Əlini söymürsən?

Səd ibn Əbi Vəqqas deyir: “Hz. Peyğəmbərdən (s) Əli haqda üç söz eşitmişəm, bunun üçün də Əlini (ə) söyə bilmərəm! Mən üç şey eşitmişəm ki, onlar mənə hər bir nemətdən daha əzizdirlər. Əgər onlardan biri mənim haqqımda deyilsəydi, xeyli qırmızı tüklü dəvəyə sahib olmağımdan daha yaxşı idi. Onlardan biri məndə olsaydı mənim üçün dünyanı əvəz edərdi. Onlar üçü də Əlidə vardı. Hz. Məhəmməd (s) Təbuk döyüşünə getdiyi zaman Hz. Əlini Mədinədə canişin təyin etdi.”

Hz.Peyğəmbər (s) bir sıra mühariblərdə Əlini öz yerinə canişin qoyardı (Təbuk döyüşündə ən həssas zamanda Mədinədəki canişinliyinə işarə edir.) Bu “Səhihi Buxari”dədir, Səhihi Müslimdə də var. Peyğəmbər bir sıra müharibələrdə Əli ni öz yerinə qoyub gedərdi.

Allahın Rəsulunun (s) getməsini fürsət bilən və iğtişaş salmaq istəyən mübafiqlər və kafirlər Hz.Əlinin (ə) canişin qalmasına

narahat oldular. Çünki Allahın elçisi (s) bu təyinatla sanki getməmişdi, özünü Mədinədə saxlamışdı. Ona görə də, münafiqlər şayiə yaydılar və Peyğəmbərlə Əlinin arasında ixtilaf olmasını önə sürdülər. Buna görə də döyüşə aparılmamasını iddia etdilər. Hz.Əli (ə) onların fitnələrini yatırmaq üçün Peyğəmbərin (s) dalınca getdi. Curuf adlı məntəqədə o həzrətə çatdı. O, Peyğəmbərə (s) dedi: Ey Allahın Rəsulu! Məni öz yerinə qoydun (məni özündən ayırdın), halbuki mən heç bir müharibədə səndən ayrılmamışam! Münafiqlər şayiə yayıblar ki, məni Mədinədə ona görə saxlamısan ki, yanında olmağımı istəmirsən![1]

Səd deyir: "Özüm eşitdim ki, Allahın elçisi (s) belə buyurdu:

يا عَلِيّ اَلا تَرْضى اَنْ تَكُونَ مِنّى بِمَنْزِلَةِ هارُونَ مِنْ مُوسى اِلاّ اَنَّهُ لا نَبِيَّ بَعْدِى فَارْجِع فَاخْلُفْنِى فى اَهْلِى وَ اَهْلِكَ

Ey Əli! Razı olmazsanmı ki, səninlə mənim nisbətim Harunla Musanın nisbəti kimi olsun? Bu fərqlə ki, məndən sonra bir peyğəmbər yoxdur. Buna görə də geri qayıt, mənim və öz əhlin arasında canişinim ol!"

Quran ayələrində göstərildiyi kimi Harun Musanın qardaşı idi, Musanın şəriki idi. Musanın xəlifəsi idi. Musanın qolu-qüvvəti idi. Səd etiraf edir ki, bunları eşitmişəm. Ona görə Əliyə heç vaxt nalayiq söz demərəm. Ürəyim istəyirdi ki, bu nemətlərin biri məndə də olsun.

"İkincini Xeybərdə eşitdim. Peyğəmbər bayrağı Əliyə (ə) verib belə buyurdu:

لاَدْفَعَنَّ الرّايَةَ غَداً اِلى رَجُلٍ يُحِبُّ اللهَ وَرَسُولَهُ وَ يُحِبُّهُ اللهُ وَرَسُولُهُ

Mən sabah bayrağı elə bir kəsə verəcəyəm ki, həm o Allah və Peyğəmbəri, həm də Allah və Peyğəmbər onu sevir."

Baxın, bu yalnız bayraq məsələsi deyildi. Hz. Peyğəmbər (s) bayrağı təqdim etmək vasitəsi ilə Əlinin fəzilətini anladırdı. Peyğəmbərin bu işi hamının görə biləcəyi bir iş deyildi. Fikirləşirdilər Hz.Peyğəmbər (s) sadəcə söz olaraq bu sözü

1 - Səhihi-Müslim, c. 4, səh. 1871

buyurub. Yəni; elə sabah bayrağı kimə oldu verəcək. Və yaxud müharibəyə həvəsləndirmək üçün bu sözü buyurub. Bu barədə hətta bir sıra səhabələrin özlərindən də hədis var. Deyirlər, biz heç o gün rəhbərlik həvəsində deyildik. Hz.Peyğəmbərin bu sözü bizi həvəsə saldı. İndi bu məqamlar səhabədən nəql edilib. Məqsədimiz bunun düz və ya səhv olmasında deyil. Lakin hamı başlarını qaldırmışdı ki, Hz. Peyğəmbər (s) onu görsün.

Səd ibn əbi Vəqqas deyir: "Mən başımı qaldırmışdım ki, Hz. Peyğəmbər (s) məni görsün."

O birisi səhabə başını qaldırmışdı ki, Hz. Peyğəmbər (s) onu da görsün və s. Sanki Hz. Peyğəmbər (s) orda onlardan birini seçəcəkdi. Daha bilmirdilər ki, Hz. Peyğəmbər (s) düşünülmüş hərəkət edir. Deyir ki, "onda Əli orada deyildi. Çünki, Əlinin gözü ağrayırdı."

"Hz.Peyğəmbər (s) buyurdu: Əlini çağırın. Deyir, bütün başlar aşağı endi. Hz. Əlini çağırdılar. Onun gözü ağrayırdı."

Hz.Peyğəmbər (s) elə bir iş gördü ki, heç kəs bayrağn Hz. Əliyə veriləcəyini ehtimal verməmişdi. Çünki, Əli xəstə idi, gözü ağrayırdı. Buna görə həvəsə düşmüşdülər.

"Hz.Peyğəmbər (s) ağzının mübarək suyundan Hz. Əlinin gözünə vurdu və onun göz ağrısı şəfa tapdı. Bayrağı Əliyə verdi."

İndi buna bəziləri cavab versinlər ki, Hz.Peyğəmbər (s) ağız suyu necə şəfa verdi? Bunu ya tarixdən silsinlər, ya da ki, cavablandırsınlar. Bu tarixi faktdır. Səhihi Müslimdə və Buxaridə qeyd olunub. Təbərrükü şirk sayanlaradır sözüm. Hz. Peyğəmbər (s) ki, şirk etməyib.

"Üçüncü də Mübahilə ayəsidir. "Mübahilə" ayəsi nazil olandan sonra Allahın Peyğəmbəri (s) Əli (ə), Fatimeyi-Zəhra (s), Həsən (ə) və Hüseyni (ə) çağırıb dedi: "İlahi! Bunlar mənim Əhli-beytimdir."[1]

---

1 -Səhihi-Müslim, 4-cü cild, səh. 1871, 4-cü bölüm, hədis: 32.

Bu hədis həmçinin, Məhəmməd ibn İsa Tirmizi "Səhihi-Termizi"[1], Əhməd ibn Hənbəl "Müsnəd",[2] Beyhəqi "Əs-sünənül-kubra"[3], Süyuti "Əd-durrul-mənsur"[4] kitablarında da mövcuddur.

Müaviyə Hz.Peyğəmbər tərəfində yeddi dəfə lənətlənmişdi. Bunu bilənlər çox idi. Onun Hz.Əlini (ə) lənətləmək və söydürməkdə bir məqsədi də insanlara bu lənəti unutdurmaq idi. Bunun üçün də, səhabələrdən istifadə edirdi. Xüsusilə də, Hz.Əli (ə) ilə müxalif olan səhabələrdən istifadə edirdi. Səd ibn Əbi Vəqqas da Hz.Əli (ə) ilə müxalif idi. Ona beyət etməmişdi. Amma o, Müaviyənin istəyi qarşısında da etiraz edərək bu üç səbəbi ortaya qoydu. Səd deyir, mənimdə ürəyim istəyərdi ki, bunların biri mənim barəmdə olsun. Dünyada hər nəyim varsa verərdim ki, fəzilətlərdən biri məndə olsun. O ki qaldı bu üç fəzilət.

Lakin İmam Əli (ə) bu üç fəzilətdən ibarət deyil. Bu dəryadan bir neçə damladır. Hz. Peyğəmbər (s) buyurur: "Ey Əli səni Allah və Rəsulundan başqa heç kim tanımayıb."[5] Allahın Peyğəmbəri (s) dəfələrlə Hz. Əlinin (ə) onun özü olması haqda çoxsaylı hədislərlə izah edib: "Əli məndəndir və mən ondan."[6] "Əli mənim üçün bədənimdəki başım kimidir."[7] "Həqiqətən Əlinin əti mənim ətimdən və qanı mənim qanımdandır."[8] "Həqiqətən Əlini incidən məni incidib."[9] "Mənimlə Əli bir ağacdanıq, digər insanlar isə müxtəlif ağaclardan."[10] Və sair.

Hilyətul-övliya kitabında Əbu Nəim yazır ki, məsihilər Hz. Peyğəmbərin (s) dəvətini qəbul etməyib inad etdilər. Buna səbəb kimi, onlarınöz dinlərindəki müxtəlif adətlərdən əl çəkə

---

1 -Səhihi-Termizi, c. 5, səh. 637
2 -Müsnədi-Əhməd, c. 1, səh. 185
3 -Əs-sünənül-kubra, c. 1, səh. 291
4 -Əd-durrul-mənsur, Ali-İmran surəsinin 61-ci ayəsinin təfsirində.
5 - Mənaqebi-İbn Şəhri Aşub, c. 3, səh. 268
6 -Sünən İbn Macə, hədis 119
7 -Kənzul-Ummal, hədis 32914
8 -Kənzul-Ummal, hədis 32936
9 -Biharul-Ənvar, c.5, səh.69, hədis 1
10 -Kənzul-Ummal, hədis 32943

bilməməsini göstərdi. Şərab düşkünü olduqlarını, donuz ətindən vaz keçə bilmədiklərini önə sürdü.

Buradakı ibrət dərsi budur ki, insan haqqa təslim olmaq üçün əvvəlcə öz yanlış adətlərindən, bihudə həvəs və istəklərindən xilas olmalıdır. Bundan sonra o haqqı qəbul edə bilər. Hz. Peyğəmbər (s) da Nəcran məsihilərinə bu baxışla baxırdı. Məqsədi bu idi ki, siz həqiqəti qəbul edə bilməzsiniz çünki, dünya malina, ləzzətinə zəncirlənmisiniz. Qəbul edə bilməzsiniz çünki, ayağınız bəzi səbəblərə görə bataqlıqdadır. Ayaq bataqlıqda olduğu zaman gedə bilməz, bataqlıqda saplanıb qalar.

## Dərsin xülasəsi

Hz. İmam Musa Kazim (ə) buyurur: Tarixdə hamıya bəllidir ki, Hz. Peyğəmbər (s) bu cərəyana imam Həsən, imam Hüseyn, Xanım Zəhra və İmam Əlini aparıb. Ayədə “Və əbnaəna”-“أَبْنَاءنَا ”-“övladlarımız” kim ola bilərdi? Bu Xanım Zəhra ola bilməz. Əbnaəna yəni imam Həsən, imam Hüseyn bizim övladlarımızdır.

İmam Sadiq (ə) nəql edir ki, Hz.Əli (ə) özü mübahilə ayəsinin öz fəzilətinə dəlalət etməsini buyurub. Buyurur ki, “özümüz”dən məqsəd mənəm ki Allahın elçisinin özüyəm. “Qadınlar”dan məqsəd Hz. Zəhradır, “Oğlanlar”dan məqsəd də Hz. Həsən və Hz. Hüseyndir. Sonra and içir ki, and olsun o Allaha ki Tövratı Musaya, Fürqanı (Quranı) Hz. Məhəmmədə nazil edib, xristianlar həmin gün bizimlə mübahilə etsəydilər, məsx olunmuş meymun və donuzlara çevriləcəkdilər.

Təbuk döyüşünə gedərkən Hz. Peyğəmbər (s) İmam Əlini (ə) Mədinədə canişin qoyur. Bu elə kritik məqam idi ki, münafiqlər və kafirlər Allahın rəsulunun (s) yoxluğundan istifadə edib orada qarışıqlıq salmaq niyyətində idilər. Onlar fitnə salaraq Hz.Əli (ə) gözdən salmaq istədilər. İmam Əli (ə) bu fitnəni tayırmaq üçün Peyğəmbərdən (s) onu nə üçün özü ilə aparmadığını soruşanda O həzrət buyurdu:

“Ya Əli! “Razı olmazsanmı ki, səninlə mənim nisbətim Harunla Musanın nisbəti kimi olsun? Bu fərqlə ki, məndən sonra bir peyğəmbər yoxdur. (Yəni sən də Harun kimi peyğəmbərlikdən başqa bütün məqamlara sahibsən!) Buna görə də geri qayıt, mənim və öz əhli-əyalın arasında canişinim ol!

Müğəyrə ibni Şöbə və Səd ibn Vəqqas Hz.Əli ilə müxalif olsalar da, Müaviyənin qarşısında etiraz edərək, imamı təhqir etməkdən boyun qaçırdılar. Onların İmam Əli (ə) haqda qeyd etdikəri fəzilətlərdən biri də mübahilə ayəsi idi.

## İyirmi üçüncü dərs

### Hz. Məhəmmədin (s) peyğəmbərliyinə iki ilahi şahid

وَيَقُولُ الَّذِينَ كَفَرُوا لَسْتَ مُرْسَلًا قُلْ كَفَى بِاللَّهِ شَهِيدًا بَيْنِي وَبَيْنَكُمْ وَمَنْ عِنْدَهُ عِلْمُ الْكِتَابِ

(Ya Rəsulum!) Kafirlər: "Sən peyğəmbər deyilsən!"- deyirlər. (Onlara) belə cavab ver: "Mənimlə sizin aranızda (doğruluğuma) Allahın və kitabı bilənlərin şahid olması yetər!"[1]

"Yəqulu"-"يَقُولُ "-"deyir"mənasınadır. Kim deyir? "Əl ləzinə kəfəru"-
"الَّذِينَ كَفَرُوا"- "O kəslər ki, kafir olublar, haqqı örtüblər, haqqın üstünə pərdə çəkiblər". Nə deyirlər?

"Ləstə mursələn"-"لَسْتَ مُرْسَلًا "- "(Sən Allahın) elçisi deyilsən." Sən peyğəmbər deyilsən. Kafirlər, yəni haqqı örtən kəslər iddia edirlər ki, (ey Məhəmməd) sən Allahın elçisi deyilsən.

Ey Peyğəmbər onlara belə cavab ver. "Qul"-"قُلْ " - "de". "Kəfa"-"كَفَى" - "kifayət edir". Sizin inkarınız məni narahat etmir, çünki küfr bilərəkdən inkardır, gizlətmək, üzərini örtmək inkarıdır. Bir insan haqqı örtmək istədikdə onu danacaq. Mənə kifayət edər. Nə kifayətdir? "Billah"-"بِاللَّهِ "- "Allah". Allah kifayət edər. Hansı cəhətdən? "Şəhidən"-شَهِيدًا " - "Şahidliyi". Mənə onun şahidliyi kifayət edər. Harada və nə üçün? "Beyni və beynəkum"-"بَيْنِي وَبَيْنَكُمْ"- "Mənimlə sizin aranızda." Mənimlə sizin aranızda Allahın şahidliyi kifayət edər ki, mən Onun elçisiyəm. Allahım mənə buyurur: "Sən rəsulsan." Bu mənə kifayət edir.

"Və mən indəhu elmul kitab"-"وَمَنْ عِنْدَهُ عِلْمُ الْكِتَابِ " - "Və (bir də onun şahidliyi mənə kifayətdir ki,) kitabın elmi onunladır." Kitab

1 - Rəd, 43

elminə malik olanın Bu ikisinin mənim Allahın elçisi olduğuma şahid olması mənə bəsdir. Bu ağıllı və düşünülmüş şahidlikdir və digər insanlara da onların şahid olmaı qane edici və kifayətdir. Bir Allahın şahidliyi, bir də kitab elminə malik olan şəxsin şahidliyi.

**Birinci şahid: Allah-taalanın Qurandakı şahidliyi**

Anlamaq üçün bir müqəddiməyə ehtiyacımız vardır. Quranın surələri bir şəhərə bənzəyir. Elə bir şəhər ki, o xüsusi hasarlarla başqa şəhərlərdən ayrılmışdır. "Sur" - yəni "divar." Qədim zamanlarda şəhərin ətrafına divar çəkirdilər. Ərəblər buna "surul-bələd" deyirlər, yəni "şəhərin divarı". Quranda hər surə bir məqsəd daşıyır, bir hədəf daşıyır. Allah məqsədsiz olaraq ayələrini bir-birinin yanına düzməyib. Ayələr ərzaq məhsulu deyil ki, yeşiklərə kilo ilə düzülsün. Bu yeşiyə 20 dənə, o yeşiyə 10 dənə qoyulsun və s. Ayələr uca və hikmətli Allahın tərəfindən nazil olunub. Ucadır, O, aciz deyil ki, başqası ona ayələri necə nizamlanmasını göstəriş versin. Hikmətlidir. O, mənasız göstəriş, nizam verməz. Quranın nizamı, surələrin toplanması hikmət əsaslıdır. Hər surə insanın hidayəti üçün vitamin kimidir. Necə ki, vitamin insanın cismini qidalandırır, hər surə də insanın ruhunu qidalandırır. Ona görə də, heç bir surə başqa surəni əvəzləmir. Hər biri bir növ vitamindir. Hər surənin insanın mənəvi qidası üçün xüsusi rolu vardır. Bir surə insana iffət dərsi verir, insan iffətli olsun deyə. O Nur surəsidir. Başqa bir surə insana malından keçmə dərsi verir, və sair…

İnsanın doğru yola yönəlməsi üçün surələrdən dərs alması zəruridir. Allah surələrdə bu dərsləri təcəssum edib, haqqında müxtəlif aspektlərdən bəhslər edib. Ona görə də, surələr aptekdəki dərman pereparatlarına bənzəyir. Müxtəlif reseptlərə uyğundur. Düzdür dərman reseptləri həkim tərəfindən fərqli olaraq yazılır. Ola bilsin ki, insan yazılan dərmanların nə üçün olduğunu, necə təsir edəcəyini bilməsin. Lakin həmin dərmanların tərkibi ilə sənin xəstəliyin sağalır. Başqa reseptə yazılan dərmanların tərkibi ilə başqa xəstəlik sağalır. Sən təkrar yazılan dərmanlar da qəbul edə bilərsən. Dərmanların tərkibi müştərək də ola bilər. Mümkündür ki,

Quranda bir sıra ayələr təkrar nəzərə gəlir. Lakin onun qonşu ayələr ilə ayrı fəzası vardır. Çünki, Quranın hər surəsi özünəməxsus məqsəd daşıyır. Onlar insanın hidayəti üçün mənəvi qidadır. Bunun haqqında daha sonra bir geniş söhbət açarıq. Rəd surəsi də Quranın Allahın möcüzəsi olması haqdadır. Rəd surəsi bununla başlayır ki, kafirlər Quranın Allahın bir möcüzəsi olduğunu qəbul etmirlər. Onlar istəyirlər desinlər ki, Quran adi kəlamdır. Ona görə də, onlar Hz.Peyğəmbərin (s) Allahın elçisi olmasına hələ irad bildirmirdilər. Deyirdilər ki, Quran möcüzə deyil, bizə başqa möcüzə ver. Başqa möcüzələr tələb edirlər. Məsələn, 7-ci ayədə buyurulur ki, niyə bu peyğəmbərə Allah tərəfindən möcüzə gəlmir? Bu o əsasda deyilir ki, onlar Quranı möcüzə kimi qəbul etmirlər. Ona görə də, deyirdilər ki, əgər bu şəxs Allah tərəfindən göndərilibsə möcüzə gətirməlidir. Halbuki, Quran Allahın möcüzəsidir. Ounlar bu ilahi kəlamın möcüzə olduğunu qəbul etmirdilər. Onun Allah tərəfindən nazil olmadığını düşünürdülər. Onlar bir növ bəhanə axtarırdılar. Quran yenə də bu iddiaların bəhanə olmasını nəzərə almır, onlara sübut gətirir. Buyurur, fərz edin hələ möcüzə deyil. Çünki, istəyir ki, möcüzə olmasını sübut etsin. Quran nəyə dəvət edir? Quranın sözü əslində nədir? Quranın sözü tövhiddir. Sizi tövhidə dəvət edir. Tövhid ayələri, əqidəsi, dünyagörüşü fərz edək ki, ilahi olmasa belə haqq sözdür. Quranın dəvəti haqqdır. Və o haqq dəvəti də müxətlif sübutlarla gətirib. Quran buyurur, Allah təkdir, yalnız ona ibadət edin, yalnız ona tərəf qayıdın. Ayələrdə qeyd edir ki, bu aləmin həmahəngliyi, aləmdəki nəzmin harmoniyası, uyğunluğu bir olan Allahın varlığından xəbər verir. Çünki buyurur, Quranın dəvəti də haqqdır, özü də haqqdır. Bəzən biz bir şəxsi inkar etmək istədikdə deyirik ki, onun sözünə qulaq asmayın. Çünki, o filankəsdir. Sonra qayıdıb onun nə demək istədiyinə nəzər yetirsək, anlayırıq ki, onun dediyi sözü, əslində hamımız deyirik. Çünki, o söz haqq sözdür. Quranın da dəvəti haqq dəvətdir. Dəvəti haqqdırsa özü haqq olmaya bilməz. Kafirlər Quranın Allah kəlamı olmadığını iddia edirlər. Çünki Allaha inanmırlar. Halbuki, onun kəlamlarına diqqət edib, anlasalar haqq kəlamı olduğunu başa düşərlər. Bu Quranın

məntiqidir. Ardınca kafirlər bu məntiq qarşısında aciz qaldıqları və Quranın haqqında yanlış düşündüklərini və onun Allahın kəlamı olduğuna etiraz edə bilmədiklərini anladıqda, başqa iddia ortaya atırlar. Deyirlər ki, "sən Allahın elçisi deyilsən". Allah buyurur, onlara de ki, mənim peyğəmbər olmağıma iki sübutum var: Bir Allahın şahidliyi, bir də kitab elminə malik olan şəxsin şahidliyi.

Allah-taala mənim Onun elçisi olmağıma şahiddir. Necə şahidlik edir? Quranın möcüzə olduğunu sübut edir. Həmin Quran şahidlik edir və buyurur ki, Hz.Məhəmməd Allahın elçisidir. Ey kafirlər, keçmişdə Quranın haqq olmasına və Allah kəlamı olmasına siz şübhə etdiniz. Biz isə dedik ki, Quran haqqdır və onun dəvəti haqqdır. Haqq olaraq göndərilən Quranın ayələri göstərir ki, o böyük bir möcüzədir. Quranda Allah şəhadət verir ki, Məhəmməd (s) Allahın elçisidir. Allah peyğəmbərinin sadiqliyini belə subut edir. Quranın ilahi vəhy olması necə sübut edilir? Möcüzə olmasını sübut etməklə.

## Quranın möcüzə omasına aid subutlar

***1) Quranda ziddiyət yoxdur.***

Əgər Quran bəşər kəlamı olsaydı, 23 ildə nazil olan bu kitabda uyğunsuzluq və yaxud zidd məntiq tapılardı. İnsan 23 ildə təkmilləşə bilir, puxtələşir. 23 ilin əvvəlindəki ddüşüncəsi ilə sonundakı fikri bir-biri ilə uyğun olmur. Əvvəldə səthi danışa bilər, sonda isə dərin mənalı danışar. Puxtələşmə bir neçə formada ola bilər. İnsan bəzən naqis danışır, daha sonra kamilləşdirir. Bəzən yanlış danışır, daha sonra düzəliş verir. Bəzən insan bir şeyi səthi bilər, sonra onu dərinliyinə agah olar. Bu insan əgər öz sözlərinə diqqət etsə, öz yazılarına diqqət etsə, görər ki, prosses bu formada inkişaf edir. Amma Quran belə deyil. Quran heç vaxt naqislikdən puxtələbir zaman vaxt əyrilikdən düzlüyə çevrilməyib. Quranın ayələri bir-biri ilə təkmildir. Quran bir bütündür. Ayələri bir-birini təkmil edir. Nəinki biri naqisdir, biri kamildir. Quranı anlamaq üçün onu bütünlüklə anlamaq lazımdır. Mərhum Əllamə Təbatəbai Əl-Mizan

kitabında 15 dəlil-sübut gətirib ki, Quran möcüzədir. Bu birinci sübut idi.

***2) Hz. Məhəmmət (s) heç bir təlim almamışdı.***

Hz.Peyğəmbər (s) heç bir müəllimin şagirdi olmamış, hər hansı bir məktəbdə təhsil almamışdı. Belə qətiyyətli və dəqiq kəlamlarla dolu Quranı bəşəriyyətə təqdim edib. Bu elə möcüzədir. Quran sözlərini mütləq deyib, qətiyyətlə deyib, bu özü möcüzədir. Heç bir alim sözünü tam qətiyyətlə söyləyib arxasında dura bilməz. Quran sözlərini konkret deyib. İnsan sözlərini konkret deyə bilməz. İnsan deyər ki, mənə belə gəlir, mən belə düşünürəm.

***3) Qurani-Kərim insanları mübarizəyə çağırıb.***

Quran buyurur ki, siz də mənim tayımı gətirin. Mənim üslubumda bir kitab təqdim edin. Mənim sahib olduğum fəsahət və bəlağətdə bir kitab yaradın. Əgər bəşər zehninin məhsulu olsaydı, indiyə minlərlə müxalif bu iddiaya cavab olaraq Quran kimi ikinci bir kitab təqdim edərdi. Amma heç kim bu iddiaya sadə yanaşmayıb. Onun mümkünsüzlüyünü anlayıb. Buna addım atanlar isə rüsvay olublar.

Diqqət etmək lazımdır ki, heç kimsə, Qurani-Kərim kimi bir kitab yarada bilməmişdir. Hətta indinin özünədək onun bir surəsi kimi bir yazı belə qələmə alınmamışdır. Yeddinci əsrdən indiyə kimi dünyadakı islam müxalifi olan alimlər, düşünən beyinlər Quran kimi bir kitab yaratmağa qadir olmamışlar. Halbuki, Quran 14 əsrə yaxındır ki, bütün bəşəriyyəti mübarizəyə, özü kimi bir kitab yaratmağa çağırmışdır.

**قُلْ لَئِنِ اجْتَمَعَتِ الْإِنْسُ وَالْجِنُّ عَلَى أَنْ يَأْتُوا بِمِثْلِ هَذَا الْقُرْآنِ لَا يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا**

"De ki, əgər insanlar və cinlər (bir yerdə) toplanalar, bu Quranın tayını (mislini) gətirmək istəsələr, hər nə qədər bir-birinə yardım etsələr də, onun tayını (mislini) gətirə bilməzlər."[1]

1 - İsra/88

وَإِنْ كُنْتُمْ فِي رَيْبٍ مِمَّا نَزَّلْنَا عَلَى عَبْدِنَا فَأْتُوا بِسُورَةٍ مِنْ مِثْلِهِ وَادْعُوا شُهَدَاءَكُمْ مِنْ دُونِ اللَّهِ إِنْ كُنْتُمْ صَادِقِينَ

"Öz bəndəmizə nazil etdiyimiz Qurana şübhə edirsinizsə, siz də buna bənzər bir surə gətirin. Və doğru deyirsinizsə, Allahdan başqa olan şahidlərinizi də, çağırın!"[1]

***4) Quran zaman keçdikcə köhnəlmir.***

Quran zaman irəlilədikcə, bəşəriyyətin elmi düşüncəsi inkişaf etdikcə, istedadı yüksəldikcə onun dərin mənaları bəşərə daha da aydınlaşır. İmam Sadiq (ə) bu haqda buyurur: "Allah Quranı yalnız müəyyən bir tayfa və məxsus bir dövran üçün nazil etməmişdir. Buna görə də, o hər bir zamanda yeni və hər bir qrupun (dəstənin) yanında qiyamət gününədək daha da, təravətlidir!"[2]

***5) Quranın qeybi-xəbərləri möcüzədir.***

İstər keçmiş hadisələrdən verdiyi dəqiq məlumatlar, istərsə də gələcək hadisələrdən verdiyi xəbərlər daim öz dəqiqliyi ilə təəccübləndirmişdir.

***6) Quranın elmi xəbərləri də özünəməxsus bir ilahi möcüzədir.***

Elm və texnologiynın inkişaf etmədiyi bir zamanda, müasir elmin ən yeni texnologiyası ilə çətinliklə əldə olunan bir sıra bilgilər dəqiq şəkildə müqəddəs kitabımızda işarə edilmişdir. Və bunun kimi bir sıra dəlil-sübutlar Quranın möcüzə olmasını və onun Allah tərəfindən nazil edildiyini bildirir. Qurani-Kərim də, Hz. Məhəmmədi (s) peyğəmbər kimi tanıtdırdıraraq, o həzrətin Allahın elçisi olmasına şahidlik edir.

## İkinci şahid: Kitabın (Quranın) elminə sahib olan şəxs

Qeyd etdiyimiz kimi iki şahid var idi: Bir Allahın şahidliyi, bir də kitab elminə malik olan şəxsin şahidliyi.

Bəzilərinin fikrincə, kitab elminə malik olan şəxsin şahidliyindən məqsəd yəhudi və xristian alimlərinin bilgiləridir. Çünki kitabdan məqsəd Tövrat və İncildir. Yəni o alimlər mənim haqq olmağımı

---

1 - Bəqərə/23
2 - Biharul-ənvar, c. 2, səh. 280

bilirlər. Lakin bu doğru izah və düzgün məna deyildir. Buna görə ki, Rəd surəsi Məkkədə nazil olub. Məkkədə heç bir əhli-kitab alimi Hz.Məhəmmədin (s) peyğəmbərliyinə şahid deyildi, onu qəbul etmirdi. Bu surə Mədinədə nazil olmayıb ki, bir sıra əhli-kitab, yəhudi və xristiyan alimlərindən iman gətirib, müsəlman olaraq Hz. Məhəmmədin (s) peyğəmbərliyini təsdiq edib şahidlik etsinlər. O zman heç Məkkə əhalisi iman gətirməmişdi, o ki qalmışdı Mədinədəki əhli-kitab. Əbdullah ibni Səlamın müsəlman olduqdan sonra o həzrətin peyğəmbərliyinə şahidik etməsini önə sürənlər yanılırlar. Çünki o Məkkədə deyil, Mədinədə isalm dinini qəbul etmişdi. Qurani-Kərim uzun illər sonra Əbdullah ibni Səlamın iman gətirəcəyini Məkkədəki kafirlərə indidən sübut kimi irəli sürə bilməz. Axı Allah onlara indi cavab vermək istəyir. Əgər bunu qəbul etsək, məna belə olacaq: "Onlara de ki, mənə bir Allahın şəhadəti kifayət edər, Allah Quranda şəhadət verib, bir də əhli kitabdan olan bir alimin şəhadəti. O alim, sonra şəhadət verəcək indi yox." Bu doğru mənalandırma deyil.

Səid ibn Cübeyrə istinadən belə nəql edilir ki, ondan ayədəki şəxsdən məqsədin Abdullah ibn Səlam olması haqda soruşuldu. O dedi: "Məqsəd o deyil, axı bu surə Məkkədə nazil olub."[1]

Bəs burada məqsəd nədir? Həmin kitab lovhi məhfuzdur? Xeyr. Tövrat və İncildir? Xeyr. Kitabdan məqsəd Qurandır. "Mən indəhu elmul kitab,"- yəni o bu kəsdir ki, onun yanında kitab vardır. De, sizin küfrünüzün mənim risalətimə, mənə zərəri yoxdur. Mən heç vaxt bundan şübhəyə düşmərəm ki, rəsulam ya yox. Çünki Allah şəhadət verir ki, mən rəsulam. Siz də gərək şübhəyə düşməyəsiniz, çünki, buna Allah şəhadət verir mən rəsulam. Bir də yanında Quran olan kəsin şəhadəti. Yəni o kəs, Quranı oxuyur, oxuyandan sonra düşünür ki, bu Quran Allah kəlamıdır. Və mən də Quranı gətirən Rəsulul-laham. Yəni elə bil bir nəfərə deyirlər ki, sən alim deyilsən. O da deyir ki, mənim müəllimim (Allah) bilir ki mən aliməm. Sizin bilməməyinizin mənə bir zərəri yoxdur. O, müəllim hansıki məni

---

1 - Əd-durrul-mənsur, c. 4, səh. 69.

öyrədib mənim nə olduğumu o daha yaxşı bilir. Bir də mənim kitabımı kim oxusa o da yaxşı bilər ki, mən aliməm yoxsa yox. Və yaxud yazdığım kitab da göstərir ki, aliməm yoxsa yox. Hz.Peyğəmbər (s) də Allahın gösərişi ilə buna oxşar bir sübut gətirir. Buyurur ki, Allah mənə Quranı öyrədib.

الرَّحْمَنُ

Rəhman! (Mərhəmətli olan Allah!)

عَلَّمَ الْقُرْآنَ

(Öz peyğəmbərinə) Quranı öyrətdi.[1]

Mənim müəllimimin mənə sən peyğəmbərsən deməsi kifayət edər. O şahiddir. Allah şahiddir ki, Hz. Məhəmməd (s) onun rəsuludur.

Bir də mənə nazil olan ilahi kəlam da peyğəmbər olmağıma şahiddir. Allah tərəfindən gətirdiyim kimin yanında olsa, kim bu kitabı qəlbində yerləşdirə bilsə, Quranı açıb oxuyub dərk etsə, mənim haqq olduğumu anlayar. Sanki bir şəxsdən soruşursan ki, Qiyamət gününə inanırsanmı? Cavab verir: Mövhumatdır, uydurma sözlərdir. Qayıdıb cavabında deyirsən ki, axı sən heç Qiyamətin varlığına dəlil olan sübutları oxumusanmı? Alimlər, ilahiyyat alimləri, İslam filosofları, digər dinlərin filosofları, ilahiyyatçılarının Qiyamət günü haqda yazdıqlarını oxumadığın halda necə birbaşa inkar edə bilirsən? Oxuduqdan sonra haqqı anlayacaqsan, inkar etməyəcəksən. Haqqı tapmaq niyyətilə araşdırma aparsan görərsən ki, Qiyamət haqqdır. Əvvəlcə oxu, düşün sonra məntiqsiz olduğunu anlasan inkar et. Allah buyurur ki, mənim kəlamlarımı düşünsəniz, Hz.Məhəmmədin peyğəmbərim olduğunu anlamanıza bu kifayət edər. Yəni burada insanda olan xəstəliyi başa salır. Bəşərin bir xəstəliyi də budur ki, kor-koranə inkar edir. Təqdim olunan mətnin daxilini oxumur və onu bir kənara qoyur. Mənim şəxsi düşüncələrimə, mənfəətlərimə görə kimdənsə xoşum gəlmirsə, onun nə danışığını heç vaxt fikirləşməyəcəm. Mənə maraqlı olmayacaq ki, o haqq danışır yoxsa batil? Nə söylədiyini

1 - Ər-Rəhman, 1-2

dinləmədən inkar edəcəm. Çünki, onun söylədikləri mənim üçün bir heçdir. Allah buyurur ki, qulaq as, dinlə, düşün və araşdır gör ki, söylədikləri haqqdır yoxsa batil? “Və mən indəhu elmul kitab”- “Və kitabın elmi onunladır.” Sən Allah tərəfindən nazil olan Qurani-Kərimi oxusan, onun həqiqətlərini dərk etsən onda Hz. Məhəmmədin Allahın rəsulu olduğunu anlayarsan. Kafirlər Quranı dinləmirdilər ona görə inkar edirdilər. Bəziləri Quranla tanış olduqdan sonra peyğəmbərə iman gətirdilər. Tarix yazır, bəziləri qulaqlarına pambıq taxırdılar. Məkkəyə gələndə pambıq taxırdılar ki, Hz. Məhəmmədin (s) sehrdir, ona qulaq asmayaq. Kafirlər Məkkəyə gələn insanlara deyərdilər ki, o, sehrbazdır, sözləri ilə ovsunlayır, ona qulaq asmayın. İnsanlar cadulanmaqdan qorxduqları üçün Hz.Peyğəmbərin (s) oxuduğu Quran ayələrini dinləmirdilər. Qulaqlarına pambıq taxırdılar ki, eşitməsinlər. Məkkəyə girənlərdən bir nəfər dedi: Mənim də ağlım var, qulaq asım görüm nə deyir. Pambığı qulağından götürdü. Hz. Peyğəmbərin (s) sözlərinə qulaq asmağa başladı. Gördü ki, bu sehir deyil. İnsana həyat proqramıdır, nurdur, şəfadır və iman gətirdi. Allah da bunu tövsiyə edir.

Hz.Məhəmməd (s) Allahın Rəsuludur. Bu Quranı oxuyaraq, araşdıraraq anlamaq mümkündür. İnsanlar bəzi sahələri araşdırmaq üçün fikirləşmir. Din elmi də belədir. Dinə elm kimi yanaşmadıqları üçün araşdırmırlar. Fizika qanununu heç kim dəyişə bilməz. Çünki, dəyişmək istəsə sübut lazımdır. Bunun üçün fikirləşər, neçə saat labarotoriyada təcrübədən keçirər, analiz edər, sonra hamı onun sözünə diqqət edər ki, görsün o, hansı qənaətə gəlib. Kəlmələrinə belə diqqət olunar. Lakin insan bəzən Quranın da buyurduğu sözlərin özünəməxsus ciddi sübutları olduğunu bilmir. Din haqqında alimlər bir söz deyirlərsə, onun əsaslandırıb təqdim edilər. Əgər deyirlərsə Allah var, qiyamət belədir, qiyamət haqqında fikir yürüdürlərsə və sair dini mövzulardan danışırlarsa bunlar xəyal məhsulu deyildir. Ağıllı insan bunları məntiq ilə düçünər. İnkar da etsə araşdırıb, düşünüb inkar edər. Amma təəssüflər olsun ki, bizim bir sıra inkarlarımız “kor tutduğunu

buraxmaz inkarıdır”. Sanki “qəbul etmiriksə demişiksə gərək axıra qədər öz fikrimizi müdafiə etməliyik”-deyə düşünürük. Bu düşüncə insanın yersir qururu, məğrurluğundan qaynaqlanır. Quran buyurur, məni tanı sonra inkar et. Məsələn, islam dinində hicabın zərurəti qeyd olunur, namazın vacibliyinə təkid edilir. Sənin bu göstərişlərdən xoşun gəlmirsə, onu inkar edə bilməzsən. Onu xəyal və mövhumat saya bilməzsən. Əgər bir nəfər deyirsə namaz qılmaq Allahın əmridir, əgər sənin xoşuna gəlmir və qılmırsansa, onun Allahın əmri olmadığını iddia edə bilməzsən. Sən hansı əsasla iddia edə bilərsən ki, Allah yaratdığı bəşərdən namaz tələb edə bilməz. Sən dinin əsasında yaşamaya bilərsən. Amma bu zaman şəffaf olmalısan. Deyə bilərsən ki, mən istəmirəm dinin əsasında yaşayım. Şəffaflıq insanın iamanlı və yaxud dindən uzaq olmasında ən lazımlı məslədir. İnsan özünü aldatmamalıdır. Elə başqalarını da aldatmamalıdır. Etiraf etməlidir ki, namaz dinin göstərişidir, lakin mən qılmaq istəmirəm. Bu heç olmasa yaxşıdır. Amma araşdırma-dan inkar etmək və dinin belə bir göstərişi olmadığını demək məntiqsizlikdir.

**Kitabın (Quranın) elminə sahib olan şəxs, Hz.Əlidir (ə)**

Ayəyə əsasən Hz. Məhəmmədin (s) Allahın Rəsulu olduğuna şahid olmaq bu kitabı anlamaqla öyrənməklə mümkündür. Yaxşı indi Qurani-Kərimi ən yaxşı anlayan və bilən kimdir? Sözsüz və tərəddüdsüz ki, Hz.Əlidir! Bu sahədə bir sıra məqamları xatırladaq:

1) Quran nazil olduğu zaman onu Hz.Peyğəmbərin (s) hüzurunda Hz.Cəbrayılın dilindən məhz o eşidirdi. O, şahiddir! Allahın Peyğəmbəri (s) buyurur: “Mən elmin şəhəri, Əli onun qapısıdır. Buna görə də elm istəyən kəs həmin qapıdan daxil olmalıdır.”[1] Allahın rəsulu (s) heç bir məktəbdə və müəllim yanında təhsil almamışdı. Bu hədisdə işarə olunan elm, ilahi elmdir. Batini elmdir. Quranın sirləridir. Məhz o elmin qapısı Hz. Əlidir!

1 - Kənzul-Ummal, hədis 32979

2) Ayədə buyurulur ki, mənimlə sizin aranızda (doğruluğuma) Allahın və kitabı bilənlərin şahid olması yetər!”[1] Kitabı bilənlərin və kitabla birgə olanların ən əzəmətlisi Hz. Əlidir! Necə ki, Allahın Peyğəmbəri (s) buyurur: “Əli Quran ilə və Quran Əli ilədir və onlar hovuzun (Kövsər hovuzunun) kənarında mənim yanıma gələnə kimi heç vaxt bir-birlərindən ayrılmazlar.”[2]

3) O, Qurana düzgün yanaşıb, düzgün davranıb və doğru şəkildə dərk edib. Hz. Əli (ə), Quranı haqq olan bir kitab kimi tanıyıb və özü də Quranı yazıb və bir yerə toplayıb. Ayədəki kitabı bilənlərdən məqsədin Hz.Əli (ə) olması barəsində bir neçə hədis qeyd edək:

4) “Bəsairut dərəcat” kitabında Əbu Həmzə Somali və “Yənabiul-məvəddət” kitabında Sələbi, İbn Məğazili və Abdullah ibn Ətadan nəql edir ki, Əbu Cəfər, yəni; İmam Məhəmməd Baqirlə (ə) birlikdə məsciddə əyləşmişdik. Abdullah ibn Səlamın oğlu məscidə daxil oldu. Onu görüb dedim ki, bu şəxs, Allahın kitabını bilən şəxsin oğludur. İmam Məhəmməd Baqir (ə) etiraz edərək buyurdu: “(Elə deyil.) Ayə Hz.Əli (ə) haqda nazil olmuşdur.”[3]

5) Hz.Əli (ə) Quranı hər kəsdən daha yaxşı bilir, o, ilahi kitabının canlı fomasıdır. Baxın, müəllimin müxtəlif savad səthində qərarlaşan tələbələri ola bilər. Mümkündür bir tələbə beş ay müəllimlə dərs oxuyub, o birisi bir il ondan təhsil alıb, başqa bir tələbə isə həmişə müəllimin elmindən faydalanıb. Belə ki, kim ona müraciət etsə, elə müəllimə müraciət etmiş sayılar. Hz. Əli (ə) da belədir. Quranın elmi bütünlüklə onun yanındadır. Kim İmam Əliyə müraciət etsə, Quran elminin tam və kamil şəkildə olan bütününə müraciət etmişdir. Bu ayənin Hz.Əli (ə) haqda olması Əl-Mizan təfsirində müxtəlif hədis kitablarından nəql edilib.[4]

Ayrı yollarla da biz ayədən məqsədin kim olduğunu tapa bilərik. Onun Hz. Əli (ə) olması haqda çoxlu hədislər var.[5]

---

1 - Rəd, 43

2 - Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.3, səh.124, hədis 125

3 - Yənabiul-məvəddət, səh. 102.

4 - Əl-Mizan təfsiri, c. 11, səh. 121

5 - Yənabiul-məvəddət, səh. 102-110

6) Hz. Peyğəmbərin (s) səhabələri içərisində hamıdan elm sahibi, Hz. Peyğəmbər (s) dövründə, ondan sonra da Hz. Əlidir. Elm baxımında ona heç kim şübhə etməyib.[1] Buna aid bir sıra hədis qeyd edək. İmam Əli (ə) bir rəvayətdə özü buyurur: Əgər bir ayə haqqında məndən soruşsanız, sizə xəbər verərəm ki, bu ayə nə vaxt nazil olub, nə üçün nazil olub, ayənin nasixini, mənsuxunu deyərəm. Hansı ayə xüsusilə nə və kim haqdadır, hansı ayə ümumidir, möhkəmdir, mütəşabihdir, hansı Məkkədə nazil olub, hansı Mədinədə nazil olub və sonadək bunların hamısını sizə deyə bilərəm.[2]

7) Başqa hadislərdə özü buyurur ki, "mən, hətta hər bir ayənin səhrada yoxsa dağlıqda nazil olmasını belə bilirəm. Səfərdə nazil olub yoxsa Mədinədə, yaxud Məkkədə." Buyurur ki, insan bəzi nemətlərin qədrini bilməz, o zaman nemət əlindən çıxsa qədrini bilər. Məsələn, sağlamlıq kimi. O insanın əlindən çıxsa sağlamlığın nə qədər böyük nemət olduğunu dərk edər, onu Allah vermişdi, qiymətini bilmədim. Nemətlər dünyada dalğa kimidirlər, bir yerdə qalmazlar Dalğa gələr, lakin qalmaz, qayıdar. Hz.Əli (ə) bunu nəzərdə alaraq özü haqda buyuur: "Camaat! Nə qədər ki, məni itirməmisiniz, soruşun, məndən sual soruşun! Çünki birincilərin və sonuncuların elmi məndədir. And olsun Allaha, əgər məhkəmə kürsüsündə otursam Tövratın davamçıları arasında onların Tövratları əsasında hökm çıxararam və ... sonra buyurdu:«Məni itirməmişdən qabaq məndən soruşun. Toxumu yaran və insanı yaradan Allaha and olsun ki, əgər Quran ayəsindən soruşsanız sizə onun nə vaxt kimin barəsində nazil olmasını deyərəm."[3]

8) Buyurur: "Sinəmdə elə gizli elm var ki, əgər onu aşkar etsəm dərin quyuya sallanmış vedrənin ipləri kimi titrəyərsiniz."[4] Təkcə əhli yoxdur ki, o elmi Əli (ə) onlara versin. Elmi əhlinə verməsən, elmə zülm etmisən. Əhlindən məhrum etsən həmi insana zülm

---

1 - Ənsabül-əşraf, Əhməd ibn Yəhya Bilazəri, c. 1, səh. 279
2 - Ət-Təbəqatül-Kübra, Məhəmməd İbn Səd, c. 2, səh. 338
3 - Əl-İrşad, c.1, səh.35
4 - Nəhcus-Səadə, c.1, səh.42

etmisən. Elmi əhlinə və miqdarında bəxş etməlisən. Ona görə də İmam bəzən sözlərini quyuya danışardı. Bu İmamın nə qədər qürbət şəraitində yaşamasından xəbər verir. Tənhalığından xəbər verir ki, Peyğəmbər elminin qapısı onu anlayacaq şəxs tapmır ki dialoq yaratsın. Quranın bütünlüklə onda idi. Amma bəhrələnən çox az idi. Anlamaq istəyən çox az idi. Tərk edilmişdi. Necə ki, Quran da tərk edilib. Anlamaq istəyəni azdır.

وَقَالَ الرَّسُولُ يَا رَبِّ إِنَّ قَوْمِي اتَّخَذُوا هَذَا الْقُرْآنَ مَهْجُورًا

Peyğəmbər də "Ey Rəbbim! Həqiqətən, qövmüm bu Quranı tərk etmişdi!" - deyəcək.[1]

Necəki, Quran həyatdan bəzən kənarda qalır, taxçada öpmək üçün qalır. Müsafiri yola salmaq üçün yaşayır, otaqda yalnız gəzir. Necəki Qurana təkcə müqəddəs kitab kimi baxılır, ona həyat kitabı kimi baxılmır, Hz.Əli (ə) də belədir. Ona təkcə müqəddəs şəxs kimi baxılır. İmam kimi yanaşılmır.

8) İmam Əlinin (ə) elmi haqqında bir sıra başqa hədislər də vardır. Suyuti "Cameul-Cəvami" kitabında Fatimeyi Zəhradan (s) nəql edir: Hz. Peyğəmbər (s) buyurdu: "Ey Zəhra, bilirsən sənin yoldaşın kimdir? O, Mənim ummətimin ən xeyirlisidir, ən elmlisidir, mənim ümmətimdə ondan daha elmi şəxs yoxdur. Helmdə ondan fəzilətli bir şəxs yoxdur. İslama iman gətirməkdə o hər kəsdən öncədir, ilkdir.[2] Peyğəmbərin təsdiqidir ki, Hz. Əli (ə) ilk islama iman gətirəndir. Hz.Əlinin kiçik yaşında iman gətirməsi, onun ilk iman gətirən olmasına xələl gətirmir. Həm bunu Hz. Peyğəmbər (s) təsdiq edib, həm də özü bunu buyurur: "Mən İslamı qəbul edən ilk şəxsəm."[3] "Mən Peyğəmbərlə (s) namaz qılan ilk şəxsəm."[4] Allahın Peyğəmbəri (s) buyurur: "Məndən sonra ümmətimin ən elmlisi Əlidir."[5]

---

1 - Furqan, 30
2 - Cameul-cəvame, Siyuti, c. 3, səh. 298
3 - Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.1, səh.47, hədis 85
4 - Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.1, səh.47, hədis 84
5 - Əmali-Səduq, səh.440, hədis 20

9) Çoxlu kitablarda, həmçinin "Əliyyun fil kitabi və sunnə" kitabının ikinci cildində 20 hədis Hz. Əlinin elmi haqqında müxtəlif sənədlərdən dəqiq formada nəql edilib. Elə Səqəleyn hədisi də buna dəlildir ki, Quranla Əli eyni dərəcədədir. Bu haqda keçən bölümlərdə söhbət açmışdıq. Hz.Peyğəmbər (s) buyurur ki, mən iki ağır əmanət qoyuram sizin aranızda. Onlar heç vaxt bir-birləri ilə ayrılmazlar. Quran ilə Əhli-Beyt. Ayrılmazlar nə deməkdir? Yəni Quran hər nəyi buyurursa imam ona əməl edib. Hər nəyi imam əməl edirsə, Quran da onu buyurur. Yəni Quranı canlandırsan imam olar. İmamı kitab halına salsan Quran olar. Yəni Quran sükût edən imamdır, danışmayan imamdır. İmam isə danışan Qurandır. Quran imamda cilvələnir. Ona görə də, kitabda imamdır, imam da kitabdır. Quranda imam kəliməsi Quran üçün də işlənib. O sözü ilə, bu əməli ilə. O qanundur, bu praktikadır. O teoriyadır, bu tətbiqdir. Quranı anlamaq birinizə ağır gələrsə, bu zaman Əli (ə) a baxın. İnsana Quran Əli (ə) ilə aydın olar. İmam Əlini düşündüyünüz zaman Qurana baxın. O, "indəhu elmul kitab" dır. Ondadır kitab (Quran) elmi.

Kitab elmi onunladırsa, insan imamı tanısa nələrə sahib olar? Bu bir sualdır. Bəzi insanlarda kitab elminin bir zərrəsi olduğu zaman nələrə malik olub? Quran bunu nəql edir. Hətta keçmiş ümmətlərdən, Hz.Süleyman (ə) peyğəmbərdən bunu nəql edir. Süleyman peyğəmbərin zamanında bir şəxs var idi, onun yanında kitab elminin bir zərrəsi var idi, hamısı yox, bir zərrəsi. Hz.Süleyman (ə) ondan kömək istəyir. Bilqeysin taxtını sarayından götürüb Hz.Süleymanın yanına gətirsin deyə ondan kömək istəyir. Çünki, o, kitabdakı elmin bir hissəsinə sahib idi. Kitabdan bir az elmə malik idi. Kitabdan bir az elmi olana ilahi bir peyğəmbər bu formada bağlı idisə, onda bütünlüklə kitabın elminə sahib olana biz necə münasibət göstərməliyik? O, bir az elmilə taxtı gətirir. Biz, isə islamda elə bir şəxs tapmışıq ki, kitabın hamısı onun yanındadır.

قَالَ يَا أَيُّهَا الْمَلَأُ أَيُّكُمْ يَأْتِينِي بِعَرْشِهَا قَبْلَ أَنْ يَأْتُونِي مُسْلِمِينَ

(Süleyman) dedi: "Ey əyanlar! Onlar müti vəziyyətdə (müsəlman olaraq) yanıma gəlməmiş hansınız onun (Bəlqisin) taxtını mənə gətirə bilər?"[1]

قَالَ الَّذِي عِنْدَهُ عِلْمٌ مِنَ الْكِتَابِ أَنَا آتِيكَ بِهِ قَبْلَ أَنْ يَرْتَدَّ إِلَيْكَ طَرْفُكَ فَلَمَّا رَآهُ مُسْتَقِرًّا عِنْدَهُ

Kitabdan (Allahın kitabından, yaxud lövhi-məhfuzdan) bir qədər xəbəri olan birisi (Cəbrail, yaxud Xızır və ya Süleymanın çox ağıllı və tədbirli vəziri Asəf ibn Bərxiya) dedi: "Mən onu sənə bir göz qırpımında (gözünü yumub açınca) gətirərəm!"[2]

Taxt Yəməndə idi. Yəməndən Kənana gətiriləcəkdi. Kənan isə Qüdsdədir. Burada bir neçə məsələ var. Əvvəla bunu göstərir ki, başqasından qeyri adi bir şeyi tələb etmək şirk deyil. Əgər bu şirkdirsə onda Həzrət Süleyman (ə) peyğəmbər müşrikdir. Amma O, Allahın rəsuludur. Özü başqasından tələb edir. Şirkdirsə bu ayəni necə məna edək? Özü də qeyri-adi işdir. Buyurmur, get bazardan çörək al gətir. Kitabdan bir az elmə sahib olan şəxs, taxtı qeyri-adi formada gətirir. Bunu Allah özü də pisləmir. Əksinə, Allah gətirən şəxsi tərifləyir. Buradan aydın olur ki, bir sıra insanlar təkvini vilayətə sahibdirlər. Qeyri-adi işlər görməyə qadirdirlər. Çünki onların kitab elmi ilə rabitələri vardır. O elmlə əlaqə yaratsalar, qeyri-adi işlər edə bilərlər.

10) Ətiyyə Ovfi, Əbu Səid Xudridən bu hədisi nəql edir: "Allahın elçisindən (s) "əlləzi indəhu elmun minəl kitab" ayəsi barədə sual etdim. Buyurdu: "O, qardaşım Süleyman ibn Davudun vəziri idi!" Ardınca buyurdu: "Mənimlə sizin aranızda (doğruluğuma) Allahın və kitabı bilənlərin şahid olması yetər!" ayəsi kimin barsində nazil olub-deyə soruşulduqda isə, buyurdu: "O, qardaşım Əli ibn Əbi Talibdir!"[3]

1 - Nəml, 38
2 - Nəml, 40
3 - Yənabiul-məvəddət, səh. 103

## Məvəddət ayəsi

قُلْ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى وَمَنْ يَقْتَرِفْ حَسَنَةً نَزِدْ لَهُ فِيهَا حُسْنًا إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ

(Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumlarıma (ən yaxınlarıma) məhəbbətdən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabının (mükafatını) artırarıq!" Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir! (Şükrün və itaətin, gözəl əməllərin əvəzini verəndir!) [1]

Qurani-Kərimdə bir sıra ayələrin məxsus adları vardır. Xüsusi əhəmiyyətlərinə görə, çox tövsiyyə olunmalarına görə münasib adlar qoyulmuşdur. Onlardan biri də, Məvəddət ayəsidir. Məvəddət, yəni sevgi, məhəbbət. "Qul"-"قُلْ "-"De". Quranda Allahın "De" əmri Hz.Peyğəmbərə (s) buyurulub. Yəni diqqətli ol, bu əhəmiyyətli bir sözün başlanğıcıdır. Allah nə buyurursa onun hamısını kamil şəkildə çatdır-deməkdir. "Qul la əsəlukum ələyhi əcrən"-"لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا " - "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində heç bir muzd istəmirəm." "İlləl məvəddətə fil qurba"-"إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى "-"qohumlarıma məhəbbətdən (əhli-beytə sevgidən) başqa".

Yaxşı iş göənin savabını artırmaq, sanki birinə nasazlığı olan bir şeyi təzələyib təqdim etmək kimidir. Buyurur, biz sizin əməllərinizi də belə edərik. Göəl əməllərinizin nəsə bir nöqsanı olsa, xələli olsa, onu da biz sizə qaytaranda (mükafatlandıranda) nöqsanını təmizləyib, qaytararıq. Çünki, biz təmizləyənik. Şükür qəbul edənik. İnsanlar bizə təşəkkür ünvanında nə işlər görürsə, biz onları qəbul edərik. Biz nöqsana deyil, işin mahiyyətinə və niyyətinə baxarıq. Nöqsanı olsa belə gözəl əməli kamilləşdirib, mükafatını ona uyğun təqdim edərik. Biz kərimik. Kərim olan xırdalıqlara girməz. Nə üçün? Çünki, bütün gözəlliklər Allahdandır. Xırdalıqlara kiçik insanlar baş qoşar.

1 -Şura, 23

Bu ayə məvəddət ayəsidir. Buyurur, əcr və muzd istəmirəm. Təkcə məhəbbət istəyirəm. Risalətimin muzdu sevgidir. Bu ayənin nə üçün nazil olduğu barəsində şəni nüzulu da yazılıb. Müxtəlif təfsirlərdə vardır ki, Peyğəmbər Mədinədə dini möhkəmləndirəndən sonra,ənsar belə bir fikrə düşdü: Gedək peyğəmbərə deyək ki, bizim nə malımız varsa sənin ixtiyarındadır. Sən necə istəyirsənsə elə də et. Yəni peyğəmbər narahat olmasın, peyğəmbər özünü tək hiss etməsin. Bir növ peyğəmbərin risalətinə muzd kimi nəzərə alırdılar ki, yəni bu qədər zəhmət çəkir bu da onun mükafatı olsun. Ənsar gəlib bunu söyləmək istəyəndə həmin ayə nazil oldu.

Burada diqqət olunmalı bir nöqtə var o da budur ki, insan Allah yolunda heç kimdən heç nə gözləməməlidir. Əgər insan işini Allah üçün görürsə təkcə Allahla ticarət edir, başqası ilə deyil. Ona görə də, əgər başqası bizim işimizi layiqincə qiymətləndirməsə narahat olmamalıyıq. Çünki, biz Allahla ticarət etmişik, başqası ilə deyil. Əgər biz gözləsək ki, dostumuz gördüyümüz bir iş üçün bizə təşəkkür etsin, belə bir istəyimiz olsa, həmçinin təşəkkür etmədiyi təqdirdə narahat olsaq, deməli niyyətimiz yanlışdır. Biz həmin əməli Allaha görə deyil, dosta xatir etmişik. Əslində, onun mənə təşəkkür etməsinə xatir bu işi görmüşəm.

Bu şüar bütün peyğəmbərlərin şüarı idi: “Mən sizdən əcr istəmirəm.” Yəni Allah üçün iş görmənin ölçüsü budur ki, əcr istəməsin. Mükafatdan məqsəd təkcə pul deyil. Gözləməsin ki, başqası ona nəsə yaxşı bir söz desin, o deməsə narahat olsun. Ona hörmət etsin, üzünə gülsün, ikiəlli görüşsün. Mən bir şer oxuyuram mümkündür bu şerimi heç kim xoşlamasın. Mən Allaha xatir oxumuşam. Əgər mən narahat olsam ki, şerimi heç kim xoşlamır, daha şer in səhifəsini büküb şeiri deməsəm, o zaman məlum olar ki, şeri camaat üçün dedim, Allah üçün yox. Quran bu məntiqi bütün peyğəmbərlərin dili ilə bizə buyurur, Bu söz Quran surələrində dəfələrlə təkrar olunub.

Hətta insan başqasından sözünün qəbul edilməsini gözləsə, qəbul etməsələr və buna narahat olsa, yenə də Allah xatirinə deyil. Əgər

narahat olsa ki, niyə mənim sözümə baxmadılar, yenə də niyyəti sağlam deyil. Narahat olsa  ki, mənim sözümə baxmadılar yenə də niyyəti nəfsidir. Çünki, özünü burada meyar tutub ki, mən yaxşı iş görürəm gərək məni də yaxşı qarşılayalar. Mömin narahat olar ki, insanlar nə üçün öz xeyirlərini əldən verirlər, nə üçün Allahın buyuruqlarından uzaq qalaraq zərərə uğrayırlar. Mənim sözümə baxmırlar-deyə narahat olmaz. Özünə də narahat olmalıdır ki, niyə mən haqqa boyun əymirəm. Mömin insana özü ilə başqasının fərqi yoxdur. Özünə də narahat olmalıdır ki, nə üçün mən doğru yolda deyiləm. Həmin məntiqlə də başqasına baxmalıdır ki, nə üçün onlar doğru yolda deyildirlər. Yaxşı iş görənlər əməlləri üçün tərif gözləməzlər. Tərifin onların əməllərinin çoxalmasında təsiri olmaz. Bir vəzifə var, bir də gözləmə. Uşağın vəzifəsi atasının hörmətini saxlamaqdır. Lakin atanın bunu tələb etmə vəzifəsi yoxdur. Müəllim gözləməməlidir ki, tələbə ona hötmət etsin. Eyni halda, tələbənin vəzifəsidir ki, müəlliminə hörmət etsin. Bunlar ayrı-ayrı məsələlərdir. İnsan yaxşı adamları tərifləməlidir, yaxşı əməllərə dəyər verilməlidir. Bu bir vəzifədir. Lakin həmin yaxşı əməlli şəxs gözləməməlidir ki, məni nə üçün tərifləmirlər? Belə bir gözləntisi olsa, deməli əməllərinin niyyəti Allaha xatir deyil. Meyar budur. Hətta əhval-ruhiyyəsində dəyişiklik də baş versə, deməli niyyətində problem vardır. Təkcə nəsə gözləmək ilə niyyət yanlış olmur. Məsələn, təriflədikləri zaman ciddi şəkildə yaxşı əməl etsə, tərifləmədikləri zaman isə yaxşı əməllərində süstlük etsə, əmməllərinin Allah üçün olmadığını anlamalıdır. Əgər Allah üçün iş görürsə Allah onun əməllərini görür və ən gözəl şəkildə mükafatlandıracaqdır.

Bəzən insan yaxşı bir iş görər, sonra yaxşı işinin savabını əlindən verər. Əməli sağlam niyyətli idi, amma sonradan niyyətini dəyişər. Əməlinin pak niyyətini korlayar. Quranın məntiqinə əsasən yaxşı əməl edən mükafatlanmır, yaxşı əməli sağlam şəkildə Allaha təhvil verən şəxs buna görə mükafatlandırılır. Bəzi insanlar çeşmədən vedrə ilə su götürərlər. Yarı yolda vedrəni deşərlər, suyu dağıdarlar. Ölçü budur ki, suyu sağ-salamat evinə aparasan. Əməli Allah

dərgahına sağlam və pak təhvil verəsən. Nə elə əvvəldən korlamayasan, nə də ki yarı yolda niyyətini xarab etməyəsən. Bir saleh əməlin sahibi onu on ildən sonra belə qürrələnərək desə, işi gördüyü zaman niyyəti sağlam olsa belə, indi qürrələndiyi üçün mükafatını əldən vermiş sayılar.

## Dərsin xülasəsi

Hz.Məhəmmədin (s) peyğəmbərliyinə iki ilahi şahid vardır: Allah-taala Qurani-Kərimdə və Kitabın (Quranın) elminə sahib olan şəxs.

Allah-taala mənim Onun elçisi olmağıma şahiddir. Necə şahidlik edir? Quranın möcüzə olduğunu sübut edir. Həmin Quran şahidlik edir və buyurur ki, Hz.Məhəmməd Allahın elçisidir. Ey kafirlər, keçmişdə Quranın haqq olmasına və Allah kəlamı olmasına siz şübhə etdiniz. Biz isə dedik ki, Qu-ran haqqdır və onun dəvəti haqqdır. Haqq olaraq göndərilən Quranın ayələri göstərir ki, o böyük bir möcüzədir.

Quranın möcüzə omasına aid subutlar:

1) Quranda ziddiyət yoxdur.
2) Hz. Məhəmmət (s) heç bir təlim almamışdı.
3) Qurani-Kərim insanları mübarizəyə çağırıb.
4) Quran zaman keçdikcə köhnəlmir.
5) Quranın qeybi-xəbərləri möcüzədir.
6) Quranın elmi xəbərləri də özünəməxsus bir ilahi möcüzədir.

Ayəyə əsasən Hz.Məhəmmədin (s) Allahın rəsulu olduğuna şahid olmaq bu kitabı anlamaqla öyrənməklə mümkündür. Yaxşı indi Qurani-Kərimi ən yaxşı anlayan və bilən kimdir? Sözsüz və tərəddüdsüz ki, Hz. Əlidir!

Qurani-Kərimdə bir sıra ayələrin məxsus adları vardır. Xüsusi əhəmiyyətlərinə görə, çox tövsiyyə olunmalarına görə münasib adlar qoyulmuşdur. Onlardan biri də, Məvəddət ayəsidir: (Ya Peyğəmbər!) De: “Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumlarıma (ən yaxınlarıma) məhəbbətdən (əhli-

beytə sevgidən) başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabının (mükafatını) artırarıq!" Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir! (Şükrün və itaətin, gözəl əməllərin əvəzini verəndir!) [1]

---

1 -Şura, 23

## İyirmi dördüncü dərs

### Əmanətdar elçilər

İnsan hələ dünyasını dəyişməyibsə, əməlini Allah dərgahına təqdim etməyib O zamana qədər öz əməlini başqasına bağışlaya bilər. Allahın əlindən alar, şeytana peşkəş verər. Çünki, məsələ yalnız əməli icra etdiyi zamanda olan niyyəti deyil. Bu niyyəti sonadək saxlamaq daha mühümdür. Binanı düzgün tikmək zəruridir (niyyət), binanı qorumaq isə daha da zəruridir. Bəzən bina möhkəm və uyğun torpaq sahəsində (niyyət) tikilməz. Ya da ki, köstəbəklərin yuva qurduğu sahənin üzərində tikilər. Bizim də qəlbimizdə çoxlu heyvani hisslər yarana bilər. Orada yuva düzəldərlər. Çoxlu insanlar qəlblərimizdə yuva düzəldərlər. Bizim əməllərimiz onlar üçün olar. Onların istəyi bizim işlərimizdə meyar olar. Nəinki Allahın istəyi meyar olmuş olsun. Deyərik ki, filankəs belə bəyənir. Ona görə də bu yaxşı əməli edim. Ola bilər ki, o filankəs də yaxşı adam olsun, lakin mənim niyyətim və saleh əməldəki meyarım onun bəyənməsi olmamalıdır. Həzrət İsa (ə) əzəmətli məqama malik bir şəxs idi. Lakin onu Allah hesab edənlərin meyarları batil idi. Hz. İsa (ə) peyğəmbər idi.

109-cu ayədə Həzrət Nuh haqqında oxuyuruq. Nuh peyğəmbər qövmünə buyurur:

إِذْ قَالَ لَهُمْ أَخُوهُمْ نُوحٌ أَلَا تَتَّقُونَ

O zaman ki, qardaşları Nuh onlara dedi: “Məgər (küfr etməyinizə görə) qorxmursunuz?[1]

إِنِّي لَكُمْ رَسُولٌ أَمِينٌ

Şübhəsiz ki, mən sizin üçün etibar olunası (bel bağlanılası) bir peyğəmbərəm! (Vədimə xilaf çıxmaz, əmanətə xəyanət etmərəm!)[2]

فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ

1 -Şüəra, 106
2 - Şüəra, 107

Artıq Allahdan qorxun və mənə itaət edin![1]

وَمَا أَسْأَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِنْ أَجْرِيَ إِلَّا عَلَى رَبِّ الْعَالَمِينَ

Mən bunun (dini, risaləti təbliğ etməyin) müqabilində sizdən heç bir muzd (əvəz) istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir![2]

Buyurur ki, özünüzü düzəltmirsiniz? Təqva paltarını geyinirsiniz, yoxsa istəyirsiniz elə paltarsız yaşayasınız? Bədən soyuqda paltarsız yaşadığı zaman ona soyuq da dəyər, onu günəş də yandırar. Bədənin təravəti gedər. Buyurur, bədəninizə paltar geyinmirsiniz? Təqvanı ruhunuza geyinin ki, zərbələr almayasınız. Necə ki, paltar insan bədənin isti-soyuqdan saxlayır, Təqva da insanı mənəvi zərərlərdən qoruyur. İnsanın mənəviyyatına zərbə vuracaq hər hansı təhlükədən qoruyur. İnsan özünü kontrol edə bilməsə getdikcə əsir olar. Nəyin əsiri olar? Nəfsinə. Təqva, yəni əmir olmaqdır. Təqva, yəni əsirlikdən qurtarmaqdır. Təqva azadlıqdır. Biz özümüzə diqqət etsək görərik ki, bəzən əsarət zəncirləri hərəkətlərimizi, davranışlarımızı da nəzarətsiz edib. Danışıqlarımız nəzarətsiz olduğu zaman, bəzən sonradan peşman oluruq. Sonradan peşman oluruq ki, niyə belə danışdım. Buyurur, təqvalı olmusunuzmu? İnsanın kamalında, inkişafında meyar təqvadır.

إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ

“Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir).”[3]

Nə qədər nəfsinizə nəzarətiniz çox olarsa, bir o qədər də hörmətli olarsınız, kərim olarsınız, alicənab olarsınız. Buyurur, mən bu sözü dedim, çünki elçi idim, sizə bunları çatdırmalıydım. Əmanətdar insanam. Əmanəti sizə çatdırmalıydım. Mən əmanətdar rəsulam, yəni elçiyəm.

1 - Şüəra, 108
2 - Şüəra, 109
3 - Hücurat, 13

Elçilər iki cür ola bilər. Bəzi elçilər əmanətdar deyil. Sözünün hamısını demir. Ya kəsib naqis deyir, ya da ki artırır. Mənfəətinə uyğun olanı çatdırır, olmayanı yox. Hz.Nuh (ə) isə buyurur, Xeyr! Mən o cür deyiləm. Əmanətdar olan elçiyəm. Allah mənə nəyi tapşırııbsa onu da sizə çatdırıram. Nəyi söyləyiblərsə onuda çatdırıram. Ona görə də yenidən deyirəm, təqvalı olun və mənə itaət edin. Bunu da bilin ki, mən sizə təqvalı olmağınızı dedikdə, buradan bir mənfəət güdmürəm. Yəni bunun müqabilində sizdən hər hansı bir şey istəmirəm. Sizin təqvalı olmanız mənim mənfəətimə xidmət etməyi hədəfləmir. Bu işin əvvəli mənəm, axırı isə özünüzsünüz. Necə ki, ata-ana öz övladını tərbiyə edir, onlara məsləhətlər verir. Məqsədləri öz mənfəətləri deyil, oradan bir xeyir güdmür, sadəcə olaraq övladlarının xeyrini düşünür. Amma bəziləri məsləhət verdikləri zaman əsl hədəf özlərinin faydalanmasıdır. Zahirdə sizi düşünür sanki, amma məqsəd öz mənfəətləridir.

Quranda bir neçə peyğəmbər haqqında bu ayələr var. Təqva, itaət, rəsulun etibarlı olması, muzd istəmək. Başqa bir nümunəni də qeyd edək: Hz. Hud (ə) peyğəmbər Ad qövmünə göndərilmişdi. Eynilə həmin kəlamlar Hz. Hudun (ə) dili ilə də bəyan edilib.

إِذْ قَالَ لَهُمْ أَخُوهُمْ هُودٌ أَلَا تَتَّقُونَ

O zaman ki, qardaşları Hud onlara dedi: “Məgər (küfr etməyinizə görə) qorxmursunuz?[1]

إِنِّي لَكُمْ رَسُولٌ أَمِينٌ

Şübhəsiz ki, mən sizin üçün etibar olunası (bel bağlanılası) bir peyğəmbərəm! (Vədimə xilaf çıxmaz, əmanətə xəyanət etmərəm!)[2]

فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ

Artıq Allahdan qorxun və mənə itaət edin![3]

---

1 - Şüəra, 125
2 - Şüəra, 126
3 - Şüəra, 127

وَمَا أَسْأَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِنْ أَجْرِيَ إِلَّا عَلَى رَبِّ الْعَالَمِينَ

Mən bunun (dini, risaləti təbliğ etməyin) müqabilində sizdən heç bir muzd (əvəz) istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir![1]

Peyğəmbərlər (ə) insanlara hansısa mənfəət güddükləri üçün nəsihət etmirlər. Onlar "Səməd"-"Ehtiyacsız" Allah ilə əlaqədə idilər. Nəsihət verən, doğru yol göstərən Allahdır. Peyğəmbərlər bu işdə vasitədirlər. Əslində Allah istəsə mən özüm-özümü məhv edə bilərəm. Yanlış hərəkətimlə, sözümlə və s. Mənim öz vasitələrim də özümün əleyhinə çıxa bilər. Qiyamətdə insanın bədən üzvləri onun əleyhinə şahidlik edəcək. İnsan hər nə qədər də ona etiraz etsə fydası olmayacaq. Çünki onun olan hər şey əslində Allahındır. Onun bədən üzvləri Allahın əmri ilə ona qarşı çıxacaq. Bir sözlə Allah ehtiyacsızdır, insanın doğru yolu seçməsi və təqvalı olması ualnız insanın faydasınadır, onun inkişafını təmin edir.

Allah yolunda addımlamağın meyarı başqasından mükafat, muzd gözləməməkdir. Bu meyardır, bu ölçüdür. Ona görə də, başqasının mənim sözümə baxıb-baxmamağı mənim ruhiyyəmdə təsir qoymamalıdır. Bu mənaya ki, o mənim sözümə nə üçün əməl etmədi? Amma narahatlığım bunun üçün ola bilər ki, o nə üçün haqqı qəbul etməkdən boyun qaçırdı, nə üçün öz inkişafının qarşısını aldı? Bunlar incə sözlərdir. Bunların fərqi çoxdur. Birində qürur var, o birində isə Allaha bəndəlik. Birində nəfslə mübarizə var. Amma o birində təkəbbür var, eqoistlik var.

## Hz. Peyğəmbərin ən yaxınları, Əhli-beyt (ə)

Hz. Peyğəmbər (s) ayəyəy əsasən buyurur ki, mən sizdən bir muzd istəmirəm. Lakin əslində ardınca bir mükafat istəyir. "Qohumlarıma (ən yaxınlarıma) məhəbbətdən (əhli-beytə sevgidən) başqa."

Təfsir alimləri bu mükafatın nə olması haqda 45 nəzəriyyə qeyd ediblər. Qohumlarıma məhəbbət nə deməkdir? Nə qədər

---

1 - Şüəra, 128

əhəmiyyətli bir məsələdir ki, risalətin, peyğəmbərliyin müqabilində tələb edilir. İlk olaraq bir müqəddimə xarakterli məlumat verək: Quran ayələrinin hamısının bir-biri ilə əlaqəsi vardır. Əgər kimsə Quranın bir ayəsinə istinad edərək, o bii ayəsini görməzdən gəlsə, o, Quran əsaslı danışmır. Çünki, Quranın ayələri bir-birlərini məna edir. Bəziləri bəzilərini təfsir edir. Əvvəldə qeyd etdiyimiz kimi, Quran bir bütündür. Onun ayələrindən tək-tək deyil, bütünlüklə Quranı analiz edərək nəticə almalıyıq. İmam Əli (ə) Nəhcül-Bəlağədə buyurur, ayələrin bəzisi bəzisinin üzərində danışır. Lakin bunun əksinə olaraq bəzi şəxslər, bir sıra ayələri əsas götürür, başqa ayələrə isə göz yumurlar. Bu zaman onlar Qurana əsaslanmış sayılmırlar. Onlar özlərinin nəfsi istəkləri ilə Qurandan faydalanırlar. İstədikləri nəticəni hansısa bir ayəyə əsaslanıb ortaya çıxarırlar. Bəzən bir ayəyə istinad edərək, "Allahdan başqasını çağırmaq olmaz" -deyə təvəssülü şirf sayırlar. Halbuki, Quran başqa ayələrdə buyurur ki, Allahı çağırdığınız zaman vasitə ilə müraciət etsəniz daha tez qəbul olunar istəkləriniz. Burada təzad yoxdur, çünki Uca Yaradanın təyin etdiyi vasitə elə Allahın əmridir. Sadəcə olaraq, ayələri tək-tək deyil birgə, bütün olaraq mənalandırıb, nəticə almaq lazımdır.

Quranda mütəşabəh ayələr ayələr də var. Kimsə mütəşabih ayəni öz xeyrinə məna edə bilər. Öz nəfsinə görə məna etmək istəyər. Lakin mütəşabih ayələr möhkəm ayələrlə mənalandırılmalıdır. Bu geniş bir bəhsdir. Bu haqda keçən bölümlərdə müxtəsər də olsa izah vermişik. Bir sıra nəzəriyyələrə işarə edək:

***1) "Qürba"dan məqsəd Allaha yaxınlıqdır.***

Bu ayəni anlamaq üçün də Qurani-Kərimin başqa ayələrini də nəzərdə almalıyıq. Bir nəzər "Qurba"-"الْقُرْبَى "-"Yaxınlar" haqqında budur ki, burada məqsəd Allaha yaxın olmaqdır. Qurba, qohuməqraba mənasında deyil. Sanki Hz.Peyğəmbər (s) belə buyurur, "Allaha yaxınlığı sevəsiniz, sizdən muzd istəmirəm." "Məvəddət", yəni "sevmək", "qurba", yəni "yaxın olmaq". Allaha yaxın olmağı sevməniz mənim mükafatımdır.

Maraqlıdır, bəzi şəxslər bir sıra ayələrə çatanda niyə onlara ayənin həqiqəti ağır gəlir? Quranda "qurba" heç vaxt yaxın mənasında işlənməyib. "Qurba" həmişə şəxslər, qohumlar mənasında işlənib. Quranda 15 yerdə "qurba" sözü var, bunlar hamısı qohum-əqraba mənasındadır. Amma nədənsə bəzi təfsirçilər sırf bu ayəni məna etdikləri zaman, "qurba" kəlməsini yaxınlıq deyə mənalandırıblar.

Burada bir bu sual meydana gəlir ki, Allaha yaxın olmağı sevmək lazımdır yoxsa Allaha yaxın olmaq lazımdır? Çox insanlar var ki, yaxşı insanları sevərlər, yaxşı insan olmazlar. Sevmək bir şeydir, olmaq isə başqa bir şeydir. Məgər büdpərəstlər Allaha yaxın olmağı sevmirdilər? Bütə pərəstiş edirdilər ki, Allaha yaxın olsunlar. Quranda bu barədə ayə də var. Vəsilə kimi bütlərə pərəstiş edirdilər. Bizi o büdpərəstlik Allaha yaxınlaşdırar.

أَلَا لِلَّهِ الدِّينُ الْخَالِصُ وَالَّذِينَ اتَّخَذُوا مِنْ دُونِهِ أَوْلِيَاءَ مَا نَعْبُدُهُمْ إِلَّا لِيُقَرِّبُونَا إِلَى اللَّهِ زُلْفَى

Bil ki, xalis din (sırf ibadət, təmiz itaət) ancaq Allaha məxsusdur. Allahı qoyub (bütləri) özlərinə dost tutanlar: "Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik!" (deyirlər).[1]

Allaha yaxın olmağı sevmək hünər deyil ki, mükafatı risalət olsun, peyğəmbər onu təsdiq etsin.

***2) İkinci nəzəriyyə budur ki, məqsəd sileyi-rəhmdir.***

Ayədən məqsəd budur ki, qohumlarınızla əlaqənizi kəsməyin. Məqsəd Hz.Peyğəmbərin (s) əqrabasına məhəbbət deyildir. Ayəyə əsasən, insanın öz qohum-əqrəbası ilə əlaqəni kəsməməsi Allahın elçisinin (s) risalət və peyğəmbərliyinin mükafatı sayılır. Elə bil peyğəmbər buyurur ki, mən sizdən muzd istəmirəm, yalnız öz əqrabanıza məhəbbət bəsləməyinizi istəyirəm. Biz başa düşmürük ki, Hz.Peyğəmbərin (s) bu əzəmətdəki peyğəmbərliyinin mükafatını, muzdunu vermək istəsək, nə üçün əqrabamıza məhəbbət etməliyik? Bununla nə əlaqəsi var? Elə bil bir şəxs mənə yaxşılıq edib, amma mən öz oğluma hədiyyə alıram.

---

1 -Zumər,3

İkinci məsələ də, Qurani-Kərimdə ümumiyyətlə əqrabaya məhəbbət yoxdur. Sileyi-rəhm var. Qohum qəbiləni yoxlamaq, əlaqəni kəsməmək onları sevmək mənasına deyildir. İnsan yalnız Allahı sevməlidir. Hətta insan atasına da sevgisi Allah yolunda deyilsə, sevməsinin dəyəri yoxdur. Atasına hörmət etməli, atası ilə əlaqəni kəsməməməlidir. Amma sevgisi Allah yolunda olmalıdır. Çünki sevgi mənəvi bağlılıqdır. Sileyi-ərham (qhumlarla əlaqəni kəsməmək, onları yoluxmaq) başqa şeydir, Allah yolunda sevmək isə başqa şeydir. Quran məntiqində qohum-əqrəbaya məhəbbət yoxdur. Sevgi Allah üçünsür. Allah yolundadır. İnsanın qəlbində gərək Allahdan başqası olmasın. Əgər olsa belə Allah yolunda olsun. Sevirsə Allah yolunda sevməlidir.

القلبُ حَرَمُ اللّهِ ، فلا تُسْكِنْ حَرَمَ اللّهِ غَيرَ اللّه

“Qəlb Allahın evidir. Orada Allahdan qeyrisini məskunlaşdırma.”[1]

Ona görə əgər biz imamı seviriksə, bu Allah yolundadır. Çünki, imam Allah yolunda imamdır. Yəni imam Allah sevgisindən doğulub. Allah onu sevdiyi üçün biz də onu sevirik. Sevməyə də əmr edilmişik. Bu Quran məntiqidir. Ona görə risalətin mükafatı hə kəsin öz qohum-əqrabasını sevməsi ola bilməz. Quranda belə bir məntiq yoxdur. Çünki Mücadilə surəsində axırıncı ayədə buyurur:

لَا تَجِدُ قَوْمًا يُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ يُوَادُّونَ مَنْ حَادَّ اللَّهَ وَرَسُولَهُ وَلَوْ كَانُوا آبَاءَهُمْ أَوْ أَبْنَاءَهُمْ أَوْ إِخْوَانَهُمْ أَوْ عَشِيرَتَهُمْ أُولَئِكَ كَتَبَ فِي قُلُوبِهِمُ الْإِيمَانَ وَأَيَّدَهُمْ بِرُوحٍ مِنْهُ وَيُدْخِلُهُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا رَضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ أُولَئِكَ حِزْبُ اللَّهِ أَلَا إِنَّ حِزْبَ اللَّهِ هُمُ الْمُفْلِحُونَ

(Ya Peyğəmbər!) Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlarla - öz ataları, oğulları, qardaşları, yaxın qohumları olsalar belə - dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və Öz dərgahından onlara ruh (güc) vermişdir (iman, hidayət nuru əta etmişdir). (Allah) onları (ağacları) altından çaylar axan cənnətlərə daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar.

---

1 -Cameul-əxbar, hədis. 1668

Allah onlardan, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər (Allahın dininə kömək edən kimsələrdir). Bilin ki, Allahın firqəsi məhz onlar nicat tapıb (əbədi) səadətə qovuşanlardır.[1]

Mömin insanın sevgisi Allahın düşməninə qarşı olmaz. Hətta onlar atası da olsa, övladı da olsa, qardaşı da olsa, əqrabası da olsa onların məhəbbətini qəlbinə salmaz. Bu insanın atasına hörmət etməklə ziddiyyət daşımır. İnsan qohum əqrabası ilə əlaqəsini kəsməməlidir. Əlaqəni kəsmək günahdır. Lakin məhəbbət bəsləmək və sevmək buna aid deyil. Qəlbin ipi Allahın əlindədir. Onu Allahın əlinə verməliyik. Heç kimin əlinə vermək olmaz. İman belə insanların qəlblərində yazılıb. Buna təvəlla və təbərra deyirlər. Təvəlla və təbərra, yəni qəlb yalnız Allahındır. Allaha görə sevir, Allaha görə nifrət edir. Başqa məhəbbətlər də Allahın məhəbbətindən doğulmalıdır. Əgər Allahın məhəbbətindən doğula bilmirsə o əxlaqi şirkdir. O şeytani istəkdir, həvəsdir. Şeytani istək də olmasa, təbii hisdir. İlahi hiss deyil, maddidir. Bu İlahi yol deyil. Əgər mən övladımı sevirəmsə Allah məhəbbətindən qidalanmalıdır. Allah buyurur, övladını sev. Mən övladımı böyüdürəm bu başqa şeydir. Çünki, bu mənim atalıq vəzifəmdir. Övladımı sevirəm isə başqa bir şeydir. Bunlar ayrı-ayrı ifadələrdir.

***3) Qohum-əqraba əlaqəsini qorumaq.***

Üçüncü nəzəriyyə budur ki, Hz. Peyğəmbər (s) buyurur ki, mənimlə olan qohum-əqraba əlaqənizi qoruyun. Mən sizdən ayrı şey istəmirəm, yalnız əqrabalığa görə mənə məhəbbət göstərməyinizi istəyirəm. Məni sevin, mən sizin ailənizəm, qohumunuzam. Əcrim budur ki, məni özünüzə ailə bilin. Hz. Peyğəmbər (s) bu sözü Qureyşə, ərəblərə buyurur. Bilirsiniz ki, peyğəmbər Qureyşlə qohum idi, Mədinə ilə də qohum idi. Ana tərəfindən Mədinləlilərlə qohum idi. Yoldaşı tərəfindən də Mədinəlilərlə qohum idi. Ata tərəfindən isə Qureyşlə qohum idi. Hz.Peyğəmbər (s) bunu buyurmaq istəyir ki, bilirsiniz də mən

1 - Mücadilə, 22

sizdənəm, sizin ailənizdənəm. Ona görə mənim risalətimin sizə əcri budur ki, mənə məhəbbət edin. Bəzi təfsir alimlərinin fikrincə, bu yad təfsirdir. Çünki, əgər bir şəxs Hz. Peyğəmbərin (s) risalətinə, peyğəmbərliyinə inanıbs,a daha o ailə məhəbbəti dərəcəsindən keçmişdir. Daha ali sevgi bəsləməlidir.

Həmçinin, Hz.Peyğəmbərin (s) risalətini qəbul etsəm, mənimlə onun əlaqəsi iman əlaqəsi olar. Bundan əlavə olaraq, risalət məsələsi o qədər əzəmətlidir ki, orada daha ailə dərəcəsi yoxdur. İman dərəcəsi və Peyğəmbərlə iman bağlılığı var.

Bu məntiq Quranla da düz deyil. Hz.Peyğəmbər (s) bəşəriyyət üçün ilahi elçi kimi göndərilib. Qüreyşlilər, yaxud mədinəlilər üçün deyil.

***4) "Qürba"dan məqsəd Əhli-Beytdir.***

Doğru nəzəriyyə budur ki, "Qurba" kəlməsində məqsəd Hz. Peyğəmbərin (s) ən yaxınları olan əqrabasıdır, yəni Əhli-Beytidir. Hz.Peyğəmbər (s) buyurur, mənim risalətimin əcri itrətimi sevməkdir. İtrətimə məhəbbət bəsləməkdir. Bu ilahi məhəbbətdir. Allah məhəbbətindən qidalanmışdır. Bu məhəbbət, Allaha sevginin bir budağıdır. Bu sevgi risalətə uyğun sevgidir. Onun davamını sevməkdir. Onu hədəfinə çatdıranları sevməkdir. Bu risalətdən ayrı məhəbbət deyil. Əhli-Beyti (ə) sevmək elə peyğəmbərliyi sevməkdir, islamı sevməkdir.

Hakim Həskani "Şəvahidut-tənzil" kitabında İbn Abbasdan belə nəql edir: "Qurba" ayəsi nazil olduğu zaman Allahın elçisindən soruşdular: "Ey Allahın Rəsulu! Allah tərəfindən sevilməsi vacib edilən kəslər kimdir?" Peyğəmbər (s) buyurdu: "Əli, Fatimə və onların iki oğlu!"[1]

---

1 - Şəvahidut-tənzil, c. 2, səh. 130

## Dərsin xülasəsi

Hz.Peyğəmbər (s) ayəyə əsasən buyurur ki, mən sizdən bir muzd istəmirəm. Lakin əslində ardınca bir mükafat istəyir. "Qohumlarıma (ən yaxınlarıma) məhəbbətdən (əhli-beytə sevgidən) başqa."

"Qurba"-dan məqsəd kimdir? Bir sıra nəzəriyyələrə işarə edək:

***1) "Qürba"dan məqsəd Allaha yaxınlıqdır.***

Quranda "qurba" heç vaxt yaxın mənasında işlənməyib. "Qurba" həmişə şəxslər, qohumlar mənasında işlənib. Amma nədənsə bəzi təfsirçilər sırf bu ayəni məna etdikləri zaman, "qurba" kəlməsini yaxınlıq deyə mənalandırıblar.

***2) İkinci nəzəriyyə budur ki, məqsəd sileyi-rəhmdir.***

Ayədən məqsəd budur ki, qohumlarınızla əlaqənizi kəsməyin. Məqsəd Hz.Peyğəmbərin (s) əqrabasına məhəbbət deyildir. Ayəyə əsasən, insanın öz qohum-əqrəbası ilə əlaqəni kəsməməsi Allahın elçisinin (s) risalət və peyğəmbərliyinin mükafatı sayılır.

Biz başa düşmürük ki, Hz.Peyğəmbərin (s) bu əzəmətdəki peyğəmbərliyinin mükafatını, muzdunu vermək istəsək, nə üçün əqrabamıza məhəbbət etməliyik? Bununla nə əlaqəsi var?

İkinci məsələ də, Qurani-Kərimdə ümumiyyətlə əqrabaya məhəbbət yoxdur. Sileyi-rəhm var. Qohum qəbiləni yoxlamaq, əlaqəni kəsməmək onları sevmək mənasına deyildir. İnsan yalnız Allahı sevməlidir. Hətta insan atasına da sevgisi Allah yolunda deyilsə, sevməsinin dəyəri yoxdur.

***3) Qohum-əqraba əlaqəsini qorumaq.***

Üçüncü nəzəriyyə budur ki, Hz. Peyğəmbər (s) buyurur ki, mənimlə olan qohum-əqraba əlaqənizi qoruyun.

Hz.Peyğəmbərin (s) risalətini qəbul etsəm, mənimlə onun əlaqəsi iman əlaqəsi olar. Bundan əlavə olaraq, risalət məsələsi o qədər əzəmətlidir ki, orada daha ailə dərəcəsi yoxdur. İman dərəcəsi və Peyğəmbərlə iman bağlılığı var.

Bu məntiq Quranla da düz deyil. Hz.Peyğəmbər (s) bəşəriyyət üçün ilahi elçi kimi göndərilib. Qüreyşlilər, yaxud mədinəlilər üçün deyil.

***4) "Qürba"dan məqsəd Əhli-Beytdir.***

Doğru nəzəriyyə budur ki, "Qurba" kəlməsində məqsəd Hz. Peyğəmbərin (s) ən yaxınları olan əqrabasıdır, yəni Əhli-Beytidir. Hz.Peyğəmbər (s) buyurur, mənim risalətimin əcri itrətimi sevməkdir. İtrətimə məhəbbət bəsləməkdir. Bu ilahi məhəbbətdir. Allah məhəbbətindən qidalanmışdır. Bu məhəbbət, Allaha sevginin bir budağıdır.

# Mündəricat

**Birinci dərs**

Qurani-Kərimdə imamət ........................................................ 4

**İkinci dərs**

Hz. İbrahimin imam təyin olunmasının mənası ...................... 22

**Üçüncü dərs**

İmamlıq məqamını şərtləri ................................................... 41

**Dördüncü dərs**

İmamın Allah tərəfindən seçilməsinə ayədəki sübutlar .......... 56

**Beşinci dərs**

İmanın dərəcələri.................................................................. 67

**Altıncı dərs**

İmamdan məqsəd ................................................................ 83

**Yeddinci dərs**

İmama itaət.......................................................................... 98

**Səkkizinci dərs**

İmamı düzgün tanımağın zəruriliyi...................................... 116

**Doqquzuncu dərs**

Təbliğ ayəsi haqda araşdırma............................................... 131

**Onuncu dərs**

Dinin təkmilləşməsi ............................................................ 147

**On birinci dərs**

Qədir xum hadisəsinin unudulmasının səbəbləri ................. 160

**On ikinci dərs**

Fələq surəsinin izahı ............................................................176

**On üçüncü dərs**

Münafiqlərin İslamla düşmənçiliyi.........................................193

**On dördüncü dərs**

İnsanı həqiqətdən uzaqlaşdıran səbəblər ................................208

**On beşinci dərs**

Təthir ayəsinin izahı ............................................................221

**On altıncı dərs**

Təthir ayəsindəki ikinci cahiliyyət dövrü ..............................238

**On yeddinci dərs**

Günahın uzaq olmasıyla, günahdan uzaq olmağın fərqi........255

**On səkkizinci dərs**

Əhli-Beyt (ə) paklanmış kamil insanlar.................................268

**On doqquzuncu dərs**

Quran və Əhli-Beyt (ə) .........................................................278

**İyirminci dərs**

Əhlibeytin ali məqamı ..........................................................290

**İyirmi birinci dərs**

Mübahilə ayəsinə əsasən Hz. Peyğəmbər (s) ilə Əhli-Beytin (ə) rabitəsi..................................................................................301

**İyirmi ikinci dərs**

Mübahilə hədisinin şərhi İmamların (ə) kəlamlarında (2).....315

**İyirmi üçüncü dərs**

Hz. Məhəmmədin (s) peyğəmbərliyinə iki ilahi şahid.......... 326

**İyirmi dördüncü dərs**

Əmanətdar elçilər................................................................ 346